AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# QARABAĞ:

# FOLKLOR DA BİR TARİXDİR

## II KİTAB

**(Bərdə və Ağcabədi rayonlarından toplanmış folklor örnəkləri)**

BAKI – 2012

396

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**“Qarabağ folklorunun toplanması, sistemləşdirilməsi və araşdırılması” adlı layihə əsasında çap olunur.**

**LAYİHƏNİN RƏHBƏRİ: fil.ü.e.d. Muxtar KAZIMOĞLU (İMANOV)**

**TOPLAYICILAR: fil.ü.f.d. Əfzələddin ƏSGƏR**
**fil.ü.f.d. İlkin RÜSTƏMZADƏ**
**fil.ü.f.d. Tahir ORUCOV**
**Zəfər FƏRHADOV**

**TƏRTİB EDƏN: fil.ü.f.d. İlkin RÜSTƏMZADƏ**

**REDAKTOR: fil.ü.f.d. Elçin ABBASOV**

**NƏŞRİNƏ MƏSUL: fil.ü.f.d. Əziz ƏLƏKBƏRLİ**

**Qarabağ: folklor da bir tarixdir, II kitab (Bərdə və Ağcabədi rayonlarından toplanmış folklor örnəkləri)**. Bakı, «Elm və təhsil», 2012.

İSBN – 9-789952-810868

A $\frac{4603000000}{N\text{-}098\text{-}2012}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2012



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## TƏRTİBÇİDƏN

Oxuculara təqdim olunan bu kitab “Qarabağ folklorunun toplanması, sistemləşdirilməsi və araşdırılması” adlı layihə əsasında hazırlanan ikinci topludur. Bu topluda əsas diqqət aran Qarabağın Ağcabədi və Bərdə rayonlarına yönəldilmişdir. Həmin rayonlardan toplanan folklor nümunələri bölgənin folklor sarıdan nə qədər zəngin olduğunu bir daha göstərir. Adı çəkilən rayonlardan Azərbaycanda indiyə qədər qeydə alınmamış 4 nağıl süjeti, pirlər, ocaqlar, dini şəxsiyyətlər haqqında onlarla yeni mətn toplanmışdır. Bu mətnlər hesabına nəinki yeni variantlar, eyni zamanda yeni-yeni personajlar (Soltan bəy, Molla Lətif, Ağamir dayı və s.) üzə çıxarılmış, bir çox personajlar haqqında təsəvvürlərimiz dolğunlaşmışdır. Bu günə qədər Bəhlul Danəndə lətifə qəhrəmanı kimi tanınırdısa, toplanmış yeni materiallar sayəsində onun həm də nağıl qəhrəmanı olduğu üzə çıxmışdır.

Topluya daxil edilmiş materiallar 2012-ci ilin iyun-avqust aylarında Folklor İnstitutunun Bərdə və Ağcabədi rayonlarına təşkil etdiyi folklor ezamiyyələri zamanı toplanmışdır. Ezamiyyə üçün bu rayonların seçilməsi heç də təsadüfi deyil. Hər iki rayon həm ərazi, həm də əhali baxımından Qarabağın ən böyük rayonları sırasına daxildir. Bundan əlavə, indiyə qədər bu rayonların şifahi irsinin, demək olar ki, toplanılmaması, məşhur kəbirli, afşar, şahsevən, qaradolaq tayfalarının burada (xüsusən Ağcabədidə) məskunlaşması həmin rayonların şifahi yaradıcılıq baxımından öyrənilməsini bir zərurətə çevirmişdir.

Bölgə ilə ilk tanışlığımız Bərdə rayonundan başladı. Rayon Mədəniyyət Şöbəsində təşkil olunmuş görüşlərdən sonra Seyid Yusif ağa ocağı haqqında məlumat toplamaq üçün ağanın adını daşıyan kəndə yola düşdük. Əvvəlcə Seyid Yusif ağanın evində olduq, bu ocaq haqqında, ağanın kəramətləri haqqında onun nəvəsindən bir neçə mətn qeydə aldıq. Deyə bilərik ki, kəndlə tanışlığımız olduqca uğurlu alındı və Musa Bayramov, Musa Qasımov kimi şifahi ənənəni gözəl bilən, zəngin repertuarı olan söyləyicilərlə qarşılaşdıq. Təkcə onu xatırlatmaq kifayət edər ki, Musa Bayramovdan 13 nağıl mətni



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yazıya aldıq ki, bunun da ikisi indiyə qədər qeydə alınmamış yeni süjetlərdir. Musa Bayramovdan fərqli olaraq, onun adaşı Musa Qasımov daha çox dini mövzulara maraq göstərirdi və ondan bu mövzuda xeyli sayda mətn yazıya aldıq. Bərdəyə səfərimiz çərçivəsində, həmçinin Boyəhmədli, Dəymədağıldı, Şirvanlı, Qacar, Qara Yusifli kəndlərində də olduq, bu kəndlərdəki söyləyicilərdən bir neçə nağıl və lətifə qeydə ala bildik.

Toplunun hazırlanması ilə əlaqədar Ağcabədi rayonuna iki dəfə səfər etdik. İlk səfərimiz iyun ayına təsadüf edir. Bu zaman rayonun Afşar, Hacıbədəlli, Şahsevən, Qaradolaq kəndlərində olduq. Bu səfərimiz folklor nümunələrinin toplanması ilə yanaşı, bu ərazi-lərdə məskunlaşmış kəbirli, afşar, şahsevən, qaradolaq tayfalarının tarixi, məişəti, adət-ənənələrinə dair çox maraqlı faktların qeydə alınması ilə yaddaqalan oldu. Qeydə alınmış nümunləri "Xatirələr" başlığı altında oxuculara təqdim edirik və inanırıq ki, bu nümunələr həmin tayfaların şifahi irsinin öyrənilməsində mühüm rol oynayacaqdır.

Ağcabədi rayonuna ilk səfərimiz həm də Narış İsa qızı Bayramova kimi müasir dövrdə çox az rast gəlinən söyləyici ilə tanış olmağımız baxımından əlamətdar oldu. Xəstə olduğu üçün Narış nənə ilə ilk görüşümüz çox uzun sürmədi. Söhbətimiz saat yarım çəksə də, ilk görüşdə biz ondan üç nağıl mətni, Həzrət Əli haqqında iki rəvayət qeydə ala bildik. Toplanan mətnlər məlum süjetlər olsa da, söyləyicinin nağılları özünəməxsus tərzdə dua və alqışlarla tamamlaması onun səriştəli söyləyici olduğunu və ondan daha çox nümunələr toplamağın mümkünlüyünü düşünməyə əsas verirdi. Ona görə də avqust ayında Ağcabədi rayonuna təşkil olunmuş ikinci səfər zamanı Narış nənə ilə görüşmək üçün ilk olaraq Afşar kəndinə yollandıq. Bu dəfə onunla söhbətimiz dörd saat çəkdi və "Tacir oğlu", "Tısbağa qız", "Narxatın", "Huri qızı", "Santır" kimi nağıl nümunələri, rəvayətlər, afşarlar, şahsevənlər, qaradolaqlarla bağlı maraqlı etnoqrafik materiallar topladıq. Bundan əlavə, Narış nənədən "Şah Abbasın arvadları qırdırması", "Üç bacı", "Sarı donlu qız" nağıllarını toplasaq da, ənənəvi variantlardan elə bir ciddi fərqi olmadığı üçün onları topluya daxil etmədik. İkinci səfər zamanı həmçinin, Ağcabədinin Salman-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bəyli, Hüsülü, Rəncbərlər, Təzəkənd, Hindarx, Sarıcalı, Taynaq, Hacılar, Boyat kəndlərində də olduq və ümumilikdə, otuz saata yaxın folklor materialı topladıq.

Bir çox kəndlərdə söyləyicilərin seçilməsində bələdiyyə və icra nümayəndəlikləri bizə yaxından kömək etmişlər. Onlar kəndin yaşlı adamlarını bir araya toplayır və bu adamlarla söhbət etməyimizə şərait yaradırdılar. Afşar, Şahsevən, Hacıbədəlli, Qaradolaq kəndlərində söyləyicilərlə görüşlərimiz bu şəkildə təşkil olunmuşdu. Yeri gəlmişkən xatırladaq ki, yaşlı adamların vaxtilə keçirilmiş folklor məclislərində iştirak etməsi, şifahi ənənəni cavanlara nisbətən daha yaxşı bilməsi onlardan (yaşlılardan) daha çox material toplaya biləcəyimizi düşünməyə əsas verir. Ona görə də ezamiyyə müddətində ünsiyyətdə olduğumuz söyləyicilərin böyük əksəriyyəti yaşlı nəslin nümayəndələridir.

Qısamüddətli olsa da, deyə bilərik ki, bu ezamiyyələr çox məhsuldar keçmişdir. Ezamiyyə müddətində Bərdə rayonunda 40, Ağcabədi rayonunda 60-a yaxın söyləyici ilə ünsiyyətdə olmuşuq. Onlardan 60-a qədər nağıl, 90-a yaxın rəvayət və əfsanə, 20-dən artıq mifoloji mətn, 100-dən artıq bayatı, 60-a yaxın lətifə, 62 atalar sözü qeydə almışıq.

Epik ənənənin zəifləməsi, şifahi ənənəni gözəl bilən söyləyicilərin böyük bir qisminin artıq dünyasını dəyişməsi və onların danışdığı folklor nümunələrinin çox cüzi hissəsinin hafizələrdə qalması folklor ezamiyyəsi zamanı bir daha qarşılaşdığımız təəssüf doğuran faktlar oldu. Elə bir kənd olmadı ki, orda bizə "10-15 il bundan əvvəl gəlsəydiniz, daha yaxşı söyləyicilər tapardınız" deməsinlər. Hara getdiksə, bizə bir qədər gec gəldiyimizi, Ağamir dayı, Seyid Yusif ağa kimi şifahi ənənəni gözəl bilən, sözə-söhbətə xüsusi maraq göstərən insanların əksəriyyətinin dünyasını dəyişdiyini bildirdilər. Ağamir dayı, Seyid Yusif ağa kimi insanlar bu gün yaşamasa da, onların çəkdiyi məsəllər, dediyi sözlər bu gün də camaat arasında tez-tez xatırlanır. Musa Qasımov bir çox mətnləri məhz Seyid Yusif ağadan eşitdiyini bildirirdi və mətnləri danışarkən tez-tez Seyid Yusif ağaya istinad edirdi. Aslan Babayevin dediyinə görə, "Yaxşılığa yamanlıq"



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nağılını Ağamir kişidən hansısa bir hadisə ilə əlaqədar misal çəkəndə eşidib.

Bölgədən qeydə aldığımız folklor nümunələri arasında diqqəti cəlb edən janrlardan biri də nağıllardır. Topluya daxil edilmiş nağılların bir qismi Seyid Yusifli kənd sakini Musa Bayramovdan qeydə alınmışdır. Onun repertuarında sehrli nağıllar və qaravəllilər üstünlük təşkil edirdi. Musa kişidən toplanmış 13 nağıldan ikisi – “Padşah oğlu”, “Qaraçuxasını yatıran şəxs” nağılları ilk dəfə qeydə alınmış süjetlərdir. Digər nağıllar isə məlum süjetlər əsasında qurulsa da, həm söyləyici təhkiyəsinə, həm də bəzi motivlərinə görə ənənəvi variantlardan fərqlənir. Məsələn, “Məlik Məhəmməd” nağılı məlum AT 301 nömrəli süjet əsasında qurulsa da, nağılın ekspozisiya hissəsi ənənəvi variantlardan tamamilə seçilir. Nağıl iki qonşunun Allahdan nəsə diləməsi ilə başlayır. Qonşulardan biri evdəki bütün əşyalarının qızıla dönməsini, o biri isə 40 oğlunun olmasını arzulayır. Allah onların arzusunu yerinə yetirir. İkinci qonşu evə gəldikdə hamilə arvadının 40 uşaq doğduğunu görür və bu qədər uşağa baxa bilməyəcəyi üçün evi tərk edir. Daha sonra nağıl AT 301 nömrəli süjetə məxsus gedişlərlə davam edir. Toplanmış nağıllar arasında “Quş dili bilən İsgəndər” nağılının isə indiyə qədər iki variantı məlum idi. Topluya daxil edilən variant bir tərəfdən həmin süjetin yayılma arealını müəyyənləşdirmək, digər tərəfdən nağılın məzmununu daha yaxşı başa düşmək baxımından böyük əhəmiyyət kəsb edir.

Bir çox söyləyicilər geniş repertuarlarının olmasına baxmayaraq, mətnləri uzun müddət ifa etmədiklərindən bəzən onun müəyyən hissəsini unudur, bu səbəbdən söylənilən mətnlərdə qırıqlıq, natamamlıq özünü göstərirdi. Deyilən fikirlər Ələmşah Zeynalov, Cabbar Mahmudov kimi söyləyicilərin repertuarı üçün xarakterikdir. Onlardan fərqli olaraq, Musa Bayramov, Narış Bayramova kimi söyləyicilər bildikləri nağılları bu gün də nəvələri üçün söyləyirlər. Musa kişidən materialları qeydə alarkən bir çox nağılları məhz nəvələri onun yadına salırdılar. Narış Bayramova isə “Tacir oğlu” nağılını axırıncı dəfə bir neçə gün əvvəl nəvəsinə danışdığını bildirdi. Nə-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

vələrə, yaxud başqa adamlara danışılaraq öz təravətini saxlayan mətnlər, təbii ki, mükəmməlliyi və dolğunluğu ilə seçilir.

Maraqlıdır ki, bizim görüşdüyümüz ən səriştəli söyləyicilər məhz güclü hafizəsi olan şəxslərdir. Onlar danışdıqları mətnlərin böyük əksəriyyətini uşaq ikən eşidib, sadəcə güclü hafizələri sayəsində yadda saxlaya bilmişlər. Narış nənə danışdığı nağılların böyük əksəriyyətini uşaq ikən Əsgərandan olan müəllimindən eşitmişdir. Onun dediyinə görə, müəllimi dərsi soruşduqdan sonra uşaqları başına yığıb nağıl danışarmış. Musa kişinin də güclü yaddaşı varmış və bir dəfə söylənilən mətni o dəqiqə mənimsəyə bilirmiş. O da hələ uşaq ikən şifahi ədəbiyyata böyük maraq göstərmişdir. Özünün dediyinə görə, o vaxtı ağsaqqallar iştirak edən məclislərə uşaqları yaxın buraxmasalar da, o, haradan olsa içəri girib onların söhbətinə qulaq asarmış.

Əlbəttə, söyləyici repertuarının formalaşmasında onun maraq dairəsi, hansı mətnlərə daha çox həvəs göstərməsi mühüm rol oynayır. Seyid Yusifli kəndində ünsiyyətdə olduğumuz söyləyicilərdən Musa Qasımov, əsasən, dini mətnlərə, onun adaşı Musa Bayramov isə klassik folklor nümunlərinə, ən çox da nağıllara, dastanlara, aşıq şeirlərinə maraq göstərirdi. Onlardan fərqli olaraq, Narış Bayramovada hansısa bir sahəyə daha çox maraq göstərmə müşahidə olunmurdu. Onun repertuarında sehrli, novellistik nağıllarla yanaşı, dini nağıllara, peyğəmbərlər və digər dini şəxsiyyətlərlə bağlı rəvayətlərə, lətifələrə, bir sözlə, istənilən folklor janrına dair nümunələrə rast gəlmək mümkündür. Bu söyləyicilər həm də mətnə münasibətə görə də bir-birindən fərqlənirdilər. Musa Bayramov ənənəvi nağıl formullarına o qədər də maraq göstərmirdi. O, yalnız bir neçə mətnin sonunda "göydən üç alma düşdü..." məşhur final formulundan istifadə etmişdir. Musa Bayramovun fikrincə, "bu cür şeylər" nağılı uzatmaq üçündür, ona görə də onlardan istifadə etməyə ehtiyac yoxdur. Amma Narış Bayramova nağıl formullarından geniş şəkildə istifadə edirdi. Nağılların dua və alqışlarla tamamlanmasına məhz onun söylədiyi mətnlərdə təsadüf olunur. Narış Bayramova bütün nağılları "göydən üç alma düşdü, biri mənim,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

biri nağıl deyənin, biri də Narışın" final formulu ilə tamamlayırdı. Ondan soruşanda ki, axı almaların hamısını özünüzə götürdünüz, zarafatla deyirdi: "O dünyada məndən almaları istəyəcəklər, onda mən sizi haradan tapacağam?"

İnsanların təhsilə cəlb olunması, onlara oxumaq və yazmaq bacarığının aşılanması yazılı mənbələrin şifahi ənənəyə təsirini artırmışdır. Bir çox söyləyicilər, xüsusən də təhsilli insanlar bizə kitablardan oxuduqları nümunələri danışırdılar. Bərdə rayonunun Dəymədağıldı kənd sakinləri Aslan Babayev, Zahid Babayev, Seyid Yusifli kənd sakini Musa Qasımovdan qeydə alınmış bir çox mətnlər kitabdan gəlirdi və söyləyicilər özləri də bunu kitabdan oxuduqlarını etiraf edirdilər. Narış Bayramovanın repertuarında da kitabdan gələn bir çox nağıl nümunələri vardı. Biz həmin mətnləri qeydə alsaq da, onları topluya daxil etmədik.

Ağcabədi və Bərdə rayonlarına səfərimiz zamanı folklor məclislərinin keçən əsrin sonlarına qədər davam etməsinə dair maraqlı faktlar əldə etdik. Söyləyicilərin dediyinə görə, keçən əsrin səksəninci illərinə qədər aşıqlar kəndlərə gələr, evlərdə məclislər təşkil olunarmış. Məsələn, Seyid Yusifli kəndinə Bərdəli Aşıq İsmayıl, Aşıq Zeynal gələrmiş. Həmin kəndin sakini Musa kişinin dediyinə görə, kəndin ağsaqqalları qabaqcadan öz aralarında razılaşar və kimin evi geniş imişsə, onun evində toplaşarmışlar. Belə məclislər bəzən səhərə qədər çəkərmiş. Musa Qasımovun dediyinə görə, axşamdan ağsaqqallar him eləyərmişlər ki, pəncərələri elə basdırın, havanın işıqlaşdığını aşıq bilməsin. Bir vədə qapını açarmışlar ki, artıq gün günorta olub. Belə məclislərdə dastanlardan əlavə qaravəllilər də söylənilirmiş. Qaravəllilər, əsasən, dastan arasında, aşıq çay fasiləsinə çıxdığı zaman danışılarmış. Topluya daxil edilmiş "Dızz", "Mən hələ qurtarmamışam" kimi lətifələr məhz həmin məclislərdə söylənilmiş, auditoriyanın eynini açmaq, onu bir az əyləndirmək üçün deyilmiş mətnlərdir.

Məhərrəmlik ayında keçirlən mərsiyə axşamları da bu günə qədər öz varlığını qoruyub saxlayan folklor məclislərindən biridir. Belə məclislərdə, əsasən, "nohə" deyilir, dini hədislər danışılır. Se-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yid Yusifli kəndində qeydə alınan dini mətnlərin bir qismi Seyid Yusif ağanın vaxtilə məhərrəmlik axşamlarında danışdığı mətnlərdir.

Folklorun müasir vəziyyəti bir çox janrlar üçün həyəcan təbili çalmağın zamanı gəldiyini göstərir. Son toplamalar da göstərir ki, sehrli nağılların ifası artıq zəifləmişdir və bu mətnlər sıradan çıxmaq üzrədir. Aydınlıq üçün bir faktı xatırlamaq istəyirik: bu layihə çərçivəsində hazırlanmış birinci və ikinci toplulara 100-dən artıq nağıl daxil edilmişdir ki, bunların da cəmi 20-sini sehrli nağıl süjetləri təşkil edir. İkinci topluya daxil edilmiş sehrli nağıllar yalnız iki şəxsdən – Musa Bayramov və Narış Bayramovadan qeydə alınmışdır. Digər söyləyicilərdən sehrli nağıl süjetlərini xəbər alsaq da, bir nümunə belə qeydə almaq mümkün olmamışdır.

Sonda söyləyicilərlə görüşlərin təşkilində bizə göstərdikləri köməyə görə Bərdə və Ağcabədi rayonlarının icra hakimiyyətlərinə, Bərdə Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri İlyas Hacıyevə, Ağcabədi Rayonunun İctimai-siyasi Partiyalarla İş Şöbəsinin müdiri Rəhilə Şükürovaya, Seyid Yusifli kəndinin Bələdiyyə sədri Əhməd Qocayevə, Bərdə rayonu Dəymədağıldı kənd sakini Mobil Babayevə, Afşar kənd Bələdiyyəsinin sədr müavini Nizami Cəfərova, Şahsevən kəndinin Bələdiyyə sədri Rəfail Əliyevə, eləcə də Ağcabədi rayon sakini Səfər Məmmədova dərin minnətdarlığımızı bildiririk. Həmçinin yerli sakinlərdən qeydə aldığı bir çox bayatı nümunələrinin topluda çapına razılıq verdiyi üçün Ağcabədi Rayonu Heydər Əliyev Mərkəzinin əməkdaşı Məhsəti Ağayevaya minnətdarlıq edirik.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# I
# MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## 1. İNSANIN YARANMASI

### I mətn

Azrayıldı, Mikayıldı, Cəbrayıldı, İsrafildi, bular dörd qardaşdı. Adəm peyğəmbər yarananda Allah-talanın hökmüynən hərəsi dünyanın bir küncünnən bir xışma torpax gətirir. Deyir ki, get dünyanın dörd küncünnən torpax gətir, buna can verim. Odur ki, deyillər Adəm torpaxdan yaranıf. Olar dördü də məlakədi. Deyillər:

– Yarəbbi, icazə ver biz gedəh gətirəh.

Dedi:

– Axı gətirəmməzsiniz.

Dedi:

– Gətirməsəh, bizə nə qəsd eliyirisən elə.

Oların dördü də gedillər. Dünyanın dörd küncünnən hərəsi bir ovuc torpax gətirir. Qatır o palçığa, Allah-talanın əmriynən buna can gəlir. Dedi:

– Yarəbbi, buları gətirdih, bizə hörmətin nə olajax?

Dedi:

– Sizə hörmətim odu ki, bütün bu dünyanı sizə tapşırıram.

Dedilər:

– Xudavəndi-kərim, bütün bu dünyanı bizə tapşırdın. Ayrılıxda bizim sənətimiz nə olajax?

Dedi:

– Sən olajaxsan Azrayıl. Bu Adəmin bütün törəmələrinin canının ixdiyarını verəjəm sana. Sən alajaxsan oların canını.

Biri barıdan yıxılıf öləjəh, birini canavar dağıdajax, birini maşın vurajax. Deyəjəhlər maşın vurdu öldü. Onu o öldürür ey. Onun ixdiyarını ona verir. Cəbrayıla da deyir bu məxluqun ruhunu sənə verirəm. Həzrət Cəbrayıl Allahdan vəh gətirirmiş. İsrafilnən Mikayıla da torpağın ixdiyarını verif. Biri toxmağnan dağıdırmış, biri də



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sovururmuş. Olar bəşər döyüllər. İsrafil Mikayılnan dünyanı idarə eliyirimiş, Cəbrayıl vəh gətirir, Azrayıl da can alır.

**II mətn**

Allah-tala insanı yaradanda deyif ki, nətər eliyim bu, qəribçilih çəkməsin. Dünyanın dörd küncünnən torpax gətirtdi. Həzrəti Cəbrayıl, Həzrəti Azrayıl, Həzrəti Mikayıl və Həzrəti İsrafilə dünyanın dörd küncünnən torpax gətirtdi ki, bu adam harda ölsə qərib olmasın.

## 2. DÜNYA DAŞQINI

Mərdimazar adamlar olur da həmmişə, görürsən cəmiyyətin içində birin firitdiyif güdaza verir. Bular firitdədi cavan-cavan uşaxları:

– Ə, Nuhun başı xarab oluf, götürün onu daşdıyın, salın evinə.

Götdü hərə bir daş, Nuhu qava-qava apardılar saldılar darvazasınnan içəri, qayıtdılar. Bir gün belə, beş gün belə, Nuh çölə çıxası olmadı. Okqədərənə buna əzab verdilər ki, axırda dözmədi. Bir dəfə də başın belə çıxarırdı darvazadan, görüm uşax-muşax yoxdu ki. Elə belə çıxartmax isdiyəndə daşın biri düz burasınnan tutdu, başı yarıldı. Əlin belə tutdu, gördü qan gözünün üsdünü örtür. Belə sildi, başını qaldırdı dedi:

– Başına dönüm, mənə bunnan ötrü peyğəmbərrih verirdin? Görürsən ki, bular yola gəlmir da, mən neyniyim?

Dedi:

– Get bir gəmi qayır. Az vaxda olara nə olajağın göstərəjəm.

Bu başdadı ağaşdan gətdi. Öz inandığı adamlar vardı, hansı ki, bunun dediklərin qəbul eliyirdi, buları çağırdı yığdı. Meşədən ağaş gətirdi, başdadı gəmini hazırramağa. Genə həmənki mərdimazarrar gəldilər gəminin içini mundarradılar. Bir səhər ertə gələndə gördü gəmi çox pis vəziyyətdədi. Yenə başın qaldırdı hak dərgahına:

– Mənim Allahım, hər şey saa agahdı.

Dedi:

– Narahat olma, sən işində ol.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu, işin görürdü. Səhər ertə hay düşdü ki, şəhərdə cüzam xəstəliyi törənib. İnsanın bədənində geyişmə, pis bir vəziyyət yaranıb, çox pis xəstəlihdi. Bunun biri o qədərənə geyişdi ki, getdi başdadı bu gəmiyə belə-belə sürtünməyə. Birdən ayağı sürüşdü, tapbıltıynan mundarradıxları şeyin içinə düşdü. Düşdü, çabaladı, çıxdı. Elə çölə çıxanda gördü ə, bir dənə yarası, bir dənə xorası qalmıyıf. Hay düşdü, bütün şəhər elədikləri nəcisi dərman kimi istifadə etdi. Elə sildilər, süpürdülər, elə təmizdədilər ki.

Nuh dedi:

– Başa düşdünüz, düşmədiniz?

Genə başa düşmüyənnər oldu.

Bir qoja qarı da çörəh bişirirdi. Nuh elan verdi ki, bütün cannılardan hərəsinnən bir cüt gəmiyə minsin. Kim mana inanırsa, gəlsin gəmiyə, yoxsa dünyanın üzün su alajax, məhv olajax. Rəvayətə görə, qarı da çörəh bişirirdi. Onun elçisinə dedi ki, başına dönüm, peyğəmbərə denən məni də gözdəsin, çörəyi qurtaran kimi gəlirəm.

Su gəldi, gəmi qalxdı, qarı qaldımı? Rəvayətə görə oğluynan ayləsi də boğuldu öldü. Orda Nuh peyğəmbər əlin qaldırdı hak dərgahına ki, ilahi, axı bu mənim özümkü idi. Dedi:

– Yox, sənnən törəsə də, sənnən döylü. Ona görə də onun hakkında xayiş eləmə, olar qərq olmalıdı.

Ona görə oğluynan arvadı boğuldu məhv oldu. Deyilənə görə, neçə min illər keşdi, Nuhun gəmisi gəldi Ağrı dağında dayandı. Hardan ki, başdamışdı, elə həmən yerdə. O dəkqə də peyğəmbər gördü kü, qarı əl-ətəyin yığışdırıf ayannan bəri gəlir. Özü də məhətdəl qaldı.

– Ya peyğəmbər, getmirih?

Dedi:

– Gedif gəlmişih.

Dedi:

– Nətəri gedif gəlmişih?

Dedi:

– Sənin xəbərin olmadı?

Dedi:

– Vallah, mən çörəh bişirirdim, heş nədən xəbərim olmadı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Heş nə hiss eləmədin?

Dedi:

– Təzəh yığırdım, gedirdim təzəyi qaldıranda görürdüm altı yaşdı. Deyirdim quru yerdə nətər olur təzəyin altı yaş olur.

Dedi:

– Fikir ver, oları ağlına vur, o qüdrət sahibinin nəyə qadir olduğunu başa düş. Allah-tala səni min il o sajın böyründə eyni vəziyyətdə saxlıyıf və o çağlıyan sular, sellər, tufanlar sənin heş həndəvərinə yaxın gəlmiyif.

## 3. BUĞDANIN ƏRŞƏ ÇƏKİLMƏSİ

Buğdanın dənəsinin iriliyi fındıx boyda idi, Allah-tala vermişdi. Əkəndə buğda elə bir məhsul verirdi ki... İndi hektara otuz sentiner alanda sevinirik. Amma o vaxdı hektara bəlkə yüz sentiner məhsul verirdi. Qarğıdalı dənəsinnən də iri idi. O qədər bollaşmışdı ki, insannar çörəyin hörmətini gözdəmirdilər.

Bir qadın da saja yuxa yayırdı. Uşax da böyründə iməkliyirdi. Uşax çölə gedəndə yuxanın birin götürdü, uşağı sildi. Onda göy insannara yaxın idi, neçə mərtəbə qalxdı yuxarı. Urzanın bərəkəti çəkildi.

## 4. AYNAN GÜNƏŞ

Aynan Günəş sevgilidi. Əgər olar bir-birini tapsa, dünyanın altı üsdünə çevriləjəh.

Anası Ayı buyuruf filan işi filan elə. O da anasının sözünə baxmıyıf. Anası da sajı küllüyürmüş. Duruf elə əli küllü-küllü vuruf ona, onnan üzü ləkəli qalıf.

## 5. MƏKKƏ YOLU

İndi bala, avtobusnan gedillər ora, ziyarata. Nənəmin mamasının yoldaşı vardı. Deyirdi bala, göy üzündəki ağappax zolax yolu görürsən? Zəvvarlar gəlirdi, bizi yığıf aparırdılar, üç ay yol gedir-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dih bax oraynan. O yolu tutuf gedərdih Məkkəyə. Ona görə ona Məkkə yolu deyillər.

## 6. SAĞMAL VƏ SUBAY ULDUZLARI

Sağmal ulduzu olur, bir də subay ulduzu. Çobannar heyvanı həmin ulduznan otarardı. Sağmal ulduz doğanda sağmal heyvanı çölə çıxarır, ta o ulduz batana qədər o heyvanı otarırdı. İzdiyirdilər, həmin ulduz batannan sora heyvanı gətirif arxaca salarmışdar.

Subay heyvanı da subay ulduz çıxanda çölə çıxardar, bir də batanda gətirərmişdər.

Sağmal ulduzu qırmızı şafaxlıdı, subay ulduzu isə balaca ulduzdu. Subay ulduzu daha tez batır. Subay ulduzu özü də göydə batırmış. Da gözün axtarmır ki, dağın dalına gedif orda batsın.

Axşam gün batanda qoyuna xam verilir. O qoyun xamı yeyənəcən sağmal ulduz gedif batırmış. Onnan sora qoyun gedirmiş qapıya.

## 7. QUYRUQ DONAN AY

Avqustun beşində – yay yarı olanda deyillər quyrux donan aydı. Onda hava soyuyur. Elat yavaş-yavaş hazırlaşarmış, sentyabr ayında arana gələrmişdər.

## 8. QARAÇUXA

### I mətn

Bir kişi gəlir peyğəmbərdən soruşur ki, ya peyğəmbər, o qaraçuxa deyillər e, olar hardadı? Deyir ki, sana nə lazımdı? Deyir:

– Mən gedif öz qaraçuxamı tapmax isdiyirəm, görüm o nə vəziyyətdədi.

Bu gəlir ki, böyüh bir sahədi. Görür burda göydən səbətdər asılıf. Səbətdən də yerə buğda dəni tökülür. Birinnən elə bil şırram kimi gedir, birinnən elə bil az-az, amma tez-tez düşür, birinnən də yarım saatdan bir bir dən düşür. Bu deyir ki, mənimki hansıdı?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyillər ki, budey, tək-tək düşür e, yarım saatdan bir, səninki budu. Bu da ayna-bayna gəzir, isdiyir ki, bu deşiyi bir az genəltsin, buğda tez, sürətnən gəlsin. Əlini atır bir çöp götürür. Belə vurur ki, artırsın dana. Çöp qırılır qalır orda, o dən də kəsilir.

Yəni bunu deməhdə məqsəd odu ku, sən cəhd eləsən də, Allah sənə o normanı nə cür düzüfsə, o cür də verəjəhdi.

### II mətn

Allah rəhmət eləsin Əfqana. Dağda mən qalxoz qoyunun otarırdım, uşağ idim. Hər tərəf də duman idi. Qoyunu yığdım, ötürdüm Humay qayasından bəri Qaradağın döşünə. Soltan Heydər çayının divində Arazvarı Seyid Miryusif vardı, onun ferması orda dərədə idi. Üzüquyulu yatmışam, yuxu məni aparıf. And olsun Allaha, gördüm Əfqan mənə deyir ki, əyə, əyə, dumandı, göz-gözü görmür, nə yatmısan zalım oğlu, qoyun filan yerdən getdi, Seyid Miryusifin fermasında malın içindədi. Dik qalxdım ə, Əfqan nə gəzir, qoyun nə gəzir. İndi bu Qaraçuxa olmasaydı, düşəjəydim düzə-dərəyə. Bu dediyi yernən getdim. Qoyun həmən yerdə – Soltan Heydər dərəsində gedif doluf malın içinə. Qaraçuxanı mən belə tanıyıram.

### III mətn

Sabırqam[*] batmışdı mənim. Getdim həkim yanına, ora-bura. Nağardılar, çıxardammadılar. Günorta yatmışdım. Gördüm bir yekətuman arvad pencərədən girdi, dizin qoydu belimə, dartan kimi “şak” çıxdı. Bayaxdan dura bilmirdim ayağa. Gəldim otdum, çörəh yeyirəm. Gördüm evdəkilər mənə məzəli baxıllar. Elə bilirəm ki, hamı bilir. Rəhmətdih anam maa dedi:

– Bala, ağrımır belin?

Dedim:

– Ay ana, niyə ağrısın? Bayax o arvad gəlif çıxartmadı?

Dedilər:

– Hansı arvad?

---

[*] sabırqa - qabırqa



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedim:

– Pəncərədən keçən arvad, – deyəndə ağlıma gəldi ki, arvad niyə pencərədən keşsin. Onda başa düşdüm ki, bu ayrı şeydi.

Getdim Seyid Cəfər ağanın yanına. Dedim:

– Ağa, belə-belə, başıma belə bir iş gəlif.

Dedi:

– Heç harda demə, o sənin məleykəndi.

Ofşar arvatdarı kimi, qara yekə tuman geymişdi, rezin boğazdı. Yufkası qara idi, koftası qırmızı. Arvadın sifəti də yadımdadı. Saçını daramamış bir arvad idi.

## IV mətn

Kalxoz sədri işdiyirdim o vaxdı. Qonaxlar gəlmişdi, yeyif işmişdix. Gəldim evdə oturanda işıxlar da keşmişdi. Həmən kadın (üçüncü mətndə haqqında bəhs etdiyi qadını nəzərdə tutur – top.) maa dedi ki, kuxnada ilan var, get onu tut, tulla çölə. Gəldim əlimi atdım ilanın boğazınnan tutdum, apardım çöldə asfaltda başını əzdim. Səhər durdum gənə nənəmə dedim:

– Ay nənə, o ilanı yaxşı ki öldürdüm ey.

Dedi:

– Nə ilan?

Dedim:

– Axşam arvad gəldi, maa dedi ki, ilan var.

Birdən dedim ə, yağın yuxudu ey. Getdim ki, həqiqətən öldürmüşəm ilanı. Bax, həmən qadın demişdi onu maa.

## V mətn

Evin ağsakqalı, böyüyü kimdisə, qaraçuxa ona deyillər. Məsələn, bu evin qaraçuxası mənəm. Bu evdə din də varsa, bərəkət də varsa, nə varsa, mənim ayağımadı. Bunu ata-babalarımız belə deyirdi. Qaraçuxa mən oluram, evin böyüyü.

## VI mətn

Birinin atı doğur yalın təpəsində. Çoban da belədə qoyun otarır. Arası yoxdu da bir-biriynən buların. At yiyəsinin atı doğur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çoban gedir bunun qulununu götürür çırpır yerə. Deyir tay öldü qulun, qoy bunun atı tək qalsın. Bu bəri gəlməmiş qulun durur oynaxlıyır. Deyir:

– Bu nədi belə?!

Gedir genə bunun qarnını təpihliyir, başını təpihliyir. Görür ki, daa gözü çıxdı ağzınnan, öldü. Gəlif bu özünü vurur yuxuluğa. Çoban görür ki, at yiyəsi gedir ki, atım görüm harda doğuf. Deyir:

– Ə, buna bax ey, ay qardaş, yeddi dəfə mən gedif onu nə günə qoymuşam, o ölmədi.

Gedir axundun yanına, deyir:

– Ay axund, bu at yiyəsinnən mənim aram yoxdu. Atın balasını yeddi dəfədi gedif vurmuşam, dili çıxıf, gözü çöyrülüf, bəri gəlməmiş duruf dikgildiyif.

Deyif:

– Ay bala, onu qaraçuxa göydə tutur. Sən düşman olmaxnan deyil a. Sən atırsan, o tutur qoyur yerə. Qoymaz axı, o ölə. Onun qaraçuxası yanındadı.

Qaraçuxa heylə şeydi. Əgər ev sahibi yatağan oldusa, tifağı dağıldı o adamın. O adamı hərriyən şeytandı. Düşüf qavağına hərriyir.

## 9. HAL HAQQINDA

### I mətn*

Bunu (söyləyici əlindəki iri zoğal dənəsi boyda yaşıl muncuğu göstərir – top.) qaynənəm verif maa. Qaynənəm Laçının İrsan kəndində anadan olufdu. Deyir, bir kadının təzə uşağı olmuşmuş. Dam evi varmış. Görüf ki, bajadan bir nəfər baxır. Arvadın adı Xanı imiş. Deyif:

– Xanı bajı, gəlim, gəlmiyim.

O da deyif ki, qapını qoyuf niyə bajadan gəlirsən? Qapıdan gəl. Qapıdan gəlif, içəri girəndə – arvad da evin ortasında ojax qalıyıf

---

* Bu mətn Bərdə rayonunun Dəymədağıldı kəndindən qeydə alınıb.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

orda qızınırmış da, – görüfdü kü, bu gəldi oturdu ojağın qırağında, oldu bir əcayib şey. Arvad özün itirmiyif. Ojaxdan bir dənə kösöy götürüf, yana-yana vuruf bunun sinəsinə. Sinəsinə vuranda onun sinəsinnən muncuxlar qırılır, hamısı tökülüf, dağılıf dam evinin içinə. Bunu da mənim qaynənəmin anası götürüfdü üş dənə. Qaynənəm də verif maa. İkisin uşax itirdi, birini atmışdım sandığa, qalıf orda. Hal "yeddi arxa-dönənizdən toba" deyif qaçıf. Həmin uşağın adını Salman qoydular. Onnan sora o uşağın adı qalır Hallı Salman.

**II mətn**

Mənim əmimin qaynanası vardı. O deyirdi ki, yoldaşım hal tutmuşdu, gətirdi evə, saxladıx. Bunnan irəlidə kişilərin belində xançal olur da. Bunu örüşdə tutar. Bir komalağ arvad-uşağın üsdünə düşər. Hamısı qaçar, xançalı tez bunun üsdünə taxar. Bunu evə gətirər, saxlıyar. Ağbirçək arvad deyir, biz də uşağ idik, bunu atam çox saxladı, buraxmadı. Hərdən oturuf ağlıyırdı ki, mənim döşümdə uşax qalıf, mənim uşağım var, məni balalarının başına fırla. Qoçağ idi. Desəydin ki, "tez gəl", savax gedərdi, axşam gələrdi. Amma desəydin "gej gəl" getməyinnən qayıtmağı bir olurdu. Bax, biz nətər iş görürdühsə, heylə iş görürdü.

Bir gün çox yalvardı kişiyə ki, məni balalarının başına hərrə, burax gedim. Dedi:

– Mana nə verəssən ki, səni buraxım, gedəsən?

Dedi ki, nə isdəsən onu verəjəm, yeddi arxa dönəninnən tova, tova, tova deyəjəm. Yeddi arxa dönənin üsdündəki sancağı hansı azarrının üsdünə aparıf taxsa, onnan da tova. İsdiyirsən un çualına əl basım, isdiyirsən ojağına əl basım. O vaxdın adamları da bir az türkəsayax imiş də. Unu diməz. Deyər, əşi, onsuz da çualnan unu üyüdürüh da. Qoy ojağa əl bassın. Guya bizim ojağa odun gətirif qoyajağ. Demə, kül çox olarmış. Yeddi arxa dönəninə tovalatma verənnən sora – buxarı olurmuş da bunnan irəli, – getdi həmin ojağa əlini basdı. İndi, deyir, ojağ qalamasax da, baxırdın ki, ojağı qalıyıflar, külü dolduruflar buxarıya. Kül qutarmırdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Allah haqqı, rəhmətdiyin özü, Allah hamımızın ölənnərinə rəhmət eləsin, qojam idi dana, bir sanjax vermişdi bu yekəlihdə. Deyirdi bunu itirmə. Bu mənim dədəmnən qalmadı. Kim azarrasa, kimdə bir şey olsa, gəlif onnardan bir baş çalması alırdı, bir iynə alırdı, sancax alırdı. Onu da mən həmişə başım altdakı döşəyin üsdünə sancırdım. Bu uşağlar evi tökəndə onu hara tulladılarsa, daha tapılmadı.

### III mətn

Bir dəsdə uşax, mən də olmax şərtiylə getmişih böyürtkən yığmağa. Əlimizdə vedrə, getmişih böyürtkən yığmağa. Təzəcə yığmağa başdamışdıx ki, bir vaxt gördüh uşağın biri çığırdı. Belə baxdıx ki, ağ xələtdi qadın xeylağı, saş tökülüf, açıx, ayıb olmasın, döşün atıf çiyninə, dik duruf bizə baxır. Gözümnən gördüyümnən danışıram. O vaxtdarı avamıstannıx idi. “Ay dədə”, “ay nənə” deyən, bağıran. Vedrə də qaldı, kolluxnan qaşdıx gəldih evə. Nənəmə dedim, nənə, belə-belə. Dedi: “Bala, haldı”.

### IV mətn

Burda bizim su arxımız var. Bir nəfər namaz qılan kişi gedif ki, sübh namazı qılmax üçün dəsdəmaz ala. Görür ki, bağışdıyın ey, başına dönüm, halın da yekə döşdəri olar. Birin bu çiyninə atar, birin bu çiyninə. Kişi gələr ora. Görür burda bir dənə ağ paltar adam duruf. Döşün birin bu tərəfə atıf, birin bu tərəfə. Kişi oruş tutuf namaz qılan idi. Bilif o saat. Boynunda kilodan artıx muncux varmış. Kişi gəlif “pismillah” eliyif əl atıf ki bunun boğazınnan tuta, muncux keçif əlinə. Bu qaçır. Sora muncuğu payladı bizə. Dedi beyjə hal gəlmişdi ora, halasına nəhlət. Dedih:

– Ay İvrahim, qorxmursan?

Dedi:

– Aaz, navar, tutsam onu boğuf gözünü kəlləsinə çıxardajeydim. Elə bilmişəm boğazıdı, sən demə muncuxdan tutmuşam. Gəlin.

Qəşəh bəzəhli muncuxları payladı bizə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 10. CİN HAQQINDA

### I mətn

Valyanın atası danışır. Deyir, balaca uşağam, yetiməm, bəyin qoyununu otarıram. And içir ki, qoyun otardığım yerdə iki-üş nəfər gəldi. Dedilər ki, qoy qoyun dursun burda, gedəh yığıncağımız var, sən ye, iç. Qoyunu yatışdırdıx, həmin adamlar məni də götdülər, getdih. Getdih gördüh çalğı, çalan-oynuyan. Surfa salınanda maa dedilər:

– Bax, çörəyi kəsəndə heş-zad deməginən.

Mən də dedim ki, əşi, yalannan danışmaginən.

Dedi:

– Bu ölsün, yalan demirəm. Maa dedilər ki, “pismillah” sözün demə. Mən də adətimizdi da, “pismillah” eliyəndə gördüm qavağımda heş-zad yoxdu. Malın təzəyinnən başqa heş-zad yoxdu. Durdum ağacı götdüm, nətər qaşdım qoyunun yanına, başımın tükü qalxdı, yendi. Qorxdum, bu nə idi başıma gəldi?!

Dedim:

– Sən möcüzə danışırsan.

Dedi:

– Yox, vallah, gözümnən gördüyümü deyirəm. Qoyunu da yığdım, çıxdım gəldim.

### II mətn

Cin ən çox hərisdi ata. Bizim bir göy maydanımız vardı. Əşrəf dayı bilər. Səhər vaxdı dururdux ki, atın belinnən tər su kimi tökülür. Hər gün gedirdih, baxırdıx, atın yalı yoxdu, atın yalı zəncilər ki saç hörür ey, bütöy, nazik-nazik hörülüf. Açırdıx, səhəri gedirdih ki, gənə hörülüfdü. Sora atam gətdi sancax qoydu ora. Sancax qoyannan sora da atın yalı hörülmədi. O, sancaxdan, bir də iynədən qorxur.

### III mətn

Nənəmin bir xalası oğlu varıydı, su suluyurdu. Görüf ki, burda bir toy gedir, gəl görəsən. Kişi lapatkanı sancıf bulağın ağzına, deyif: “Gedim görüm bu nədi?” Görüf vallah, qazannar asılıf, oy-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nahaoynadı, vurçatdasındı. Sarı meşşannar, sarıbaş gedələr. Amma bunun arvadının libası bunun əynindədi. Deyif:

– Buy evi yıxılsın, dədə vay, bizim arvad hardan gəlif çıxıf bura?

Adı Nazpəri idi. Deyir:

– Nazpəri, Nazpəri.

Görür hay verən yoxdu. Kişiyə əl eliyillər gəl. Kişi də addamcıl kişi idi. Bilif ki, belədi. Əgər gedif oların bir tamın dadsaydı, o da qoşulajaxdı. Əl atıf tumana, tuman qalıf əlində, cinnər qaçıf, dağılıf hamısı.

Gəlif evə. Deyif ki, Nazpəri, sənə aldığım filan rəhdə paltar hanı? Deyif:

– Udey, sandıxda. Sandığa qoymuşam.

Deyif:

– Dur gətir bura.

Arvad gedif, sandığı açıf ki, tuman nə gəzir. Kişi deyir:

– Dey, burdadı. Cinnərin əlinnən alıf gətmişəm.

**IV mətn**

Mənim babam da cin tutuf. At ilxıları varmış. Aparıf otarırmış. Görürmüş ilxının içində bir dənə atı minmiyiflər, eləmiyiflər, amma elə suyun içində gəlir. Deyif:

– Ay arvad, mənə qır ərit.

Deyif:

– Neynirsən?

Deyif:

– Lazımdı, ərit.

Qırı sıvıyıf atın belinə. Deyif:

– Əşi, dəli olmusan, atı niyə sıvıyırsan?

Deyif:

– Arvad, cinnər atı o qədər çapıf ki, atın leşi qalıf.

Sıvıyıf atın belinə, buraxıf. Bunu mən gözümnən görməmişəm, qaynanam nağıl eliyirdi ki, babanız cin tutuf. Deyir axşam at ilxısı gəlif, görür bir oğlandı atın üsdündə gülə-gülə gəlir. Kişi deyif mə-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nim anamı ağladan sənsən? Yeddi il onu işdədif. Yaxasına iynə sancıf işdədif. Su gətirtdirif, qapı süpürtdürüf, toola kürütdürüf.

Nəysə, yeddi il işdədif. Sora gəlif arvad deyif:

– Bala, səhəngi götür, tut bulağın altına, dolsun, götür gəl.

Gedəndə görür ki, bir topa qızdar gəlir sudan. Yalannan oturur yolun ortasında, ayağın qurtcalıyır. Deyir ki, ayağıma tikan batıfdı, ay qızdar, onu çıxardın. Deyiflər:

– Nəynən çıxardax?

Deyif:

– Budey, yaxamda iynə var, alın çıxardın.

Qızdar iynəni bundan çəkən kimi cin götürülür. Deyir ki, yetmiş arxa dönəninin əlinnən süpürgə düşməsin.

Bala, o bizi yaradan Allahın adı haqqı, beş gəlinimiz var, əgər onların əlinnən süpürgə düşürsə.

**V mətn**

Rəhmətdih atam deyir cavan vaxdım idi. Qardaşım Müştaba da dağa-arana gedən adamdı da. Deyir, Müştabanın atı itif. Mən də cavanam dana, o da məəllim adamdı. Gəldi məni dannadı ki, mən üş gündü at gəzirəm, sən heş mənən maraxlanmırsan. Nəysə, getdim Bəylərin dədəsinin atını aldım, mən də mindim, getdim at axtarmağa. Getdim çox yerrəri hərrəndim gəldim. Kəndin üsdü narrıx idi. Narrığın içiynən bəri gələndə gördüm burda bir çal-çağır, bir qaynaşma var ki. Fikirrəşdim ki, ay qardaş, mən bu kəntdən bayax çıxmışam, bu kəntdə toy yox idi, bu nə səs-küydü. At da deyir qulağını şəhliyif, nə qədər eliyirəm irəli getmir. Atı qamçıladım, başın boşdadım, birtəri bu yığnaxdan aralaşdım.

Gəldim uzandım yerimə. Elə yuxuya getmişdim ki, iki nəfər çöhdü sinəmə, əlini atdı boğazıma.

– Ə, o atı arvad-uşağın üsdünə niyə mindirdin?

Elə bu halda nənəm pismillah, pismillah deyif yorğanı çəhdi. Onnan da olar çəkildi. Nənəm dedi:

– Ə, noluf sa?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Baxdım ki, evdə yatağın içindəyəm. Dedim, ay nənə, belə şey başıma gəlif.

### VI mətn

Rəhmətdih Seyid Məhəmməd ağa deyirdi ki, o musiqinin ibtidayisi cinnərdə oluf. Deyir, dağ varmış, dağın o üzü oların məskəni imiş, bəri üzü bizimkilərin. Birinin heyvanı itir, gedir onu axtarmağa. Görür burda qəşəh çalan-çağıran. Bu, məhətdəl qalır ki, bunnan niyə bizdə yoxdu. O, ordan baxıf gəlif burda icad eliyif.

## 11. ƏZRAYIL HAQQINDA

### I mətn

Adəm Allah-tala tərəfinnən yaradılanda əmr olundu bütün mələklərə ki, hamınız ona səjdə eliyin, ona baş əyin. Bu da nəyə görə idi? O mələklərə Allah-tala elm verməmişdi. Ona görə də Allah-talanın olara verdiyi hökmü sözsüz, avtomatik yerinə yetirillər. Amma insana söz deyəndə deyir ki, ağıl vermişəm sana, düşün, sora hərəkət elə. Ağlına görə, dünyanın gedişin-gəlişin düşündüyünə görə Allah-tala əmr elədi, bütün mələklər insana səjdə elədi, amma şeytan eləmədi. Şeytan da hak dərgahınnan qavıldı. Amma Əzrayıl sözsüz qəbul elədi. Amma bir dəfə bir söhbətdəri oldu. Dedi ki, ya Əzrayıl.

Dedi:

– Bəli, ağa.

Dedi:

– Bir belə can alıfsan, bir pərsindiyin, ürpəndiyin, qorxduğun və yaxud da yazığın gəldiyi oluf?

Dedi:

– Sənnən nə gizdətməh olar ki? Oluf.

Dedi:

– Hansıdı?

Dedi:

– Bir dəfə gəmi gedirdi dənizdə, əmr elədin ki, gəmini fırtınaya sal, dağıt. Gəmi düşdü fırtınaya, bir qadın iki körpəsi qucağında qaldı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bir taxtanın üsdündə. Mana əmr elədin ki, qadının canını al. Qadının canını aldım. Bir az aralanmışdım, çöndüm geri baxanda gördüm o uşağın hərəsi bir tərəfdən taxta parçasının üsdündə ananın döşün əmir. O uşaxlara yazığım gəldi ki, onların aqibəti nejə olajaxdı?

Dedi:

– Bəri bax, aşağı əyil bax.

Gördü bir nəhəng, dağ boyda bir adamdı, bütün millət yığışıf ətrafına. Bulara çır-çır çığırır ki, ə, ağzı yuxarı nəyə baxırsınız, Allah mənəm. Mana Allah deyin. Bir Musadan, onun tərəfdarlarınnan başqa hamı qorxusunnan deyirdi: “Allah sənsən”. Gördü Əzrayıl baxır. Oxu belə tutuf çəkir, atır yuxarı. Bir qatda mələklər də balığı belə tutur, bunun oxu gələndə dəyir balığa, oxun uju qannı qayıdır yerə. Oxu götürür belə, deyir ki, buna bax, sizin Allahınızı vurdum. Deyir:

– İndi maa de görüm, heş pərsinirsənmi, görüm onun canını necə alajam?

Deyir:

– O qədər nəhəng yaratmısan ki, mən onun canını nətər alajam?

Deyir:

– Rahat alassan.

Deyilənə görə, Firon okqədər nəhəng adammış ki, ceyranı qavırmış, ceyran qaçırmış, qaçanda düşürmüş onun dalıncan. Qaça-qaça ceyranı tuturmuş. Bir dəfə deyir belə qaçanda ağaş tilişkəsi girir bunun ayağının altına. Nil çayı yer üzündə olan çayların ən ennisidi. Bayısı çayın o tərəfində olurmuş. Qılçını çaydan o tərəfə uzadır ki, bajı, ayağıma tilişkə batıf, onu çək. Bajısı bunun qılçın belə tutur. Allah-tala Cənabi Əzrayıla əmr eliyir ki, girəvədi, qılçası əldədi. En, canını al. O çatdırıf indi bunu xirtdəhliyəndə bu çabalamalıdı da. Çabalamağ isdiyəndə bajısı elə bilir ki, tilişkəni çəkdiyinə görə ağrıyır, çabalıyır. Qılçın buraxmır. Bir də görür ki, qılça boşaldı. Deyilənə görə, genə rəvayətdi, mən görməmişəm, amma deyilənə görə həmən Fironun omba sümüyü Nil çayının üsdündə körpüdü. Onun üsdüynən insan gedif gəlir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**II mətn**

Azrayıl, Cəbrayıl və İsrafil Allahın ən seçilmiş mələkləridi. Adam artır, yer tutmur. Bir gün Allah-tala fikirrəşir ki, insanı öldürməh lazımdı. Cəbrayılı çağırır, deyir ki, insan artıfdı, onnarı öldürməh lazımdı. Cəbrayıl deyir ki, yox, yox, yox, mən onu bacarmaram. Deyir:

– Niyə?

Deyir:

– Ona görə ki, birinin dədəsi öldü, oğlu öldü, qızı öldü, onda mənə düşman kəsiləjəhlər. Mən öldürə bilmərəm onu.

Mikayılı çağırır, bu da boynuna almır. Azrayılı çağırır, deyir:

– Ya Azrayıl, bircə iş qalıf sənə. Camaat artıf, yer tutmur, ərzax da bir o qədər yoxdu. Bu insanı bir az azaltmax lazımdı.

Deyir:

– Yox, mənim Allahım. Mən heş vaxt insannarın sayın azaltmaram.

Deyir:

– Niyə?

Deyir:

– Ona görə ki, birinin oğlun öldürəjəm, atası maa qarğış eliyəjəh, birinin ərin öldürəjəm, yoldaşı qarğış eliyəjəh.

Deyir:

– Bax.

Deyir:

– Nəyə baxım?

Deyir:

– Görürsənmi, orda bir kişi öküzü tumarrıyır, öküz də yumuşalıfdı. Bu saat o kişi öləjəhdi.

Deyir:

– Nətəri?

Bir milçəh yaradır. Milçəh gedir girir öküzün qulağına, içəridən qıcıxlandırır. Öküz başın buluyur ki, bunnan aralansın da. Buladığı yerdə kişini vurur, kişi ölür. Deyir ki, qorxma. Biri atdan yıxılajax, biri suda boğulajax, heş kim səni günahkar bilmiyəjəhdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## III mətn

Allah-tala Azreyildən soruşur ki, bu qədər can almısan, bunların içində heç yazığın gələn olufmu? Deyir ki, mənim bircə dəfə ürəyim yumuşalıf.

Deyir:

– Nə vaxdı?

Deyir:

– Ey mənim Allahım, bir dəfə bir gözəl oğlan var idi. Elə gözəl idi ki, mənim də onnan xoşum gəlirdi. Sən hökm elədin ki, get onun canını al. Getdim onun qoja anasını gördüm. Ta iş işdən keçif, bunun yaşamaxdan yaşamamağı yaxşıdı. Mənim ürəyim yumuşaldı kı, ya mənim Allahım, mən bu cavan oğlanın nətər canın alım kı, bu qoja yaşasın, cavan getsin dünyadan. O qoja arvatdı, özünü idarə eliyə bilmiyəjəh. Bu oğlan onu dolandırır, çayın-çörəyin verir.

Allah deyir:

– Yerə bax.

Baxır. Deyir:

– Nə görürsən?

Deyir:

– Qara dənizi.

Deyir:

– Əməlli bax, nə görürsən?

Deyir:

– Qara dənizin içində bir qara daş görürəm.

Deyir:

– Bir də bax, nə görürsən?

Deyir:

– Qara daşın içində bir dənə qara qoç var, ağzında təzəcə, elə bil indi qırılmış yarpax var.

Deyir ki, get o oğlanın canını al. Qara dənizdəki qara daşın içindəki qara qoçun ağzına təzə yem verən Allah o arvadın da ruzusun verəjəh. Deyir:

– Sən niyə belə çox məjbur eliyirsən?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ona görə ki, o oğlana qıymıram. O oğlan o qədər saf, o qədər təmizdi ki, indiyə kimi bir dənə pisdih, naxələf iş görmüyüfdü. İsdəmirəm cinayətkar gedə o dünyaya. İsdiyirəm saf, təmiz halda gedə. Amma o qadın çox işdər görüfdü. Deyirəm o bir az da yaşasın, bəlkə müəyyən işdər tutdu, mən onun hökmünnən bir az yumuşaldım.

## 12. ZINQIROVLU ƏZRAYIL

Bir arvad nəvəsin çox isdiyirmiş, nəvəsi də ağır xəsdə imiş, can verirmiş. Arvad deyir ki, ya Azreyil, mənim bu nəvəmə qıyma, mənim canımı al, bunun canını alma. Bir bəzzad da eşidir bunu. Gedir keçi dərisi tapır, üsdünnən zınqrovdan-zaddan asır, zınqıldada-zınqıldada gəlir girir içəri. Arvada deyir ki, gəlmişəm canını almağa. Arvad əli əsə-əsə deyir ki, xəsdə mən deyiləm a, xəsdə bax odu. Demək, can hər şeydən əzizdi.

## 13. ŞEYTAN HAQQINDA

Allah deyir ki, ey insan, səni və cinnəri mən özümə xidmət üçün yaratdım. Amma sənə paylı-muxtarlıx, yəni ağıl-dərəcə verdim ki, özün yolunu seçəsən. Çünki mənim o vaxdı hesab çəkəcəyim gün nağdıdı. Sən de görüm, səni yaradan Allaha nə cür xidmət elədin? Ona cavab verə bilmədin, vay sənin halına. İstər insannar, istərsə də cinnər arasında Allahın yoluynan gedənnər də var, şeytanın yoluynan gedənnər də.

Bir gün şeytan Allaha dedi ki, yaratdıxlarının hökmünü mana ver, mən o axır günə qədər olardan nə qədər desən sənin yanına topluyuf gətirəjəm.

O devrdə biri dedi ki, gedəjəm şeytanın yanına, görüm nə iş görür. Gəldi, bir dağın arasında gördü yaşdı qoja bir kişi oturuf. Dedi ki, kimsən, burda niyə oturmusan?

Dedi:

– Mən şeytanam, burda oturmuşam, işim var.

Belə baxdı ki, dərə doludu xaltaynan. Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bə bular nədi?

Dedi:

– Yaranmış bəndələr var, onların içində o qədər yolunu azannar var, onların xaltasıdı.

Dedi:

– Ə, bə mənim xaltam hansıdı?

Dedi:

– Rəhmətdiyin oğlu, sana xalta nə lazımdı, sən xaltasız gəlif çıxmısan mənim yanıma.

İndi istər cinnərdə, istərsə də bəşərdə, insannarda yolunu azıb şeytan yoluynan gedənnər o qədərdi ki.

## 14. QAYIŞBALDIR

Bizim bu Kürqırağında bir meşəlih var. Burdan gəlif biri keçəndə görüf ki, çəpiş var. Elə burda məkgildiyir, mıkqıldıyır. Düşüf bu çəpişi tutur. Atı minir, çəpişi də alır qujağına. Keçinin qavağı qavağdan yerə dəyifdi, dalı da daldan. Uzanıfdı. Kişi əlini x…..na vuruf deyir:

– X….. da nejə yekədi ey.

Deyif:

– Ə, dədənin x…sınnan yekədi?

Elə ordaca tulluyuf qaçıfdı. Atı çapıf, çıxıf gedifdi.

## 15. QURD HAQQINDA

### I mətn

Qurd öz gücünü bilmir. Deyilənə görə, qiyamət günü bir kəl, bir də qurt ayaxlarını diriyəjəhlər yerə, gələn tufan onların dərisini sivirif çıxarajax, amma onların ayaxları yerdən üzülmüyəjəh.

### II mətn

Canavar Allah tərəfinnən rüsxət verilmiyincə heş yerə girmir. Allah-tala tərəfinnən rüsxət verilir ki, sənin yemin Kürdə bir at var, odu. Yalnız onnan sora ora girir. Canavar isdədiyi yerə girsə, dağıdar oranı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 16. GÜLNƏN BÜLBÜL

Bülbül gülə hərisdi, gülnən sevgilidi. O gülün eşqiynən oxuyur, oxuyur, oxuyur, özün yorur. Elə ki, gül açılır, onda bülbülün gözü tutulur. Xar olur ey, sarı cüjüdü. O qonur gülün içinə. Onunçün deyillər ki, bülbül cəfasın çəkir, xar səfasın görür.

## 17. QIZI UDAN ƏJDAHA*

Şirvan tayında bir oğlan olur, əmisi qızıynan sevişir. Əmisi qızını buna vermillər. Bu, qızı da götürür, Lənbəranın tuşunda "Bıçaxçı" deyillər, böyüh qoaxlığ oluf, gəlir ora. Ələkbərov Məhəmməd qaçaxçılıx eliyirmiş. Lənbəran qaçax-quldur yeri imiş. O danışırdı ki, gördüh bir oğlan vəşi kimi, saç-sakqal, tük basıf, böyürdən çıxdı.

– A bala, nədi bu, nə gəzirsən, kimsən, nəçisən?

Dedi:

– Vallah, əmim qızınnan nişannı idik. Vermədilər, gəldik çinarın divində məskən salmışdıx. Dedim əmiqızı, sən uzan, mən gedim su gətirim. Gəldim su gətirməyə. Qayıtdım ki, bura qədər əjdaha soruf. Belimdə xançalım var. Əjdaha da sorduğu ovu zəhərrəməz, diri udar. Əmim qızı dedi ki, əmioğlu, mana heş-zad eləmiyifdi, salamatam. İntaası, məni sıxır, incidir. Xançalı belə dolayı ver bunun ağzına, məni sorduxca bunun ağzını cırsın, ölsün.

Deyir, mən dondum, tərpənə bilmədim. Əmimqızı dedi ki, yaxşı, sən eləmirsən, xançalı ver mən özüm tutum. Deyir, gənə cürətim çatmadı, dondum. Axırı əmimqızı dedi:

– Sənin təki namərdnən olmaxdansa, qoy aparsın əjdaha məni.

Qolunu belə elədi (söyləyici qollarını qabağa uzadır – top.) guppultuynan getdi ilanın qarnına. Yeyənnən sora dolandı ağaca, şakkaşak sümüyün qırdı. Ona görə gedə bilmirəm öz kəndimə. Gəlif çıxmışam bura.

---

* Bu mətnin bir variantı da Ağcabədi rayonunun Rəncbərlər kəndindən qeydə alınıb. Bax: Folklor İnistitutunun arxivi, İnv. 1300, səh. 48



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 18. CANAVAR QIZ

Bir oğlan öküz arabasınnan gəlir. Qalatəpədə su dəyirmanı vardı. Mən orda bir həftə, on gün dən üyütmüşəm. Gələndə dəyirmançı deyir ki, bala, üzdən irağ, burda başında noxda bir canavar peyda olur. Deyəndə deyir:

– Ə kişi, nə danışırsan sən? Camaatın dənin yığmısan bura, canavar nədi?

Deyir:

– Saa deyirəm bala, dəyirmanın suyun buraxmışam, axşam düşəndə mən dəyirmanı bağlıyajam.

Deyir:

– Sən yeri get.

Öküzün boyunduruğun açır, taxılı yığır içəri. Başdıyır suyu buraxır, dəyirman işdiyir. Bu dəyirmanın içində ojağ qalıyır, çörəh yeyir. Qavaxda çual idi. Bunnan üş-dörd meşoğun yığır qapının dalına. Dəyirman işdiyir. Bu çörəh yediyi yerdə görür qapı basılır. Deyir:

– Ə, bu nətər şeydi? Mən bura dörd meşoğ qoymuşam, qapı basılır.

Görür, yox, qapını bərk basıllar, üsdəki çual dığırranır. Su dəyirmanının donuzduğu olur aşağıda, pərinə baxmax üçün. Bu girir donuzduğa. Canavar başında noxda gəlir çörəyi yeməyə. Qavaxlarda çox adamlarda olurdu. Bu oğlanın da bu uzutdaxda xançalı vardı. Oğlan xançalı çıxardır, yavaşcadan çıxır, qəfildən tutuf noxdanı kəsir. Kəsəndə bu, qadın səsi çıxardır. Oğlan özünnən gedir. Hannan-hana bunun üzünə şapalax-zad vurullar. Gözünü açanda görür yetişmiş qız uşağıdı. Oğlan bir də gedir özünnən. Ayılanda qız deyir ki, otur. Deyir ki, dəyirmançı düz buyuruf. Neçə illərdi Allah-tala tərəfinnən maa belə ejir verilif. Axşam yatanda noxda salınır başıma, mən oluram canavar, dadanıram bura. Düz deyir onu dəyirmançı. Oturullar, bular əhd-peyman eliyillər. Dəni üyüdür qutarır. Qız yaxın kəntdə olurdu, onu götürür aparır.

Səhər açılır, dəyirmançı görür oğlan da salamatdı, dəni də üyüdüf. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə bala, bəs canavar gəlmiyif?

Deyir:

– Ay dayı, əgər canavar vardısa, çöldə mənim öküzümü tutuf yeyərdi, məni neynirdi? Yeməlidi, öküzü yeyərdi da. Mən canavarzad görməmişəm.

Deyir:

– A bala, mən gözümnən gördüyümə inanım, sən dediyə inanım?

Deyir:

– Mən də saa deyirəm da. Gəlmişdi öküzü yeyərdi, məni niyə yeyirdi, dəyirmana niyə girirdi?

Nə qədər eliyir, dəyirmançı inanmır. Ununu götürür gedir. Qıza elçi gəlir, qızı aparıf yaşıyıllar.

## 19. EŞŞƏYƏ DÖNMÜŞ QIZLAR

1976-cı ildə belə bir xəbər yayıldı ki, yolnan gedən bir cüt qız əl qaldırıf bir bartavoy maşına minillər. Bir xeylağ getmiş – qızdar kabinkada oturuf, – yolda bir ağsakqal kişi əlini qaldırır. Əlini qaldıranda saxlıyır. Kişi qızdara deyir ki, siz çıxın yuxarı, mən çıxa bilmirəm da, mən kabinkada oturum. Bu qızdar ikisi də əmiqızı olur. Bular düşüllər. Qavaxda görmüsüz axı, dar yufka geyinirdi qızdar. Bular minə bilmir. Minə bilmiyəndə şoferə deyir ki, ay şofer, düş aşağı, bulara kömək elə, çıxsın yuxarı. Ağsakqal bu qızdara deyir ki, a bala, bunu bir az gen geyinin da, axı minə bilmirsiz. Deyəndən qızın biri qayıdır ki, sən sakqalı nə vaxt qırxsan biz də onda uzun geyinəjeyik. Şofer kömək eliyir, bular çıxıf oturullar. Bir xeylağ getmiş yolda bir yiyəsiz yerdə ağsakqal deyir şoferə:

– Saxla.

Saxlıyır. Düşəndə buna üş maat pul verir. Deyir:

– Axı sən bir adamsan.

Üzünüzdən irağ, deyir ki, bunun bir maatı mənimdi, iki maatı bu bir cüt eşşəyindi. Şofer heş tərpənmir, abışkadan baxır ki, bir cüt eşşəhdi. Nəkqədər baxır ora-bura, kişi qeybə çəkilir, yoxdu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 20. ÖLMƏZLİK ALMASI

Onu (dirilik almasını – top.) göndərillər şahın bağında əkilsin, meyvə versin. Guya şahın ətrafında nə qədər adam varsa, istədiyinə versin, bular ölməzdih qazansın. Şah da baxır ki, hər il bir dənə alma gətirir, ikinci alma gətirmir. Deyir ki, bunun hikməti nədi? Allahdan da arzu edirmiş ki, ilahi, mənə o möcüzəni başa salan peyğəmbərlərdən birini rast gətir, mən onu örgənim, görüm bu nədi?

Bir günnəri ətrafının alimini-zadını yığır ki, buna baxın, qulluğ eliyin, çox gətirsin. Hər il bircə dənə alma gətirir, onu da heş istifadə eləmirih. Axşamnan görürüh alma üsdündədi, səhər gedirih yoxa çıxıb. Nejə olur, bilmirih. Bunun sirri nədi? Heş kəs tapa bilmirmiş. Bir cavan oğlan gəlir bunun yanına. Deyir ki, mən o sirri saa deyim. Deyir:

– O sirr belədi ki, o ölməzdih almasını Allah sənə sınax üçün göndərir. Bax, tutax ki, sən onu yedin, özün də axır məhşər gününə qədər yaşadın. Sənin evlatdarın, sənin ətrafın, istədihlərin dünyadan gedənnən sora tək özün qalajaxsan.

Onnan sora deyir:

– Hə, başa düşdüm. Bu ölməzdih almasını heş istifadə eləmək lazım döyül.

# PEYĞƏMBƏRLƏR VƏ DİNİ ŞƏXSİYYƏTLƏR HAQQINDA

## 21. HƏVVA

Birinci günü* Havva nənəmiz oluf. Havva nənəmiz Adam ataya yaxınnıx vermirmiş. İnsanda artım yoxdu. Bunnarın evladı-zadı olmurmuş. Adam ata əkini əkir, axşam da gəlif yatırmış. Bir gün Allah-tala tərəfinnən Cənabı Cəbrayıl bir qadın şəklində gəlir Adam atanın xeymagahına. Havva nənəmiz də görüf bir arvad gəlif. Deyir:

---

* günü – ikinci arvad



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Sən kimsən?
Deyir:
– Bəs sən kimsən?
Deyir:
– Mən Adam atanın yoldaşıyam.
Cəbrayıl deyir:
– Yox, onun yoldaşı mənəm.

Bu, evdə oturanda Havva nənəmiz duruf boxca bağlıyır, çörəhdən-zaddan götürür, düz gedir əkin sahəsinin qırağına. Adam ata deyir:

– Ay arvad, sənnən çıxmayan iş. Sən bura niyə gəldin?

Deyir ki, gəlmişəm də, dedim ajıf-eliyərsən. Burda bunnar çörəh yeyənnən sora əlbir olullar. İndi odu-budu həmişə kişinin dizdəri soyux olur, qadınnarın da oturacağı. Əgər ora Cəbrayıl qadın şəklində gəlməsəydi, heş-zad olmuyajaxdı. Qayıdıf gəlir ki, evdə arvad nə gəzir. Bax, günü o vaxdan yaranıf.

## 22. NUHUN ÖLÜMÜ

Nuh peyğəmbər min dokquz yüz il yaşıyıfdı. Bir gün dağda gəzirmiş. Bir gözəl mənzərəli yerdə qəfildən bir səs gəlir. Ayna baxır, bayna baxır, görmür heş kimi. Bir də baxır ki, yekə insandı. Deyir:

– Pismillah, pismillah, sən kimsən?
Deyir:
– Azreyiləm.
Deyir:
– Nəyə gəlmisən sən bəs?
Deyir:
– Mən gəlmişəm sənin canını alam.
Deyir:
– Ya Azreyil, mənim canımı alma, evimə çatım.
Deyir:
– Yox, sənin canını alajam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– O dey, o gədih var ey, aşırım. Bax, oratan mənim canımı alma. Ora çatannan sora alsan razıyam.

Nəysə, bu başdıyır iki günə, üş günə bu gədiyə gəlir çatır. Azreyil deyir ki, bax, bu nə məna bildirir. Deyir:

– Mən yaşamışam min dokquz yüz il. O illəri mən ömrümə saymıram. Amma bu iki günü ki mən o dağdan bu gədiyə gəldim ha, yaşayışın qiymətin, qədrin indi bildim. İndi bildim ki, həyat nə qədər şirin şeydi.

## 23. QOYDU, GÖZÜMÜ AÇAM?

Nuha deyillər min üş yüz il ömür sürmüsən. Bir danış görəh nə gördün, nə bildin. Deyir:

– Başına döndüyüm qoydu gözümü açam? Bu qapıdan girdim, ordan çıxdım.

## 24. HABİLNƏN QABİL

Adəm ata Habilnən Qabili hərəsin bir əraziyə göndərir. Habil gedir barrı-bərəkətdi, münbit torpağa düşür, qardaşı Qabil gedir şoran, əkilməz, biçilməz bir torpağa düşür. Habil əkir-biçir. Qardaş qardaşa düşmançılıx bəsliyir ki, nətər olur, qardaşım Habil taxıl əkdi bişdi, mənim heş nəyim yoxdu. Elə gedif Habili öldürəjəm, var-variyəti məə qalsın.

Şeytana nəhlət. Şeytan bunu yoldan çıxardır. Bir gün gəlir görür qardaşı Habil bir qayanın kölgəsində yatıf. Deyir hə, elə yaxşı yerdi. Bu qayadan bir heylan yumalıyır, salır qardaşı Habilin başına. Habili burda öldürür. Adam öldürüf qan töhməh o vaxdan qalıf. Onnan sohra da Adəm atanın ona qəzəbi tutur. Onu götürür elə bir məkana atır ki. Deyir:

– Get, sənin evladın olsun, biri-birinin dilin bilməsin, biri-birinin dinin daşımasın.

O günnən Qabilin oğlannarı hərəsi bir dil danışıf, hərəsi bir dinə qullux eliyif.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 25. UCUBULUX PEYĞƏMBƏR

Çay qırağında olufdu, özü də çox uzun olufdu. Yüz iyirmi dörd min peyğəmbərin içində o da var. Ucubulux peyğəmbər çöldə yaşıyırmış. Vaxt oluf bu, özünə bir ev inşa eləməh isdiyif. Çox uzun oluf. Dəryadan balığı götürüf gündə qızardıf onu yeyirmiş. Qar-qamışdan topalıyıf günnən qorunmax üçün ev tikir. Topalıyır, topalıyır, nəhayət sinəsinə qədər gəlir. Üş yüz ilmi, ya min üş yüz ilmi onun ömrü olufdu. Can verən vaxdı əlin vuruf dizinə, deyif:

– Heyif.

Deyif:

– Nədi?

Deyif:

– Bilseydim dünyanın vəfası budu, bu qamışı topalamazdım bura.

## 26. DAVUD PEYĞƏMBƏR

### I mətn

Bax, orda zindan var (həyatindəki zindanı göstərir – top.), Həzrəti Davud peyğəmbərin zindanıdı. Bax, o zindan hakkı. Bir günnəri Həzrəti Davud peyğəmbər o zindanda çəkişnən işdiyif çörəh qazanırmış. Bir nəfər gəlif deyir:

– Ya Həzrəti Davud!

Deyir:

– Nədi?

Deyir:

– Çəyirtkə yer üzünü alıf, bütün taxılları apardı. Bu camaat nə yeyəjəh?

Davud peyğəmbər deyir:

– Əşi, çəyirtkəni mən yaratmamışam ha. Yeyir yeyir da, mənnih bir iş yoxdu.

Bu söz bunun ağzınnan çıxanda çəyirtkə özünü verir zindana. Zindanın bir qulağını yeyir. Odur ki, zindan tayqulaxdı. Həzrəti



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Davud peyğəmbər baxır görür ə, bu zindanı yeyif qutardı. Bu, savah nəynən camaatı yola salajax? Dedi:

– Yarəbbi, bir qələtdi eləmişəm. Sən varsan, sən nə desən eliyərsən.

Toba, əstəfirlax elədi. Nardan çalğı qayırdı, getdi çəyirtkənin harayına. Orda onun bu hərəkətinnən Allah-talanın xoşu gəldi, Həzrəti Süleyman peyğəmbəri ona oğul verdi.

### II mətn

Allah-tala Davud peyğəmbərə o qədər var-variyət, mərhəmət vermişdi ki. Şeytan Allah-talaya şikayətlənir ki, Davud peyğəmbərə bir belə vermisən deyə səə şükür eliyir. Allah da deyir ki, mən neynəsəm Davud peyğəmbər mənnən şükrün kəsmiyəjəh. Deyir:

– Onda onun oğlannarın varın-döylətin əlinnən al, görəh gənə səə şükür eliyirmi?

Allahın hökmüynən bunun yeddi oğlu varmış, oğlannarı bir-bir öldühcə, Davud peyğəmbər deyir:

– Şükür, Allah, sən vermisən, sən almısan.

Var-döyləti də gedir, bütün nəyi varsa, hamısı gedir, canı da, xəsdə düşür. Gənə də deyir:

– Şükür, Allah, sən vermisən, sən alırsan. Məslahat sənindi.

Allah-tala deyir:

– Gör, buna bu qədər zəlalət verdim, gənə şükrün mənnən kəsmədi.

Gətirir axır-axırda Süleyman peyğəmbərtək evladı ona qismət eliyir. Deyir sənnən aldıxlarımı Süleyman peyğəmbərin vasitəsiynən səə verəjəm. Süleyman peyğəmbərə o qədər bilik, elm verir ki. Ona da bir dənə üzüh qismət eliyir ki, bütün dünyanın tilsimi o üzüyün qaşına həkk olunufmuş. Bütün bəşəriyyətin hamısının dilin Süleyman peyğəmbər bilir.

Bir gün Süleyman peyğəmbər saxsağanı çağırır, deyir:

– Ey saxsağan, gedərsən dünya üzün gəzif ən gözəl quş balasın mənə gətirərsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Saxsağan gedir, gəzir dolanır. O qədər gözəl quş balaları var – göyərçin balası, bülbül balası. Gəzir, deyir:

– Yox ey. – Saxsağanın da balasını bilmirəm görmüsüz, görməmisiz? Pis, yolux-molux, qotur-motur balası olar. Yumurtadan sifdə çıxanda boğazı tühsüz, eybəcər balası olar. – Dünyada öz balamnan gözəl bala yoxdu. Peyğəmbərə layax budu, qoy bunu aparım.

Öz balasını alır qanadına, gətirir peyğəmbərin qavağına qoyur. Deyir ki, ya peyğəmbər, vallah, dünyanı gəzdim, bunnan gözəl quş balası tapmadım. Sənə layax olan quş balası ancax budu. Süleyman peyğəmbər deyir:

– Ey dili-qafil, bütün cannıya öz balasınnan əzizi yoxdu. Bunnan da eybəcər quş balası yoxdu, amma anasının gözündə nətər oluf ki, mənə layax bunu bilif.

**III mətn**

Davud peyğəmbərin qırx oğlu oluf. Qırx oğlu böyüyüf əmələ gəlif. Peyğəmbər namaza duruf namaz qılanda (deyilənə görə namaz qılan ürəyinə heş bir fikir gətirməməmlidi, ancax fikri namazında olmalıdı), bu, öz-özünə qurralanıf ki, gör mən nə qədər xoşbəxtəm, kim mənə nə edə bilər? Arxamda qırx oğlum namaza duruf. Belə deyif, namazı qılıf qutarıf, arxaya çöyrüləndə görüf qırx oğlunun qırxı da dünyasını dəyişif.

Nəysə, bu duruf gedif arvatdarının yanına. Hansına deyifdi ki, oğlannarım qırıldı, arvad ağlıyıf, qışqırıf-bağırıf. Axırda gəlif çıxıf axırıncı arvadın yanına. Deyəndə, axırıncı arvad deyif ki, çox şükür Allahın məslahatına, öz yaratdığı idi, özü də apardı. Bunun şükür eləməyi o qədər Allah-talanın xoşuna gəlifdi ki, Süleyman peyğəmbəri dokquz ay dokquz günnən sora verif həmən qadına.

Süleyman peyğəmbər çox bilikli, çox güjdü, hər bir şeyin dilini bilən bir peyğəmbər oluf. Bu fikirrəşifdi ki, mən havaxt öləjəm. O dövrün sözdəridi dana. İndi nə bilim inandırıcıdı, yalan-gerçəhdi, belə danışıllar. Onun da barmağında bir dənə üzüyü varmış. Buna məslahat veriflər ki, sən bu üzüyü barmağınnan çıxartma. Hansı gün bu üzüyü barmağınnan çıxartsan o günü məhv oluf gedəssən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu, üzüyü barmağınnan çıxartmıyıf. Üş yüz il ömür sürüf. Da qojalıf, amma ağzı yerə dəymiyif da, öz tükünün üsdündə ömür sürüf.

Bir gün sayahata gedirmiş. Demək, bunun ajalının tamam olan günüymüş. Baxıfdı ki, bəs çayın qırağında bir dənə dünya gözəli qız oturuf. Buna aşiq oluf, bir könüldən-min könülə vuruluf buna. Deyif:

– Səni sevirəm. Burda dur, gedif qayıdıram.

Deyif:

– Yaxşı. Onda maa bir dənə nişana ver, mən bilim ki, sən həqiqətən qayıdessən. Bəlkə çıxdın getdin, heş qayıtmadın.

Məhəbbət buna güj eliyif, barmağınnan üzüyü çıxardıf verif həmən qıza. Keçif gedif. Qayıdıf gələndə görüf booy, bayax qız oturduğu yerdə indi mənim kimi bir ölü-ütüh, beli əyri qoja oturuf.

– A, burdakı qız nejoldu?

Deyif:

– O mənəm.

– Ay arvad, sən nə danışırsan. O dünya gözəli qızdı, mən ona aşiq olmuşam.

Deyif:

– Elə o mənəm.

Deyif:

– Onda mənim üzüyümü ver, mən səni isdəmirəm, mən o gözəl qıza aşiq idim. İndi ki, sənsən, üzüyümü ver.

Üzüyümü ver deyəndə üzüyü tulluyuf suya, deyif:

– Odey, suyun içində, əlii sal, götür.

Bu əlini salır suyun divinnən bir qoşa ovuc qum götürür. Götürəndə baxıfdı ki, həmən qumlar hərəsi bunun üzüyü formada bir üzük oldu. Bunnan bu adam dərk eliyif ki, demək Süleyman peyğəmbər tək mən deyiləm. Milyonnarnan mənim kimi Süleyman peyğəmbərlər məhv oluf gedifdi.

Heləlihnən o da dünyasını dəyişif.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 27. SÜLEYMAN PEYĞƏMBƏRNƏN QARIŞQA

### I mətn

Süleyman peyğəmbərə Allah-tala nə qədər var verdisə, ona minnət qoymadı. Amma elm verəndə dedi:

– Sənə minnət qoyuram. Yanı elmini Allah yolunda istifadə elə.

Süleyman peyğəmbər bütün quşdarın dilini bilirdi, bütün cannıların dilini bilirdi.

Həzrəti Süleymannan bir dəfə soruşullar ki, ya Süleyman, sən bu qədər tədbiri, ağılı hardan örgəndin? Deyir:

– Birinci, Allahım verdi, ikinci, qarışqadan örgəndim.

Deyir:

– Qarışqadan nətər örgəndin?

Deyir:

– Bir dəfə qoşunnan filan məmləkətdən filan məmləkətə gedirdih. Dərədən keçəndə gördüm qarışqaların başçısı ətrafındakılara deyir ki, ayə, Süleyman peyğəmbərin qoşunu gəlir, birdən bilməz sizi ayaxlıyar, yuvalarınıza girin.

Elə hadisələr var ki, orda çıxıf "mən iyidəm" deyif sinəni qabağa verməhnən bir iyiddih olmur. Orda da tədbir lazımdı. Yəni burda Süleyman peyğəmbər deyir ki, mən ağlı o qarışqanın dediyinnən örgəndim ki, öz ətrafına başa saldı ki, bilə-bilməz, qoşun sizi ayaxlıyar, öz yerinizə çəkilin.

### II mətn

Bir atdı qarışqa gedir, bir dənə buğda aparır ağzında. Deyir:

– Ey qarışqa, bu bir buğdanın çəkisi sənin özünnən ağırdı, sən bunu neynirsən?

Deyir:

– Bu bir buğdanın onda bir hissəsi mənim bir ilimin azuqəsidi. Mən bunu aparıram.

Deyir:

– Belədisə, sən bir buğdanı neynirsən?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Elə vaxt ola bilər ki, mən bu bir buğdanı tapıb apara bilmərəm. İndi bu buğdanı aparıram ki, gələcəh yeddi ilim üçün ehtiyatım olsun. Bir buğda mənim yeddi ilimin azuqəsidi.

Süleyman peyğəmbər bunu götürüf qoyur bir qutuya, para da buğda qoyur. Deyir:

– İndi görüm bu buğda bir ilə bəs edərmi?

Bir ildə qarışqa para buğdanın parasını yemir. Deyir ki, həqiqi də Allah-talanın möcüzəsinə bax ki, bunun ortasının incəliyi sap qədərdi, bu, bir ildə bir buğdanın dörtdə bir hissəsini yeyifdi.

## 28. KÜLƏKDƏN QORXAN PEYĞƏMBƏR

Süleyman peyğəmbər küləh əsəndə yatırmış. Küləh bir gün, iki gün əssin, yenə də başınnan kürkün çəkməzmiş. O qədər küləhdən xoşu gəlmirmiş.

## 29. QOYUN, QARNINIZ TOX, GÖZÜNÜZ AC OLSUN

Süleyman peyğəmbərin bir çobanı varmış. Bu çoban sürünü aparıf hər gün otarıf gətirirmiş. Qoyun yeyirmiş, yeyirmiş, gəlirmiş. Süleyman peyğəmbər qoyunnardan soruşur ki, deyin görüm, çobannarım sizi nətər otardı? Deyir:

– Ajınnan qırılırıx, vallah.

Bir dəfə, iki dəfə, axırda peyğəmbər bir gün fikirrəşir ki, mən çoban libasını geyinim, elə bu qoyunu özüm aparım otarım. Nəysə, çobanın libasını geyinir, aparır qoyunnarı otarır. Axşam gətirir sürünü doldurur kərəskiyə*. Livasın dəyişir, gəlir qoyunnara deyir:

– Qoyunnar, çobannar sizi nətər otardı?

Deyir:

– Vallah, ajınnan qırdı bizi.

Deyir:

– Gedin, həmişə qarnınız tox, gözünüz aj olsun.

İndi ona görə də qoyunun gözü doymur.

---

* kərəskə - tövlə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 30. MUSA PEYĞƏMBƏRİN ALLAHLIĞI

Bir gün Musa peyğəmbər Allaha deyir ki, sənnən allahlığı isdiyirəm bircə günnüh, şeytannan hesabım var, onu çəkim, onnan sora gənə də sənindi. Deyir:

– Get, verdim.

Bu gəlir harda nə qədər şeytan varsa, əmr eliyir yığışın bura. Bir yekə quyuya buların hamısın doldurur, ağzın möhkəm bağlıyır. Bağlıyır, deyir:

– Burdan çıxammıyessiz.

Bu gəlir evinə. Ayə, gəlir ki, bunun evi boşdu. Qardaşı yoxdu, əmisi oğlu yoxdu, camaat yoxdu, heş kəs yoxdu. Ə, bu camaat hara getdi. Ayna-bayna baxır, görür ə, sən öl, qəbirstannıx tərəfdən səs-küy gəlir. Yavaş-yavaş gəlir bura. Görür, sən öl, bir haydadı ki camaat.

– Ə, nə iş görürsünüz?

– Ya peyğəmbər, axırı ölüm döyül? Bax, bu qavırı qazırıx, uzanışajeyih bura. Neynirih tutaşa-tutaşa, vuruşa-vuruşa yaşıyax.

– Ə, bu nə hak-hesabdı?

Səda gəlir ki, ya peyğəmbər, get quyunun ağzını aç. Quyunun ağzını açır. Şeytan gəlir bu uzanannarın birinə deyir:

– Ə, burda niyə uzanmısan?

Deyir:

– Axırı ölüm döyül?

Deyir:

– Evin tikilsin, qardaşın səni alladıf göndərif, məhləni-bajanı hamısını keçirif əlinə.

– Sən canı?

Deyif:

– Sən öl, hə.

Durur tərpənir. Peyğəmbər baxır ki, doğrudan da, camaat ayannan bəri tökülüf gəlir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 31. MUSA PEYĞƏMBƏRNƏN ÇOBAN

Həzrəti Musa Turi-Sənaya gedirdi Allahnan kəlam kəsməyə. Görür bir çoban dağın başında qoyun otarır. Çobana salam verir, salam alır. Deyir:

– Çoban, bir yuxarı bax, gör nə görürsən.

Deyir:

– Ya Musa, bulud görürəm.

Deyir:

– O bulud yağajax?

Deyir:

– Ya Musa, mən bilirəm, bulud qısırdı, yağmıyajax.

Həzrəti Musa gedir Turi-Sənada Allahnan kəlam kəsir. Deyir:

– İlahi yarəbbim, belə bir şey var.

Deyir:

– Bəli, çoban düz deyir, o bulud qısırdı, yağmıyajax.

Deyir:

– İlahi-pərvədigar, məni çobanın yanında yalançı eləmə.

Bir möhkəm yağış yağır, çoban təpədən dırnağa isdanır. Deyir:

– Ə, bə deyirdin bulud qısırdı?

Deyir:

– Ya Musa, bulud qısır olmağına qısır idi, amma orda bir kələk oldu. Kələk olmasa, yağan deyildi.

## 32. FATİHƏ SURƏSİNİN SAVABI

Həzrəti peyğəmbərin özünün sağ vaxdı Mədinə şəhərində bir kişi dünyasını dəyişdi. Yaxşı dəvələri vardı. Bu ərəflər dəvəyə həris millətdi. Bu kişinin böyüh sürüsü qalmışdı. Bunun bir oğlu vardı. Gejə yatdı, yuxusunda gördü ki, atası buna deyir ki, oğul, apar o dəvənin birini ver peyğəmbərə, mana bir fatihə oxut. Səhər durdu dedi: "Əşi, yuxudu dana. Hər gejə birini görürük". İkinci gejə bir də, üçüncü gejə bir də. Axırda anasına dedi:

– Ana, mən hər gejə atamı yuxumda görürəm. Atam da mana deyir ki, apar o dəvənin birini ver, fatihə oxut mana.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– A bala, atan sənə bir belə var-döylət qoyuf, bir belə dəvə qoyuf, niyə sən onun dediyinə əməl etmirsən, bir dənə dəvəni qızırqalanırsan, qıymırsan? Get, apar ver.

Oğlan getdi dəvənin birini yedəhlədi. Küçəynən gedirdi, mənim kimi kasıb bir kişi dokqaza çıxmışdı. Gördü bir oğlan dəvə yedəyində gəlir. Dedi:

– A bala, hara gedirsən?

Dedi:

– Gedirəm peyğəmbərə bir fatihə oxudam, dədəm yuxuda maa tapşırıf, bu dəvəni də verəm ona.

Dedi:

– Ay bala, burdan ora xeylax yoldu. O fatihəni mən də bilirəm, oxuyum, elə dəvəni ver maa, kasıb adamam, onnan dolanım.

Dedi:

– De, verim.

Fatihə də Quranın başlanğıcıdı, yeddi ayədi. Bu kişi başdadı fatihə surəsini dedi. Bu oğlan buna tərs-tərs baxdı. Dedi:

– Niyə heylə baxırsan?

Dedi:

– Ə, sən məni hərifləmisən? Yeddi cümlə deyəssən, mən də bu yekəlihdə dəvəni saa verəjəm? Bir isbatlı şey oxuginan.

Dedi ki, oğul, Quranın başlanğıc surəsi budu elə. Bunnan isbatdı nə isdiyirsən?

Bular cəhləşə-cəhləşə* gəldilər düz peyğəmbərin yanına. Peyğəmbər bunnan soruşdu ki, a bala, nədi, nə cəhlidi? Dedi:

– Ya peyğəmbər, belə bir yuxu görmüşəm. Mən dəvəni gətirirəm, bu kişi də maa deyir mən bilirəm. Maa da yeddi cümlə söz dedi. İndi də dirənif ki, dəvəni verginən, oxumuşam.

Dedi:

– Oğul, qoy örgənim görüm nətər deyif. A kişi, de görüm.

Kişi fatihəni dedi. Dedi:

---

* cəhləşə-cəhləşə – mübahisə edə-edə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Hə, halalındı. Ver dəvəni ona.

Gedə bir də kirişkələndi*. Bir də kirişkələnəndə dedi:

– Qane eləmir səni?

– Ya peyğəmbər, nə deyim.

Dedi:

– Bura gəl.

Barmağını belə tutdu, dedi:

– Bax.

Barmağının ikisinin arasınnan belə baxanda gördü böyüh tərəzi quruluf, bunun dəvəsini qoyuflar tərəzinin bir gözünə, o yeddi ayə də bir gözündədi. Dəvə qalxıb göyün üzündə durufdu. Belə baxdı, baxdı, dedi:

– Nə görürsən?

Dedi:

– Belə-belə.

Dedi:

– Oğul, o Allah kalamının bir dənə la-ilahə-illallahı sənin yer üzündə olan bütün dəvələrinin dəyərinnən də artıxdı.

## 33. YERİN-GÖYÜN AĞIRLIĞI

### I mətn

Həzrət Əli eşidir ki, Rüsdəm Zal okqədər güjdü bir pəhlivan olufdu ki? Onun bir toppuzu varmış, atın arxasıynan sürüyə-sürüyə aparırmış. Onun cız aşdığı yerdə yeddi il ot bitmirmiş. İndi traktorlar arx çəkir, bir ildən sora görürsən kol-kos, ot basır. Amma bu yarğan açа-açа gedirmiş, orda ot bitmirmiş. Bu eşidir ki, Rüsdəm özünnən çox çıxıb. Bir gün deyir buna yerini tanıtmax lazımdı, bilsin kimdi, nəçidi, səni yaradan var.

Rüsdəm gəlib hardan keçəsidirsə, Həzrət Əli gəlif durur yolun qırağında. Həzrət Əli o qədər cüssəli adam olmuyuf. Ömər cüssəli, zəhmli adam oluf, amma Həzrət Əli boydan da alçarax şəxs oluf.

---

* kirişkələnmək – narahat olmaq



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gəlif durur bunun yolunun üsdündə. Bu da atnan gəlir, heş buna salam vermir. Görür bir balacarax adamdı da duruf. Buna salam vermiyif keçəndə bu ayağını qoyur həmən toppuzun üsdünə. Bu görür at dayandı. At dayananda atı təpikliyir ki, at çəksin dana. At nə qədər dartınırsa, yerinnən tərpənə bilmir. Belə çönüf geri baxır ki, həmən o balaca adam ayağını qoyufdu bunun toppuzunun üsdünə. Deyir:

– Ə, ayağı niyə qoymusan toppuzun üsdünə, ayağıı çəkginən. Qulağıı divinnən bir şillə vursam, yerə uzanassan.

Həzrət Əli deyir ki, vurmağa güjün var sənin? Bu, Rüsdəm Zala çox təcüblü gəlir. Atı qaytarır, yaxınnaşır buna. Əlini atır ki, bunu təkəlli tutsun, atsın havaya. Əlini atır yapışır qolunnan, nəkqədər dartırsa, görür yox ey, yerdən tərpənmir. İkiəlli yapışır, nətər güj verirsə, bir vədə baxır ki, artıx ayaxları girif yerə, atın qarnı dirənif torpağa. Atdan düşür, isdiyir ki, bunu götürsün, gənə güjü çatmır, özü dizinə qədər girir torpağa. Həzrət Əli əlinin biriynən bax belə tutur onu, tulluyur. İndi rəvayətdi, ağamın (Seyid Yusif ağanın – top.) dilinnən eşitmişəm, belə tulluyanda bu, gözüün o vaxt açır ki, əl-ayağı yerdən üzülüfdü, görünmür yer. Amma qarşısında ağ paltarrı bir şəxs duruf. Deyir:

– Məni bura kim atdı?

Deyir:

– Bədbaxt oğlu bədbaxt, denən "ədriki ya Əli, qədriki ya Əli". Yanı sənsən ya Əli, Allahın şiri, Allahın qüvvət verdiyi sənsən, mən döyüləm. Heylə de, bəlkə yerə düşəndə parçalanmıyasan.

Bu da dediklərin təkrar deyə-deyə düşür. Gəlib yerə çata-çatda Həzrət Əli əlini atır, tutuf qoyur yerə. Dizdərini qoyuf yerə, deyir ki, ya Əli, mən sənin dinini qəbul elədim, mən səni özümə ağa seşdim.

### II mətn

Bir gün Həzrət Əli durur xidmətçisini də götürür ki, Xeyri, dur gedəh bir el içində hərrənəh da. Bir çayın qırağınnan keçəndə görür ki, bir qoja kişi yanında da bir zənbil yornux oturuf. Deyir:

– Ey qoja, niyə burda oturmusan?

Deyifdi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ya Əli, yorulmuşam, zənbilim də ağırdı, götürə bilmirəm.

Deyəndə Xeyriyə deyir ki, düş bu qojanın zənbilini götür, qojanı qoy atın belinə, biznən getsin. Xeyri də çox qüvvəli imiş. Nə qədər güj verirsə, zənbili yerinnən qaldıra bilmir. Deyir:

– Ya Əli, vallah, bu, zənbilə nə yığıfsa, yerinnən tərpədə bilmirəm.

Həzrət Əli, deyir, qəzəbnən yerə nətər tullanırsa, dizə qədər torpağa qərq olur. Zənbilə əl atır, görür həqiqi də zənbil yerdən qalxmadı. İki dəfə güj verir, üçüncü dəfə yönün çöyürür, iki rükət namazın qılır. "Ya Allah, maa güj ver" deyif yerdən nətər qaldırırsa, özü boyda qaldırıf nətər tulluyursa, zənbil düz yerin yeddi qatına qədər qaplanır yerə. Həzrət Əlinin gözdərinə qan damır. Qayıdır görür ki, qoja yoxdu. Deyir:

– Ey Cəbrayıl, sən idin gənə qabağıma çıxdın? Sən iki dəfə cəhənnəmdə yanmısan, qanad-quyruğun yanıf-ütülənmiş halda mən azad eləmişəm. Üçüncü dəfə əlimə keşsən səni azad eliyə bilmiyəjəm. De görüm, Cəbrayıl, nə vardı bu zənbildə?

Deyir ki, sənin anadan olduğunu mən gözümnən görməsəm, səə Allah deyərdim. Ona görə ki, Allah-tala yernən-göyün ağırrığın o zənbildə birrəşdirmişdi. Mən sənin qüvvəni yoxlamax üçün Allah-tala tərəfinnən gəlmişdim bura. Yernən göyün qüvvətin qaldırajax qədər Allah-tala səə güj-qüvvət verifdi. Ta bu günnən belə sənin qarşına mən çıxmaram, ya Əli.

### III mətn

Günnərin bir günü şeytan Həzrət Əlinin qüvvəsini bilməh üçün dünyanın ağırrığını yığır dağarın içinə, qoja bir kişi sifətində yol qırağında oturur. Həzrət Əli gəlif bunun böyrünnən keçəndə görüf bir qoja kişidi. Həzrət Əli də qojalara qarşı çox hörmət eliyirdi. Hətta belə söhbət eliyillər ki, iki dəfə Məhəmməd peyğəmbər bunu pisdiyifdi. Hətta bir dəfə bu düşür qoja kişinin arxasına. Namaz vaxdıdı. Bu da namaz qılannarın qabağında durardı. Bunu gözdüyüllər, Əli gecikir. Qoja da xristian olur, yolnan gəlir. Həzrət Əli də bunu ayaxlıyıf keşməh isdəmir da. Bu da heş yerə dönmür. Ona



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

görə Həzrət Əli xeylağ gecikir. Özü də bilir. Məhəmməd peyğəmbərin buna bir az qəzəbi keçir. Deyir:

– Ey mənim peyğəmbərim, bir xristian qoja kişi düşmüşdü mənim qarşıma, mən onu ötüf keçə bimədim. O dönənnən sora mən yeyinnəşif gəlif çatmışam.

Həmən o şeytan dünyanın ağırrığın yığır dağara, özü də oturuf onun yanında. Həzrət Əli gəlif bunun böyrünnən keçəndə deyif ki, sən niyə burda oturmusan? Deyir:

– Qoja kişiyəm, dağarı dalıma qaldıran yoxdu, ona görə qalmışam günün altında.

Deyir:

– Gətir, mən qalxızım.

Həzrət Əli bilmir axı dünyanın ağırrığı burdadı. Bir dəfə əl atır, qalxmır, ikinci dəfə əl atır, qalxmır, üçüncü dəfə nətər güj verirsə, gözünə qan damır, dizdərinə kimi də yerə batır. Onnan sora şeytan deyir ki, yox ey, buna batmax mümkün deyil. Həzrət Əlinin adı onnan qırmızı göz Əli qalır.

## 34. PEYĞƏMBƏRDƏN NİCAT İSTƏYƏN ŞİR

Bir gün peyğəmbər Həzrəti Əli də yanında əsabalarıynan duruf söypət eliyirdi. Söypət eliyəndə görür ki, camahat pərən-pərən düşdü, hərəsi bir tərəfə çəkildi. Bunun bu tərəfində olan əsabaları keşdi bu üzə. Peyğəmbər Həzrəti Əlinin üzünə baxır, deyir:

– Ya Əli, bu nədi belə?

Həzrəti Əli gülür. Deyir ki, əmoğlu, narahat olma.

Bular deyir:

– Ya peyğəmbər, nə narahat olma? Bu tərəfdən – meşə tərəfdən bir şir çıxıf. Bir bədheybət şeydi, ayannan bəri gəlir.

Bular baxır ki, doğrudan da, heş bu boyda, gövdədə bir şir görünmüyüf. Ayannan bəri elə bilirsən bir dağ parçası yumalanır. Bu şir gəlir, nə Həzrəti Əli tərpənmir yerinnən, nə Həzrəti Məhəmməd. Buların heş biri tərpənmir, amma camahat hamısı qaçır bunnarın bu tərəfində yer tutullar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu şir gəlir bulara çatanda birinci Həzrəti Əliyə baş əyir, salam verir. Sora qayıdır həzrəti peyğəmbərimizə baş əyir, salam verir. Sora bu adamlara başıyla salam verir. Salamın verdi, qutarannan sora deyir ki, ya peyğəmbər, sənin yanına gəlmişəm, məni öz sifətimə qaytar. Öz sifətimə qaytar deyəndə, peyğəmbərə agah idi də hər şey. Burda yığışan məclis əhli, camahat bilmirdi ki, nə var işin içində. Bu dedi ki, mən niyə? Birinci salamı gələndə kimə verdin? Dedi ki, odey, ona verdim. Dedi:

– Di get ona da deginən.

Dedi:

– Yox, onnan qorxuram, ona yaxınnaşa bilmərəm.

Dedi:

– Nətər qorxursan, o mənim əmim oğludu, özü də mənnən otuz yaş balacadı, nəyə görə qorxursan?

Dedi:

– Eey, sən onu tanımırsan, sən onu yaxşı tanımırsan, lap əmin oğlu olsa da.

Güldü peyğəmbərimiz. Dedi ki, di danış görəh nəyə görə tanımıram. Dedi:

– Filan peyğəmbərin vaxtında şahın birinci qoşun böyüyü mən idim. – Baxdı ki, bu, bir neçə əsr bunnan qabağın söypətini danışır. – Şah əmr elədi ki, o peyğəmbər yolunu azıf, ağzına gələni danışır, bizim əleyhimizə çıxır. Get onun qollarını bağla, yanındakıları da öldür, özünü də gətir bura. – "Neçə nəfər götürüm?" Dedi: "Özün bil, neçəsini götürürsən götür". Bir beş nəfər adam götürdüm döyüşçülərdən, gəldim. O peyğəmbərin olacax yerinə bir üş yüz-beş yüz metr qalmış bax o (Həzrət Əli – top.) hardansa çıxdı qabağıma. Dedi: "Ə, bir dayan görüm". Deyir: "Dayandım". – "Nədi? Hara gedirsən?" Dedim: "Şahın əmridi, gedirəm filankəsin yanındakıları öldürəm, özünü də əsir eliyif aparam şahın yanına". Dedi: "Ə, qayıt get şahına denən ki, o sənin güjün çatası iş döyül. Qayıt geri". Əsgərlərin üzünə baxdım, dedim: "Ə, nə danışır, bunun başı xarafdı, bu nə deyir belə?" Əsgərlərə him elədim ki, bunu tutun. Əsgərlər buna yaxınnaşmax isdiyəndə nətər buğanax qopdusa,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tez gözümü belə tutdum. Bir də gözümü aşdım ki, əsgərlərin biri orda çabalıyır, biri burda çabalıyır, heş biri sağ döyül. Bir onu bildim ki, mana təpindi qayıt get.

Qayıtdım düz şahın yanına. Qorxumdan şaha deyə bilmədim ki, belə bir hadisə var. Dedim ki, onun yanındakılar da döyüşçüy-müş. Mənim o beş nəfər götdüyümü öldürdü, özü də gəlmədi. Bu dəfə şah dedi ki, ə, əməlli dəsdə götürüf gedə bilmirsən. Bu dəfə otuz adam götdüm, otuzu da o kökə düşdü. Yüz adam götürdüm axırıncı gələndə. Dedim ki, ə, bir adamdı, amma bərk döyüşçüdü, ona bat-max hər adamın işi döyül. Hər tərəfdən tökülürsünüz, elə eliyirsiniz ki, birinizə hücüm eliyəndə arxadan, başdan, böyürdən vurursunuz nizəynən. Uzun nizələr götdülər, neynədilər. Gəldih, deyir, bura yaxınnaşanda gənə həmən vəziyət yarandı. Bir vədə gözümü aşdım ki, təhcəjənə qalmışam. Əlini atdı, deyir, atın üsdünnən məni götdü, nətər belə yerə çırpdısa, huşumu itirdim. Gözümü açanda gördüm belə maa duruf tamaşa eliyir. Dedi: "Səni üş dəfə göndərdim, ə, nəhlət-dəmə, niyə qayıtmısan? İndi səni elə sıfata salajam ki, heş onun da yanına qayıda bilmiyəssən. O vaxtdan mən düşmüşəm şir sıfatına".

Dedi:

– Ə, bir neçə əsr bunnan qavax Həzrət Əli bu dünyadaydı?

Rəvayətə görə, peyğəmbərimiz oların hər işini bilirdi. Cama-hata aydın olsun deyə, dedi ki, ə, mən Məkkə şəhərində o ibadət-gahın özünə bunun anasının girif səhər gün çıxanda qujağında Həzrət Əli çıxdığını gözümnən görməsəydim, nözənbillah, deyərdim bu Allahdı. Axı bunu gözümnən görmüşəm ki, axşamnan anası ağrı çəkif, gedif girifdi o ibadət yerinə, Allahın evinə. Darvazalar öz-özü-nə bağlanıf, səhər də öz-özünə açılıf, ana qujağında bu uşax çıxıf. Özü də deyif ki, ay camahat, bunun adı Əlidi. Allah tərəfinnən qoyu-lan addı. İndi sən maa deyirsən beş əsr bunnan qavax yaşıyıb.

Dedi:

– Başına dönüm, məni dağa-daşa salma, məni öz sıfatıma qaytar. Mən də sənin qullarınnan birinə çöyrüləjəm.

Onnan sora peyğəmbər duanı oxudu haqq dərgahına, dedi ki, ilahi, bu, bizdən nicat isdiyir. Bunnan sora o, qayıtdı öz sıfatına düşdü.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 35. ATIN ÜZƏNGİSİNƏ ÇIXAN QAN

Buyünkü gündə (Ramazan ayını nəzərdə tutur – top.) Cənab Əli Əleyhsalamı da yada salax. Cənab Əli Əleyhsalama Allah-tala o qədər qüdrət, səxavət vermişdi ki, o qüdrətə, qüvvətə görə onun bir o qədər də səxavəti, sədaqəti vardı. Cənabi Əlinin bir atı vardı, adı Düldül idi. Şəhadət barmağını belə götürəndə Düldül harda olsa gəlif pişih təki qarnını yerə verif elə uzanarmış ki, Əlinin bərabərində durardı. Əli əziyyətsiz suvar olarmış Düldülə. Düldül yerinnən elə qalxarmış ki, Əlinin başında əmmaməsi tərpənməzdi. Əlinin bir qılıncı varmış ki, bir arşın uzunnuğu, bir qarış da eni varmış. Arxası da kəsərmiş, ağzı da kəskin imiş. Cənab Əli müharibəyə gedəndə qılıncını bir dəfə hərriyəndə yeddi metr sağa, yeddi metr sola, yeddi arxaya, yeddi önə bütün düşməni qırıf-töküf gedərmiş. Arvatdar qarğış edəndə deyərmiş "səni Əlinin qəzəbinə gələsən", "Əlinin Zülfüqarına düçar olasan". Allah cəmi bəndəsini Əlinin qəzəbinnən qorusun, Əlinin Zülfüqarınnan qorusun. Əlinin səxavətinə qismət eləsin.

Allah-tala Əlini Məhəmməd peyğəmbərimiz (salavat çəkir – top.) üçün canişin yaratmışmış. Məhəmməd peyğəmbər hər vaxt müharibəyə gedəndə Cənab Əliynən gedirmiş. Bir dəfə düşman gəlir peyğəmbərimizi müharibəyə çağıranda Əli uzax bir səfərdə oluf. Bu, Əlisiz gedif müharibəyə, çox böyüh itki verif. Peyğəmbərimizin adamlarının çoxu şəhid oluf, özü dörd-beş yerdən ağır yara alıf, qan itirif. Axır halında əl götürüf Cənab Əlini çağırır:

– Ya Əli, harayıma gəl, tək qalmışam meydanda, – deyəndə altı aylıx yoldan Əlinin qulağına səda gəlif. Qalxıf deyir:

– Qənbər, peyğəmbərimiz məni çağırır, getdih.

Qənbər də bunun sadiq qulu idi. Deyir:

– Ya Əli, nə bildin?

Dedi:

– Ağamın səsi qulağıma gəldi.

Altı aylıx yolu Cənab Əli bir su içim saatda gəlir, özünü yetirir peyğəmbərə.

– Ya peğəmbərim, nədi, məğlubiyyətə uğramısan?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Hə, ya Əli, bəs düşman güjdü oldu.

Deyir, Əli özünü vurur qoşuna. Orda nətəri qəzəflənirsə, and içir ki, qan atımın üzəngisinə qədər çıxmıyınca mən döyüşdən qayıtmıyajam. O qədər qırır insanı. Allah-tala görür Əli o qədər qəzəflənifdi, dünya üzündə insan qalmıyajaxdı. Əmr eliyir Mikayıla, deyir:

– Eylə bir yağış yağdırarsan ki, qana qarışar, Əlinin atının üzəngisinə qədər qannı su qalxar. Bəlkə Əli bu yolnan qayıda. Yoxsa Əli bərk qəzəflənif, qayıtmıyajax.

Allah Əlinin qəzəbinnən qorusun cəmi bəndələrini. Cəbrayıl hökm eliyir Mikayıl mələyə. Göy üzünnən yağışı endirən odu. Elə bir leysan yağış yağır ki, sel-su qalxır düz Əlinin atının üzəngisinə qədər. Onnan sora Əli deyir hə, da atımın üzəngisinə qalxdı, davadan qayıdır. Allah Əlinin qəzəbinnən cəmi bəndəsini qorusun.

## 36. AĞIL VARDAN ÜSTÜNDÜR

Deyir ki, Allah-tala kimə var verərsə, ona minnət qoymaz. Amma ağıl, elm verərsə, ona minnət qoyur. Ağlı, imkanı olannan, elmi olannan Allahın da xoşu gəlir.

İki nəfər – biri Şam şəhərinnən olub, biri də başqa şəhərdən. Yadıma düşəndə deyəjəm (söyləyici ikinci şəhərin adını yadına sala bilmədi – top.) Bular qarşı-qarşıya gəlif başdadılar mübahisə eləməyə. Mübahisə eliyəndə biri gəldi, dedi:

– Ə qardaş, nədi, niyə mübahisə edirsiz?

Dedi:

– Ə, buna bax. Bu mana deyir ki, a kişi, pulun oldu, adamın oldu, varın oldu, hər şey sənindi.

– Ə, bəs sən nə deyirsən?

Deyir:

– Mən də deyirəm ki, elmin oldu, ağlın oldu, hər şey sənindi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Belə-belə, bu Şam şəhərinin adamları buna tərəf çıxdı, bu biri şəhərin adamları ona tərəf çıxdı. Məclis, mərəkə böyüdü. Bu keşdi böyük mağlətəyə*. Bir ağıllı şəxs idi, böyürdən çıxdı, dedi:

– Ə qardaş.

Dedi:

– Bəli.

Dedi:

– Nədi cəhliniz?

Dedi belə-belə. Dedi:

– Ə, Həzrət Əli Mədinədə oturufdu, xəlifəlik eliyir. Nümayəndə seçəh, gedəh onun yanına. Ona sual verəh, görəh hansıdı düz.

Nəysə, seşdilər nümayəndələri. Bulardan beş nəfər, olardan beş nəfər. Bular gəldilər Mədinə şəhərində Həzrət Əlinin qəbuluna. Həzrət Əli dedi ki, ay Şam şəhərinin əhalisi, de görəh nədi, nə söypətdi. Dedi:

– Ya Əli, biz deyirih ki, varın oldu, pulun oldu, imkanın oldu dünya sənindi.

– Bəs siz nə deyirsiniz?

Dedi:

– Biz də deyirik ki, elmin oldu, savadın oldu, hər şey sənindi.

Dedi:

– Ay Şam şəhərinin əhalisi. Sizin dediyiniz səyf sözdü. Bax, izah eliyim sizə. Varın ola, canını ona çəpər eliyərsən. Allah sən saxla, gəldilər apardılar. Əyə, tutulajam, əldən çıxajax. Varın o devrə qədərdi ki, sənin başın yerə gəlir. Onda sənə lazım olan neçə metr kəfəndisə, o olajax. O vardan saa çatası bir şey yoxdu. O sənin evlad, uşax, qohum-əqraban arasında parçalanmaya səbəb olajax. Birinə artıx gedəjəh, birinə əysih gedəjəh, o razı qalajax, bu narazı qalajax, sənin üzünə də sözdər gələjəh. Var o devrdə Allah-tala tərəfinnən sana verilir ki, sən bu dünyanı da, o biri dünyanı da qazanasan. Səxavət ona görədi ki, əliaçıxlıx edəsən, o biri dünyana bir şey yığasan. Amma elmin olarsa, Sirac körpüsünnən gözüyumulu keçirər səni.

---

* mağlətə – dava-dalaş, mübahisə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çünkü ağlın var. Nətər olur bu isdolu düzəldif üsdünə klyonka salana deyirsən ki, əlin var olsun, nə gözəl düzəltmisən. Amma dünyanı bizim üçün yaradan, bu cürə şəraitdər verən, suyu bizə paklıx üçün göndərən, torpağı bizə becərməh üçün, çörəh üçün göndərən o qüdrət sahibini dərk eləmiyəh ki, belə bir böyüh, belə bir ilahi qüvvə var. Bunu ağıllı adamlar dərk edər. Ağılsız adamlardan pul yığan oldu, məsələn, Firon, Şəddad. Bular allahlıx iddiasına düşdü. Amma elm sahibləri elmləndihcə Allah qarşısında kiçiliflər.

## 37. SAİLİ BORCDAN QURTARAN ƏLİ

Bir gün bir sayıl gəlir Əlinin qapısında ağlıyır. Əli deyir:

– Ey sayıl, nədi isdəyin?

Deyir:

– Ya Əli, canım sənə fəda olsun, var-qərəl, gözümün nuru bircə dənə evladım var. Bəs bir sələmçidən pul götürmüşəm, indi bir il tamam oluf, mən də düzəldif verə bilmədim. Sələmçi gəlif mənim oğlumu girov götürüf. Qalmışam belə. Nə pulu verə bilirəm, oğlumu da aparıf. Mən neyniyim?

Deyir:

– Gəl gedək.

Bu sayılın qavağına düşür, gəlir sələmçinin yanına. Deyir ki, de görüm, ey sələmçi, bu adamı niyə girov götürmüsən. Deyir ki, bir ildi mənnən pul götürüf, vermir. Mən də oğlun götürmüşəm, aparıf satıf qul bazarında pulumu çıxajam. Deyəndə Cənab Əli deyir ki, bunun evladını ver, mən bunun sələmini ödüyəjəm. Deyif:

– Nə vaxta qədər?

Deyir:

– Gün günortaya gələnə qədər mən bunun sələmini ödüyəjəm, bunun evladını ver.

Deyir:

– Onda sən mənim yanımda girov qoymalısan, mən girovsuz oğlanı azad etmərəm, – deyəndə Cənab Əli öz evlatdarı İmam



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Həsənnən İmam Hüseyni – yeddi yaşında uşaxmış – bunnarı qoyur bu sələmçinin yanında. Deyir:

– Saxla, mən günortaya qədər pulu gətirif evlatdarımı götürəjəm.

Bu uşaxlar qalır burda. Uşaxlar burda oynuya-oynuya keçir məhlənin divində bir xurma ağacının altında oynaşıllar. Bir dənə də ahu balası... Bu bir misaldı ki, günü günortadan qaytarıf, saili borşdan qutarıf, ahunu balasına yetirən kişi cəmi azru diləhlərinizi yerinə yetirsin. Bir ahu balası da oynuya-oynuya gəlif xurma ağacının divinə. İmam Həsənnən İmam Hüseyn bu ahu balasını sığallıya-sığallıya buları yuxu tutur, yatır. Buları yuxu tutanda Allahın hökmüynən elə bir yağış yağır, elə bir leysan düşür ki, bütün dünyanı su götürür. Bağ-bosdanı sel aparır. Bu sələmçi deyir ki, tifağın dağılsın ay canım, girov götdüyüm uşaxları sel apardı, mən qaldım belə. Bu adam pulu gətsə, mən nə cavab verəjəm.

Cənab Əli gedir pulu hardan götürürsə elə olur ki, yarım saat pul gej çatır. Əli üzünü qivləyə çöyürür, bir rükət namazını qılır, Allah-talaya deyir:

– Ey Allah-tala, məni yalan eləmə bəndənin yanında, gün yarım saat qayıtsın geri.

Allah-talanın izniynən gün yarım saat qayıdır geriyə, düz durur tən ortada. Əli gəlir pulu verir. Deyir:

– Pulun düz oldumu? İndi mənim balalarımı gətir.

Belə deyəndə bu, hönkür-hönkür ağlıyır. Deyir:

– Ya Əli, yanında üzü qarayam. Bəs uşaxlar oynaşırdı bağda, qəfil yağış yağdı, sel gəldi, nə var hamısını yudu apardı. Yəqin ki, uşaxları da sel apardı.

Əli deyir:

– Mənim evlatdarımı sel aparmaz.

Bir dəfə çəliyini o üzə, bu üzə eliyir, sel yarılır, yol açılır. Cənab Əli gedir görür ki, balaları ikisi də qujaxlaşıf, ahu balası da buların qujağında yatıfdılar. Bu zonaya elə bil çəpər çəkmisən, bir damcı yağış belə düşmüyüfdü. Ahu da qalıf o üzdə məliyə-məliyə. Bu, uşaxlarını oyadıf. Cənab Əli əliynən işarə eliyir, yol açılır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ahunun balası gedir öz anasına qavışır, Cənab Əli də öz balalarını götürür gəlir. Cənab Əlinin heylə səxavətdəri çox oluf.

## 38. AHUNU BALASINA YETİRƏN ƏLİ

Bir ovçu olur. Tor qurur, tora ahu düşür. Bir şəxsi də gəlir, baxır görür ki, ahu yalvarır. Ovçuya deyir ki, toru aç, ahunu boşda. Deyir:

– Ə, dəlisən? Tor qurmuşam ahu tutmağa, sən də deyirsən boşda.

Deyir ki, bunun balası var, getsin balasını əmizdirsin gəlsin. Deyəndə deyir ki, yox, heylə də şey olar, mən vəşi heyvanı açam boşduyam. O gəlmiyəjəh. Deyir:

– Gəlmiyəjəh, onda ahunun yerinə məni sal tora.

Tora salır, gözdüyür. Rəvayət bunu deyir ki, ahu gej gəlir. Gəlir Əlinin yanında ağlıyır. Deyir:

– Niyə gej gəldin?

Deyir:

– Onun üçün gej gəldim ki, ya Əli, ifdarı gözdüyürdüm, ifdar açılsın, balamı əmizdirim. Onnan sora gəlim.

Bu da deyir ki, ə, bu ahu orucu, namazı bilir, mən insan olam bunu bilmiyəm. Bunu açıf azad eliyir.

## 39. HƏZRƏT ƏLİYNƏN SALSAL PƏHLİVAN

Kəlbəcərdə qaya oluf, ordan iki at yan-yana keçə bilmir. Bir dənə Salsal pəhlivan varmış. Da onun qabağınnan heş kəs keçmirmiş. Bir dənə lüt quş peydah oluf dağda, ətrafınnan kim keşsə sümürüf çəkirmiş. Salsal pəhlivana deyillər ki, bu quşun qabağınnan nə keçir, sümürüf çəkir. Qorxusunnan heş kəs o tərəfə gedə bilmir. Deyir, məni aparın onun yanına. Bir dənə qılış qayırtdırır, iki tərəfinnən tutur. Quş bunu çəkəndə qılıncı verir bunun ağzına. Quş bunu sümürdühcə qılınc onu iki bölür.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sora Salsal pəhlivan Cənab Əliynən bu qoşa qayadan keşməli olur ki, görəh bunun hansı güjdüdü. İkisi də atı qoşa ordan sürür, atdar keçir, qaya uçur tökülür.

## 40. HƏZRƏT ƏLİYNƏN GAVUR

Söypət ordan-burdan düşdü, dedi mənim qonşuluğumda müharibə vaxdı plen düşür bir adam. Plennərin başçısı bunu – Yevlaxdan olanı çağırır. Deyir: "Bura gəl". Gəlir bunun yanına. Deyir: "Sən öl, bu, məni öldürməyə aparır".

Bunu alır yanına, gəlir bir binaya girir. Yeriyillər, qapı açılır, yeriyillər, qapı açılır. Axırıncı qapı açılanda bu pleni gətirən adam girif içəri deyir ki, sən deyən adamı gətirmişəm. İçəridəki adam deyir: "Gətirmisən, sən çıx get".

Bu plen görür ki, bu evin içinə ikinci bir adam girə bilmir. Qapının ağzında durur. Kreslonun üsdündə oturmuş bir adamdı, deyir, gözdəri örtülüdü, ət alıf. Əlinnən əti qaldırdı beləsinə, baxdı maa. Dedi ki, qorxma, saa iki-üş nişangah yerlər deyəjəm. Eşitmişəm Yevlağ tərəfdənsən. Deyir: "Qala təpə". Deyir: "Tanıyıram". Deyir: "Üş təpə". Deyir: "Tanıyıram". Deyir: "Soltanbud təpə". Deyir: "Tanıyıram". Axırda buna Törə təpəni deyir. Deyir:

– Həmin o Törə təpənin üsdündə Cənab Əliynən mən güləşmişəm üş sutka, – kresloda oturan adam deyir, – axırda Cənab Əli qeyzə gəlif qurşağımdan tutuf qaldırıf məni o təpənin üsdünə nətər vurufsa, buratan girmişəm torpağa. Axırı əlini atdı qurşağımdan tutdu, çıxartdı. Əlini vurdu kürəyimə, maa dedi ki, ölmə gavurum, ölmə. Həmən gavuram mən. O vaxt öləjəm Cənab Əliynən üzbəüz gələndə. Sən narahat olma. O böyüyə tapşırmışam, səni buraxajaxlar, gedəssən.

Elə onun hesabına məni buraxdılar, gəldim.

## 41. ŞƏDDATIN CƏNNƏT TİKDİRMƏSİ

Deyilənə görə, Şəddat deyir ki, ə, Allah-tala cənnəti səkgiz yaradıf, birini də mən yaradajam, olajax doqquz. Bular iki qardaş olur, ikisinin şahlığın birrəşdirillər. Bu kiçih qardaş allahlıx iddia-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sına düşür. Elə bil ərazisində nə qədər ustalar var, nə qədər zaddar var tökdürür, belə bir bağ salassınız, belə tikili tikəssiniz, bu ağaşdar nə bilim qızıldan olajax.

Deyilənə görə bağ hazır olanda, Səddata xəbər verillər ki, hazırdı, gəl. Gəlir, bir sutkalıx yol qalanda, deyir:

– Burda bir az dincələh, səhərrəri gedərih.

Oranın da adını Bağı-İrəm qoydurur. O gejə də bunun vaxdı tamam olur. Azreyil kəsir başının üsdünü, heş bu gedif oranı görə bilmir. Onun ətrafında olannar hamısı deyir ki, gedəh biz özümüz o bağı, cənnət adlanan yeri axtarax tapax, oranı ziyarət eliyəh, görəh nətərdi.

Gəlillər, nəkqədər gəzillərsə, heş nə tapa bilmillər. Bu, Allahtala tərəfinnən qeybə çəkilən bir sahə olur.

Bir kişinin dəvəsi itir, Abdullah adında. Bu kişi dəvəsini gəzə-gəzə gedəndə, deyilənə görə, mən gənə də onu şifahi eşitmişəm, görür bir adam duruf. Dayanan adam bunnan soruşur ki, hara gedirsən. Deyir ki, mənim dəvəm itif, o dəvəni gəzirəm. Deyir:

– Dəvən elə bil yerə gedif çıxıf ki, sənin ora getməyin möcüzə olar.

Deyir ki, nətər yanı möcüzə olar? Deyir:

– Bağı-İrəm eşitmisən?

Deyir:

– Hə, eşitmişəm.

Deyir ki, sənin dəvən ordadı.

– Ə, başına dönüm, mana nağıl danışma, onun bir istiqamətini de, gedim ora tərəfə.

Deyir ki, onun istiqaməti bax bude, buraynan belə gedəssən, orda hasara rast gələssən, qalaya rast gələssən, filan-peşməkan. Seyid Yusif ağanın dediyinə görə, ona yol gösdərən şəxs Xıdır İlyas oluf. Bu kişi gedir dəvəni tapır. Görür ki, hər tərəf ləl-cəvahirdi, bütün yer-yurd, döşəmə-zad hamısı qızıldı. Yığır yığışdırır, indi nəyi varmış – torvası-zadı, bir az da yığır içinə. Dəvənin ovsarınnan tutur, çəkə-çəkə gəlir. Bunun qavağına çıxıllar ki, sən hardan gəlirsən? Deyir:

– Bağı-İrəmdən gəlirəm.

– Ə, Bağı-İrəm nə deməkdi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Ə, cənnətdi ey ora. Hər tərəf qızıl, ləl-cəvahirdi.

– Ə, gəl gedək bizə gösdər.

Deyir:

– Gedəh da, odey, filan yerdədi. Mən də bir belə götürmüşəm.

Gəlillər, nə qədər gəzillər, tapa bilmillər. O kişiyə yol gösdərən Xıdır İlyas olur. O da gedir tapır o bağı, ordan da özünə nə qədər yaşıyacaxsa ruzu götürür.

## PİRLƏR VƏ OCAQLAR HAQQINDA

## 42. SEYİD HÜSEYN AĞA

### I mətn

Mənim qardaşım Süleyman mənnən altı-yeddi yaş böyükdü. Şahitdi o da. Bu kəntdəki yaşdı adamların əksəriyyəti şahitdi. Hay düşdü kü, körpüdən dəvə düşüf. Yevlaxda Dəvəçi İsa var idi. Dəvəni yüklüyürdü bəhməznən, tut qurusunnan, üzü belə kəntdəri gəzirdi, paylıyırdı. Aldığı pula taxıl-zad alıf gəlif buraynan gedirdi. Ayrı da yol yoxdu, dəvə gərəh o dəmir körpüdən keşsin. İndi dəvə bu körpüdən keçəndə – bunu bütün kənd bilir, bu epizodu gözüynən görənnər çoxdu, – dəvənin iki qavax qollar çıxıb betonun üsdünə, dal qılçaları hərəsi şpalın biri burasınnan, biri o biri tərəfinnən düşüf aşağı. İndi dəvə nə qədər eliyir, qalxa bilmir. Millət tökülmüşdü. Mənim də o vaxdı beş-altı yaşım vardı. Elə qaçışırıx, belə qaçışırıx, görəh bu nədi. Nə qədər dartıllar, dəvə qalxmır. Bir də gördüh Seyid Hüseyn ağa gəlir. Əlində ağac çəliyi vardı. Yaxınnaşanda acıxlı dedi:

– Nə yığışmısız? Belə durun görüm.

Hamı çəkildi. Bircə dəfə çəliyi belə vuruf dedi:

– Dur ayağa, Allahın heyvanı.

Özünün göru haqqı, elə bil dəvəni altdan qılçalarınnan tutuf dik tulladılar. Dəvə sıçradı qalxdı. İsa kişi düşdü Seyidin əl-ayağına. İndi duz kimi yalıyır.

– Ay Allahın bəndəsi, əl çək mənnən.

Bax, Seyidin belə hökümlərini gözüynən görən kəntdə çoxdu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## II mətn

Köhnə dəmiryolu deyirik, indi o dəmiryolu yoxdu. Müharibədən sora ora ləğv olundu, başqa yerdən çəkildi. Deməк, dəvə karvanı körpüdən keçəndə dəvənin ayaxları şpalın arasınnan düşür. Düşənnən sora kənd camaatı yığışıf bunu çıxarda bilmir. Dəvəni əlnən qaldırmax olmur axı. Dəvənin yükünü alıllar, mümkün olmur. Atam danışır ki, bütün kənd camaatı yığışıf. Bir də gördük ki... Seyid Hüseyn ağa, balacaboy kişi oluf. Üzünnən nur tökülür. Adam elə onun şəklinə baxıf doyur. Nəysə, gəlir, əlində çəlik. – "Noluf, noluf, ay camaat, bura niyə yığışmısız?" Deyiflər ki, ağa, bəs dəvənin qılçalara şpalın arasınnan düşüf, çıxarda bilmirik. Poyuz da haxlıyıf.

Deyif:

– Heş nə olmaz. İnşallah, Allahın köməkliyiynən çıxar.

Ona bir çəlik vurur: "Ay Allahın heyvanı, qalx". Onnan dəvə sıçrıyıf qırağa çıxır. Dəvəçi deyir ki, o kim idi, nəçiydi. Deyillər ki, Seyid Hüseyn ağadı. Bunun əl-ayağına döşənər. Deyər ki, ağa, bu dəvənin yükünü mən sənə nəzir elədim. – "Ay balam, etmə, eləmə, neynirəm". Deyif:

– Yox.

Götürüf gəlif bax bu araya. Zeynəb adında bir arvad vardı, dörd uşağı vardı. Əri o vaxdı müharibəyə gedif gəlməmişdi. Onu çağırdılar, gəldi. Dedi ki, Zeynəb bajı, o unu, – dəvənin yükü də un imiş, – ovuc-ovuc payla, nöybə sənə çatanda bir ovuc da öz ətəyinə tök.

– Ay ağa, bəs sənə qalmadı.

Deyif ki, mənə Allah verəjəh. Belə-belə o dəvənin yükünün hamısını paylatdı.

## III mətn

Ajdıx illəri idi. Özünün goru haqqı, gözümün qabağında olan şeydi. Bax, o cam durur orda. İndi bilmirəm harda saxladıxlarını. Bir belə dəmir yazılı cam idi. O kişinin bir dağarı var idi. O dağar on iki kilo un tutardı. O kişi gedirdi Əli Bayramlıya, – arvadı o tərəfdən idi, – qayıdıb gələndə o dağarda təhminən səkkiz kilo, on kilo un olardı. Bizim də bu kəntdə cəmi iyirmi iki ev var idi. Ordan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çıxırdı, çağırırdı ki, bura gəlin. Gəlin də deyəndə bir az dili dönmürdü, qəlin deyirdi. O dağarı qoyurdu yerə, özünün goru hakqı, gözümnən gördüyümü danışıram, kasanı alırdı əlinə. Hər bir adamın qavına o unnan tökürdü ki, apar doğa gözdüyü elə.

### IV mətn

Hajı Mahmutdudan bir qadını dörd təkər arabada gətdilər. Gətirəndə qapıda çığrışma, səs-küy qopdu. Biz də yüyürüşdüh gəldih. Gördüh qadını ilan vuruf. Gördüm Seyid Hüseyn ağa dedi ki, siz oturun. Özünü dokqaza tərəf verdi. Buralar hamısı çal-çəpər, kol-kos idi. Dokqazda gördüm duruf. Mən də onun böyür tərəfində durmuşam. Dedim ki, ay ağa, niyə durmusan? Dedi:

– Sən kaç ayna, sən kaç ayna.

Məəttəl qaldım ki, bu niyə belə eliyir. Bir az keşmişdi, gənə də özünün goru hakqı, bir ilandı, ayannan bəri nətər gəldisə, bax, bu boytda olardı, belə yoğun ilandı, başı nəzik. İndi ilan isdiyir ki, o tərəfdən, bu tərəfdən keşsin məhləyə. Bu da çəlihnən belə-belə qoymadı. İlan özünü verdi, o vaxdı bizim burda meçidimiz varıydı. İlan sivildədi Məşəd kişinin məhləsinə sarı. Dedim:

– Baba, onu niyə heylə qavaladın?

Dedi:

– Onu buraxseydim, yazıx o qadın öləjeydi.

Gəldi indi nə qoydu, nə çəkdi, nə elədi, nə eləmədi, o qadın da sağaldı, çıxdı getdi.

### V mətn

Mir Hüseyn ağanın dədəsi eşidif ki, Seyid Hüseyn addı bir seyid bu kəndə gəlif, orda yaşıyır. Onun tərifi, nəfəsi, cəddi hər tərəfə yayılıf. Deyir:

– Qoy gedim görüm o güjdü seyitdi, yoxsa mən güjdüyəm. Mənim qabağımda tab gətirə bilər?

Çağırır Allah-talanı, bir şir gəlir. Minir bu şiri ki, gələ Seyid Hüseynin üsdünə. Seyidə də xəbər çatdırıllar ki, Allah üsdünə od töhməsin, Mir Hüseyn ağa şirnən gəlir sənin üsdünə. O da deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə, dəymiyin, qoyun gəlsin.

Onda da Seyid Hüseyn ağa barının böyründə durufmuş. Bu da sıçrıyıf minif kərpiş barıya, barını yeridif şirin üsdünə. Şir ayaxlı heyvandı, amma barını yeritmək zarafat deyil. Onnan sora Mir Hüseyn ağanın dədəsi deyif ki, Seyid Hüseyn ağa böyüyümüzdü, ən güjdü seyidimiz odu. Onun özünnən güjdü olduğunu qəbul eliyir.

## 43. SEYİD YUSİF AĞA

### I mətn

Mənim gənə də gözümün qabağında olan şeydi. Atam birqədir idi. Həsən əmi də kalxoz sədri idi, atamnan xalaoğlu idi. Atama demişdi ki, sizdən material veriflər. Rza Aslanovun Bərdədə birinci katib olan vaxdınnan danışıram. Mən də o vaxdı Şuşada texnikomda oxuyurdum. İndi atamı necə başa salıbsa, atam da məni başa salır. Dedi ki, Musa, səhərləri yoxlama gələcəh. O vaxdı uç adam gəlirdi: raykomun katibi, RTS direktoru, bir nəfər də KQB işçisi gəlirdi. Əgər deyilənnər düzdüsə, o adam əlli-ayaxlı gedirdi. Dədəm məni örgətdi ki, Musa, səhər gələcəhlər yoxlamaya. Ağaya dədəm tutduğuna görə kirvə deyirih. İndi meşədi ora, cüt çinar var, oranın yanı pambıxdı. Dədəm dedi ki, kirvəni götür, özün də yolun ağzında hərrən, aşağılara getmə. Suyu ordan qoyginan cızların arasına, su axsın, amma ağanı qoyma ha, birdən suya girər. Qoy çinarın divində otursun. Onnar gələjəhlər, sənnən soruşajaxlar ki, Seyid işdiyir? Sən onnara danışarsan. Dedim:

– Mənim gözüm üsdə.

Da necə davranmax lazımdı maa dedi. İndi mən körpünün yanında durmuşam. Axşam tərəfi gördüm o tərəfdən toz qalxdı. İndiki kimi asfalt-zad yox idi. Bircə dəfə çağırdım ki, kirvə, gəldilər. Gəldilər deyəndə özünün goru haqqı, – ağadı da, hamınız bilirsiniz də nə cür vaxtlardı, – bir də gördüm ki, kişi pambığı yara-yara ayağında da qaloş düz getdi suyun yanına. İndi mən burdan çığırıram ki, əyə, ora girmə, əyə, ora girmə. Əlini belə elədi ki, narahat olma. Uzun sözün gödəyi, bular gəldi, maşını mənim yanımda saxladılar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə, cavan oğlan, bəri gəl görəh.

Getdim bulara tərəf. Rza Aslanov dedi ki, bu kəntdənsən?

Dedim:

– Bəli.

Dedi:

– Burdan bir adam desəm, tanıyarsan?

Dedim:

– Kəndimizdəki adamı tanımıram ki? Niyə tanımıram?

Dedi:

– Burda Seyid Yusif deyillər, onu tanıyırsan?

Dedim:

– Əşi, niyə tanımıram, mənim suçu yoldaşımdı.

Dedi:

– Nə danışırsan?

Dedim:

– Nə danışajam, odey, aşağıdakı odu.

Dedi:

– Bə o niyə aşağıda duruf?

Dedim:

– Mən düzürəm cıza… – O vaxdı nə artezan varıydı, nə də su bolluğu varıydı. Tərtərdən gələn suyu burda qərələ qoyurdular, hər birqadaya normaynan verirdilər. – Dedim bunu qoyuram cıza su itkisi olmaması üçün, o da ayağa çatanda mənə xəbər verir ki, Musa, dəyiş.

Dedi:

– Ayrı bir iş görür?

Dedim:

– A kişi, bax, kol çapır. – Yerlərimiz hamısı qaratikan idi, birqadir sayırdı, hərəyə güjünə görə ayırırdı. Birinə iyirmi koma, birinə on beş koma, birinə otuz koma verirdi. Axşama qədər onu qazıb kökünnən çıxardırdıx, sora ora əkinə salınırdı. – Dedim, əşi köt-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mək* çapır, səkil dibi belliyir, su cuarrığı** eliyir, mənnən su suluyur, ayrı nə iş deyirsən? Kəntdə də olan iş budu.

Dedi:

– Onu çağır bura.

Əl elədim bəri gəl, bəri gəl. Gəldi, yeddi metr qalmış durdu. Amma gördüm ki, kişi qorxur. Həmən adam dedi ki, Seyid Yusif sənsən? Dedi:

– Bəli.

Bəli deyəndə dedi ki, seyidsənsə, niyə suya girmisən? Cəddini çağır, qoy yağış yağsın. Dedi:

– Nə bilim, başına dönüm.

Bax, gənə özünün goru haqqı, mənim atamın goru haqqı, bir az bulutdu hava idi. Bular nə dedi, nə demədi bilmirəm, uzun söypətdi, maa dedi ki, buranın birqadiri kimdi? Dedim:

– Mənim atam.

Dedi:

– Bəs sən niyə su suluyursan?

Dedim:

– Texnikomdan gəlmişəm, tətilə çıxmışam. Gedəndə bir az qazancım olmalıdı da, ona görə işdiyirəm.

Dedi:

– Qaş get dədəni çağır, gəlsin.

Tərpəndim dəmiryolu gedirdi burdan, dəmiryolunun üsdüynən qaça-qaça gedirdim. Dədəm də ordan baxırmış da. Belə-belə elədim ki (əl elmək – top.), gəl. Təxminən, sakqızdıx var ey, onun yanında dədəm maa çatdı. Dedim dədə, gəliflər, hal-qəziyə də belə-belə. Dedi:

– Gedək.

İndi tələm-tələsik gəlirik. Burda arada körpü vardı, Ağ körpü deyirdik. Bu körpüyə çata-çatda yağış başdadı. Nəyə inanırıx o

---

* kötmək – ağac kökü, qarğı kökü, ümumiyyətlə yandırmaq üçün iştifadə olunan bitki kökü

** su cuarrığı – əkin-biçini su ilə təmin etmək



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

haqqı, maşının yanına çatanda bir selləmə başdadı. Kişi maa çığırdı ki, bala, lapatkanı tulla yerə, sən qaç evə. Mən tez lapatkanı tulladım qaşdım. Bular dədəmi də, Seyid Yusif ağanı da oturtdu maşına, gəldilər bura. Burda da Seyid Yusif ağanın elə bir evi yox idi, bir daxal idi. Mən sora atamdan örgəndim nətər oldu. O vaxdı da yağış yağanda buraynan maşın yox ey, heş nə gedəsi döyüldü. Olar gejə qaldı orda. Rza Aslanov atama dedi ki, seyidi işdətmə, özü də onu həmmişə gözdə, əsl seyitdi.

### II mətn*

Kalxoza babamın da adını yazmışlar. O vaxt da İbrahim əmi birqadir idi. Rza Aslanov da onda raykom idi. Xəbər gəldi ki, bəs kalxoza baxmağa gələjəklər. Deyir, ağanın dalınca adam yolladıx ki, sən gəl bu yerin başında, meşənin böyründə dur. Bizdən xəbər alanda deyək ki, o da ordadı.

Nəysə, raykomun "vilisi" gəldi, dayandı.

– Salam məlöyküm.

– Əlöyküm salam.

– Birqadir kimdi?

– Mənəm.

– Hamı işdiyir?

– Bəli, hamı işdiyir.

Dedi ki, burda Seyid Yusif var, o da işdiyir? Dedim ki, bəli. Deey, yerin başında suyu açır, dolanda biz burdan xəbər eliyirih, o biri qulağı açır. Dedi ki, çağır gəlsin. Deyir, çağırdıx gəldi. Dedi ki, Seyid Yusif sənsən? Dedi ki, bəli.

Dedi:

– Niyə özünü o suda yorursan? Allaha dua elə yağış yağsın, əkini də sulama, get otur evində.

Deyir, düzü söz məni tutdu. Dedim:

– Mən Allah döyüləm, Allahın işinə qarışam. Yağdırsa da, Allahın məsləhətidi, yağdırmasa da. Mən nə deyə bilərəm ki.

---

* II və III mətnlər Seyid Yusif ağanın nəvəsindən qeydə alınıb.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Mən heş nə demirəm sənə, gedirəm. Mən Bərdəyə çatıncan yağış yağıb sahələr sulandı, sulandı. Sulanmadısa, qara günün qabağdadı.

Musa əmi deyir, onun "vilisi" heş kəndin ərazisinnən çıxmamışdı elə yağış başdadı. Biz özümüz kəndin başınnan evə zornan gəlib çatdıx. Onnan sora dedi ki, dəymiyin, qoyun kişi nağarır, qayırsın.

**III mətn**

Əkin-biçin vaxdı gəlif Seyid Yusif ağanı götürüf aparardılar, o da sahəyə xeyir-dua verirdi.

Bir gün aqranom gəlif aparıf, bütün sahələri gəzdirif. Bizim burda Qayalı kəndi var. O, Qayalı kəndinin yanınnan keçəndə deyir:

– A ağa, elə burdan ora da xeyir-dua ver, axşam düşür, çıxax gedək evə.

Deyir:

– Vallah, mən bir söz deyə bilmərəm, məni gətirmisən, hara deyirsən, ora da xeyir-dua verəjəm.

O kəndə girmiyiflər. Aradan bir neçə gün keşdi, dolu yağdı. Heş bir yeri dolu vurmadı, bir dənə o Qayalı kəndini dolu vurdu.

Deyir, Səfərəliyev məni çağırdı, dedi:

– Balam, seyidin duası deyəsən təsirdən düşüf.

Dedim:

– Niyə?

Dedi:

– Seyidin xeyir-dua verdiyi yeri dolu vurmazdı. Bu nə məsələdi?

Dedim ki, vallah, seyidin duasında günah yoxdu ey. Mən hər yeri hərrədim, yemək vaxdına az qalmışdı deyənə, ajınnan ölürdük, dedim ki, əşi, elə burdan oyana da bir söz de, çıxax gedək yeməyimizi yeyək.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 44. SEYİD MƏHƏMMƏD AĞA

### I mətn

Qardaşım oluf o hadisənin içində. Zapravşik idi. Kürdə o vaxdı neftbaza vardı. Yanacağı gəmiynən gətirirdilər, orda boşaldırdılar çənlərə. Bu ətraf kalxozdar ordan benzin, yanacax götürürdü. Mənim qardaşım gedirdi yanacax gətirməyə. Həmin kəndin arasınnan keçəndə qardaşım deyir ki, gördüm bir tüsdü gəlir. Baxdım ki, bizim babamızın məhləsidi yanan. Biz Seyid Məhəmməd ağaya "baba" deyirdih. Dedi:

– Yəhya, çön belə, babanın məhləsidi yanan.

Üç oğlu, bir də özü taya qurufdu, taya yanır. Millət burdadı. Seyid Məhəmməd ağa da burdadı. Qardaşım deyir ki, Seyid Məhəmməd ağa yönünü çöyürdü qiblə tərəfə, bir dua oxudu, getdi deyir tayanın yanına. Od hardasa otuz metirrihdən adamı vurur. Yavaş-yavaş, yavaş-yavaş getdi tayanın yanına. Oda dedi:

– Da hayasızdıx eləmə. Burdan belə bəsdi. Burdan belə mənimkidi.

And içir, bilmədik göydən su töküldü, nə töküldü. Yaloo elə orda da söndü.

### II mətn

Bizim qızın biri bərk xəsdələndi. Şuşaya, Stepanakertə apardım, xeyri olmadı. Kiprihlər töküldü, qaş töküldü, sədəflər töküldü. Qardaşım Əmiraslan gəldi, dedi:

– Ə qağa, kafırsan? Sənin heş bir inamın yoxdu?

Dedim:

– Ə, nə danışırsan, var. Əstafirillax. Dədəm Əmirxandı, anam Xırdadı, babam Məhəmmətdi, qojam Firəngizdi. Mən bulardan əmələ gəlmişəm.

Dedi:

– Ə, sənin bulara qariyətin* varsa, dur gedəh Seyid Məhəmməd ağagilə, ona bir qələm çalsın.

---

* qariyətin – inam, etiqad



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Durdux getdih. Eviynən darvazasının arası ən azı əlli metrdi. Maşını qoydum darvazada. Tanıdığım evdi də. Çöldə əlində aftafa dəsdəmaz alır. Nəysə, görüş, öpüş. Pilləkənnən çıxanda dedi:

– Maşını sal içəri.

Dedim:

– Yox, maşını niyə salım içəri?

Akazıvayetsa bunu isdəmiyənnər çoxdu da. Dedi:

– Maşını sal içəri.

Dedim:

– A baba, nə danışırsan, maşını niyə salım içəri? Salmıjam, qoy dursun orda.

Getdih içəri. Başdadı namaz qılmağa. Arabir gülür:

– Bala, dur maşını sal içəri, dədəmin goru haqqı, qolun kəsillər.

Maşını sal içərini başa düşürəm, amma qolunu kəsilləri bilmirəm. Sən demə, yan güzgüləri açıllarmış. İndi bu səjdəyə gedir, namaz qılır. Deyir:

– Dədəmin goru haqqı, gözünü də çıxardıllar, dur maşını sal içəri.

Maşını sal içəri başa düşürəm, amma gözünü çıxardıllar bilmirəm. Demə faraları sökürmüşdər. Aradan bir az keçir, deyir:

– Dədəmin goru haqqı, quyruğunu da kəsillər.

Dal tərəfini sökürmüşdər. Nəysə, durdu bizi yola salanda dedi:

– Gedin, yaxşı yol.

Gəldim maşına baxanda maşını tanımadım. Belə keşdim farası yox, belə keşdim stopu yox. Əmiraslan dedi:

– Kafır, niyə eşitmədin o kişini?

Dedim:

– Qağa, vallah başa düşmədim.

Mənim qızım da Bərdədə xəstəxanada yatırdı, anası da yanında idi. Kişi orda yazanda qız həmin dəyqə anasına deyif ki, ajmışam. Qız onnan sora yaxşılaşdı. İndi də ərdədi, üş-dörd uşağı var.

**III mətn**

Dörtyoldan bəri qovu gedir. Ordan bəri keçəndə yayın günüdü, buğdaya od düşdü. Ordan Şorca, aşağıdan Pərioğullar, Hüsülü,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

burdan da bizim camaat getdi. Saat birdi. And olsun Allaha, vənöysə* qopdu, istidi, yalo ayannan bəri gəlir. Qaraqılçıx buğda belə şakqaşax sıyıdıf, yaxın getməh olmur. Əhmədov Bəhrəm dedi:

– Ayə, Seyid Məhəmməd ağanı gətir.

Birjə maşın Əhmətdə idi. Getdi Seyid Məhəmməd ağanı gətirdi. And olsun Allaha, o Həzrət Abbas haqqı, düşdü maşınnan, tüpürdü, dedi:

– Ay hayasız, hara gəlirsən, ay hayasız, hara gəlirsən?

And olsun Həzrət Abbasa, yayın o günündə belədən bir meh əsdi, yalo qayıtdı. Onnan sora Bəhrəm dedi:

– Əyə, vurun söndürün, əyə, vurun söndürün.

Yalo qayıtdıxca hamı əlində çalğı odu söndürdü.

**IV mətn**

Burda Seyid Məhəmməd ağa vardı. Deyillər ceyranı düzdə vuruflar, ceyran onun ojağına pənah gətirif. Ofçu da fikirrəşif ki, bu, seyid qapısına gəldi, daha onun dalınca getməh olmaz.

Seyid Məhəmməd ağanın otlarına od düşdü. Kəndin ispalkomu var idi. Bu getdi tutdu qolunnan, gətdi ki, dünya od tutdu, sənin də otun yanajax, gəl. Deyif:

– Mənkiynən işiz yoxdu, dəymiyin.

And olsun allaha, gəldi onunkuna çatanda yalo söndü.

## 45. HİNDARXLI SEYİD MƏHƏMMƏD AĞA

O vaxdı bular inanılmış adamlarmış da. Seyid Kərimin arvadı xamır qatıf. Seyid Kərim o tərəfdə şah doğruyur məhlədə. Özü də oların yandırdığı ya palıd şahı olardı, ya sakqız şahı. Arvad təndir odduyur. Seyid Məhəmməd ağa təndirdən beş-altı metr aralıda oynuyurmuş, iməkliyirmiş. Arvad gedir kündə gətirməyə. Uşax iməkliyir, gedif düşər təndirə. Arvad başında teşt gəlir:

– Ay Seyid Kərim ağa, Məhəmməd hanı?

---

* vənöysə – qışqırtı, şivən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

O tərəfə, bu tərəfə baxıf, deyif:

– Arvad, çığırıf camaatı bura tökmə, mənim oğlumdusa, od onu yandırmıyajax.

Bilir ki, təndirə düşüf. – O oğlan özü söypət eliyir ki, mən uşax olmuşam, bu hadisə olufdu. Buna inanmamax olar? – Kişi əyilifdi uşağı ordan götürüfdü. Köynəyi də saralmıyıfdı. Üsdünü-başını çırpıfdı, qoyuf qırağa ki, mənim oğlumdusa, yanmaz.

## 46. SEYİD ƏZİZ AĞA

### I mətn

Qırx dokquzuncu ildə çox böyüh quraxlıx oldu. Mənim böyüh qardaşım qalxoz sədri idi. Atam dedi ki, Seyid Əziz ağaya demişəm, gəlif sahələri gəzəjəh. Get Seyid Əziz ağanı gətir. Bizim yerdən yuxarıda təpə var. Bunnan irəli ağsakqallar yığışıf həmin təpəyə müsəlləyə çıxırdılar. Bizim də bir yaxşı atımız vardı, çox gözəl yeriyirdi. Atı yəhərrədilər, məni də üsdünə qoydular, getdim. Çox nurani kişi idi.

– Gəlmisən, bajıoğlu?

Dedim:

– Hə.

– Çay işmisən, çörəh yemisən?

Dedim:

– Bəli, çay da işmişəm, çörəh də yemişəm.

Üzəngini tutdum, mindi. Yolda qayıtdı ki, ayə, bu nə yaxşı seyid atıdı. Bunu Kərəm hardan alıf?

Dedim:

– Əşi, bunu bizə İmişli rayonunun Muğannı kəndinnən bağışdıyıflar.

Nəysə, gəldih. Gördüh kəndin beş-altı ağsakqalı təpədə duruflar. Bularnan görüşənnən sora üzü qibləyə durdu. Dedi ki, mən Allahdan dua eliyəjəm, siz mənim arxamda amin deyin. Birinci sözü bu oldu ki, ya rəbbim, ya rəsul Allah, bu camaat məni sənə yaxın bir insan kimi gətirif. Sənnən diləh diliyəjəm. Səni ant veri-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

rəm öz cəh-calalına, mənim diləyimi yerinə yetir, bu camaatın yanında mən xəjalət olmuyum. Dedi:

– Ərazinizi gəzməh üçün mənə bir atdı verin.

Burda Eyvaz kişi vardı, bir də Əli kişi. Bular da atdandılar, bu kişiynən ərazini gəzif gəldilər. Qardaşımın evi var idi, bir heyvan kəsmişdih ki, bu ağsakqallar gəlsinnər, çörəh yesinnər, bu seyidi də götürəh gedəh. Bular ərazini gəzdilər gəldilər. Bu kişi dörd yerdə Quran oxudu. Atam maa dedi ki, bu kişini gətirəndə nə danışdı. Dedim ki, dedi at nə yaxşı seyid atıdı, Kərəm bunu hardan alıf. Mən də dedim Muğannıda bir dosdumuz var, o, atama bağışdıyıf. Atam dedi getmə, at qaldı seyidə. Həmən o maydanı atam bağışdadı seyidə. Seyid dedi ki, ə, tez olun, tez olun, məni yola salın.

– Ə kişi, nədi? Çörəh-zad yeməmisən.

– Bu saat yağajax, yolda isdanajam.

And olsun Allaha, Sarıcalıya çatmamış bir leysan başdadı. Elə bilginən bir xəritə idi. O ili qonşu kəntdərdə məhsul olmadı, bizim taxılımızı yığıf yığışdırmax olmadı. Toxumu gəldilər bizim kəntdən aldılar apardılar.

Oların qapısında üş yüz-dörd yüz illih bir çinar varıdı, onun da başında hajıleyləy yuva qurmuşdu. İlan gəlirdi hajıleyləyin ayağında, o yuvaya düşürdü. Ağajnan düşürdü, gəlirdi onun otağında qalırdı, səhəri günü gənə çıxıf gedirdi. Bax, heylə bir seyid idi olar. Əsilləri Laçın rayonunun Alxaslı kəndinnəndi.

**II mətn**

Olar qapıda heyvan saxlıyırdılar. Səhər durur görür ki, dana yoxdu. Deyillər ki, ağa, dana yoxdu, aparıflar.

Deyir:

– Ə, heş kəs aparmaz, gedin bağa baxın.

Oların bəri üzündə çəkillih vardı. Gedif görüllər ki, prefdananı bağlıyıflar ora. Gəliflər ki, inəyi də aparalar. Aparanda gedif görüflər ki, dana ölüf. İnəyi də buraxıflar. Deyiflər bunnan bizə xeyir yoxdu. “Tova” deyif qayıdıflar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 47. HƏZRƏT ƏLİ DAŞI*

Belə rəvayət eliyillər ki, Həzrət Əli oraynan gedirmiş. Gedəndə görür kü, camaat komalaşıf. Quraxlıx idi. İndi camaat vaysına-vaysına döyünüllər: "Ə, bu illəri batıf qırılajeyih". Həzrət Əli bulara yaxınnaşıf deyir:

– Noluf?

Deyir ki, ya Əli, bizim ayrı bir məhsulumuz yoxdu. Əkdiyimiz yanıf, məhv oluf, heş nə əldə edə bilməmişih, qırılajeyih. Rəvayətə görə, yolun da qırağında böyüh daş varmış. Həzrət Əli Zülfüqarı çıxardır, endirir daşa, daş iki bölünür. Camaat hamısı baxır ki, daşın ortasında belə bir oyux var, bu oyuxda bir qurt var, bu qurdun qabağında göy yarpaxlar var. Deyir:

– Dərk eliyin görəh bu nə deməhdi?

Deyillər:

– Ya Əli, sən izah elə.

Dedi:

– Bədbaxlar, Allah-tala mana əmr elədi bunu göstərim sizə ki, bu daşın içərisində qurdun urzasın verən Allah, sizi də aj qoymaz.

## 48. ƏLİ PƏNCƏSİ

Həzrət Əli yolnan gedirdi. Eşitmişdi ki, filan yeri qırıllar. Deyir gedim oranı azad eliyim, yazıxdı o maxluq. Əli pəncəsi deyillər, eşitmisən? (Söyləyici sualı bizə yönəldir – top.). Mən orda olmamışam, rəvayətdi deyillər. Orda camaat bunun qabağını kəsif deyir:

– Ya Həzrət Əli, hara gedirsən?

Deyir:

– Ə, maxluqu qırıllar ey, zalımlar. Gedirəm onnarı azad eləməyə.

Dedilər:

– Yox, azad eliyirsən, eləmirsən, o sənin işindi. Biz nə alajayıx, bizə bir dolanışıx.

---

* Söyləyicinin dediyinə görə, həmin daş Ağdaşda yolun kənarında yerləşir, indinin özündə də camaat həmin daşı ziyarət edir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedi:

– Əşi, gedirəm, qayıdanda sizin hakqınızda bir ölçü götürəjəm dana.

Bunnar atın cilovunnan buraxmıllar. Həzrət Əli əlini vurur daşın üsdünə. Odur ki, deyillər Əli pəncəsi. Deyir:

– Sizi görüm bu daşa qismət olun. Dedim sizə gedim, qayıdım sizə bir gün ağlıyajam.

Onnan da çıxır gedir.

## 49. BƏRDƏ İMAMZADƏSİ

İmam Cəfəri Sadığın qız nəvəsi Şahzadə İsmayıl Xilafət dövründəki ziddiyyətlərdən qaçıb Bərdəyə pənah gətirir. Burada dünyasını dəyişib. Camaat onu indiki imamzadə olan yerdə dəfn edir və qəbrinin başına dolanıblar.

XII əsrdə İbrahim addı bir tacir gəlib Bərdəyə dəvələrnən. Görür ki, insanlar bir qəbrin başına dolanır. Soruşur ki, burda kim dəfn olunub, camaat buranı ziyarət edir. Deyillər ki, bəs filankəs. Onda niyyət edir ki, əgər niyyətim hasil olsa, qayıdanda bunun üstündə türbə tikdirəcəyəm. Niyyəti hasil olur və qəbrin üstündə türbə tikdirir. Ona görə də bəzən ora İbrahim məscidi də deyirlər.

Camaat deyərdi ki, burda dəfn olunan Gəncədəki imamzadənin – İbrahimin qardaşıdır. Deyilənə görə, imamzadədən tapılan bir dəmir parçasının üstünə İsmayılın adı yazılıbmış, həmin dəmir parçasını da kümbəzin yuxarısına vurmuşlar. Sovet dövründə həmin dəmir parçası çıxarılıb tullanılır.

1868-ci ildə Kərbəlayi Şeyx Səfi Qarabaği yerli bəylərin maliyyə yardımı ilə məscidi yenidən inşa etdirir, ona dörd minarə əlavə edir. Qarabağda ən addı-sannı adamlar ölən vaxdı vəsiyyət edərdilər ki, onları Bərdədə imamzadənin yanında dəfn eləsinnər. Ona görə də orda dörd mərtəbəli qəbrlər vardı. İnsanlar bir-birinin üstündə dəfn olunmuşlar. Pənahəli xanın bacısının, Məhəmməd bəy Cavanşirin qəbri də ordadır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 50. ASXADAN BABA PİRİ

Asxadan baba türbəsi İmamzadə qəbirstannığının içində yerləşir. Sarılığ xəstəliyinə tutulmuş, dalağı şişmiş insannar ora ziyarətə gedəllərmiş. Orda bir daş varmış, dalax daşı deyərdilər. Daşı qoyallarmış dalağın üsdünə, daş dalağın şişini alarmış. Türbədən dilinə vurarmışlar, onnan da şəfa tapallarmış. Türbə şirəli kərpicdən tikilmişdi, həmin tikilidən indi ancax səkkizguşə şəklində bünövrəsi qalıb. Türbənin səkkiz qapısı və başında yeddi ulduz olub. Sovet dövründə söküb onun kərpiclərinnən digər tikililərdə istifadə ediblər.

## 51. GƏLİN QAYASI

Bəylih vaxdında bəyin qızını bir çoban sevir. Bular bir-birinə aşiq olur. Çoban qızı isdiyəndə bəy qızı vermiyif ki, yanımda saxladığım çobana mən qızımı verən deyiləm. Bular qızı başqasına vermək qərarına gəlillər. Qız oğlana deyifdi ki, məni özgəsinə verillər. Oğlan deyir: “Gəl qoşulax qaçax”. Olar qaçıllar, düz gəlillər o qayanın başına. O qaya da elə bir qayadır ki, altında duranda elə bilirdin adamın üsdünə uçajaxdı. Başında da onun bir ojax yanır. Olar gəlif həmin qayanın başına çatanda bəyin atdıları gəlif buları tutur. Qız deyir ki, vallah, məni burda tutsalar, səni öldürəjəhlər, məni də aparıf həmən o isdəmədiyim oğlannan evləndirəjəhlər. “Belədi, belədi, mən özümü öldürürəm”, – deyif qız özünü qayadan atır. Gəlif oğlanı tutullar, onu da orda öldürüllər. İkisini də, deyilənə görə, o yalın başında basdırıllar.

O ojağa mən getməmişəm, amma ora çox adam gedirdi. Qurban deyif, aparıf yalın başında kəsirdilər. Deyillər orda iki dənə baş daşı var. Hər iki qəbrin arasında necə ojax yanar, çırax yanar hiss olar ha, o qayda hisli qara çuxur varmış. Deyirdilər ki, o oğlannan qızın sevgisidir orda yanır hər cuma axşamı. O yananı mən özüm də görmüşdüm. Hər cuma axşamı görürdün saat birə, ikiyə qədər nazik şam yanardı. Ulduz vardı, o ulduzdar doğana qədər o şam yanırdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 52. EŞQ ABDAL

### I mətn

Xındırıstannan Üçoğlanın arasında Eşq Avdal adında bir ojax var. Ora böyüh ziyaratgahdı, hamı ora qurban deyir. Mən özüm xəsdələnəndə ora qurban dedim, getdih orda qurban kəsdih. Ora müqəddəs ojaxdı.

Bir bəy olur. Bəyin bir qızı olur Yaxşı addı. Bəyin bir nökəri də olur Xeyri addı. Xeyri bəyin qızına aşiq olur. Bular nə qədər bir-birini isdiyirsə, axırı bəy deyir: "Bu Xeyrini qovun çıxarın bu məhlədən". Xeyri Avdal-Gülablıdan oluf. Bəy bunu qovuf çıxartdırır. Bu yemir-işmir, ağlıya-ağlıya gəlir həmən o Eşq Avdal ojağının yerinə. Tay o qədər aj-susuz ağlıyır, taqətdən düşüf orda ölür. Öləndə bir dənə kağız qoyur sinəsinin üsdünə ki,

Aşıx Yaxşıya mənnən,
Halın yaxşıya mənnən.
Mən öldüm nakam getdim,
Deyin Yaxşıya mənnən.

Yaxşı bunun sevgilisidi. Kənd adamlarınnan biri bunun meyidini tapır. Kağızı aparıf Yaxşıya verəndə Yaxşı ordan qaçır gəlir həmən o nakam aşiqin cənazəsini qujaxlıyır, o da orda ölür. Onların ikisini də bir məzarda basdırıllar. O günnən bura qədər ora Aşiq Avdal deyillər.

### II mətn

Bizim kəntdə qavaxlar quduzdux vardı. Mənim bir yaxın qohumumu it tutdu. Demə, bu itdə də quduzdux varmış. Babamın da həmişə arabası olufdu, atı olufdu. Eşq Avdalın üsdündə yurdçusu vardı. Orda çörəh hazırrıyırdılar. Mənim babam o çörəhdən gətirif həmən it tutmuş adama verdi, onu quduzdux tutmadı.

### III mətn

Uşağı olmuyan adamlar niyyət edif orda yüyrüh qurullar. O yüyrüh yüründüsə, niyyəti hasil olurdu. Yürünmədi hasil olmur. Məhərrəmlikdə qətli orda sındırırdılar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 53. ƏLƏM AĞACI

On yeddi-on səkgiz metr uzunnuğunda bir ağac oluf. Bir ucu basdırılıf yerə, kənarlarında da nərdivan kimi yerləri oluf. Aşur kişi çıxırdı o ağacın başına, orda azan verirdi. Bu kəntdər, ətraf kəntdər hamısı o azanın səsini eşidif savah ertə məhərrəmlikdə gəlirdilər bura. Bilirdilər aşuradı. Onu sovet dövründə isdədilər kəssinnər. Nə qədər elədilər camaat kəsmədi. Getdilər hardansa bir adam gətdilər, ağacı kəsdilər. O adam da burdan çıxıf gedəndə Polatlı kəndinin üsdündə düşdü avariyaya, bir nəfəri vurdu öldürdü. Camaat həmin ağacı aparıf Aşur kişinin ojağında basdırıf. Camaat ildə bir dəfə aşura vaxdı gedif toplaşır ora.

İndi həmin ağac ziyaratgaha çevrilif. Kim aparıf ora nə nəzir qoyursa, gələn il aşura gününə qədər o hasil olur.

# TARİXİ ŞƏXSİYYƏTLƏR HAQQINDA

## 54. İSGƏNDƏR

### I mətn

Şah İsgəndər deyilənə görə, çoban oluf, camaatın qoyununa gedirmiş. Bir dağ var imiş, gətirir o dağın kölgəsinə yığırmış, özü də oturexcusemuş qoyunun yanında. Oturuf ha belə baxırdı. Gördü bu keçi... Keçi həmişə yeri dırtmıxlıyır, sora yatır. Bir keçi yeri belə-belə dırnağıynan eşir. Baxdı ki, keçinin dırnağında bir kağız çıxdı. Kağız da saralıf, köhnədən qalıf. Durdu bu kağızı götdü, aşdı ki, mollacan yazı var. Belə yekə kağızdı, mollacan yazı var. Getdi orda mollalar vardı onnarın yanına. Dedi:

– Bu kağızı oxuyun, görəh burda nə yazılıf.

Aldılar oxudular. Oxuya bilirdilər, amma buna demədilər. Dedi:

– Oxuya bilmirəm.

Hara apardı, dedi oxuya bilmirəm. Dedi:

– Oxuya bilmirsən cəhənnəmə oxu.

Bunu götdü getdi İrana. Getdi orda bir axundun yanına. Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Axund, bu kağızı oxu görəh burda nə yazılıf. Bizim tərəfin mollalarına apardım, heş birisi oxuya bilmədi.

Bu da oxudu. Gördü ki, kağıza yazılıf ki, bu sirri kim aşsa, ölməlidi. Bildi ki, oranın mollaları bunun dərdinnən demiyif da. Kim isdiyər ki, ölsün. Dedi ki, ay qardaş, sizin mollalar da oxuya biləllər bunu, amma özdəri oxumuyuf. Dedi:

– Niyə?

Dedi:

– İndi dünya tameh dünyasıdı. Kağıza yazılıf ki, bunu açan ölməlidi.

Bura da xəzinədi. Qoyun yatan yer ki var, ora xəzinədi. O vaxt kim isə ora basdırıf, qalıf orda. Deyif:

– Qardaş, mən sənnən gedərəm, bu sirri açaram, amma gərəh mana da verəsən, məni yaxşı yola salasan.

Dünya tameh dünyasıdı da. Deyif:

– Əşi, niyə vermirəm, o nə sözdü. Gəl gedəh.

Bunu götürüf gəlir. Aparır gösdərir. Deyir:

– Bir kisə də götü.

Bir kisə də götürüf gedillər.

– Harda idi kağız?

Deyir:

– Dey, burda idi.

Buranı dırtmıxladılar, dırtmıxladılar ki, sementdən qayrılıf, yekə qapaxdı. Külüngü sal bunun arasına, qaldır baxginən. Külüngü saldı bir az. Bu əyildi baxdı ki, ayə, burda dərya var, qutarası döylü. Xəzinədi ağzına qədər dolu. Dedi:

– Gördün?

Dedi:

– Hə.

Dedi:

– Qardaş, görürsən da nə qədərdi. Buna görə aşmırmışdılar sizin tərəfin mollaları. İndi elə elə, mana da bir şey olsun. Dünya tameh dünyasıdı dana, məni də yaxşı yola sal.

Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Əşi, bir belə burda qızıl var, sən nə qədər isdəsən saa mən verəjəm.

Bunu götdü apardı. Dedi:

– Gedəh gejə qalax.

Daa bunu gejə çıxartmax olar da, günüz olmaz. Gejə fikirrəşdi ki, ə, bu İrannan gəlif. Heş bilən yoxdu bu bura gəlif, gəlmiyif. Yatan kimi baltanı gətdi bunun başını əzdi, yığdı meşoğa, apardı basdırdı.

İndi bu fikirrəşdi ki, mən nətər eliyim bunu yiyə bilim da. Bir gejə getdi bunnan xeylağ çıxartdı. Düşdü kəndin canına, gətdi bir onnuğ qızıl sana, bir onnuğ qızıl ona verdi ki, ə, məni padşah qoyun. Hamınız deyin ki, padşahınız mən olum. Maa nə lazımdı? Maa qızıl lazımdı. O dedi İsgəndər padşah olajax. İclas oldu, camaat İsgəndəri padşah seşdi. İsgəndər oldu padşah. Fikirrəşdi ki, mən bu qızılı nətər eliyim, bu qutarası döyül, çıxası döyül. Fikirrəşdi ki, aparım bunun üsdündə bir ev tikdirim, yığışım ora, yavaş-yavaş xaşdıyaram da qutarınca. Padşah idi dana. Gətdi bunun üsdündə bir yaxşı ev tikdirdi, gəldi yığışdı ora. Camaat da gəldi, böyrü-başı hamısı əv oldu.

Qızıl çoxdu hədinnən artıx, qutarası döylü. İsgəndər bunnan verdi özünə yaxşı saldat yığdı, tüfəng aldı. Çox oldu saldatı. Dedi ki, bu qədər qızılı neyniyəjəm. Bunnan verəjəm dünyanı özümə tabe eliyəjəm. Hamı maa tabe olsun.

Bura – Bərdəyə də gəlif. Bərdədə də Nüşabə xanım oluf. Nüşabə xanım da arvad xeylağıdı da. Gəlif Nüşabə xanıma deyif ki, sən mana tabe olmalısan. Sənin teritoriyanda olan adamlar mana tabe olmalıdı. Bu da deyif ki, İsgəndər, gəl mənə qonax qal bir-iki gün. Saldatın yeməyini-işməyini hamısını verəjəm. Bir gün qonax qal, sora gənə get da.

Bu, qalır buna qonax. Nüşabə heyvan-zad kəsdirir, saldatdara yeməh verir. İsgəndərin də qavağına gətirir bir boşqab qızıl qoyur. İsgəndər deyir:

– Bu nədi?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bə onnan ötəri düşməmisən bu çöllərə. Neynirsən bax onu? Yoxundu? Sən düşmüsən ki çöllərə, hamını özümə tabe eliyim. Nəyinə lazımdı? Get bir yerdə padşahlığı elə da.

Bu deyir:

– Yox, hamı maa tabe olmalıdı.

Burdan çıxır, ağzı belə ala-ala gedir. Bir münəccim çıxır bunun qabağına. Münəccimə deyir ki, de görüm mən havaxt öləjəm. Bu da baxır, deyir ki, İsgəndər, sən o vaxt öləssən ki, altın polad, üsdün polad olajağ, onda öləssən. Bu da dedi:

– Ə, mənim altım-üsdüm hardan polad olajax. Yatanda yorğan-döşəhdə yatıram.

Nəysə, getdilər. Qoşunnan ala-ala gedirdi. Bir yer olur, orda su olur, dirilik suyu olur. Onu içən adam cavannaşır. Bu isdiyir ki, gedə o sudan içə, cavannaşa. Ora da bərk isdi olan yer imiş. Gedillər, bir yerə düşüllər, isdidən dayana bilmillər. İsgəndər əmr eliyir ki, gətirin tüfəhləri baş-başa bağlıyın, üsdünə çadırı salın, girəh altına. Heylə eliyillər. Tüfəh də polatdı dana. Girillər, uzananda görüllər isdi o qədər quma vuruf ki, heş uzanmax mümkün döylü. Bir də gətirif tüfəngi belə çal-çarpaz düzüllər alta, üsdünə ayın-oyunu sərillər, uzanıllar. Elə İsgəndər ora uzanan kimi Azreyil çatdırır buna. Bunun müavini vardı. Çağırır deyir:

– Ə, bir kağız, qələm gətir bura, mən ölürəm. – Bir anası vardı İsgədərin. Var-döylət də, qızıl da ki nə qədərdi. – Yaz mənim anama ki, İsgəndər deyir mənim ehsanımı dərdi olmuyana ver.

Yazır, bu da kağızı götürür. İsgəndəri qoyullar tabuta. Dəvənin belinə qoyuf çəkif gələndə bir də baxıllar ki, İsgəndərin sağ əli belə çöldədi. Endirillər yerə, qatdıyıf qoyullar tabuta. Bir az keçir, bir də çıxır. Gəlillər, yolda bir kişiyə rast gəlillər. Bu kişiyə məslahat eliyir. Ağsakqallar bilir də, başına gəlif. Deyir:

– A bala, bu nə karvandı belə?

Deyir ki, Şah İsgəndərindi. Ölüfdü, aparırıx, amma baba, bunun əlini qoyurux tabuta, bir az dayanır, əli çıxır çölə. Dedi:

– Bala, onu qoyun yerə. Mən elə elijəm onun əli çıxmıjax.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Götdülər qoydular yerə. Bu kişi torpaxdan bir xısma götdü basdı bunun əlinə, bərk yumdu belə, qoydu tabuta. Dedi:

– Oğul, onun gözü torpaxdan doymamışdı. İndi çıxmıjax da, qorxmuyun, gedin.

Sürdülər getdilər. Gəldilər çatdılar. Vay-şüvən, ağlaşma. Müavin kağızı verdi arvada ki, oğlun belə-belə yazıf. Deyir ki, anam mənim ehsanımı dərdi olmuyana versin. Arvad gətdi kəsdi cöngələri, bişirtdi-elədi. Darvazaya qaroulçu qoydu. Dedi:

– Gələn adamdan soruş, dərdi varsa, qoyma gələ. Dərdi yoxsa, gəlsin.

Yasoullar durdu orda. Gələnnən xəbər alırdı dərdin var, yoxdu? Deyirdilər: “Var”. Qardaşım ölüf, ya atam ölüf, anam ölüf, ya bajım ölüf. Deyirdilər: “Yox, sən gedə bilməzsən, qayıt”. Bu minvalnan bir gün adam getmədi. Ehsan qaldı, yeyən olmadı. Dərdsiz insan var? Yoxdu. Hamının dərdi var. Gördülər ki, ehsan qaldı orda, yeyən olmadı. Bir ağsakqal kişi vardı, dedi:

– Ay arvad, oğlun sana təskinnih verməh üçün heylə yazıf. Dərdsiz adam yoxdu. Heylə yazıf ki, ana, mənim dərdimi çəhmə, hamının dərdi var.

Onnan sora icazə verdilər, hamı getdi yedi.

**II mətn**

Deyilənə görə, İsgəndər Bərdə şəharinə gələsi olur. Bərdə də o vaxdı mərkəz imiş. Buna (Nüşabəyə – top.) xəbər göndərir ki, döyüşə hazır ol. Bu da xəbər göndərir ki, mən eşitmişəm sən igid adamsan, cəsur adamsan, sən qadınnarnan döyüşmürsən, kişilərnən döyüşürsən. İndi gəlginən sənin isdəyin nədisə, arzun nədisə onu mana de, güjüm çatansa mən elijəm. Daa müharibəynən niyə alırsan? Buna da İsgəndər razılaşır. Deyir ki, hə, gəlirik.

Qonax sıfatıynan buları çağırır gətirir. Məclis qurulur. Stolların üsdünə yeməh əvəzinə ləl-cəvahirat, qızıl düzülür. İsgəndər nə qədər gözdüyürsə, görür ki, heş nə gəlmədi yeməyə. Çağırır qulluğ eliyəni. Deyir ki, Nüşabə gələsi olmadı? Deyir:

– Gəlir, gələjəh.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Onu çağır, gəlsin görəh, nədi bu.

Nüşabə gəlir. Deyir ki, niyə yemirsiniz? Deyir:

– Nə yeyək?

Deyir:

– Dünyanı bunnan ötrü qana çalxamırsan? Yığmışam qabağına da, surfandadı, hazır müftə gəlif, ye dəə.

Orda İsgəndər başa düşür ki, bu nə demək isdiyir. Yanı bu vardan, puldan ötrü insannarı niyə məhv eliyirsən. Onnan sora deyir ki, sənin ölkənə əl vurulmuyajax, sənə qarşı heş bir hadisə olası döyül.

Nüşabə həddinnən artıx mülayim təbiyətli, gözəl əxlaqlı bir qadın olur. İndi o Nüşabənin qalası deyillər e... Qavaxda söypət zad eliyirdilər ki, Nüşabə bu qalanı tikdirifmiş ki, hər gələn şəxs onun mərhəmətinnən bir şey əldə eləsin. Dolanışığı azdısa, pul aparsın və yaxud köməyə ehtiyacı var, köməh olunsun. Belə-belə Nüşabənin adı min illərdi çəkilir.

**III mətn**

İsgəndərin baxıcıları baxır, deyir ki, sən elə bir vaxt öləssən ki, altın daş olajax, üsdün dəmir. İsgəndər fikirrəşir ki, bu nə cür ola bilər, altın daş ola, üsdün dəmir.

Bu, səfərə gedir, qumlu bir səhrada bunu bərk titrətmə tutur. Bərk titrətmə tutanda qoşun böyüyünə deyir ki, vəziyət bu üzdü-dü. Mana bir yer qayırın, bir az dincəlim. Uzun oxlar varmış dəmirdən, tez onu belə baş-başa qoyullar, üsdünə gölgəlih – o vaxdı biz çadır deyirdik, – atıllar, Zülqarnəyə yer düzəldillər ki, gir bir az uzan. Orda girif uzanan vaxdı baxır ki, altı daşdı, üsdü dəmirdi. Çağırır öz vəsiyətini eləməh üçün. Deyir:

– Ayrı vəsiyət eləmirəm, gedəndə qabaxcan nə qədər yaşdı, nə qədər ağsakqal, mənim bu qoşunumda şəriyəti bilən adamlar varsa, olar kom getsin anamın qarşısınnan keşsin. Onun dalıncan nə qədər ki, qızıl-gümüş gətirənnər var, olar gətirdihləri əlində onun qarşısınnan keşsin. Onnan sora da mənim döyüşən qoşunum qarşısınnan keşsin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyillər:

– Bunun mənası?

Deyir ki, anam bərk ağlıyajax. Onnan ona demək isdiyirəm ki, ana, ölümü əgər köməhnən qaytarmax mümkün olseydi, o ağsakqalların, bu qoşunun köməyinnən qaytarardım. Pulnan qaytarmax olseydi, bu qədər qızılı, gümüşü verif ölümü qaytarardım. Ölüm hamı üçündü, bir adam üçün döyül, onu qaytarmax mümkün döyül.

**IV mətn**

İsgəndər şahlığa çıxmamışdan qavax heyvana gedirmiş. Naxırçı imiş, naxıra gedirmiş. Bu da çobannarın guya padşahıdı. Girirmiş qara batdağa dizə kimi, guya uzun çəkmədi. Çobannarın da hərəsinin yekə dəyənəhləri olur da. İki çoban hərəsi bir tərəfdən ağacı tuturmuş, bu da oturarmuş orda, guya şahdı. Gələn adamlardan töycü yığırmış.

Bir gün bir nəfər haja gedirmiş. Bir az qızılı olur. Bunu gətirif qazıya verir. Bunun hajdan qayıtmağı iki il çəkir. Bu da qazıya pul verir ki, bu bir küpə qızıldan az-az ver, mənim yoldaşım xəşdəsin. Qazı hara pul verir? Başdıyır özü yeməyə.

Kişi hajdan qayıdır gəlir, arvad bunu yaxşı qəbul eləmir.

– Ay arvad, niyə belə eliyirsən?

Deyir:

– İki ildi getmisən, biz dilənçi halına düşmüşüh, ajınan batıf uşaxlar, xəsdələnmişih. Bəs sən də bizə pul-zad qoyuf getməmisən.

Deyir:

– Qazı saa vermədi?

Deyir:

– Əşi, pul nədi, heş nə vermiyif.

Deyir:

– Yaxşı.

Gəlir qazının yanına. Deyir:

– Ay qazı, ayıb olsun, mən saa pul vermişəm ki, uşaxlarımın ehtiyacı olduxca onnara pul verəsən, qoymuyasan korrux çəkə. Onnar yavan çörəh də tapmıyıflar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qazı deyir:

– Pulu onnarın özünə vermişəm, özü də şahidim var, filankəs şahitdi.

Arvadnan kişi gənə dava salannan sora bu gəlir qazının yanına ki, gedəjeyih baş qazının yanına. Deyir:

– Yaxşı.

Bunnar gedillər baş qazının yanına. Qazı yanında pulnan tutma iki dənə şahid aparır. Şahitdər deyir ki, qızılı bizim yanımızda verdi.

Bunnar kor-peşman qayıdanda, isdi də hava imiş, İsgəndər görür adam gəlir. Tez gedir qıçıın yarıya qədər qara batdağa sürtür, uşaxlar da biri ağacı o tərəfdən tutur, biri bu tərəfdən, İsgəndər də ortada oturur. Yasoullardan birin göndərir ki, get o gedənnəri çağır bura. Əgər sözüzə baxmasa, salın dəyənəyinizin altına.

Gəlillər bunnarın qabağını kəsillər ki, şah çağırır. Deyir:

– Ə, burda şah nə gəzir!

Deyir:

– Bizim şahımız o dey, odu.

Bu dərtdi, qızılın ala bilmiyən deyir:

– Şah nədi ə, şah kimdi!

Hərəsinə bir-iki dəyənəh vurannan sora gəlillər İsgəndərin yanına. Görüllər bu, adi çobandı, qılçasını yarıya qədər qara batdağa batırıf, guya xrom çəkmədi, oturuf ağacın üsdündə, guya bu şahın taxdıdı. Deyir:

– Hardan gəlirsiz?

Bu dərtdi adam deyir:

– Baş qazı mənim dərdimə əlac eləmədi, ay bala, qoy gedim.

Deyir:

–Dərdin nədi?

Deyir:

– Mən haja gedəndə bu kişiyə bir küpə qızıl verdim ki, ehtiyac olduxca uşaxlarıma ver. O da vermiyifdi. Getdih baş qazının yanına, o da bir şey eliyə bilmədi.

Kişiyə deyir:

– Saa qızıl verdi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Hə.

– O qızılı neynədin?

Deyir ki, bu şahitdərin əliynən verdim ona. Dedi:

– Yaxşı.

Şahidin birini çağırır, deyir ki, get qızıl nə boydadı o batdaxdan o boyda şey yumurra gətir. O birinə də xəlvət deyir ki, get sən də o tərəfdən yumurra gətir. Bir-birinnən xəbərsiz. Bunnar küpün adını eşidif elə bilillər yekə şeydi da. Biri gedif bir kündə boyda batdağı yumurruyuf gətirif qoyur. Biri də onnan bir az yekə.

Deyir:

– Nə boyda idi o qızıl?

Deyir:

– Bax, bu boyda.

İsgəndər kişidən soruşur ki, verdiyin qızıl nə boydadı. Deyir ki, bir belə. Deyir ki, o gətdiyi palçıx nə boydadı? Hərəsinə bir-ikisini vurannan sora deyillər ki, bizi öldürmə, bizim günahımız yoxdu. Bizə pul verdi, biz də şahitdih elədik.

Salır o qazını çomağının altına, deyir:

– Buraxmıyajam səni, burda öldürüf bataxlığa basdırajam. Adam göndər, kişinin qızılını versin.

Nəysə, adam göndərir bunun qızılın alıf verir.

**V mətn**

İsgəndər qoşunu yığır, deyir ki, gedəjəm dirilih suyu işməyə. Xızır peyğəmbər də yanında olur. Bir cavan oğlan olur, bunun da bir dədəsi olur. Dədəsi o qədər qojalmışmış ki, onu ata yüklüyür, heş bunun xəbəri olmur. Nə qədər gedənnən sora düşüllər bir yerə. Bu, hərənin əlinə bir quru balıx verir. Sudan işməh Xıdır Nəbiyə qismət olur. Qayıdanda görüllər şakqaşakdı. Kimi bir ovuc götürüf cibinə qoyur, kimi torbasına. Gətirif çöldə baxıllar ki, bunun hamısı qızıldı. Onunçün deyillər ki, zülmətdə bir daş var, götürən də peşmandı, götürmüyən də. Götürən deyir ki, niyə çox götürmədim, götürmüyən deyir ki, kaş mən də götürərdim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Orda münəccimlərə deyir ki, deyin görüm mən nə vaxt öləjəm.

Deyir:

– O vaxt ölessən ki, üsdün polad olajax, su qana dönəjəh.

Bir dəryanın qırağına düşüllər. Qılışdan bunun altına düzüllər, üsdünə düzüllər. Baxıllar ki, suyun üzü qızarıf. Axı savah ertə gün doğanda suyun üzü qızarır. İsgəndər orda rəhmətə gedir. Vəsi eliyir ki, mənim anama deyin ki, mənim ehsanımı o adam yesin ki, dünyada dərdi olmasın. Bir də qabaxca bir dəsdə əli silahlı qoşun gedəjəh, dalınca bir dəsdə əzan çəkən molla gedəjəh, dalınca bir dəsdə at yüklü qızıl gedəjəh. Anam bilsin ki, əgər ölümü silahnan qaytarmax olsaydı, silahnan qaytarardım. Alimnən qaytarmax olsaydı, alimnən qaytarardım. Qızılnan qaytarmax olsaydı, qızılnan qaytarardım. Mümkün döylü ölümə.

Anası bir ağ dəvəni minif, İsgəndərin ehsanınnan götürür düşür düzdərə. Bu kənd mənim, o kənd sənin. Deyillər o kəndin qırağında bir yaşdı kişi var, Əhmədi-Biqəm. Onun qəmi yoxdu, uşaxlarnan oynuyur. Əlli-altmış yaşı var. Gedir dəvəni saxlıyır.

– Əhmədi-Biqəm sənsən?

Deyir:

– Hə.

Bir az söypət eliyir, deyir:

– Oğlum vəsiyət eliyif, eşitmişəm sənin dərdin yoxdu. Bu ehsannan ye.

Deyir:

– Ana, mən elə dərd əlinnən dəli oluf düşmüşəm düzdərə. Get ehsanı ver, camaat yesin.

**VI mətn**

Qoşun gedir bir dəryanın qırağında düşür. İsgəndər deyir:

– Bunu qurudax, görəh burda nə var.

Suyu dartıf töküllər, dartıf töküllər. Balıxlar qalır çabalıya-çabalıya. Bir balıx qızıl tulluyur. Onu götürənnən sora dəymir. Ona görə deyillər ki, İsgəndər balıxdan da xərac aldı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 55. TOPAL TEYMUR

### I mətn

Onun dizinin aynasını əmisi çıxardıf. Onçün axsıyır o. O, bir dooşanı hərriyif qatıf qoyuna, gətirif qapıya. O qədər sürətlə qaçırmış ki, dooşanı tuturmuş. Onun dizinin qapaxlığını əmisi çıxardıfdı. Deyifdi ki, bunun gələcəyi xatalı olajax. Ona görə bir tərəfi axsıyırdı.

### II mətn

Topal Teymur çox cəld və qoçax uşağ olur. Qoyuna gedirmiş. Padşah öz vəziriynən çıxıf ərazini gəzirmiş. Görür bir uşax qoyun otarır. Çatıllar buna.

– Salam məlöykü, bala.

Deyir:

– Əlöykümət salam.

Deyir:

– Sizdə böyüh kimdi?

Deyir:

– Bizdə böyüh dəvədi.

Deyir:

– Sizdə qonağı birinci kim qarşılıyar?

Deyir:

– Bizdə qonağı birinci itdər qarşılıyar.

Deyir:

– Səni nə çapardım?

Deyir:

– Çapginən, qoşun getdi, sən qaldın.

Baxır ki, bu çox hazırcavab uşağdı. Bu vaxt qoyunun içinə bir dooşan girir. Bu dooşanı tutur. Padşah qorxur ki, bu uşax böyüyəndə onun üçün nəsə təhlükə yaradar. Onçün onu şikəst elətdirir.

## 56. ŞAH ABBAS

### I mətn

Bir gün Şah Abbas Vəzir Allahverdi xannan gedir bir kəndə dərviş libasında. Gejə bir evdə qalıllar. Yatıllar, səhər duruf gedən-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

də ev yiyəsi bunnarın qabağına qaymağ gətirif qoyur. Şah Abbas o vaxta kimi gamış qaymağı yeməmişdi. Şah Abbas yeyir. Vəzir Allahverdi xana him-cim eliyir ki, bu nədi, nə qaymağıdı belə. Deyir ki, şahım, mən eşitmişəm, gamış qaymağıdı. Deyir:

– Bunu yaz vergi dəfdərinə, bunnan vergi alınsın.

Yazır. Səhər bunnar yeyif gedəndə görüllər, üzdən irax, yolun qırağında böyüh təpə kimi bir nəcis var. Şah soruşur ki, bu nədi belə. Deyir ki, bə bu, gamışın nəcisidi. Deyir:

– Vəzir, poz onu.

Deyir:

– Niyə?

Deyir:

– Ə, onu saxlıyan bunu nə qədər yedizdirir ki, nəcisi də bu boyda olur. Yazıx elə qazancını bunu saxlamağa xaşdıyır ki. Bunun vergisini nətər ödəsin.

Şah Abbas ona görə adil şah olufdu, camaatı sevən olufdu, camaat da onu çox isdiyif.

**II mətn**

Şah oğlu Şah Abbas təğyirlibas oluf Vəzir Allahverdi xannan gəzirmiş. Bir bağın böyrünnən keçirmişdər, özü də bərk susamışdar. Bağbanı çağırıllar ki, bərk susamışıx, bizə su verginən.

Bağban deyir:

– Suyum yoxdu, amma mən sizin susuzluğunuzu yatırdaram.

Deyir:

– Nətəri?

Gedir bir nar üzüf gətirir. Narı piyaləyə sıxanda Şah oğlu Şah Abbas dedi ki, o nar o piyaləni doldurmaz. Bağban sıxır, piyalə dolur. İçənnən sora deyir ki, olarmı bunun birini də gətirəsən. Bağban ikinci narı qoparmağa gedəndə bu, vəzirə deyir ki, vəzir, görəsən bu, bağın vergisini verir?

Bağban narı gətirir, nə qədər sıxırsa, piyalə dolmur. Dolmuyanda Şah Abbas deyir:

– Gördün, mən dedim ki, o nar piyaləni doldurmaz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu təğyirlibasdı, elə bilir heş kim bunu tanımır. Bağban deyir:

– Qibleyi-aləm, deyəsən, qəlbini dolandırdı.

**III mətn**

Şah Abbas səyahətə çıxmışmış. Bir bağın böyrünnən addıyanda Vəzir Allahverdi xana deyir burda nahar eliyəh. Gözəl bağ imiş. Vəzir Allahverdi xan deyir:

– Şah sağ olsun, eliyəh.

Oturullar üzüm ağajının divində. Surfanı salıllar. Görür ki, bir nar ağacı çıxıf, butax belə əyilif, bir cüt nar sallanıf. Bağbana deyir ki, icazə verərsənmi bunun birini qırım. Deyir:

– Buyur.

Gətirir fincana sıxır. Balaca qızıl fincan varmış, bunnan bir suyu çıxır. İçir, deyir:

– Bəh, bəh, bəh. Mən Şah Abbas olam, bütün dünyadan xarc alam, amma nardan almıyam?

Sovet devrində bütün ağaşdan xarc alırdılar, nardan almırdılar. Ürəyinnən keçirir ki, bunnan da xarc alaram. Aradan bir xeylax keçənnən sora deyir:

– Bağban, icazə ver o birsini də qırım.

Deyir:

– Buyur.

Gətirir bunu da kəsir, nə qədər sıxır, bir damcı su çıxmır. Deyir:

– Bağban.

Deyir:

– Hə.

Deyir:

– Məni tanıyırsan?

Deyir:

– Başaa dönüm, nə tanıyıram səni.

Deyir:

– Mən Şah Abbasam. Saa yarım saat möhlət verirəm. Narın kökü bir, butax bir, saplax bir. Nətər olur ki, bunun birinnən bir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

fincan su çıxdı, birinnən bir damcı su çıxmadı. Bu sirri maa deməsən, birdi birriyim hakqı boynu vurdurajam. Boynun fərmandadı.

Deyir:

– Şah sağ olsun, vallah, mən o barədə səə bir söz deyə bilmərəm. Köhnə kişilər deyərdi ki, hardasa nəsə zülm keşsə, haxsız iş olsa, ağaşda meyvənin suyu da quruyar.

Axı bu ürəyinnən keçirir ki, nardan xarc alajam. Əlini vurur kürəyinə, deyir:

– Bağbanımsan ki, bağbanım, bağışda.

**IV mətn**

Bir dəfə Şah Abbas Bərdə zonasınnan keçirmiş qoşunuynan. O, alimiynən, vəziriynən, vəkiliynən, ayləsiynən bir gəzirmiş. Gejə yatmax vaxdı gələndə görür ki, qurbağanın səsi qoymur yatmağa. Yaz günü imiş. Çağırır vəziri. Deyir ki, qurbağaların səsini kəsin, yatmağa qoymur məni. Ay nağarax? Qoşunu çağırır, buna daş atın. Görüllər mümkün döylü. Bunun anası görür kü, vəzir, vəkil, qoşun başçısı hamısı əlüsdə oluf. Deyif:

– Nolufdu, niyə belə eliyirsiz?

Deyir:

– Şah əmr eliyif qurbağanın səsini kəsin.

– Ə, Allah səni saxlasın. Onu nə var kəsməyə. Beş-on dənə qoyun kəsin, onun bağırsağını səpələtmə atın suyun içinə.

Qoyunnarı kəsillər, atıllar gölün içinə. Qurbağaların səsi xırp kəsilir. Şah qalxır: “Kopoğlunun adamı, bular bunu hardan bildi ə? Bunun səsini nətər kəsdi?” Çağırır vəziri, deyir:

– Vəzir, nətər oldu qurbağalar səsini kəsdi?

Deyif:

– Şah sağ olsun, kəsdih də səsini.

– Nətər kəsdiz?

Deyir:

– Beş-on qoyun kəsdih, atdığ bağırsağını suya.

Deyif:

– Düzgün deyin, bunu özüz tapdız, yoxsa kimsə örgətdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyif:

– Vallah, ananız örgətdi.

Deyir:

– Anamın ujunnan yüz qırmac vurun maa. O cərmədi, gərəh onu anam demiyəydi.

Özünə yüz qırmac vurduruf bax Bərdədə.

## 57. MOLLA PƏNAH VAQİF

Molla Pənah Vaqif gəlif burda məktəb açır, məktəbdarlıxla məşğul olur. İbrahim xanın da bir sərkarı olur. Mal-qaranın, döylətin başçısına sərkar deyillər.

Günnərin bir günündə sərkar eşidir ki, Qazaxdan bir sünnü mollası gəlif, çox bilikli, savatdı bir adamdı. Bunun da, üzdən irax, bir yaxşı iti varmış. Deyir ki, gedim buna ayınnan-oyunnan verim, bu itə dua yazdırım. Oturur, yeyillər, içillər. Molla deyir:

– Qardaş, sən kimsən, nəçisən?

Deyir:

– Vallah, mən çobannarın böyüyəm. Dağda döylətimiz var. Bir dənə də yaxşı itimiz var ki, o itin qorxusunnan heş bir canavar, qurd-murd sürüyə yaxınnaşa bilməz. Gəlmişəm ki, ona bir dua yazasan.

Vaqif də ağıllı adamdı. Deyir:

– Oldu.

Ərəb əlifbasıynan götürür yazır:

> Gözüm düşdü ətinə, – quzu gətirif axı.
> Dua yazdım itinə.
> Hər kim bunu oxusa,
> ……………………..

Bükür dua kimi, deyir:

– Apar bağla itin boynuna.

Aradan bir müddət keçənnən sora görüllər ki, sərkarın itinin boynunda dua var. Bu xəbər gedir çıxır İbrahim xana. İbrahim xan da çox dindar adam olur. Sərkarı çağırtdırır, deyir:

– Ə, eşitdiyimə görə sənin itinin boğazında dua var.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Hə, xan sağ olsun, var.

Deyir:

– O nə qələtdi eləmisən?

Deyir:

– Xan sağ olsun, sizin o döyləti saxlıyan bu itdi.

Deyir:

– Onu hansı molla yazıf?

Deyir:

– Qazaxdan bir molla gəlifdi, sünnü mollası, o yazıf.

Adam göndərif ki, get o mollanı gətir. Vaqifi aparıflar xanın hüzuruna. Deyir:

– Sən nə cəsarətlə itə dua yazmısan?

Deyir:

– Qibleyi aləm sağ olsun, dua döyül. Qoy əhvalatı deyim. Bir axşam idi. Gördüm bir kişi gəldi, yaxşı da toğlu gətirdi. Maa dedi ki, dua yaz da itimə. Mən də götürdüm ora bir parça şeir yazmışam.

Deyir:

– Nə yazmısan?

Göndərir kağızı gətirtdirir. Deyir:

– Onda zəhmət çəksin mollarının biri oxusun.

Molla götürür o bir bənd şeiri oxuyur. İbrahim xan Vaqifin bu ağlına, fərasətinə xeyran qalır. Onnan sora onu gətirir saraya.

## QARABAĞIN TANINMIŞ ADAMLARI HAQQINDA

### 58. HACI MƏMMƏDHÜSEYN

#### I mətn

Hajı Məmmədhüsöyün təbii alim oluf, oxumamış alim. Onun yetişdirdiyi sort Azərbaycanda adnan deyilirdi. Sayılan adam oluf. Hər yannan gəlif onnan sortdar alıf aparıflar. Gəlirdilər onnan toxumlux qoşdar alıf aparırdılar. Boz kərə sortunu o yetişdirif. Qar-nının altı açıx olurdu, cod yunu olurdu. Bu sort həm də Qaradolax



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sortu kimi tanınır. Əziz qonax olanda ona boz kərə sortunnan bir-iki toğlu hədiyyə verərdik.

Pastayannı yapıncı əynində, at üsdündə döylətinə nəzarət edirdi. O iki sort götürürdü. Biri boz kərə olurdu, biri də qırmızı olurdu, ona deyirdilər "astarı açıx". Quyrux hissəsi açıx olurdu, dairəvi gəlirdi. İkisini də o yaradıf. Harda yaxşı qoyun görür, qızıl pulnan alırdı. Məsəlçün, gedirmiş bir yerə. Görürmüş ki, orda bunun sürüsünə bənzər yaxşı qoyun var. Deyirmiş bunu sat maa. Alıf gətirirmiş.

**II mətn**

Bir dəfə Hajı Məmmədhüseyn gəlif dağda çobannarı yığıf bir heyvan kəsdirifmiş. Tatarrı Ojaxqulu oluf, bu da sinədən deyən çobanmış. Deyir ki, ayə, Tatarrı Ojaxqulu, bu dağları görürsən? Bulara hərəsinin öz xüsusiyyətinə görə bir şeir de. Onda Ojaxqulu çoban bir şeir deyir:

Dihcədən baxanda havayı dağlar,
Sarımsaxlıdan keçər dolayı yollar,
Qızılboğazdan qalxır Kilsəlidə girvə dağlar,
Nə yaman oldu bu dəli dağlar.

**III mətn**

Bir dəfə Hajının köçü dağa gedirmiş. Bir erməni də qatırnan duruf Qala dərəsində yolun qırağında. Sürülər gəlif keşdihcə soruşur:

– Ara, bu kimindi?

Deyillər:

– Hajı Məmmədhüsöynün.

– Ara, bu kimindi?

– Hajı Məmmədhüsöynün.

Axırda qatırın g…nə bir çubux vurur, deyir:

– Ara, bax bu da olsun Hajı Məmmədhüsöynün.

**IV mətn**

Hajı Şirvan tərəfdə bir qış yatağı alarmış. Orda bir ləzgiynən bunun mübahisəsi düşür torpax üsdündə. Bir sürü bunundu, bir sürü



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ləzginin. O vaxdı da torpax sahibinnən otlax üçün müvəqqəti sahə alırdılar. Bir ləzginin də qış xamına ehtiyacı varmış, Hajı Məmmədhüseynin də. Padar düzü deyillər, orda cəhri düşür. Ağsakqallar, qarasakqallar yığışıllar ki, bu yatax kimə qalmalıdı. Deyillər ki, bunu həracca qoyajeyih. Yerə bir xalça tulluyajeyih. Kimin pulu qutarsa, otursun qıraxda, daha çox pulu olan yerin sahibi olsun. Ləzgi də pullu imiş. Hajının da əlində bir xurcun varmış. Xurcunun ağzını açıllar, Hajı da tulluyur, ləzgi də tulluyur, Hajı da tulluyur, ləzgi də tulluyur. Ləzginin pulu qutarır. Ləzginin pulu qutaranda deyir:

– Hajı, mənimki qutardı.

Hajı xurcunu tulluyur, deyir:

– Əyə, mənimkinnən tulla, mənimkinnən tulla.

Özünün böyüklüyün burda da gösdərir. Axırda ləzgi deyir:

– Hajı, Allah xeyrini versin, yer sənindi.

Hajı deyir ki, yox. Bir belə də böldüm verdim saa pulsuz-zadsız, apar otar.

## V mətn

Onu tutuf türməyə salıllar. Görüf ki, iki yüz metr aralıda qoyun otarıllar. Orda nazora deyif ki, o qoyunun birinin böyrəyi quruyuf. Mərcdəşiflər orda. Deyif ki, mən udsam o quzunu kəsəssən verəssən bu dusdaxlara. Mən səyf desəm, saa yüz maat verəjəm. Kəsiflər. Kəsənnən sora baxıf görüflər bunun böyrəyinin biri quruyuf qarnına yapışıf. Onnan sora onu buraxmışdar ki, belə bir adamı həbsdə saxlamağ olmaz.

O vaxdı da 28 Aprel savxozunda qoyunnar qırılırmış. Onu türmədən çıxarıf həmin savxoza baytar həkimi qoyullar. Müharibənin qızğın vaxdında rəhmətə getdi.

## VI mətn

Köyühdə Salman addı bir kişi olurmuş, yaxşı sanballı kişi imiş. Bunun, üzdən irağ, bir ulağı varmış. Ulağı minirmiş, malın-qoyunun aparırmış otarırmış, qarağannan, qaramuxdan yığıf gətirirmiş təndirə tökməyə. Bir gün bu, Muxor qovusu deyillər, kanalın



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

üsdünnən gedir çıxır Kəhrizdiyə kimi, Köyüyün böyrünnən keçəndə görür ki, erkək sürüsü, qoyun sürüsü, quzu sürüsü, qoş sürsü – hamısı ayrı-ayrı. O qədər var-döylət gedir ki. Görür bu sürü qədər də bir sürü it gəlir daldan çobannarnan. Deyir:

– Ə, bu gedən sürü kimindi?

Deyillər:

– Qaradolax Məmmədhüseynin.

Eşşəhdən aşırılır deyir:

– Ə, bunun dünyadan gözü doymur? Aparın bu eşşəyi də verin ona, bəlkə gözü doya.

Bu çobanın da biri diribaş olur da. Nəysə, bunun ağlına verir, eşşəyi qatır atın qabağına, aparır köçün arasına salır. Deyir ki, belə-belə. Hacı Məmmədhüseyn köçü dayandırır. Deyir, get o kişini tap gətir bura. O gəlincə bir yaxşı heyvan kəsdirir. Aşbazı-zadı gətirir. Heyvanın birini bişirtdirir, birini də kəsir soruğa-zada. O vaxdı atı olan adam çox yük aparırdı. Onda da maydan at modudu, sakit olurdu. Belində də qom olurdu yükü götürmək üçün. Atın birini qomladır, bağladır onu, cəmdəyi də bağlıyır bunun belinə. Yeyillər, içillər. Deyir:

– Belə bir söz demisən?

Deyir:

– Ə qardaş, demişəm. Gözün bir belə var-döylətdən doymur? Ə, bunu neynirsən, sabah öləssən. O ulağı da verdim saa, bəlkə gözün doya.

Deyir:

– Kişi, həqiqi gözüm doymur dünya döylətinnən. Sağ ol, sənin sözün mənə böyük dərs oldu. Bax, o qomulu atı saa bağışdıyıram, üsdündə bir cəmdək var. O atı min, ulağını qat qabağına get.

Deyir:

– Başına dönüm, heylədi, ulağı ver, atı isdəmirəm.

Deyir:

– Əşi, verirəm da, onu da saa verirəm.

Deyir:

– Yox ey, başına dönüm. O ulağ məni tanıyır, mən də onu tanıyıram. Yaşdı adamam, gedirəm, yolda bir yerdə təxrətə düşəndə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ulağ qulağıın irəli-geri, irəli-geri eliyə-eliyə durur orda. Atdı, təpiyi vurdu öldüm getdim. Allah verən ömürü qoy rahat yaşıyım.

### VII mətn

Qaradolaxlı Hajı Məmmədhüsöyün var ha, hədinnən artıx varrı olur. Bağırov* iclas eliyirmiş Ağcabədidə. Durur deyir:

– Başına dönüm, maa bir söz ver, saa iki kəlmə sözüm var.

Deyir:

– Buyur, ağsakqal.

Deyir:

– Mənim neçə min qoyunum var, çobanım var, itinə qədər hamısını sayır. Bunun hamısını verirəm sizə. Məni bu yaşımda tutuf biiman elətdirməyin.

Deyir:

– A kişi, get qoyunun içinnən iki yüz qoyun götür, qalanını ver, amma Ağcabədi torpağında qalsan mən Bağırov gedənnən sora sənin başıı əkəjəhlər.

Axırı keçir Şirvan tərəfə, o kişi gedir Xırdalanda öz əjəliynən ölür.

### VIII mətn

Sovet hökuməti gələnnən sora Hajının döylətini tutuf əlinnən alır. Yazıx kişi qalır çox pis vəziyətdə. Bunun döylətini yığıf yarısını verillər Qarabucağa, yarısını da Samux savxozuna. Direktor deyir ki, Hajı, gəl səni savxoza zootexnik qoyum. Hajının da hardasa həştad-doxsan yaşı var. Döyləti əlinnən alınıf, əlajı yoxdu, razılaşır.

Qoyunu qırxıllar. Direktor gəlif deyir:

– Hajı, qoyun qırxıldı?

Deyir:

– Hə.

Deyir ki, ətdiyə qoyun seçəjeyih. Sən çobannara de, qoyunu seşsin. Direktor da duruf qoyunu seşdirir. Ay bala, onu gətir, ay ba-

---

* Bağırov – Mir Cəfər Bağırov



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

la, bunu gətir. Sürünün içində iki seşmə qoyun varmış. Biri boz qumral, biri boz kərə. Hajı deyir ki, o boz kərə qoyunu da gətir. Direktor deyir:

– Hajı dayı, sən Allah, sürüdə bunnan gözəl qoyun yoxdu, sən deyirsən onu gətir.

Deyir:

– Onun qara ciyəri ağ suluxdu.

Qoyunu gətirtdirir. Direktor deyir ki, kəs qoyunu. Qoyunu kəsillər. Mən də köhnə kişilərdən eşitmişəm də. And içir ki, direktor görüf, nejə Hajı demişdi, qoyunun qara ciyəri heylə ağ suluxdu.

**IX mətn**

Surfada yeyilən əti o adam bilir ki, həmin qoyun Bakının otunu otduyuf, yoxsa Qarabağın. O heylə bir adammış.

Bir dəfə məclisdə oturuf çörəh yeyirmiş. Surfaya qoyun əti gətiriflər. Deyif ki, bu qoyun Haramıda otduyuf. Heylə tamın bilirmiş.

Sayvalılı Qaytaran bəy oluf. O da çox varrı adam oluf. Bir gün bu gəlir Qaradolağa. Qaradolax da Kürün qırağına tökülüf, dağa çıxıf gedəjəhlər. Gəlir Hajını tapır. Görüşüllər. Hajı çobana deyir ki, Kürün qırağınnan gələn filan erkəyi gətir kəs. Gətirir kəsir. Deyir Qaytaran bəy, bu kavabdan nə bilirsən? Deyir:

– Hajı, nə demək isdiyirsən?

Deyir:

– Bu harda otduyuf?

Deyif:

– Hajı, düzdü, mənim təcrübəm var, amma sənin qədər yoxdu. Mən onu deyə bilmiyəjəm.

Sora bir dəfə də Hajı gedif bulara. Kürün qırağınnan Qaytaran bəyə qoyun gedifmiş. Bizdə tağlı ot olur, başı yumru-yumru, turac otu kimi, ona qaradənə otu deyillər. Onda Hajıdan soruşuf. Hajı deyif:

– Sənin mənə yedirtdiyin ət qaradənə ətidi.

Deyif:

– Hajı, halaldı səə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 59. HACI QARA

### I mətn

Ağcabədidə Pürzə arvad oluf, onun evində yaşıyıf. Pürzənin qavağında heş kim dura bilməzdi. Ötkəm arvad oluf. Hacı Qara Pürzə arvadın evində həmişə qonax kimi məskunnaşarmış. Ağcabədi bazarında mal satarmış. Bunun arabasına, qoşqusuna baxan iki nökəri varmış. İrannan mal gətirif burda satırmış.

Get-gedə bazarı zəyifliyir. Nökər baxır görür ki, bunun verdiyi əməkhaqqı bunu qane eləmir. Sözdəşillər ki, qaçax. Yəni bunun əlinnən çıxax gedəh, nə qədər nökərçilih eliyəjəyih. Hajı Qara bunnan duyuğ düşür. Bu əhvalat oluf Pürzə arvadın evində. Duyux düşür ki, bu nökərrər qaşmax isdiyir. Ona görə nökərrəri yanınnan qoymur. Kəndir alır. Gejə bunun atına baxmax lazımdı axı, atın yemini vermək lazımdı. Nökəri göndərir ki, get ata bax gəl. Kəndiri bağlıyır nökərin belinə, birini də tutur əlində. Nökər gedir, kəndiri açır, bağlıyır atın qavağ ayağına. Hajı Qara hərdən belə-belə dartır, görür tərpənir da. Deyir yağın gələjəh, atı rahatdıyır. Möhkəm dartanda görür at kişniyir. Bu biri nökərin də belinə kəndir bağlıyıf göndərir ki, get gör nağarır orda. Bu da gedif bağlıyır atın o biri qılçasına. Hajı Qara ha dartır, dartır, görür at kişniyir. Gedif görür ki, kəndir atın qılçalarına bağlanıf. Heylə nökərrəri onnan qaçıllar. Onun nökərrərinnən biri yerri oluf.

### II mətn

Axundov gəlif bunnan pul isdiyir. Axı Axundov rus məmuru oluf. Bu vermiyif ki, aparıf dinin əleyhinə istifadə eliyərsən. Axundov bunu biyabır eləmək üçün "Hacı Qara" əsərini yazır.

Bir günnəri gəlif deyir ki, Hacı, sənin haqqında əsər yazmışam. Hacı deyir ki, samavarı doldurun, qaynadın. Samavarı doldurullar. Hacı pulu paçkaynan gətirif düzür yanına. Deyir ki, bunnan çayı qaynadassan. Həqiqətən də, kağız pulu yandırıf atıllar ora, çayı qaynadıllar. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Hacı, sən mənə beş yüz manat pul vemədin, samavarı qaynatmax üçün 50 min pul yandırdın.

Deyir:

– Mən bunnan sənə sübut eliyirəm ki, mən xəsis deyiləm. Sən mənnən istədiyin pulu aparıf rusdar üçün istifadə edəcəkdin, ona görə o pulu sənə vermədim.

**III mətn**

Bir gün Hajı Qara çıxır ki, qoyun ciyarı alıf gətirə. Görür ki, bahadı, addıyır Bərdəyə. Gedir soruşur eliyir, əli gəlmir bunu ala. Nəysə, o vaxt bunun bir yoldaşdığı varmış. Bu, yoldaşına deyirmiş qavaxcan sənin çörəyini yeyəh, sora mənimkini yeyərih. Bunun-kunu yeyənnən sora özünkünün ağzını bağlıyırmış.

– Ə, di gəl sənin çörəyini yeyəh.

Deyirmiş:

– Yox ey, nənəmdən qorxuram.

Bax, heylə xəsis imiş. Nəysə, bu addıyır Gəncəyə. Gəncədə bazarda hərrənirmiş, həmən yoldaşına ürcah gəlir. Öpüşüllər, görü-şüllər. Deyir:

– Nə gəzirsən, sən hara, bura hara?

Deyir:

– Vallah, çıxmışdım bazara bir ciyar almağa, xarava o qədər bahadı. Bax, gəldim Bərdəyə, əlim gəlmədi almağa.

Amma o zamannarı bunun yoldaşı lütkom bir şeymiş. Hajı Qara görür ki, ə, bu ayrı hak-hesabdadı. Bunun geyimi, filanı, beşməkanı tamam dəyişif. Deyir:

– Ə, ürəyim darıxır. Qavaxca de görüm bunu hardan almısan?

Deyir:

– Ə, deyəjəm ey saa. Allah mənimkini yetirif. Bir malını yeməz vardı, sən ölmüyəsən, kopoğlu öldü getdi. İndi onun arvadını almışam, malını-pulunu da xaşdıyıram.

Bunu eşıdən Hajı qaçır gəlir evə.

– Ə, qoyun kəsin.

Deyillər:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Pay atonan, kişinin başına hava gəlif.

Deyir:

– Ayə, arvadımı alanı da gördüm, malımı yeyəni də gördüm.

**IV mətn**

Bir nəfər Hajı Qaraya deyif ki, gəl dosd olax. Hajı Qara deyifdi ki, şərt kəsəjəm sənnən. Gələrsən bizə, orda vəziyyətə baxarıx, sora dosd olarıx. Gedir Hajı Qaragilə. Keşmişdə buxarı varmış, orda da ojax qalıyırmışdar. Bu kişi də qəlyan çəkən imiş, varrı adammış. Hajı Qara çaydan-zaddan düzəldir. Görür bu kişi dəyqada bir ibişkadan çəkir qəlyanını yandırır, çöpü tulluyur. Hajı Qara da fikir verir. Yandırır tulluyur, yandırır tulluyur. Gedənə yaxın deyir:

– Qardaş, noldu?

Deyir:

– Sənnən mənimki tutmaz.

Deyir:

– Niyə?

Deyir:

– Bayaxdan bəri bir ibişkanı korramısan. Bunun bir dənəsiynən bir şəhəri yandırmax olar. Qardaş, sənnən mənimki tutmaz. O köz, o da maşa, götür papirosu yandır da.

## 60. XAN ŞUŞİNSKİ

Yaz günü imiş. Behbud oğlu Həsən oğlu Ataşa toy eliyəjəymiş. Bu xanın da stalovoyda çalıf-oxuyan vaxdı imiş. Gedir Şuşaya xanı gətirməyə. Xanı tapır, deyir:

– Xan, mən Ağcabədidən gəlmişəm, özüm də kəbirriyəm. Oğluma toy eliyəjəm, özü də on gün.

Deyir:

– Əşi, on gün toy olar?

Deyir:

– Bəli, mən on gün eliyəjəm. İndi de görüm mənnən şabaşa danışırsan, yoxsa qiymət kəsirsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xan fikirrəşir ki, bu basma papax kişidi, bunun toyuna kim gələjəh ki, şabaşı nə ola. Deyir:

– Əmi, qiymətə danışajeyih.

Danışıllar. Adresin verir, deyir:

– Bürsüyün orda ol.

Xan gəlir görür ki, bir dəm-dəsgah var. İki yüz, üş yüz atı bağlamağa hörük. Yüz əlli metr mağar. Bir tükan, içində qənfet, şirniyyat. Belədə dəlləkxana.

Nəysə, toy başdıyır. Xan bir saat, iki saat oxuyur. Ataşın atası Həsən gəlir, əlini salır pencəyin civinnən bir onnux çıxardır, tulluyur bunun qavağına. Deyir:

– Xan, xamlıx eləmə, yaxşı oxu.

Aradan bir az keçir, gətirir bir onnux tulluyur:

– Xan, yaxşı oxu.

Xan bunnan qiymət kəsdiyinə peşman olur.

And olsun Allaha, 1948-ci ildə mən birqadir işdiyirdim. Araz kalxozunnan iki ton arpa almışdıx. Paşanın atası Hüseyn kişiynən getdih arpanı gətirməyə. Sənədlərə qol çəkilməlidi, getdih sədri tapmadıx. Dedilər ki, Xan gəlif, konsert verəjəh. Biz də getdih. Bu çaldı, oxudu. Şökətdi, budu, qardaşı Allahyardı tarçı, bir də kamança çalandı. Oxudu qutardı. Qutarannan sora dedi ki, ay camaat, sizdən bir adam soruşajam, Kəbirridən. – Qulağımnan eşitdiyimi deyirəm. – Dedilər:

– Soruş.

Dedi:

– Behbud oğlu Həsən.

Deyəndə Hüseyn kişi dilləndi ki, o bizim kalxozdandı, mənnən qonşudu. Dedi:

– Sən burdansan?

Dedi:

– Yox, mən Salmanbəylidənəm.

Dedi:

– Onun oğlunun toyunu elədim mən, onnan qiymət kəsdiyimə utandım. Onun mənim qavalımın üsdünə tulladığı onnuxları quflat-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mışam, qavalın içinə belə dəyirmi düzmüşəm. O pastayannı evdə olur. Qonağım olanda o qavalnan oxuyuram.

Biləndə ki, Həsən artıx kasıflıyıf, var-döyləti əlinnən alınıf Xan Şuşinski Hüseyn kişiyə beş yüz maat pul verdi, dedi:

– Bunu verərsən Həsən kişiyə.

## 61. SARI AŞIX

Bizim mahalda Sefi addı bir aşıx oluf. Sarı Aşıx deyif:

– A Sefi, gəlif sənnən deyişəjəm.

Bu Sarı Aşığın da Canı addı şəyirdi olur. Sarı Aşıx gəlir Sefinin yanına. Sarı Aşıx Aşıx Sefiynən oturuf söypət edəndə görür, üzdən irax, qapıda bu Bəxdiyarın* küçüyü təki sarsax it sefillənir. Sarı Aşıx bu Aşıx Sefini bağlamax üçün belə bir söz deyir:

– Ə Sefi, bu nədi qapıda sefillənir?

Demək, iti Sefiyə bənzədir də. Deyəndə Aşıx Sefi də dil altında qalmıyıf Sarı Aşığın belə cavabını verir. Bilir ki, bunun şəyirdi Canıdı. Biədəb də sözdü, bağışdıyın. Deyif:

– Ə, elə vura bilmirsən canı g....nən çıxa.

Sarı Aşıx deyif:

– Aşıx Sefi, deyilmiş qədər varsan. Mən buyünnən belə durdum getdim. Sən ki Canını itin harasınnan çıxartdın, bu məə bəsdi.

## 62. AŞIQ VALEH

Bunu mənə atam nağıl eliyif. Aşıx Valeh aşıxlıx sənətini örgənməhdən gəlir. Baxır ki, yolda bir çoban qoyun otarır.

– Salam məleyki, çoban qardaş.

– Əlöykümət salam. Ay qardaş, de görüm sən kimsən.

Deyir:

– Mən Aşıx Valehəm, aşıxlıx sənətini örgənməhdən gəlirəm.

---

* Söyləyici iti öz nəvəsinin küçüyünə bənzədir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıx Valeh gənc olur. Nə qədər sənət örgənsən də, yenə də örgənməyə ehtiyac var. Çoban da bij adam oluf da. Bunun imkanı yoxuymuş ki, qoyunu otaran ola, bu, qış yatağını düzəldə, saxmana sala, bir üzünü-başını qırxdıra. Buna imkanı yoxuymuş. Çoban deyir: "Ə səni, buna bir sual verəjəm, elə bunu bağlıyıf qoyunu bir az otardajam buna". Deyir:

– Oğul, sənə bir sualım var. Cavaf verdin, həqiqi haqq aşığısan, verəmmədin, şərtimiz şərtdi. Mən o cavabı verəjəm, sən də bu qoyunu bir ay otarassan.

Valeh deyir: "Ə, nətər yanı mən aşığ olam, bunun qarşısında aciz qalam". Deyir:

– Qəbul oldu, ağsakqal, sualı ver.

Deyir:

– Oğul,

Dağların başın ağlar,
Qar yağıf başın ağlar.

İki misrasın mən dedim, bunun arxasın de.

Valeh fikirrəşir: "Ə, bunun ürəyini nətər oxuyum ki, son iki misra bunun iki misrasına tuş gəlsin".

Nəysə, Valeh deyir:

– Ağsakqal, qoyunu otarası oldum.

Bəli, sazı qoyuf kişinin alaçığına, bir yaxşı çomağ alır əlinə, kişinin qoyununu bir ay burda otarmaxda olsun. Kişi də qəşəh çıxır bazara, özünə yaxşı kömək tapır, başını qırxdırır, yaxşı plov bişirtdirir arvada. Yaxşı yeyif-içir. Ay ötür, həmin vaxt tamam olur. Gəlir, deyir:

– Oğul, o vaxt nətər demişdim?

Deyir:

– Ağsakqal, dedin ki,

Dağların başın ağlar,
Qar yağıf başın ağlar.

Deyir:

– Ay oğul, mənim adım Raqufdu,

Raquf bir dərdə düşüf,
Hər kəs öz işin ağlar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Əyə, onda mana çoban lazım idi qoyunu otara. Allah səni yetirdi, qoyunumu bir ay otardın, mən getdim işimi sahmana saldım gəldim.

## 63. QAÇAQ NƏBİ

Qaçax Nəbiynən dədəmin ünsiyyəti oluf. Bir dəfə Qaçax Nəbi Avdal-Güləflıdan addıyıf keçif Kür zonasına. Bunu hökumət bilif. Bu gəlir qısılıf Qarqara. Ora vaxdıynan çox qarğulux oluf. Elə qarğulux oluf ki, onun içinə dəvə girsə, görünməzmiş. İndi bu saat da qarğı var orda, intaası kökü kəsilif, az-maz qalıf. Atam deyir, məə bir nəfərnən xəbər çatdırdı ki, bəs İsa, muhasirədə qalmışam, çıxa bilmirəm. Bəs bizə burdan çıxana qədər yeməh-işməh ver. Atam da deyir ki, məni izdiyillər, adamnan bu qarğuluğa çörəh göndərə bilmərəm. Deyir, bir dənə gamışım var, böyüh gamışdı. Bağlancağı bağlıyıram, yeməh-işməyi bağlıyıram gamışın boğazına. Gedir gamış qamışdığa girən təki bunun adamları gəlir bu çörəyi alır aparır. Axşama qədər bunnan dolanıllar, savahı bir də.

Deyir, beş gün Nəbinin adamları qaldı mansırada, beş gün gamışın boğazında ona mən çörəh daşıdım. Beşinci gün gamışı çörəh boğazında yolluyanda axşam gördüm gamış qayıtdı çörəh boğazında. Deyir dedim ki, hə, Nəbi çəkilif gedif. Orda olsaydı, gamışın boğazınnan çörəh açılardı. Deyir, sohra eşitdim ki, Nəbi Qarqar yuxarı gedif, Ağdamın üsdündə Qızılca vardı, ordan addıyıf, Avdal-Gülaflıdan addıyıf gedif Kərkicahana sarı. Onnan sora arxayın oldum ki, Nəbi sağ-salamat gedif.

## 64. QAÇAQ QARAŞ

Mircəfər Bağırov gəlir düşür Ağdaşa qırx nəfər atriyadnan. Daşdılı Xasay da bunnarın içində oluf. İki dənə rus milisyəsi verir Daşdılı Xasaya, deyir:

– Gedin Qaçax Qaraşı götürün gəlin.

Xasay deyir, getdix üş dənə alaçıxdı. İçəridən bir zənən çıxdı:

– Qardaş, xeyirdi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedim ki, Qaraş lazımdı. Dedi:

– Düşün çay için, gələr.

Deyir, Qaraşın bir qara Qəmər atı var, elə bil Koroğlunun Qıratıdı. Rusdar mütəkgəyə söykəndilər, başlarını qoydular yatdılar. Mən də mütəkgəyə söykənmişəm, gözdüyürəm görüm hansı tərəfdən atın tozanağı gəlir. Bir də gördüm Qəmər atın tozanağı gəlir. Qaraş gəldi. Həqiqi də general kimi bir oğlandı.

Nəysə, atını tutdular. Arvad sınavarı dəmliyif pilov bişirif. Kişi getdi yuyundu elədi. Gəldi çörəh yedi. Daşdılı Xasay da elə belə adam deyildi. Onun hər qolunun üsdünə dörd adam minsə, yendirə bilməzdi. Heylə bir adam idi. Dedi:

– Qardaş, xeyir ola, nə üçün gəlmisiz?

Dedim ki, Mircəfər Bağırov sənnən görüşməh isdiyir. Deyir gəlsin görüşək. Dedi:

– Yaxşı, gedin, gəlirəm.

Addadı o biri alaçığa. Silahı, paltarı çıxarıb bir naxırçının libasını geyif gəldi ki, gedək. Arvad bərkdən dedi ki, Qaraş, indiyətən əlli pud arpa yeyif nə olmusan, innən sora əlli pud yeyif nə olassan. Mircəfər Bağırovun qabağına gedirsən bu libasda? Qayıt get birə beş paltarını da geyin, silahını da götür. Elə geyin həmişəkinnən yaxşı. Get, qoy güllələsin səni. Desinnər Qaçax Qaraşı Mircəfər Bağırov güllələdi.

Bizə dedi:

– Gedin, gəlirəm.

Biz elə yeni çatmışdıx. Halay vuruf stol qoyuf oturuflar. Qaraş Qəmər atnan gəldi. Yüz metr qalmış saxladı. Buna afiserski salam verdi. Mircəfər Bağırov durdu stoldan, getdi Qaraşın qabağına. Qoluna girdi, atı apardılar. Gətdi meydanın ortasına. Dedi:

– Qaraş, anan namaz üsdə idi. Əgər bu cəsarətnən mənim üsdümə gəlməsəydin, səni güllələyəjeydim. İnnən sora oldun mənim sağ cinahımda. Bir tərəfimdə oldu Xasay, bir tərəfimdə sən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## YER ADLARI, TAYFA VƏ NƏSİLLƏR HAQQINDA

### 65. CANAVARLI KƏNDİ

**I mətn**

Deyilənə görə, kəndin ilk adı Çeşməli olub. Kəntdə birinin bəynən mübahisəsi düşür. Deyir, mən quzunu alaram canavar kimi dişimə, çayı keçərəm o üzə. Həqiqətən də, quzunu ağzına alıb çayı keçir. Onnan da kəndin adı qalır Canavarrı kəndi.

**II mətn**

Bir kürd imiş, bu kəntdə olurdu. Qonşu kənd də xannar, bəylər yaşıyan kənd idi. Aşağı tərəf hamısı çalma idi. Orda kənd yox idi. Kürd gedir ora, qoyunun içinə. Xan da durufmuş qoyunun yanında. Xana deyir ki, sənin bu erkəyini mən ağzıma alım – qayanın altında çinar ağacı var idi, – o çinaratan aparım. Sənin çobannarın erkəyi mənim ağzımdan alsa, onda nə deyirsən edim, ala bilməsə erkəh mənimdi. Onnan sora erkəyi vuruf ağzına aparıf. Çobannar nə qədər eliyir onu ağzınnan sala bilmillər. Kürd də zırı kürd idi. Kəndin adı o vaxdan Canavarrı kimi qalır.

### 66. KÖYÜK KƏNDİ

**I mətn**

O qədər meşə varmış burda, qalınnıx imiş. Bir tərəfi Hindarx, bir tərəfi Kəhrizdi, Qarqar, buralar hamısı meşə imiş. Bir dəsdə mal yoxa çıxır, tapılmır. Buları tapanda mal küyükür, qaçır. Elə onnan da o kəndin adı qalır Köyük.

**II mətn**

Köyükdə qalın meşə oluf. Dəvəyə deyillər hara gedirsən, deyir: “Ya Naxçıvana duza gedirəm, ya da Köyüyə oduna”. Bu məsəl o vaxdan qalıf. Hüriyyətçilih dövründə meşəni camaat qırıf. O kəndə siftə bizim ulu babamız gəlif Ağdamın Saraclı kəndinnən. Alı adında kişi oluf. Yazdağa gəlif bura, elə burda da qalıf. Payız gələndə çox



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

quraxlıx oluf. Kişi deyif ki, heyvanı açın buraxın, getsin meşəyə. Açıf buraxıllar. Yaz gələndə nökərinə deyir ki, get gör nətərdi, heş qalan oluf. Gəlif görüf ki, heyvan hamısı meşədə yeyif, küyükür adam görəndə. Ad da ordan qalıf. Sora oluf Köyük kəndi.

**III mətn**

O kəntdən (Köyük kəndindən – top.) atamın tanışı vardı, Feyzulla addı bir kişi idi. Dədəm onnan zarafat edirdi ki, Feyzulla, siz Köyühlü deyilsiz ey, Kötühlüsüz. Deyirdi:

– Vallah, ay İsa kişi, nə bilim. Heylə də deyillər, belə də deyillər.

O deyirdi ki, nəyə görə kötühlüdür. Atam deyirdi ki, bu düzdərdə gəvil deyilən bitki var, qanad-quyruğu yer üzündə çör-çöp olur, amma kökü ağaş kökü kimi çox yekə olurdu, dəyərri yanacax olardı. Payıza dönəndə sizin camaat uşaxlı-böyühlü, qadınnı-kişili darışarmışdar düzdərə qış yanacağı üçün gəvilin kökünü yığarmışdar. Lapatkaynan, baltaynan, külüngnən qazıf kötühdən daşıyıf hər kəs qapısında taya vurarmış ki, qışda yandırmağa. Kötüh qazannar, kötüh yandırannar olduğuna görə olara kötühlü deyiflər. O kötühlü, kötühlü sora nəsil dəyişdihcə Köyüklü şəklini alıb.

## 67. MİNƏXOR KƏNDİ

**I mətn**

Əsl adı Binəxordu. Ərəbcə ata "xor" deyillər. Pənah xanın at binəsi olufmuş orda. Ona görə oranın adı qalıf Binəxorru.

**II mətn**

Minəxor İvrahim xanın at tövlələri oluf. Minəxor "min at axuru" deməkdi. Orda min at axuru oluf.

## 68. HARAMI DÜZÜ

Haramı düzü dəvə karvanının yolu üsdündə oluf. Orda da haramılar gedif gələn karvannarı soyurdu. Ona görə də oranın adı qalıf Haramı düzü.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 69. GAVUR ARXI

### I mətn

Örənqala böyük bir şəhər oluf. Orda yaşıyannar da gavurlar oluf. O arxı onnar çəkdirif. Sora Örənqala batıf. 1938-ci ildə arxı bərpa eliyillər, adını qoyullar Orcanidze kanalı. Sovet dağılannan sora həmin arx yenidən Gavur arxı adlandırılır.

### II mətn

Gavur arxını sifdə gavurlar düzəldifdi. Yüz illər keçif pozuluf, Arazdan ayrılan qol itif-batıf. Bir də xan qızı Natavan arxa su gətirif. Onun da vaxdı qutarıfdı. Texnika çıxannan sora su hasat gəldi. Qavaxda bizi yığırdılar, daşı yığırdıx qarğının arasına, məfdilnən bağlıyıf yumalıyıf salırdıx Araza ki, su güjdənsin kanala gəlsin. Bu kanal da onnan bəri işdənir.

Bu kanala su üş dəfə gəlif. Elə olufdu ku, arxı qazdıxları yerdə bir ilanın ortası çıxıfdı. İlanın ortasına gətirif kəndiri salıflar. Başı-quyruğu torpağın altındadı. Nə qədər çəkiflər, mümkün olmuyuf. Sora kəllər işdiyirdi orda. Kəlləri gətirif qoşufdular. Kəllər güj verəndə bu çıxmıyıf. Çıxmıyanda gamış heyvanının bir xasiyyəti var, o saat dizdərini atır yerə. Qavax dizdərini atıf yerə, bu çıxıf. Görüflər bir əjdahadı. Bu heş tərpənmir. Elə belə-belə baxıf bulara. Bular da buna yaxın gedə bilmiyif. Bir də görüflər ki, nə qədər sürü ilannar gəldi topalaşdı bura. Bu ilannar padşahı imiş da. İlan gəlif fışıldaşanda bular qaçıf. Savah ürəkli bir adamı göndəriflər ki, gedin görün orda nə var. Gedif görüflər bir dənə ilan da yoxdu. Çıxıf gediflər.

## 70. XATIN ARXI

Şah Abbas Xatın addı naxırçı qızını alanda qız şaha deyifdi ki, Əsgəranın tuşunnan, Qarqar çayınnan bir dənə arx çəkdir, çıxartginən Qarabağın düzü Muğadənə. Xatın arxı son vaxtlara qədər işdiyifdi. Şah Abbas onu həmin kadının sifarişiynən çəkdirif.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 71. ƏJDƏR GÜLLƏLƏNƏN YER*

Orda əvvəla bir yannışlıx oluf. O Əjdər güllələnməli döyülmüş. Bu güllənən Əjdər kamsomolçu oluf. Başqa bir Əjdər güllənəsi imiş, səhvən gəlif bunu aparıflar. Afşar bir qürurunnan da o biri camaatdan fərqlənir. Bu Əjdər öləndə də yenə afşarrığını orda nümayiş elətdirir. Ona ataş açmamışdan qavax yaxasını belə açıf deyif ki, sağ olsun şura hökuməti, yolunda da bir can verəh. Bunu gülləliyənnən sora bajısı gedif evdən bunun kamsomol knışkasını gətirif gösdərif. Gösdərənnən sora peşman oluflar ki, bunu bayaxdan gətirərdin da. Biz axdaran bu döylü.

Deyillər, haksız qan töküldüyünə görə orda ot bitmir.

## 72. AXTAMAR GÖLÜ

Tamara addı bir erməni qızı olur. Bu, müsürman oğluynan sevişir. Din buların evlənməsinə icazə vermir. Tamaranın atası qızı öz dinnərinnən olan başqa birisinə verəndə gəlir sevgilisinə deyir ki, məni başqasıynan evləndirillər. Gedir çıxıllar Axtamar gölünə. – Bizim kəndimizdə Zülfü var, feldşerriyi qutarıf. Bizi apardı Axtamar gölünə. Orda o söypət eliyirdi ki, burda belə bir əhvalat olufdu. – Axtamar gölünün başında bir dənə qəlbi qaya vardı. Deyir, bular qayanın başında oturuf söypət eliyəndə qız deyifdi ki, məni beyjə məjbur da olsa verəjəhlər erməninin oğluna. Mən ona getmirəm. Erməni olduğumuza görə atam deyir səni müsürman millətiynən evləndirmərəm. Deyir, mən sənnən evləndim evləndim, evlənmədim özümü atıf bu gölə öldürərəm, o oğlana getmərəm. Tamara özünü qayadan atır o gölə, boğuluf ölür. Qız özünü atanda oğlan arxasınca çığırır. “Ah Tamara” deyəndə bunun səsi qayada əks-səda verir. Oğlan da özünü atır, olar ikisi də nakam orda ölüllər. Orda hər kəs gəlif ah eliyəndə o qayadan həmən əks-səda eşidilirdi. O sədaya görə o gölün adını Axtamar qoymuşdular.

---

* Laçın rayonunda yerləşir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 73. QAYNAQ QAZILI*

Atam Feyzulla kişidən soruşurdu ki, Qaynax qazılı nədən olufdu. Deyirdi ki, İsa kişi, vaxdiynən o kəntdə qaraçılar gəlif məskunnaşıfdı. Qaraçı da hamısı qalayçı oluf. Olar dəmirçilih, qalayçılıx, qaynaxçılıx sənətiynən məşğul olufdu. Oların da bir qazısı olufdu. Vaxt gəlif bu qazı tay yavaş-yavaş hörmətdən düşüf, qazılığın işdədif dolana bilmiyif. Həmən qazı başdıyıf qaynaxçılığa. Onun adıynan da həmin kəndin adı Qaynax qazılı qalıf.

## 74. QOTUR GÖLÜ**

Ermənistan tərəfdə bir təpənin başında su var idi, ona Qotur suyu deyirdilər. Eşitdiyimə görə, onu bir dəvə tapıf. Bir adamın bir dəvəsi oluf, bunu açıf boşduyuf. Deyif bu qoturdu, sürümə qotur salar. Bu dəvə gedif o gölü tapıf. Susuyuf, girif o gölə.

Bir aydan sohra kişi gedif baxanda görüf bu dəvə elə oluf gürgümüş təki. Bu dəvənin bir dənə də qoturu qalmıyıf. Deyiflər bu nədi. Gözdüyüflər, görüflər dəvə günüz otduyurmuş, günorta gün qızanda gəlif o göldə yatırmış. Demək, onnan o suyu tapıflar.

Dağa gedəndə yarası-xorası olannar, geyişməsi olannar orda çimirdi.

## 75. QARI TƏPƏSİ

Topal Teymurun oğlu bərk xəsdə olur. Deyir:

– Gedin gəzin, elə bir çoxbilən adam tapın gətirin ki, mənim oğlumu diriltsin də, qoymasın ölə.

Gedillər bir qoja arvad tapıllar mənim təkin. Deyir ki, şahın oğlunu sağalt, bir belə sənə mal-döylət, mülk verəjeyih. Bu gəlir qavaxca elə müalicə eliyir, şahın oğlu sağalır. Deyir ona görə sağal-

---

* Ağdam rayonunda yerləşir.
** Sisyan rayonunda yerləşir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dıram ki, mən də anayam, bunun anası yol gözdüyür. Teymur deyir ki, indi sağaldımı oğlum? Deyif:

– Yox, hələ bir günnüh müalicəm qalıf.

Daldan elə bir dərman gətirir bunun oğluna verir ki, oğlu şahın gözünün qavağında partdıya-partdıya ölür. Teymur qarıya deyir ki, de görüm nağardın mənim oğlumu öldürdün. Deyir:

– Sənin oğlunu siftə ona görə sağaltdım ki, mən də anayam, sənin oğlunun anası var, yol gözdüyür. Sağaltdım, oğlunun anası xəbər tutdu ki, oğlu yaxşıdı. Sora da öldürdüm ki, sən mənim elimin, ölkəmin oğlun qədər neçə cavannarını öldürmüsən. Mənim ona vijdanım yol verməzdi ki, sənin oğlun dirilsin.

Onnan sora şah əmr eliyif ki, hərə bir daş atsın qarının üsdünə. Daşnan qalax eliyillər, qarının belində bir dənə böyüh təpə qurulur. O təpənin də adını qoyullar Qarı təpəsi. Deyillər guya Füzuli tərəfdə heylə bir Qarı təpəsi var.

## 76. YES XIRMAN

### I mətn

Keşmiş vaxdı yezitdərnən ölüyaların arasında dava düşür. Davada gəlir orda millətı qırıllar. Rəvayətnən orda millət qırılan vaxdı onun üsdünnən vəl sürüllər ki, təmiz itsin. Onda daşa dönüf hamısı. İndi ora Yes xırman deyirih.

### II mətn

Allah-tala pis bəndələri, Allahın yolunnan azannarın çarxını çöörəjəh həmişə. Deməli, orda qoyun otarırmışdar, ağanın (Seyid İbrahim ağanın – top.) qəbrinin yanında. Qoruğ imiş, qoymurmuşdar. Anamın dediyini deyirəm. Qoyunu otardıxları yerdə qurban olduğumuzun biri gəlir, deyir:

– Bəs sən o qoyunu ora niyə salmısan, ağanın qəbrini tapdalıyır.

Nəysə, deyişmələri oluf. Deyif:

– Səni görüm o qoyunnarının hamısı daş olsun.

Bax, bunu eşitmişəm. İndi qəbirstannıxdakı daşlar da həmin qoyunnardı, dönüf daş oluf.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 77. ÖRƏNQALA

Örənqalanın üsdündə iki mil yeri var. Yüz iyirmi metr hündürrühdə bişmiş kərpişdən hörülmüş millər olufdu. O milə çıxanda Şahsevəndə təpə var, ora görükürmüş, bir də bu tərəfdə Soltanbud meşəsi var, o görükürmüş. Onun biri şəhərin təhlükəsizdiyinə xidmət edirmiş, o biri isə ən ağır cəza alannarı çıxardıf onun başına qoyurmuşdar. Ordan yeganə qaçan bir dərzi oluf.

Deyir, onu milin başına aparanda xayiş eliyir ki, on günnüh yemək götürüm. Bəhməz götürür. O dərzini çıxardıllar ora. O bəhməzdən damcı-damcı buraxır yerə, çatır qalanın divinə. Arvada deyir ki, atdı qarışqanın belinə ipi bağla, çıxartsın ora. Ha belə-belə. Bir az onnan yoğununu, bir az onnan yoğununu. Həmin ipdən kəndir hörür, gejənin birində ordan düşür qaçır.

## 78. MİL DÜZÜ

Belə bir rəvayət eşitmişəm ki, o şəhəri (Örənqala – top.) monqollar dağıdannan sora burdan bir nəfəri uşax vaxdı babası götürür gedir İraqa. Aradan həştad il keçənnən sora bu uşağın həştad yaşı olanda ordakı nəvələrinə deyir ki, Örənqalada, filan yerdə babamnan qızıl gizdətmişih filan ağacın divində. Buralar meşə oluf o zaman. Pələh oluf o meşələrdə. Bu kişinin gözü tutulmuşmuş. Nəvəsiynən gəlir, Arazı keçillər. Şəhərə hardasa beş-on kilometr qalmış kişi başın belə-belə eliyir. Deyir:

– Baba, niyə heylə eliyirsən?

Deyir:

– Bala, gözümə-başıma ağaş dəyər.

Deyir:

– Ay baba, burda ağaş yoxdu, kolluxdu. Bir də tək-tük orda-burda yekə palıd ağacı, sakqız ağacı var.

Deyir:

– Bala, nətər olur? Burda qovu vardı, onun qırağında palıtdıx vardı.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Baba, yoxdu.

O palıtdığı monqollar hamısı kəsif mancanağnan qalaya atmışdılar. Yoxdu o palıdlar. Deyir:

– Bala, artıx biz qızılı tapmarıx. Burdan atı çək, gedəh Muğannıya. Muğannıda bizim qohumumuz var. Mənim qoja nənəmi ordan götürüf qaçıflar, gedəh ora.

Gəlillər. Muğannı da Qarqarın o üzündədi. Deyir ki, bala, salçıları çağır, bizi addasın o taya. Deyir:

– Baba, sal nədi, burda çay atın burasınnandı.

Deyir:

– Bala, axı bura dərin çay idi, biz o tərəfə keçəndə salnan keçirdih.

Deyir ki, baba, vallah dayazdı. Nəysə, deyir keçəh. Gedillər soraxlaşıllar, öz nəsillərin-köklərin tapıllar. Demək, həştad ilin müddətində Qarqar bura enir (dizini göstərir – top.), burdakı meşələr yoxa çıxır. Orda gejəliyillər, qayıdıllar, çıxıf gedillər.

Buranın adı, düzdüyünə görə deyil, o milə görədi. O milin birini 1896-cı ildə söküf peyğəmbəri tikiflər (Cərciz peyğəmbəri – top.), yerdə qalanı uçufdu. Şükür babam deyirdi ki, hardasa 1890-cı ilə qədər 20 metr hündürrühdə durudu. Bir hissəsini də camaat söküf, evlərin tikintisində istifadə edif.

*Başqa bir söyləyicinin əlavəsi:* Şahın devrində o millərdən poşt vasitəsi kimi istifadə olunurmuş. Səsi uca adamlar çıxıf dururmuş orda. Şah fərman verəndə milin başındakılar səhər tezdən bir-birinə çağırıf fərmanı deyirmişdər. Həmin fərman indiki devrdən tez gedif Gəncəyə çatırmış. O millər Gəncəyə qədər gedirmiş.

## 79. AYRAN ALI TƏPƏSİ*

Seyid deyirdi ki, bala, burda bəy oluf Alı adında. Onun çoxlu mal-qoyunu oluf. Bu camaatın pis vaxtlarında gedərlərmiş onun yanına, o da ancax ayran verirmiş. Bax, bura onun yurdu oluf. Ona görə o təpəni adı qalıf Ayran Alı.

* Ağcabədi rayonunda Təzə kəndin körpüsündən bir az yuxarıda yerləşir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 80. ŞPARTI

Bizim yaşdı ferma müdirimiz vardı, Qnyazov İsmayıl. Bir hüzür yerində o dedi ki, İşpartının adı Şişartıdı. Onnan soruşdular ki, niyə Şişartı. Dedi orda bir dənə bulax var. Ora qonaxlar gəlirmiş, otururmuşdar o bulağın üsdündə. Deyirmişdər:

– Yeməh qutardı, padavatçı, şişi artır.

Heylə-heylə o bulağın adı qalıf Şişartı.

## 81. RƏNCBƏRLƏR KƏNDİ

Rəncbərlər kəndinin əsasını qoyannar Şamaxıdan gələnnərdi. Şirvanşah İvrahim taxda Rəncbər şah ləqəbiylə çıxmışdı. Ömrü boyu da nə qədər şah işdədisə sarayında xış-kotan saxladı. Şah İsmayıl gəlif Şirvanı istila eliyəndə onun əsabələrinin bir hissəsini məjburi köçürdülər, bir hissəsi qaşdı, bir hissəsi də gəldi burda məskən saldı. Şamaxıdan gələnnər altı-yeddi ev oluf. Bir hissəsi gəlir Ağdaşda qalıf, bir hissəsi gəlir bura. Sora Ağdaşda qalannar da gəlif bura. Orda bir bəy isdiyif bulardan bir qız ala, qohum ola. Bəyin də neçə arvadı varmış, bunu da onun üsdünə isdiyirmiş. Qızı verməh isdəmiyif. Deyif bəyin neçə arvadı var, indi də mənim qızımı isdiyir.

Aradan bir müddət keçənnən sora bunun ölüsü ölür, Şamaxıdan gələnnərin. Ölüsü öləndə həmin ərazinin bəyinin kəl arabası aparmalı imiş meyidi gorgaha. Fikirrəşir ayə, mən buna qız verməədim, bu, at-arabanı vermiyəjəh ölünü gorgaha aparmağa. Elə buna ağız aşmaxdansa burdan çıxmax yaxşıdı. Ordan yüklənillər bir arabaya, ölülərini də götürüf gejəynən ordan çıxıllar. Gəlillər bura gələnnərin yanına.

Burda vaxdiylə Şorca kəndi vardı. O kəndi quldur-qaçax dağıtdı. O kəndin əsas əhalisi kəbirli idi. Olar da gəldilər bura. Bir hissəsi döyləti olmadı dağa-arana gedə, olar da qaldı burda. Sovet hökuməti gəldi hamının döylətin aldı, hamını elədi bir-birinə tay, oları da yığdı bura. Kəbirlilərin Rəncbərlər kəndində əsas məşkunlaşmağı sovet dövrünə təsadüf edir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 82. SOFU QƏBİRSTANLIĞI

Sofu adında bir kişi oluf, ölüf. O vəsiyyət eliyif ki, məni bağlıyın öküzə, buraxın. Öküz harda yatsa, məni orda basdırın. Həmin seyid də yuxarı kəntdərdən olufdu. Ordan bağlıyıllar, öküz gəlif burda yatıf. Orda da dəfn eliyillər. İndi ona görə də bizim qəbirstannığın adı qalıf Sofu qəbirstannığı.

Bunnan qabax qara bayramda camaat gəlif həmən Sofunun basdırıldığı yerdə palaz sərif qazan asırdılar, ehsan verirdilər.

Sofu Ağdam rayonunun Mahrızdı kəndinnən gəlif.

## 83. ŞAHSEVƏN

Şahsevən haqqında belə bir rəvayət var. Şah Təhmasibin dövründə olub bu hadisə. Bir kəntdə bir oğlannan qız bir-birini sevillər. Həmin bu qıza kəndin imkannı-varrı adamı da müşdəri çıxır. Deyir ki, ayağı əyri qoyma, qızı özüm alajam oğluma. Filankəs yetim-yesirin biridi, qızı ona niyə verirsən.

Oğlannan qız sözü bir yerə qoyur gejə qaçıllar. Bir müddət qıraxda yaşıyıllar. Bəy adam göndərir ora-bura ki, görün olar hardadılar. Nəysə, onların yerini-yurdunu örgənillər. Buların da gedif yaşadığa yerə tədricən atası, anasının əsabası yığılır. Bir gejə də bəy adam göndərir. Bu qız da Arazın qırağında nəysə yuyurmuş. Bir də görür ki, atışma, çığrışma, vuruşma, buların çoğustannarını* yandırdılar, oğlanı da öldürüllər. Atasını, anasını, yaxını kim var öldürüllər. Qız təhcə qalır Arazın qırağındakı qamışdıxda.

Burdan çəkilir ağlıya-ağlıya, başına-gözünə döyə-döyə gəlir. Bir kişiyə rast gəlir. Deyir ki, ay qızım, noluf, nədi belə. Deyir:

– Bəs belə-belə. Bütün qohum-əqrabamızı qırdılar, mən tək qalmışam.

Deyir:

– Gəl bəri, mənim qızım yoxdu, elə biznən yaşıyarsan.

---

* çoğustan – qarğıdan və ya çubuqdan hörülmüş daxma



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bularnan yaşıyır bir müddət. Bu da hamilə imiş. Deyir:

– Əmi, mənim Arazın o tayında qohumlarım var. Məni ora addadsan sənə minnətdar olaram.

Vaxt keçir, bunu addadır, təhvil verir qohumlarına. Uşax böyüyür həddi-buluğ yaşına çatanda bu qız, uşağı hazırrıyır bu işə. Deyir:

– Sənin atanı belə öldürüflər.

– Kim öldürüf?

Deyir:

– Filan kəndin bəyi.

Deyir ki, nolar. Bu uşax çox cəsur, fərasətdi bir uşaxmış. Bir gün eşidir ki, burda quldur-qaçax dəsdəsi fəaliyyət gösdərir. Deyir ki, mən gedif qoşulajam olara. Anasına deyir ki, ana, bu sirr qoy sirr qalsın, amma sən isdiyirsən ki, mən atamın qisasın alım, maa xeyir-dua ver. Bu uşax gəlir qaçaxların dəsdəsinə qoşulur. Bunu dəsdəbaşı qəbul eliyir. Deyir ki, mənim neçə ildi sənə rəğbətim var, yönü sən tərəfə yatıram. İsdiyirəm sənin əmirrərə qulax asam, səə xidmət eliyəm. Deyir:

– Madam ki, belədi, gəl.

Görür bunu hara göndərirsə yarıdır da, cəsur oğlandı. Bütün hak-hesabın hamısını verir bunun əlinə. Görür bunun şöhrəti artdı, başına adamlar yığıldı. Bir günnəri bunu göndərir ki, get filankəsi çat-tala, varını-döylətini yığ gətir. Atasını öldürənnəri anası buna tanıtmışmış ki, filan kəntdə filankəsdi. Bu, bura getmir, gəlir anasının nişan verdiyi kəndə. Gejəynən buların hamısını qırır.

Şah Təhmasibin hakimiyyəti dövrüydü. Deyillər, bu hadisə şaha nöksan gətirir. Şahın hakimiyəti dövründə tanınmış, bəyzadə bir nəsli qırıflar. Şah özü gösdəriş verir ki, bu qatil kimdisə tapılmalıdı.

Bunun iziynən ora-bura, iz gəlif çıxır bu qaçax dəsdəsinin üsdünə. Çağırıllar bu dəsdə başçısını. Deyir:

– Mənim xəvərim yoxdu, mən o işi eləməmişəm.

Deyir:

– Bəlkə adamların eliyif?

Bunu çağırır. Deyir:

– Hə, mən eləmişəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Niyə eləmisən?

Deyir ki, bunu şahın hüzurunda deyəjəm. Nəysə, bunu gətirirrər şahın hüzuruna. Deyir ki, sən bilirdin ki, filankəs köhlü bəy nəslidi? Deyir:

– Bilirdim.

– Bəs onu niyə qırdın?

Deyir:

– Bəs filan vaxdı mənim atamnan anam bir-birini isdiyiflər. O da anamı oğluna almax isdiyif. Anam getmiyif, o da gəlif bütün qohumlarımızı qırıf. Bunu da maa anam demişdi. Ona görə də mən indiyənə qədər yerimnən qalxannan heş bir dəfə uşaxnan oynamamışam. Bu fikirdə olmuşam ki, mən atamın qisasını alajam.

Şah deyir:

– Bala, sənə də əhsən, sənin anana da əhsən.

Təhmasib buna bəylik verir, buna mülk verir. Deyir:

– Səni mən sevdim.

Şahsevən adı da burdan yaranıf.

Bunu Mərzili bir Əziz kişi vardı, indi də durur, Xəlfərəddin kəndindədi, səksən beş yaşı var, onnan eşitmişəm.

## 84. YAŞA ƏSƏD

Xan qızı gəlif bura başının dəsdəsiynən, burdan götdüyü adamlarnan gedif ova. O cümlədən də biri mənim babam Əsəd olufdu. Ovdan qayıdanda buların qavağına bir atdı gedir ki, burda bevarıs ölüfdü, onu dəfn eliyən yoxdu, qalıf ortalıxda. – Çox acınacaxlı vaxtdar vardı. Siz nə görmüsüz ki… – Belə çönür ağsakqallara ki, kim dəfn eliyər onu, kim öhdəsinə götürər. Onda mənim babam deyif ki, mən onu dəfn eliyəjəm, arxeyin ola bilərsiniz. Xan qızı deyif:

– Yaşa Əsəd, yaşa!

Onnan bizim nəslin adı qalır Yaşa Əsəd. Mən qananda, başa düşəndə bizə deyirdilər ki, bu, Yaşa Əsədin nəvəsidi. Mən də başa düşmürdüm bu nə deməkdi. Burdakı qoja kişilərdən soruşannan sora mənə deyiflər ki, belə hadisə oluf, bu ad da onnan qalıf.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## MÜXTƏLİF MÖVZULU RƏVAYƏTLƏR

### 85. HƏR SƏNƏTKAR DƏLLƏK MURAD OLA BİLMƏZ

Dəllək Muradın variyantı belədir ki, şahın xüsusi dəlləyi imiş. Bir günnəri şahın bunun oğluna qəzəbi keçir, Dəllək Muradın oğlunu öldürür. Aradan bir az keçənnən sora da bunu çağırır ki, gəl mənim başımı-üzümü qırx. Axı o vaxtı lezva-zad yox idi, ülgüc idi də.

Bu, başı qırxır, üzü qırxır, bura (əliynən boğazını göstərir – top.) çatanda dayanır. Bunun fikri dolanır ki, indi bu mənim oğlunu öldürüf, mən də bunun boğazını kəsim. Rəngi dümmağ ağarır. Əlini çəkir, oturur. Şah buna deyir ki, niyə otdun? Deyir:

– Şah, bilirsən nə var?

Deyir:

– Nədi?

Deyir:

– İki şey məəm gözümün qabağına gəldi. Bunun biri oğlumun ölümüydü. Biri də sənətimnən öz aramda olan müqaviləmdi ki, sənətimə xayin çıxmıyım. Rəngimin ağarması, özümün o vəziyyətə düşməyim haman oydu. Mən sənətimnən keçəmmədim. Sənnən də xayişim odu ki, bir də məni yanına çağırıf eləmə.

Həmin misal da ona görə çəkilif.

### 86. İLANLARA QƏNİM KƏSİLƏN KİŞİ

Bir kişinin var-yox bir oğlu vardı. Çöldə yatdığı yerdə bir ilan bu kişinin oğlunu vurdu öldürdü. Bir oğul idi dana. Kişi ağladı, neynədi. Dedi ki, nə qədər yaşıyıram ilan öldürəjəm, ilannarı qırajam, mənim bir oğlumu əlimdən aldılar. Harda ilan görürdü öldürürdü. Dedi ki, ilan məni vurar da. Dəmirdən paltar tikdirdi, geydi. Dedi, da ilan məni hardan vurajax, dəmirin içindəyəm. Süleyman peyğəmbər çıxdı bunun qabağına, dedi:

– A kişi, ilannarı niyə qırırsan? Saa kim icazə verif?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedi:

– İlan mənim oğlumu niyə vuruf öldürüf? Bir oğlum var idi. Mən də ona görə nə qədər yaşıyıram öldürəjəm.

Dedi:

– Qorxmursan ilan səni vurar?

Dedi:

– Ə, ilan mənim haramnan vurajax, hər yanım dəmirdi.

Dedi:

– Burda dur.

Süleyman peyğəmbər bir ilan çağırdı. Dedi:

– Havaxtan havağa su içirsən?

Dedi:

– Üş günnən bir içirəm.

Dedi:

– Bunun əynindəki paltarı əridə bilərsən?

Dedi:

– Yox, güjüm çatmaz.

Başqa birini çağırdı. Havaxdan havağa su içirsən? Həftədən həftəyə, aydan-aya. Bunu əridə bilərsən? Dedi:

– Yox.

Birini çağırdı. Çox çətinnihnən çağırdı gətdi. Dedi:

– Havaxdan havağa su içirsən?

Dedi:

– Mən su tanımıram.

– Bu kişinin paltarını əridə bilərsən?

Dedi:

– Hə, niyə əritmirəm.

Nəfəsini verdi, bu kişinin əynindəki paltarı əritdi tökdü yerə. Dedi:

– Kişi görürsən? Səni ilan elə vurar ki, heç özünün də xəbərin olmaz. Allah məslahat verifdi, o da vurufdu. İlannarı niyə qırırsan? Sən yaratmısan?

Onnan sora kişi qorxusunnan qayıdıf.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 87. ÜZÜNÜN NURU GEDƏN ADAM

Bir kişi yeddi qardaş ilanın birini öldürüfdü. Bunun bir qardaşı düşür bunun dalınca bunu vurmağa. Bu kişi ilanı görən kimi irəli gedə bilmir. Bir gün peyğəmbərin yanına gedir. Ərz eliyif ki, ya peyğəmbər, mən bir ilan öldürmüşəm, bir ilan mənim arxamdan əl çəkmir. Məni hərriyir vurmağa. Hökm eliyif, ilan gəlif. Deyir ki, bunu niyə hərriyirsən? Deyir:

– O mənim qardaşımı öldürüf, mən onu öldürməliyəm.

Deyir:

– Onun günahınnan keçə bilərsən?

Deyir:

– Hə.

Deyir:

– Nətəri?

Deyir:

– Getsin yeddi qapı dilənsin gəlsin, onun günahınnan keçəjəm.

Nəysə, bu düşür qaraçılar kimi, dilənçi kimi qapı-qapı gəzir. Yeddi qapı gəzir, qayıdıf gəlir. İçəri girən kimi ilan atılır bunun boğazına. Bu, peyğəmbərə yalvarır ki, maa kömək elə. Peyğəmbər neynəsin. Yaxın dursa, bunu da çalajax. Deyir ki, ay ilan, indiyətən bunun arxasınca gəlirdin, amma indi atdanıf boynuna sarılmısan. Deyir:

– İndiyətən bunun üzündə su varıydı, nur varıydı. Havaxt ki bu üzünü çöndərirdi, bunun üzünü görəndə mən ölürdüm. O ki yeddi qapı diləndi gəldi ha, onun üzünün nuru da, hayası da getdi, abırı da getdi.

Dilənməh, üzdən irağ, abırın, həyanın tökülən günüdü. Onnan da pis şey yoxdu.

## 88. HALALLIQ

Başqa kəntdə bir arvad vardı, o söypət elədi. Dedi:

– Ay camaat, Allah-tala yaxşını da işıxlı dünyada yaradır, pisi də. İnsan yaxşılığı qazanmaxdan ötəri, Allah-talanın goluna xof düşməhdən ötəri o yaxşılığa doğru getməlidi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedi, mənim anam getdi ərə. Mən də yekə qız idim. Anam paltar tikən idi. Parçadan qırıx qalıf, bunu saxlıyıf. Bir də axar su var, evimizin yanınnan axırdı. Kimsə gətirif paltarını yuyanda sabını unuduf qalıf. Anam suyun başına gedəndə bu sabını götürüf gələr. Bir də paltar tikəndə qırıx-quruxları saxlıyırmış. Vaxt gəldi, anam öldü. Camaat yığışdı, mağar tikildi. Gün batana yaxın anam ayıldı. Çənəsizad çəkilif, molla Quran oxuyur. Anam durdu oturdu. Camaat qorxusunnan qırağa çəkildi. Oturan kimi şəhadət-kəlməsini gətirdi. Qayıtdı ki, kişiyə deynən evə gəlsin. Mollanı çağırdılar. Qavaxca ona məslahat elədilər ki, ölü ayılıf, oturuf yerin içində. Deyir, molla gəldi kənardan dedi: “Allah-talanın işidi. İndi onun nə sözü vasa, o sözü deyif öləjəh”. Kişini çağırdı. Kişiyə dedi ki, gəl yanıma. Dedi, kəndə sorağ eliyərsən. Arxın başında paltar sabını qalmışdı, para paltar sabını, onu götürmüşəm. Onnan ötəri ayılmışam. Bir də camaata paltar tikmişəm, onnarın qırığı qalıfdı, qırığı verməmişəm. Bir də qonşudan un almışam, verməmişəm. Bu üş dənə şeyi sana haval eliyirəm. Kimə paltar tikmişəmsə, gəlsin maa halallıx versin. Savah gün möhürrənəndə zavvar gələjəh, mən zavarrarnan gedəjəm.

Bir gejə sabahatan, deyir, anam oturdu, səhər dünyasını dəyişdi.

## 89. ÖLÜNÜN DİRİLMƏSİ

Anam deyirdi ki, qonşu arvad ölmüşdü, bunu apardılar basdırdılar. Atam axşam gəldi arvadına dedi ki, maa bir xurcun düzəlt, gedirəm dayımgilə. Həmişə də belində xançal olurdu. Bizim qəbirstannıx da ağır qəbirstannıxdı, ojağ var üsdündə. Ora çatanda görüf ki, səs gəlir. Qavax insanın üsdünə kol basırdılar. Bu, bir az duruxur. Görür, yox ey, kimdisə deyir: “Ay yolnan gedən, sən Allah, ölmüşdüm dirilmişəm, məni qoyuf getmə”. Bu qəbirrərin arasınnan gəlif. Deyif görüm hansınnan səs gəlir. Gəlif görür ki, təzə qəbirdən gəlir. Çatırışına xançalı sancıf, başdıyır qəbri eşməyə. Baxıf ki, zənəndi, burnunnan qan açılıf. Yer əzabı gələndə qəbr bunu sıxıf, bunun burnunnan qan açılıf. Axı bu çılpaxdı. Qabaxkı kişilər əyinnərinə çuxa geyirdilər. Soyunuf çuxanı, deyif:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Dura bilərsən, əlinnən tutum?

Bunun əlinən tutuf durğuzur, bu çuxanı buna geydirir. Atı irəli çəkir, bunu mindirir atın tərkinə.

Kişi gedəndə demişdi ki, gedirəm, tez gələjəm. Anam da qazanın ağzını aşmırdı ki, kişi gəlsin, onnan sora. Anam deyir gejənin bir yarısı gördüm bu gəldi. Məni çağırdı çölə. Dedi uşax bilməsin, qorxub eliyər. Get evdən paltar gətir, buna geyindir. Filankəsdi, bəs bu dirilif qəbrdə. Arvad aparıf paltarını geydirif, götürüf gətirif evə. Arvad gətirif, surfa salıf buna pay çəkir. Qaşığı ağzına qoyduxcan görür fınxırır. Ağzına qoyduxca düyü düşür bura. Anam deyir:

– A bajı, niyə heylə eliyirsən, sən Allah, çörəh yeginən.

Deyir:

– Şəkər bajı, qəbr əzabı nətər məni sıxdısa, onda ayıldım mən. İndi bu ara açılıf, onçün düyü gəlif düşür ora, mədəyə getmir.

Səhər etrə atam getdi kişisini çağırdı ki, arvadın paltarını gətir, arvadın dirilif. Üş gün keçənnən sora arvad təzdənnən öldü.

## 90. İTİN ETİBARI

Padşah dedi: “Gedin peyğəmbəri çağırın gəlsin”. Oğlunu göndərdi gəlmədi, arvadını göndərdi gəlmədi, atını göndərdi gəlmədi, itini göndərdi, itnən gəldi. Dedi:

– Cənab peyğəmbər, bəs oğlunu göndərdim gəlmədin. Arvadnan gəlmədin, atnan gəlmədin, bu itnən niyə gəldin?

Dedi:

– Atı sabahatan torşalıyasan, düşman gəlif ayağını üzəngiyə qoyanda götürüləjəh. Da demiyəjəh mənim yiyəm döylü axı bu. Arvadı gejə də dəstəyində saxlıyasan, günüz də, demiyəjəh axı filankəs maa sataşıf. Burnun kəsəsən gənə deməz. Ona da ehtibar yoxdu. Amma bu it üş gün yal verməsən də, bir adam gələndə yenə xart-xart eliyif hürər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 91. AŞIĞAM, VƏTƏN SARI

Aşığam vətən sarı,
Geymişəm kəfən sarı.
Başımı kəsən cəllad,
Üzümü qoy vətən sarı.

Deyirdim, ay dədə, daima bunu oxuyursan, ayrı söz bilmirsən? Deyirdi:

– Ay qızım, o sözdə böyüh məntiq var, ona görə onu oxuyuram.

Deyirdim:

– Nədi?

Deyirdi:

– Bizdən çox-çox irəli oğuz elinnən bir sərkərdə yadelliyə əsir düşür. Buların da qanunu buymuş ki, əsir düşəni edam eliyirmişdər. Edam edilən adamlara sarı keçinin qəzilinnən köynəh geydirirmişdər, başını qoyuf taxdanın üsdünə qılışnan boynunu vurallarmış. Padşah əmr eliyir cəllada ki, bunu apararsan meydana, edam edərsən. Bu adamı gətirillər meydana. Edam eliyəndə deyillər ki, son arzun nədi?

– Son bir ərzim bircə kəlmə sözüm var, izin verin deyim.

Deyir:

– De.

Deyir ki, ay cəllad qardaş,

Mən aşıx vətən sarı,
Geydirdin kəfən sarı.
Başımı kəsən cəllad
Üzüm qoy vətən sarı.

[Cəllad] deyir:

– Ay qardaş, o nə sözdü, mən onnan bir şey annamadım?

Deyir:

– Mənim boynumu sən vureyssan, mənim üzümü vətənimə sarı qoy.

Deyir, bu cəllad rəhmə gəlir ki, gör vətən bunun üçün nə qədər əzizdi ki, ölümlü günü deyir heç olmasa üzüm vətən sarı olsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir ki, mən padşahdan izin alıf səni vətəninə çatdırajam. Gəlir ağasınnan izin alır ki, bunun bizim elimizdə qanı tökülməsin. Aparım öz ellərində qətlə yetirim, qanı öz ellərinə tökülsün. Bu dilnən ağasınnan izin alır, götürür gətirir öz vətəninə. Deyir ki, qardaş, madəm ki sən belə dedin, ona görə mən səni bağışdadım, get.

Atam deyirdi o bir kəlmənin üsdündə o əsir həm ölümnən azad oluf, həm də gəlif vətəninə qovuşuf. Ona görə mən həmmişə onu oxuyuram. Cəllad onun köynəyini alıf, bir dovşan öldürüf onun qanına buluyuf, gətirif ağasına verif ki, öldürdüm. Bu da azad oluf gedifdi öz elinə, öz obasına, öz torpağına qavışıf. O gün olsun ki, biz də öz Qarabağımıza, öz torpağımıza qavışax.

## 92. ARXAM BOŞDU, ONA GÖRƏ AĞLAYIRAM

Bunu mən Natfalan sanatoriyasında da dedim. Çalğı-zad vardı, hərə ata haqqında öz sözünü deyirdi, onda mən də bunu dedim. Dedim ki, ata-bala olur. Deyir:

– Ay dədə, gəlsənə bir at çapax.

Deyir:

– Çapax dana, ay bala.

Nəysə, minillər dədə-bala hərəsi bir ata. Bular dədə-bala at çapajaxlar. Oğlu ata minən kimi atı tərpədir. Atası daldan gələndə bu, qaxqanax çəkif gülür. Deyir:

– Ay dədə, qaldın geridə, mənim atım keşdi.

Deyir:

– Hə, neynəh bala, sən cavansan. İndi ay bala, gəlsənə bir yalayatma çapax.

Deyir:

– Ay dədə, o yalayatma nədi?

Deyir:

– Görəssən də, ay bala.

Nəysə, yola çıxıf çapıllar. Kişi yəhərin qaşına yatır, atını buraxır dana. At çıxır gedir, oğlan qalır geridə. Axı bayaxları bu kişi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

geridən gələndə bu, qaxqanax çəkif gülürdü. İndi də kişi gedif, bu qalıf dalda. Kişi gələndə bu, başdıyır ağlamağa. Deyir:

– Ay oğul, bayaxları güldün, bəs indi niyə ağlıyırsan?

Deyir:

– Ay dədə, mən o zaman geri baxanda gördüm arxamca sən gəlirsən, arxamda sən varsan. Amma indi sən çıxdın getdin, mən geri baxdım ki, arxam boşdu. Bax, ona görə ağlıyıram.

Orda (sanatoriyada keçirilən məclisdə – top.) bu sağlığı dedim.

## 93. MƏN BAYAQ GÜLƏŞDİM*

Bir kadın inəyi sağanda bir dənə kəl, daa məni bağışdıyın, inəyin üsdünə qalxır. Bu arvad durur bu kəlin quyruğunnan tutur, fırrıyıf tulluyur. Bir dənə pəhlivan bunu eşidir. Deyir ki, mən gedəjəm o kadınnan güləşməyə. Bu durur gəlir həmən kadını tapır. Hamı məclisə yığışır, komalaşır ki, bəs bu gün burda kadınnan pəhlivan güləşəjəh. Qadınnan bu pəhlivan qoşa oturmuşmuş. Deyillər durun da vaxtdı. Durun güləşin, biz də baxax. Kadın ayağa duranda pəhlivanın qılçasınnan belə basır, durur ayağa. Bunun qılçası burdan xırç eliyif qırılır. Deyillər:

– Dur da, kadın duruf, sən niyə durmursan?

Deyif:

– Mən bayax güləşdim.

---

* Söyləyicinin dediyinə görə, bu hadisə Laçın rayonunun Müsəlmanlar kəndində olub. Rəvayət Bərdə rayonunun Dəymədağıldı kəndindən qeydə alınıb.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# II
# XATİRƏLƏR

## KƏBİRLİLƏR HAQQINDA*

Bizim bura yığışmağımızın məqsədi nə idi? Burda bir kəhriz var idi. Hacı Bədəl kişi çəkdirmişdi. Bax, bu kənd onun adınadır. Camaat əvvəlcə Yevlaxda düşüf. Ağsakqallar axtarıflar ki, hara münasib yerdi gələk. Deyiflər ki, bura yaxşıdı. Bir hissəsi Arazboyu yuxarı qalxıb. Orda su lilli sudu, onu da bizimkilər içə bilmirdi. İyirmi-iyirmi beş aylə ora getmişdi, onlar da sora qayıtdılar bura. Kəhrizə görə bura düşdülər, uyğunnaşdılar. Kəhrizin suyunnan burda pambığ əkib becərirdilər. İndi bu dəyqənin özündə Ağcabədi rayonunda iki qrup ermənistannı var. Biri zəngibasarlılar gedirlər. Onnar rayona düşüflər, mərkəzə. Onnar 1948-ci ildə gəliflər. 1951-ci ildə gələnnər isə Hacıbədəlli kəndinə düşüf. İndi də ora camaat arasında Yerevannılar kəndi deyilir.

Bu kəndin köhnə adı Hajı İmamxanlıdı. Hajı Bədəl Hajı İmamxanın kiçik qardaşıdı. Hajı İmamxanın adında imam sözü olduğuna görə Sovet hökuməti onun adını ordan çıxardıf Hajı Bədəlin adını qoyufdu.

Yaylağımız Göyçə mahalına yaxın yerdə oluf, Sarıyerdə. Orda qəbirstannığımız da var.

* * *

Hajı Bədəl beş qardaş oluf: Hajı İmamxan, Hajı Bədəl, Hajı Zeynal, Hajı Mehti, Hajı Səfxan. Ən böyühləri Hajı İmamxan oluf. Bu kənd Hajı İmamxanın adına oluf. 1957-ci ildə qalxoz birləşənnən sora kənd Hajı Bədəlin adına oldu.

Beş qardaşın atası oluf Hüseyn adında varrı kişi. O, bu torpağı xan qızı Xurşidbanu Natəvannan alıfdı. Xan qızı aylə qurufdu,

---

* Kəbirlilər haqqında məlumatlar Hacıbədəlli kənd sakinləri Zeynalov Soltan İbrahim oğlu, Mehdiyev Məzahir Əyyub oğlu və Salmanbəyli kənd sakini Qəhrəmanov Şükür Hümbət oğlundan qeydə alınıb.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

birinci ərinnən iki uşağı olufdu. Sora əri ölüf, ikinci dəfə başqa birinə gedif. Tədricən iqtisadi cəhətdən zəyifliyif. Torpaxlarını yavaş-yavaş satıf. O vaxdı Hajı Bədəlin atası Hüseyn kişi bu torpaxları qızıl pula alıf. Həmin torpaxların şəhadətnaməsi Gəncədə saxlanılır. Bəylərlə bunun arasında mübahisə olufdu. Bəylər bunu sıxışdırırdı ki, bu torpaxları onun əlinnən alalar. Burda yaşayış az imiş, əsasən bura qış yataxları imiş, bəylərin burda qışlağı oluf, mal-heyvannarını bəsliyirmişdər. Bunnar deyillər ki, Hacı Bədəli sıxışdırax çıxardax aradan, torpağına yiyə durax. Bu da baxıf ki, başqa cür mümkün döyül. Gedifdi Gəncəyə, uyezd Gəncədə imiş. Arxiv sənədlərini çıxartdırır, sübut eliyir ki, bu torpaxlar ona məxsusdu. Bəylər onnan sora çəkilif hərəsi öz torpağında oturur.

Onnan sora öz puluynan bura kəhriz çəkdirir. Burda qış mülayim keçirmiş, köçüf gəlif burda heyvan bəsliyirmişdər. Tədricən burda yaşayış düşür. O vaxdı, mənim eşitdiyimə görə, Hajı Bədəl öz torpaxlarını saxlamax, orda bağ-bağat yaratmax üçün İrannan kankançı gətirir. Kankançı da quyu qazana deyillərmiş. Ölçüllər, mən eşitdiyimə görə, hər quyunun arasını qızıl pulnan ödüyürmüş, qazırmışdar. Quyunu çəkif gətirillər, bu kəndin başında sonuncu quyunu qazıllar.

Mən uşax idim. O vaxt quyular işdiyirdi. Sərin, buz kimi suyu vardı, rayonun mərkəzinnən gəlif suyu burdan götürürdülər. 1956-cı ildə Qarabağ kanalı çəkilənnən sora quyular qurudu.

* * *

Hajı Bədəl dörd qardaş oluf: Hajı İmamxan, Hajı Mehdi, Hajı Zeynal, Hajı Bədəl. Oların atası oluf Hüseyn. Hüseyn oluf Pənah xanın baş sərkərdəsi. Pənah xanın tayfasınnan da bir qız alıf. Olarnan oluf qohum. Bir bajısı da Püstəxanım ora ərə gedif.

Bular oluf dörd qardaş. Yuxarıda qovu var, buların sifdə mülkü olufdu orda. Qalın meşə oluf, içində pələng də oluf. Hajı Bədəlin bir öküzü vəşiləşir, qalır meşədə. Gedir dağa, gəlir arana. Payız gələndə görür pəh, öküz gəldi, pələngin qolu öküzün belində gəldi.

Sora bax, bu torpağı xan qızı Natəvannan bir tərəfi qohum olmax şərtiynən alıf. Hakkını alannan sora dörd qardaş burda kəhriz vur-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

duruflar. Hərəsi dörd gün-dörd gejə suyu bölüflər, burda yaşıyıflar. Hamısının ayrı-ayrı əkinçisi oluf, gözətçisi oluf, bağları oluf. Buların bir döylətdəri də olufdu Füzulidən aşağı İşpartı deyillər, orda oluf.

Hajı Bədəl özü yüz otuz bir il yaşıyıf. Anası Tavat arvad and içirdi ki, dədəm yüz otuz bir yaşında da ata özu minif, özü düşürdü. Özü də ömrü boyu isdi su canına dəymiyif. Yayda dağda, Sarıyerdə çayda çimif, qışda kəhrizdə.

Kəhrizi vurduranda Böyükbəyin ərazisinnən vurdurufdu. Baş quyunu qavaxca vurullar ki, görəh su varmı. Böyükbəy faytonnan gedir kankannarın yanına, deyir:

– Salam məlöykü.

Deyir:

– Əlöykümət salam.

Deyir:

– Allah xeyir versin. Burda nə iş görürsünüz?

Deyir:

– Hajı Bədəl burda kəhriz vurdurur.

O dörd qardaşın üçü tez rəhmətə gedif, Hajı Bədəl çox yaşıyıfdı. Deyif:

– Hajı Bədələ deynən ki, Allah xeyir versin, mənim torpağımnan keçir, bir maa da məsləhət eliyərdi.

Onnan sora gəlif ayaxdan yarmanı çəkillər. Quyunu kankan altdan yuxarı qazır. Özü də bunu həmşəhirlilər işdiyir. Gəlif quyu bura çıxanda üç illik bir öküz kəsir.

Burda oluf Ağabəy, Məmişbəy, Şəmilbəy, Böyükbəy. Bu dörd bəyin ortasında Hajı Bədəlin mülkü olur. Nikalayın da belə qərarı varmış ki, bəy mülkünün arasında irəyət mülkü olmamalıdı. Bu bəylər nə qədər eliyirsə, bu torpağı bulardan ala bilmir. Axırı elə olur Hajı Bədəl rəhmətə gedənnən sora İbad bəy, oğlu Mahmud bəy bu torpağa müşdəri çıxır. Həsənalı babam dədəmə deyir ki, ay İvrahım, gəl buranı verək, bəyliklər bizi boğaza yığdı. Gedəh İşpartada döylətimizi saxlıyax. Deyir:

– Bəy, vermiyəjəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dədəmnən Mahmud bəy gedir Gəncəyə. Dədəm qəlyan çəkən idi. Savah ertə Mamud bəy oturuf kafedə çay içəndə dədəmə deyif ki, ay İvrahım, burda sən Hacı Zeynal bəy oğlu İvrahım bəy sayılırsan, mən də İbad bəy oğlu Mahmud bəyəm. Gəl bir yerdə oturuf çayımızı içək, duranda işimizi görək. Deyir:

– Sizə salam verməh günahdı. Gəl ha mən sənnən qabax-qabağa oturuf çay içəm.

Bəy bir az qəzəblənir. Durullar, qəşəh gedir orda sənədləşdirir, dədəm torpağın mandatın alır əlinə, bəyin əli qalır boş.

Hajı Bədəlin dağda yeri olufdu Sarıyerdə, Qaraxaçın ağzında olufdu.

* * *

Hajı İbiş babam olufdu. Çobana deyirmiş ki, qadam, əlin böyürtkəndə olsun, gözün qoyunda. Sora deyirmiş, qadam, qoyunun qabağında ayax üsdə gəz, oturma. Otsan uzanessən, uzansan Yatessən, yatsan qoyun getdi.

Sora lotular yığışır bunun bir heyvanın kəsir. Deyir:

– Baba, bizə qismətdi, qismət döyül?

Deyir:

– Yox, qadam, qismət döyül.

Doğruyuf doldurullar qazana. Deyir:

– Baba, qismətdi, qismət döyül?

Deyir

– Qismət döyül, oğul.

Çəkillər boşqaba.

– Qismətimizdi?

– Yox.

Bir tikə qoyur ağzına. Deyir:

– O yediyin tikə qismətindi. Bəlkə elə ola bilər, yeyə bilməzsən.

* * *

Onda mənim dədəm dağa getməmişdi. Dədəmin bişmiş kərpişdən qoşa otağları oluf. Otağın qabağında alaçıx tikif. Ağabəyin də on iki çinarı vardı, onnan bəri də iki kəhrizi vardı. Ağabəy gəlif



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dədəmə deyif ki, İvrahım, Allah xətrinə, bir dəfə mənim qarnımı doyur. Deyir:

– Ay bəy, şəxsiyətini itirmə, sən bəysən.

Dədəm deyirdi ki, bəy o qədər arıxlamışdı ki, şalvarı da əynində durmurdu. Nəysə, yeyir-içir. Alaçığı onda çubuxnan bağlıyırdılar. Durur bu çubuxlardan birini açır, onnan şalvarını bağlıyır. Şalvarı da bunnan irəli kadınnar yer hanasında qoyun yunonnan toxuyurdu. Onu da dizlihsiz geyəndə adamın ətini yara eliyirdi. Dədəm deyir, bəy nə qədər ajdıx çəkifsə, Koğustannan bəri yıxılır, elə orda ölür.

* * *

Salmanbəyli, Təzəkənd, Pərioğulları, Rəncbərlər, Hüsülünün yarısı, Hajı Bədəlli, Kürdəmirdə Qarabucax kəndləri kəbirli kəndləridir. Kəbirli dörd tirədi, qırx qoldu. Tirələr bunlardı: Urbabalı, Arıxməmmədli, Qərvənt, Qızıllı. Qızıllı Rəncbərlərdə yerləşir, Arıxməmmədli Pərioğullardadı, Qərvənt Salmanbəylidə, Urbabalı da hamısı Kəbirli kəndindədi. Azərbaycanda yaşayan bütün kəbirlilər bu dörd tirədən biridir.

Nikalayın dövründə siyahıya alanda 950 qəmərəli qeydə alınıf, yəni tüsdü çıxan ev, amma oturax kəbirlilər qarışmıyıf ona. Kəngərli, Hindarx, Qaraxanbəy, İmamqulubəy, Bayat, Zəgişanlar kəndlərinin çıxannan sora. Seyid Məhəmməd ağa deyirdi ki, olar oturax oluflar, oturannan sora adları dəyişif.

Hajı İmamxandan qalan Kalba Şahmirzədi, onnan qalan Camaldı, Camaldan qalan Əbülfətnən Cəlaldı.

Hajlı Mehdidən qalan Maşatsanalıdı, onnan qalan Şəmildi, Şəmildən qalan Əyyubdu, Əyubdan qalan sənsən.

Hajı Bədəldən qalan Ağamirzədi, Ağamirzədən qalan Bayramdı, İmamquludu, Valehdi, Məhəmməd kişinin uşaxlarıdı.

Hajı Zeynaldan qalan İvrahımdı, İvrahımdan qalan mənəm.

İndi haja samalyotnan gedillər, avtobusnan gedillər, amma bunnan irəli Hajı Bədəlin min qoyunu var, boyuna busat gəldi, məjburdu gedə haja. Bu, altı ayda gedif gəlincən adi papirosdan bunun ayləsi korrux çəksə, onun hajı qəbul olunmurdu. Tək kəbirlinin yet-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

miş yeddi hajısı var. Onun yeddi nəfəri bu kəntdəndir. Hajı İmamxandı, Hajı Mehdidi, Hajı Bədəldi, Hajı Zeynaldı, Hajı Əhmətdi, Hajalıquludu.

* * *

Hajalıqulu oğlu Həbib o vaxdı Hindarxında Fərrux bəyin arvadınnan evlənif. Ordan gedif çıxıf Gəncəyə. Gəncədə olur icra hakimiyətinin nümayəndəsi. Gələr, babası Şəmilin evinə kəbirli camaatını yığar. Deyir:

– A kəbirli camaatı, sizə deyirəm fikirrəşin. Arana-dağa bu döylətin dalıncan az sürünün (axı bilirdi ki, gələn il döylət əllərinnən alınajax). Gəlin bu Xanlar tərəfdən sizə torpax alım, kənd salın, döyləti satın, uşağınızı oxudun, gələcəyi olsun.

Bu da çox dəli adam idi. Deyillər dəli Həbibdi da, dəliliyi tutub genə. Bunun sözünə inanmıyıflar.

* * *

Ermənistannan sərhətdə Cinni camaatı olufdu. Bizim kəbirlili Ağabəyin dədəsi Mehdi bəy görür ki, Sarıyer vallah bir yaylaxdı, tay gəl görəsən. Mehdi bəy həmən yerə sənəd alır. Mandatsız torpax vermillər dağda. Hər fermanın yurduna mandat verirdilər. Amma sənədi verən deyir ki, bir yanınız zor olmasa, çətin olajax.

Vəhdən keçəndə ermənilər orda ağac qayırıf satır. Kəbirlilərə deyir ki, hərə bir qom ağac alsın. Hərə bir qom ağac alır. Bizimkilər addıyıllar Sarıyerə. Bu Cinnilərin nə qədər kişiləri var döyüf evdən çıxardıllar. Mehdi bəy də arxadan gedirmiş. Bir dənə kadın olur, bij olur, xançalı tuman atda gizdiyir. Mehdi bəyə yaxınnaşıf deyir:

– Ay bəy, ay bəy, ala su, ala su.

Bəy suyu alanda xançalı bəyin qarnına soxmax isdiyir, bəy xançalı tiyə tutur. Mehdi bəyin barmaxları burdan topal olur. Kəbirlilər o camaatı qovur Ceyrançöl tərəfə, özdəri ta Sovet hökuməti gələnə qədər qalır orda. Sovetin dövründə döylət həmin torpaxları aldı savxoza verdi.

* * *



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kəblədərgah oluf, çox atıcı oluf. Bəlkə yüz ceyran vuruf. İşparta tərəfdə görüf ki, – Yanında İsmayıl addı bir yoldaşı varmış. İrannılar tanıyırmış bunu ki, Kəblədərgah harda olsa atajax. – görür bular (iranlılar – top.) gəlir. Ora dərə-təpədi. İrannılar bir dənə topal adam gətirif qoyullar Kəblədərgahdan arxaya, əlində silah. Yaxınnaşanda Kəblədərgah bulara güllə atır. Bular hamısı burxulur qayıdır. Bular qayıdanda kopoğlu topal daldan Kəblədərgahı vurur. Yoldaşına demir məni vurdular. Bunnan əvvəl tütünü eşirdilər. Deyir:

– Ə, papiros eşirəm, tüfəngi düz at, səhv atarsan, gələllər.

Bu birinci tüfəngi atanda deyillər:

– Dərgahı topal vurdu, sürün.

Onnan sora gəlif döyləti yığıf aparıllar.

* * *

Hajı Bədəlin nəvəsi İmamqulu kişi deyirdi Örənqalada qoyun otarırdım. Gördüm atdılar (iranlılar – top.) gəldi, üş atdı. Təmiz qoyunu seşdilər, beş-on arıx toğlu qaldı. Məni soyundurdular lüt. Bir alt tuman-köynəyim qaldı. Paltarımı aldılar. Papağa börk deyirdilər. Dedi:

– Börkü də ver.

Papağı da verdim. Onnar gələndə tüfəngi kolluxda gizdəmişdim. Bular ayna sürəndə biri əlin salır pencəyimin civinə, görür badron var. Bu, atı döndərdi, qayıtdı. Dedi ki, bunun anasını ver. Dedim ki, evdə qalıf, badron yadımdan çıxıf civimdə gəlif. Dedi:

– Adam partdatmaxdan xoşum gəlir, səni vurajam partdıyajaxsan, güləjəm.

Gətdim tüfəngi verdim. Qoyunu da, tüfəngi də götdülər getdilər.

* * *

Aranda tikilisi olan Mehdi bəy oğlu Ağa bəy oluf, Hajı Bədəl oluf, Hajı Abbas oğlu Hüseynalı oluf. Rəncbərlərdən bəri Hüseynalının yurdu idi. Onnan qalan hamısı köçəri camaat idi.

Bizim dağ yerimiz oluf Cinni yeri. Ağa bəyin atası Mehdi bəy atdı göndərif, deyif:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Gedin ağac alıf gətirin Vəhdən. O ağacın hamısı silmə olsun, onun başının yumrusu olmasın.

Davaynan Cinnini döyüf qovuf, o yeri alıf verif kəbirriyə.

Mehdi bəy gedənnən sora rəhbərçilih keçif Ağa bəyə. Dəvə yolu deyillər, indi ermənidədir. O dəvə yolunnan yuxarı oluf İmişlinin Əlpənahlı camaatının yeri. Ağabəy deyif ki, o yeri alajam. Nəysə, sözü atıf ortalığa. Oların ağsakqalı, bular topalaşıf. Ağa bəy deyif:

– Bilirsiz nə var? Madam ki, belə oldu, kim Qurana and işsə, yer onundu.

Hamı bunnan razılaşır. Gəlir bax burdan – Ətyeməzli yerinən, Usuflu yerinnən, çarığının içinə torpax qoyur, gedir. Gedif topalaşıllar ora, on beş-iyirmi adam. Əlpənahlının ağsakqalı irəli durur, deyir:

– Ağa bəy, and iş, torpax qalsın sənə.

Deyir:

– Mən and içirəm torpax bizimdi. Allahın göndərdiyi otuz cüz Quran haqqı, ayağımın altındakı torpax kəbirri torpağıdı.

Onnan həmin yer qalır kəbirriyə.

* * *

Bu dörd tirənin içində azı qərbənd oluf, amma qərbənd qoçax oluf. Qərbəndin ağsakqalı oluf Hajı Abbas oğlu Hüseynalı, qızıllınınkı oluf Şükür kişi, dədəsi Kalbayı Həmiz. Dağda danışığ düşüfdü. Danışığı Kalbayı Həmiz salıf. Deyif ki, qərbəndi döyəh, oların qış yerini əllərinnən alax. Dava düşəndə Hüseynalı gəlif aralıyıf, qoymuyuf dava düşə. Özününküləri qaytarıf geri, deyif:

– Biz azıx, bizi döyəjəhlər.

Bunnan da bular lap şirinikiflər. Köş arana gələndə bizim camaatın əksəri gəlif tökülür Köyük camaatının yanına, bir hissəsi isə gəlif Usuflu yatağına, Qarqarın o tayına. Şükür kişi deyir ki, sürün düz o yatağa. Gəlif tökülüllər. Burda dava düşür. Dava düşəndə bizimkilər birini göndərillər haya. Bizim camaatın əksəriyyəti də oluf Köyüyün altında. Əmim Məhəmmədnən Mürşüd oğlu Bədəl ikisi bir atda buların köməyinə gəlif. Gəliflər, qızıllını



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

döyüf dolduruflar Qarqara. Hajı Abbas oğlu Hüseynalıya hay gedif ki, vəziyyət belədi. Gəlif ikisinin də alnınnan öpüf. Deyir:

– Mən bilsəydim ki, sizdə bu qeyrət vardı, mən bu davanı dağda eliyərdim.

Mənim xalam oğlu sayılır, əsli qızıllı idi, o davada öldü. Cəmiyət vardı, dili də bir az pəltəh idi. Bu da qaçır, girir Qarqara. Qarqunun şıkqıltısı gələndə deyirmiş:

– Şır-şır şıkkıltı, qərbəndsən, yoxsa qızıllısan.

O davaya dayir bir şeir də yazmışlar. O şeirdən yadımda bir o qalıb ki,

O üç tirə, bu bir tirə,
Qarışdı bir-birə*,
Padar dəydi Qara Əsgərə**,
Xəbər getdi Hajı Əsgərə***.

* * *

Şura hökuməti gələnnən sora Hajı Bədəl də rəhmətə gedir. Əmioğulların içində başbiləni dədəm qalır. Mülkədar kimi dədəmi incidillər. Bakıdan bir dənə nümayəndə gəlir Əlişin yanına. Əliş də Şura sədridi. Məmiş bəyin on altı göz evi var idi. 1943-cü ildə sökdülər apardılar, Hindarxında kazarma tikdilər. Bakıdan gələn nümayəndə gəlir durur bax burda. Bura da boş yer imiş. Atam axşamçağı çuxa çiynində belə gəzirmiş. Bakıdan gələn gəlir deyir ki, İvrahım sənsən Hajı Zeynal oğlu. Deyir:

– Hə.

Deyir:

– Sən bilirsən, sənin tayların balığın qarnındadı? Sən çuxanı çiyninə salıf burda gərdiş eliyirsən.

Deyir:

---

* Urbabalıdan, Arxıməmədlidən də Qızıllılara kömək verən var idi.
** Qara Əsgər Qızıllıdandır.
*** Hacı Əsgər davanı salan şəxsin atasıdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bəli bilirəm. Onnar ağıllı adamlardı ki, balığın qarnına atmısız. Mən də isdiyirəm onnarın sırasına yazılam.

Qayıdır deyir:

– Ə, bu nə qorxmaz adamdı.

Bakıdan gələn nümayəndə gedir Çodarov İsa vardı onun yanına. Deyir ki, Hajı Bədəldə Hajı Zeynal oğlu İvrahım var, sən onu nətər tanıyırsan? Deyir:

– Onun haqqında deyilən yalandı. Özü qazanıf özü yeyir.

– Axı, böyür-başında kadınnar var.

Deyir:

– Hamısı yetimdi, yığışıb yanına. Özü qazanıf özü yeyir, fağır füğəraya da kömək eliyir.

Bax, bu dəllək Rəhimin dədəsi köhnə ispalkom oluf, gedif onun yanına. O da həmən sözü deyir. Anam and içir ki, Bakıdan gələn nümayəndə Məmişbəyliyə getmir, gəlir düşür bizim evə. Deyir:

– Sənin haqqında soruşmuşam, sən kulak deyilsən. Amma sən burda qalsan, səni əkəjəhlər, çıx get.

Otuz dördüncü ildə atam köçür Örənqalaya.

* * *

Rəhmətdih babam Şəmil kişi görüf Qaryagin tərəfdən on iki nəfər adam gətiriflər. Tanıyıf onun içində iki-üş nəfəri. Maraxlanıf: – "Ə, bu nədi". Deməli, NKVD-nin əlində siyahı oluf. Bir-bir oxuyur. Deməli, hər ata da bir uşax gətiriflər ki, adamları aparajaxlar kulak, uşaxlar da atı qaytarajax Qaryaginə. Şəmil kişi tanıyıf buları. Deyir:

– Buları hara aparırsız?

Deyir:

– Əşi, bular hökumətin əleyhinə sözdər danışıllar. Bular sovet hökumətini isdəmiyən adamlardı.

Deyir:

– Onu məə ver görüm.

Sənədi alan kimi cırır. Kişi buna bir söz deyə bilmir. Axı bunnan çörəh kəsif. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Şəmil kişi, sən nağarırsan?

Deyir:

– Ə, mən oranın sovet sədrini tanıyıram. O, oynaş puluynan yekəlmiş kopoğludu. Bunnar gejə-gündüz oruc tutuf namaz qılan adamlardı ki, sovet hökuməti gəlsəydi bizim İran həmşəərlilərinnən canımız qutarardı. Malı-qoyunu gejə gəlif oğruyullar. Saa mən kişi sözü deyirəm.

O kişinin bir kəlmə sözüynən on iki adamı azad eliyir. Salmanbəylidə sınıxçı Mirzə var. Deyirmiş kəbirlidə desələr ki, divangir adam kimi gördün, mən deyərdim Şəmil kişini. Sözüynən sənədi aldı cırdı. NKVD əlinin dalınnan bircə dəfə belə elədi ki, qaytarın kişiləri.

Mənim onda on iki yaşım vardı. Atı gətirmişdim ki, üsdündəki kişi getsin, mən atı qaytarım Qaryaginə. Biz on iki nəfər kişiynən qayıtdıx kəndə. Gəldih ki, ağlamaxdan arvatdarın gözü şişif. İnanmırdılar ki, bu kişiləri buraxallar.

* * *

İmkannı adamlar, bəylər iyirmi səkgizdə topalaşıflar, görüflər da mümkün deyil. Bir neçəsi qaçıf İrana. İki-üç ildən sora İrana gedənin üçü-dördü – İmranın dədəsi Hüseyn, Ataş, Zeynalavdın, Haşura oğlu Kərim qayıdıf gəldi. Olar bəy olmuyuf. Amma varrı oluflar, çoban tutuf döylət saxlıyıflar. Otuz yeddinin payızında dalqabağını kəsdilər, imkannılardan qalan kim vardısa, hamısını sivirdilər. O gedən getdi, oların birinnən bir xəvər olmadı.

Zeynalavdın mənim qohumum idi. Otuz yedinin payızında onu mən özüm apardım. Günbatan çağı idi. Rayona girəcəhdə düşdü üzümnən öpdü, maa dedi sən qayıt. Mən atnan qayıtdım, bu, piyada getdi rayona. Savah dalınca getdilər, tapbadılar.

Rəhmətdih Şirastan oluf, NKVD-dən də bir neçə adamı qoşmuşdular yanına. Əlində siyahı vardı, bu siyahıynan Qaraçurdan, Kəbirlidən, harda varsa imkannı adamları yığdı gətdi. Mənim xalamgildə qoyun kəsillər, yeyif içillər. Aparıf buları verir Ağcabədiyə. Savahları o adamların yiyəsi gəlir, oları tapmırlar. Dedilər bura belə adam gəlmiyif. O gedən getdilər, daa xəbər olmadı ki, nejə oldu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

* * *

Əhməd balaca adam oluf, hədinnən artıx qırmızı oluf. Qış imiş. Bu, oğurruğa gedir. Girir birinin pəyəsinə. Kök inək olur, inəyin dal ayaxlarını bağlıyır, qavax ayaxlarını da. İnəyi alır çiyninə, çıxır. Yer də qar. Gedəndə çarığı dal-qabax geyir. Gəlir Qarqara çatanda görür susunnan yanır. İnək də boynunda. Dizdərin qoyur yerə, su içəndə inəyin dal ayaxlar da, qavax ayaxları da qara dəyir, qara irədd düşür.

Savax qalxıllar ki, iki nəfər pəyəyə girif, amma çıxan yoxdu. Düşüllər bunun irəddinə. Gəlillər Qarqara çatanda inəyin irəddini görüllər. Orda deyillər ki, bu inəyi gətirən Əhmətdi, özü də bunu çiynində gətirif. Gəlillər ki, inəyi kəsif. Əhməd inəyin ətinnən bulara yedirdir. Özdərinə də deyir ki, hə, düz gəlmisiz, inəyi mən gətirmişəm. Olar da deyir ki, sən ki bu qeyrətnən gətirmisən, halal-xoşun olsun.

* * *

Əhmədin iki ayləsi olur. Biri Göyçədən olur. Onun züryəti olmur, sora gedir evlənir. Dağdan əv gəlir. Bunun da ayləsi dədəsi evində imiş. Qoyun dağdan yola düşən vaxdı yoldaşdarına deyir ki, siz qoyunu otarın, mən gedim ayləmi gətirim. Bir qoyun da kəsir, eşşəyin belinə sarıyır. Gedir bir gün qalır, iki gün qalır. Ayləsini götürür gəlir. Gələndə görür yolda altı sürü qoyun olur, yatışıfdı. Çobannar da oturuf çörəh yeyir. Buların böyrünnən keçəndə coban-nar buna sataşıllar. Arvada deyir:

– Arvad, düş eşşəhdən, mən vuruf yıxdıxca sən ağacı götür.

On iki adammış. On ikisinin də başını yarır, döyür. Ağaclarını alıf sarıyır eşşəyin belinə. Hər sürüdən on qoyun bölür, qatır qa-vağına. Hay gedir qoyunun yiyəsinə ki, gəldilər qoyunu böldülər. Biri deyir on atdı idi, biri deyir səkgiz atdı idi. Ağa deyir:

– Sədrəddini çağırın, bura gəlsin. O düz adamdı. Kim olduğu-nu, nə olduğunu deyəjəh.

Sədrəddin gəlir.

– Ə bala, qoyunu aparan, sizi döyən kim idi?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Əşi, bir qoja kişi idi, qırmızı sakqal, qavağında bir eşşəh, üsdündə də bir arvad. Bular başdadılar ona sataşmağa.

Ağa o saat tanıyır kim olduğun. Atdanıllar. Gəlillər ki, Əhməd gəlif çatıf, qoyunu da qatıf qoyuna. Salam-kalamdan sora Əhmədə deyir:

– Döymüsən hak eləmisən, gətirmisən yaxşı eləmisən. Halalxoşun olsun.

Əhməd də gətirif qoyunun birin kəsir. Yeyif-içif gedillər. Əlli dokquz qoyun da qalır Əhmədə.

## AFŞARLAR HAQQINDA*

Nadir şah Afşar İrəvan qalasına hücum eliyir. Qış vaxdı olur, ala bilmir. Ala bilmiyəndə sərkərdələri məsləhət görür ki, qayıdax aşağı yerdə qışdıyax, qar ərisin, yenidən hücum eliyəh İrəvan qalasına. Gəlillər bizim Afşar kəndinin ərazisində qışdıyıllar. Bu da Vedi rayonuna yaxındı.

Yazda yenidən hücuma keçəndə orduya müraciət edir ki, kimsə burda qalmax, kənd salmax isdiyirsə, yerli əhaliynən qaynıyıf qarışmax isdiyirsə, azaddı, eliyə bilər. Bizim Afşar kəndinin bünövrəsi belə qoyuluf. Həmin o Nikalay Həsən söypət eliyirdi ki, Nadir şah İrəvana gedəndə Afşar kəndi artıx püxtələşmiş toplu halında yaşıyırdı. Eşidiflər ki, Nadir şah burdan gəlif gedəjəh İrəvana, evində xalçası, palazı, gəvəsi, kimin nəyi varmışsa, gətirif o kəndin qırağına düzüllər ki, Nadir şahın faytonu toza batmasın.

* * *

Afşar 350 nəfər oluf. El arasında bir məsəl var, 350 afşar belə oldu. Bunu kökü burda qırılıf qalıf. Nadir şahın qoşunu çəkilif gedənnən sora bular, indi yaralı olufmu, axsax olufmu, bular qalıflar burda.

---

* Afşarlar haqqında məlumatlar Afşar kənd sakinləri Cəfərov Yasin Seymur oğlu, Quliyev Zahid Hacıqulu oğlu, Bayramova Narış İsa qızı və Afşar kənd bələdiyyəsinin sədr müavini Cəfərov Nizami Ənvər oğlundan qeydə alınıb.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bizim əsas yaşayış yerimiz Nərgiztəpədə oluf. Orda qəbirstannığımız da var. Laçının, Kəlbəcərin dağları var, ora yaylağa gedirdik. Çalbarı deyilən yer afşarların yaylağı oluf.

Otuzuncu ildə bizimkilər dağda olanda xəbər gedir ki, sizi də qalxoza yazdılar. Qərar çıxardıflar ki, afşarlar da gəlif bu kəntdə qalxoza yazılmalıdırlar. Bu kəndə afşarlar gəlif əllinci illərdə. Ona qədər burda özbəklər, arasbarı, irannılar oluf. Arxın o üzü Bağırov qalxozu oluf, bu üzü "Qızıl özbək" qalxozu oluf. Özbəkləri də bura sürgün eliyiflər, pambığı əkif becərməyi yerli camaata örgətməh üçün.

Xan qızı arxı vardı Natavanın vaxdında. Sonradan o kanalı işdədilər, Orcanikidze qoydular adını. Birbaşa Arazdan gəlirdi. Kanalı çəkənnən sora başdıyıllar bunun altında qalxozlar yaratmağa. Deyillər burda qalxoz yaradın, camaatı yığın başıza pambığ əkin. Camaat da deyirdi ki, bizim başımız çıxmır pambığ əkməkdən. Özbəklərdən sürgün eliyillər Stallinin vaxdında. Burda hardasa iki yüzə qədər aylə vardı. Gəldilər bura, pambığı əkib-becərməyi camaata örgətdilər.

Otuzuncu ildə dağa hay gedir ki, sizi də qalxoza yazdılar, gəlin qalxoza. Bular gəlmiyiflər. Gəlmiyəndə afşardan sayılıf-seçilən on iki nəfər adamı tutullar. Bu işi kim pozur, niyə gəlmillər? Bu on iki adamın da heş birisi geri qayıtmıyıf. Onnan sora yazılıllar qalxoza. Afşar gəlif burda məskunlaşdıxca yerri camaatı da başdıyıf sıxışdırmağa. Afşarlar bir az narahat camaatdı. Həm davakardılar, həm qoçaxdılar, yuxu yatan deyillər. Heylə-heylə bir dənə yerli adam qalmadı. Onnan sora afşarlar oturdu. 350 nəfər gəlif çıxıfdı indi altı min adam var.

* * *

Afşar üş tirə olur: araxlı, günəşli, əmənqulular. Digər əfşarlar bu üç tirədəndilər. Zəkərəli afşarı, üzeyir afşarı, çaparidze afşarı hamısı burdan getmədir.

*Söyləyici öz şəcərəsini sayır:* Atası oluf Süleyman kişi, Süleyman kişinin atası oluf Bağır, Bağırın atasının adı Süleyman oluf, o da İrannan gəlif. Gəlif burda araxlıdan evlənif.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

* * *

Afşar oturax vəziyyətə keçənnən sora Nejə oğlu Əhmədi gətirif pambığa birqadir qoyullar. Pambığı əkillər. Buların heş birinin də pambığdan başı çıxmır. Xam yer, pambığın şaxı uçur o tərəfə, uçur bu tərəfə. – "Ə, bunu nağarax, nətər eliyəh?". Gedillər Qarqara, Qarqardan qarğı qırıf gətirillər pambığın divinə sancıllar ki, pambığın kolu uşmasın.

Pambığın arasının cızını çəkmək üçün bir dənə öküzdəri varmış, bir dənə də cız çəkənnəri. Bu cız çəkəni qoşullar öküzün arxasına, pambığın cızını çəkillərmiş. Öküz də pambığı yeyirmiş. Axırı deyillər ki, gəlin, bu öküzün ağzına torba keçirəh. Öküzün ağzına torba keçirillər ki, qozanı yeməsin. Deyillər, sora o öküz elə vərdiş elədi ki, and içirdilər, sonrakı dövrdə torba keçirmirdik. Öküz pambığın arasınnan cızı çəkirdi elədən belə, belədən elə, o pambığdan bir dənə də yemirdi.

* * *

Deyirdilər: "Aj da qalsaz, gijitkanı ovxalıyıf yeyin, dağda oturun. Aranda qalassuz qarnuz şişəjəh, qaynar su içessuz". Aranda qalana ağu deyif ağlıyırdıx. Deyirdih:

Aran yeri var,
Həlim suyu var,
Duman milçəyi var.

Heylə deyif ağlıyırdıx.

* * *

Kəbirri patava geyinərdi. Patavanı da palazdan tikirmişdilər, dizə qədər olurdu çəkmə kimi. Geyinirmişdər, dolax doluyurmuşdar. Rəhmətdih atam deyir ki, bizim camaat hamısı çarıx geyinirdi, kəbirri isə patava geyinərdi. Ona görə kəbirriyə "patavalı kəbirri" deyərdilər. Patavanın altına rezindən, dəridən yamax vururdular ki, altı qalın olsun.

* * *

Bu tayfalar içində qaradolaxdı, afşardı, bir də şahsevəndi buların yaylax yeri qonşu olufdu. Qavaxlar arvatdar yunnan əyirif şal



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

toxuyuf, şaldan şalvar tikərmişdər. Arvatdar boyax qayırırmış. Düzdə bitən bitkilərdən – biyan, pişik cırnağı, qoz yarpağını qaynadıf boyax alırmışdar. O boyaxnan ipi boyuyuf sürməyi rəng alırmışdar. Kişilər saçaxlı quzu yununnan yappa papax tikdirirmiş. Ağdamda, Gəncədə papax tikənlər varmış, olara tikdirirdilər. Az-az kişilər heylə papax tikdirərmişdər.

Bizim afşar camaatı qara paltar geyinərmiş, papax əvəzinə ağ şaldan başdarına dolax doluyarmışdar. Türklərdəki əmmamə təki dolax doluyarmışdar. Qaradolaxların hamısı ağ yunnan tikilmiş düm-ağ şalvar geyinərmişdər. Olar boyaxlı paltar geyinməzmişdər. Şalvarrarı ağ olardı, dolaxlarını qara doluyarmışdar. Onda hamı olara deyərmiş ki, qaradolaxlıdı. Budey köş gəlir. Baxın görün kimin köçüdü. Baxırmışdar ki, qaradolaxlardı. Qaradolax adı ordan qalıf.

Şahsevənni də qırmızı rəngnən boyuyurdu. Daim qırmızı çuxası, şalvarı olardı. Deyərdih köş gəlir, baxın görün oların əyninin paltarı nə rəyhdi. Deyərdilər qırmızıdı. O saat deyərdih: “Hə, şahsevəndi. Qırmızı şalvar şahsevənnilər gəlir”.

Bizə “ağ dolaxlı” deyərdilər. Buna görə el məsəlimiz də var. Bizim eldə bir adət var. Məsəlçün, mən getmişəm Nizaminin qızına elçi. Nizami, sənin qızını mən oğluma isdiyirəm. Nizami məni bəyənmiyif deyif: “Yox, mənim səə veriləsi qızım yoxdu” – deyəndə gəlif hirs eliyif oturmuşam: “Bay, heş verməsin. Nizami hələ papağını yeddi yerdə göyə fırratsın ki, mən onun qızını oğluma isdiyirəm. Vermiyir verməsin. Guya mənim oğluma qız tapılmıyajaxdı. Ağ dolaxlım sağ olsun, tapılmıyan qız olsun”. Belə bir məsəl bizim camaatda qalır. Bizim keşmiş kişilər qara çuxa, qara şalvar geyinərmiş, ağ da dolax doluyarmışdar başdarına. Qaradolaxlılar ağ şalvar geyinərmiş, ağ çuxa geyinərmiş, qara dolax doluyarmışdar başdarına.

Allah keçənnərə rəhmət eləsin, mənim bir bibim vardı. Qaradolaxlı görəndə belə bir baməzə bayatısı vardı. Deyərdi ki,

Qaradolaxda bir kəntdi,
Divarı divara bəntdi.
Kişiləri qorxağandı,
İtdəri hürəyəndi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qaradolax o qədər aciz, qorxax tayfa oluf ki, şahsevvənniy-nən afşarın əlinnən qaradolax bezirmiş. Evlərin arasınnan divar hörməzdilər. Divarrarı bir-birinə söykək olarmış.

* * *

Şahsevənnən bizim camaatın burda Üştəpə dediyimiz yerdə davası oluf. Dəvə yolu deyirih, İmişlidən Gəncəyətən uzanan tor-pax yoldu. Axı dəvənin ayağı əziləndi. Ora yumuşax torpax oldu-ğunnan ordan karvan yolu gedirmiş. Bütün karvannar oraynan gedirmiş. Onda mən hələ bu evə gəlin gəlmişdim. Onda dedilər ki, şahsevənin köçü gəlif. Payız vaxdı da xamlar* qorunurdu ki, qış gəlir qavaxdan. Gəlif bəs xamları, yatax yerrərini basıfdılar. Kənt-dən ağaş götürən, tüfəh götürən kim, el töküldü. Böyüh bir dava düşdü, neçə adamın başı yarıldı o tərəf-dən də, bu tərəfdən də. Bizim camaat oları çıxartdı qovdu. Dəvə yolunnan keçirtdilər apardılar. Novruz dərəsi deyilən yer vardı. Novruz dərəsinnən o tərəfə bizim kalxozun ərazisi yoxuydu. Novruz dərəsini addatdılar gəldilər. Onda mənim rəhmətdih yoldaşımın yaxşı bir atı vardı. Bütün atdar yorulur qalır, amma bu at oların dalına düşür. O atı da Cəmil deyilən bir kişi vardı, o minif getmişdi. Ona nə qədər de-yillər: "Ə, Cəmil, qayıt da, bəsdi". Deyir: "Yox, oları Novruz dərə-sinnən addatmasam qayıtmıyajam". Əlində də beşatılan vardı. Qa-yıtmıyanda ordan bir nəfər deyir bu qara atı vırın ki, bu atdı qa-yıtsın. Adama dəymiyin, atı vırın. Orda bizim atı vırmışdar.

Onda şahsevənnən afşarın heylə davası düşmüşdü, el davası. Onda arvatdar çığırışırmışdar ki, Allah, qannılıx düşəjəh, adam ölümü var burda.

Onnan qavax da bizim davamız olardı. Onda bizim camaat deyərmiş ki, bu qırmızı şalvarrıların kökün kəsin, bular nədi afşarın qavağında at oynadır. Onda rəhmətdih dədəm həmişə deyərdi ki, qırmızı şalvarrı şahsevən afşarın qavağında duran deyil.

---

* xam – otlaq sahəsi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

* * *

Başqa millətlər deyir ki, nə gəlirsə, malıma gəlsin, Allah canıma dəyməsin. Afşar da deyir ki, Allah malıma-döylətimə dəyməsin, canıma dəysin.

* * *

Ələkbər vardı, Ağdamnan idi. Oturuf stalovada çörək yeyirmişdər. Mübarizi gösdərif deyif ki, – hələ tanımırmış ha, – bax, o afşardı. Bakıda oturuflar xəngəlxanada, hərənin qarşısında boşqabı, xörək yeyir. Deyif:

– Bax, o afşardı.

Deyiflər:

– Nədən bilirsən?

Deyir:

– Bilirəm da.

– A qardaş oğlu, afşarsan?

Deyif:

– Hə.

Deyiflər:

– Ələkbər, bunu hardan bildin?

Deyir:

– Yeganə adam odu ki, hərə başdıyır öz tərəfinnən yeyir, afşardı ki, öz tərəfin qoyajax o biri tərəfdən yeyəjəh.

* * *

Beş adamın içində kim bərkdən danışırsa, bil ki, o afşardı. Kim yeriyəndə ayağının tapbıltısı bir az bərk gəlirsə, o afşardı. Amma oturanda, söypət eliyəndə, çay içəndə kim bir az həlim görükürsə, bil o, afşardı.

Balaca uşağı da dindirəndə görürsən üsdünə qabarır. Ən fağırı olsa da, mütələq onun cavabını verməlidi. Ona görə deyillər ki, xamır yeyəninin fağırı yoxdu. Yəni çörəh yeyə bilirsə, onu yazıx bilmə da. Afşardısa, çörəh yeyə bilirsə, fağırı yoxdu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məsəl var deyillər afşarın içi cənnətdi, çölü cəhənnəm. Afşarın adı çəkiləndə hamı çəkinir, amma gəlif afşarın içinə girəndə görüllər bular tamam başqa adamlardı.

* * *

İsfəndiyarın bajısının biri Bərdənin Qaraqoyunlu kəndində idi. Deyir, bulara gedirəm. Sovet hökuməti vaxdında da talxidaların Yevlağa pambıx daşıyan vaxdıdı. Onda yol bizim kəndin içinnən keçirdi. Çıxdım mindim talxidaya, indi gedirəm bajımgilə. Yolda şofer başdadı afşarın əleyhinə danışmağa:

– Ə, bu nə afşardı, oranı dağıtdı, buranı dağıtdı. Mən belə vuraram, belə yıxaram.

Mən də heş nə demirəm, oturmuşam sakitcə. Deyirəm, danışsın görüm bunun axırı nə olajax. Yol boyu nə qədər adam götürdü, mindi, düşdü. Minənin, düşənin hamısınnan qəpiyi mən yığdım. Bu da görür qəpiyi yığıram, indi fikirrəşir ki, düşəndə öz pulumu da üsdünə qoyuf verəjəm da. Baxdım ki, bu, bir baş-ayax da alıf, qoyun baş-ayağı, vedrəyə qoyuf, qoyuf mənim ayağımın altına. Yolayrıcına çatanda dedim:

– Burda saxla, mən düşəjəm.

Nəysə, burda saxladı. Düşdüm yerə, qəpih hamısı cibimdədi. Yerə düşəndə əlimi uzatdım vedrəni də götdüm, qapını örtdüm, dinməzcə yolnan bajımgilin kəndinə tərəf getdim. Bu, bir az durdu, gördü mən gerçəhdən gedirəm. Dedi:

– Ə, qardaş, qardaş, bir dayan görüm. Yaxşı o qəpiyi aparırsan, aparırsan, o baş-ayağı hara aparırsan?

Deyir dedim ki, bilirsən, bayaxdan bəri adresinə döşədiyin afşar var ha, mən o afşaram. Onun içinin ən zəyifi mənəm. Elə bax bu dərədə heç kəs yoxdu, bir sənsən, bir mən. O baş-ayaxnan qəpiyi mənnən ala bilsən, onda biləjəm haklısan. Hünərin var mənə yaxın gəl. Axırı dedi:

– A qardaş, sən Həzrət Abbas, qəpiy halalın olsun, baş-ayağımı maa ver, çıxım gedim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

* * *

Dağda mübahisəli hesab elədikləri yeri belə həll eliyirmişdər. Tayfadan biri, ən güjdü hesab elədihləri bu köç dövründə mərc daşını qujağında hara qədər apara bilsə, ora qədər sahəni otarırmış. Növbəti il o biri tayfadan ən güjdü hesab elədihləri o daşı götürüf apararmış. Daşı da aparanda kənardakılar onu ruhlandırardılar ki, nənəm saa qurban, bir az da get, nənəm saa qurban, bir az da get. Nə qədər çox getsə, o qədər torpaxları geniş olajax. O da nə qədər imkanı var, dizi yerə dəyənə qədər o daşı qujağında aparırdı.

* * *

"Afşarrama" qoyunun iki əmcəyi var. Bir var bir-bir sağasan. Amma kəsə yolnan getməh üçün bir az eydirənnən sora onun yelini tutuf sıxıllar, iki əmcəyinnən süd birdən gedir. Ona "afşarrama" deyillər.

* * *

Dağda Sarı yoxuş var. Elat dağa gedəndə həmişə gedif ordan çətinnihnən çıxırdı. Bir dəfə də yağış yağır. Torpax isdanannan sora sürüşkənnih olur. Baxıf görüllər ki, dəvələr heş cürə burdan çıxa bilmiyəjəh. Xalçaları yükdən açıllar, sərillər yola. Dəvələr o yoxuşu çıxır.

* * *

Nikalay Həsən deyir: "Sabir bala, məni də kənd içinə qədər mataskiletnən apar". İki təkərli mataskilet, yüz iyirmi-yüz otuz kilo kişi bunun tərkində. Sabir deyir ki, rəhmətdih Yusif dayının işdətdiyi tükana çatanda birdən ağlıma gəldi, dedim ki, Həsən dayı, mənim atım keçər, yoxsa Cəfərağanın atı. Eşitmişdim ki, Cəfərağanın bir dilihaça atı oluf, Vedibasarda onu keçən at olmuyuf. Ona görə mən bunu Həsən kişidən soruşdum ki, mənim atım keçər, yoxsa Cəfərağanın atı. Mənə dedi ki, a bala, mataskileti saxla. Mən də mataskileti yatırtdım. Dedi:

– Mən uşax idim. Bu da düşür 1870-ci illərə. Cəfərağanın uzax qohumu rəhmətə getmişdi, o da yasda iştirak edirdi. Birdən dedilər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ki, darğa gəlir torpağın pulunu yığmağa. Onda da indiki bələdiyyə kimi yalvarmıllar ey torpağın pulun ver. Darğa çatan kimi: “Ver”. Vermirsən, salır şallağın altına. Camaat da yavaş-yavaş durur aradan çıxır ki, darğa gəlif oları şallaxlıyar. Cəfərağa başını qaldırdı ki, məclisdə adam qalmıyıf. Soruşdu ki, bu camaat hara getdi. Dedilər ki, ağa, darğa gəlifdi kəndin bir illik naloğunu yığmağa, camaatda da imkan yoxdu ki onu verə, duruf aradan çıxdılar. Deyir dedi ki, o darğanı çağırın gəlsin bura. Darğanı çağırdılar, gəldi. Cəfərağa soruşdu ki, niyə gəlmisən. Dedi ki, bəs ağa, gəlmişəm kəndin bir illik naloğunu yığmağa. Əl atdı burdan qızıl kisəsini çıxartdı, tulladı darğanın qabağına. Dedi: “Bu kəndin bir illik vergisini say götür, yerdə qalanını qaytar”. Bu da hesabnan-kitabnan olan şeydi da. Saydı götürdü, qızıl torbasını gətdi qoydu Cəfərağanın qabağına.

İndi Nikalay Həsən atamdan sual eliyir:

– Sabir bala, sən bu kəndin bir illik naloğunu verə bilərsən?

Deyir, dedim hardan, ay Həsən dayı. Deyir:

– Bala, sür, sənin atın Cəfərağanın atına çatmaz.

* * *

Bir afşarrı Cəfərağadan pristava şikayətə gedir. Pristav indi Cəfərağanı pisihdirməhdən ötrü tapşırır ki, Cəfərağa gələndə onun atının başını heş kim tutmasın. Şikayətə gedən afşar bunu eşidir. Deyir, Cəfərağa gəlif dayanan kimi, həmin o şikayətçi gedir atın başını tutur. Pristav deyir:

– Pah atonan, afşar afşarrığını burda da bildirdi ey.

* * *

Qara oğlu Qardaşxan sağmış. O da afşarda məşhur adam oluf, həm də ki Allah-tala ona çox güc-qüvvə vermişdi. Məktəbdə işdiyəndə görmüşdüm, xəsdə idi. Deyirdi, bala, həmişə mənə qarğış eliyirdilər ki, sənin sağ qolun düşsün. Həqiqətən də, heylə olmuşdu. Ən özünnən deyən adama bircə şillə vurarmış.

Buların cavan vaxdı dörd yüz, beş yüz qoyunnarı varmış. Yeddi-səkkiz adammışlar. Bular gejə gedillərmiş harda xam var, oranı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

otarıf qayıdıf gəlirmişdər. Camaat da tapa bilmir ki, bu yeri kim otardı. O vaxdı da mal-qoyunu saxlamax üçün gərəh yerin olaydı.

Bir gün də deyir bular gediflər, yeri otarıllar. Ordan aralanıf gəlif obaya dörd-beş kilometr qalmış dərənin divində qoyunu yatırıflar. Qardaşxan kişi dirsəklənif yatıf.

O adamalar da atı minillər, bir iyirmi dənə atdı, əli ağajdı ki, izinə düşəh, bular bunu otarmaxnan çata bilməz. Gəlif buları yatdığı yerdə tutuflar. Baxıf görüllər qoyun burda yeyif yatıf, adamlar da burda. Yatılı buları başdıyıllar döşəməyə. Nətər döşəyillərsə, nə baş qalır, nə göz qalır. Qoyunu da qatıllar qabaxlarına, gedillər.

Savah işıxlaşır, bular özdərinə gəlillər.

– Ə, biz indi gedəh nə deyəh?

Biri qayıdır deyir:

– Qara oğlu Qardaşxan, gedif o camaata deməhdənsə, gedəh bizi də öldürsünnər, leşimiz qalsın, gəlsin görsünnər belədi. Mal-qoyun gedənnən sora onsuz da uşax ajınnan qırılajax, biz bunnan dolanırıx. Nağarax?

Deyir:

– Da nağarax, Allaha pənah, gedəh.

İçinin üş-dörd zəyifi vardı. Buların paltarlarını soyundurullar, qollarına bəlgə eliyillər. Yeddi-səkgiz nəfər olur, başdıyıflar qaça-qaça, qaça-qaça, misalçün, Ağcabədidə çatıflar. Bunnar görüllər arxadan gəlillər, gülməhləri tutur. Amma deyir xoşbəxtlihdən yarısı sürünün qabağında gedir, yarısı arxada gedir. Biz də çatanda bular topa gəlmədilər. Bir-bir, iki-iki gəldilər ki, ə, buları indicə şil-küt eləmişih. Çatan kimi Qara oğlu Qardaşxan nətər ilişdirdisə, ağacın birini keçirdi əlinə. O keçirdi, bu keçirdi. O dəsdə yüyürüf bura çatınca buları yatızdırdılar. Bu səfər olar da gəldi. Şəkəralı kişi deyir ki, mən ağac ağaca dəyəndə od çıxdığını orda görmüşəm. Ağaclar da quru zoğaldan idi. Təmiz buları yatırıllar, qoyunu-malı alıllar. İsdiyillər ki, atları da alalar. Baxıllar ki, atların yanında bir adam duruf, əlində də silah. Deyir:

– Sən öl, gələn kimi sizi vurajam.

Onda deyillər ki, qoyunumuzu almışıx, çıxıf gedəh.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

* * *

İrannı tökülüf belədən gəlif afşarı qırmağa. Qiyamatdınnıynan da biz düşmanmışıx, adam öldürmüşüh. Onnar bizdən öldürüf, biz onnardan öldürmüşüh. Durur bir ağsakqal atı minir həmin öldürdüyü adamın qapısına gedir. Böyür başdan deyillər ki, filankəs filankəsin qapısına gəlif, o adamı gedək orda doğruyax. Ev yiyəsi deyir:

– Tərpənmə.

Deyir:

– Nədi?

Deyir ki, düşmaçılığımız düşmançılığ olsun, irannı bizi qırır, bizə köməyə gəlin. Ev yiyəsi deyir:

– Bir adam əlini tərpədə bilməz, quş gəlif kətəyinə* qısılıf. Afşar bizə qısılıf, biz onun yanında dik durmalıyıx. Hamı dursun bir nəfər kimi irannının qabağına, amma gənə də biz düşman olajeyih.

İrannını qaytarıflar. İrannıların başçısını elə vurullar ki, atın üsdünnən dik düşür. Kişi öldü qaldı. Burdan da mənim qaynənəmin qardaşını irannı öldürüf, aşağıdakı araxlı Mətləbin dədəsini irannı öldürüf. İndi afşar tökülüfdü ki, ölən irannının atını gərəh mənə verəsuz, mən vurmuşam. Deyəndə biri götürüf gülləni atıf, atı üş yerdən vuruf ki, burda adam ölüf, sən at davası eliyirsən.

* * *

Afşarlar bütün elatın canını yığmışdılar boğazına. Bunu Qiyamatdına gedəndə eşitmişdim. Axırda bütün elatdar qərara alır ki, yığışıf buların kökünü kəsirih. Da bəsdi də, nə qədər belə davam etməlidi. Bular afşarları sıxışdıra-sıxışdıra, döyə-döyə aparıllar Qiyamatdın kəndi var, ora. Oranın camaatı baxıf görür, sən öl, bu afşarın vəziyyəti ağırdı. Orda da bir hörmət yeri qoymamışdılar ey. Ölüm-zad olmuşdu, afşarnan qiyamatdınnı bir-birinə qannı idi. Deyillər bu kişilihdən döyül, bütün elat tökülüf bular üsdünə. Gətirif bulara silah verifler, kömək eliyiflər, afşarı heylə xilas eliyiflər. Bütün bunnar Nikalayın vaxdına oluf.

---

* kətəyinə - yuvasına



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

* * *

Qadınnar vardı, dava olanda ətəyinə at peyini yığıf bir kənarda dayanırdı. At peyini də yaraya yaxşı kömək eliyir. Başı yarılan olduxca peyinnən qoyuf, dəsmalnan bağlıyıf bir də buraxırdı döyüşə ki, o çıxmasın dəsdədən. Heylə qadınnar oluf.

* * *

Şuşadan aşağı Nabatxan bulağının yanında köçəri adamlarnan mübahisə düşdü. Mən də onda məəllim işdiyirdim. Bir də görüm ki, xalam qoluna ədyaldı, nədi, doluyuf, əlində də ağac gəlir. Rəhman təpindi:

– Ağız, ağız, çəkil qırağa.

Köməyə gəlimişdi ki, onnar çoxdu, siz də azsız.

* * *

Günnərin bir günü bir kişi səhər-səhər gördüm ki, atnan gəldi. Mənim bir qoja nənəm vardı, adı Tavat idi, Şuşa tərəfdə yaşıyırdı. Gəlinnər yuxa yayır. Kişi atını sürdü gəldi, dedi:

– Çay olarmı?

– Əşi, düş atı bağla.

Kişi düşdü, keşdi evə. Alaçıxdı. Mən də atı çəhdim apardım bağladım. Kişi rahat çayını işdi, çörəyini yedi. Durdu atı minif gedəndə arvad bunnan soruşdu ki, xeyirdimi? Dedi:

– Vallah, köşdən bir otuz heyvanımız ayrılıf, onu axtarıram.

Sürdü, çıxdı getdi. Müəyyən vaxtan sora Eldargil də gəldilər. Nənəm dedi:

– Bala, beyjə heyvan-zad gətirmisiz?

Dedi:

– Nədi, ay nənə?

Dedi:

– Bir kişi gəlmişdi, heyvan soraxlıyırdı. Oturdu çörəh yedi, çıxdı getdi, – deyəndə dedi:

– Hə.

Nə qədər oğurrux qoyun oluf, and olsun Allaha, o otuz heyvanı yedi yüz heyvanın içinnən dənə-dənə seçif ayırdı. Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bu heyvannardı o kişinin.

Gejə gəlmiş heyvanı günüz ayırdı. Onu da verdi mənnən Famılə, dedi ki, aparın o dərəni keçənnən sora ötürün o yana, orda da üş dəfə fışka çalın, qayıdın. Apardıx ötürdüh o yana, üş dəfə fışka çaldıx, çıxdıx gəldih.

Müəyyən vaxtan sora gördüh heyvan otduya-otduya gəlir. Çoban dedi ki, sizə üş dənə heyvan göndəriflər. O da heyvanın birini tutdu, ikisini qaytardı ki, bu bəsdi. Çoban yığdı sürüsünü, çıxdı getdi.

O kişi təcrübəli kişi idi. Gəldi çörəyini kəsdi, sorağını elədi, sözünü də dedi getdi. Bilirdi ki, əgər heyvanı burdadısa, çörəyin xatırına deyəjəhlər.

* * *

Bizim öz kəndçimiz – Əkbərov Nəriman, Daşdəmir oğlu Əlağa gəliflər Nabatxan bulağının üsdündə Rəhmana deyiflər bizim heyvanı gətirmisən. Rəhman deyif:

– Ə, and olsun Allaha, xəbərim yoxdu.

O dedi, bu dedi, bir az cəhləşdilər. Dedilər ki, əgər oğurramamısansa, onda Qurana and iş ki, oğurramamısan. Nə qədər elədilər, bu, and işmədi. Dedi:

– Nə Qurana and içirəm, nə də bir şey eliyirəm. Gedin o hökumət, o da siz.

Olar gedən kimi oğurradığı heyvanı gətirif kəsdilər, pay-püş elədilər. Bu, hökumətnən həll elədi da.

Amma onu da görmüşəm ki, kişi gəlif ki, mənim heyvanımı Əmir, sən gətirmisən. Əmir deyif:

– Əşi, nə danışırsan. O Allahın qızılı Quranı haqqı, nə danışırsan, mənim onnan xəbərim yoxdu.

Nəysə, bu dedi, o dedi. Kişi də təcrübəli adam idi dana. Bu çox and işdi. Dedi:

– Kişi, bilirsən nə var? Məni dağa-daşa salma, denən ki, Rəhman ölsün, bu heyvannan xəbərim yoxdu, çıxıf gedim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Oğlu oturuf böyründə. Qayıtdı dedi ki, ə, bax, bu Rəhbər ölsün, mənim onnan xəbərim varsa. Qardaşı oğlu Elman vardı. Dedi, bax, bu Elmanın canı üçün xəbərim yoxdu. Dedi:

– A kişi, məni dağa-daşa salma ey. Denən ki, Rəhman ölsün, bu heyvannan xəbərim yoxdu.

Əmir bir aşağı baxdı, bir yuxarı baxdı, dedi:

– Ə, Familin canı üçün, Qurbanın canı üçün, nə danışırsan. Ə, mən Allahın qızılı Quranına and içirəm.

Dedi:

– Mən qızılı Qurannan danışmıram ey. Səə deyirəm ki, denən Rəhman ölsün, xəbərim yoxdu, onnan da çıxıf gedəjəm.

And olsun Allaha, o, sən ölü demədi. Rəhman da bunun oğru yoldaşıdı ey. Axırı belə pis vəziyətə qalanda Rəhman qayıtdı ki, Xasay, get, qoy bir uşaxlara sorax eliyəh.

Təcrübəli kişilər vardı. Təcrübəli oğrular nainsaf olmuyuflar.

* * *

O vaxdı hürrüyyət dövründə irannılar çayı keçif nə qədər mal-qoyun var hamısını götürüf gedirmiş. Bir dəfə də irannılar hücum eliyif may-qoyunu aparıllar. Salaxın dədəsi də qoyunda imiş. Çatanda deyif ki, ə, bu nədi. Deyiflər:

– Başımıza belə bir iş gəlif.

Deyif:

– Burda bir kişi yoxdu, niyə verirdiz?

Deyiflər:

– İndi gözlə gələjəh. Olar gələndə sən çıxarsan qabaxlarına.

Olar da heş demə deyiflərmiş axşam qayıdanda burdan keçəjeyih. Gələndə görür iyirmi dənə atdı, hərəsi də pəzəvəng boyda. Deyir:

– Vay dədə vay, bular harda yeyif yatıf ə.

Qaçıf girif yükün altına. Bayaxdan deyirdi burda kişi yoxdu?

* * *

Afşarda da bir epizod olufdu. Gedif bir yerdən gamış oğurruyuflar. Milisyələr xəbər tutuf ki, bəs filankəs gamış oğurruyuf. Milisyələr tökülüf gələndə, – orda da arvatdar çox qoçax oluf, – arvat-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dar tez qara yaylığı salıflar gamışın üsdünə, başdıyıflar şahsey deməyə. Milisyə də gəlif ki, filankəs oğurruyuf gamışı. Gəlif görür oğurramax nədi? Burda ölü düşüf. Dinməzcə qayıdıf gediflər. Gedənnən sora gamışı kəsif pay-püş eliyillər.

* * *

Əli vardı, bu Əli də məşhur oğru imiş. Gejə-gündüz nədi bilmirmiş.

Nəysə, bu zərdablılar gəlif Temirə deyir ki, Temir, görəm balalı gamış çöldə qalar? Axı, adətən, balalı gamış çöldə qalmır. Başı əldə olmasa, harda olsa balasın üsdünə qayıtmalıdı. Deyif:

– Əli qoysa, niyə qalmır?

* * *

Elat yerinnən tərpənirdi, Kəlbəcərdən köçürdülər Laçına. Onda arvad-uşax hamısı çıxıf gedirdi, bir çobannar olur, bir it olur, bir də heyvan olur da. Köçüf bura düşüllər, səhər burdan gedəjəhlər. İndi bular gedillər oğurruğa. Görüllər sən öl, burda növbəynən qaroul çəkillər. Biri də elə oxuyur ki, dağlar, mənim səndə nəyim qaldı, mənim səndə nəyim qaldı. Bir saat gözdüyüllər bu yatmır, iki saat gözdüyüllər yatmır. Axırı deyir:

– Belə eliyin. Mən bu tərəfdən hay-küy salajam, bu kopoğlu yatmadı. – Bular da ajdı da. – Siz o tərəfdən girərsiz.

Bu burdan qışqırır ki, ə kopoğlu, nə dağlar, dağlar salmısan, nə yatmırsan, başımız-beynimiz getdi.

Qışqırıx, hay-küy, hamı yüyürür buna tərəf gəlir. Buna tərəf gələndə o tərəfdən girif qoyunu götürür gedillər.

* * *

Mənim yoldaşımın babası elə bir məşhur oğru oluf ki, mislibərabəri yoxdu. Əslən Laçınnı oluf, adına Alagöz Zeynal deyiflər. Qış vaxdı qar yağıf dizə qədər. İz qalırdı dana, hara getsən yiyəsi gələjəh dalınca. O vaxdı da çarıx olan dövr idi. Bu kişi gedif girif yatağa oğurruğa. Çarığı soyunuf tərsinə geyinif. Qoyunu götürüf gedif. Səhər duruflar qoyunu sayıflar, ikisi yoxdu. Oranı axdarıflar,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

buranı axdarıflar. Baxıflar ki, iki nəfər gəlif. İki iz var, gəlif girif pəyəyə, amma burdan çıxan yoxdu. Qoyunun da ikisi yoxdu. Pəyəni gəzir, hər yeri gəzillər tapa bilmillər.

* * *

Zeynal Soltan bəygilin nəslinnən oluf. Ona deyiflər ki, sən bizim həndəvərə, üzdən irağ, bizim itdərin əlinnən girə bilməzsən. Deyif ki, mərc gələh, beyjə sizin heyvanı aparım. Deyiflər gələk. Öz heyvanınnan bir dənə kəsif. O vaxdı cəvəran* var idi, bir az ət qoyuf onun içinə. Atını minif gedif. Atı bağlıyıf kənarda. Xəlvətcə girif buların yatağına. Çıxıf ağaca, ipi bağlıyıf cəvərana. İt uje ətin hənirini alır axı. Sallıyıf cəvəranı aşağı. Bilir ki, bularda ən güvəndihləri it hansıdı. İt ətin iyin alanda tullanır səbətin içinə ki, əti götürsün. İt ora girən kimi ipi burdan çəkir, it səbətin içində getdi ağacın başına. İpi bağlıyır ağacın budağına, düşür qoyunun iki dənəsini götürür gedir.

Səhər durullar, açıllar, heyvanı sayanda görüllər ikisi yoxdu.

– Ə, bu heyvanın ikisi əysih gəldi. Nətər bular heyvanı aparıflar itin xəbəri olmuyuf. İt hanı?

Baxıflar ki, it yoxdu. Ora it, bura it, it yoxdu. Alabaşak, Qarabaşak. Səsə it ağacın başınnan hürüf. Görüflər it odey, ağacın başında. Onda deyiflər, sən öl, bu Zeynalın işidi.

* * *

Daşatılan yer var Şuşanın aşağısında. Orda karxana var idi, fermamız düşüf ora. Onda mən uşağ idim. Cavannar da it güləşdirirdilər. Bir dənə qırmızı it bütün itdəri yıxdı. O cümlədən bizim fermada olan itdərnən də güləşdirdilər, bu it hamısını yıxdı. Rəhmətdih Əsilyar cavan idi onda. Dedi:

– Bu itə nə verim? Balalı bir inək verim, on qoyun verim, on beş qoyun verim.

Alınmadı.

– Yaxşı, at verim.

---

* cəvəran – qarğıdan, çubuqdan və ya həsirdən hörülmüş səbət



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kişi dedi:

– Ə, nə danışırsan, bir fermanı versən heş vermərəm.

Mükün olmadı, iti vermədi. Mən daa bilmədim sora nə oldu. Səhər gəldim, gördüm ki, kişi iti soraxlıyır.

– Ə bala, o iti verin məə, nə deyirsiz verim. Balalı inək verim, on qoyun verim, mənim o itimi qaytarın verin.

Bular da dedi:

– A kişi, it yoxdu.

Nəysə, köş çıxdı getdi. Köş gedənnən sora gördüm bu qırmızı iti bular çıxartdılar ortaya. Gördüm rəhmətdih Əsilyar o iti oğurruyuf gətirif. İndi bu cür iti gör nətər oğurruyuf. Bunnan sora soruşuflar bu iti nətər oğurradın. Deyif:

– Ə, ona nə var ki. İti oğurramağdan asan şey var? İt qapının ağzında yatar, alaçığın divində. Baxdım ayannan, gördüm it yatıfdı orda. Arxadan gəldim girdim alaçığa. Alaçığa girənnən sora qapıdan çıxdım zinciri bağladım boğazına. Zincirinnən tutdum, gəldim.

Deməli, əgər qıraxdan gəlsəydi it hürərdi. Amma evdən çıxmısansa, əsl itdərdən gedir söypət, o sənə hürməz. Gətirən kimi də aparıf fermanın üsdündə gizləmişdi.

## ŞAHSEVƏNLƏR HAQQINDA*

Nadir şahın vaxdında bəyin sözünə baxmıyanı, iki öküzü varmış, öküzdərin yanına salırmış, öküz onu öldürürmüş. Şahsevən tayfasınnan bir nəfər şahın sözünə baxmıyıf, aparıf öküzün yanına salıflar. Səhər gedif baxıflar ki, öküzün başını kəsif. Deyif:

– Bu tayfanı addadın Arazın o üzünə.

Elə o vaxtan da Şahsevənlər gəlif bu üzə. Bir hissəsi qalıf Beyləqanda, öküzün başını kəsənnər isə gəlif bura düşüfdü. Onnara Əlhəsənnər tirəsi deyillər.

---

* Şahsevənlər haqqında məlumatlar Sahsevən kəndinin Bələdiyyə sədri Əliyev Rəfail Əli oğlundan, sonuncu mətn isə Muradov Əşrəf Müseyib oğlundan qeydə alınıb.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

* * *

Bizdə Rəsul kişi vardı, rəhmətdih. On iki adam düşüf bunun üsdünə. Deyirdi ki, isdiyirsən bütöy bir ordu gəlsin üsdümə, bir bəlgəyi verin maa, bir ağacı, arxadan da gözdüyün. Qavaxdan on iki adam gəlsin, məni heş kəs vura bilməz. Baxırdın, çəlimsiz adamdı, qılçasının biri də invalitdi. Bəlgə bunnarda qalxan rolu oynuyurdu. Bəlgəyi doluyuf qoluna, on iki adam düşmüşdü üsdünə, ona heş-zad eliyə bilməmişlər.

Bəlgə sırıxlıdan olurdu. Bərk əysi dolasan, vuranda qolu qırardı. Amma sırıxlı yumuşax olur, amarzasiya verir, qolu qırmır. Bəlgəni də doluyanda mütləh yumuruğunu bərk tutmalısan. Boş tutdun, zərbə dəyən kimi burdan ata bilər. Bəlgəyi bağlıyıf yumruğu bərk tutursan, nə qədər vurullar sənə təsir etmir.

Bəlgəynən gözəl vuruşan adamlara ağaşcıl adam deyirdilər. Dağda da afşar qiyamatdınnı ilə, şahsevən muğannı ilə dalaşırdı. Əsasən də otlax sahələri üsdündə belə davalar oluf.

* * *

Şahlar kişi özü döyüşkən adam oluf. Əlinnən ağacı al, cıkqılı uşax gəlsin döysün. Amma əlinə ağacı ver, burdakı adamlar hamısı tökülsün onun üsdünə, yenə də ona bata bilməz. Ağaşcıl adamlar həm ağacı vurmağın qaydasını bilillər, həm də insanın harasınnan vurmax lazım olduğunu bilillər. Deyillər ki, ən çox topuğunnan vururdular. Hökm döyül bərk vurasan. Topuğuna bir balaca dəyən kimi onu sıradan çıxarır. Topuğunnan vuranda adam ölmür, çökür aşağı, durur orda. Ağaşcıllarda bir xüsusiyyət də var. İsdiyir düşmanı olsun. Ağacı topuğuna vurufsa, o çökərsə aşağı, daha ikinci dəfə onu vurmaz. Demək, o uduzdu. Bizdə Həsən kişidi, Rəsul kişidi, Şahlardı – ağaşcıl adam oluflar.

Ağacın qabağının almax qaydası var. Ağacı qaldıranda qabağını almalısan, yendirəndə yox. Ağacı qaldıranda yaxınnaşmalısan ki, əl tutduğu yerdən vursun səni. Ağacın uju tutarsa, məhv olarsan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çomağ ağacını ən çox əzgildən, gərməşovdan, zoğaldan düzəldirdilər. Gərməşovdan düzəldilən çomağ ən yaxşı çomağ hesab olunurdu. Gərməşov ağacı həm yumuşaxdı, həm də qırılan döyül.

* * *

Bizim camaat Xankəndinə, Əsgəranın yanına köç edirdi. Aranda taxıl əkirdilər. Dağa köçəndə də kişilər arada gəlirdi taxılı suluyurdular, yenidən dağa qayıdırdılar.

Burda ilk yaşayışı Şahsevənnər salıb. Ətraf qalın meşəlih oluf. Axşam heyvannar evə gələndə baxırdıx ki, inəyin yançaxlarında pələngin caynağının izləri var.

* * *

Bura atdı gələn atsız gedərdi. Eşidirmişdər ki, oraynan atdı gedir. Birinci adam göndərirdilər ki, gör kimdi, hara gedir. Görsələr ki, naməlum adamdı, mütləh onun atı gəlməli imiş bura. Muğannı camaatı deyif, bu Şahsevən camaatı qoçax adamlardı. Gedəh yaxınnaşax olara, bir şey olanda hayımıza gəlsinnər. Belə oluf gəlif yığışıflar bura.

* * *

Şahsevən camaatının əksəriyyətində "dəli" sözü işlədilir. Dəli Bakir, Dəli Zakir. Bizdə bir seyid var idi. Deyirdi ki, dəli axtarmax isdəsən hər kəntdən birini-ikisini taparsan, amma Şahsevənnən qavağına keçəni gətir.

* * *

Hökuməti tanımıyan adam oluflar. Bu kəndin geri düşməsinin səbəbi o oldu ki, Şahsevən o vaxdı hiyləgər, bic, qolçomax olufdu. Gətdilər yerdə qalan hamını, mənim atam da içində olmaxla, – mənim atamın heç yaşı düşmürdü, – müharibəyə basdılar. Müharibəyə çox adam göndəriflər ki, Şahsevən dağılsın. Tək bircə dənə kişi xeylağı qalmışdı, qalan hamını göndərdilər. Ağca arvad kalxoz sədri oldu. Qoçax arvad idi. Atın üsdündə qaçan öküzü tuturmuş.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

* * *

Mənim nənəm oluf Tavat arvad. Gəlif ki, ermənilər oğlunu döyüflər Təkirdə olanda. Bəlgəni arvad doluyuf əlinə, bir əlinə də ağacı alır, altı dənə ermənini şil-küt eliyir. Ermənilər gedif şikayət eliyiflər ki, bizim qolumuzu-qılçamızı qırıf. Rəisin müavini gəlif. Deyif:

– Kim döyüf?

Nənəmi aparıflar ki, bu döyüf. Tüpürüf ermənilərin üzdərinə ki, utanmırsız, bir arvad qolunuzu-qılçanızı qırıf, hələ bir şikayətə də gəlirsiz?

Bir dənə də heylə dava olufdu. Arvad görüf güjü çatmır, qət doğruyanı alır əlinə, kim yaxınnaşırsa ətini qoparırmış. Bular da bilmirlər bu nədi. Deyillər, payatonnan, arvada yaxın getməh olmur. Hardan yapışırsa, oranı qoparır.

* * *

At bizdə namus sayılır. Kiminsə atını gəlif oğurruyalar ən pis şey o sayılır. Kiminsə atını oğurruyarlarsa, onun namusuna sataşmış kimi sayılır. Bir kişi səhv yola gedərsə kəndin kişiləri ona bir söz deməzdilər, gedif onun atının quyruğunu kəsərmişdər.

* * *

Mənim öz atam hədinnən artıx atpərəst oluf. Atı öz balasınnan da çox sevifdi. Yeddi meşoğ buğda saxlamışdıx ki, qışa yeməyimizə. Demə atam xəlvət-xəlvət onu götürüf verirmiş ata. Bizim də xəbərimiz yox, elə bilirik ki, ehtiyatımız qalıf orda. Bayramqabağı idi. Bir gün anam dedi ki, bala, o taxılı apar üyüt, gətir. "Üyüt gətir", – deyəndə atam dedi ki, bəs taxıl yoxdu, taxılı vermişəm ata. Demək, atı okqədər çox isdiyirmiş ki, qoymurmuş onu aj qala.

* * *

Bir bəy oluf Nikalayın vaxdında, imkannı adam olufdu. Nikalayın adamları gəlir ki, bu bəydən nəysə tələb eləməyə. Onun oğlannarı o mament gəlif nəsə söz deyif, çölə çıxanda arxa-arxaya çıxıflar. Nikalayın adamlar deyif ki, olar niyə heylə getdilər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nikalayın adamları da oturmuşmuş, gah belə çönürmüşdər, gah belə çönürmüşdər. Deyif ki, onnar mənim oğlannarımdı, heş vaxdı arxasını gösdərməzdər. Amma sən səhərdən oturmusan, əlli dəfə belə çönmüsən, belə çönmüsən. Kişi kişinin üsdünə üzü üsdə gəlməlidi, arxasını çöndərməməlidi.

* * *

Oğrunu heş vaxt tutmax olmaz. Çünki oğru evi güdür, ev güdmür oğrunu. Rəhmətdih qağamnan olufdu. Birinə deyif ki, ayə, gəlif inəyini oğurruyajaxlar, inəyini bərk yerə bağla. Özü də onnan qavax mərcdəşmişmiş ki, sənin inəyini apararam, bilməzsən. Deyif:

– Hara bağlıyım?

Deyif:

– Apar filan yerə bağla. Özü də hamıya duy vur ki, inəyim oğurranıfdı.

Axı bu da bilir ki, inəyi ora bağlıyajaxdı. Rəhmətdih atam gedif onun inəyini oğurruyufdu.

Bir neçə günnən sora rəhmətdih atam ora gedəndə deyif ki, ə, inəyi oğurruyuflar ey. Deyif:

– Ay sağ ol, sən heylə de. Qoy elə bilsinnər ki, inəyin oğurranıfdı.

Deyir:

– Ə, gerçəhdən oğurranıf ey.

Deyir:

– Ə, elə deyirsən, uje mən də inanıram ey.

Bir müddət keçənnən sora deyif:

– Gətir mənim qoyunumu ver.

Deyif:

– Nə qoyun?

Deyif:

– Bəs mərcdəşməmişdih ki, sənin inəyini oğurruyajam.

* * *

Bu kəntdən bir nəfər oluf, gedif bir fermaya. Da kim olduğunu açıxlamıram. Gedif fermaya, nə qədər eliyirmiş, itdər imkan ver-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mirmiş. Dəhşət də itdəri var idi. Gedif bir dənə balaca küçüh tapıf gətirif, əysiynən bağlıyıf qarağana. Ən çox oğurrux çörəh yeyilən vaxdı olur. Gejə şıkqıltı olan kimi ev yiyəsi eşidir. İndi deyəssiz ki, oğurruğu da bilir ey bu.

Deməli, itə bir ağac vurur, it zingildiyir qaçır. Fermanın itdəri düşür bunun dalına. Ev yiyələri çıxıllar ki, oğru gəldi. Düşüllər itdərin dalına. Bular gedən kimi bu da bu üzdən gəlir, qoyunu qatır qabağına, arxeyin aparır. Bular da o üzdə oğrunu axtarır.

* * *

Genə həmin şəxs oluf. Bir evə oğurruğa gedifmiş. Ev yiyələri görüflər ki, oğru girdi ağıla. Qorxuflar içəri girməyə ki, vuruf eliyər. Qapının ağzında duruflar. Deyiflər qoyunu çıxarın çölə. Deməli, qoyunun altıynan iməhliyə-iməhliyə nətər ordan çıxıf getmişsə, onu tutammamışdar.

* * *

Mərdannan atam dağa gedillərmiş. Deyiflər burdan bir qoyun aparağın. Giriflər gijitkannığın içinə. Aj imişdər. Görüf ki, evdə qonağ var, çöldə də ojaxda ət bişirillər. Bular gijitkannıxda gözdüyüflər, gözdüyüflər, ət bişən mamet... Tez-tez də kişi deyirmiş arvadına ki, noldu ət. Arvad da deyif ki, əşi, hazırdı ey, qoy surfanı salım, bu saat gətirirəm. Bu mamet Mərdan gəlif qazanı götürər, aparar gijitkannığa. Baxıllar ki, çörəh yoxdu. Arvad çölə çıxar ki, qazan yoxdu. Deyər:

– A kişi, a kişi, qazan yoxdu, it apadı qazanı.

İt qazan apara bilər? Ora qazan, bura qazan. Kimin ağlına gələ bilər ki, oğru gəlif qazanı apara bilər.

Nəysə, kor-peşman qonaxlar pendirdən-zaddan yeyər, durar gedər. Bular gejə durar deyər çörəh yoxdu axı. Oğru bilir ki, fermada hara nəyi qoyullar. Bilir ki, çörəh taxdın altında olar. Girər içəri, çörəyi götürüf çıxanda arvad duyux düşər:

– Əşi, hara gedirsən?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu dinməz. Dinməzcə də çıxar. Gedər qəşəh çörəhlərini-zadını yeyəllər. Deyəllər daa biz burdan oğurrux eliyə bilmərih, biz buların çörəyini kəsmişih.

* * *

Sisyan rayonunda idik, dağda. Ordubatdan bir nəfər gəlif. Atamın bir yorqa atı olufdu. Ən bərk gedən yorqa atdardan olur. Göycə atdardan oluf. Deməli, ərik satan bir nəfər gəlif maşınnan. Bu ata gözü düşüfdü. Çay işdiyimiz yerdə gejə gəlif atı oğurradı. Atın da ayağında həmişə buxov olardı. Həmin axşamı o buxovu bağlamamışdıx. Atam atın dalına düşdü, bir az getdi, sora qayıtdı. Mən onda dedim ki, ata, bəs atı apardılar axı. Atam dedi ki, bala, heylə adamın dalına düşməzdər. O səni vura bilər. At öz ayağının düşmanıdı.

Səhər tezdən atam yoxa çıxdı. Üş gün gəlmədi. Atam həmişə atın dal ayağının tininin birini kəsərdi, rəddinə görə. Yerə basan hissəsi var ey, onu kəsərdi ki, at bir yerə gedəndə o rədnən onu axtarmax olsun. Üş gün o rədnən gedif. Atı aparan da bij adammış. Gedif fermaların başına atı fırrıyıf gedif ki, guya at fermaya gəlif. Gedif Ordubatda bir kəndə girif. Görüf ki, rədd uje burda yoxa çıxıf. Görüf ki, həmin ərik satan kişinin maşını qapıdadı. Gözdüyüf, axşam düşüf. Axşam düşəndə bunnar ayləlihcə tut ağacının divində çay içirmişdər. Atam gəlif toolaya. Görüf at ordadı. Həqqi olan söhbətdi ha bu. Həmən kişi gələn kimi ata bir ingilis yəhəri alıf, indiki vaxda o yəhərin qiyməti iki min maat olar. Bir yüyən alıf, döşdüh alıf qoyuf atın böyrünə ki, at mənimdi da uje. Gözdüyüf, gözdüyüf, çayın şirin yerində atam həmin yəhəri, yüyəni, döşdüyü vuruf ata, çıxardıf çölə. Çöldə atı minif, düz bular oturan stolun yanınnan gəlmişdi.

Atı oğurruyan kişi üş günnən sora gəldi. Belə baxdı, baxdı, gördü at burdadı da. O saat bilif ki, atı yiyəsi aparıf da. Dedi:

– Maşını da qoyuram burda, nə deyirsən də verirəm saa, bir qələtdi eləmişəm, amma atı ver aparım.

Onda atam demişdi ki, kişinin atı onun namusudu, sən mənim atımı apara bilməzsən. Həmin atı heylə gedif qaytarıf gətirmişdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

* * *

Mənim anamın atası kəbirli oluf. Biri deyif ki, mənim qoyunumu heş kəs apara bilməz. Mənim babam deyif ki, mən onu gəlif apararam, nə sən bilməzsən, nə itin. Deyif:

– Apara bilirsən, apar.

Mənim də atam çox bij adammış. Bilir ki, şər vaxdı it başını salır alaçıxdan içəri, yemək yeyir axı. Quyruğunu belə-belə eliyir, içəri baxır. Yavaşcadan gəlir girir ağıla, erkəyin birini alır boynuna, götürür gedir.

Savah ertə deyir ki, ə, heyvanını sanamısan? Deyif:

– Yox.

Deyif:

– Get sana gör.

Sanayıf, görüf erkəyin biri yoxdu. Deyif:

– Halal xoşundu, apar kəs ye. Sən onu nətər aparmısan ki, it bilmədi?

Deyir:

– İt başın salmışdı içəri, heş nədən xəvəri yox idi.

Bir o vaxdı oğru gəlir, bir də gejə saat ikidə-üşdə itdər yatanda oğru gəlir. Çörəh verilən vaxdı it mütləx alaçığın qabağını kəsdirir ki, orda çörəh yeyilir, maa nəsə atajaxlar. Ona görə çəkilmir ordan.

## QARADOLAQLAR HAQQINDA*

Qaradolax əvvəl Naxçıvannan İrəvan ətrafında olufdu. Qavırstannığımız da oluf orda. Onnan sora olar ordan aralanıfdı. Bilmirəm davaynanmı, nəynənmi bizim qaradolax ordan aralanıfdı. Nikalayın vaxdı bir yarsı gəlif Gəncəyə, bir yarsı da gəlif Qızılqaya deyirih, Xonaşenə. Çox yarısı gəlif Qızılqayada torpax götürüfdü taxıl əkməh üçün. Bu Gəncədəkilərə Molla Vəlilər deyirih biz, görüflər ki,

* Qaradolaqlar haqqında məlumatlar Qaradolaq kənd sakinləri Həsənov Möhsün Qara oğlu, İmanov Baba Surxay oğlu, Məmmədov İmdad Bədəl oğlu, Məmmədov Musa Məmməd oğlu və Məmmədov Murad Musa oğlundan qeydə alınıb.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xonaşenə gələnnər burda döylət bağlıyıf, dəvə sürüsü, qoyun sürüsü. Taxıl əkiflər Qızılqayada. Ovanı aparıf dağda qoyuf atı minif gəlif taxılı biçif dərzə vurullar, dərzi də tayalıyıllar. On dərz bir pencə edir. Olar da Gəncədən köçüf gəliflər bura, qarışıflar bizim camaata. Amma olar da kökdən qaradolax idi. Qojalar deyərdi bizim əsas yerimiz Naxçıvandakı Qaradağ oluf, mehraflı tirəsi ordan gəlif.

Otuz ikinci ildə döyləti yığdılar, varrıların hamısını sürgün elədilər. Qaçanı qaşdı, xəlvət yerrərdə gizdəndi. Bəyləri, xannarı qulağ deyirdilər, qulağa saldılar. Döyləti bir qat onda yığdılar. Qalan döyləti də otuz dokquzuncu ildə yığdılar. Kürqırağındakı ovalarda nə qədər mal, qoyun vardı hamısını siyahıya aldılar. Gətdilər qafan qurdular. Qoyunu iyirmi-iyirmi, otuz-otuz doldururdular ora, həm ətini çəkirdilər, bir də sayını yazırdılar. Heylə-heylə müəyyənləşdirdilər ki, filan adamın nə qədər qoyunu var.

Gördüm ki, Uzun Qaranın qoyununu yığıf gətiriflər. Bir qara qız da qoyunun dalına düşüf gəlif. Bizdə də İmran kişin vardı, o da qafan çəkirdi. Mən durmuşam qıraxda. Uşağam da. Bir də gördüm ki, qız gəlif duruf orda. Bir ağ quzu anasıynan qafana girəndə qız qışqırdı. Qışqıranda dedilər: “Ona nə oldu?” Dedi: “O quzu mənimdi, atam maa verif onu”. İmran kişi dedi: “Bala, götür quzuu get". Aldı belə qujağına, ağlıya-ağlıya getdi.

Kim nə qədər qoyun, mal verdisə, qoyunun birinə on iki maat, iri malın birinə isə qırx maatdan hesablayıf pulunu verdilər. Bizə bir inəh verdilər, bir at verdilər, on qoyun. Qalanını qatdılar qalxoza. Qalxoz onda hələ təzə təşkil olunmuşdu. Kim qalxoza girirdisə, deyirdilər bir düyə ver, ya bir cöngə ver. Sora camaatdan aldıxlarını qatdılar, qalxozun mal-qarasının sayı artdı.

* * *

Qaradolaxnan bizim Mehraflı kəndi bir camaatdı. Kürün qırağında mehraflı qışdağı oluf. Burda əvvəl Ağdamın Sütcannı kəndinnən gələnnər məskunlaşıb.

Mehraflıda Füzulinin Kürd Mahmuddusunnan on iki-on dörd ev var idi. Otuz yeddidə qalxoz quruldu. Hərədən bir dana aldılar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedilər qalxozdux qurulur, ustav qoyulur, hər evdən bir dana alıllar. Otuz dokquzun hansı ayı idisə bütöv kəndi yığdılar. Mehraflı iki böləndü. Yarsını gətdilər bura sütcannılara qoşdular, yarsını da köçürtdülər Kürt Mahmudduya. O da nədən irəli gəldi onu da deyəjəm.

Onda vəzifədə işdiyən cəfərlilər oluf da. Rəhmətdih Musa dayımda da bir az lovğalıx var idi. Qardaşı Murtuza onda prakror idi. Boyatdan bizə yer verillərmiş. Buna deyillər ki, qardaş, camaatı apar, haranı ürəyin isdiyir gedin orda yaşıyın. Musa da deyif: "Yox, qalxozdux nədi, biz arançılıx eliyəmmərih". Onda bizim camaat köçəri idi. Onnan sora məjburi böldülər. Yarsı gəldi bura sütcannıların yanına, bizi də onnan bir neçə ay sora yığdılar apardılar tökdülər Kürt Mahmudduya. Onda da burda ağac-uğac, heş-zad yox idi. Allaha and olsun, at-dəvə sirkanın arasınnan gedirdi, görükmürdü. Qızdırma, ajdıx, müharibə bir yannan. Elə pis günnər oldu ki.

Qaradolaxda oluf mehraplı, qulamlı, atakişibəyli, tağılar, döylər, can-can, imirli tirələri. Mehraflı kəndinin özündə isə tatarrı, yolçular, həzrəlilər, məmmədalılar tirəsi var.

Dəvəgözü, Sarıyer, Qızılboğaz, Qarabirçıx, düz Cermuxa qədər qaradolağın yaylax yerləri idi. Güzdək yeri Xonaşenin yuxarısında oluf. İndiki Xocavənd rayonunun ərazisinə düşür. Qışlağımız da Kürün qırağı oluf. Zərdabın Nəcəfqulubəyli kəndinnən tutmuş Kürün bəri yaxasınnan İmişlinin sərhədinə qədər ərazi qaradolağın qışlax yeri oluf.

* * *

Bir dəsdə atdı gəlif elatın içinnən keçəndə it bulara hürüf[*]. İt hürəndə bular itdəri öldürüflər. Deməк elatda da itin boğulmasına, öldürülməsinə dözümlülük yox idi. Bu namusa sataşmax kimi qəbul olunurmuş. Qaradolax oğlannarı bunu eşidif atdıların dalınca gediflər. O atdıları gülləliyif öldürüflər. Öldürənnən sora o tayfaynan buların arasında dava düşüf. Bular baxıf ki, burda çox itki verəjəhlər. Məjbur oluf birdəfəlik köçüflər Koratana[**].

---

[*] Bu hadisə Xoraşendə oluf.
[**] Küratan Kürün sahilində yerləşir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Koratana rəhmətdih Aşıx Ələsgər toya gəlifdi. “Çəkifdi məni asimana ditdili” şeirini də orda yazıf. Ordan da gedif Göyçəyə. Görür Göyçədə hələ qardı. Orda da bu şeirini yazır:

Başı Xaçın, ayağı Qarqar,
Göyçə qar əlinnən zara gəlifdi.
Muğan həsrət çəkir a yağa qar, qar.

* * *

Nəcəfqulubəylidəki qaradolaxlar bəy öhdəsində oluflar, bəy əlinin altında oluflar. Bəyin gamışını saxlıyırdılar. Deyirdilər bu gamışı sağarsan bir il, bir pud yağ verərsən. Bir pud da on altı kilo edirdi. Heylə orda kənd bağlıyıf oturuflar.

Bəyə qullux eliyənnər dağa getmirdi. Daxal tikif yannarı qamışdan, orda yaşıyırdılar. Qoyun isdiyə dözmürdü deyə, ancax mal-qara saxlıyırdılar, ən çox da gamış.

* * *

Qara dolağı qadınnar yer xanasında toxuyurdular. İndiki şarflara oxşuyurdu. Ayağın ujunnan başdıyıf dizə qədər doluyurdular. Qatması olurdu, qatmayan da bağlıyırdılar. Hansı tayfanın, kəndin böyrünnən keçirlərsə, deyirmişdər qaradolaxlılar gəldi.

* * *

Qavaxda tərəkəmə obaları yaxın-yaxın düşərmiş. İtdərin biri-biriynən boğuşması adət halını alıf. Bir dəfə də iki qaradolax obası bir-biriynən yanaşı düşmüşmüş. İtdərin davası düşür. Mənim ana babam Məşədi Baxış baxır görür ki, buların bir iti öz itlərinnən birini parçalıyır, o biri ovanın itinə tərəf keçir. Heylə itə tayınbasan deyillər. Kişi götürür beşatılanı – özü də quşu gözünnən atırmış, – atır. Deyir:

– Bu tayınbasanı vurmax lazımdı.

Yanı hansı it öz tayın basırsa, o, tərəkəmədə ən qəbahət haldı.

Qaradolaxda itlərə verilən adlar: Alabaş, Qarabaş, Boğar, Yetirən, Götürən, Alqayıt, Xallı, Bozzar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

* * *

Fermaya soxulan canavarı boğan itə sağlam bir dənə qoyunu kəsəllər, quyruğunu atallar ki, yesin. İti insan kimi gərəh adınnan çağırasan. Lap küçüh vaxdınnan ona ad qoyullar. O adını it elə tanıyır ki, kəndin başınnan onun adını çağıranda o it başı əldə deyilsə, yiyəsinin səsinə getməlidi.

* * *

Şallağın taziyanə, qırmac kimi növləri var. Şallaxçı olurdu, şallağı ona pulnan hördürürdülər. Qırmac uzun olur. Onnan öküzdəri vurmax üçün istifadə olunur. Uzunnuğu dörd-beş metr olurdu. Birinci metrəsi yoğun olur, ikinci metrəsi onnan bir az nazik olur, üçüncü də onnan bir az nazik olur. Qavaxda öküzü otaran adamlar üş-dörd metr öküzdən uzaxda otururdu. Şallax ona çatsın deyə uzun olurdu.

Əl şallağının sapı iyirmi beş-otuz santımetr olurdu. Sapı tubulğu ağacınnan hazırranırdı. Bəyzadə şallaxlarının sapı qartalın budunnan, ceyranın, əliyin qılçasınnan olurdu. Onun sap hissəsini yağda qızardırdılar. Onun iyirmi beş-otuz santımetr sapıdı, otuz santımetr də özüdü. Əl şallağının ujunda ürəkşəkilli şey var, əl tutmağa. Onu da toya gedəndə xrom sapoğun boğazına taxırdılar.

* * *

Çarıx çamış gönünnən hazırranırdı. Çarığı o qədər geyirdilər ki, o bərkiyirdi. Gejə çarığın içini torpaxnan doldururdular, qaldırıf səlbinin içinə qoyurdular ki, torpax onu yumuşaltsın. Sadıx kişi söypət eliyiridi, hətta elə oluf ki, günüz quzu otaranda bir də ayılıf ki, çakqal çarığın ujunu yeyif, amma bunun xəbəri olmuyuf.

Çarığın üç nevi var: quş burun, üş burun, xəlvir qırağı. Ən yaxşısı xəlvir qırağı çarıx hesab olunurdu. Sayılan, imkannı adamlar onnan geyərdi.

Çarıxdan başqa lafçın var idi. Burnu qatdanırdı üsdə, davanına da dəmirdən nal vururdular ki, yeyilməsin. Çarıxdan sora o mod idi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

* * *

Qədimdə bir tərəkəmə kişinin qızına elçi gəlifmiş. Qıznan oğlan da bir-birini isdiyirmiş. Amma gələcək yeznə qaynata tərəfinnən yoxlamalardan keçirilirdi. Bir yekə kötüyü dığırrıyırdılar bunun qabağına ki, kötüyü yarsın. Gələcəh kürəkən də pəhlivan kimi imiş. Bir dənə saz baltanı götürür, başdıyır odunu yarmağa. Bu da çəmini bilmir, ortadan vururmuş. Balta danqıldıyıf qayıdırmış geri. Qız baxıf görür ki, belə getsə oğlan yara bilmiyəjəh. Qız tez bir az yal qayırır. İtə yemi orda verillər. Özü də it oranı o qədər yalıyır ki, elə bil suvax çəhmisən. Qız yalı ora tökəndə itdər gəlir. İtdər mırıldaşanda deyir:

– Ay it, Allah sizi qırsın, qıraxdan-qıraxdan az-az yalıyın.

Amma üzünü də oğlana tutuf deyirmiş. Oğlan fikirrəşir ki, sən öl, bu qız maa çəm[*] örgədir. Baltanı götürüf qıraxdan-qıraxdan yarıf. Yarannan sora kişi də qızın həsini verif.

* * *

Gər qoyun gejənin bir vaxdı sürünün başını çəkif arxacdan aparar. Rəngi kül rəngində olur. Onu bədxur da adlandırıllar. Rəngi dəyişih-dəyişih olanda bilirdilər o gər qoyundu.

* * *

Əli-ayağı yekə adama padar deyillər. O cümlədən mənim atama da padar deyiflər. Bunun tarixi belədir ki, atam kişiləşif arvada komanda verif ki, aaz, maa su gətir, ayağımı yuyum. Anam ləyəni gətirif, rəhmətdih qağamın indi olmasın, ayağı nə boyda imişsə ayağı ləyənnən çıxıf çölə. Deyif: "Daşu töhmə Allah, bu hancar padar əl-ayax". Onnan qağamın adı qalıf Padar.

* * *

Qarabağ xanı İbrahim xannan, Fətəli xan Rusiya təbəliyini qəbul eləmişdi. Ona görə də İran şahları Qarabağ camaatına qarşı çox qəzəbli idilər. Bu ərəfədə bayaxları Xonaşen deyilən yerdə Qaradolağın on iki dənə dəvəsi keçif İran tərəfə. Elatda da itmiş hey-

---

[*] çəm – yol, yöntəm



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

vanın dalınca getməməh namussuzdux sayılır. Lap ölüm olsa da getməlisən. Deməli, bu kişinin ulu babası Ağməmməd, Hajı Bədəl, Sarı Eyvaz gedillər İrana, Sarı xanın iqamətgahına. Bular baxıllar ki, buları öldürəjəhlər. Deyillər dəvə-zad lazım döylü, biz çıxax gedəh.

Deyillər:

– Ə, nə dəvə lazım döylü. Sizə on iki dənə sual verəjəm. Sualları bildiniz, dəvələri aparassınız, bilmədiniz boynunuz fərmandadı. Deyə bilərsənmi namazı nə üsdə qıllalar?

Biri deyir ki, namazı ceynamaz üsdə qılallar, bir deyir xalça üsdə qılallar. Deyir:

– Yox, buların başını vurun.

O uşax da aralıdaymış. Deyirmiş ki, a kişi, məni də aparın, mən də suala cavab verim. Buna deyillər ki, bala, səni qoymuyajayıx yaxın, çünki sən uşaxsan. Buların başı vurulajax, heç olmasa buların ölüm xəbərini sən elatınıza apar. Əl çəkmir. Deyir:

– Bala, onda saa da sual veriləjəh, bilməsən sənin də boynun fərmandadı.

Razılaşır. Deyir ki, baxmayarax ki, bizə zorən rus təbəliyin qəbul elətdiriflər, amma biz də müsəlman əhliyik. Biz də namazı islam dini üzərində qılırıx, harda olmağımızdan asılı olmuyarax.

Deyir:

– Əla.

Deyir:

– Bala, indi sən maa deyə bilərsənmi heyvanın pisi, insanın pisi, meyvənin pisi, yolun pisi.

Deyir:

– Xan sağ olsun, biz Qaradolaxdan bura dəvələrin dalınca gələndə yolda ərih yüklü eşşəyin belində bir erməninin yoxuş yuxarı getdiyini gördük.

Deyir:

– Bala, əla. Deyə bilərsənmi atan yaxındadı, uzaxda?

Deyir:

– Atam uzaxda idi, indi yaxındadı.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Açması?

Deyir:

– Atam nə qədər ki, cavan idi, gorgah evinnən uzaxda idi. İndi yaşdaşıf, gorgah evinə yaxınnaşıf.

Deyif:

– Yaxşı.

Mən aşıx neylədilər,
Tey bağrımı teylədilər.
Peyğəmbəri yudular,
Qüsul suyun neylədilər?

Uşax deyir:

Mən aşıx yuvadılar,
Tüləh tərlan yuvadılar.
Peyğəmbəri yudular,
Onun qüsul suyunnan Məkkəni suvadılar.

Deyir ki, yaxşı bala, sənə axırıncı sualı da verəjəm. Deyə bilərsənmi dədən neçə dəfə çapıf, neçə dəfə çapılıf?

Deyif:

– Dədəm üş dəfə çapılıf, iki dəfə çapıf.

– Ay bala, mənası?

Deyir:

– Dədəm üş dənə qız köçürdüf. Onda dədəmi çapıflar. Dədəm iki oğul öyləndirif cehiz gətirif. Dədəm çapıf gətirif.

Qız ərə verən daha çox xarca düşür da. Xan əlini bunun kürəyinə vuruf deyif:

– Sənin adını mən verdim. Sənin adın qaldı Ağməmməd.

Qaradolaxdakı Ağməmməd tirəsinin kökü də ona gedif çıxır. Ağməmmədin oğlu oluf Şükür, Şükürün oğlu Məmməd, Məmmədin oğlu Musa, Musanın da oğlu Muratdı*.

---

* Bu mətnin bir variantı da Ağcabədi rayonunun Təzəkənd kəndindən qeydə alınıb. Bax: Folklor İnistitutunun arxivi, İnv. 1300, səh. 48-49



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

* * *

Əmim deyir ki, payızdı dağdan gəlmişih. O vaxdı elat tez gəlirmiş. Ona görə ki, yazda Kür qırağında çoxlu xəlbirək bitirdi, onu otarmaxdan ötrü tez gəlirdih dağdan. Elat da gəlif Kürün qırağında Kürətan deyilən yerə tökülmüşdü. Hajı Hümmətalı olufdu mənim babam. Aslan kişi də onun erkək çobanı idi. Gəlif ora düşmüşdülər. Qoyunu suluyuf suaxdan çıxarırmışdar. Görüfdü ki, yulğunnuğun içində bir dənə flaşlı, qeyri-adi geyimli adam durufdu. Deyir:

– Çoban, bir bura gələrsənmi?

Deyif:

– Gələrəm.

Gəlif. Deyif:

– Çoban, sana bir şey deyəjəm, amma bunu bir sən bil, bir də mən. Bu oba kimin obasıdı?

Deyif:

– Hajı Hümmətalının.

Deyir:

– Sizin obada yaxşı bir at olarmı?

Türkmənnən o vaxdı bərəynən keçif gedif spesialnı at gətirərdilər, addı-sannı kişilər ey, hər adam yox, neçə qızıla. Deyir:

– Hə, heylə bir at var, o hajınındı. Özü də miçəfkəndə saxlıyır, cüjü-müjü yeməsin deyə. Yəhəri, yüyəni, hər şeyi var.

Deyir:

– Get hajıya denən ki, orda bir adam duruf. Özü gəlməsin, nə də adam göndərməsin. O atı yəhərrəsin, yüyənnəsin, həmən o qırpazıynan, bəzəhli çuluynan, qamçısıynan versin sana, gətir mana.

Gəlif hajıya deyif. Hajı fikirrəşif ki, ə, bu elə-belə adam döyül. Bu nə cəsarətdi adamdı. Özü də uzanıf ağacın kölgəsində. Deyir:

– Gedin o atı yüyənniyin, şallağı da sancın yəhərin qaşına, aparın verin o kişiyə, götsün getsin.

Gətirif verifdi. Deyif:

– Atın üzəngisini bas.

Atın üzəngisini basıf, həmin adam minif atın üsdünə, şallağı alıf əlinə. Deyifdi ki, dəsmalın var? Deyif:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Var.

Deyif:

– Dəsmalı sər ora.

Bunun bir dənə bəzəhli xurcunu oluf. Ağzını açıf, yüz dənə Nikolayın onnux qızılınnan sayıf o dəsmalın üsdünə. Deyif:

– Bük.

Büküf. Deyif:

– Bunu apar ver hajıya. Ə, papağını da bir aşağı qoy görüm.

Bir otuz dənəsini də sayıfdı bunun papağına. Deyif:

– Bunu da sən apar ver dədənə.

Asdan kişi deyir ki, – olar da Əlipərəst adamlar idi, Əliyə çox biətləri var idi, – onda da, Mil düzündə tək bircə dənə o peyğəmbərin (Cərciz peyğəmbərin – top.) nişanası vardı. Bir dənə ağac yox idi, dümdüz idi. Bir dənə qamçı vuran kimi bu, çatajax da Araza, o atın qabağında nə dayanajax. Əl atdım, atın yüyəninnən tutdum, dedim:

– Səni and verirəm o qiblədə yatan Həzrət Abbasa, de görüm sən kimsən?

Orda deyif ki, ə, məni yaman yerə and verdin. Bəs, mən İran şahı Məhəmmədəli şaham. Mən məhvi yolnan addıyıf sıravi adam kimi getmişdim Peterburqa – Nikolayın qəbuluna.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# III
# TƏRƏKƏMƏ YEMƏKLƏRİ

## BAĞIR-BEYİN

Atam həftədə bir dəfə gətirif cavan heyvan kəsərdi. Deyərdi arvad, bunu bağır-beyin bişir. Anam onun başın ütürdü, təmiz yuyuf diri kəlləni qazana qoyuf qaynadırdı. O qədər qaynadırdı ki, da kəlləni belə götürəndə ət silkələnirdi, qalırdı quru sümüyü. Suyunu qoyurdu kənara. Bu səfər bu heyvanın qara ciyarını, bir də qara ciyarı barabarında quyruğunu salırdı qazana, az miqdarda duz atırdı. Öz xoduna həzin buğnan tamam qaynıyıf bişirdi. Elə bişirdi ki, nejə ki kartofu belə basanda əzilər, onu çömçəynən basırdı, əzilirdi. Oları çıxardırdı sudan, qoyurdu bir qava. Həvəngdəsdədə qara ciyarı, bir də quyruğu tamam əzirdi. Qalan kəlləni qırırdı, beynini də qatırdı onnara, qarışdırırdı. Sora halva təki yasdılıyırdı, kəsərdi onu. Rəhmətdih atam oturardı, bizi yığardı başına. Deyirdi yeyin. Uşağdıx, yeyə bilmirdih, yağlı şey idi. Yemiyəndə məjbur eliyirdi yeyin. Anam deyirdi: "Ay kişi, məjbur eləmə, uşaxdı, yeyə bilmirlər". Deyirdi: "Ay arvad, sən bilirsən bu nədi? Bu bütöy uşağın iliyinə, beyninə axır. Bunu yeyən uşax zehnli olar, yaddaşı güjdü olar. Qaraciyarı yeyən adamın ciyarı o qədər təravətdi olur ki, ömrünün axırınatan onun ciyarına zədə düşməz".

## DƏRİ BASDIRMASI

Atam beşa-altı aylıx quzunu kəsirdi. Deyir arvad, təndiri odda, dəri basdırması bişir. Quzunun dərisini bütöy soyurdu. Onun qollarını, boynunu məftilnən möhkəm buruf bağlıyardı. Sora o quzunu bənd-bənd doğruyuf duzunu, soğanını, hər ədavasını vuruf teşdə qarışdırardı, yığardı o dərinin içinə. İçinə də bir litrə qədər su tökərdi. Ağzını bağlıyıf deyərdi arvad, qoy təndirə. Anam onu qoyurdu təndirə, üsdünnən ojağı qalıyırdı. O ütüldühcə dərini qaşıyırdı. O vaxda qədər qaşıyırdı ki, dəri qıfqırmızı qızarır. Dəri ağaranda çıxardırdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gətirif çöldə onu tamam qaşıyırdı, qarasını töküf nəm əysiynən silirdi. Böyüh qazan gətirif dərini açıf içindəkini tökürdü ora. Dəridən çıxıf töküləndə iyi asfalda qədər gedirdi. Heylə ləzətdi yemək idi.

## BASDIRMA

Malı kəsirdilər, əti doğruyurdular, ona soğan, istiot, nar, hər cür ədva vurulurdu. Saxsı küpə yığırdılar, ağzını örtürdülər. Bir də açırdılar ki, ətin rəngi gömgöydü. Onu taxırdılar, düzürdülər kababa. Onun tamı da gözəl olurdu. Ona basdırma deyirdilər.

## SULUX

Qoyun doğanda sulux bişirilirdi. Təzə doğulan qoyunun ətənəsini götürüf üfürürdülər. Quzunu mayalandırannan sora qalan südü sağıf o tuluğun içinə tökürdülər. Yerdən bir az qazırdıx. Ojağı qalıyırdıx, közü sönür, onun qoru qalırdı. Tuluğu həmin qora basdırırdıx. Orda gözəl bişirdi. Pendir kimi olurdu, amma onun dadı başqa cür olurdu. Həmin yeməkdən böyük adamlara sovqat da göndərilirdi.

Təzə doğan qoyunun ikinci gün südünnən bişirilən yeməyə kətəməz, üçüncü gün bişirilənə bulama deyilirdi. Onu da bulamasan çürüyür.

## AXTARMA PENDİR

Motalların ən qənirsizi axtarma pendirdi. Dağdan gələndə ayranı öküzə yüklüyürdülər. O motal öküzün belində o qədər çalxalanırdı ki, pendir diş-diş dururdu, qalanı da yağ olurdu. Bekaraca da ayranı olurdu. Mal-qara qurudana yaxın südünün yağlılığı çox olur. Onnan hazırlanan pendir də ən yaxşı pendir sayılır.

Pendiri qavaxca cılğıya yığardılar – dərinin ət üzünə. Orda yetişərdi pendir. Sora motal düzəldərdilər, tük üzünə yığardılar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# IV
# TƏRƏKƏMƏ OYUNLARI

## PAPAX OYUNU

Papağ oyunu komanda şəklində oynanılır. Hər komandada beş nəfər olur. On beş dəyqə müddətində hansı komanda o birinin başınnan daha çox papax alsa, o qalib sayılır. Papağı götürən şəxs on beş dəyqə onu özündə saxlamalıdır. Papağı gizlətmək olmaz. Əgər yoldaşının papağını götürüflərsə, səndə artıx papax varsa, verməlisən yoldaşına. Papağ başında qalmalıdır. Oyunçuların hamısının başında papağ olur. Papağ ya əldə olmalıdır, ya da başda.

## DƏSMAL OYUNU

Ölçü qoyulur, misalçün, yüz metr. Hər komandadan bir oyunçu çapa-çapa gedib dəsmalı yerdən götürməlidir. Kim tez götürsə qalib o sayılır. Burda da hər komandada beş oyunçu iştirak edir. Əgər atlının ikisi də papağı götürə bilmirsə, onda ikinci bir də gedillər.

## KEÇİPAPAX OYUNU

Keçi dərisinin içi samannan doldurulur, atılır yerə. Keçi dərisinnən olur deyənə ona keçipapax deyillər. Diametri bir metr olan halqa olur, ağaşdan asılır. Orda da ancax əyilif topu yerdən götürməlisən və yoldaşına atmalısan. Topu dairənin içinə salmalısan. Topu əldə çox saxlamax olmaz. Maksimum altı saniyə saxlamağa icazə verilir. Altı saniyə müddətində yoldaşına ötürməlisən. Həmin müddətdən çox saxlıyarsansa, onda sən cərimə olunursan. Tək götürüf aparıf halqaya sala bilməzsən. Götürdün gərəh yoldaşına verəsən. Burda da hər komandada beş oyunçu olur. Halqa o vaxdı fındıx çubuğunnan düzəldilirdi, amma indi məftildən hazırrıyıllar. Böyürrərinnən əysi asırdılar ki, topun halqaya düşdüyü görünsün.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## ÇOBAN OYUNU

Çobannar oynuyuf, ona görə ona "çoban oyunu" deyillər. Dağlarda bir dənə yumuşax əysini top kimi yumurluyuf oynuyurmuşdar. Yenə də iki komanda olur. Hər komandada üç nəfər və yaxud beş nəfər olurdu. Yer ayırırmışdar, bu tərəfə sən aparassan, bu tərəfə mən. Çoban ağacıynan kim birinci aparsa, o qalib gəlirmiş. Orda da bir adət var. Əgər ağac əlinnən düşərsə, sən atdan düşüf götürə bilməzsən onu. Mütləx atın üsdündə götürməlisən. Atdan düşdünsə, oyunnan çıxmalısan. Daşın birini bura, birini ora qoyuf eni üş metr olan qapı düzəldirdilər.

Çöplügöl deyilən yerdə çobannarın bu oyunu oynadığını görmüşəm. Özü də möhkəm də yeyif-işmişdilər. Onda dedilər ki, gəlin bir çoban oyunu oynuyax. Yapıncını bükdülər, möhkəm sarıyıf top düzəltdilər. Çobannarın ucu yumuru toppuzu olan ağacları – çomaxları olurdu, topu da onnan vururdular.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# V
# NAĞILLAR

## 1. QUŞ DİLİ BİLƏN İSGƏNDƏR

Bir padşah olur. Bunun da bir ayləsi olur, bir də bir oğlu olur. Vaxt gəlir çatır, bunun uşağı körpə ikən ayləsi ölür. Oğlu qalır yetim, anasız. Vəzirə deyir ki, mən evlənmiyəjəm, bu uşağımı ögey ana əlinə vermiyəjəm.

Bir müddət evlənmir. Padşah idi da, qonağı-qarası çox olurdu. Vəzir-vəkil dedi ki, padşah sağ olsun, sən evlənməsən dolana bilməzsən. Qonağın-zadın çox olur sənin, evində aylən olmasa nətər olar? Nəysə, bunu evləndirillər. Arvad gələndə deyir ki, ay arvad, bax, mənim bircə oğlum var. Mən nə bilim sənnən mənim uşağım olajax, olmuyajax. Gözümün iraxmadarı* budur. Var-döylət də ki, çoxdur. Bunu öz balan kimi saxla, səni and verirəm Allaha. Bu da dedi:

– A kişi, maa neyniyəjəh, körpə uşaxdı, yanımda hərrənəjəh da.

Nəysə, arvad qaldı burda. Gədə də uşaxdı, amma Allah-tala ona verif, quşdarın dilini bilir. İki quş orda cırt-cırt eliyəndə bilirdi ki, nə deyir. Allah vermişdi dana.

Bir gün analığı dedi ki, gəl bu suyun altını qala, paltarı yuyum. Bu ojağı qalıyır, arvad da yuyurdu. Bir cüt göyərçin gəldi qondu ağaca. Biri-birinə dedi ki, a bajı, bu İsgəndər vaxt gələjəh yekələjəh, buranın padşahı olajax, analığı da onun əlinə su tökəjəh, əlini yuyajax. İsgəndər başa düşürdü da quşun dilini, güldü. Yanı mən padşah olam, analığım da əlimə su tökə. Gülləndə arvad elə bildi ki, buna güldü. Kösöyü götürdü, "tarap" bunun belinin ortasınnan vurdu. Birin-ikisin, analıxdı dana. Dedi:

– Qancığın küçüyü, sən mənim qarnımdan çıxmamısan a, maa gülessən? – Elə bildi ki, üsdü-yazı açılıf, İsgəndər buna gülür. – Bu gün maa gülən, savah başıma oyun açar. Qoy atan gəlsin, ya səni saxlasın, ya məni.

---

* iraxmadarı – gözünün ağı-qarası



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Padşah gəldi ki, ağlamaxdan gədənin gözü şişif.

– A bala, niyə ağlamısan?

Dedi:

– Vallah, anam məni döydü, ata.

– Ay arvad, bunu niyə döymüsən, körpə uşaxdı, tapşırmamışam saa?

Bu dedi ki, yox, sən deyən döylü. Ya oğlan oturajax burda, ya mən. Kef sənindi. Ya məni saxla, ya onu. Kişi qaldı belə. Bir gün, iki gün, gündə dava-dalaş.

Bir gün kişi dedi ki, əşi, bunu Allah vermişdi, anasını da verəydi dana. İndi anasını aldın, bu anasız uşağı nətər saxlıyım? Getdi bir sandıx qayırtdırdı, gətdi gədəni qoydu içinə, müşəmbələdi, apardı Tərtər çayı kimi bir çaya gözünü yumdu, tulladı. Çay sandığı götdü ağzı aşağı apardı, bu padşahın ölkəsinnən çıxartdı. Qabaxda su dəyirmannarı olurdu. Qol ayrılırdı ora. Bu düşdü bu qolun birinə, getdi ilişdi püştəyə. Amma o padşahın ölkəsinnən çıxıf ha. Püştəyə ilişəndə dəyirman yatdı. Tez dəyirmançı çıxdı gəldi ki, əyə, bir bəzəkli sandıx. Kişi bu sandığı götdü, dedi qızıldan-mızıldan olar içində. Apardı sandığın ağzını aşdı ki, bəh-bəh, bir gözəl oğlandı, yatıf xorhaxor. Bunu durğuzdu. Dəyirmançının da züryəti yox idi. Tez bunu götürdü tərpəndi evə. Getdi dedi ki, ay arvad, Allah bizə züryət vermədi, bir gözəl oğlanı su gətirif çıxarıfdı. Nə bilim hansı ölkədən gəlifdi, tanımıram, bilmirəm. Elə bunu Allah bizə görə gətirif. Bunu köynəyinnən keçir, oğulluğa götür. Arvad köynəyinnən tez keçirir. Gədə yaxşı oğlan imiş, həm də quş dilini bilirdi. İndi gedəni qoyullar məktəbə.

Buranın vəzirinin bir oğlu varıydı. Elə o da buna oxşuyurdu, adı da İsgəndər idi. Bu gedəynən birrəşdilər, elə bir gedirdilər, bir gəlirdilər. Nəysə, on il oxudular. Məktəbi qutaranda vəzirin oğlu dedi ki, İsgəndər. Dedi:

– Hə.

Dedi:

– İsgəndər, sən mana oxşuyursan, mən də sana. Bizi seçən yoxdu. – Kamranın uşaxları kimi. – Gəl sən də get atana de, mən də gedim atama deyim, qardaş olax.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu da dedi:

– Nə deyirəm.

Dedi:

– Bax, mən gedirəm ha. Mən atama deyəjəm mollanı-zadı gətsin, hazırratsın. Sən də atanı-ananı götür gəl bizə.

Gəldi bu da anasına dedi. Dedi:

– Ay bala, get atana de.

Gədə tərpəndi gəldi dəyirmançının yanına ki, ata, hal-qəziyyə belədi. Əl çəkmir mənnən vəzirin oğlu, deyir qardaş olax. Kişi sevindi. Dedi:

– Ayə, mən hara, vəzir hara. Ay oğul, bu nə hak-hesabdı.

Dedi:

– Vallah, özü əl çəkmir mənnən.

Kişi tor tulluyurdu, axşam olanda balıx gətirirdi evə. Dedi:

– Ay ata, gəl mənim baxdıma bir tor tulla bura, görək nə çıxır, əlimizdə apararıx.

Kişi getdi beş-altı dəfə tulladı çəkdi, tulladı çəkdi, bir qızıl balıx düşdü. Kişi qayıtdı yerə baxdı, göyə baxdı, dedi:

– Oğul, mən neçə ildi bura tor atıram, hər axşam evə balıx gətirirəm. Burda qızıl balıx yox idi, bu hardan gəldi düşdü? Bu sənin baxdınadı.

Götdülər gəldilər, bir badnos bəzədilər. Elə səvinillər, elə səvinillər bu gedənin belə olmağına. Götdülər getdilər. Getdilər ki, onnar da hazırdı, mollanı gətirif. Vəzir durdu dəyirmançıynan salamlaşdı, xoş-beş. Yeməh-işməhdən sora dedi ki, uşaxlar qardaş olmağ isdiyir, razısanmı? Dəyirmançı dedi:

– Mənim əlimin ikisi də göydə.

Vəzir hara, dəyirmançı hara. O Allahdandı. Molla siğə oxuyur, çıxır gedir. Amma bu gedənin quş dili bildiyini heş kəs bilmir. Gədə də çox savatdı oğlandı. Məəllim bir yerə gedəndə uşaxları buna tapşırıf gedirmiş. O dərs verirmiş uşaxlara. Heylə savadı varmış. Amma oranın padşahının da bir qızı varıdı, oğlu-zadı yox idi. Qızı da zirzəmidə saxladırdı. Təyin eləmişdi, aşbaz bişirif hazırrıyırdı çörəyini qızın, qulluxçu da aparıf qoyurdu qavağına, qız yeyirdi. Qavı götürüf gəlirdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu minvalnan bir müddət İsgəndər burda işdədi. Getdi gəldi, getdi gəldi. Günnərin birində qızın çörəyin-zadın verdi, nizamladı elədi, indi gəlir evlərinə. Elə nətər oldusa, yolda atasının vilayəti bunun yadına düşdü. Elə bil burnunun qavağında iylətdilər tüsdünü. Kor-peşman gəldi. Bir az da ağladı, gözündə yaş oldu. Gedəndə qardaşı çıxdı bunun qavağına, vəzirin oğlu. Dedi:

– A qardaş, səni vuruflar, nədi, niyə ağlıyırsan, niyə bekafsan?

Dedi:

– Heş-zad əşi.

– Qardaşın mənəm, maa dərdini deməsən kimə deyəssən?

Dedi ki, İsgəndər, mən sirrimi heş kəsə aşmamışam, sənnən qardaşam. Mən bura adamı döyüləm. Heş özüm də bilmirəm hardanam. Uşax vaxdınnan çıxmışam, heş yerimi-yurdumu bilmirəm. Amma elə yadıma düşüf ki, burnumun uju ütür. Dedi:

– Gedəh da. Beş-on adam götürəh gedəh, bizim əlimizdə döylü?

Dedi:

– Yox ey, heylə getmiyəh.

Dedi:

– Bə nətər gedəh?

Dedi:

– Mən axı padşahın qızının çörəyini aparıram, səni də tanımırlar. Gəl səni örgədim nətər aparmax lazımdı. Sən çörəyi apar ver, maa da bir yoldaş ver, adama bir at minəh gedəh. Soraxlıya-soraxlıya gedif tapajayıx.

Heylə də elədilər. Qardaşı İsgəndər getdi qızın çörəyini apardı, bu da getdi. Bir yoldaş aldı yanına, getdilər. Soruşa-soruşa, filan kənd haradı, filan şəhər haradı. Bunun da atası burda qojaldı, padşahlıxdan çıxartdılar. Padşahın binasının birini verdilər buna, arvadıynan orda olurdu. Bir üş-dörd keçisi var idi. Aparıf otarıf gətirir, onnan dolanırdı. Bura da bir padşah qoyuflar, amma tanıyan yoxdu ki, bu kadındı, yoxsa kişidi. Kadındı amma. Burda padşahlıx eliyir.

Bu İsgəndər oğlannan gəldi. Elçi daşı var idi, onun üsdündə oturullar. Kim nə isdiyirsə, gəlif həmin daşın üsdündə otururdu. Bular soraxlıya-soraxlıya gəldilər, həmin daşın üsdündə otdular. Dedilər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

köhnə padşahın binası buradı. Padşah adam göndərdi ki, get gör onnar kimdi, niyə gəlif. Qasid gəldi. Aralıdan gələndə İsgəndəri gördü, məhətdəl qaldı ki, kişi xeylağı ola, belə gözəl ola. Gəldi salamlaşdı.

– A qardaş, xeyirdimi? Padşah məni göndərif, nə isdiyirsiniz?

İsgəndər dedi:

– Bizə heş-zad lazım döyül. Burda gejəliyif qalmax isdiyirih, səhər gedəh.

Özü yalannan deyir e. Bu tərpəndi getdi padşaha dedi ki, padşah sağ olsun, orda bir oğlan görmüşəm, əşi, dünya gözəlidi. Padşah sağ olsun, icazə versən onu gətirərdim, burda qalardı. Dedi:

– Get götür gəl.

Gəldi bu, dedi ki, padşah deyir gəlsin qonağım olsun, sabah gedər da. İsgəndər yoldaşına dedi ki, sən mənim atımı da götür, qayıt get. Orda mənim qardaşıma denən ki, hal-qəziyyə belə-belə, qardaşın getdi ora. Bu atı götdü getdi. Bu da getdi, görüşdülər, elədilər, yaxşı çay-çörəh. Bu İsgəndər bilikli adam idi. Əlini elə bunun əlinə vuranda gördü kadın əlidi. Üsdünü vurmadı. Çörəhdən-zaddan yedilər, elədilər. Yatı vaxdı bir otağa o getdi, bir otağda da İsgəndər yatdı. İsgəndər gejə durdu çıxdı balkona. Abışkadan baxdı ki, əyə, bu kadındı. Yatıfdı, saşdar tökülüfdü, üsdü-başı açılıfdı. Ayə, belə şey olarmı, kadın nətər gəlif padşah oluf.

Savah açıldı. Gənə çörəh-zad yedilər. Dedi ki, padşah sağ olsun, indi maa icazə verirsənmi, mən gedəm. Dedi:

– Yox, saa hara icazə verirəm, səni buraxmaram.

Bir üş gün qaldılar burda. Söybət, ayan-bəri. Gördü ki, bu kadındı. Dedi ki, İsgəndər, gəlsənə sən elə burda qalasan. Mən kadınam.

Dedi:

– Bilirəm kadınsan. Sifdə sənnən salamlaşanda bildim ki, kadınsan, əlin əlimə dəyəndə.

– Gəl sən, – dedi, – mənim yerimə padşah ol, mən də sənin vəzirin olum. Məndə elm var, bilik var, tilsim var. Mən də elə-belə adam döyüləm, burda dolanax.

Dedi:

– Nə deyirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İsgəndər də elə bunu gəzirdi dana. Dədəsinin vilayətidi. Bular mollanı gətdilər, kəbini kəsdirdilər. İndi İsgəndər oldu şah, bu oldu vəzir. Dolanırdılar burda.

Bu burda dolansın, sənə xəbər verim o biri İsgəndərdən. O biri İsgəndər də qızın çörəyini apardı gətdi, apardı gətdi. Qız dedi ki, ay oğlan, çörəyi gətirif qoyuf gedirsən bekaf-bekaf. Heş məni dindirmirsən, danışdırmırsan. Dedi:

– Ay xanım, mən sənnən nə danışa bilərəm? Sən padşah qızısan. Nə deyilməlisə, sən deməlisən.

Dedi ki, gedəndə anamı gör. Anama denən ki, qızın səni çağırır yanına. Anasını çağırır yanına. Deyir ki, ana, maa çörəh gətirən oğlanı sevirəm. Atama de, məni versin buna. Arvad kişiyə dedi. Kişi də hesabladı aşağı-yuxarı. Qızı verdilər buna. Bu oldu padşahın yeznəsi, padşah da qojalıf da. Başdadılar burda dolanmağa.

Günnərin birində başqa padşahdan qasid gəldi ki, ya maa yeddi ilin baci-xəracın verəssən, ya sənnən dava eliyəjəm. Padşah da qoja idi dana. İsgəndəri göndərdi ki, get oğlum, gör nə deyir. Bunnar da belə deyəndə bu qaldı belə. Bu İsgəndərin elə savadı yox idi. Fikirrəşdi ki, mən elə gedim o qardaşımı göndərim gəlsin, o, açar da bunnarın cavabını. Bunnara dedi ki, gedin üş günnən sora gəlin, sizə bir söz deyəjəm.

Gəldi İsgəndərnən gedən oğlana dedi ki, ə, mənnən gedəh İsgəndərin yerini bilirsən dana, ora. Gəldilər burda düşdülər. Bu İsgəndər getdi çıxdı ki, qardaşı yatıfdı. Yavaşcadan qapının cəftəsini xançalnan aşdı. Açan kimi İsgəndər qalxdı. Çıxdı çölə, görüşdülər, elədilər.

– Ə, xeyirdimi?

Dedi:

– Hal-qəziyə belə-belə. Gəlmişəm ki, gedəh onun cavabını ver.

Dedi:

– Sənnən məni ayıra bilmillər. Sən gir mənim arvadımın yanında yat, mən gedim.

O İsgəndər gəldi girdi bunun arvadının yanına. Bunun yanında uzanan kimi xançalını çıxartdı qoydu ortalığa. Dedi:

– Aaz, ayna yat, ətin ətimə dəyməsin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu da bilikli idi, tilsimi vardı. Dedi:

– Ə, bu niyə belə elədi? İndicə mənim yanımdan çıxdı. İndi də gətirif araya xançal qoyuf.

Ha baxdı üzünə-gözünə, gördü elə həmən İsgəndərdi dana. Tanımadı. O da getdi orda onun arvadının yanına xançal qoydu. Savah gəldilər. Durdu getdi. Dedi ki, nədi, xeyirdimi? Dedi:

– Gəlmişdih də bir dəfə. Ya yeddi ilin baci-xəracın ver, ya da davamız davadı.

Bu, qüvvəli adam idi. Həm də bilikli adam idi. Bunun birinin qulağının divinə nətər vurdusa, orda öldü. Birinin də qulağını çəkdi qopartdı, verdi o birisinin əlinə, dedi:

– Apar ver padşaha.

Bunnarın hərəsi bir məna verir. Apardı verdi, dedi:

– Padşah sağ olsun, belə-belə.

Dedi:

– Əşi, tərgidin ayna, o xatadı, qandı.

Gəlmədilər. İndi bular gəldilər dəyişdilər yerrərini. Gejənin birində o gəldi, bu getdi. O da xançalı aradan götdü, bu da. Bu padşah olan dedi ki, İsgəndər, bu nə sirr idi, bunnan məni agah elə. Eləməsən, səni pis sifətə salajam.

Dedi:

– Aaz, get, sənin nə dərdinə qalıf, kef mənimdi.

Bir qədər belə cəhləşdilər. Bir gejə bu İsgəndəri gətdi bir tilsimi vardı köpəh qızının, vurdu İsgəndərə, ayı şəklinə saldı. İsgəndər baxdı ki, bədheybət bir heyvana oxşuyur, bir ayı şəklindədi. Bunu gülləynən də ata biləllər, öldürəllər də. Kolnan-kosnan çıxdı, düzdərə, ha burda, ha orda, gəldi çıxdı qardaşdığı İsgəndərin torpağına. O vaxdı gəldi ki, bunun qaynatası ölüf, padşah bunu qoyuflar. Bu, xeyrata adam göndərif ki, ulağnan meşədən odun gətsinnər. Bu da neçə günnən sora getdi çıxdı o meşəyə. Qızılca şəlin altında durmuşdu. Gördü odun yığannar var. Dedi:

– Ayə, qardaş, bura haradı, kimin torpağıdı?

Dedilər ki, İsgəndərin torpağıdı. İsgəndərin qaynatası ölüf, biz də odunu yığıf aparırıx onun xeyratına.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Adam kimi danışır, amma tilsimdədi. Dedi:

– Sizə bir söz desəm İsgəndərə deyərsinizmi?

Bular həm qorxur onnan, həm də görüllər adam kimi danışır da. Dedi:

– Gedin İsgəndərə deyin, and verirəm qardaşı İsgəndərin canına, məni aparsın qarnımı doyursun.

Bunnar tez odunu yüklədilər, gəldilər tökdülər. İsgəndəri çağırdılar, dedilər:

– İsgəndər, meşədə bir heyvan var, dedi gedin İsgəndərə deyin, onu and verirəm qardaşı İsgəndərin canına, mənim qarnımı aparsın doyursun, ajam.

İsgəndər bunnarnan gəldi, gördü bir ayıdı, tüklü ayı. Bu dilləndi, dedi:

– İsgəndər, gəldin?

Dedi:

– Hə, gəldim.

– Səni and verirəm qardaşın İsgəndərin canına, mən neçə gündü ajam, mənim qarnımı doyuzdur.

Dedi:

– Gəl.

İsgəndər özü də bunnan qorxur. Tüklü bir şeydi da, ayıdı. Bunu aldılar yanına, gəldi bunu ayrıca bir evə qoydu, gətdi o xeyratdan tökdü bunun qabağına. Yedi, aj idi. Dedi ki, İsgəndər, məni tanımadın, qardaş? Dedi:

– Sənin tanınmalı bir yerin qalıfmı, səni tanıyam?

Dedi:

– Mən sənin ujunnan belə olmuşam, bilirsənmi onu. Sənin ujunnan arvad məni tilsimə salıf.

Dedi:

– Hə.

Padşah tez əmr verdi, axuntdarı, mollaları yığdı gətirdi bura. Nə qədər elədilər, bunu aça bilmədilər. Bir qoja molla vardı. Dedi:

– İsgəndər, bunun tilsimini qırsa, keşiş qırajax. Keşişin get axundunu gətir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İsgəndər göndərdi adamı, getdi keşişi gətirdi. Bunun tilsimini qırdı. Baxdı ki, ə, nə vaxdan çöldə, üz-göz tük, paltar tökülüf. Gətdi bunun üzün-başın qırxdırdı, təmizdədi, hamamlatdı, paltarını geyindirdi. Dedi ki, qardaş, nətər oldu? Dedi:

– Vallah, yatmışdım, durdum gördüm beləyəm.

Dedi:

– Da getmə. Sən gəl burda padşah ol mənim yerimdə, mən də vəzir olum, dolanax dana.

Dedi:

– Yox, ay İsgəndər, mən onu qəbul eliyə bilərəmmi? Mən onu öldürməsəm, qəbul eliyə bilmərəm axı. Mən gedəjəm qardaş, onu öldürəjəm, arxeyin ol.

Qardaşdılar da. O dünyada siğə qardaş görüşür bircə, deyir. Elə-belə qardaş görüşmür. Siğə qardaşın qüvvəsi nətərdisə, deyir, o dünyada onu görüşdürüllər. Orda qalır, babatdaşır, qüvvətdənir.

Bir gün gəlir, gejə gəlir ki, arvad yatıf. Yatılısını doğruyur yığır meşoğa, aparır məhlədə basdırır. Deyir, get, sənnən qutardıx.

Savah açılır. Bir qoja kişi vardı. Bunu çağırtdırdı yanına. Dedi ki, bu padşahdan qavax olan padşah ölüfdü, yoxsa durur? – Atasını gəzir da indi bu. – O hardadı? Dedi ki, bala, qojaldığına görə onu padşahlıxdan çıxartdılar, o dey, padşahın alt evinin birini verifılər ona, arvadıynan ordadı. Üş-dört dənə davar-duvarı var, aparır otarır, gətirir, orda dolanır. Deyir:

– Get ona denən ki, padşah deyir savah günorta ona qonağam.

Vəzir gəldi dedi ki, əşi, padşah deyir ki, savah günorta ona qonağam. Kişi qaldı məhətdəl. Arvadı çağırdı:

– Ay arvad, padşah belə-belə deyir. Bizim nəyimiz var, biz padşaha nətər qonaxlıx verək. Padşah tək gəlmiyəjəh, başında nə qədər adam var.

Dedi:

– A kişi, deyir deyir da. Daa nağarax. Gətir çəpişin birini kəs. Qoja adamlarıx da, güjümüz ona çatır. Bişirəh, bax burda – o vaxdı elə yerdən oturardular, – qapıda bir çinar ağajı vardı, onun da köl-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gəsinə döşəyi, yorğanı tökəh, gəlsin orda yesin-işsin, çıxsın getsin. Daa nağarax.

Savah günorta bunnar nizamlandı, padşah vəziri, vəkili, bir iki ağsakqal götdü, getdi. Getdi ki, hə, hazırdı yer-yurd. Qavaxda aftafalar vardı. Gətirirdilər, əlii yaxalıyırdın, silirdin, otururdun yeməyə. Bu kişi aftafanı əlinə aldı, məhrabanı da tulladı qoluna, gəldi, başdadı bunnarın əlinə su tökməyə. Tökə-tökə gəldi, padşaha çatanda dedi ki, yox, yox, yox, ata oğulun əlinə su tökməz. Dedi:

– A bala, sənin vəzifən mənnən böyühdü, sən padşahsan. Nolsun mən ağsakqalam.

Dedi:

– Yox, yox, ata oğulun əlinə su tökməz.

Kişi arvadı çağırdı:

– Ay arvad, ay arvad, padşah məni qoymur, gəl, bunun əlinə su tök.

Arvad gəldi, aldı tökdü. Dedi:

– Hə, indi yuyaram.

Əlini yaxaladı. Otdular, yedilər, işdilər, qutaranda dedi ki, ata, məni tanımadın? Dedi:

– Yox, ay bala, sən kimsən?

Dedi:

– Ata, məni niyə tanımırsan. Bax, bu anamın sözüynən məni qoydun sandığa, apardın tulladın dənizə ha. Bax, mən sənin oğlunam da, həmən oğlanam, İsgəndərəm. Allah məni öldürmədi, gətdi çıxartdı gənə bura.

Kişi bir az ağladı. Başına-gözünə döydü. Nolajax. Dedi:

– Çəpiş-çüpüşü kimə verirsən ver, gəl çıx otur taxtda. Necə ki mən sağam sən əlini bir işə vurmuyassan.

Orda başdadı atasını saxlamağa. Göydən üç alma düşdü. Biri mənim, biri nağıl deyənin, biri də Musanın.

## 2. QURU KƏLLƏ

Bir kişi vardı, dənizin qırağında durmuşdu. Gördü ki, kimsə deyir ki, min qan eləmişəm, min birini də eliyəjəm. Kişi ayna-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bayna baxdı. Gördü heş kəs yoxdu da. Bu nədi belə? Ha dinşədi, dinşədi, gördü sudan gəlir. Suat* vardı. Yendi bu suatdan başdadı suya baxmağa. Gördü bir quru insan kəlləsidi, su gətirir. Su elə allahdan olan kimi bəri qırağa gəldi buna tərəf, bunu tutdu. Baxdı ki, bir insan kəlləsidi. Dedi: "Qupquru kəllədi, nə qan eliyəjəh innən belə. Sən öl, bunu aparajam un kimi eliyəjəm". Bir daş altdan, bir daş üsdən, bunu un kimi elədi, yığdı bir torbaya, dedi:

– Elə görüm, innən belə nə eliyəssən.

Köhnə dam idi, apardı bunu qoydu tirin üsdünə. Kişinin də bir avadı vardı, bir də bir qızı. Öyey idi qızı. Arvad analığ idi. Dolanmırdı da qıznan, döyürdü. Bir dəfə bu, qızı döydü. Arvad sənəyi götürdü getdi suya. Qız dedi ki, atam deyirdi ki, o zəhərdi, ona əlinizi vurmuyun. Dururam səni, onnan bir az atam ağzıma, öləm çıxam gedəm, bu nə yaşamaxdı. Durdu ordan torbanı götdü, bir az tökdü ovcuna, tulladı ağzına. Torbanı qoydu yerinə, gəldi otdu. Fikirrəşif ki, mən öləjəm da, atam deyirdi zəhərdi. Ha gözdədi, gözdədi, ölmədi. Ə, bu nətər hak-hesabdı. Axı, atam deyirdi, bu, zəhərdi, dəymiyin ona. Ölmədi, amma heş kəsə də bildirmədi.

Aradan dörd ay keşdi. Qızın qarnı yavaş-yavaş qalxdı. Uşax bunun qarnında tərpəndi. Onnan bu, uşağa qalmışmış. Analığı bir axşam kişiyə dedi ki, heş qızınnan xəbərin var? Dedi:

– Noluf aaz qızıma?

Dedi:

– Nolajax, bu gün-savah başını alçax eliyəjəh. Dey, qarnı burnunda.

Kişi qaldı belə məhətdəl. Baxdı ki, düz deyir, qızın qarnı yekədi. Arvad çölə gedəndə dedi:

– A bala, sənin anan da mənəm, atan da mənəm. De görüm, səni kim belə eliyif.

Dedi:

– Ata, maa vallah, heş kəsin əli dəymiyif. Axı, sən dedin ki, o zəhərdi, ona əlinizi vurmuyun. Anam məni döydü, mən də canım-

---

* suat – çaydan su götürmək üçün istifadə edilən eniş, torpaq hissə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nan bezmişdim. Onnan götdüm bir az atdım ki, öləm, ölmədim. Maa nə oldusa, onnan oldu.

Kişi o saat bildi ki, hə, əngəl onnandı. Arvada dedi ki, qız doğmamısan, sənin nə dərdə qalıf mənim qızım nədi. Namusu da mənimdi, özü də mənimdi. İşin yoxdu mənim qızımnan.

Vax gəldi çatdı, qızın bir oğlu oldu. Oğlan günü-günnən yekəlirdi. Kişi də tək idi, ayrı bir oğlu yox idi. Sevinirdi bu gedənin olduğuna. Kişinin bir ala inəyi vardı. Bunu aparırdı uşaxlarnan otarırdı, gətirirdi. Diribala idi da.

Bir gün oranın padşahı vəzirə deyir ki, vəzir, get bir balığ al gətir, günorta bişitdirəh yiyəh. Vəzir də getdi bazardan bir balığ aldı, qoydu badnosa, gətdi padşahın qabağına qoydu. Dedi:

– Gör xoşuna gəlirmi?

Padşah da dedi ki, vəzir, bu balıx dişidi, erkəhdi? Belə deyəndə balıx güldü, hopandı düşdü badnosun içinə.

– Ə vəzir, bu nə hak-hesabdı? Balıx da gülərmi?

Dedi:

– Padah sağ olsun, mən nə bilim? Mən də sənin yanında döyüləmmi?

Dedi:

– Yox, vəzirsən sən, bunu tapmalısan.

Dedi:

– Onda maa möhlət ver, gedim şəhəri, kəndi gəzim, görüm bilən adamı tapırammı.

Vaxt aldı gəldi. Bu kişinin bir maydan atı vardı. Maydan da boğaz idi. Savah ertə gəldi ki, gedə, soraxlıya. Bir çay axırdı belə, xeylağ iri çaydı. Uşaxlar da çayın bəri üzündə dirədöymə oynuyurdular. Vəzir atı çaya vurdu, at büdrədi. Ata bərk qamçı vurdu, çıxdı qırağa. Salam məlöykü. Bu gedə tez salam verdi buna. Dedi ki, əşi, o atı niyə heylə vurdun? Dedi:

– Bala, ata qamçı vurallar da.

Dedi:

– Qulunun gözünü tökdün. Atın qarnında qulunun gözünü tökdün.

– Ay bala, heylə şey olmaz. Ata şallax vurallar da.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedi:

– Atının doğmağına üş gün qalıf. Sən mənim sözümü eşit. Boğaz atdı, heş bunu minif getmə. Bir üş gün gözdə, doğsun. Gör balasının gözü kordu, yoxsa yox.

Qayıtdı. Üş gün gözdədi, at doğdu. Baxdı ki, qulunun gözü tökülüf. Dedi:

– Bu nə bildi bunun gözünün töküldüyün?

Durdu ayrı bir at mindi, genə getdi. Genə getdi orda görüşdü onuynan. Gördü bir ala inək var, boğazdı, yatıf. Dedi:

– Ə, bu inək kimindi?

Dedi:

– Bizimdi. Elə bircə inəyimiz var.

Dedi:

– Bunun qarnında balasının nişanın deyə bilərsən mana?

Dedi:

– Niyə demirəm, deyərəm.

– Hə, gəl de görüm.

– Quyruğu aladı, döşü aladı, dırnağı aladı.

Dedi:

– Atan var.

Dedi:

– Hə.

Dedi:

– Get atanı çağır bura.

Gəldi kişini çağırdı apardı. Tanıyırdılar da bir-birilərini. Vəzir dedi ki, kişi, bu inəyin qiymətini de, bunu burda kəsdirəjəm, ətini də verəjəm sana.

Dedi:

– Ay vəzir, görmürsən boğazdı bu inək.

Dedi:

– Elə onunçün kəsdirirəm dana. Sənin pulunu verəjəm.

Vəzirdi, nə deyəjəydi. İnəyi kəsdirdi, balasını qarnınnan çıxartdı ki, bu gedə nə nişan deyif hamısı var. Gədə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A vəzir, o inəyi də hayıf elətdirdin. Sən siftə gələnnən mən bilirəm sən nəyin dalınca gedirsən, hara gedirsən.

Dedi:

– Hara gedirəm, a bala?

Dedi:

– Mən bilirəm da. Məni apar padşahın yanına, balıxlar nəyə gülüfdü deyim.

Kişiyə dedi:

– Gedəni ver mana. And olsun Allaha, buna beyjə görmədiyi qulluğu eliyəjəm. Savah aparım, mənim canımı padşahdan qutarsın.

Dedi:

– Getsin.

Gedəni götdü gəldi, buna yaxşı qulluğ elədi. Savah götdü getdi. Getdi ki, padşah da oturuf, balıx da elə isdolun üsdündədi, heş kəs yemiyif. Salam-kalamdan sorasına dedi ki, padşah sağ olsun, bu vəziri niyə çox incidirsən?

Dedi:

– Vəzirdi da, o tapmalıdı. Sən bilirsən bu balığın nəyə güldüyünü?

Dedi:

– Hə bilirəm, niyə bilmirəm. Sən vəziri göndərmədin get balıx al gətir. O da getdi aldı gətdi. Soruşdun ki, balıx erkəhdi, dişidi. Balıxdı güldü, qalxdı düşdü ora. Heylədimi?

Dedi:

– Hə.

Dedi:

– Balıx bilirsən nəyə gülüf? Sənin bir qızın var, yanında qırx dənə kənizi var, hamısı oğlandı. Balığ ona güldü ki, qızının dərdini çəkmir, on dənə oğlan kəniz işdiyir ona, balığın erkəh-dişiliyinin dərdini çəkir.

Dedi ki, vəzir, bu nə danışır? Dedi:

– Padşah sağ olsun, yəqin bir həqiqət var da.

– Dur yığ onnarın hamısını bir evə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Vəzir yığdı onnarı evə. Qırx kəniz idi, bir də qız, qırx bir. Baxdı ki, hamısı oğlandı buna kənizdih eliyir. Gəldi dedi ki, padşah sağ olsun, düz deyir. Dedi:

– Ged onnarın hamısının boynunu vurdur.

Cəlladı çağırdı, içində də qız olmax şərtiynən bunun qırx birinin də boynunu vurdurdu. Dedi ki, şah sağ olsun, mən belə məslahat bilirəm ki, buna yanımızda iş verərih, bilikli adamdı da, hara lazım olar göndərərih. Maaşın-zadın verək, gəlsin getsin gündə bura. Heylə də eliyillər. Ordaca maaşın alır, aparır verir atasına.

## 3. ADAMYEYƏN QIZ

Bir padşah olur. Padşahın da üç oğlu vardı, qızı yoxudu. Padşahın qardaşı var idi, qardaşının da üş qızı vardı. Bir gün azeyləndi* ki, Allah-tala, bu üç oğlun birinin yerinə maa bir qız verəydin dana. Nolardı, qızım da olardı. Allahın da buna ajığı tutur ku, sana üç oğul vermişəm, hələ bir qız arzuluyursan. Cənabi Cəbrayılı göndərdi ki, apar bu almanı ver ona, denən yarı bölsün, ayləsiynən yesin, Allah-tala ona qız kəramət eliyəjəh. Gətdi verdi.

Nəysə, arvadın uşağı oldu, qızı oldu. Eşitdilər ki, padşahın qızı oluf, ənamdan o qədər gətdilər ki, bir ev tutmurdu. Padşahın da döyləti, varı vardı dana. Üç oğlu idi, üç də nökəri idi, mala baxırdılar. Bir gün padşah girdi malın içinə, gördü malın hamısı incəlibdi. Çağırdı nökərrəri:

– Ə, bu mal niyə bu avırdadı? Buna mən kişmiş verirəm, xurma verirəm. Heyvannar niyə qırılsın?

Deyir:

– Padşah sağ olsun, nə verirsən hamısın da veririh da, yemirih ha.

Dedi:

– Yox, bunu gejə oğurruyullar. Kişmiş, xurma yeməli şeydi da, bunu oğurruyullar, güdməh lazımdı. Güdün altınız da. Tapdınız canız qutardı, tapmadınız sizi öldürəjəm.

---

* azeyləndi – gileyləndi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu nökərrər bir-bir qaroul çəkdi. Yornuğ adamdı dana, yatdılar, bir şey tapa bilmədilər. Padşahın üç oğlu var idi. İkisi yatdı, tapa bilmədi. Balaca oğlu dedi: "Əə, mən də tapmasam, atam öldürəjəh dana". Gətdi barmağını bir balaca çərtdi, yerinə duz basdı. Girdi qapının dalına, gözdədi. Gözdə, gözdə, gözdə, gejənin bir aləmində gördü həmən qız beşihdən çıxıfdı, oluf adamyeyən. Yekə bir şeydi. Külfədən girdi, malın qabağında olan kişmişi, xurmanı yedi, külfədən də çıxdı getdi. Bu dedi: "Sən öl, elə bizim ölən vaxdımızdı. Atama deyəjəm ki, vallah, ata, sənin qızındı, məni öldürəjəh onsuz da. Demiyəjəm, gənə bizi öldürəjəh. Yaxşısı budu deyim, qoy elə məni öldürsün da, qardaşdarımı öldürməsin".

Padşah çağırdı:

– A bala, gəl görüm nə gördün?

Dedi:

– Ata, onsuz da bilirəm məni öldürəssən, amma deyəjəm da, deməsəm olmaz.

Deyir:

– Niyə öldürürəm a bala? De görüm.

Dedi ki, sənin bax, o qızındı. Yekəlir olur adamyeyən, gəlir malın qavağında nə var silir yeyir, gedir.

– Ə, sən nə danışırsan. Mən nəzirnən-niyaznan bir qız tapmışam, mənim qızım adamyeyən oluf? Cəllad!

Oğlanı çəkillər dar ağacına. Anası özünü yeyir-tökür dana, anadı. Vəzir deyir:

– Padşah sağ olsun, öldürmə onu. Anasının gözünün qavağında öldürmə. Çəkif o dey döşdərini yeyir orda. Sürgün elə, qoy sənin şəhərinnən çıxsın getsin, hara gedir getsin. Ya da ver cəllada, aparsın öldürsün, köynəyini qanına bulasın gətirsin versin saa.

Çağırdı cəlladı, dedi:

– Bunu apararsan, mənim torpağımdan çıxardarsan, başını kəsərsən, köynəyini soyunduruf qanına buluyuf gətirərsən.

Bunu götdülər getdilər, apardılar bunun torpağınnan çıxartdılar. Cəllatdar biri-birinə dedilər ki, ə, bunu öldürməhnən bizə padşah nə verəjəh. Elə gəl köynəyini soyundurax, burdan bir heyvan alax



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kəsəh, nə bilillər, qanı qandı dana. Köynəyini buluyax qanına, aparax. Yazıxdı, öldürmüyəh, buraxax çıxsın getsin. Helə də elədilər. Bir heyvan aldılar, kəsdilər, bişirdilər, yedilər. Onun da köynəyini qanına buladılar. Dedilər ki, qardaş, da özün görürsən. Qayıtma, gəlmə ha. Gəlsən bizi də öldürtdürəssən, səni də öldürtdürəjəhdi.

Dedi:

– Gəlmərəm.

Düşdü yolun ağına. Ha burda, ha orda, getdi. Tanınmaz yerdi da. Bir meşənin içiynən gedirdi. Gördü bir inilti gəlir. Elə inildiyir, elə inildiyir, nətəri. Baxdı ki, bir aslandı, ayağına qələm girifdi. Şişif ayağı olufdu nə boyda, inildiyir. Gedənin belində xançalı vardı. Sifdə qorxdu, sora dedi:

– Ə, elə bilərəm atam öldürüf məni. Sən öl, bunun ayağını deşəjəm.

Yıxılıf da, inildiyir, ayağ şişif. Yavaş-yavaş gedə xançalın ujunu tikanın üsdünə vuruf qaçıf gizdənir. Bu isdi-isdi durur, ağzını ora-bura atır. Kimi tapajax? İrini təmiz boşalannan sora deyir:

– Ay bəni-insan, bilirəm bəni-insansan. Çıx, dünyada nə isdəsən sənə verəjəm.

Sifdə qorxdu. Sora özündə təpər tapıf çıxdı.

– Sən idin mənim ayağımı deşən?

Dedi:

– Bəli, mən idim.

Aslanın iki balası vardı. Göndərmişdi ki, adam tapa gətirə. Bunnar ayannan çıxdı, isdədi bunu yeyələr. Adı Məhəmməd idi. Ajıxlandı balalarına. Məhəmməd gördü ki, ə, bunnar elə qəşəh aslan balalarıdı ki. Dedi ki, versən bu balalarını ver maa, verməsən də sağ ol, çıx get.

Dedi:

– Dünyada bala şirin olur, ayrı şey isdə da, dünya malı nə isdəsən verim.

Dedi:

– Yox, neynirəm dünya malını.

And işmişdi ki, verəjəm da. Balalarının zinciri vardı, belə boynuna doladı, dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Sizin ixdiyarınızı verdim, gedin.

Məhəmməd buları götdü, düşdü yola. Ha burda, ha orda, gəldi şəhərin qırağında bir dam vardı. Gördü burdan tüsdü çıxır. Qərib adam idi da, tanımırdı. Getdi onun qapısına:

– Ay ev yiyəsi, ay ev yiyəsi.

Bir qarı çıxdı:

– Ay oğul, kimsən, yaxın gəl görüm.

Bu da getdi. Dedi:

– Ay nənə, qərib adamam, qalmağa yer gəzirəm.

Dedi:

– Gəl bəri.

Apardı evə, dedi:

– Bala, mənim də heş kəsim yoxdu, təkcə özüməm. Amma qazancımız-zadımız yoxdu da.

Gətdi bunu evə. Bir az arpa çörəyi vardı, verdi buna, yedi, qaldı burda. Dedi:

– Oğul, elə mən sənin ananam, sən də mənim oğlum. Sən azdan-çoxdan qazan gətir, mən bişirim, yeyəh, burda dolanax. Deyirsən heş kəsim yoxdu.

Heylə də elədilər. Bir müddət burda qaldı, bunun yanında. Gedirdi aslan balalarınnan ov ovluyurdu, turac-murac tutuf gətirirdi, arvad bişirif yeyirdi. Bir gün də gedəndə elə bunun atasının vilayəti yadına düşdü. Bədbaxt oğlu, bədbaxt. Bu gedənnən sora da qız yekəldi, dişdəri ağzında oldu belə. Da bir inni-cinni qoymamışdı şəhərdə, hamısını yemişdi. Təkcə yaşıyırdı.

Nəysə, yadına düşdü atasının vilayəti, bekaf-bekaf qayıtdı evə. Qarı yazıx bunun səbəbinə dolanırdı dana.

– Ay oğul, noluf, yoxsa azarramısan, soyux dəyif?

Dedi:

– Yox ana, atamın vilayəti yadıma düşüf, ora getməh isdiyirəm.

– A bala, hardansan?

Deyir:

– Filan yerdən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay bala, orda, deyir, bir əjdaha əmələ gəlif. Orda bir insan, heyvan, heş bir şey yoxdu.

Dedi:

– Ana, olmasa da, getməliyəm, elə yadıma düşüf.

Gətdi bu aslan balalarını damda belə bağladı. Bir dosdu vardı. Getdi o dosdunnan da bir at aldı. İki qoyun aldı kəsdi. Birini verdi qarıya, dedi:

– Qarı nənə, qoy başının altına, ye.

Birini də yığdı həmən qoyun dərisinə, bir qoyun dərisinə də kül yığdı, aşırdı ata, özü də mindi. Dedi:

– Qarı nənə, gördün ki, bu aslan balaları bir-biriynən dalaşıllar, ağızdarını gəmirir, aş burax, qorxma.

Atını mindi, düşdü yola. Gedəndə yolda bir çinar ağacı vardı, onnan bir çubux kəsdi atı vurmax üçün. Gethaget, gethaget, bir çeyillik* yer vardı, atın da qılçası batırdı. Çubuğun ujunu artdadı, dik atın üsdünnən nətər saşdısa ora, çubux girdi palçığa. Allah-tala, deyir, adamın diləyini tez eşidir. Dedi ki, xudavənd-aləm, mən gələncən bu çinar elə bir çinar olsun ki, yoğunnuğuna örkən dolanmasın, başı da ərşdə olsun. Deyir, gedir.

Görür şəhərdi, yerində durur. Görür ki, ə, sən öl, heş bir şey yoxdu. Nə mal var, nə quş var, nə it var, nə pişik var. Dedi: “Sən öl, anam deyən düzdü. Sözünə baxmadım anamın”.

Adamyeyən qız da damda yaşıyırmış. Bir əlli metr qalmış qız tapbıltısını eşitdi atın. Çıxdı damın üsdünə. Gördü ki, gəlir atın belində. Tez çatdırdı:

– Bajın ölsün, qardaş. Demirsən bir bajı qoyuf getmişəm burda, bir yiyəsiz yerdə. Nə yaxşı məni yadına salmısan?

Dedi:

– Bildim ki, təksən, gəldim da, bajı.

Əlajı nədi, nə desin. Gedillər, damın qapısına çatanda deyir ki, düş atdan, aparım hörüklüyüm gəlim. Aj idi, aparır atın qılçının birini yeyir, gəlir.

---

* çeyillik – bataqlıq



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A bajın ölsün, qardaş. Atın üş qılçalı idi?

Dedi:

– A bajı, at üç qılçalı olar dana, neçə qılçası olajax.

Əlajı yoxdu, qorxusunnan, nağarsın. Nəysə, bekara dayanır. Bir də:

– Gedim atın hörüyünü dəyişim gəlim.

Gedir bu qılçın, o qılçın, cəmdəyin yeyif qutarır, gəlir.

– Bajın ölsün, qardaş, elə piyadamı gəlmisən?

Dedi:

– A bajı, mənim atım vardı minim gəlim?

İndi deyir ki, bajın ölsün, a qardaş, çoxdandı səni görmürəm. Bir bəri uzan, baxım görüm sənin canında bitdən-sirkədən nə var.

Dedi:

– Ay bajı, düzü-dünyanı yemisən, atamı-anamı yemisən, da heş-zad qalmıyıf. Bir atı indicə bu saat yedin. Mən də sənin loxmanam dana. Getginən bir az su gətir. Bir əl-üzümüzü yuyax, danışax bir xor, onnan sora gənə ye da.

Tez durur bu, bir güyümü vardı, güyümü götürüf gedəndə – gedə də bij idi ey, – dedi:

– Ay bajı, bunu neynirsən?

Deyir:

– Su gətirim da.

– A bajı, onun suyunu işməh olmaz.

– Bə nədə gətirim?

– Ələhdə-xəlbirdə.

Dəli şeydi dana. Ələyi-xəlbiri götürür, xeylağ da su aralıdı, gedir. Bu ayna gedən kimi bu durur əti aşağıdan asır, külü də yuxarıdan asır, çıxır qaçır. Qız da ələyi basır, xəlbiri çıxardır, ələyi basır, xəlbiri çıxardır. Xeylağ yubanır orda. Ələhdə-xəlbirdə su gələr? Ajığı tutur ki, ayıb olsa da, ağzına s…m, bu saat səni parçalıyajam. Özünü çatdırır ki, bunu yesin. Gəlir ki, evdə yoxdu. Ora-bura, yuxarı baxır ki, cəmdəh ordan asılıdı. Bir dəfə ağzını atır, qoyunun cəmdəyi gəlir bunu ağzına. Deyir:

– Oh, qardaşımın yağlı döşü ürəyimə dəydi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Baxır ki, biri də var. Bir də ağzını atanda kül təmiz tökülür bunun gözünü-başını doldurur. Başdıyır gözünü ovmağa. Gedə qaçır, dala baxa-baxa qaçır. Bu da gözünü birtəəri avır, çıxır damın belinə. Boynu da dönmürdü, gərəh gedə mətəyə çateydi, sora qayıdıf baxeydi. Yolda belə dönüf baxa bilməzdi. Görür kü, qardaşı qaçır. İri paçalı şeydi. Addımının birini burdan, birini ordan qoyur. Gedə görür ki, ə səni, budey çatır, məni parçalıyajax. Allah-tala adamın diləyini, deyir, tez eşidirmiş o vaxdı. Deyir:

– Allah-tala, qannım gəldi, yer ayrılsın girim yerə.

Deyilənə görə, yer belə ayrılır, gedə özünü atır ora, başının tükünnən bir az qalır çöldə. Qız gəlir qırtmıxlıyır başının tükün, deyir:

– Bu saat gedif atamın külüngünü gətirif səni qazıf çıxardıf yeyəjəm.

Tərpənir külüngü gətirməyə. Boynu dönmürdü, geri baxa bilmirdi. Gərəh gedəydi mətəyə. Bu gedən kimi, hökmü-ilahi idi, gədə çıxdı qaşdı. Bu da getdi damın belinə çıxdı ki, qardaşı qaçır.

– Ə, mənim əlimnən hara qaçessən?

Bir də qayıdır. Bir də çatdıranda gedə bir qayalığa çıxır. Genə görür kü, bu dey gəldi çatdı. Deyir:

– Ay qaya, Allahın hökmüynən ayrıl, girim içinə. Qannım gəldi, məni yeyəjəh.

Qaya ayrılır, girir içinə. Qız gənə gəlir qırtmıxlıyır. Deyir ki, a səni belə-belə eliyim, bayaxdan torpax idi, çətin idi. İndi qayadı, külüngnən vuruf dağıdıf səni yeyəjəm. Gənə gedir. Oğlan çıxıf gənə qaçır. Gədə həmin çinara çatanda görür ki, çinarın ucu-bucağı yoxdu ey. Başı qəlbi, divi də yoxdu. Gedə özünü çatdırır bu çinara, qız da özünü çatdırır. Deyir:

– Ay çinar, Allahın hökmüynən başını əy aşağa, qannım gəldi, məni yeyəjəh.

Çinar başını əyir aşağı, gedə minir, qaldırır. Qız gəlir deyir ki, qardaş, düş aşağı. Gədə bu çinarın uzunnuğunu, yoğunnuğunu görür, deyir: “Ə, bu nağarajax”. Deyir:

– Hara düşüm, aaz, düşüm məni yeyəsən. Ölsən də düşmərəm.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə, bu çinar hayıfdı, bunu maa kəsdirmə, düş aşağı, səni yeyim gedim. Qorxuram, zənən xeylağıyam.

Deyir:

– Düzü dünyanı sən yemisən, hamı sənnən qorxur, sən kimnən qorxursan?

Nə qədər elədi, düşmədi. Bunun ağzı sən demə almazmış. Çinara bir bayannan ağzın atır, bir ayannan ağzın atır. Gedə görür ə, çinar altında sirkələnir. Deyir ki, ayə, sən öl, bunu kəsəjəh. Amma gedə yaxşı balaban çalan idi. Dedi ki, a bajı, a bajı, bir dayan. Dedi:

– Nədi, qutar ey, tələsiyirəm.

Dedi ki, bajı, mən yaman balaban çalanam. Səni də yaman oynağan deyillər, – heç oynamağını-zadını görmüyüf ey, – mən balaban çalım, sən də oyna, mən də yavaş-yavaş düşüm aşağı.

– Hə, tez ol düş.

Dəlidi da. Dingildiyir gədə. Aslan balasının da birinin adı Dartan idi, birinin adı Yırtan idi. Balabanda onu çağırır gedə. Qız da elə bilir hava çalır. Qarı görür ki, sən öl, aslan balaları bir-birinin ağzını qanatdı. Açır buraxır. Balabanın səsinə aslan balaları gəlir. Qız deyir ki, düş ey, tez ol düş, toz gəlir, qorxuram.

– Aaz, – deyir, – mən də bir loxmanam da, qoy gəlsin onu da ye.

Aslan balaları gəlif buna çata-çatda balabanı ağzınnan çıxardır.

– Dartan, elə dartıf dağıdarsan, bir damcı qan yerə düşməsin. Yırtan, elə yırtıf dağıdarsan, bir damcı qan yerə düşməsin.

Küçühlər bunu parçalıyır, dartıf dağıdıf yeyillər. Bunun birinin dodağınnan bir gilə qan düşür çinarın yarpağının üsdünə. Oğlan gördü ki, küçühlər yedi. Düşdü bu küçühlərin ağzını-burnunu sildi. İndi bu küçühləri çağıranda yolnan bir kişi yeddi dəvə ləli cəvahir aparırdı. Bu görür ki, kimsə balabanda Dartan hay, Yırtan hay çağırır.

Küçühləri alır yanına, gedəndə görür ki, deyir:

– Bajın ölsün qardaş, məni qoyuf getmə. Dar yerdə gərəyin olaram.

– Əyə, bunu küçühlər gözümün qabağında yedi. Bu nətər oldu?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qayıdır oranı gəzir ki, yarpağın üsdünə bir damcı qan düşüf. Bükür dəsmalına, qoyur yan civinə, gedir, da səs-küy olmur. Gedir bu dəvəçiyə çatanda dəvəçi görür ki, gəlir. Qəşəh də küçühlərdi. Deyir:

– Qardaş, sənnən bir şərt kəsəjəm. Mən sənin küçühlərinin adını tapsam, sən oları mənə verəssən, – balabanda bilif da Dartannan Yırtan çağırır, – sən mənim dəvəmin yükünü tapsan, dəvəni yük qarışıx saa vermiyən kişi döylü. Verif saa çıxıf gedəjəm.

Dedi:

– Yaxşı. De görüm mənim bu küçühlərimin adı nədi?

Balabanda örgənmişdi da. Dedi:

– Birinin adı Dartandı, birinin adı Yırtan.

Dedi:

– Hə, düz tapdın.

Dedi:

– Bə mənim yüküm?

Bu dedi yükün taxıldı, parçadı, nə bilim nədi, nədi. Dedi:

– And olsun Allaha, yox, tapa bilmədin.

Küçühləri də bağladı arxadakı dəvənin dalına. Bir az aralaşmışdı, civinnən dilləndi.

– Bajın ölsün qardaş, niyə bekaflıyırsan. Çağır denən dəvənin yükünü tapmışam. Ləli-cəvahirdi yükü.

Çağırdı:

– A qardaş, dayan, dayan. Tapmışam yükünü.

– Nədi?

– Ləli-cəvahir.

Dedi:

– Hə, tapdın.

Dəvəni sarvanıynan verdi buna. Götdü getdi anasının evinə. Dedi ki, ana, sən düz deyirmişsən. Öldürdüm getdi, dur gedəh. Qarının da nəyi vardı? Qarını da qoydu dəvənin birinin belinə, götürdü gəldi dədəsinin vilayətinə. Dedilər səni, filankəsin yeddi ildi gedən oğlu gəlif çıxıf atasının yurdunda padşahdı. Hamısı qayıdır gəlir. Şəhər olur gənə həmən şəhər, başdıyır burda yaşamağa.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 4. ŞAH ABBASNAN MƏLEYKƏ

Şah Abbas bir dəfə gedir ki, bir cinnən bir məleykə mübahisə edillər. Məleykə düzün tərəfidi, cin də əyrinin. Bir dalda yerdə gejə cəhləşirdilər. Şah Abbas da getdi çıxdı bunnarın üsdünə. Məleykə dedi ki, tərpənmə, Şah Abbas gəldi, şərtimizi kəsəjəh. Görəh sənin sözün düzdü, yoxsa mənim sözüm. Gəldi çıxdı. Görüşdülər elədilər. Dedi:

– Şah Abbas.

Dedi:

– Hə.

Cin gözəgörünməyən bir şeydi dana. Şah Abbasın girdi qəlbinə, dedi ki, ayə, mənim sözümü de, qorxma, mənim sözümü de. Harda dara düşsən, orda sənin yanındayam. O söz nədisə cəhri çəkirdilər. Məleykə dedi ki, Şah Abbas, mənim sözüm düzdü, bunun sözü düzdü? Dedi:

– Cinin sözü düzdü.

Cin, axı, bunun qəlbinə girif. Cinin sözü düzdü deyəndə bu məleykə atıldı düşdü: "Ə, mənim düz sözümü qoyuf gedif cinin tərəfini saxlıyırsan?" Dedi:

– Şah Abbas, madam ki cinin sözünü dedin, and olsun Allaha, gündə bir dənə erkəh, bir tikəsi də kəsilmiyəjəh ha, tiyanda qızartdırıf qomşuğa salıf, şəhərin başında çinar ağacı var, o çinardan asdırıf gedərsən. Elədin, canın qutardı, eləmədin, sənə cəza verəjəm.

– Ə, – dedi, – heylə şeyə nə var, hasand şeydi.

Bunnar aralaşdılar. Cin gəldi Şah Abbasın yanına. Dedi ki, qorxuf eləmə, harda çətinniyin olsa, bax, belə tükü-tükə vuran kimi yanında hazıram.

Getdilər. Şah Abbas tapşırmışdı poverə, gündə bir heyvanı qızardıf aparıf asıf gəlirdi. Bu poverin də bir oğlu vardı, xəsdə idi. Heş-zad yemirdi, eləmirdi. Pover əti qızardırdı, aparıf gündə asırdı, gəlirdi. İndi bir gün də qızardanda bunun oğlu gəldi çıxdı bura. Dedi:

– Ata, onnan bir tikə kəs ver maa.

Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bala, onu verə bilmərəm. Şahın tapşırığıdı, onun tikəsi kəsilməli döylü.

– Əşi, – dedi, – bir belə tikə kəs ver maa, nola, tamırım gedir ona.

Dedi:

– Yox, verəmmərəm.

Nə qədər elədi, vermədi.

– Ə, – dedi, – bu ətdərdən tulluyum bura qızarsın, ye da.

Dedi:

– Yox ey, onnan ver.

Xəsdənin tamehi pis olar da, atalar deyif. Vermədi. Gədə durdu aralıda gözdədi. Dedi:

– Qoy görüm atam onu neynir.

Baxırdı. Gördü qızartdı, qəşəh saldı meşoğa, aldı dalına, şəhərin ortasıynan getdi. Bu da düşdü bunun dalına, getdi. Dedi: “Onu hara aparıf qoysa, onnan bir tikə yeyəjəm”. Kişi apardı bunu asdı çinardan, çıxdı gəldi. Tapşırıx heylə idi. Gələn kimi məleykə gəldi ordan götdü. Gedə əlini atırdı belə, məleykə götdü. Sallana-sallana getdi. Gedə də düşdü meşoğun dalına. Yavaş-yavaş, yavaş-yavaş, axşama getdi bir cəzirədə bir evə çıxdı ki, məleykələr burda yaşıyır. Meşoğu addatdılar içəri. Axşam idi. Gedə də getdi kəsdi darvazanı. Döydü, döydü, döydü, məleykənin biri gəldi ki, bir oğlandı. Xəsdə oğlandı, sapsarı saralıf.

– Nədi qardaş, nə isdiyirsən?

Dedi:

– Vallah, mənim qalmağa yerim yoxdu, gejədi, məni beyjəlih qonax saxlıyın.

Dedi:

– Qoy gedim baş məleykəyə deyim, gəlim.

Getdi dedi. Dedi:

– Hə, göt gəl, çöldə qalmıyajax ki.

Bunu apardılar. Baş məleykə buna dedi ki, oğlan, biz məleykə cinsiyik. Bizdə söz üş dəfə olar, üşdən artıx deməril. Onnan sora onun cəzası nədi onu verərih. Bu ətdən də gətdilər qoydular buna. Yaxşı yedi, nəfsi sındı. Söypət-zad da elədi, ayan-bəri. Bu ona dedi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ki, oğlum, dur ayaxlaş, yer qayırsınnar get yat. Bu durmadı utandığınnan. Bunnar hamısı qızdı dana. Nəysə, iki dəfə, üş dəfə, durmadı. Məleykənin ikisinə dedi ki, bunu alın qənədinizə, aparın Şah Abbasın arvadının yanına qoyun, gəlin.

Məleykələr bunu aldılar qənətdərinə, gətdilər Şah Abbasnan arvadı yatmışdı dana, gətdi qoydu arvadın yanında. Heş nə gədənin xəbəri oldu, nə arvadın xəbəri oldu. Yatdı burda savahatan. Savah kəniz gəldi ki, sən öl, xanımın yanında bir oğlan yatıf. – "Ə, bu hardan gəlif girif bura. Şah bilsə məni dara çəkəjəh". Oyanmıllar. Nə arvad oyanır, nə bu oyanır. Yuxu tutuf yatıflar. Kəniz dedi ki, mən bunu şaha deməsəm, olmuyajax. Desəm də mana sual-cavaf, hardan gəlif girif bura. Mən nə bilim hardan gəlif. Dedi ki, deyim da. Deməyim yaxşıdı.

Getdi şaha dedi ki, hal-qəziyə belə-belə. Şah sağ olsun, xanımın yanında bir oğlan yatıf, amma bilmirəm hardan gəlif, nətər gəlif. Elə səhər duruf görürəm ki, ordadı. Dedi:

– Get çağır, durğuz gətir yanıma.

Gəldi bunu durğuzdu. Dedi:

– Gəl gedəh, şah səni çağırır.

Gətdi Şah Abbasın yanına. Dedi ki, ə, oğlan, sən ora hardan gəlif girmisən. Bu gedə başına gələni nağıl elədi Şah Abbasa ki, gəldim atamın yanına, ətdən isdədim, vermədi. Apardı çinardan asdı. Onu da vallah, məleykələr apardı, mən də getdim, orda maa üş dəfə dedi dur, yerii qayırsınnar, mən də durmadım. Daa onnan sora huşum başımda olmadı.

Hə, Şah Abbas bildi ki, bu məleykənin əngəlidi.

– Əyə, onnarın olajağı hansı tərəfdədi?

Gədə yerini dedi. Şah Abbas bir gün atı mindi getdi. Dedi, gedim bir onnan görüşüm, görüm nətərdi. Amma aşbaz cəmdəyi gündə aparıf çinardan asır. Getdi axşama çıxdı ora. Darvazada durdu döydü, gəldi məleykə. Dedi ki, məni bu axşam qonağ eliyin. Bunu qonağ elədilər. Bu məleykəni tanımadı, amma məleykə bunu görən kimi tanıdı da. Nəysə, çörəhdən, sudan sora bu məleykə getdi otdu mənim kimi bekaf-bekaf. Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Şah Abbas, məni üş dəfə danışdırassan. Əgər danışdırdın, canıı qutardın. Danışdırmadın, cəmdəyin birini də artırassan, iki cəmdək eliyəssən.

Dedi:

– Yaxşı, nə olar. Onda icazə ver çölə çıxım gəlim.

Çıxdı evin böyründə – tük dəsmalın arasında idi, – tükü-tükə vuran kimi cin hazır oldu.

– Şah Abbas, nədi?

Dedi:

– Ə, bu məleykə görmürsən mənnən əl çəkmir. Deyir ki, gərəh məni üş dəfə dindirəsən.

Dedi:

– Ə, o asantdı, onun dərdini çəkmə sən.

Dedi:

– Nətər asantdı. Bekaf-bekaf oturuf, mən nə deyim ki, o dinsin.

Dedi ki, sən get otur. Mən qavaxca girəjəm stolun üsdündəyi lampaya, sora girəjəm sımavara, sora da girəjəm sənəyə. Oturanda denən: "Ay lampa". Mən hay verəjəm saa. Denən görürsən da, bu məleykə mənnən əl çəkmir, deyir gərəh məni danışdırasan.

Lampa dedi:

– Şah Abbas, mən bir söypət eliyəjəm, sən eşit.

Dedi:

– Nədi?

Dedi ki, bir kişi vardı, vaxdı tamam idi. Kişinin üç oğlu vardı. Kişinin də üş yüz tümən pulu vardı. Oğlannarını çağırdı yanına, dedi: "Bala, mən öləjəm, alın hərənizə yüz tümən pul verəjəm. Mənnən sora elə bir şey alın evinizdə yadigar qalsın mənnən". Kişinin də bir qardaşı vardı, onun da yaxşı bir qızı vardı. Gədələrə vermədi qızını. Götdü getdi İrana.

Nəysə, bu kişi öldü, bunu götdülər kəfin-dəfin elədilər. Balaca qardaş bir az cüvəltarax idi, dedi: "Ə, atamızın vəsiyyətin yerinə yetirəh da. Gedəh alax". Böyüh qardaşa dedi: "Qavaxca sən get al". Böyüh qardaş getdi çıxdı bazara. Hərrəndi, hərrəndi, baxdı ki, bir xalça satıllar. – "Bu nağarır?" Dedi ki, bu, üç aylıx yolu üş günə aparır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bunun dilin-sirrin də buna örgədillər. Bu, alır yüz tümənə, götürür gəlir. İndi ortancıl qardaşa deyir ki, sən get. Bu da gedir hərrənir, hərrənir, görür bir bədənnəmə güzgüdü, bunu satıllar yüz tümənə. – "Bu nağarajax?" Dedi: "Duanı oxuyassan, isdədiyin qohumunu, evladını saa gösdərəjəh". Bunu da bu alır gətirir. Sora balaca qardaş gedir. Bayax dediyim kimi, aftafa-ləyən olur, onda gülab suyu olur, nə olur, insanı dirildir. Bu da yüz tümən olur, bu da bunu alır gətirir. Gətirillər evə. Ortancıl qardaşa deyir ki, güzgünü gətir, ayəsini oxu, görəh həmin qız dururmu. Bu gətirir ayəsini oxuyur, baxıllar ki, əmisi qızı ölüf, təzə ölüf. Böyüh qardaşı deyif ki, sən bilirsən da dilini, gəl gedək. Bu da aftafa ləyənini götürür, oturullar xalçaya, ya allah. Gedillər ki, yuada götürüflər. Görüşüf eliyillər. Əmisinə deyir ki, əmi. Deyir: "Hə". Deyir: "Əmi, bunu sağ vaxdı bizə vermədin, indi bunun ölüsünü də bizə vermiyəssən?" Kişi də elə bilir meyidi götürməyəzada deyir. Deyir: "A bala, niyə vermirəm, nətər isdiyirsiniz götürün". Bu balaca qardaş çıxardır hamını çölə. Bilirdi da dilin-sirrin. Ayəsin oxuyur, bu sudan car eliyir, qız axsırıf qalxır.

Cin Şah Abbasdan soruşur ki, indi qız qardaşdarın hansına çatajax. Şah Abbas deyir ki, ortancıl qardaşa çatajax. Deyəndə məleykə ordan dillənir, – axı ortancıl qardaş onu diriltmiyif, balaca qardaş dirildif, – deyir:

– Niyə ortancıl qardaşa çatsın. Qızı dirildən balaca qardaşdı, ona çatmalıdı.

Deyir:

– Hər kimə çatır çatsın, əsas odu dindirdimmi səni.

Məleykənin bərk ajığı tutur, deyir:

– İkinci dəfə də dindir.

Gənə üzünü çöyürür sımavara:

– Ay sımavar, Allahın hökmüynən mənnən danış. Bu məleykə mənnən ağzını əyif.

Sımavar deyir ki, Şah Abbas sağ olsun, iki qardaş vardı. Biri evli idi, biri subaydı. Bu evli qardaş o birini çox dannıyırdı, işdəmirdi, eləmirdi. Bir günnəri dalaşdılar iki qardaş. Dalaşanda böyüh qardaş yıxdı balaca qardaşın başını kəsdi. Başını kəsənnən sora bu,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

öz-özünə qəhərrəndi ki, dalımın arxası idi gənə, mən niyə onun başını kəsdim. Fikirrəşir, fikirrəşir, öz başını da kəsir. Dedi: "Da bunnan sora niyə yaşıyıram".

Böyüh qardaşın arvadı da duruf baxırdı. Baş ayna düşür, bədən də burda. Gəlin gördü ki, iki siçan, köhnə ev idi, ordan çıxdı, dalaşdılar, biri o birinin başını üzdü. Baş burda qaldı, bədən orda qaldı. Siçan getdi. Bir azdan sora gördü ki, siçan ağzında nəsə çiyniyir – otdu. Nə otudursa, çiynədi, çiynədi, çiynədi, yumuşaltdı, gətdi qoydu bədənə, başı ora qoyan kimi yapışdı, dirildi. Qız da həmin qayda ilə qardaşdarının başını bədəninə yapışdırdı. Amma tələsdiyinnən ərinin başını qaynının bədəninə, qaynının başını ərinin bədəninə qoydu.

Sımavar soruşdu ki, indi qadın hansına çatajax. Şah Abbas dedi ki, bədənə çatajax. Məleykə dedi ki, yox, baş hardadısa, ona çatmalıdı, baş bədənin padşahıdı. Bu dəfə də məleykəni dindirdi.

Məleykənin indi lap ajığı tutdu, peşman-peşman otdu. Qayıtdı sənəyə dedi ki, ay sənəh, Allahın hökmüynən mənnən danış. Cin indi sənəhdən danışır. Deyir ki, Şah Abbas sağ olsun, bir dülgər var idi, bir dərzi var idi, bir də bir molla. Üçü ticarət eliyirdilər. Yükə qaroul çəkmək üçün gejəni üş yerə bölmüşdülər. Qaroul çəkirdilər. Axırıncı gejə idi. İndi qavaxcan dülgər qaroul çəkdi. Bekaf dayana bilmədi da. Götdü bir kadın fiquru düzəltdi taxdadan. Düzəltdi söykədi yükə. Gəldi dərzini durğuzdu: "Dur, vaxt tamamdı". Dərzi durdu. Gördü ə, yükə bir adam söykənif. Qarannıx gejədi dana. Getdi əlini vurdu, gördü taxdadan düzəldilif. Bildi ki, bunu dülgər düzəldif. Bu da maşını qoydu qavağına, bir dəst qəşəh qadın paltarı tikdi, geydirdi buna. Söykədi yükə, gəldi mollanı durğuzdu. Daa savah açılırdı, sübüh namazı idi. Molla durdu, səni öl, bir kadındı. Gəldi əlini vurdu, gördü taxdadı. Gördü ki, sənətkarrar öz sənətini isbat eliyiflər də. Namazını qıldı, üzünü çöyürdü Allaha ki, xudavəndi-xalıq, onnar öz sənətdərini sübut eliyiflər. Buna bir can ver, mən bunnarın yanıda xəjalətli olmuyum. Allah mollanın sözüynən ona can verdi.

İndi bunnar üçü də qalxdılar, savaxdı. Dülgər dedi mənimdi, dərzi dedi mənimdi, molla dedi mənimdi. Ay Şah Abbas, hansına çatajax?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedi:

– Dülgərə, – deyən kimi məleykə ordan dilləndi. Düzün tərəfinədi axı. Dedi:

– Ə, quru taxtaya nə çatır? Quru taxtadan qayırıf qoyuf ora da. Buna can verən var axı. Mollaya çatmalıdı.

Dedi:

– Əşi, hər kimə çatır çatsın, dindirdimmi səni üş dəfə? Quratdıxmı sənnən da?

Dedi:

– Hə, Şah Abbas, get. Sən Şah Abbassan ki, Şah Abbassan. İsdəmirəm o heyvanı, da gətirmə.

Ordaca Şah Abbas durur atını minir, çıxır gəlir.

## 5. PADŞAH OĞLU

Bir padşah olur. Padşah ölür, bir oğlu qalır. Qabaxda nəsildən-nəsilə imiş ey padşahlıx. Bunu padşah qoyullar. Bu torpağını tanımırmış da haradı. Cavan oğlan idi. Padşah olannan sora bir at minir, deyir gəzəjəm da torpağımı, görüm qranitsam hardan haradı, örgənim. Gəzə-gəzə, gəzə-gəzə, gəzə-gəzə gəlir elat yoluna. Dağa gedən yolun qırağında görür yaxşı göy çiməndi. Atı buraxır bura, bir az uzanır, bir az danışır öz-özünə. Nəysə, bu susduyur. Durur deyir: "Bir görüm buralarda nə tapıram". Gedir qavağına bir quyu çıxır. Əyilir baxır ki, görüm su varmı, nədi, nə quyusudu. Əyilir baxır. Yuxarı çıxanda bu, tilsimə düşür. Olur bir yaxşı gəlin. Olur arvad xeylağı. Özünə baxır ki, ə, sən öl, mən arvad olmuşam. Bu nə işdi mənim başıma gəldi? Gəldi otdu. At da otduyur. Bayaxdan kişi idi, indi arvatdı.

Elatın dağ yolu idi. Padşah da şikardan gəlirdi, vəziriynən. Gəldilər bunun üsdünə düşdülər.

– A bajı, burda niyə oturmusan?

Dedi:

– A qardaş, elat gedif. Atım yoruluf, bir az atımı dincəldəjəm, gedəjəm.

Gördülər ki, yaxşı gəlindi dana. Dedi ki, biznən gedək.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedi:

– Yox, mən siznən hara gedim?

Axı bu bayaxdan oğlan idi, indi arvad oluf. Bunu məjbur atına mindirdilər, aldılar yedəyə, götdülər getdilər. O da padşah idi, bir də vəzir idi. Padşah subay idi. Apardı padşah bunu qoydu evə. Bajı-sı-zadı vardı. Dedi ki, a bajı, get onun yanına, gör icazə versə, kəbinini kəsdirim, qəşəh gəlindi. Getdi buna dedi. Bu da dedi ki, padşahlarda qırx gün möhlət olur, maa qırx gün möhlət versin, sora deyərəm. Dedi bəlkə dalınca gələn olar.

Qırx gün gəldi keşdi. Kimdi bunun dalınca gələn? Nəysə, icazə verdi. Mollanı gətdilər, kəbinini kəsdirdilər. Başdadı bunnan yaşamağa. Bunun bir oğlu oldu bunnan. Yaşıyırdılar.

Bir gün nətər oldusa, bunun atasının vilayəti yadına düşdü, başdadı ağlamağa. Yoldaşı gəldi, dedi:

– Ay qız, niyə ağlıyırsan, nəyin əysikdi? Hər şeyimiz var, Allaha şükür.

Dedi:

– A zalım oğlu, heş demirsən sən kimsən, hardan gəlmisən, nə-çisən. Daşdan-qayadan yaranmamışam ha. Mənim də atam-anam var.

Dedi:

– Var, gedəh da. Mən nə bilim. Gəjavə bəziyəh gedəh, ya elə belə gedəh. Nətər deyirsən gedəh.

Dedi:

– Yox.

Axı bu gedəndə oğlan idi. Dedi:

– Heş kəs lazım döylü. Bir sən, bir mən, bir də bu uşağım. Adama bir at minəh, gedəh.

Adama bir at mindilər. Oğlu da bu doğmuşdu dana, aldı qu-cağına, düşdülər yola. Dedi ki, sən məni götdüyün yerə qədər apar, ordan da ayna mən səni. Gəldilər düz həmən yerə. Düşdülər orda. Gəlin bilirdi quyunun tilsimli olduğunu. Atdarı buraxdılar, bir az otdular. Ərinə dedi bir hərrən gör buralarda sudan-seldən varmı, uşağa da verəh, özümüz də içəh. Bu durdu yavaş-yavaş, – bu da ba-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

xırdı, – hərrənə-hərrənə gəldi çıxdı quyunun üsdünə. Əyildi quyuya, baxıf qalxanda bu da oldu arvad. Getdi bunun yanına, dedi:

– Aaz, başıma belə bir iş gəlif.

Dedi:

– Heş-zad olmaz. Gəl uşağın yanında otur, gedim mən ora bir də baxım, bəlkə Allah irast salar da.

Durdu bu getdi gəzdi. O quyuya baxanda oldu oğlan. Bir yaxşı oğlan oldu. Gəldi dedi ki, uşağı al qucağına. Uşağı al qucağına, al qucağına. Nağarajax, arvad xeylağıdı. Atı mindilər, aldı qucağına. Ordan da ayanı bu tanıyırdı da. Götdü gəldi.

Bay, padşahın neçə ildi gedən oğlu gəlif çıxıf. Yeməh-işməh, ayan-bəri. Başdadı bu burda padşah oğludu dana, padşahlığını eləməyə.

Bir gün dedi ki, vəzir, dəlləyi götür, gedək baş-gözümüzü qırxdırax, hamamlanax. Dəlləh oldu, vəzir oldu, bir də bu şah oldu. İndi hamama gedirdilər. Yola bir təsbeh düşmüşdü. Bunu padşah da gördü. Təsbeh çox yaxşı təsbeh idi. Padşah arrandı götürməyə ki, mən padşaham, əyilim yerdən təsbeh götürüm? Götürmədi. Vəzir də gördü. Vəzirin də ürəyinnən keşdi, amma padşahdan qorxdu ku, padşahın maa ajığı tutajax. Axı demədi götür. Bunnar keçəndə dəlləh gəldi daldan. Dəlləyə nə sorğu-sual? Əyildi götdü, qoydu civinə. Bunu vəzir də gördü, şah da gördü. Şah dedi elə yaxşı oldu onun götdüyü. Bir kələhnən əlinnən alaram. Yaxşı təsbehdi.

Gəldilər evə. Şah dedi ki, ə vəzir, dəlləyi qoyma gedə. Denən gedəh çaydan-zaddan içəh. Görəh təsbehi ala bilirihmi onnan. Gədilər çayı qoydular ortaya. Şah dedi ki, ə dəlləh, bu təsbehi mən də gördüm, götürmədim. Sən niyə götdün onu? Dedi:

– Sən şahsan, arranmısan götürməmisən, mən niyə götürmüyüm, dəlləh adamam. Vəzir də sənnən qorxdu, götürmədi. Mən niyə götürmüyüm? Qalsın orda?

Dedi:

– Yox ey, yaxşı elədin götdün. İndi adama bir söypət eliyəjeyih. Kimin söypəti düz çıxsa təsbeh ona qalajax.

Dedi:

– Yaxşı, eliyəh. Şah sağ osun, qavaxca sən elə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şah mən elədiyim söypəti elədi. Belə getdim tilsimə düşdüm. Bax, o uşağı mən doğmuşam, mənim oğlumdu. Bu da ərim idi. Sora bu arvad oldu, mən kişi oldum. Aaz, heylədimi?

Dedi:

– Hə.

Bu bir az pərdəli oldu da, inanmalı olmadı. Vəzirə də "qatır vəzir" deyirdilər. Dedi:

– Hə, nolar, indi də vəzir söypət eləsin.

Vəzir də dedi ki, camaat maa "qatır vəzir" deyir. Bilirsinizmi? Mənim bir arvadım idi, bir özüm. Mən də burda vəzir idim. Gündə bura gəlirdim. Gəlirdim, gedirdim. Gejə arvadnan bir yerdə yatırdıx. Gejənin bir vaxdı gördüm buz kimi arvad girdi yanıma. – "Arvad, hardan gəlirsən, niyə buz kimisən?" Dedi: "Çölə çıxmışam".

Bir gejə, iki gejə, beş gejə. Ə, belə şey olmaz. Bu nətər işdi. Bir gejə yatmadım. Özümü vurdum yuxuluğa, xoruldadım. Gördüm arvad durdu yanımdan çıxdı. Arvad yanımdan çıxanda bir az gözdədim, mən də bunun dalınca. Yolnan, daldasıynan gethaget şəhərin ortasınatan getdih, bu döndü bir qapıya. Mən də tez getdim başda abışka vardı, ordan baxıram. Gördüm ki, ə, burda üç oğlan var, iki dənə də gəlin var. Bunnar süpürrəşillər, oynaşıllar. Mənim arvadım içəri girəndə biri yerinnən qalxdı, buna bir qapaz qoydu ki, çəpəl, axşamnan səni gözdüyürəm, hardasan. Bu da dedi ki, gərəh kişi yata, gələm da. Kişi yatmamış nətər gəlim? Dedi ki, bunu maa deyə bilmirsən, sənə bir ayə örgədəm, oxuyuf vurasan kişinin kürəyinə. Daş desən, daş olajax, heyvan desən, heyvan olajax. Gedəndə də oxu vur, olsun adam. Bu ayəni deyir mən götdüm. Gözümün qavağındaca arvadnan oynadılar, elədilər. Dağılan vaxdı mən tərpəndim arvatdan qavax. Gəldim girdim yerimə. Arvad gəldi. Gənə buz kimi, çöldən gəlif. – "Arvad, canın niyə buz kimidi?". Dedi: "Ə, çölə çıxmışdım dana". Dedim: "Hə, yaxşı eləmişdin, gəl". Uzandı arvad yanıma. Ağlıma gəldi qatır düşdü. Ayəni oxudum, dedim arvadım olsun qatır.

İndi arvad olur, qardaş, qatır. Günüz olanda alıf yedəyimə bağlıyıram bax ora, axşam da olanda aparıram arvad eliyirəm, orda dolanırıx. İsdiyirsiniz durum oxuyum, qatır eliyim, görün.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şah dedi:

– Ə, da dedin da, bildih. Dəlləh, sən de görüm nə deyirsən?

Dəlləh də dedi ki, mənim Allahdan əhdim vardı. Təhrassız əl qavına çıxmırdım. Bir dəfə, deyir, dağ yeri idi, gəlirdim. Birdən tutdu da pəşom. Ha yüyürdüm, ha yeridim özümü suya çatdıram. Gördüm bir balaca alaçığ var, bunun qavağında bir aftafa var. Aftafanı belə-belə elədim ki, hə, içində su var. Bunun içindəki də deməynən ayrı şeymiş. Tez gəldim. Əl qavına çıxmışam da. Bunu tökdüm belə özümü yuyam, bəri çəkəndə ayın-oyunum əlimdə gəldi. Ə, bu nə iş idi, ay Allah, başıma gəldi? Bu nətər şeydi? Gördüm bir cüt göyərçindi qonuf ora. Deyir: "Ə, bu filankəsdi. Ayın-oyununu yerinə qoyuf bir də carrasa özünü, bitər yerinə". Mən də tələsdiyimdən alt-üsd qoymuşam. Bıy, sora baxıram ki, səyf qoymuşam. Da təzdən fırrıyıf düzəltməh olmaz.

Padşah deyir ki, ə, heylə şey olmaz.

Deyir:

– İndi siz də kişisiniz, mən də. İcazə ver, açım, bax.

Açır özünü gösdərir padşaha. Padşah görür, sən öl, ə, bu düz deyir, elə heylədi. Həmi özünü padşaha gösdərir, – padşaha özünü gösdərməh zarafat şey döylü ey, – həmi də təsbehi alır.

## 6. MƏLİK MƏHƏMMƏD

İki qonşu olur seyidnən (Seyid Yusif ağanı nəzərdə tutur – top.) mənim kimi. Kasıb olullar. Gedif odun gətirif satıf dolanırmışdar. Özdərinə də odun gətirirmişdər, dallarında gətirirmişdər. Sözdü dana. Yoruluflar, bir yerdə oturuflar. Bu qonşusu deyir ki, ə, Allahın altında elə olardı, gedeydim ki, qavım-qaşığım hamısı qızıl oluf, ujunnan tutuf xaşdıyeydim, heş bu odun şələsini aparmıyeydim. O birisinin də ayləsi boyluydu. Bu da dedi: "Ə, Allahın altında qırx oğlum oleydi, işdiyərdilər, mən də papağımı dolayı qoyuf yeyif-yateydim orda". Allah o vaxdı eşidirmiş insannarın diləyini.

Duruf gəlillər evə. Ayrılıllar hər kəs öz evinə. Allahdan qav-qaşığının qızıl olmasını diliyən gəlir ki, sən öl, qapıda olan qavlar



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

hamısı qızıldı. İçəri girir ki, evində olan da qızıldı. Tez süpürrüyüf basır sandığa, görən olmasın.

O birsinin də arvadı həmli idi. Gəlir görür, sən öl, hadıxlar yığılıf başına, arvad bir ujdan doğur, bir ujdan da hadıxlar bəliyif yığıflar ora. İndi bu özü arzu eləmişdi Allahdan dana. Əlini qoyur qapının burasına. Baxır ki, səni öl, uşax doludu, qırx uşaxdı. Öz-özünə deyir ki, ə, mən heş arvadnan özümü saxlıya bilmirdim, mən bunu nətər saxlıyım? Yaxşısı budu başımı götürüm çıxım gedim. Qolunda bir bazubəndi vardı. Aşdı ha belə tulladı arvadın üsdünə, dedi:

– Mən getdim.

Dedi:

– Ə, hara gedirsən, bir belə tifağın yiyəsisən.

Dedi:

– A qardaş, mən onu saxlıya bilmərəm.

Nəysə, başını götdü başdadı getməyə. Düşdü ha belə yol gedəndə gördü bu tərəfdən bir gedə gəlir. Gözdədi, gəldi çatdı. Salam kalam.

– Ə qardaş, hara gedirsən?

Dedi:

– Nə bilim ey, başımı götürüf çıxıf gedirəm.

– Nədi, noluf ey?

Dedi:

– Ə, dolana bilmirəm dana, külfət də məni basıf, dolana bilmirəm. Tərk edif çıxıf gedirəm.

Dedi:

– Ə, elə mən də sən gündəyəm, gəl bir yerdə gedəh, qardaş olax.

Belə-belə yeddi qardaş oldular. Yeddisi də bu dərtdən oldular. Getdilər bu şəhərin səmtində meşə vardı, meşəyə çatanda Məlik Məhəmməd dedi ki, da burdan belə hara gedəjeyih ey. Yeddi adamıx, burda bir damka qayırax meşənin içində, gündə adama bir şələ odun aparax satax, gətirəh elə bir yerdə də yeyəh-içəh, burda dolanax. Helə də elədilər. Yerdən qazdılar, bir damka qayırdılar, girdilər içinə. Gündə altısı gedirdi, odunu aparırdı satırdı, biri qalırdı çörəh hazırrıyırdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Biri qalmışdı. Aşı bişirif dəmə qoymuşdu ki, indi odunnan gələjəhlər dana. Yuxu tutuf yatar. Özü bir qarış, sakqalı iki qarış bir kişi gələr bu yeməyi yiyər, çıxar gedər. Təmiz yeyər, heş nə qalmaz. Qardaşdar gələr:

– Ə, gətir görəh nə bişirmisən.

Qazanın ağzını açar ki, nə var. Heş-zad yoxdu.

– Ə, bunu mən bişirif qoymuşdum bura, bunu kim gəldi yedi, mən görmədim?

Nəysə, təzdən bişirif yedilər. Belə-belə o biri qardaş, o biri qardaş, axıra Məhəmməd qaldı. Məhəmməd də qazanı bişirdi qoydu, amma əvvəlkilər bir-birinə demiyif başımıza belə iş gəlif. Bu Məhəmməd də bişirdi, hazırradı qoydu, gəldi otdu. Fikirri idi da, yata bilmədi. Elə gözünün altınnan baxırdı, fikirrəşirdi. Gördü ki, qapıda sakqalı özünnən uzun bir kişidi. Gəldi girdi içəri. Girən kimi qazanın ağzını aşdı, başdadı yedi təmiz. Dinmirdi. Durdu bu çıxanda bu da bunun dalınca çıxdı. Meşənin içiynən getdihləri yerdə yoxa çıxdı. Getdi yoxa çıxan yerə baxdı ki, bir quyu var, boyu bir qarış düşüf quyuya. Ha baxdı, ha baxdı, divini görə bilmədi. Quyu çox dərin idi. Qayıtdı gəldi. Gəldi bişirdi, hazırradı. Qardaşdar gəldi.

– Ə qardaş, mənim başıma belə iş gəldi.

O dedi ə, mənimkinə də gəlif, bu dedi mənimkinə də gəlif. Dedi:

– Ə, bə niyə demirsiniz?

Dedi:

– Vallah, nə biləh, demədih da.

Dedi ki, durun çatıları götürün, onun yerini bilirəm. Gedəh çatını bağlıyax uj-uja, düşəh aşağı, görəh o kimdi, nəçidi, hara getdi?

Gəlillər. Qavaxcana böyüh qardaşa bağlıyıllar. Bir az sallıyanda çığırır ki, ə yandım, məni çəkin, ə yandım, məni çəkin. Bunu çəkif çıxardıllar. Heş biri girə bilmir. Məhəmməd deyir ki, ə, mən nə qədər yandım desəm məni çəkmiyin. Buraxın, gedəjəm, görüm nədi, orda nə var. Bunu salladılar. Aşağı düşdühcə isdi yalov kimi bunu vurur, çığırır:

– Ə yandım, məni çəkin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hara çəkillər? Da özü demişdi da. Buraxıllar, guppultuynan gedir düşür quyunun divinə. Bura da olur dev məkanı. İndi bu getdi düşdü bura. Baxdı ki, ə, həmən kişi oturuf odey orda. Dev başını qoyuf qızın dizinin üsdünə. Qız da elə ağlıyır, elə ağlıyır, elə ağlıyır, nətəri. Gəldi bu qızın yanına. Dedi ki, a bajı, niyə ağlıyırsan?

Dedi:

– A qardaş, yeddi ildi məni bu devlər gətirif, bax ha belə bunnara qullux eliyirəm.

Dedi ki, deyillər devin canı şüşədə olur. Heylə bir şey var burda?

Dedi:

– Hə, odey ha. Orda bir şüşə var, içində də göyərçin. Bax, mənim dizimin üsdə olan devin canı ondadı. Əyəm şüşəni qırıf göyərçini öldürsən, devi elə bil ki, öldürmüsən.

Bu da cavan oğlandı dana. Onu qırdı deyilənə görə, göyərçini öldürdü, dev öldü. Qız devin başını tulladı yerə, durdu ayağa. Üsdünü-başını çırpdı gəldi:

– Ay qardaş, nə yaxşı gəldin, Allah səni maa yetirdi. Mən yeddi ildi burda dustax qalmışam.

Getdi o kişinin yanına. Salamdan-kalamdan sora dedi:

– Əşi, sən gəldin orda mənim bişmişimi yedin. Mən də sənin dalınca gəlmişəm. İndi mən nətər eliyim burdan çıxım. Mən saa yaxşılıx eliyif yeməh vermişəm da. Sən də maa yaxşılıx eylə, yolunu-yorğasını gösdər, mən çıxım işıxlı dünyaya.

Dedi:

– Qardaş, hər cumadan-cumaya iki dənə qoş gəlir qiblə tərəfdən. Biri qaradı, biri ağ. Bax, görürsən o şiş dağı, o dağın başına çıxassan, gözdüyəssən cuma gününü. Qoşdar ikisi də cüt gəlir. Qara qoçun belinə düşdün, bir belə də dərinə gedəssən, yox ağ qoçun belinə düşdün, səni çıxardajax işıxlı dünyaya.

Kəndir ordan sallaxlıydı. Qardaşdarı kəndiri çəkmiyif. Bu qıza dedi ki, gəl səni verim çəksinnər, sora da məni çəkəjəhlər. Dedi:

– Ə, ehtibar eləmə. Məni görsələr səni çəkmiyəjehlər. Gəl burdakı qızıldan-zaddan götür, səni çəksinnər, sən də məni çək.

Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Yox, mən ora çıxıf bir də bura düşə bilmərəm. Mən çıxaram, sən də gəlmərsən.

Bu minvalnan gədə qızı kəndirə bağladı, qardaşdarı çəkdi. Çəkdilər ki, bir dünya gözəlidi. O dedi mənimdi, bu dedi mənimdi. Altı qardaş burda qalmışdı axı. Qız dedi ki, mən heş bir kəsə gedən döyüləm. Mənim nişannım içəridədi, havaxt gələjəh, mən ona gedəjəm.

İndi qız bunnarın çörəyini-suyunu qayırırdı, bunnar aparıf odun satıf gətirirdi.

Qardaş, sana xəbər verim Məhəmmətdən. Məhəmməd getdi çıxdı dağın başına cuma günü. Gözdədi, gözdədi, gözdədi, gördü ki, qoçun ikisi də cüt gəlir. Orda dağın başında durmuşdu da. Elə dağın döşünnən bəri gələndə bu sıçradı ki, ağ qoçun belinə düşə, düşdü qara qoçun belinə. Bir belə də yazığı apardı dərinə. Getdi bir cəzirədə bir düzə düşdü. Baxdı ki, şəhər görükür. Tanımır, bilmir. Durdu yavaş-yavaş, yavaş-yavaş, dedi: "Gedim bir insan tapım, danışım, görüm nə var burda, neyniyim mən". Getdi ki, şəhərin qıra-ğında bir damka var, burdan tüsdü çıxır. Yavaş-yavaş getdi qapıya.

– Ay ev yiyəsi, ay ev yiyəsi.

Bir qarı çıxdı. Dedi:

– A bala, kimsən?

Dedi:

– Ay ana, bir adamam dana.

Deyir:

– Gəl da, gəlmisən, gəl bəri.

Bunu arvad aparır evə. Çörəh-zad qoyur. Bu yeyir eliyir. Deyir:

– Oğul, kimsən, hardan gəlif, hara gedirsən?

Deyir:

– Ana, elə caleyvətən canımdı, burda da qərib bir adamam. Heş kəsi tanımıram.

Dedi:

– A bala, mənim də heş kəsim yoxdu. Gəl elə sən mənim oğlum ol, mən də sənin anan. Sən azdan-çoxdan tap gətir, mən də bişirim yeyəh, burda dolanax.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gejə gedə qaldı burda. Susunnan yandı gedə. Ay ana, mana su. Dedi:

– Bala, su problemdi, su yoxdu.

Burda bir bulağımız var, onun da ağzını əjdaha kəsif, buraxmır. Gündə bir adam aparıf tulluyullar ağzına, o yeyincə qannı su gəlir, camaat götürür. Mən də qoja adamam, götürəmmirəm. Su tanımıram.

Bu gejə susunnan alışdı, yandı. – "Ə, mən nətər eliyim?" Harda idi su? Savah açıldı. Savah da padşahın qızını aparıllar verəllər ona. İki-üş metr qalmış əjdaha onu çəkirmiş yaxınına. Camaat da su götürürmüş. Aftafası, sənəyi olan götürüf gedir, daa su axmırmış ey. Yeyincə nə su gəlirmişsə, o imiş. Deyir:

– A bala, odey aparıllar, padşahın qızını aparıllar. Mən də vallah, gedə bilmirəm, qoja arvadam.

Dedi:

– Ay ana, onda maa qav ver, mən gedim.

Arvadın bir aftafası vardı, verdi buna, götdü getdi. Gətdi ki, camaat karvan-karvan gəlir, qızı da qatıflar qavaxlarına aparıllar. Getdi qız buna yaxınnaşanda ağladı dana, can şirindi. Elə ağladı, elə ağladı, nətər. Bu tez çıxdı camaatın içinnən, aftafanı apardı verdi qıza, dedi:

– A bajı, sən aftafanı saxla, su gələndə bunu dolduruf verərsən mənə. Mən sənin əvəzinə gedim.

Tanımıllar bunu. Bu getdi. Xançalı vardı. Xançalı tutdu belə qavağına, getdi. İki metr qalmış əjdaha özü bunu çəkir kamına. Çəhdi-çəhdi, xançal bunu kəsə-kəsə getdi. Qannı su gəldi. Camaat götdü, elə bildi su kəsiləjəh dana. Xançal əjdahanı yardı ortadan, əjdaha öldü. Camaat elə qannı sudan götdü qorxusunnan tez. Suyun dalı gəlir dana. Duruldu su, gedə də aftafanı doldurdu götdü gəldi. Bunu burda tanıyan yoxdu, bilmir ki, kimdi, nəçidi. Gəldi qarının evinə. Suyu gətdi verdi, qarı da alqış elədi ona. Dedi ki, qarı nənə, da su gələjəh innən belə. Get sən də götü.

Padşahın qızını qaytardılar apardılar. Dedi:

– Noldu?

Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Hal-qəziyə belə-belə. Bir oğlan çıxdı, qızın əvəzinə getdi, əjdahanı öldürdü.

Padşah dedi ki, o hardadısa, onu tapın gətirin mənim yanıma. Həm padşahın qızını azad eliyif, həm də suyun ağzını açıf.

Gəzdilər, gəzdilər. Bu da qarının damxasında idi dana. Hərrəndi iki nəfər gəldi çıxdı ora. Dedilər ə, nolar qoja arvad olanda. Bura da baxax da, bəlkə burda olar. Getdilər ki, bir oğlandı, uzanıf yatıf.

– Ə, qardaş dur ayağa.

Durdu.

– Səni aparajeyih padşahın yanına.

Dedi:

– Ay qardaş, mən qərib adamam, padşahnan mənim nə işim var? Padşaha mən nə pisdih eləmişəm? Oğurrux eləməmişəm, bir şey eləməmişəm.

Dedi:

– Yox ey, çağırır səni.

Bunu götdülər gəldilər.

– A bala, sən idin o əjdahanı öldürən?

Dedi:

– Hə, mən idim.

Dedi:

– Oğul, mənim qızımı da azad eləmisən, camaatı da suynan təmin eləmisən. Nə isdəsən saa verəjəm.

Dedi ki, şah sağ olsun, mən burda qərib adamam, mən işıxlı dünyadan gəlmişəm. İndi güjün çatırsa, məni ora çıxart. Onu isdiyirəm sənnən. Ayrı var-döylət, qızıl nəyimə lazımdı. Padşah da bir az fikirrəşdi, dedi ki, mən ora bunu nətər çıxardım. Dedi:

– Oğul, burda bir böyüh çinar var. Orda bir tutuquşu var. Onun da balalarını ildə əjdaha yeyir. Get onun balalarını əjdahadan azad elə, o səni çıxarda bilər. O da sənnən nə isdəsə, gəl, mən verim.

Getdi çinarı gösdərdilər buna. Şəhərin başında yekə çinar idi. Divi kölgə idi, otdu, uzandı burda. Baxırdı belə çinara. Gördü ki, başında yuva var, tutuquşunun balaları içində. Birdən gördü çığırışıllar. Baxdı ki, əjdahadı, dolana-dolana çinara çıxır. Xançalı əlində



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

idi. O saatdarı vurdu öldürdü bunu, doğradı, verdi quşun balalarına. Bunun biri də əjdahanın ətini dilinin altında saxladı anasına. Tutuquşu gəldi, böyüh quşdu. Balaları öz dillərində dedi ki, bax, orda yatan oğlan əjdahanı öldürdü, doğradı, gətdi verdi bizə. Yedih ana, saa da saxlamışam dilimin altında. Quş qənədini çaldı, yendi bunun yanına. Gəldi bunu durğuzdu. Bu durdu yerinnən. Padşah demişdi, axı, tutuquşu səni aparajax. Dedi:

– Oğlan, mən neçə ildi balaya həsrətəm, bu əjdaha qoymurdu. İndi maa sən bala vermisən. Mənnən isdə görüm nə isdiyirsən, saa verəjəm.

Dedi:

– Sənnən heş zad isdəmirəm. Mən bura adamı döyüləm. Mən işıxlı dünyadan gəlmişəm, məni ora çıxart.

Dedi:

– Paho, böyüh xarc lazımdı ona.

Dedi:

– Nə xarc? Nə desən mən verəjəm.

Dedi:

– Qırx tulux maa su gətirəssən, – tulux da heyvan dərisinnən olurdu, – qırx da cəmdəh. Qənətdərimin üsdünə yığessan, oturessan ortada. Mən səni çıxardajam. “Qa” deyəndə ət verəssən, “qu” deyəndə su verəssən.

Dedi:

– O hasantdı, gətirərəm.

Durdu gəldi padşahın yanına. Dedi:

– Maa bu şeylər lazımdı.

– Bu saat.

Padşahın əlində çətin döyüldü. Hazırratdı gətdi ağacın yanına. Tutuquşu yendi, bunu yığdı qənətdərinin üsdünə, gedə də otdu, ya Allah, qalxdı göyə. “Qa” deyəndə ətdən kəsif tulluyurdu ağzına, “qu” deyəndə su verirdi. Da bir dəfə də ət tullasa bunu çıxardajeydi, ət qutarmışdı. Gədə gözdüyürdü ki, ət isdiyəjəh də. Əlacı kəsildi, kök adam idi, tez yançağının ətini kəsdi tulladı bunun ağzına.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu gördü şirindi, dilinin altında saxladı. İnsan əti şirin olur. Bunu işıxlı dünyaya çıxartdı. Dedi:

– Məhəmməd, axırda maa tulladığın əti hardan almışdın?

Dedi:

– Ət olmadı, yanbızımdan kəsdim.

Qan götürüf ağzı belə. Qaytardı, deyir, qoydu yerinə. Ağzının lağabınnan* vurdu, hökmü-ilahi idi, sağaldı. Həmən yerdən bunu çıxartmışdı. Bu durdu yavaş-yavaş alaçıxlarına gəldi ki, heş kəs yoxdu. Elə bir qızdı burda. Görüşdülər, elədilər. Dedi ki, Məhəmməd, xəyalına qəti dolandırma, sənin yanınnan nətər gəlmişəmsə, heyləyəm. Qardaşdarın bir-birini qırdı mənim üsdümdə, heş birinə vnimaniya verməmişəm. Səni gözdüyürdüm.

Dedi:

– Lap yaxşı.

Qardaşdarı gəldi. Görüşdülər, elədilər. Da bu ayləlidi da. Buların yanında qala bilməz axı. Dedi ki, qardaş, indiyətən bir yerdə çörəh yemişih, bir-birmizə həmd durmuşux. İndi mən ayləliyəm. Siz burda gənə qalın, mən aylәmi götürüm gedim şəhərə. Bir yer tapım orda aylәmnən dolanım.

Durdu aylәsini də götdü, gəldi şəhərə. Gəldi ki, camaat o qədər yığılıf padşahın evinin qavağına. Birinnən xəbər aldı:

– Ay qardaş, bu nə yığıncaxdı belə?

Dedi:

– Padşah ölüfdü, padşahlıx quşu uçurdullar. Kimin başına qonsa, onu padşah qoyajaxlar.

Bu da getdi arvadıynan bir tərəfdə durdu. Qərib adamdı da, heş kəsi tanımırdı. Quşu ordan uçurdanda quş gəldi qondu bunun başına. Ayə, bu nətər hak-hesab oldu? Bunu tanıyan yox idi. Hərə başına bir qapaz vurdu:

– Ə, sən kimsən gəlif bura çıxmısan? Sənnən bizə padşah olar?

Dedi:

* liğabınnan – tüpürcəyindən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A qardaş, mən nağarım? Burda durmuşam, quşdu gəlif qonufdu.

Quşu götürdülər, dedilər:

– Quş karıxıf.

Üş dəfə quşu uçurtdular, gəldi qondu onun başına. Da üşdən artıx olmazdı. Bunu qoydular burda padşah. Arvadı da yanında burda başdadı padşahlıx eləməyə.

Sənə xəbər verim bunun oğlannarınnan. Qırx dənə oğlu var idi. Xəbər verdilər oranın padşahına ki, filan yerdə qırx dənə uşax oluf, saxlıya bilmillər. Padşah sağ olsun, kömək elə, uşaxlar yekəlsin, savah müharibəyə göndərərsən, başqa bir yerə göndərərsən da. Padşah gətdi buna inəh də verdi, adam da təyin elədi, çörəyini də verdi, bunnar yekəldilər. Da yekə oğlan idilər. Bunun biri dirədöymə oynuyurdu, qavax bizim oynadığımız kimi. Biri-birini vurdu ağlatdı, dalaşdılar. Buna yetim dedi.

– A yetim, sən nə qızmısan!

Bu da bunun xətrinə dəydi. Heç uşaxlıxdan atasını görmüyüf axı. Gəldi evə ağlıya-ağlıya. Anası dedi:

– A bala, niyə ağlıyırsan?

Dedi:

– Ay ana, mənim atam yoxdu?

Dedi:

– Niyə yoxdu, ay bala, var. Atasız uşax olar?

Dedi:

– Bə mənim atamı öldürdülər, özü öldü, nejə oldu?

Dedi:

– Oğul, atan əhd eləmişdi Allahdan. Gəldi baxdı qapıdan, habelə gördü qırx dənə oğlu oluf. Dedi mən bunu saxlıya bilmərəm. Başını götdü, çıxdı getdi. Kim bilir hardadı. Ölüf qalıf, neçə il keçif.

Deyir:

– Atamdan heş bizə bir yadigar qalmıyıf?

Dedi:

– Bir bazubəndi vardı, aşdı verdi maa, getdi.

Böyüh oğlu dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ana, o bazubəndi ver maa.

Aldı bazubəndi vurdu qoluna, getdi padşahın yanına. Dedi:

– Padşah sağ olsun, bilirsən da bizi sən saxlamısan. Qırx dənə qardaşıx biz. İndi atamızı gəzməyə gedəjeyih. Bizim hərəmizə bir at ver, gənə gətirif özünə verəjeyih.

Əmr elədi. Bunnarın hərəsinə bir at verdilər. Mindilər, bazubəndi də götdülər, başdadılar kəndbəkənd, şəhərbəşəhər soraxlamağa. Gəldilər çıxdılar bura. Böyüh qardaş dedi:

– Ə, padşah bilər atamın harda olduğunu Qavaxca padşahnan danışax, tapmasax sora gedif qoja kişilərdən-zaddan soruşarıx.

Gəldilər çıxdılar bunun yanına. Dedilər:

– Padşahnan işimiz var.

Padşah dedi:

– Hamınız bir dərdə gəlmisiz?

Dedilər:

– Hə.

Dedi:

– Onda böyüyünüz kimdisə gəlsin danışax.

Böyüh qardaş getdi.

– Nədi oğul, xeyirdimi?

Mən dediyim kimi dedi. “Belə olmuşux, atam bizi tərk edif gedif” – deyəndə bildi ki, bununkudu dana. Dedi:

– Bəs atanızdan heş sizə nişana-zad qalmıyıf?

Qolundakı bazubəndi gösdərdi, üsdünə yazılmışdı da adı. Dedi:

– Oğul, o mənəm. Sizi saxlamağın dərdinnən başımı götdüm getdim.

Dedi:

– Ata, biz indi yekəlmişih, hərəmiz bir kişiyih. Da sana padşahlıx nə yaraşır, gedif onnan-bunnan cəhli vurasan. Gəl ayləni də götür gedəh.

Bunnarın hərəsi bir at mindilər gəldilər. Gəldi kişi arvadnan da görüşdü. Dedi:

– A kişi, bir belə uşağı mənim yedəyimdə qoyuf niyə qaşdın?

Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay arvad, gördüm saxlıya bilmiyəjəm dana. Sənnən özümü saxlıya bilmirdim, qırx uşağı nətər saxlıyım odun şələsi satmaxnan. Ona görə çıxdım getdim.

Ordan kişi heç hara getmir. Oturur, uşaxlar qazanıf gətirir, bu yeyir. İki arvadnan da kef eliyir. Allah diləyini eşitmişdi dana.

## 7. NARXATIN

Bir arvadın yeddi oğlu varmış. Bu oğlannar bajı isdiyirmiş. Deyirmiş ki, ana, elə olsun, bizim bir bajımız olsun. Allahın izniynən kadın hamilə olanda, kadının vaxdı yaxınnaşanda oğlannarı deyir:

– Ana, biz gedirih səyahətə. Biz gəlincə əgər sənin qızın olsa, evin üsdünə bir ələk bağlıyarsan. Biləjeyih bajımız oluf, gələjeyih. Oğlun olsa, ox-yay bağlıyarsan. Oğlun olsa, gəlmiyəjeyih. Biz bajı isdiyirih. Bajımız olsa gələjeyih, olmasa gedəjeyih qərib diyara.

Bular gedənnən sora Allahın əmriynən bu arvadın bir qızı olur. Arvad durur evin üsdünə ələk bağladır. Allah heş bəndəyə xayın, paxıl qonşu qismət eləməsin. Bunun da bir paxıl qonşusu varmış. Bu arvad evə gəlif girən təki bu qonşu gedif ələyi açır, yerinə ox-yay bağlıyır. Bu oğlannar ovdan qayıdanda görür evin üsdündə ox-yay var. Deyir: “Hə, gənə qardaşımız oluf. Tay biz getmirih evə”. Burdan bu oğlannarın yeddisi də qoşulur gedir uzax bir ölkədə, bir dev məkanında bir kahada məskən salıllar. Bir dənə qəşəh qızıləhmədi alma təmizdiyif, ipəh yaylığa büküf qoyullar bura. Günüz gedif gəzillərmiş, axşam gələndə deyirmişdər: “Bajımızı gətirin, bir bajımızı qoxluyax, iyliyəh”. Bu almanı bular bir-bir öpürmüş, iyliyirmiş, gənə büküf yaylığa aparıf qoyullarmış sandığa ki, bu, bizim bajımızdı. Bu almadan bajı iyi alırmışdar. Bir belə bajı həsrəti çəkirmişdər. Gündə buların biri qalıf yeməh-işməh hazırrıyırmış, altısı gedif ceyran-cüyür ovluyurmuş, burda belə günnərini keçirirmişdər.

Vaxt olur, bu qız böyüyür on beş-on altı yaşına çatır. Bunun anası da ölür, atası da ölür, qalır yetim. Bircə dənə danası qalır. Bu qız gününü ancax bu danaynan keçirir. Səhərdən axşamatan bu dananı hamarrıyır, tumarrıyır, otarır, suyunu verir, otunu verir. Dədə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yox, nənə yox, bajı yox, qardaş yox, tək bir qız bir evin altında gününü danaynan keçirir. Qəfil gəlir bu dana yıxılıf ölür. Dana öləndə bu qız durur dananın qarnını aparıf suda ağlıya-ağlıya yuyur ki, Allah məni hər şeydən eləmişdi, bir danam vardı, danam da öldü. Deyəndə bir qarğa gəlir qonur bu bulağın başına, qarıldıyır. Qızın da adı Narxatın olur. Deyir:

– Narxatın, niyə ağlıyırsan?

Deyir:

– Ay qarğa, ağlamıyım neyniyim. Atam öldü, anam öldü. Bir danam vardı, o da öldü. Heş kimsəm yoxdu, – deyəndə deyir:

– Narxatın, sənin yeddi qardaşın var, heylə demə.

Deyir:

– Hanı mənim yeddi qardaşım?

Deyir:

– Sənin yeddi qardaşının yerini mən bilirəm. O vaxdı belə-belə oldu, sənin qardaşdarın bajı ujunnan başdarını götdülər qərif diyara getdilər.

Qarğa deyir ki, sən o qarnı ver mən yeyim, mən səni aparım qardaşdarının yanına. Deyəndə deyir:

– Əgər düz deyirsənsə, verərəm.

Deyir:

– Get bir torba buğda gətir. Torbanın da altınnan deşih qoy, torbanı bağla mənim ayağıma, ver o qarnı da mən yeyim.

Dananın qarnını verif, qarğa yeyif. Buğdanı bağlıyıf bunun ayağına. Deyir:

– Mən göynən uçajam, buğda töküləjəh yerə. Buğdanın iziynən gəl, səni düz aparıf qardaşdarına çatdırajam.

Bu qarğa göynən uçur. Buğda töküldühcə buğdanın iziynən gedir, gəlir çıxır qardaşdarının yaşadığı kahaya. Deyir:

– Sənin qardaşdarın burda yaşıyır. Qardaşdaru altısı ova gedif, biri də budey, evdə yatıf. Da burdan beləsi sənin öz işindi.

Qız deyir ki, birdən-birə gedif çıxmaxnan bular məni özünə bajı kimi qəbul eləməz. Qoy buları hələ bir yoxluyum, görüm bular gerçəhdən bajı həsrəti çəkir, yoxsa qarğa məni alladır. Bu gizdənir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bir yerdə. Axşam oldu, altı dənə bir-birinnən boylu-buxunnu qardaşdarı gəldi töküldü. Baxırsan hərəsi bir cəngavər təki. Deyir: – "Allah, bular yanı mənim qardaşımdı?" Baxır görür bular gəldi otdu. Bu yatan qardaş durdu surfa saldı, bulara çay-çörəh qoyanda böyüh qardaş dedi:

– Dayanın, əlizi saxılıyın. Hələ çörəh yeməmişdən dur bir bajımızı gətir, bajımızı qoxluyax, iyini ürəyimizə çəkəh, onnan sohra yeməyimizi yeyəh, – deyəndə, balaca qardaş getdi bir sandıxca aşdı, qırmızı yaylığın içinnən bir dənə qırmızı alma çıxartdı gətdi. Bular bir-bir bu almanı iylədi, öpdü, ötürdü ona. Bu yeddi qardaşın yeddisi də bu almanı iylədi, gənə bükdülər qoydular sandığa, başdadılar çörəhlərini yeməyə.

Deyir:

– Hə, doğrudan da, bu qardaşdarım bajı həsrəti çəkir.

Savah olur. Gənə qardaşın altısı gedir, biri qalır. Bu gözdüyür, gözdüyür. Görür ki, qardaşın yuxu tutdu, yatdı. Yuxu tutuf yatan təki gedif bu kahanı silir, süpürür. Kişi əliynən kadın əli bir deyil. Kadın əli dəyən yer gür-gümüş olur. Bu kahanı yuyur, təmizdiyir, silir-süpürür, ov ətinnən ləzətti bir yemək bişirir qoyur ojağın üsdünə. Özü də bir az yeyir, gedir gənə gizdənir.

Axşam olur qardaşdar gələndə deyir:

– Ə qardaş, bu ev-eşih nə gözəldi, burdan gül-çiçəh iyi gəlir.

Deyir:

– A qardaş, mən təmizdəmişəm.

Deyir:

– Hələ indiyətən biz belə şey görməmişdih. Bu təmizdih, yeməhdə bu dad, bu nə olan şeydi?

Bu deyir ki, mən eləmişəm, bura dev məkanıdı, bura kim gəlif kim gedə bilər? Nəysə, bular gənə gətirillər bu almanı iyliyillər, yeyif-içif yatıllar. Səhəri gənə belə, üçüncü günü gənə belə. Dördüncü günü dördüncü qardaş qalanda deyir:

– Vallah, burda bir sirr var. Mən yatmıyajam, görüm bu nə sirdi. Qardaşdarım, doğrudan, özdəri bişirif, yoxsa yox? Axı yeməhdə bu dadı, ləzzəti indiyətən biz görməmişdih.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu oğlan özünü yuxuluğa vurur, görür hə, yavaşcadan qapı açıldı. Evə bir gözəl-göyçəh qız girdi. Bu, evi-eşiyi yudu, sildi-təmizdədi, yeməyi bişirdi qoydu ojağın üsdünə. "Özüm də çıxım" deyəndə, oğlan qalxır bunu tutur.

– De görüm, sən kimsən? – deyəndə deyir ki, mən sizin bajınızam. Mən dediyim təki nə var hamısını nağıl eliyir buna. Deyir ki, mən sizin bajınızam, atamız da öldü, anamız da öldü, məni bir qarğa gətirif bura çıxarıf. Sizin həris bajınız mənəm.

Deyir:

– Onda bajı, sən get gizdən, qoy qardaşdarım gələndə mən muşduluxluyum oları. Sən birdən-birə oların qavağına çıxma.

Deyir:

– Yaxşı. Mənim də gizdənməyimin məqsədi odur ki, birdən-birə sizin qarşınıza çıxmıyım.

Qız genə gizdənir. Qardaşdarı gəlir, surfa salıllar. Böyüh qardaş deyir:

– Əlizi saxlıyın, gedin bajımızı gətirin.

Gətirir bu almanı iyliyə-iyliyə, qoxluya-qoxluya ötürüllər, nöybə gəlif qızı görən qardaşa çatanda bu, almanı dişdiyir. Dişdiyif yeyəndə qardaşdarın buna ajığı tutur ki, ə vijdansız, adam da bajısını dişdiyər? Niyə dişdədin sən onu? Axı, o, bizim bajımızdı. Deyəndə deyir:

– Ə qardaş, dəli olmuyun. Bu almadan bizə bajı olan dəyil. Bizim özümüzün bajımız var, gəlif çıxıfdı.

Durur gizdəndiyi yerdən qızın qolunnan tutuf gətirir. Deyir:

– Bizim bajımız budu. Qız başına gələn əhvalatı nağıl eliyir. Deyir ki, o vaxdı ələyi xayın qonşu dəyişdirifdi. Anam-atam öldü, məni də qarğa gətirif bura çıxarıfdı. Bular sevinir. Bajılarını gözdərinin içi təki saxlıyıllar. Gedəndə deyillər ki, bajı, biz gedirih, bura dev qismidi. Birdən nə badə biz gəlməmiş qapını kiməsə açasan, nə də bir yana çıxasan. Dev vilayətidi bura. Səni görəllər, götürər gedəllər.

Bu qızın da bir pişiyi olur. Bir gün qız ət doğruyanda pişih gəlir onun yanında o tərəfə, bu tərəfə gedir. Bir tikə götürəndə qız pişiyin burnunun üsdünə vurur ki, tikəni niyə götürürsən, hər qardaşıma bir tikədir. Bu pişiyə ajığ gedir. O vaxdı da yanacax yoxuymuş. Közü



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

küllə basdırıf od saxlıyırdılar. O odnan üfürə-üfürə ojax yandırarmışdar. Külün içində bircə dənə köz varmış. Pişiyin ajığı tutur, gedir külü eşəliyir, közün üsdünə işiyir, közü söndürür. Qız gəlir ojağı qalamax isdiyəndə görür köz sönüf. – "Ay Allah, neyniyim, nətər eliyim? Qardaşdarım gələjəh, aj qalajax. Közü hardan alım, ojağı nətər yandırım?" Durur o tərəf, bu tərəfə baxır. Görür ki, uzaxdan bir tüsdü gəlir. Deyir: "Hə, gedim qardaşdarım gəlməmiş o tüsdüdən bir od gətirim ki, qardaşdarım gəlincə ojağı yandırım, yeməyi bişirim".

Durur gedir, gedir, gedir. Gəlir görür ki, bura bir devin məkanıdı. Qapını açır, görür burda bir qız saçınnan asılıdı. Bu qızı saçınnan açır, yerə qoyur. Deyir:

– Ay bajı, bu nədi?

Deyir:

– Ay bajı, sən hara, bura hara! Bura bir devin məkanıdı. Dev mənə zulum verir, qaş, burdan canını qurtar. Dev gəlsə səni də mənim günümə salajax.

Deyif:

– Bajı, bəs mən gəlmişəm od aparam.

Deyəndə deyif:

– Vallah bajı, dev közü sanıyır qoyur gedir, mən onu verə bilmərəm. Get ordan bir balta gətir, o közün birinin böyrünnən kəs götür. Da bütöy verə bilmərəm. Dev gəlif sanıyajax, köz kəm olsa, məni o köznən dağlıyajax ki, kim gəlif gedif.

Bu közdən bir az kəsir, qoyur əysinin arasına. Alır üfürə-üfürə düşür yola. Qızın civində də bir ip yumağı olur. Qapıdan çıxanda ip yumağının uju ilişir qapının kandarına. Qapını örtür, ipin uju qalır qapıda. Qız gedir, yumax çözələnir, qız gedir, yumax çözələnir. Tay gedir evə, ojağı yandırır, yemək bişirir.

Bu burda öz işində olmaxda olsun, görəh dev nağarır? Dev gəlir bura, deyir:

– Burdan adam-badam iysi gəlir, yağlı badam iysi gəlir. Qız, de görüm bura kim gəlif?

Qız deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A dev, sənin qorxunnan bura quş gəlsə qanad salar, qatır gəlsə dırnax salar.

Bu gedir közü sanıyır, görür köz hamısı düzə-düzdü. Amma bir közün böyrünnən kəsilif. Deyif:

– Bura kim gəlif de. Közün böyrünnən kəsilif.

Dev ora-bura baxanda görür qapıda ip yumağının uju. Bu yumağı alır əlinə, sarıya-sarıya gəlir. Gəlir bu yeddi qardaşın kahasına. Qapını döyür. Qapının yeri varmış. Qız burdan baxır ki, devdi. Deyif, ay dadi-bidad, qapını aşsam, dev məni yeyəjəh. Deyir ki, yox, qardaşım gəlmiyincə qapını aşmaram. Dev deyir ki, qız, qardaşdarınnan sənə məytuf gəlif. Bax, bu üzüyü qardaşdarın sənin üçün göndərif. Barmağu çıxart, bu üzüyü taxım barmağuna qardaşdarınnan nişanədi. Deyəndə qız barmağını qapının deşiyinnən çıxardanda dev bu qızın barmağını salır ağzına o qədər çeyniyir, sorur, qızın bütün bədəninin qanını sorur. Qız huşunu itirir, yıxılır qalır burda.

Axşama qədər qız qalır elə heylə ölü vəziyətdə. Axşam qardaşdarı gəlir qapını açıf görüllər nə! Bajıları behuş halda yıxılıf bunnan ona. Ay Allah, nətər eliyəh, nejə eliyəh. Nəysə, bajılarını ayıldıllar.

– A bajı, sənə noldu?

Qız başına gələn əhvalatı qardaşdarına deyir. Deyir:

– Bajı, bəs sənə demədih bura dev məkanıdı, burdan sən heş yana çıxma.

Deyir:

– Qardaş, nə bilim, sizə qıymadım da. Gələrdiz, aj-susuz qalardınız.

Deyəndə deyir ki, yaxşı, belə oldu, oldu. Evin içinnən bir quyu qazıllar. Bu quyunun içinə oxdan-qılışdan o qədər doldurullar ki, üsdünü də örtüllər, gəvəynən, xalıynan bəziyillər. Deyillər devi qonax çağırax. Bu devi qonax çağırıllar. Ay burdan otur, ordan otur. Dev ayağını atan təki düşür quyuya. Bu quyuda nizələr batır bunun qarnına. Qılış bunu doğruyur, burda ölür. Devi burda basdırıllar. Deyillər ki, bajı, elə elə bu dev basdırılan yerə su damcısı düşməsin. Əgər bir damcı su düşsə, bu dev diriləjəhdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nəysə, bu qız bir müddət burda ehtiyatnan işdiyir. Bir gün qız evə su çiliyəndə gedir dev basdırılan yerə iki damcı su düşür. Su düşəndə hər damcının yerinnən bir dənə qəşəh gül bitir. Bu gülləri qopardır, deyir: "Nə gözəl güldü, gələndə verərəm qardaşdarıma". Gətirir gülləri saxlıyır. Qardaşdarı gələndə deyir:

– Qardaş, burda hərrənirdim. Daşın divində qəşəh güllər bitmişdi.

Bunun hərəsin verir bir qardaşına. Birini böyüh qardaşına, birini kiçih qardaşına. Bular gülü alır iyliyən təki bu gülün hərəsi çevrilir olur gözəl bir qız. Bajıları deyir ki, madəm qardaş, belədi, bu qızdarnan evlənin. Bu qardaşdar devdən əmələ gəlmə qızdarnan evlənillər.

Bular bir müddət belə dolananda həmən gəlinnər – dev cinsinnəndi axı, – başdıyıllar qıza düşmançılıx bəsləməyə. Neyniyəh, nejə eliyəh bu qıza. Bu qız da hər axşam mənim təki qurtum-qurtum su içərmiş. Bir gün bu gəlinnər qavda-qaşığda nə qədər su var hamısını boşaldıllar, qoymullar qavda su qala. Narxatın yatır. Gejə bərk susuyur.

– Susunnan dilim yanır, – deyəndə gəlinin biri deyir ki, Narxatın bajı, durum su gətirim saa. Deyir:

– Hə.

Durur gedir çömçəquyruxlu sudan qavı doldurur, gətirir verir. Narxatın içir. Bu qurbağalar gedir bunun qarnında böyüyür. Qarın şişir, eybəcər hal alır. Qardaşdarı deyir:

– Bajı, de görəh hamiləsən, nədi?

Bu and-aman eliyir ki, a qardaş, vallah, mən dünyada sizdən başqa naməhrəm üzü görməmişəm. Heş mən hamilə də deyiləm. Nəysə, bu belə bir dərtdi. Bu arvatdar qardaşdarın başını yeyir. Bular da deyir:

– Bajımız onsuz da nə ölüdü, nə diri. Öldürə də bilmirih. Bunu götürəh aparax uzax bir yerə tulluyax, ölsə də orda ölsün, gözümüz görməsin.

Nəysə, durullar bu bajılarını qoyullar atın belinə, aparıllar. Bir yeddi yolun ayrıcında qoyullar yerə, deyillər:

– Bajı, sən otur burda, biz gedəh ovluyax-quşduyax gətirəh.

Bular oraynan hərrənif qayıdıf gəlillər öz yerrərinə. Qız bir gün, iki gün qalır. Nəysə, bu yolnan bir çoban keçirmiş, qoyun



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

otarırmış. Görür bir zarıltı gəlir. Elə belə hərrənəndə görür gözəl bir qızdı, bunun qarnı şişif oluf təpə. Bunun başı da təbabatdan çıxırmış. Qızı götürür gətirir, bunun qarnını yarır. Görür nə? Qızın qarnında ilan-qurbağa balalıyıf. Bu qızın qarnında nə var tamam boşaldır, təmizdiyir, dərmannıyır, tikir. Qızı sağaldır. Qız olur əvvəlki Narxatın. Qız burda tamam sağalır. Çoban ona deyir ki, Allah səni mənim qismətimə yetirif. Elə gəl mənnən evlən. Mənim də bu gen dünyada tək canımdı, bu qoyunnan, malnan günümü keçirirəm. Qız baxır görür ki, tay əlacı yoxdu, razılığ verir. Cobannan evlənir. Gəlir çobannan bunun bir dənə oğlu olur.

Qız bir gün çıxıf qəlvi yalda oturmuşmuş. Görür qardaşdarı odurana, yeddi atdı gedir ova. Deyir hə, demək mənim qardaşdarım bu səhralara gəlir. Uşax gəlif dörd yaşına çatmışmış. Bir gün bu, çobana deyir o gedən atdılar kimdi. Coban deyir bu səmtdə yeddi qardaş yaşıyır. Həmişə gəlillər buralarda ceyran-cüyür ovluyuf, gedillər. Qavaxlarda uşaxlar aşıx-aşıx oynuyurdular. Bu, iki dənə aşıx qayırır, verir oğluna, deyir:

– Gedərsən o yeddi yol ayrıcında oturuf aşıx-aşıx oynuyarsan. O yeddi qardaş gələndə deynən gəl aşıx-aşıx oynuyax. Oynuyanda deynən:

Aşığım, toxan dur,
Aşığım, toxan dur.
Yeddi dayının kimsəsiyəm,
Narxatının törəməsiyəm.

Bu sözü yadında saxla. Onda sənnən soruşajaxlar, deyərsən mənim yeddi dayım var, Narxatın addı anam var. Olar görəh səə nə deyəjəhlər.

Nəysə, bu uşağı örgədir yola salır. Uşax gedir yolun ortasında oturur, başdıyır aşıx-aşıx oynamağa. Yeddi qardaş da gələndə uşağa həvəsiyir.

– A oğul, kimin oğlusan, nə iş görürsən?

Deyir ki,

Aşığım, toxan dur,
Aşığım, toxan dur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yeddi dayının kimsəsiyəm,
Narxatının törəməsiyəm.

Deyəndə olar deyir:

– Ay oğul, onu bir də de görüm.

Bir də deyəndə deyillər:

– Bala, Narxatın kimdi, yeddi dayın kimdi?

Deyir:

– Mənim yeddi dayım olur, anamın başına bu müsibəti açıllar. Anam yaşıyır, bir çovannan evlidi, mən də onun oğluyam.

Bular deyir bizi anaan yanına götürərsənmi? Bu deyir götürərəm. Bu, dayılarını gətirir. Baxıf görüllər ki, həmən bajılarıdı, sappasağlam, nə şişi var, nə köpü. Bunnan hal-əhval tutullar. Qız başına gələni deyir. Deyir:

– Qardaş, bəs o güllər devin qavrında bitmiş güldü. O qızdar həmən güldən əmələ gəlif. O qızdar mana düşmançılıx elədi, mənə qurbağa çəmi olan su verdilər. Onnan da qurbağa mənim qarnımda böyüdü, şişdi. Çovan gətdi qarnımı aperasiya elədi, təmizdədi, onnan da evlənmişəm, o da mənim oğlumdu, – deyəndə deyillər hə, deməк o devin duşmançılığı bizdən getmiyif də. Qardaşdar gəlif bu arvatdarını öldürüf aparıf kənar bir yerə tulluyullar. Bu qızdarın qanınnan dağa-daşa sıçrıyır. İzin alıf bajılarını gətirillər. Bajı-qardaş burda başdıyıllar dolanmağa.

Yazın tayçıx vaxdıymış. Ot, pencər bitən vaxdında qız görür daşın divində bir topa göy pencər bitifdi. Yığır deyir: “Allah haqqı, bunu aparıf bişirəjəm, qardaşdarım yesin. Nə gözəl pencərdi bu”. Bu şomunu yığır, gətirir bunu qəşəh doğruyur, qavırır, qoyur qardaşdarına. Az olur deyənə bunnan heş dilinə vırmır. Deyir dəyməyim, qoy qardaşdarım yesin doysun, mən yavan çörəh də yeyərəm. Axşam olur, bunun qardaşdarı gəlir. Gəlir oturullar, gətirir buların qavağına qoyur. Bu pencərdən qardaşdarı yeyən təki hamısı dönür olur qoyun. Bu qız başdıyır ağlıya-ağlıya: “Ay dadi-bidad, bu devin qanı hələ burdan getmiyif”. Günüz axşama qədər ağlıya-ağlıya bu qoyunnarı qatır qavağına aparır otarır, axşam gətirir yığır kahaya. Bir müddət belə-belə. Bir gün də aparıf qoyunnarı otardığı yerdə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bir nurani şəxs, başına döndühlərimdən, hər vaxdı səması gözümüzə görühsün (söyləyici salavat çəkir – top.), gəlir buna deyir:

– A qızım, niyə ağlıyırsan?

Deyif:

– Bəs ay ağa, Allahdan gizdi deyil, bəndədən nə gizdin. Bu yeddi qoyun mənim qardaşımdı. Bulara bir pencər bişirmişəm, yeyən təki hamısı oldu qoyun.

Deyir:

– Qızım, dinmə, mən sənin qardaşdarının hamısını öz halına qaytarajam. Amma mən qardaşdarının hərəsinin belinə bir agaj vurajam, sən qəti uf eləmə. Uf eləsən, olmuyajaxdı.

Ağacı götürüf bu qoyunnarın belinə vuran təki çörükür adam olullar. Ən balaja qardaşın o qədər çox isdiyirmiş ki, balaja qardaşını vuranda qız deyir:

– Uf, elə bil öz belimə dəydi, – deyəndə elə helə də qoyun qalır. Ağa qıza deyir:

– Gözu yum.

Qız gözünü yumur, bunu ikinci dəfə bir də vurur. Bu yeddi oğlanın yeddisi də gənə heylə öz halına qayıdır. Bajılarını da götürüf gəlillər öz ata yurtdarına.

Cəmi ata-ananın yurdunda Allah-tala oğul evladını yurdçu eləsin, sizi də öz ataza-anaza gözü dolusu versin mənim oğlannarımnan birlihdə. Allah heç atanın yurdunu oğulsuz, heç ananın gorunu qızsız eləməsin. Cəmi bəndənin evladını versin, taysızdarın tayını versin, paysızdarın payını versin. Ramazan ayı xatirinə, cəmi bəndələrin arzu-diləyini hasil eləsin, yol üsdündə olannarı yollarını qəzasınnan qorusun, səfərə gedənnəri Allah-tala Museyi Kazımın zamınına versin, qəriblikdəkiləri qərib İmam Rzanın zamınına versin, hamının urzasını bol, canını sağlam eləsin.

## 8. TISBAĞA QIZ

Bir şah olur. Bu şahın devrində belə bir adət varmış ki, evlənməh vaxdı çatanda qızdarı yığıf meydan açırmışdar. Qızdara alma verərmişdər ki, hansı oğlanı sevsə, almanı o qapıya atarmış, onnan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

evləndirərmişdər. Oğlannara ox-yay verərmişdər, kimi isdəsə, o qapıya atarmış, onnan evləndirərmişdər. Bir padşahın da üç oğlu vardı. Deyir ki, oğlannarımın evlənməh vaxdıdı. Buları gərəh evləndirəm. Meydan açır, car çəkdirir bütün camaatı yığır. Böyüh oğluna ox-yay verillər. Böyüh oğlu atır, vəzirin qapısına düşür. Ortancıl oğlu atır, vəkilin qapısına, kiçih oğlu yayı dartır, oxu boşduyanda ox gedir, gedir dənizin qırağında bir qazdıx* yerə düşür. Deyillər yox, ox səyf getdi. O vaxd üş dəfə atarmışdar. Üşdən nə artıx olmazdı, nə əysik. Üş dəfə oxu atıllar, üçücüdə də gedir bu kiçih oğlun oxu düşür bu qaznağa. Deyillər ki, belə oldu, bunun qisməti budu. Padşah camaatı dəvət eliyir, toy məclisi qurulur. Yeddi gün, yeddi gejə toy eliyir. Böyüh oğlunu vəzirin qızıynan, ortancıl oğlunu vəkilin qızıynan evləndirir. Bulara da deyir ki, indi ki belə oldu, hərəəzin ayləsi bir gün kiçih qardaşuza xidmət eliyəjəhdi. Yeməyini, işməyini verər, palını-paltarını yuyar.

Nəysə, bu gəlinnər hərəsi bir həftə, iki həftə buna qulluğ eliyillər. Yavaş-yavaş yaddan çıxır. Bir dəfə oğlan gəlir görür yatağını nətər qoyuf gedifsə, yatağ yığılmıyıf, elə heylə qalıf. Bir dəfə görüf paltarını nətər soyunuf qoyufsa, elə heylə qalıf. Bir dəfə gəlif görür yemək buz təki. Bir dəfə gəlir yeməh heş yoxdu.

Bir gün durur gəzməyə çıxanda, deyir: "Əşi, gəlmişəm gəlmişəm, bir görüm bu nətəri şeydi. Allah-taladan mənim qismətim nə idi. Boş yerə mənim oxum niyə getdi? Heş kasıbın, nökərin də qapısına düşmədi. Mənim qismətim niyə yoxdu? Gedif vallah ora baxajam". Gəlif ora baxanda görür ki, bu qaznağın içində bir dənə tısbağa var. Deyir Allah-tala, madam ki mənim talehim bu tısbağadı, vallah bu tısbağanı götürüf aparajam. Götürür bu tısbağanı, qoyur heyvəsinə, gətirir evə. Keşmiş evlərdə buxarı olurmuş. Buxarı yerinə qoyur, qavağına da yer-yeməyini qoyur.

Bir gün oğlan gedir, qayıdıf gələndə görür ay allah, bunun evi nətəri təmizdənif, yığılıf, yığışdırılıf, gülab səpilif. Evə girirsən adamı müşkü-ənbər iyi bürüyür. Elə yeməh bişif ki, tay bu ləzzətdə

* qazdıx – qazılmış



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yemәh görmüyüf. Para da qızıl alma qoyuluf bunun yemәyinin yanına. O diyarda da qızıl alma olmazmış. Deyif:

– Hә, yәqin atam bilifdi ki, qardaşım arvatdarı mәnә qullux elәmәdi. Atam özü mәnim evimi-eşiyimi belә tәmizdәdif. Bu yemәh dә atamın mәtbәxinnәn gәlif, bu qızıl alma da hardasa atama hәdiyyә gәlif, bunun parasını mәә verif.

Nәysә, bu yeyir-içir. Gәnә hәmişәki tәki durur yatır. Savah ertәdәn gedir. Qayıdır gәlir, görür gәnә heylәdi, eyni vәziyәtdi. Mәhәtdәl qalır. Deyir balam, atamnan indiyәtәn çıxmaz iş. Bu, nәtәr ola bilәr. Pusajam görüm bunu kim eliyir. Üçüncü günü durur evdәn çıxır, gedir gizdәnir. Başdıyır pusmağa ki, görüm mәnim evimin şәrayitini belә eliyәn kimdi. Atamın vilayәtindә bu müşküәnbәr iyini mәn hәlә almamışam. Bu qızıl alma olmuyuf. Bunu bir dәfә atam mәnim üçün elәsin. Axı hәr gün, hәr gün elәmәz. Bu pusur, görür ki, yavaşcadan buxarının qapağı düşdü yerә, tısbağa çıxdı çölә. O tәrәfә, bu tәrәfә boylandı, gördü heş kәs yoxdu. Qınınnan sivrildi çıxdı, oldu dünya gözәli bir qız. Oğlan bunu görәndә az qalır huşunu itirә. Hannan-hana özünü әlә alır. Görür bu qız getdi qavaxcan girdi hamama, yuyundu, darandı, bәzәndi, düzәndi. Elә bir gözәl oldu ki, günә, aya bәrabәr. Gözdüyür görür ki, bişmişi dә bu bişirdi. Özü dә qoynunnan bir alma çıxartdı, parasını böldü öz yemәyinin üsdünә qoyuf özü yedi, parasını da bu oğlanın surfasına qoydu. Yedi, işdi, sildi, süpürdü, getdi girdi qınına, oldu tısbağa. Dedi hә, mәnim demәk qismәtim buymuş.

Bu gün keçir, sәhәri gәnә pusur. Qız çıxanda qızı tutur. Deyir:

– Ey zalım qızı, neçә vaxdı mәni dәli-divanә elәmisәn. Mәn deyirәm mәnim qismәtim yoxdu. Mәnim qismәtim heş demә sәnsәn. Bәs niyә gizdәnirsәn?

Qız buna yalvarır, deyir:

– Oğlan, mәni boşda. Gәnә, bax, bu qayda ömrümüzün axırına qәdәr sәnә xidmәt eliyәjәm. İntaası mәn pәrilәr qızıyam, mәni bәni-insan görsә, mәnim üsdümdә sәnә çox bәlalar gәlәr. Mәni boşda gedim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir ki, burda heç kim olmaz. Evdən çölə çıxmıyessan. Tısbağanın çanağını götürür, pəncərədən atır çilihliyir, qırır. Qız qalır naəlac. Nəysə, bular başdıyır burda ömür sürməyə.

Bir gün sübh tezdən qız duruf küləfirəngidə saçını daradığı yerdə bu nəhlətdəmə qaynatası tezdənnən duruf dəsdamaz üçün çıxıf. Görüf kiçih oğlunun işığı yanır. Buna tərəf baxır ki, balam, kiçih oğlumun niyə işığı yanır, bu yatmıyıfdımı? Baxıf görür ki, kiçik oğlunun küləfirəngisində bir qız var ki, vallah, deyirsən aydı, gündü. Padşah bunu görəndə huşunu itirir, yıxılır. Hannan-hana vəzir-vəkil tökülür:

– Ay padşah, bu nə idi, nədi?

Padşah deyir ki, vəzir, ölürəm. Kiçih oğlumun küləfirəngisində bir qız görmüşəm, ona aşiq olmuşam. Bilmirəm, nətər eliyirsən elə, o qızı məə almalısız. Vəzir deyir ki, padşah, gözdə görüm o qız nədi, onu sənin oğlun hardan gətirif. Yəqin sənin oğlun hardasa o qızı görüf bəyənif, gətirif. O sənin oğlunun arvadı ola bilər. Bütün şahlar, bütün ölkə sənə nifrət eliyər, əgər sən arvadı oğlunun əlinnən alsan. Qoy görəh bir yönnən birtəri eliyə bilərihmi.

Nəysə, vəzir öyrənir ki, bu bunun kiçih oğlunun arvadıdı. Gəlif deyir:

– Padşah sağ olsun, o sənin kiçih oğlunun arvadıdı, onu sən zornan ala bilməzsən.

Deyir:

– Bilmirəm vəzir, tez bir tədbir görginən. O qızı məə çatdırmasaz çatdıyıf öləjəm.

Deyir:

– Onda padşah sağ olsun, sən özünü vur xəsdəliyə. Devlər diyarında bir qazan var. Oğluna deynən get, o qazanı məə gətir, o qazanda su qızsın, mən çimim. Əgər çimməsəm mən öləjəm. Əgər oğlun sənin sözünnən çıxsa, qəzəflənif boynunu vurdurarsan. El sənnən nifrət eləməz. Deyəllər atasının sözünnən çıxdı, atası qəzəflənif elədi. Yox, gedərsə, ölər, qız qalar səə. Gənə də heş kəs səə bunu noksan tutmaz. Dul qalmış gəlindi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Padşah özünü vurur azarrığa. Car çəkdirir oğlannarım gəlsin. Oğlannarı gəlir.

– Ay ata, noluf, nədi?

Deyif:

– Oğlannarım, bəs devlər diyarında bir qazan var, gərəh o qazan gələ, onda su qıza, mən çiməm, yaxşı olam. Yoxsa təbiblər deyir öləjəm.

Bu oğlan məlil-müşkül deyir:

– Ay ata, mən devlər diyarını hardan tapım?

Deyir:

– Mən bilmirəm. Səə möhlət verirəm, əgər gətdin gətdin. Gətirməsən boynuu vurdurajam.

Oğlan məlil-müşkül qayıdır evə. Qız deyir:

– Oğlan, nədi, de görüm atan səni nə işə buyuruf. Səə dedimmi mən sənin başına bəla açajam. Bu mənim ujumnandı. Sənin atan məni hardasa görüf, mənə aşiq oluf. İndi de görüm, atannan möhlət aldınmı?

Deyif:

– Yox.

Deyir:

– Get üş gün möhlət al.

Qayıdıf gedif atasınnan üş gün möhlət alır. Üş günü bular yeməhdə, işməhdə, kefdə-damaxda. Üçüncü günü deyir:

– Oğlan, dur get məni gətirdiyin həmən o çalada nənə, nənə deynən çağır. Nənəm gələjəh. Ona deyərsən qızın deyir ki, balaja qazanını versin, lazımdı. Sənin sohrasıynan işin yoxdu.

Durur gəlir. Həmən çalada çağırır:

– Nənə, nənə.

Burdan bir qara örpəhli qarı çıxır.

– Can bala, nədi, de görüm qızımın nə ehtiyacı var?

Deyir:

– Nənə, qızın deyir ki, balaja qazanını versin, gərəyimdi, – deyəndə deyir ki, oğlum, məni burda gözdə, gələjəm. Bir də görür əyə, balaja qazan nə qazan. Dünyanın yarsı boyda qazan. Yeddi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

öküzün qatarına qoşuf heçə-heçnən sürüyə-sürüyə gətirir. Gətirdi verdi bunu oğlana. Dedi:

– Get bala.

Oğlan dünyanın yarısı boyda tiyanı sürüyə-sürüyə gətdi şəhərdən qıraxda saxladı. Gəldi atasına dedi ki, ata, bəs qazanı gətirmişəm. Padşah bir gün axşamatan su daşıtdı ki, bu qazanı suynan doldura. Padşah xəsdə idi? Padşahı azar başqa yerinnən tutmuşdu. Padşah çimir ayılır. Deyir:

– Vəzir, işimiz baş tutmadı, oğlan sağ-salamat qayıtdı gəldi.

Dedi:

– Padşah sağ olsun, gənə özünü azarrığa vur. Deynən oğlun getsin devlər diyarında qarpız var, onu gətsin.

Nəysə, bir də oğlunu çağırır. Deyir:

– Oğlum, bəs indi də həkimlər deyir ki, devlər məkanında bir qarpız bitir, gərəh o qarpız gələ, onnan yeyəsən. Əgər o qarpızdan yeməsəm, öləjəm.

Oğlan nə qədər eliyir, deyir:

– Yox ey, getməsən boynuu vurdurajam.

Əlacı olmur, oğlan gənə məlil-müşkül qayıdır. Qız deyir:

– Hə oğlan, de görüm indi atan səni hara göndərir?

Deyir:

– Bəs indi də atam elə yerə göndərir heş olmuyan. Deyir ağ devin diyarında bir qarpız var, onu gətir. Mən nə bilim ağ devin diyarı haradı?

Deyir:

– Onu qəm eliyirsən? Onu özüvə qəm eləmə. Get atannan bir həftəlih möhlət al.

Gedir atasınnan bir həftəlih möhlət alır. Gəlir bu bir həftəni də gənə burda kefdə-damaxda keçirillər. Həfdə tamam olanda deyir:

– Oğlan, gedərsən gənə nənəmi çağırarsan. Deyərsən ki, qızın deyir mənə bir dənə balaja qarpız qırsın versin. Sohrasıynan işin yoxdu.

Bu durur gedir, burda çağırır:

– Nənə, nənə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Həmən arvad çıxır:

– Nədi bala, qızım səə nə əziyət verif gənə.

Deyir ki, nənə, qızın deyir bosdannan mənə balaja bir qarpız qırsın versin. Deyir:

– Oğlum, burda dur, gəlirəm.

Bu gedir. Görür gənə yeddi kəldi, dağ boyda bir qarpızı sürü-yə-sürüyə gətirir. – "Ay Allah, bu nədi, bu hara gedəndi".

Deyir:

– Oğlum, ala apar. Qızıma deynən səni bir də belə əziyətdərə salmasın.

Gedir. Bu qarpızı heçə-heçnən gətirir. Şəhərin qırağında sax-lıyır. Gəlir atasına xəvər verir ki, bəs ata, qarpızı gətdim. Dəhrəy-nən, baltaynan qarpızı çapıllar. Bütün şəhər darışır bu qarpıza ye ki, yeyəsən. Qarpız hara qutarandı? Bunnan bir az yeyir, zəhəri olsun. Bunun azarı vardı? Deyir:

– Vəzir, tədbir gör, indi neyniyim? Oğlum gənə salamat qayıtdı.

Deyir:

– İndi şah sağ olsun, bu dəfə oğluu elə yerə göndərəjəm ki, heş gəlməsin.

Deyif:

– Nədi?

Deyif:

– Deyərsən ki, bəs oğlum, görürəm hər şeyə sən bajarıxlısan. Anan öləndə mənim padşah nişanası olan üzüyüm onun barma-ğında gedif. Anaa tapıf mənim üzüyümü gətirərsən. Əgər üzüyüm gəlməsə, Misir padşahı mənnən davaya çıxajax. Ona da güjüm çatan deyil, bizi yernən-yeksan eliyəjəh. Ya padşahlıx nişanam olan üzüyü verəm, ya da davaya girəm. Onda getməzsə, əlində bəhanən olar, öldürərsən. Gedərsə də, ölər qalar.

Nəysə, bu oğlunu çağırır. Bir də deyəndə deyir:

– Ay ata, insaf elə, mürvət elə. Anamın sümühləri də çürüyüf. Mən nə bilim anam hardadı. Anamın qavrının da yerini bilmirəm.

Deyir:

– Yox ey, əgər getməsən boynuu vurdurajam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nəysə, oğlan qəm dəryasına batmış gənə qayıdır. Qız deyir:

– Oğlan, de görüm indi atan səni hara göndərir?

Deyir ki, atam deyir get, anaan barmağında mənim padşah nişanam olan üzüyüm qalıf, onu gətir. Mən neyniyim? Mən anamı hardan gedim tapım?

Deyir:

– Oğlan, qəm eləmə. Get bir aylıx möhlət al gəl.

Gedir bir aylıx möhlət alır, gəlir. Bu bir aylıx möhlətin on beş gününü gənə burda kef eliyillər. On beşinci gün deyir:

– Oğlan, dur get. Nənəmi çağır, nənəmə deynən səni aparsın, gətsin.

Oğlan durur halallaşır, hümmətləşir, gedir. Çağırır:

– Nənə, nənə.

Nənə çıxır. Deyir ki, nənə, bəs məni apar gedim nənəmin barmağında üzüh var, onu alım gətirim. Deyir:

– Ay oğul, Allah səni göndərənə nəhlət eləsin. Səni göndərənin nəsə məqsədi var, səni ölümə göndərir. Sənin atan sənin düşmanındı. Səni aparajam, amma bilginən ki, atan sənin ölümüvə çalışır. Deyir oğul, min dalıma, yum gözdərini. Mən havaxt deyəndə onda gözü açarsan.

Bu oğlan minir nənənin dalına, gözünü yumur. Nənə bunu gətirir. Ayağı yerə dəyəndə deyir:

– Oğlum, aş gözüü.

Oğlan gözünü açır. Görür elə bir məkandadı ki, bu yerrəri bu görmüyüf. Deyif:

– Oğul, burdan belə mən gedə bilmərəm. Buraynan belə get, nənəə tapeysan. Gələndə gənə burda məni çağırarsan, səni çıxardajam işıxlı dünyaya.

Oğlan bir az gedir, görür bir qapı var. Bu qapını açır, keçir gedir. Görür gənə bir qapı da var. Bunu da açır. Görür bir nəfər lüt bir adamdı, bir az yumurta yığıfdı. Bu, yumurtanı qujağına yığır, aşır tökülür. Torbası yox, heyvəsi yox, paltarı yox. İpin arasına yığır, aşır tökülür. Bu yumurtanı yığıf topalıyıf götürə bilmir. Əl-ataş oluf. Topalıyır, dağılır, bir də topalıyır, bir də dağılır. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay qardaş, bu nədi? Bir heyvən yox, bir torvan yox, bir qavın yox. Bu nə zulumdu sən çəkirsən?

Deyir:

– Qardaş, dinmə, get, gələndə deyərəm. Bu mənim öz ejirimdi, çəkirəm.

Nəysə, bunnan aralanır gedir. Görür bir qapı var. Bu qapını da açıf keçəndə görür bir çılpax adamdı, qaratikan kolunu yığıf, bu kolu bir-bir qoyuf üsdə, qujağına ala bilmir. Lüt adamdı, ipi yox şələ çəkə. Elə bu kolu yığır, tökülür, yığır, tökülür. Əsir-yesir oluf. Deyif:

– Ay qardaş, bu nə zulumdu çəkirsən? İpin yox, kəndirin yox, bir ulağın yox.

Deyir:

– Qardaş, dinmə, bu mənim ejirimdi çəkirəm. Get, gələndə deyərəm.

Bunnan da aralanır gedir. Bir qapı açır, keçəndə görür bir nəfər lüt adamdı, saşdarınnan bağlıyıflar göydən, əyağının altında bir ojax yanır. Əyağının altına bir dənə isdəkan qoyuflar. Od vurduxca davanınnan damcı-damcı yağ əriyif düşür isdəkana. Düşən təki yox olur. Deyir:

– Ay bajı, bu nə zulumdu sənə verilif?

Deyir:

– Dinmə, a qardaş, öz ejirimdi, çəkirəm. Get, gələndə deyərəm.

Bunnan da aralanır gedir. Bir qapı açanda görür burda da bir dənə taxt quruluf. Bir dənə cavan oğlandı, oturuf bu taxdın üsdündə, bir dənə qara ilan sallaşıf, bunun barmağını ağzına salıf sorur. Bir dənə də pis, eybəcər, cəhcəki qancıxdı, üzdən irağ, bax bunun taxdının ayağında həy-həy eliyə-eliyə ağzını atır ki, bunu tuta, tuta bilmir. Cəh-cəh cəngildiyir. Day səsinnən-küyünnən bezar olur. Deyir:

– Ay qardaş, bu nə işdi, bu qancıx nədi? Bunu vur, aralanıf getsin. Bu ilan nədi sənin barmağını sorur?

Deyir:

– Qardaş, qardaş, bu mənim ejirimdi. Get, gələndə deyərəm.

Nəysə, bunnan da aralanır keçir gedir. Bir qapı açanda görür nənəsi oturuf. Nənəsi bunu görəndə qalxır:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay oğul, xoş gəldin, beş gəldin. Niyə gəlmisən?

Deyir ki, ay nənə, bəs dədəmin padşahlıx nişanası olan üzüyü səndə gəlif, gəlmişəm üzüyü aparam. Bu, barmağınnan üzüyü çıxardıf verir. Deyir:

– Bala, dədəə deynən ki, nənəm dedi ki, üş günətən mənim yanıma donquz sifətində anqıra-anqıra gələjəh. Atan sənin ölümüvə çalışır. Nəyə bir belə sənə əziyət verir?

Nəysə, bu anasıynan halallaşır, hümbətləşir. Üzüyü alır qayıdır geri. Gəlir həmən o barmağınnan ilan sallaşan oğlanın yanına. Deyir:

– De görüm qardaş, bu nə cəzadı?

Deyir:

– Qardaş, o dünyada sağ vaxdı mən çox dosdpərvər, tanış tutan, yeyən-içən bir oğlan idim. Görürsən bu qancıx da mənim anamdı. Mən hər dəfə gedif dosdarımnan gəzif gələndə bu anam mənim günümü qara eliyirdi. Danışırdı, danışırdı, məni canımnan bezdirirdi. Bir gün mən gedif dosdarımnan gəzif gələndə bu nənəm başdadı mənnən dalaşmağa. Anam mənnən deyişən vaxdında dosdumun biri gördüm barının dalında məni çağırır. Mən anamın qorxusunnan səsimi çıxartmadım, barmağımnan belə elədim ki, belə gəl, xəlvətcə gedərəm. Anamnan gizdin elədiyim işə görə Allahtala bu barmağımın cəzasını verir. İndi mən ölüf gəlmişəm bu dünyaya, mən gələn günnən bu ilan sallaşıf. Anamnan xəlvət belə eləməyimin cəzasıdı. Anam da ölüf, gəlif. Nə o dünyada mənə irahatdıx vermiyif, nə də bu dünyada. İndi o mənim anamdı. Nə onu döyə bilirəm, nə vura bilirəm. Get qardaş, sənə dediyim odu ki, nə yaxşılıx bajarırsan o dünyada elə, bu dünyaya yamannıxnan gəlmə. O dünyanın ejirini bu dünyada alallar.

Burdan da gəlir həmən o saçınnan asılan kadının yanına. Deyir:

– Ay bajı, dərdin nədi, səni niyə odduyullar?

Deyir:

– Qardaş, bəs o dünyada mən qonşudan bir isdəkan yağ borc aldım. Nətər oldusa onu qaytara bilmədim. Ajal gəldi, öldüm. İndi yağ yiyəsi gəlif bu dünyada yağını isdiyir. Mənə bu ejiri veriflər. Mənim davanımdan o yağ damcı-damcı süzülür tökülür, töküldühcə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

də yoxa çıxır. İndi neçə ildi ölüf gəlmişəm, nə isdəkan dolmur, nə də mənim canım azad olmur. O dünyanın ejirini bu dünyada çəki-rəm. Get, səə nəsihətim budu ki, o dünyada kimnən nə borc alsan, lap bir ibişka da olsa, qaytar. Bu dünyaya özünnən borc gətirmə.

Bunnan da halallaşır, düşür yola. Gəlir kol daşıyana. Deyir:

– Ay qardaş, bu nədi?

Deyir:

– Qardaş, o dünyada mən elə bir bəzzad uşağıdım ki, tay bir qonşunun qoymurdum çalı-çəpəri qala. Buyünnəri kolu qırırdılar, gətirirdilər çəpərrərin çəpərriyirdilər. Ayna gedən təki odduyur-dum, dağıdırdım, qonşu yenidən bir də qayırırdı. Qoymazdım bir qonşunun çəpərində bir kol-kos qala. İndi də ölüf gəlmişəm, çəpər yiyəsi gəlif kolunu isidiyir. Yığıf topalamışam, apara bilmirəm. O dünyanın ejiridi, bu dünyada çəkirəm. Sənə də nəsiyətim budu ki, o dünyada bir bəndənin kolunu-kosunu tərpətmə.

Bunnan da ayrılır, gəlir yumurta daşıyana. Deyir:

– Ay qardaş, sənin dərdin nədi?

Deyir:

– Qardaş, mənim dərdim odur ki, o dünyada mən qoymurdum yeddi evli qonşunun biri bir toyuğunnan yumurta götürə. Pusur-dum, toyuğ yumurtduyan təki yumurtasını oğurruyurdum. İndi də ölmüşəm, bu dünyada yumurta yiyəsi gəlif boynumun dalını kəsif, yumurtasını isdiyir. Mən yığıf topalamışam, indi bunu apara bil-mirəm. Bunun hamısını gərəh birdən aparam. İndi o dünyanın ejirini bu dünyada çəkirəm. Səə də vəsiyətim budu ki, o dünyada bir bəndənin bir yumurtasını oğurrama. Nə yeyirsən halallıxnan ye. Haram tikə boğazınnan keşməsin.

Bunnan da halallaşır gəlir. Çıxır həmən qapıya.

– Nənə, nənə.

Nənəsi hazır olur.

– Bala, gəldin çıxdın?

Deyif:

– Hə.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Oğlum, min dalıma, yum gözünü.

Minir nənənin dalına, gözün yumur. Deyir:

– Oğlum, gözü aş.

Bir o vaxt gözünü açır ki, gəlif çıxıfdı işıxlı dünyaya. Gətirif üzüyü verifdi atasına. Atası görüf üzüh gəldi. Gənə də əlacı kəsilir. Deyir:

– Bala, anan nə dedi?

Dedi:

– Ata, anam dedi ki, gedif deyərsən atan sənin ölümüvə çalışır. Üş günə qədər donquz sifətində anqıra-anqıra mənim yanıma gələjəh.

Elə Allahın izniynən üş günətən atası pis sufatnan, əzab-əziyətnən ölür. Cəhənnəm olur gedir. El-oba da yığılır, bu balaja oğlu şah qoyullar. Ömürrərinin axırına qədər heylə şad-firavan devran keçirillər. Siz də bu dünyada devran sürün, arzularuza Allah çatdırsın. Sizi şərdən, böhtannan, namərtdərin pis zavalınnan qorusun. Nağılımız burda bitdi. Göydən üç alma düşdü. Biri mənim, biri Narış nənənin, biri də nağıl danışanın. Yerdə qalan da sizin. Aparın bölüşdürün.

## 9. TACİR OĞLU

İsfahan şəhərində bir tacir varmış. Tacir çox varrı-hallı tacir imiş. Bunun da var-qərəl tək bircə dənə evladı – oğlu varmış. Deyirmiş gəzəjəm bütün dünyanı. Oğluma gərəh elə qız alım həm gözəl olsun, həmi də ağıllı. Gəzirmiş hər tərəfi. Nə qədər gəzirmiş, dolanırmış, rasdına belə bir qız çıxmırmış. Bir gün gənə ticarətdən gələndə bir isdi gündə, susuzdux yer, bərk sussuyur. Dili yanır, quruyur. Bu zonalarda su tapmır. Ayna-bayna baxır ki, harda bir şinnih tapa. Baxır görür ki, düzəngahın ortasında bir koma görükür. Bu, atını çaparaxlıyır gəlir ki, yağın o komada nəsə bir insan olar. Bura gəlir.

– Ay ev yiyəsi, ay ev yiyəsi, – deyəndə evdən bir dənə gözəl-göyçəh qız çıxır. Deyir:

– Ağa, nədi?

Deyir ki, qızım, bəs su olarmı, imam ehsanınnan?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Olar.

Bu qız gedir evdən bir qavı doldurur suynan, gətirir. Gətirir bu tacirə uzadanda görür bu tacir elə isdilənif, elə pörtüf ki, tərriyif, suya batıf. Bu suyu alıf içən təki başına çıxajax, bunu eliyəjəh xəsdə. Qız əlinnən qavı salır, suyu tökür yerə. Deyir:

– Ağa, bağışda, qoy gedim birini də doldurum gətirim.

Deyir, bir də gedif gələnə qədər bunun təri soyuyar da. Bu gedir ikinci dəfə. Bir az ləngiyir. Qavı yuyur, dolduruf gəlincə bunun təri bir az soyuyur. Gətirif bir də verəndə görür ki, təri hələ tam soyumuyuf. Bir də əlinnən vuruf tökür yerə. Tacir deyir:

– Ay qızım, sənnən bir isdəkan su isdədim. Bunu verirsən ver, vermirsən bu nədi?

Deyir:

– Bağışda baba, həyəcannan əlimnən düşdü, bilmədim. Bu saat gətirərəm.

Qız gedir üçüncü dəfə. Suyu dolduruf gətirincə gəlir görür ki, tacirin tamam təri soyuyuf. Verir suyu, bu içir. Deyir:

– Qızım, mən bir işə şübhəli qaldım. Suyu sən qəsdən tökdün. Niyə tökdün? Məni bu sirrdən agah elə.

Deyir:

– Tacir baba, sən bura gələndə o qədər bərk susamışdın ki, elə tərrəmişdin ki, o suyu mən səə versəydim, içən təki o sənin başıva çıxıf səni xəsdələndirəjəhdi. Mən onu yerə saldım ki, mən gedif ikinci dəfə gələnə qədər bir az sənin tərin soyusun, höfsələn genəlsin. İkinci dəfə gətirəndə gördüm hələ tərin tam soyumuyuf. Üçüncü dəfə gələndə gördüm hə, sənin tərin soyuyuf, o suyu nə qədər işsən də səə ziyan vermiyəjəh, – deyəndə tacir deyir:

– Ey dadi-bidad, axtardığımı tapmışam. Elə bunu mən alajam oğluma.

Deyir:

– Qızım, burda sən təhcə qalırsan?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Yox. Atam gündə gedir dənizdən bir yük balıx tutur, aparır şəhərdə satır, gəlir. Mən də burda oturuf atamın çayını-çörəyini qayırıram. Atam satır çörəh alır, şəhərdən də içməl su gətirir.

Nəysə, bunnan hal-əhval oluf gedir. Gəlir çıxır elinə-obasına. Oğlunu çağırır, deyir:

– Bəs filan yerdə qız tapmışam, ona elçi düşüf sənə alajam.

Bir dəvə yükü də qızıldan, puldan, paltardan yüklüyür, tacirbaşısı varmış, buna verir, deyir:

– Apar bunu, o qıza elçi düş, al gətir.

Tacirbaşı qızın atasınnan Allahın əmriynən, peyğəmbərin qanunuynan qızı alır, götürür qoyur dəvənin belinə. Bu varı-döyləti də verir bu qızın atasına, çıxır gəlir.

Gətirir elində, ovasında yaxşı toy eliyir. Da bu qız ağlıynan, kamalıynan, fərasətiynən bu İsfahan şəhərində ad alır, san çıxardır. O qədər mərhəmətdi, təmiz qəlbli olur, tay nə forma. Bu oğlan da arvadını o qədər isdiyirmiş ki, bir çətinniyə düşəndə arvadının başına and içirmiş.

Bir gün bunu atası çağırır ki, ay oğul, mən qojalmışam, yaşım keçir. İsfahanda ən böyüh tacir mənəm. Yanıma bütün camaat gəlir, belə getsə bütün varımız-döylətimiz əlimizdən çıxajax. Gəl bir qəflə-qatır hazırrıyım. Mən tay qojalmışam, güjüm çatmır, uzax yol gedə bilmirəm. Tacirbaşını da qoşum sənin yanıva, get Misirdə sat, sav, gəl. Camaat gəlir əliboş qayıdır.

Deyir:

– Yaxşı, nə deyirəm, ata.

Bu gəlir arvadıynan halallaşır, hümbətləşir, bir qəflə-qatır hazırrıyır. Durur tacirbaşını da alır yanına, gəlir. Gəlir çıxır bir şəhərə, onu satır, bunu alır.

Nəysə, bu şəhərdə bir qırxlotu başçısı varmış. Bu qırxlotu başçısı gəlir, nəysə bir şey danışdırır:

– Qardaş, bunun qiyməti nədi?

Deyir bu qədər. Bunun üsdündə sözdəri çəpləşir. O deyir qiyməti budu, bu deyir bu deyil. Deyəndə bu oğlan qayıdır deyir ki,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qardaş, arvadımın başı üçün bunun qiyməti budu. Bu qiymətə alınıf, bu qiymətə satılır.

Deyir:

– Əşi, bu nətər arvatdı, sən onun başına and içirsən.

Deyir:

– Mənim arvadım belə ağıllıdı.

Deyir:

– İndi ki belədi, gəl mərc gələh. Sənin arvadıynan mən ünsiyət qurdum, onu gördüm ələ aldım, sənin nəyin var – bu qəflə qatırın, varın-döylətin hamısı mənim. Özün də ömrünün axırınatan qalıf mənim yanımda nökərçilih eliyəssən. Yox, əgər heyləsə, qırx ildi yığdığım varım-döylətim sənin, özüm də sənin ömrünün axırınatan nökərin olajam.

Belə bunuynan şərtdəşir. Yazıllar imzalıyıllar. Barmax basdı olurmuş o vaxdı. Barmaxlarını basıllar, sənəd imzalanır. Qırxlotu başçısı gəlir bir xurcun da qızıldan-gümüşdən, puldan-zaddan götürür, aşırır atın belinə, tərpənir İsfahan şəhərinə. Gəlir çıxır bu oğlanın olduğu şəhərə. Kimi dindirirsə, bu gəlinnən söypət açıllar. Ay bu gəlin heş yerə getməz, heş kim onu görməz. Bu qalır məhətdəl. Üş gün burda hərrənir, bu gəlinə səmt düşə bilmir. Buna qonax olmax isdiyir. Bunun barısınnan qıraxda qonax yerrəri varmış. Qonax burda rahat olsun deyə tikdirmişdər.

Məlil-müşkül gəzəndə görür bir küpəgirən qarı, Allah nəhlətinə gəlsin, küpəsinin belində yumalana-yumalana gedir. Kəsir bunun qavağını. Deyir bir şey çıxsa, bu qarılardan çıxajax. Deyir:

– Ay qarı nənə, bəs mənim dərdimə əlac.

Deyir:

– Nədi?

Deyir:

– Bəs filan tacirin gəlinini görməliyəm.

Deyir:

– Ay oğul, nə danışırsan, o gəlinin üzünü bu şəhərdə hələ görən yoxdu. O gəlinin səmtinə düşməh olmaz. Qəti o fikirdən daşın. Dünyanı verəsən, o gəlinə yaxın dura bilməzsən. Üzünü görməh nədi, heş barısınnan içəri keçə bilməzsən. Onun bir belə qoruxçuları var.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Yox ey, gəl.

Arvadın ətəyinə bir xısma qızıl tökəndə arvad imanını əldən verir. Deyir:

– Onda mən sənə bir yol gösdərəjəm. Gedərsən dülgərin yanına, özün boyda bir sandıx bağlatdır, kilidin də içəridən qoydurarsan. Mən səni aparajam qoyajam o qızın evinə. Onu görə bilsən, heylə görəssən, yoxsa başqa cür o qızın səmtinə düşə bilməzsən.

Bu deyir yaxşı. Durur arvada puldan-paradan verir. Arvad gedir bunun biçimində bir sandıx qayıtdırır gətirir. Bu girir sandığa, ağzını içəridən kilitdiyir. Qızıl-gümüşü də tökür qarının ətəyinə. Qarı iki dənə hambal tutur. Bunu yüklüyür hambalın belinə. Ha-ha-haynan gəlir.

– Ay qızım, qapını aç, qapını aç.

Bu qız deyir ki, gedim görüm qarının dərdi nədi. Deyir ki, beyjə quldurrar gəldi çaldı-taladı, nəyim vardı varımı-yoxumu apardılar. Bircə qalan bu sandıxdı, bunun da üsdünə yıxıldım. Qızımın cehizi, olanım-olmazım budu. Mən gedif bir yer-yurd tapana qədər bu sandığı gərəh sən gizdiyəsən.

Qız deyir:

– Ay qarı nənə, gətmisən, o tikililərin arasına qoy. Bu həndəvərə heş kəs gəlməz.

Deyir:

– Yox ey, olmaz. Bunu aparıf sənin yatağ otağa qoymasam, ürəyim rahat olmaz. Əgər yiyə deyilsənsə, aparım gedim.

Qız buna nə qədər eliyir: “Ay nənə, barının içinə qoy”. Deyir:

– Yox ey, olmaz. Öz yatağ otağa qoymasan, qızımın ceri-cehizi hamısı bunun içindədi, getmərəm.

Qızın əlacı kəsilir, deyir:

– Dəymiyin, qoyun gətirsin.

Qarı nəhlətdəmə bunu qoyur qızın otağına, çıxır gedir. Axşam olur. Görür ki, ay allah, qızın başında qırx dənə əli qılışlı qarolçu var. Gejəni savaha qədər qız yatdı, bular yatmadı. Savahı dik aşdılar. Buna mümkün olmadı. Bir gün, iki gün. Üçüncü gün artıx vaxt-vədə tamamdı. Gəlif qarı bunu aparasıdı. Ay Allah, neyniyim, nejə eliyim,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mənə bir imdad. Qız savah ertə tezdənnən bu kənizdərə deyir ki, durun, ərimin gəlməh vaxdı yaxınnaşıfdı. Bu günnəri çarhovuza çimməyə gedəjəm. Gəlif yeməh işməh hazırrıyajam, bəs yoldaşım gələjəh. Bunu bu eşidir. Deyir hə, Allah mənimkini düzəltdi. Qız durur bilərziyini açır, qoyur yatağ otağına, qızıl boyunbağısını da açır qoyur bura, gedir çarhovuza qızdarnan çimməyə. Bu ayna gedən təki sandığı içəridən açır, çıxır. Pəncərədən baxır, görür pəncərə düz houza açılır. Qız qızdarnan burda çimir. Qızın başdan-ayağa bütün əzasını gözdən keçirir. Bu qızın da anadangəlmə sol budunda şir şəklində halı varmış. Bunu da tamam yerbəyer eliyir. Qızın bazubəndini də, boyunbağısını da, yaylığını da götürür, qayıdır girir sandığa, qapısını kilitdiyir. Qız qayıdır gəlir, görür bazubəndi yoxdu.

– Ay qızdar, bazubəndim hanı?

Qulluxçular deyir:

– Ay xanım, sənin otağa kim girər, kim aparar. Yağın yerini dəyişih salmısan, axtarıf taparıx.

Qız daa fikir vermir. Deyir harasa yağın qoymuşam da. Bir də görür qarı budu hambalları götdü gətdi. Gətirif o sandığı götürür gedir. Sandığı açır, deyir:

– Hə, oğlum, nə gördün, nə götdün, bir şey əldə eliyə bildinmi?

Deyir:

– Hə, qarı nənə, hər bir şeyini örgəndim. Ala, bu xurcundakı qızıl-gümüş də sənin, mən getdim.

Minir atını, tərpənir gəlir Misirə. Oğlan görür gəlir.

– Ə nədi, sənin tərifli arvadın belə imiş. Bir həftədir onnan kefdəyəm, belə qonaxlıx, belə yeməh, belə işməh. Ay sənin tərifli arvadın buymuş?

Oğlan deyir:

– İnanmaram.

Deyif:

– İnamazsan, ala bu bazubənd sənin arvadınındımı, bu boyunbağı arvadınındımı, bu yaylıx arvadınındımı? Buları da məə verifdi ki, ayağın nə vaxdı bu tərəfə düşsə sorğu-sualsız mənim yanıma



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gəl. Hələ bunnan qane olmasan, arvadıı sol budunda bir dənə şir şəklində halı var. Buna sözün nədi?

Bu oğlanın nə qədər varı-döyləti var əlinnən alır, oğlanı da yanında nökər eliyir. Bu da sefillənir* ki, Allah, neyniyim, nejə eliyim. Oğlan tacirbaşına deyir ki, tacirbaşı, sən get bir ordan əhval bil, görəh bu nə işdi? Mənim güvəndiyim arvadım niyə bu işi elədi? Əgər helədirsə, gedif atama deyərsən, onu mən gələnə qədər tikə-tikə doğruyar, hər şəhər darvazasınnan bir tikəsini asdırar.

Bu deyir:

– Yaxşı, gedim.

Bu gəlir. Qızın da gözü yollarda imiş. Hər yola bir keşikçi qoydurmuşdu ki, ərim gələjəh, onun pişvazına çıxın. Qız bir də baxır görür ki, axşamçağı budu ha sefillənə-sefillənə piyada bir adam gəlir. Gəlhagəl görür bu tacirbaşı. Nökərrərə deyir:

– Gedin tacirbaşını yanıma gətirin, görüm bu nə işdi, bu nə gəlişdi.

Bunu gətirəndə qızın yanına, deyir:

– Cəhənnəm ol, mən getmirəm. Onun üzünə baxmaram, o hayasızın, o ləçərin. O bizim başımıza nə oyun aşdı.

Qız deyir:

– Ay tacirbaşı, bu nə olan işdi? Niyə belə deyirsən? Bəs sənin ağan hanı, qəflə-qatırız hanı?

Deyir:

– Ay səni öleydin, vay xəbərin gedərdi, biz bu xabarnan gəlmiyərdih.

Mən dediyim təki əhvalatı buna deyəndə qız qalır mat-məətdəl. Deyir:

– Hə, demək mənim başıma nə gəldisə, o sandıxdan gəldi. Gedin o qarını tapın gətirin.

Gedillər bu qarını tapıf gətirillər. Deyir:

– Qarı, düzünü de görüm, o sandıxda nə əmma vardı?

---

* sefillənir – veyillənmək



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qarı bir az ayna-bayna eliyir, bir xışma qarının ətəyinə qızıl tökən təki qarı imanını əldən verir. Əhvalatı açır danışır. Deyir:

– O, bir qırxlotu başçısı idi. Sənin əriynən bir sözdəşməsi olmuşdu. Sən çarhovuza çimməyə gedəndə o, pəncərədən səni görüf.

Deyir:

– İndi tacirbaşı, inandın?

Deyir:

– Hə, inandım. İndi nağarax, onu ordan nətər qutarax.

Deyif:

– Sən dinmə, mən deyənə əməl elə. Dur pul götür, get zərgərin, dəmirçinin yanına, Misir padşahına layax bir dənə tac qayırtdır gətir mənə, bir də Misir padşahının adı yazılmış qılış-qalxan qayırtdır gətir.

Bu gedir puldan aparır verir, Misir padşahının adı üsdündə həkk olunan tac bağlatdırır, qılış-qalxan bağlatdırır gətirir. Deyir:

– Tacirbaşı, dur məni apar həmən vilayətə.

Hərəsi bir at minir, gəlir Misirə. Şəhərin kənarında dayanıllar. Deyir:

– Gedərsən padşaha xəvər verərsən ki, İsfahan padşahının oğlu buralara səyahətə gəlif, sənin şəhərinə qonax gəlməh isdiyir.

İsfahan padşahı da bu devlətdərin içində addı-sannı padşah imiş də. Bütün padşahlar onnan qorxarmış. Bu adam naməni gətirif Misir padşahına verəndə padşah əl-ayağa düşür. Ay neyniyim, neјə eliyim. Qoşun-ləşkər göndərir, gedin onun pişvazına çıxın. Özü durur pişvazına. Bunu gətirir qonaxlıx verir. Deyir:

– Bizim üçün nə qulluğun?

Deyir:

– Mən bir iş üçün gəlmişəm. Üşcə günnüyə şəhəru bütün ixdiyarın verəssən məə. Bütün əhalini səqirdən kəbirə topalıyasan bu meydana. Burda mənim bir görüləsi işim var. O işi görüf, sənin vilayatıva ziyan vuran deyiləm, çıxıf gedəjəm.

Bu deyir:

– Bütün ölkəm, canım, taxdım-tacım hamısı sənin qulluğunda hazırdı. Nə isdiyirsən eliyərsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu car çəkdirir. Bütün ölkədə qadınnan kişiyə nə qədər adam var yığdırır meydana. Qız baxır görür ki, budaha, qırxlotu başçısı da gəldi, əri də sail kökündə, sakqal basıf, gəldi məclisin bir tərəfində durdu. Qız özüynən gətdiyi qızılı-gümüşü aja-kasıba paylıya-paylıya gəlir. Hamı çıxıf gedir, qalır axırda bular. Deyir:

– Padşah, sən sorğu-suala bax. Lotubaşçısı İsfahan tacirinin gəlnini nə qayda gedif görüf bu camaatın içində özü aşsın desin. Deməsə, onun cəzasını mən verəjəm.

Padşah əmr eliyir. Gətirillər dar ağacının divinə. Deyir, de görüm, İsfahan mahalında filan tacirin gəlninə necə yaxınnaşmısan, onnan nətəri görüşmüsən, onnan bazubəndi nə yolnan almısan. Bu, mən sizə dediyim təki hamısını açır nağıl eliyir: “Mən onu dolayı yolla ələ keçirdim. Heç o qızın üzünü də görə bilmədim. Axırdan-axıra çarhovuzda çiməndə mən onda onu görmüşəm. O bazubəndi də oğurruyuf gətmişəm”.

Deyir:

– Camaat, inandız?

Oğlana deyir:

– İnandın?

Oğlan deyir:

– Mən inanmışdım, arvadımda heylə şey olmaz. İntaası əsas oldu, qaldım belə.

Qız deyir:

– Padşah, bunun cəzasını mən yox, sən ver.

Padşah qırxlotunun qırx ildə yığdığı var-döyləti də alır verir oğlana, oğlanın öz var-döylətini də özünə qaytarır. Qız deyir:

– Bunu mən özümnən aparmıyajam. Öz elində ən qəddar bir adama nökər verərsən ki, gündə bircə öyünə çörəh verər, bir isdəkan da duzdu su verər, gündə də yüz qamçı vurar. Bu, ömrünün axırına qədər orda heylə zulum çəkər.

Qız ərini də götürür, var-döylətnən qayıdır ölkəsinə. Şad-hürrəmnən ömürrərinin axırınatan gün keçirillər, yeyillər yerə keçillər. Siz də yeyin dövran sürün, muradınıza çatın. Arzularınızı Allah hasil eləsin. Heylə şərdən, böhtannan Allah qorusun. Heylə şeytan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

əməlinnən Allah uzax saxlasın bizi. Düzgün əməlimiznən, düzgün əqidəmiznən Allah-talanın hüzuruna qavuşax. Nağılımız burda bitdi. Göydən üç alma düşdü. Biri nənənin, biri Narışın, biri nağıl danışanın. Yerdə qalanı da sizin. Da nətər bölürsüz özüz bilərsiz.

## 10. HURİ QIZI

Bir gün bir vilayətdə kasıf bir oğlan varmış. Bu oğlanın da var-qərəl bir anasıymış, bir özü. Bu oğlan da elə kasıfmış... Bir dahalı varmış, qarğu daxal. Bura yüz sərçəni qısnasan biri qalmazmış. Hamısı uçux-söküh. Bircə dənə qırıx təhnəsi, bir dənə də qara hisdi qazanı, bir-iki dənə kəfrəm mitili varmış. Gün üzü gedif orda-burda kəndin keçisini, danasını otarırmış, bircə belə çörəh tapıf gətirif anasıynan yeyif-yatırmış.

Bir gün durur deyir:

– Ay ana, gedif mən də balıx tutum gətirim, qoy dişimizi dəyişəh.

Anası deyir:

– Yaxşı.

Bu gedir balıx tutanda görür çayda gözəl bir qız çimir. Bu qızın paltarını götürür gizdiyir. Qız çıxanda, gəzif paltarını tapmıyanda deyir:

– Kimdi mənim paltarımı oğurruyan?

Oğlan çıxır deyir ki, sənin paltarını mən oğurramışam, nətər olur olsun, mənnən evlənməlisən. Bu qız deyir:

– Mənnən sənə yar olmaz. Mən pəri qızıyam, mənnən əl çək.

Deyir:

– Yox ey. Mələk qızı olma, lap – əstafirillax, – Allahın qızı ol, sənnən əl çəkən deyiləm.

Bu qızın da paltarına naməhrəm əli dəydiyi üçün deyir:

– Mənim paltarıma sənin əlin dəyif, mənim əlacım yoxdu, heş yana gedə bilmərəm.

Qız razı olur bunnan evlənir. Gəlir görür nə? Ev dəyil bura. Qız evin uçux-söküyünü palçıxnan, daşnan tutur, hisdi qazanı sürtür, pencərdən-əncərdən bişirir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir az burda gün keçirillər. Bir müddətdən sohra bu oğlanın anası Allahın verdiyi ömrü bitirif ölür. Öləndə bu qız qaçır, taxça varmış, çıxır bu taxçanın üsdünə. Oğlan baxır:

– Ay Allah, bu nətər olan şeydi! Mənim anam ölüf, arvadım taxdın belinə minif. Bu nətər şeydi?

Arvadın cinazasını yerdən qalxızanda bu qız bərkdən qaxqanax çəkif gülür. Güləndə bu oğlan lap pərt olur.

– Anam öldü, anamın meyidinə əl vurmadı, getdi taxdın üsdündə oturdu. İndi də anamın cinazası qalxır, əlini əlinə vuruf gülür. Gedim, qayıdıf gələndə bunun hesabını çəkəjəm.

Gedir nənəsini dəfn eliyir. Qayıdıf gələndə deyir:

– Gəl burda otur, görüm sən nəyə görə mənim nənəm öldü, taxdın belinə çıxdın. Mənim nənəmin cinazası qalxdı, niyə güldün?

Deyir:

– Oğlan, mən sənə dedim ki, sənnən mənimki tutan deyil. Mən mələk cinsiyəm. Sənin anan öləndə Azreyil o qədər əzab-əziyətnən onun canını aldı ki, onun qanı hər tərəfə çiləndi. Mən qaşdım qırağa durdum ku, onun qanı mənim üsdümə dəyməsin. Onun qanı sənin gözüvə görükmədi, mənim gözümə görükdü. Sənin nənən bir belə ömür sürüf, bir adama bir şey vermiyif. Tək bircə cüt köhnə çarıx dilənçiyə verif, bir də qonşuya bir dənə qırıx süpürgə kötüyü verif. Nənənin cinazası qalxanda o çarıxnan süpürgə gəldi sallaşdı onun cinazasınnan. Mən ona güldüm ki, bu adamın bir belə yaşında elədiyi yaxşılıx bir cüt çarıx oluf, bir də qırıx süpürgə.

Oğlan deyir:

– Düz deyirsən, nənəm əli göy adam oluf.

Bir müddət belə ömür sürəndə qız deyir oğlana ki, hamı gedir alver eliyir, özü üçün bir bəlgə topluyur. Sən oturmusan burda, heşzad yox. Sən də get bir qazaş gətir.

Bu deyir:

– Bəs, səni tək qoyum?

Deyir:

– Mənnən niyaran olma, sən get.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu gedir bir yerdən sələmə pul götürür. Gəlir əmisi oğlannarına deyir ki, əmioğlu, məni də götürün, mən də gedim siziynən qırağa alverə. Əmisi oğlannarı deyir: “Biz getmirih, ala atımızı verəh, sən get”. Bu əmisi oğlannarının atını alır, azdan-çoxdan yüklüyür ata, çıxır gedir başqa bir ölkəyə qazaş dalınca.

Bu qız gedirmiş birinin paltarını yuyurmuş, birinin qapısını süpürürmüş, belə dolanırmış. Nəysə, günnərin bir günündə, şər qarışan vaxdı, qız görür qapı döyülür. Qız qapını açanda görür nurani bir kişidi, tay qojalıxdan az qalır ağzı yerə dəyə. Deyir:

– Ay qızım, məni Allah qonağı.

Qız da o qədər ürəyi təmiz, Allaha yaxın bəndeymiş ki. Deyir:

– Ay baba, Allaha qurban olum, qonağına da. Amma özün bilirsən, bu kəndin camaatı bir cürədi. Evimdə kişi xeylağı yoxdu, evdə tək kadın mənəm. Səni qonax saxlasam, mənim adıma yüz şey deyəllər. Get, qonşuda ərimin əmisi uşaxaları var, olarda qonax qal.

Deyir:

– Ay qızım, bütün şəhəri gəzmişəm, məni qonax saxlıyan yoxdu. Mən sənə nağaranam. Varın-döylətin yox, duram oğurruyuf aparam. Mən özüm nəyəm? Bir yerdə itələsən beş yerdə başım yerə dəyər. Elə beyjəlih burda daldalanım, savah ertə çıxıf gedəjəm.

Qız baxıf görür elə gerçəhdən də bunun nəyini oğurruyuf aparandı. Nə də ki bu kişidə nə hərəkət var, buna heş bir şey eliyən deyil. Deyir:

– Baba, nə deyirəm, gəl.

Bunu gətirir, evində olan kəfrəmnən-zaddan* buna yaxşı yer düzəldir. Gün üzü işdiyif gətdiyi çörəyi gətirif bunun qavağına qoyur. Yeyir-içir, durur yer qayırır. Kişini rahat eliyir, kişi yatır. Qız da kəfrəmə bürünür, başını söyküyür divara elə burda bunu yuxu tutur, yatır. Gejənin bir aləmində görür ki, bu qoja əlini bunun üsdündə-başında gəzdirir. Qızın ürəyinə başqa şey gəlmir də. Deyir:

– Baba, nədi? Çölə getməh isdiyirsən, yolu tapmırsan?

Deyif:

---

* kəfrəm – yorğana, döşəyə salınan ilk üz



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Hə, qızım, çölə getməh isdiyirəm, qarannıxdı, qapını tapmıram.

Qız durur bunun əlinnən tutur, aparır çölə. Haftafasını verir, deyir:

– Get, baba.

Bir azdan qızı bir də yuxu tutanda görür bir də.

– A baba, nədi, gəlmisən, yeri tapmırsan?

Deyir:

– Hə, qızım, gəlmişəm qarannıxdı, yerimi tapmıram.

Qız durur bunu aparır yerində simsar eliyir, yatırdır gəlir. Nəysə, savah açılır. Qız tezdənnən durur gedir ojağın qalıyır, üsdünə haftafanı qoyur ki, qaynadım, bu kişiyə bir tikə çörəh verim, yol adamıdı. Bunun çöldə başı qarışanda, – bu, Allah-tala tərəfinnən gəlmiş adamdı, – yox oluf gedir. Qız qayıdır görür ki, bu kişi yoxdu. Ay Allah, bu kişi hara getdi, buna çay qaynadırdım. Ay baba, nijoldun? Ora-bura, kişi yoxa çıxır. Bu gəlir evini-eşiyini yığışdırır. Yeri yığışdıranda görür bu kişinin başının altında bir belə kisə dolu qızıl qalıf. Durur bu kəndi qaçır bu tərəfə, o tərəfə: "Ay Allah, bu kişi yadınnan çıxdı qızılını qoydu, getdi". Görür kişi yoxdu. Deyir qoy dursun, yadına düşüf qayıdıf gələrsə verərəm.

Axşam olanda bu durur kişinin torbasını boşaldır, boş torbanı qoyur öz başının altına, yatır. Savah ertə duruf yerini yığanda görür torba gənə doluf qızılnan. Deyir:

– Hə, bu məə urza verməyə gələnmiş. Bu elə-belə yolçu deyilmiş, başına döndühlərimdənmiş.

Bu qız hər axşam torbanı boşaldır başının altına qoyur, səhər ertə duruf götürəndə görür doluf qızılnan. Bu qız deyir da belədi, mən niyə bu qızılı sərf eləmirəm. Usda gətirir, imarat başdadır. Padşahlara layax imarat tikdirir, barı çəkdirir, darvaza asdırır. Nökər tutur, qulluxçu tutur. Da şahlara layax güzaran yaradır.

Oğlanın əmisi oğlannarı başdıyır buna xayınnıx eləməyə. Bu qızı nə qədər pusullar, görələr bu qız nə yolnan bu pulu qazanır, bu qızda bir xəyanət görmüllər.

Vaxt gəlir, oğlan gələndə gəlir düşür, məsəlçün, Ağcabədidə. Ordan sifariş göndərir əmioğlannarına ki, at gətirin, gəlin məni aparın. Bunun əmisi oğlannarı qaşdı-qavaxlı gedəndə deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Əmioğlannarı, niyə beləsiniz?

Deyir:

– Əmioğlu, heş demə. Kaş elə öləydin qalaydın, gəlmiyəydin bu vilayətə. Belə bir hayasız, belə bir pozğun bir ləçər gətirif qoymusan. Sən gedənnən qırxlotuları yığıf başına. Qırxlotunun puluynan belə imarət tikdirif, belə dəm-dəsgah yaradıf. Heş getmə ora.

Deyir:

– Mən inanmaram, mən ora gedəjəm, onu gözümnən görəjəm.

Gələndə baxır görür burda bir dəmdəsgah yaranıf, heş padşahlarda yoxdu. Qalır belə. Nətər eliyim? Da qıza açıf demir. Əmisi oğlannarı da bunu gündə örgədir: "Əmioğlu, bu arvadı öldür, namusumuzu təmizdə". Bunun ta gejəsin-gündüzün qara eləmişdər. Bu, nəysə gəlir bir gün qıza deyir:

– Neçə vaxdı getmişdim, yerimnən-yurdumnan ötrü çox darıxmışam. Bir gedəh gəzəh, dolaşax.

Qız deyir:

– Madam heylədi, nökər-nayib çağırım, dəsdə-tifağlı gedəh.

Deyir:

– Yox, bir sən, bir də mən getməliyih. Mənə heş kəs lazım deyil.

Qız deyir:

– Nətəri ürəyin isdiyir heylə.

Qız durur bunnan gəlir. Bir dərə varmış, bura Quru dərə deyirmişdər, bunun diviynən bir karvan yolu gedirmiş. Yaranannan bura su-zad görmüyən bir yer imiş. Gəlillər, bu dərənin döşündə oğlan deyir:

– Burda oturax.

Qız deyir:

– Ay oğlan, gözəl meşələr, gözəl bulaxlar qalıf, su yox, sel yox, quru torpağın üsdündə nə edəssən?

Deyif:

– Yox, nəysə buraları ürəyim çox isdiyir. Elə burda oturax.

Qız deyir:

– Sən nətər bilirsən, elə olsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Oturur burda. Yeyillər-içillər, ordan-burdan bir az söypət eliyənnən sora qız deyir:

– Yaman yoruldum, yuxum gəldi.

Deyir:

– Yuxun gəldi, yat, bir az dincəl, onnan sohra gedərih.

Qız başını qoyur oğlanın dizinin üsdünə, yatanda oğlan fürsəti vermir. Xançalını çıxardır, qızın ürəyinin başınnan vurur, öldürür. Deyir:

– Bunu öldürdüm, qayıdıf gedim, o vara-döylətə başımı söyküyüf yeyəjəm ömrümün axırına qədər.

Qayıdıf gəlir, görür nə? Lələ köçüf yurdu boşdu. Nejə gedəndə cırıx daxmanı qoymuşdu, qırıx təhnə, hisdi qazan, iki-üş də kəfrəm. Qalan hər şey yoxa çıxıf. Bir başına döyür, bir gözünə, gəlir.

– Ay əmioğlu, Allah tifağızı dağıtsın. Bu nə iş idi? Mənim arvadım hüri idi, məni niyə şeytan təki yoldan çıxartdız? Mənim başıma nə oyun aşdız?

Da başına-gözünə döyməhdən nə çıxar? Gedən da getdi.

İndi görəh qızın başına nə oyun gəlir. Allah-tala tərəfinnən qızın ürəyinin başınnan, bu xançalın yerinnən su fəvvarə verir. Allahın hökmüynən burdan bir bulax açılır. Bu dərəynən sel olur axır. Buz kimi sərin, dupduru bir su qaynıyır xançalın yerinnən. Yolnan da bir tacir ticarətə getmiş imiş. Qayıdanda görür ə, bu dərədə su yox idi, indi bu dərəynən su axır. Qəflə-qatırı açır, bunun dəvəsi, qatırı, eşşəyi su içir. Nökərrərə bir qav verir, deyir:

– Biz gedənnən sohra kimsə burda quyu qazıfdı, su gəlif burdan axıfdı. Gedin bu suyun yuxarısına, görün bu suyun gözü hardadı, onnan doldurun gətirin. Özümüz də onnan içəh, düşəh yola.

Bu adamlar bir az yuxarı qalxır, belə keçəndə görür nə? Bulax nədi! Burda bir gözəl qızı öldürüflər, bu su da onun ürəyinin başınnan fəvarə verif dünyanı götürür. Bular mat-məətdəl qalıllar. Qızın gözəlliyinə tamaşa eliyillər. Bu gözdüyür, bular gəlmiyəndə iki nəfər də göndərir:

– Ə, bular getdi harda itdi-batdı? Gedin görəh bular nejoldu?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu adamlar gəlif bu vəziyyəti görəndə elə bular da quruyuf qalır. Axırda bu tacir deyir:

– Balam, bu olan iş deyil. Bu bulağın sahibi var, gedən ilişir qalır. Bir özüm gedim.

Tacir gəlir. Bir aşırım aşanda görür nə? Burda bir qızın ürəyinin başınnan bulax pıkqıldıyır qalxır. Tacir deyir:

– İlahi-pərvərdigara, çox şükür. Allah elə bunu bizdən ötrü yaradıf.

Bu sudan içillər, əllərini-üzdərini yuyullar, sərinniyillər. Bu qızın ürəyinin başına, suyun yerinə bir qapax qayırır tacir, qapıyır. Deyir:

– Elə bunu özümüznən götürəh. Harda susuyanda açarıx, malımız-heyvanımız, özümüz içərih, genə yolumuza davam edərih.

Nəysə, bu qızı da götürüllər, dəvənin üsdünə sarıyıf gəlillər çıxıllar bu tacirin vilayətinə. Tacir gedir həkim gətirir, deyir:

– De görüm, bu qızın yarasını sağalda bilərsənmi?

Həkim deyir:

– Mən sağalda bilərəm, amma bunu dirildə bilmərəm.

Gedir bir molla tapır gətirir. Deyir:

– Bu qızı sağaltsalar ruhunu bədəninə qaytara bilərsənmi?

Deyir:

– Hə, Quranda belə bir ayə var. Onu namaz qılıf oxusam, bunun ruhu bədəninə qayıdar.

Həkimi gətirir. Pul-zad verir, yarasını sağaldır. Molla oturur iki rükət namaz qılır, "Ayətül-kürsü" oxuyur, bu qızın üzünə üflüyən təki qız asqırır yerinnən qalxır. Tacir deyir:

– Qız, səni mən diriltmişəm, mənnən evləneyssən. Səni Allah mənim qismətimə gətirif.

Qız nə qədər eliyir:

– Ay tacir baba, mən sənin tayın deyiləm, tuşun deyiləm. Sən mənim babamsan. Ömrüm boyu da sən mənim atam ol, mən sənin qızın.

Deyir:

– Heylə şey yoxdu.

Qız baxır görür ki, bunnan canını qutaran deyil. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Yaxşı, onda get bir qazı tap gətir kəbinimizi kəssin. Bir dənə də heyvan kəs, yüngülvarı süfrə açax evlənəh. Nə deyirəm.

Tacir durur gedir şəhərdən qazı gətirməyə. Qız durur aranı xəlvət eliyir, qaçır. Tacir gəlir görür qız yoxdu, qaçıf. Atı minir, and içir səni harda tutsam tikə-tikə doğruyajam, sən elə belə əməlin sahibisən ki, səni öldürüflər.

Qız piyada, tacir atdı, gəlir yeddi yolun ayrıcında bu qıza çatır. Qızı tutur yıxır yerə. Qızı doğruyur, qol-bud eliyir. Cəsədini qalaxlıyıf yeddi yolun ayrıcına, özü çıxır gedir.

Tacir getməhdə olsun, görəh qızın cəsədinin başına nə iş gəlir. Bu yolnan da üş nəfər gedirmiş. Biri paltar tikən maşınçı, biri dülgər, biri də molla yoldaş oluf gedirmiş. Gəlif bular çıxır bu qızın cəsədinə. Qızın cəsədinə baxıllar. Baxanda maşınçı deyir:

– Nə gözəl qız imiş. Əgər bu qızın əzaları sağalmış olsa, buna elə bir paltar tikərəm ki, geyinəndə əyninə kip durar.

Dülgər deyir:

– Əgər helədirsə, mən bu qızın əzalarını elə yığaram, elə düzə-rəm, bunun əzasının biri birinnən sərpməz, – deyəndə molla deyir:

– Mən də bir "Ayətül-kürsü" namazını qılaram, oxuyaram, bu qızın ruhu bədəninə gələr.

Dülgər bu qızın bəntdərini düzür öz yerinə. Maşınçı da maşı-nını qurur, başdıyır buna paltar tikməyə. Molla da namazını qılır, "Ayətül-kürs" oxuyur qıza üfürür, qızın ruhu gəlir yerinə. Qız asqırır qalxır. Bu qızı geyindirillər-kejindirillər. İndi bular başdıyıllar mü-bahisəyə. Maşınçı deyir bu qıza paltarı mən tikmişəm, qız mənimdi. Dülgər deyir onu mən düzməsəydim sən nətər paltar tikərdin? Qız mənimdi. Molla deyir lap düzmüsüz. Mən o qızı diriltməsəm sizə nə düşərdi? Mənimdi. Bular başdıyır mübahisəyə. Qız baxır görür bulardan canını qutaran deyil, deyir:

– Dayanın. Mən siznən bir şərt kəsəjəm. Mənim şərtimi kim yerinə yetirsə, mən onunam.

Deyir:

– Nejə?

Qavaxda bir qəlbi yal varmış. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Siz gedin çıxın o dağın başına. O dağdan kim tez yüyürüf gəlif məə çatsa mən onunam.

Bular yoxuş yuxarı qaranəfəs dizdəri yerə dəyə-dəyə dırmaşıllar dağın başına. Ayannan bəri özdərini buraxıllar yüyürüf qıza tez çatmaxdan ötrü. Birinin qılçası sınır, birinin qolu sınır, birinin başı dəyir yarılır. Qan götürür, huşunu itirir. Da buların heş biri gəlif bu qızın yanına çata bilmir. Qız duruf "Allah, Məhəmməd, ya Əli" deyif burdan tərpənir.

Gəlir çıxır bir dənizin kənarına. Görür qoja nurani balıxçıdı. Balxıçı buna bir tikə çörəh verir, qız yeyir. Görür balıxçı ikicə dəfə tor atdı. Hər dəfə də bircə dənə balıx düşdü toruna. Buları götdü, qoydu qavına, durdu ulağını minə, gedə. Qız dedi:

– Ay baba, elə bu iki balıxdan ötrü gəlmişdin?

Deyir:

– Hə, qızım.

Deyir:

– Baba, bir də tor atginan, bəlkə biri də düşər.

Deyir:

– Qızım, yaranan günnən bəri qismətim bu iki balıxdı. Yüz dəfə də tor atsam, bu iki balıxdan başqa qismətim yoxdu. Bunun birini bazarda satıf çörəyə verirəm, birini də aparıf arvadnan bişirif çörəyimizə yavannıx eliyif yeyirih. Bax, yaşımız bura çatıf, bu iki balıxadan artıx məni zəhmətə salma. On dəfə yox, yüz dəfə tor atsam qismətim yoxdu.

Qız deyir:

– Baba, onda bircə dəfə də mənim qismətimə at, bir balıx da mənim qismətimə düşər. Mən də gedərəm sizə, olaram sizin qızınız.

Deyir:

– Qızım, vallah, evladım yoxdu, gözüm üsdə. İntaası biz səni dolandıra bilmərih.

Deyir:

– Bircə dəfə də mənim qismətimə at.

Bu, bir dəfə toru atır. Ay Allah, toru çəkir ki, tor gəlməh nədi, tora o qədər balıx mıxlanıf ki. Qız da kömək eliyir, bir zornan toru



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çəkir qırağa. Kişinin əli üzündə məhətdəl qalır. İlahi-pərvərdigara, çox şükür. Qızım, sən Allahın necə bəndəsisən ki, mən bu yaşa gəlmişəm, bura tor atmışam, bu dənizdə qızıl balıx olmazdı. İndi sənin baxdıva bu qədər balıx düşdü, özü də hamısı qızıl balıx.

Deyir:

– Baba, apar bu balığı sat, çörəhdən-yeməhdən al gətir.

Bu kişi durur bu qızın başına fırrana-fıranna: "Ay Allah, səni məə yetirən Allaha çox şükür". Gətirir bunu verir arvada. Deyir:

– Arvad, Allah-tala bizə bir evlad qismət eliyif.

Bu kişi hər gün gəlirmiş, iki dəfə öz talehlərinə atıf iki balıx tuturmuş, bir dəfə də bu qızın qismətinə atıf tor dolusu qızıl balıx çıxırmış. Aparırmış satırmış, ehtiyacların alıf gəlirmiş. Bu qız da hər axşam gənə torbanı qoyuf başının altına yatırmış. Bu qız qızıldan verir, deyir:

– Baba, sən elə gündəlih o bir yük balığı apar sat, kim soruşsa deynən balığın puluynan qayırmışam bu işi. Sənin sohrasıynan işin yoxdu.

Gətirir əvvəlkinnən də yaxşı imarat tikdirir. Bu qojalara geyim, yeməh-işməh, qulluxçu tutmax. Dünyaynan varı-döyləti. Bu qız bir gejə yatanda Allah-tala tərəfinnən buna agah olur ki, elə bir ajdıx olajax ki, insannar ajınnan bir-birinin ətini yeyəjəh. Sən də özün üçün bir illik azuqə yığ indidən. Qız durur anbarrar tikdirir boyu iyirmi metr, otuz metr. Ta dünyada taxıl demir, buğda demir, düyü demir, nə qədər azuqə var yığır doldurur bu anbarrara. Anbarrarı doldurur, gözdüyür. Kişi də vərdişkar imiş, nejə mən hər axşam bir isdəkan suynan yaşıyan təki. Hər axşam bir belə başının altına çörəh qoydurarmış. Gejə ajırmış, oyananda bu bir loxma çörəyi yeyif yatarmış. Qıza agah olur ki, beyjə göydən yerə ajdıx endi, ta ruza qıtdaşdı. Nətər eliyim, bunu atama-anama nejə bildirim. Deyir:

– Ay ata, çörəh yoxdu.

Deyir:

– Qızım, çörəh yoxdu nədi! Vallah, mən bu gejə dayana bilmərəm. Birjə belə sajın üsdündə qayır başımın altına qoy. Özün bilirsən ki, mən gejə oyandım çörəh olmasa, mən dözə bilmərəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qız durur gətirir. Özü qəsdən bunnar ajdığın yendiyini bilsin deyə arpanın cadınnan birjə belə fətir qayırır. Arpanın cadı necə olar? Torpax təki. O üzünü, bu üzünü təpidir, qoyur kişinin başının altına. Gejə kişi oyananda, axı, bilmir ajdıx gəldiyini. Bunnan yeyəndə görür bu çörəh o qədər daddıdı, o qədər şirindi, hələ ömründə belə çörəh yemiyif. Bu çörəhdən bir az kəsir qoyur başının altına ki, savah açılsın, deyəjəm qızım bu çörəh hansı taxıldandı, həmmişə bunnan bişir. Mən hələ belə daddı çörəh yeməmişəm. Bunu başının altına qoyur. Savah ertə duruf götürəndə görür nə? Allaha ağır getməsin, bu çörəh deyil, elə bil kərpiş parçasıdır. Bunun qəlbi dolanır, deyir:

– Ay arvad, görürsənmi, bu bizim öz doğma qızımız olsaydı, belə eləməzdi. Gör bir belə dünya neməti qalıf burda, mənim başımın altına qoyduğuna bax. Bu nədi? Heş itə küt eliyif verməzdər, bu qız mənim başımın altına qoyuf.

Arvad deyir:

– Əşi, əşi, əşi, qız eşidər, nə danışırsan? Allaha şükür eylə, dinmə.

Qıza agah imiş da. Qız girif içəri deyif:

– Baba, nədi?

Deyif:

– Ay qızım, Allahdan gizdin deyil, bəndədən nə gizdin. Çörəyə baxıram, nəysə qəlbim incidi ki, nəyə görə bir belə sarı buğdalar qalıf burda, arpanın cadını gərmə təki mənə qoymusan. Bunu insan yeyər?

Deyir:

– Baba, onu yedin, ağzında nə tam verdi?

Deyir:

– Qızım, o ağzımda elə tam verdi ki, hələ mən bir heylə şirin tamlı çörəh yeməmişdim. Elə ona görə də bu çörəyi qırdım saxladım ki, bunnan deyim bişir.

Deyir:

– Baba, mən özüm onu qəsdən heylə elədim. Onu biləsiz ki, beyjə Allah-talanın izniynən göy üzünnən yer üzünə ajdıx gəldi. Elə bir ajdıx olajax ki, insan bir-birinin ətini yeyəjəh. Bir il başa



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gələnə qədər belə ajdıx olajax. Ona görə mən bunu belə elədim ki, sən də biləsən ki, göydən yerə ajdıx yendi, çörəh şirinnəşdi.

Arvad, kişi bunun əlinə-ayağına düşür:

– Ay bala, bizi bağışda, vallah bilmədih. Nəysə, qəlbimiz dolandı da.

Qız deyir:

– Baba, mən bunnan incimirəm.

Vaxt-vədə gəlir, bütün dünyaya ajdıx düşür. Ta kimin nəyi varsa köhnədən, yeyir. Ajdıx olur, insan insanın başını kəsir bir parça çörəhdən ötrü. Qız deyir hə, vaxt-vədə gəlif. Durur anbarrarın ağzını açır, gətirir qapan qoyur meydana. Deyir:

– Baba, elan verin, car çəkdirin bütün şəhərə, bəs taxıl paylıyıram. Hər aylə başına bir pud taxıl verəjəm, kim varsa gəlsin.

Car çəkillər ki, filan balıxçının qızı taxıl paylıyır. Kimi gəlir, məsələn, mən beş ayləyəm, aylə başına bir pud buğda, bir pud apra, bir pud darı, bir pud düyü. Bütün dünyaya bunun sədası gedir. Ərinin vilayətinə də bunun sədası çatır ki, filan vilayətdə belə bir insan var, bəs taxıl paylıyır. Bular da deyir durax gedəh, biz də bir şey alax gətirəh, ayləmizi dolandırax. Gedəndə qız baxır görür ki, əridi, bir də ərinin əmisi oğlannarı, budu heyvə-torbaları çiyinnərində gəldilər. Bu çağırır adamlarına deyir ki, o üş nəfəri saxlıyarsız, bütün camaat gedənnən sora onların payını verəjəm. Bütün gələnin hamısını yola salıllar. Bular deyir:

– Ay qardaş, bizi də yola sal, verirsizsə verin, vermirsizsə gün batdı gedəh, yolumuz uzaxdı.

Deyir:

– Ağamız deyir ki, olara axırda artıx verəjəm, dayanın.

Deyillər da gəlmişih, gözdüyəh görəh. Tamam hamı gedənnən sohra buları çağırır. Qız deyir:

– Deyin görəh kimsiz?

Deyir bəs belə-belə, biz əmioğluyux. Deyir:

– Bu oğlanın bir arvadı oluf. Deyin görüm o arvadın nə xəyanətini gördüz, bu əmiz oğluna nə dediz. Onu düzgün deduz sizin yüküzü polnu tutuf yola salajam, düzgün deməduz burda ölessuz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bular başına gələni deyir. Bu da kişi livasında oturuf orda.

– Vallah, biz o gəlinin nə bir naməhrəmnən kəlmə kəsdiyini gördüh, nə bir yerə çıxdığını. Elə onun varına-döylətinə xayınnıx elədih. Getdih əmimiz oğluna da dedih onu öldür, var-döylət sənə qalsın.

Deyir:

– Yaxşı, oğlan, əmin oğlannarı səni yoldan çıxartdı, neynədin arvadu?

Deyir:

– Bəs, apardım Quru dərənənin kənarında öldürdüm.

Deyif:

– Yaxşı, öldürdün, qayıtdın nə gördün?

Deyir:

– Öldürdüm, qayıtdım gördüm o var-döylətdən heş bir əsər-əlamət yoxdu. Elə qoyuf getdiyim cındır çoustan, hisdi qazan, qırıx təhnə, bir-iki də kəfrəm.

Deyif:

– İndi sən bildinmi sənin arvadın mələk cinsinnəndi. Onnan evlənəndə sənə demişdi, deməmişdi.

Deyir:

– Demişdi.

Deyir:

– Bəs, sən şeytan sözünə niyə inandın?

Deyir:

– Vallah, nə bilim, çox peşman olmuşam. Da peşmançılıx bir fayda verməz. Neyniyim, əlacım nədi?

Deyif:

– İndi ki heylədi, həmən qız mənəm. Məni Allah öldürmədi. Allah o urzanı burda da mənə verdi. Həmən evim, həmən eşiyim, bir belə də taxıl-zad. Bunu mən yığmışam. Ölən günətən bu balıxçı mənim atamdı, arvadı mənim anamdı. Mən sizə elə cəza verərəm nətəri. Amma mən vermirəm. Bir düzgün danışdığıza görə, bir də ərimin xatirinə. Mən ona söz vermişəm ki, sənnən ömür-gün çürüdəjəm. Onun xatirinə sizi öldürmürəm.

Bularin yükünü polnu tutur, yola salır. Oğlana da deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– İndi madam ki peşmansan, buyünnən belə heş kəsin sözünə inanmadan mənnən ömür keçirməyə razısansa, qal yanımda.

Oğlan bunun əlinə-ayağına düşür. Deyir:

– Peşman nədi, elə peşmanam ki. İsdiyirsən məni öldür, səni tərk etmərəm.

Qız bunu bağışdıyır. Yenidən kəbinnərini kəsdirir. Ömürrərinin axırınatan oturur burda, Allahın göndərdiyi ruzudan, nemətdən yeyif xoş ömür sürüf gün keçirillər. Olar yeyif yerə keçif mətləflərini hasil eliyif, muratdarına çatıllar. Siz də yeyin, devran sürün, muradıza çatın. Arzularuz yerinə yetsin. O bir qıza urza verən Allah-tala bizim də urzamızı heylə öz büdcəsinnən yetirsin. Şeytan əməlinnən Allah bizi qorusun. Heylə peyğəmbərlərin səmasını görməyi Allah-tala bizə də qismət eləsin (söyləyici salavat çəkir – top.). Nağılımız burda bitdi. Göydən üç alma düşdü. Biri mənim, biri Narışın, biri də nağıl danışanın. Yerdə qalanı sizin.

## 11. SANTIR*

Bir gün bir arvadın üç oğlu olur. Arvad bunları yetimçilihnən böyüdür, əlləri iş tutan olur. İş tutan olanda böyük oğul deyir:

– Ay nənə, çox kasıfçılıx çəkirih, əziyət çəkirih, da əlim iş tutandı, nə iş görsəm, görərəm. Qoy gedim bir kətdən qırağa çıxım, gedim başqa bir kətdə, şəhərdə nökərçilih eliyərəm, nə bilim fəhləçilih eliyərəm, çörəh qazanaram. Bu yönnən dolanışıx olmaz.

Deyir:

– Nə deyirəm, ay bala, get.

Bu durur gedir şəhərdə hərənnir. Görür ki, bazarın başında, bir qəlvi yerdə sarı sakqal kişi duruf: "Ay mənə nökər olan, ay mənə nökər olan?" – deyif çağırır, heç kəs buna nökər olmur. Deyəndə deyir:

---

* Söyləyicinin dediyinə görə, qış olanda uşaqlar peçin qırağında pambığ artdıyardılar. Qayınanası da onları həvəsləndirmək üçün deyərdi ki, bu gecə pambığı artdıyın, çərdəkdən çıxardın, sizə nağıl danışacağam. Uşaqların Santırın nağılından xoşu gələrdi. Qayınanası danışmağa başlayanda deyərdilər ki, Santırın nağılını danış. Bu nağılı da ondan eşidib.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Vallah, mən gedif nökər olajam. Day indi bu kişi adam yeyən deyil ha. Mə bir tikə çörəh verəjəh.

Gəlir deyir ki, ay ağa, mən sənə nökərəm. Deyir:

– Hə, gedəh.

Bunu götürür gəlir. Deyir:

– Oğlum, indi mənim şərtdərim var. Mən nökəri şərtnən götürürəm.

Deyir:

– Nədi şərtin?

Deyir:

– Səni üş gün boşduyuram, üş gün burda ye, iç, yat, kef elə. Üş günnən sora səni işə buyurajam. Onnan sora bir sözümüz olajax. Günüz işdiyəssən, axşam gələndə sən mənnən soruşeysan, ağa, peşman olmadın ki. "Peşman oldum" desəm, mənim başımı kəseysən. Mən sənnən soruşajam bala, peşman olmadın ki? Əgər desən "peşman oldum", sənin başın kəsiləjəh. Sən mənnən soruşanda deyəjəm yox, nə qədər peşmançılığımız olsa da, sən də deməlisən yox. Belə elədih yaşadıx, belə eləmədih yox.

Nəysə, bu oğlan deyir nə deyirəm. Üş gün burda yeyir-içir, yatır, dördüncü günü ağası durur:

– Ta iş zamanıdı, dur bala.

Gətirir cütü qoşur öküzə, yanına da bir tula qoşur. Deyir:

– Get bu tula harda yatsa, oranı ək, ala bu bağlancaxdakı da çörəkdi, çörəyi elə ye, paraya dəymə, bütöyə dəymə, doğra doyunca ye. Çörəyi elə kəs qırağı kəsilməsin, qatığı elə ye qaymağı tərpənməsin.

Bu götürür gəlir. Tula gedib daşdıxda, qayalıxda yatır. Bu gətirir kotanı daşa salan təki kotan bir yana qırılır gedir, cüt bir yana. Öküzün biri mayallağ aşır belə qayadan uçur, biri belədən. Qayıdır gəlir ki, bir tikə çörəh yeyə. Ay Allah, çörəyi nətər yeyim bunun qırağı tərpənməsin, bu qatığı nətər yeyim qaymağı tərpənməsin? Ajsusuz qayıdır gəlir. Deyir yaxşısı budur heş yemiyim. Gələndə deyir:

– Ay oğul, bəs nağardın, yeri əkdinmi?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay ağa, yox. Bəs getdim daşdığa kotanı salanda kotan qırıldı, öküzün biri qayadan uşdu qılçası sındı, biri kanala düşdü boğuldu öldü.

Deyif:

– Çörəh yemisənmi?

Deyif:

– Yox.

Deyir:

– Niyə?

Deyir:

– Ay ağa, sən dedin elə ye qırağı tərpənməsin. Mən nətər yeyim o çörəyin qırağı tərpənməsin.

Deyir:

– Ağa peşman oldunmu?

Deyir:

– Yox.

Deyir:

– Bala, sən peşman oldunmu?

Nökər deyif:

– Ay ağa, peşman oldum, bəs nətəri. Yer əkə bilmədim, öküzdər öldü, özüm də aj-susuz qaldım, – deyəndə, ağa bunun boynunu vırır, aparır tulluyur bir zirzəmiyə. Deyir şərtimiz budu.

Nəsə, aradan ay keçir, il keçir, bunnan səs-sorağ çıxmıyanda ortancıl oğlan deyir:

– Ay nənə, qoy mən gedim. Həm görüm qardaşımnan bir sorağ taparammı, həm də bir az qazanc gətirim da, belə dolanışıx olmaz.

Bu gəlir. Gələndə görür həmən kişi gənə duruf: “Ay mənə nökər olan?” – deyif çağırır. Deyir, elə gedim buna nökər olum. Buna nökər olanda eyni şərti buna da qoyur. Burda qalır. Dördüncü gün buna da deyir get cütü filan yerdə ək, cörəyi elə ye qırağı tərpənməsin, qatığı elə ye qaymağı tərpənməsin.

Durur gəlir, kotanı salanda kotan qırılır bir tərəfə gedir, cüt bir tərəfə. Öküzün biri qayadan uçur, biri palçığa batır. Nəsə gəlir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

“Çörəyi nətər yeyim, ay Allah, qatığı nətər yeyim qaymağı tərpənməsin?” Aj-susuz qayıdır gəlir. Deyir:

– Ağa, peşman olmadın ki?

Deyir:

– Yox.

Deyir:

– Bala, peşman olmadın ki?

Deyir:

– Bəs, ay ağa, əlbətdə peşman oldum. Öküzdər öldü, özüm də aj-susuz qaldım, – deyəndə, bunun da boynunu vurur, aparır tulluyur. Üç qardaşın içində tək Santır qalır anasının yanında. Bir az keçənnən sora Santır deyir:

– Ay ana, qardaşdarımdan xəbər çıxmadı, qoy mən gedim.

Deyir:

– Ay bala, gözümün nuru sənsən, sən də gedərsən, mən kimnən dolanaram, mənim meyidimi kim götürər, məni kim dəfn edər, getmə.

Deyir:

– Yox, ana, mən gedəjəm, qardaşdarımın başına nə qəza gəlif tapajam, özü də qazaş da qazanıf gələjəm, – deyəndə deyir:

– Nə deyirəm, ay bala, get, amma bir aydan artıx qalma. Bir aydan sora mənə xavar göndər, yoxsa çatdıyıf ölərəm.

Bu durur anasıynan halallaşır, hümmətdəşir, bir tikə heyvəsinə çörəh qoyur gəlir. Gəlir görür gənə həmin bazarda kişi duruf: “Ay mənə nökər olan?” – deyir, heç buna nökər olan yoxdu. Deyəndə deyir ki, ağa, mən sənə nökər. Deyir:

– Gəl gedək.

Bunu gətirir evinə. Deyir:

– Ay oğul, mənim şərtdərim var.

Deyir:

– Şərtin nədi?

Deyir:

– Üş gün burda ye, iç, gəz, kef elə. Dördüncü günü səni işə buyurajam. Tula gedib harda yatsa, oranı əkəssən, bu çörəyi elə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yeyəssən qırağı kəsilmiyəjəh, qatığı elə yeyəssən qaymağı tərpən-miyəjəh. Razısan?

Deyir:

– Hə, qardaşdarımın başına burda əmma gəlib, mənim qardaş-darım az bilmiş idilər, avam idilər, mən qardaşdarımın qanını bun-nan almalıyam.

Nəysə, dördüncü gün bunu gənə qoşur, gedir. Tula gedir daş-dıxda yatanda Santırın bir çomağı varmış, vurur tulanın təpəsinə, tulanı burda öldürür, atır qayadan. Gətirir düz yerdən cütü salır, əkini əkir, gəlir oturur çörəh yeməyə. Axı, demişdi elə elə qırağı kəsilməsin. Pıçağını çıxardır, çörəyini laybalay beləjə kəsir ortasını çıxardır, yavaynan da qavın altını belə deşir, burdan qatıxdan sorur tamam yeyir, qatığın qaymağı lay yapışır qalır qavın divində. Yeyir, qarnını da doyurur gəlir. Gələndə ağa deyir:

– Ay bala, tula hanı?

Deyir:

– Ay ağa, tula gedif daşdıxda yatdı, oranı əkə bilmədim, vurdum tulanı öldürdüm.

– Yemisənmi?

– Hə.

– Görüm.

– Ağa, çörəyin qırağı tərpənmiyif, qatığın da qaymağı tərpən-miyif.

Deyir:

– Hə, mənim başımın bəlası gəlif, arvad.

Nəysə, deyir:

– Ağa, peşman olmadın ki?

Deyir:

– Yox.

– Bala, peşman olmadın ki?

– Yox.

Günnər keçir, bir gün arvadın gamışdarı vardı, deyif:

– Oğul, dur get gamışdarın başına qədər ot tök, gəl.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Santır gedir otdan qoyur gamışın başına, gamış başını belə eliyir, ot tökülür. Gamışın başında ot durandı? Axırısı gamışdarı dana-boyun eliyir basır yerə, hamısının başını kəsir basdırır axurun içində ota, leşdərini də sürütdüyür tuluyur çölə, gəlir. Deyir:

– Ay bala, gamışdarın başınatan ot tökdün?

Deyir:

– Ay ağa, vallah, gamışdarın başına nə qədər ot tökdüm, durmadı, başdarını kəsdim ota basdırdım.

Deyir:

– Ağa, peşman olmadın ki?

Deyir:

– Yox.

– Bala, peşman olmadın ki?

– Yox.

Şərt şərtdir. Yox, yox. Deyif:

– Hə, başımın bəlası gəlifdi, arvad, bu bizə artıx gələjəhdi. Arvad, çörəhdən-zaddan bişir, bunu burda qoyax qaçax, bu bizim başımıza bəla açajax.

Arvad durur, xamırı yoğurur, cörəh bişirir. Xamırı kündəli-yəndə üş-dörd yaşında bir uşaxları varmış, gəlir əlini xamıra batı-randa bu uşağa nə qədər deyir dinmə, dinmə, xeyri olmur. Qəfil Santır qapıdan girəndə deyir:

– Santır, Santır, götür bu uşağı qol-bud elə, bu itdərin ağzına tulla, – deyəndə Santır bu uşağı dartır qolunu bir yana, qılçasını bir yana, parça-para eliyir tulluyur itdərə. İtdər yeyir. Arvad bir başına, bir gözünə [döyür], çığırır hay-küy. Kişi gəlir:

– Ay arvad, nədi?

Deyif:

– Allah tufağı dağıtsın, nolajaxdı? Gamış belə getdi, tula belə getdi, var-döylət bircə balamız vardı, onu da Santır qol-bud elədi, tulladı itdərə.

Deyir:

– Santır, niyə helə elədin?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay ağa, xanım mənə dedi buları qol-bud elə tulla itə. Mən də qol-bud elədim tulladım. Xanım dedi, mən də onun əmrinə tabeyəm.

Deyir:

– Ağa, peşman olmadın ki?

Deyir:

– Yox.

Deyir:

– Bala, peşman olmadın ki?

– Yox.

Xəlvətcə deyir:

– Arvad, xurcunu, farmaşı hazırla, gejə Santırı yuxuya verəh qaçax. Santır bizim başımıza bəladı.

Bunu Santır eşidir. Gejə durur arvad yığdığı farmaşı boşaldır. Farmaş palazdan toxunma olurdu, içinə mir-mitilimizi qavlıyıf yığardıx ki, batıb eləməsin. Axır vaxtlaratan o farmaşdan məndə dururdu. Bunun ağzını gözəliyir, gejə durur:

– Arvad, dur, dur, Santır yuxudan oyanmamış.

Durur farmaşın o biri tayını qoyur, bunu da götürəndə görür bu yerdən qalxızmalı deyil.

– Arvad, Allah evu yıxsın, bunun içinə nə yığmısan?

Deyir:

– A kişi, vallah, bir az azuqə götürmüşəm, çörəhdi, yağ-yavanıxdı, götür gedək.

Nəysə, bir zornan bunu qalxızıf atın belinə qoyuf düşüllər yola. Gedillər bir ovanın kənarınnan keçəndə ovanın itdəri tökülür buların üsdünə. Nə qədər eliyillər itdəri qooluya bilmillər. Arvad deyir:

– Ay Santır, hardaydın? Burda olsaydın bu itdərin hərəsini bir yana qavalamışdın, – deyəndə Santır farmaşdan qışqırır:

– Ağa, burdayam, aç məni, ağa, burdayam, aç məni, – deyəndə ağa deyir:

– Arvad, tufağın dağılsın, bu demək Santırmış.

Bunu açır yerə qoyur. Santır durur ağacını götürür, bu itdərin hamısını bir tərəfə savalıyır qavır.

Gəlif bir dəryanın qırağında deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Arvad, beyjə burda gejəliyəh, bu Santırı bir təhər edək salax bu çaya. Çayın qırağınnan Santırın yerini qayırajam. Ordan bəri arvad, sən yat, sənnən də belə mən yatajam. Mən sənə deyəjəm arvad, aana yat, sən də Santır, aana yat, itəliyə-itəliyə Santırı yumalıyax salax çaya.

Santır da bijiymiş də, bilif. Gejə buları yuxuya verən təki durur gedir bir kötüh gətirir, qoyur öz yerinə, gəlir arvadnan kişinin arasına girir sivişicə, yatır. Kişi gejə deyir:

– Arvad, aana yat.

Santır deyir:

– Arvad, aana yat.

Arvad deyir:

– Santır, aana yat.

Birdən gupbultuynan kötüh düşür çaya. Kötüh çaya düşəndə Santır arvadı itəliyir, arvadı da salır çaya. Ağa qalxır:

– Arvad, arvad, qalx, Santırı saldım çaya, – deyəndə deyir:

– Ağa, mən də arvadı saldım çaya.

Ağa durur görür nə? Çaya düşən arvatdı, Santır burda.

– Santır, bu nədi?

Deyir:

– Ağa, peşman olmadın ki?

Deyir:

– Allah tufağı dağıtsın, peşman olmamaxlıx nə qaldı? Var getdi, döylət getdi, bala getdi, arvad getdi, peşman oldum əlbətdə, – deyəndəjə durur vurur bu kişini öldürür, kişini sarıtdıyır bu atın birinin belinə, durur atdarı alır yedəyinə gedir. Gedir görür bir suyun qırağında bostan var. Baxırsan bostanda qarpız, yemiş, xiyar taa lejan oluf tökülüb. Gəlir oturur, atdarı bağlıyır. Bir dənə xiyar qırır, gətirir verir bu ölmüş ağasının əlinə, belə ağzına qoyur ki, guya bu xiyarı yeyir. Özü də bu qarpızdan, yemişdən alır, kalını qırır tulluyur atdarın qavağına, hərəsinnən bir az yeyir. Nəysə, hay düşür, bostan yiyəsi gəlir: "Ayə, bizim bostanı niyə belə eləmisən, kimsən?" Santır qaçır gizdənir. Gəlir bu kişinin meyidinə bir ağac



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nətər vurursa, – kişi meyitdi, bu atın üsdündə durandı, zornan sarıtdıyıf qoymuşdu, – kişinin meyidi yerə yıxılanda Santır çıxır:

– Ay tufağız dağılsın, mənim dədəmi öldürdüz, gedirəm qazıya sizi şikayət eliyəm.

Bostan yiyəsi bunun əlinə-ayağına baxır, görür gerçəhdən də kişi havaxdan ölüfdü. Yalvar-yapış eliyillər, bunun əl-ayağına düşüllər ki, bəs nə istəyirsən verək, bizi qazıya vermə. Bunun atdarını yüklüyüllər qarpıznan, yemişnən. Santır deyir:

– Dədəmin ağırrığında mənə qızıl pul verəjəhsən.

Dədəsinin ağırrığında da qızıldan-puldan alır, durur gəlir ağasının malikanəsinə. Gəlir burdaja ağasının azınnan-çoxunnan buraya qoyur, gedir nənəsinin yanına. Deyir:

– Nənə, dur gedək, qardaşdarımın da qanını aldım, ağanın da varına-döylətinə sahib oldum.

Həmən o günnən millətin də canı qurtarır. Hamıya zülm edif çox adamları helə öldürürmüş. Varına-mülkünə də sahib olur. Gedir yeyir yerə keçir, ağanın malının-mülkünün üstündə oturuf heyləjə xoş gün keçirillər. Siz də yeyin dövran keçirin, murad hasil eliyin. Allah-tala heylə namərtdərin urzasınnan sizə də qismət eləsin, ağlınızı başınızdan almasın, sıdqımızı düşmannara, namərtdərə yönəltməsin. Peyğəmbərin yolu ilə getməyi bizə qismət eləsin (söyləyici salavat çəkir – top.).

Nağılımız burda bitdi. Göydən üç alma düşdü. Biri mənim, biri Narışın, biri nağıl danışanın, yerdə qalan da sizin.

## 12. ZAL OĞLU RÜSTƏM

Bir günnəri Zal bir yerə gedirmiş. Bir evdə qonax qalır. Orda arvadı özünə müta eliyir*, yəni haram olmasın. Deyir ki, sənin bir oğlun olajax. Mən gedirəm, bir ildən də sora olsa, beş aydan da sora olsa, adını qoyarsan Rüsdəm. Arvadın bir oğlu olur, adını qoyur Rüsdəm.

---

* müta eliyir – siğə eliyir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Padşah Zalı buraxmır. Bunnan əvvəl heylə bir şey varmış da, pəhlivannarı saxlıyıllarmış. Deyir ki, əşi, məni sən saxlıyırsan, qoy gedim mən vətənə. Dedi:

– Yox.

O qədər orda onu saxlıyır ki, Rüsdəm gəlir olur on beş yaşında. Bir gün bu, anasınnan soruşur:

– Ana, mənim atam olmuyuf?

Deyif:

– A bala, oluf.

Deyif:

– Adı nədi?

Deyif:

– Adı Zaldı.

Deyif:

– Ana, eşitmişəm Ərəbistanda belə bir padşah var, onun pəhlivanının adı Zaldı. Gedirəm onu görəm.

Gedir ora. Bu uşax padşaha deyir ki, padşahi-aləm sağ olsun, Zalı sən saxlıyırsan? Axı bunnan da qüvvəli pəhlivannar var. Dedi:

– Kimdi ə?

Dedi:

– Mən.

Dedi:

– Sən uşaxsan axı.

Dedi:

– İnanmırsan?

Dedi:

– Yox.

Dedi:

– Qoy mən onnan görüşüm, onda bilərsən.

Gəldi. Dədəsi bunun çiyninnən tutdu, dedi:

– A bala, sən qüvvəlisən, mən?

Dedi:

– Mən.

Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə, nə danışırsan, sən dünənki uşaxsan.

Dedi:

– Sənin əlin mənim çiynimdədi. Sən əlini mənim çiynimdən götür, sən mənnən qüvvətdi olarsan.

Deyir:

– Bə nəyə gəlmisən?

Deyir:

– Gəlmişəm səni görməyə.

Amma demir ey sən mənim atamsan, adını eşidif gəlmişəm. Rüsdəm bunnan püşü götürür. Zal bu uşağı götürür vurur yerə. Yerə vuranda görür ayə, bunda o qədər padxotdar var ki, bunu buraxsam duran kimi məni öldürəjəh. Yaxşısı budu elə bunun başını kəsim. Öz oğlunun başını kəsif. Bir kişi deyif ki, sən bu uşağın başını kəsdin, günah elədin. Da demir ey, sənin oğlundu. O uşağı aparıf yuyuf basdırma. O, qırx günnən sora dirilif yer üzünün hökmdarı olajax. Qırx onnan qalıf ey.

Zal otuz dokquz gün qujağında saxlıyıf dənizin qırağında. Deyif:

– Ə, yalandı bu.

Uşağı yerə qoyuf bir ovuc torpax götürüf bunun üsdünə səpəndə uşax partdıyır. Həmən adam gəlir deyir:

– Ey dili-qafil, sənə demədim qırx gün gözdə.

Dedi:

– Bilirsən nə var? Bu bir ənənə şəklini alar, hamı uşağını qırx gün qujağında saxlıyar ki, ölmüyəjəh. Allah onu qoymaz.

## 13. QARAÇUXASINI YATIRAN ŞƏXS

Bir padşah olur, yaxşı padşah olur. Qonağı çox olur. Vəzirə deyir:

– Vəzir.

Deyir:

– Hə.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Vəzir, gəzirsən da bu şəhəri. Maa elə bir adam tap savatdı olsun, söypət-zad bilən olsun, mənim adamımı yola salsın. Daa mən bezmişəm danışmaxdan. Heylə bir adam tap gətir maa. Yeməh-işməyini də, xaşdamağını da burdan aparar.

Vəzir də yerini bilirdi. Bir savatdı hajı vardı. Haja gedif gəlmişdi. Getdi bunun yanına. Dedi:

– Hal-qəziyə belə-belə, padşaha belə bir adam lazımdı. Mən elə səni məsləhət bilirəm da. Savatdısan, haja gedif gəlmisən. Ehtiyacın olan nədisə padşahdan gətirərsən.

Dedi:

– Qardaş, mənim ehtiyacım yoxdu. Bir arvadımdı, bir özüm. Nökərim var, qoyunum var, yaxşı malım var. Heş nəyə ehtiyacım yoxdu.

Deyir:

– Yoxdu, yoxdu da. Gəl orda padşahnan axşamatan otur danış, ye-iç, axşam da çıx get.

Bunu götdü getdi padşahın yanına. Padşah buna dedi:

– Hər gün gəl mənim yanıma. Amma elə gələssən ki, savah çörəyimi də sənnən yeyəjəm, axşam gedəndə də çörəyimi sənnən yeyəjəm, gedəssən. Daa mən sənnən bir yerdə olajam.

Bu da dedi ki, yaxşı. Padşah da dedi ki, nəyə ehtiyacın olsa – pul, mal, nə isdəsən apararsan. Dedi:

– Heş-zad maa lazım döylü.

Bu, gündə tezdənnən gəlirdi, padşahnan bir yerdə çörəh yeyirdi, gələn qonaxnan danışırdı, söypət eliyirdi, axşam da çörəh yeyif gedirdi. Bir dəfə də padşahın qonağı gəldi. Bir az tez oldu, gejəyə qalmadı. Çörəh-zad yedilər, elədilər. Padşaha dedi ki, padşah sağ olsun, da innən belə çörəh yemiyəjeyih ha. Axşam çörəyini yedih da qonağnan. Mən bir az tez gedim. Dedi:

– Nolar get, amma savah tez gəl.

Bu durdu gəldi. Darvazasını döyəndə arvad gəldi. Uşağı yox idi. Elə bir arvad idi.

– Kimsən?

Dedi:

– Aaz, mənəm, qapını aç.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedi:

– Sən həmişə bu vaxdı gəlmirdin axı, indi nətər oldu bu vaxdı gəlmisən?

Dedi:

– Qonax-zad oldu da, çörəh yedih, da bir də çörəh yemiyəjeydih, onçün gəlmişəm.

Dedi:

– Onda qaş get maa bir dənə qoyun başı al gətir qəssabdan, onnan sora qapını açım, gəl.

Bu da dedi:

– Bizim sürümüz var. Mən gedif qəssabın qapısında durum ki, maa qoyun başı ver! Qoy axşam qoyun gəlsin, birini kəsəh, ətini də ye, başını da ye.

Dedi:

– Yox ey, gərəh qəssab kəsən ola.

Allahın işinə bax. Bu da dedi ki, da vaxt keçifdi, savah tezdən gedif alıf gətirəjəm. Dedi:

– And iç.

And indi moddan düşüf. Bu and içir ki, Allah hakkı, imam hakkı, savah tezdən gedif alıf gətirəjəm. Dedi:

– Baş üsdə.

Qapını aşdı, gəldi. Yedilər, danışdılar, yatdılar. Bu savah tezdən durdu. Saat səkgizdə gedif orda padşahnan çörəh yeyəjəhdi, ora getməlidi. Bu tezdən durdu getdi ki, gedim alım gətirim, verim, gedim. Getdi ki, bağlıdı qapı. Bir az gözdədi, qəssab gəldi. Dedi:

– Qardaş, mənə bir qoyun başı ver.

Dedi:

– Vallah, dünənnən qalmıyıf, bir azca gözdə, qoyun gəlsin, kəsim verim.

İndi bu arrandı da, varrı adamdı, gəlif burda qəssabın yanında durmağına. Şəhərin qırağı belə meşə idi, bizim meşə kimi. Dedi, gedif bir az orda hərrənim, onnan sora qayıdıf gəlim da. Onatan hazır olar.

Bu getdi. Haja gedif gəlmişdi, yaxşı da bilihli idi. Getdi, habelə meşəyə çıxanda gördü ki, bir dəsdə adamdı qumun içində təpih



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

döyür saldat təpih döyən kimi. Bulanıflar toza. Bir dəsdəsi də yatıf qumun içində. Bir dəsdə də qəşəh belə geyimli-kejimli, papaxlı oturuflar göy çiməndə, söypət eliyillər. Öz-özünə məhətdəl qaldı ki, ə, bu nətər işdi. Getdi o papaxlıların yanına. Dedi:

– Olar, sizə bir sual verim?

Dedi:

– Nədi?

Dedi:

– Niyə siz burda kef eliyirsiniz geyimli-kejimli, onnar da təpih döyür qumun içində, bir dəsdə də orda yatışır.

Dedi:

– A kişi, biz insannarın baxdıyıx, qaraçuxasıyıx. Görürsənmi bizim geyimimizi. Biz o bəylərin, padşahların qaraçuxasıyıx. Da onnar var-döylətə möhtac döylü, ona görə burda kef eliyirih.

Dedi:

– Bəs o yatannar?

Dedi:

– Onnar da zır kasıblardı. Çörəh tapmır da yeməyə, yatıflar, qaraçuxası yatıf.

– Bəs o saldatdar?

Dedi:

– Onnar da orta varrı adamlarınkıdı.

Dedi:

– Mənim qaraçuxam harda olar?

Dedi:

– Varın nə qədərdi?

Dedi:

– Bir belə qoyunum var, bir belə malım var.

Dedi:

– O təpih döyənin içindədi. Get çağır, gələjəhdi.

Getdi qıraxda durdu belə. Bunnar da bulanıfdı toza. İsdi gün. Çağırdı. Çağıranda bir oğlan çıxdı gəldi bunnarın içinnən. Xoş-beş. Baxdı ki, toza-torpağa bulanıf da, biyavır vəziyətdədi. Dedi:

– Ə, özünü niyə bu hala salmısan?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedi:

– Bə neyniyim? Mən bu hala düşməsəm, axı sənin heş-zadın olmaz.

– Ə, – dedi, – mənim sürüynən qoyunum var, malım var. Özünü niyə bu kökə qoymusan, ə. Ə, bəri gəl, bəri gəl.

Bunun qolunnan tutuf apardı yatannarın yanına. Dedi:

– Yat burda, dincini al, dincəl, ölürsən.

Dedi:

– Ayə, məni yatırtma. İşin ağır keçəjəh, məni yatırtma.

Dedi:

– Heş-zad olmaz mənə. Varım var, özüm də padşahnan yeyirəm, içirəm, kef eliyirəm.

Dedi:

– Nə deyirəm.

Bunun qolunnan özü tutdu, gətdi yatırtdı orda. Burdan qutardı gəldi ki, başı alsın, götürsün gəlsin. Gəldi ki, hazırdımı? Dedi:

– Hazırdı.

Başı götdü əbanın altına belə qoydu, gəldi. Deməli, bu gejikif. Padşah bunu gözdüyür çörəhdən ötəri, çörəh yemir. Yasoullardı, iki-üş dəfə gəlif bunu tapmıllar. İndi bu darvazaya çatanda yasoullar çatdı bura.

– Ə, sən savahdan hardasan, sənin dalınca üş dəfə gəlmişih. Padşah ajınnan ölür orda, səni gözdüyür.

Dedi ki, gəlirəm, bu saat evə dəyif gəlirəm. İsdiyirdi başı arvada verə, gələ da. Bunnar bir-birini tanıyırdı dana, orda olmuşdular. Deyəndə bunun qolunnan tutdular, dedi:

– Bu nədi? Bunnan bizə də ver da.

Baş budey domba duruf burda.

– Ə, yox, heş bir şey döylü, bu saat gəlirəm.

Qoymadılar getməyə. Tutdular, bunun burasını (söyləyici əynindəki paltarın ətəyini göstərir – top.) qaldırdılar ki, bir insan başıdı. Dedi:

– Ə, sən savahdan elə bunnan ötəri gəlmirsən?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deməli, bu padşah başqa padşahın vilayətinnən torpax almışdı, orda qoşunu vardı, həm də qoşun başçısı vardı. Bu həmən sərkərdənin başıdı. Tanıyıllar dana.

– Ə, elə bunnan ötəri gəlmirdin?

Bunun qolunu daldan burdular, bağladılar, apardılar. Dedi:

– Padşah sağ olsun, savahdan üş dəfə getmişih. Gedif sərkərdəni öldürüf, başını götürüf gəlif.

– Ə, nə danışırsan?

Dedi:

– Vallah.

– Ə, mənim orda qoşunum var, mən oranı ona tapşırmışam.

Gətdilər başı qoydular padşahın qabağına, bunun da gözünə heylə görükdü. Ə, bunu verin dar ağacına. Bu da neçə ildi bunnan çörəh yeyirdi. Nə qədər yalvardı, elədi, dedi:

– Yox, sən xəyanət eləmisən mənə, ölməlisən.

Dedi ki, padşah sağ olsun, mana ikicə dəyqə, üşcə dəyqə vaxt ver, gedim-gəlim. Əgər inanmırsan mənim gəlməyimə, yasoullardan qoy mənnən getsin.

Nəysə, iki yasoulu buna qoşdu, dedi:

– Ə, yalvarır, iki dəyqəyə bu hara gedəjəh, bunnan gedin gəlin.

Bu ordan qopan pramoy ora, meşəyə. Özü yatırdıf axı, qaraçuxasını. Gəldi ki, yatıf da orda. Getdi tez onun qolunnan tutdu:

– Ə, başına dönüm, qalx ayağa, padşah məni öldürür.

Dedi:

– Ə, hara qalxıram, özün məni məjburi yatırtmadın. Sən öl, qalxmaram.

Yalvardı, yapışdı, öpdü, neynədi, nağardısa bunu durğuzdu. Qoşdu bu təpih döyənnərə, qayıtdı gəldi.

– Gəldin?

– Hə, gəldim.

– Ə, bunu verin kəndirə.

Dar ağacının divinə gedəndə baxdılar ki, həmən o sərkərdə belədən gəlir. Atdı gəlir, indi padşahnan nə işi varsa. O, bu dedi ki,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ə, gəldi çıxdı bu. Bəs deyillər bunun başı kəsilif. Apardılar padşahın yanına. Gördü ki, həmən adamdı. Dedi:

– Ə, bu nətər olur? O başı bura gətirin görüm.

Gətdilər başı qoydular padşahın qabağına. Baxdı ki, qoyun başıdı.

– Bıy, ə bu nətəri işdi? Deyək, mən kor oldum, bəs bu camaat necə. Hamı kor olmadı ki?

Dedi ki, padşah sağ olsun, mən axı heylə iş eləmərəm. Mənim güjüm çatmaz sərkərdəni gedəm öldürəm. Neçə ildi sənnən bir yerdə çörəh yeyirəm, səni ona and verdim, məni bağışdamadın. Da sənnən qutardım, get özünə ayrı adam tap.

– Ə, saa zarafat eliyirdim.

Dedi:

– Yox ey, nə zarafat, ə. Dar ağacının divində kəndiri də boğazıma saldırmışdın.

Nə mümkün elədi, olmadı. Padşahdan aralaşdı, çıxdı getdi. Dedi:

– Arvad, Allah üsdünə od töhsün, bir başdan ötəri getmişdim.

## 14. ÜÇ QIZ

Bir kişi olur. Kişinin də arvadı ölür, üç qızı qalır. Gedir bir ayrı arvad alır gətirir. Arvad qızdarnan dolanmır, gündə dalaşıllar. Qızdar da yekə qızdardı. Arvad kişiyə deyir ki, a kişi, ya bu qızdarını birtəri elə, ya mənim kağızımı ver, çıxım gedim. Dolanmıram da, gündə dava, gündə dava. Kişi də görür ki, vallah, arvadsız dolana bilmədi, getdi arvad aldı. Fikirrəşdi ki, elə yaxşısı budu bu qızdarı azdır, çıxsın getsinnər hara gedillər.

Qoz bağı var idi, çox böyüh bağ idi. Bir tərəfi gedirdi Şah Abbasın vilayətinə dirənirdi, mal tolasının dalına dirənirdi. Qızdara dedi:

– A bala, dağarı, toxmağı götürün, gedəh qozduğa. Mən çıxım çırpım, siz də yığın gətirəh.

Dağarı, toxmağı götdülər, getdilər. Kişi çıxdı ağaca, çırpdı, qızdar da yığdı. Qoz da adamı sussadan olur. Bir az yiyənnən sora dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ata, susunnan yandıx, buralarda su var?

Kişi yalannan buları azdırmax üçün dedi:

– A bala, buraynan belə gedin, qabağınıza çıxajax su.

Su varıdı qabağına çıxa? Qızdar qoşuldu bir-birinə meşənin içiynən gedən kimi kişi dağarı, toxmağı asdı ordan. Külək vuranda toxmağ dağara dəyif tıkqıldıyırdı. Qızdar elə bilirdi atası orda qoz çırpır. Kişi düşdü qaşdı, çıxdı gəldi.

Çöl görməmiş qız uşağı, nə qədər getdilər tapmadılar. Qayıtdılar gəldilər həmin ağacın divinə. Gördülər ki, ə, atası nə gəzir, atası yoxdu. Otdular ağacın divində. Bir az ağlaşdılar. Tanımırdılar heş haranı. Qız uşağıdı dana, çıxmıyıflar çölə-bayıra. Gejə düşdü, qaldılar elə ağacın divində. Savahatan qaldılar ağacın divində. Savah açılanda balaca bacıları bir az bijəltərəh idi. Dedi:

– Ay bajı, burda oturmaxnan bizi kim gəlif aparajax. Gəlin elə meşəynən çıxax gedəh, bir tərəfə çıxajeyih də.

Düşdülər meşəyə, ağzı yuxarı gethaget, gethaget, gethaget, gəldilər çıxdılar Şah Abbasın mal tolasına. Baxdılar ki, yaxşı toladı. Düşdülər külfənin ağzına. Axşam idi. Şah Abbas da gəlmişdi mala baxsın. Gördü ə, külfənin ağzınnan səs gəlir. Gəldi külfəyə yaxınnaşdı, qulağını dirədi ora, gördü əyə, kadın səsidi. Dinşədi, elədi, gördü üş nəfərdilər. İndi böyüh bajı Allahdan arzu eliyir ki, Allahın altında elə məni vəzirin oğlu aleydi, günüm yaxşı keçeydi da, çörəyim, suyum oleydi. Ortancıl da dedi ki, Allahın altda məni vəkilin oğlu aleydi, bajı, elə bu şəhərdə yaşıyeydih bir yerdə. Mənim də varım-halım oleydi. Bu balaca qız da dedi ki, a bajı, siz onu arzuladınız, mən də bir şey arzuluyajam.

– Nə arzuluyassan?

Dedi:

– Allahın altda o qədər varım oleydi ki, Şah Abbas mənim paltarımı aleydi qoluna, apardı hamama, gətirərdi.

Gör Şah Abbasdan nə qədər yuxarı isdiyir ey. Şah Abbas bunun üçünü də eşitdi. Gəldi evə. Adam göndərdi, dedi:

– Ə, orda üş nəfər zənən var, gedin onu gətirin.

Getdilər gətdilər. Baxdı ki, üş dənə qız uşağıdı. Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Qızım, külfənin ağzında Allahdan nə arzu eliyirdiniz onu bir də burda deyin görüm.

Bunnar bir az qorxdu. Axı pis alqış eliyif balaca qız. Dirəndi üsdərinə. Böyüh qız dedi ki, Şah Abbas sağ olsun, söz idi da danışdıx orda. Dedim ki, Allahın altda məni vəzirin oğlu aleydi, günüm yaxşı keçeydi, çörəyim, suyum oleydi.

Dedi:

– Bala, bəs sən nə arzuluyurdun?

O da dedi:

– Mən dedim ki, məni vəkilin oğlu aleydi, elə bajımnan bir şəhərdə oleydim.

Çağırdı vəziri, vəkili. Dedi:

– Bunu sən öz oğluna alessən, bunu da sən alessən.

Ağzı nədi almıya, şahdı. Balaca qıza dedi ki, qızım, sən nə arzuladın? O da bir az qorxdu. Dedi:

– Qorxunnan ölmə ey, nədən qorxursan? Sənə heş kim bir söz deyə bilməz, Allahdan arzuluyursan.

Dedi:

– Vallah, Şah Abbas sağ olsun, söz idi dana, danışırdım. Dedim ki, o qədər varım oleydi, Şah Abbas məni hamama aparıf-gətireydi.

Deyəndə dedi:

– Hə, lap yaxşı arzuluyursan.

Çağırdı vəziri, vəkili, bu qızdarı verdi onnarın oğluna. Kiçih qıza dedi:

– Bala, vallah, sənin arzunu mən yerinə yetirə bilmərəm. Sənin gərəh mənim varımnan çox varın ola ki, mən sənin paltarını hamama aparam. Ona mənim güjüm çatmır, get Allah versin.

Bu düşdü yolun ağına, ağlıya-ağlıya, qız uşağı. Gethaget, gethaget, getdi bir düzdə gördü bir bina var, ev var. Getdi bir çökəh yer vardı, burdan keşdi içəri:

– Ay ev yiyəsi, ay ev yiyəsi.

Axşam düşür. Nə qədər çağırdı, gördü hay verən yoxdu. Getdi qapıya. Qapını basan kimi qapı açıldı. Girdi gəzdi, gördü heş kəs yoxdu, amma ev doludu, nə isdəsən var. Kişiyə gərəh Allah verə ey,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yüyürməhnən döylü. Gördü hər şey var, özü də ajmışdı. Sımavarı doldurdu qaynatdı. Bişmiş bişirdi, yedi qarnını doyurdu, gəldi otdu, görə indi axırı nolajax, kim gələjəh. Buranın da yiyəsinin adı Məhəmməd idi. Bu da tilsimkar idi. Günüz olanda ilan donuna düşürdü, gedirdi. Axşam olanda gəlirdi donunu dəyişirdi olurdu oğlan. Məhəmməd ilan donunu dəyişdi gəldi ki, bir qızdı oturuf.

–Ağız, sən hardan gəlmisən bura?

Dedi:

– Hal-qəziyə belə-belə.

Dedi:

– Hə, yaxşı eləmisən. Elə Allah səni maa yetirif, məni də sənə. Görürsən bu evlər hamısı doludu. Qızıldı, gümüşdü, nə bilim vardöylət. Sən gördün ki, mən ilan donunda gəldim. Tilsimkaram. Mənim sirrimi heş kəsə vermiyəssən. Əyəm mənim sirrimi aşsan, elə burdaja quru yurtda qalassan. Bular hamısı tilsimdən düzəlmə şeydi.

Dedi:

– Vermiyəssən ki?

Dedi:

– Yox.

Başdadılar burda dolanmağa. Bir gün bir dənə dərviş gəldi, qəsidə deyirdi bunun qapısında. Bu apardı dərvişə bir kisə qızıl verdi. Dərviş sevinə-sevinə götdü, hərrəndi gəldi Şah Abbasın qapısına. Şah Abbas arvada dedi ki, ay arvad, dərviş gəlif, apar ona qəpih ver. Qara qəpihlər olurdu. Arvad aparıf bu qəpihdən verəndə dərviş dedi ki, buna bax ey, sən Allah, Şah Abbasın adı dünyanı götürüf, bir qız xeylağı maa bir kisə qızıl verdi, Şah Abbas da maa qara qəpih verdi. Bunu arvad getdi dedi Şah Abbasa. Dedi:

– Vallah, verdim, heş götürməh isdəmirdi. Dedi ki, bir qız xeylağı maa bir kisə qızıl verdi, Şah Abbas maa qəpih verir.

– Ay arvad, yüyür onu saxlat.

Çağırdı saxlatdı. Dedi:

– Ə, o kim idi sana bir kisə qızıl verif? Dərvişə, sayıla bir kisə qızıl verəllərmi?

Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Şah Abbas sağ olsun, verdi da o. Qəsidə dedim qapısında, gətdi bir kisə qızıl tulladı.

Bu, məhətdəl qaldı ki, bir kisə qızıl verəllər sayıla. Dedi:

– Onun evi-eşiyi hardadı?

Bu, yerini dedi. Şah Abbas bir gün durdu, atını mindi, dedi:

– Gedim görüm o nətər adamdı. Nə qədər varı var ki onun, dərvişə qızıl verir?

Durdu gəldi, axşama çatdı ora. Qapını döyən kimi qız gəldi. Amma aradan çox keçifdi. Şah Abbas qızı tanımadı, qız Şah Abbası tanıdı.

– A bala, məni beyjəlih qonağ eliyə bilərsənmi?

Dedi:

– Niyə eləmirih, düş gəl.

Amma qız da elə elədi ki, guya Şah Abbası tanımır. Apardı buna yaxşı yeməh-işməh. Yedilər işdilər. Bir qız idi, bir də Şah Abbas, Məhəmməd hələ gəlmiyif. Dedi ki, dayı, mən hamama getməliyəm, isdiyirsən burda otur, isdiyirsən mənnən gəl hamamın yanında oturarsan. Şah Abbas da dedi: "Ə, məni burda kimdi tanıyan". Qız paltarını yığanda dedi:

– Bala, paltarı ver maa, mən götürüm.

Qız paltarını tulladı bunun qucağına, getdilər. Allahdan arzu eləmişdi axı. Gör Allah bunun arzusunu nətər yetirir? Götdü apardı. Qız getdi girdi hamama çimməyə, bu da qapıda gözdüyür. Şah Abbas kimi adam qızı gözdüyür. Çimdi elədi, yaş paltarını da genə Şah Abbas aldı qoltuğuna, gəldilər. Qız hələ özünü tanıtmır. İndi başdadılar söypətə. Axı bunun əri gələsidi. Məhəmməd gəldi ordan baxdı ki, bir kişidi oturuf. Çıxmadı. Evdə adam olanda üzə çıxmırdı ki, tilsimini bilələr. Gejə bunnar yatdılar. Savah duruf gedəndə qız dedi ki, buna bildirim da. Dedi ki, Şah Abbas, məni tanımadın?

Dedi:

– Yox.

– Kimsən, a bala, sən?

Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– O bajılarımı ki verdin vəzirin oğluna, vəkilin oğluna, maa dedin ki, get sənkini Allah versin. Bax, həmən qız mənəm. Mənim o qədər varım var, Allah verif.

Dedi:

– Hə, saa dedim ki, get sənkini Allah versin, mənim güjüm çatmır. Lap yaxşı. Gedim bajılarına deyim yerini-yurdunu, gəlsin görüşün.

Gəldi Şah Abbas bunun bajılarına dedi ki, bajınızın varı o qədərdi ki, təpəsinnən yuxarıdı. Gedin görüşün filan yerdədi. Bunnarın uşaxları da olmuşdu. İki bajı ikisi də qoşuldu bir-birinə gəldi bunun evinə. Qapını aşdı ki, bajılarıdı. Görüşdülər, elədilər, gəldi otdular. Bular baxdılar ki, bura ayrı adam gəlmir. Dedilər ki, ay bajı, heş bura adam gəlmir. Sən kimnən olursan ki burda?

Dedi:

– Ay bajı, nəyinizə lazımdı, tək oluram. Bu ev mənim, eşih mənim. Əyəm varınız yoxdusa, nə isdiyirsiniz götürün, çıxın gedin. Mən kimnən oluram, nətər oluram, ona qarışmıyın.

Üş gün qaldılar burda. Yedilər, işdilər, danışdılar. Məhəmməd gəlirdi, görürdü bular burdadı, çıxmırdı, qayıdıf gedirdi. Üç günnən sora bular gedəsi oldu. Böyüh bajısı əl çəkmədi ki, sən kimnən olursan gərəh bizə deyəsən. Nətər biz bajıyıx, dərdini maa demiyəssən kimə deyəssən? Bu boynu qırılmış da aşdı dedi. Dedi:

– Ərim belə tilsimkardı. İlan donunda gedir, gələndə bax burdan çıxır.

Çıxdığı yeri gösdərir. Deyir bajı bajının altına it küçüyü qoyur, yalan döyül ey. Heylələri var. Bunnar gedəndə böyüh bajı həmən dəməyin ağzına almaz tulluyur. Almazı tulluyur, çıxır gedir. Məhəmməd ilan donunda gəlirdi. Gələndə almaz onun burasınnan tutdu. Kəsdi, qanadı. Başını çıxartdı belə, arvadına dedi ki, mənim sirrimi saa demədim vermə. Niyə verdin mənim sirrimi? Mən getdim, qaldın düzün ortasında. Çıxdı getdi. Tilsimdən düzəlmiş şeydi. Qızı da yuxu tutdu, yatdı. Bir vaxt qalxdı ki, gün günorta olufdu, ev nə gəzir, eşih nə gəzir. Hamısı tilsimdən olan şeydi, yoxa çıxıf. Bir başına vurdu, bir g…nə vurdu. Ağladı, sızdadı, nolajeydi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ağlıya-ağlıya durdu düşdü yolun ağına. Yolnan gedirdi bir meşənin içiynən. Məhəmməd çıxdı bunun qabağına. Dedi:

– Aaz, niyə ağlıyırsan?

Yıxıldı bunun əlinə-ayağına, üzünnən öpdü, gözünnən öpdü. Səni and verirəm Allaha, imana, məni tərk etmə. Dedi:

– Saa demədim mənim sirrimi vermə, niyə verdin?

Dedi:

– Qanmamışam, bilməmişəm. Bir də vermərəm.

Təzdənnən Məhəmməd buna tilsimnən bir ev tikdi, yığdı içinə. Aradan bir az keçəndə bajıları dedi ki, aaz, gedəh bir də bajımıza dəyəh. Deyilənə görə, gəlif qapını açanda görüf bajılarıdı, ağajı götürüf qovuf. Deyif:

– Gedin, sizin kimi bajı mənə lazım döyül.

Bajılarını da qavdı. Məhəmmədnən otdu burda ömürrüh.

## 15. BAXDINI GƏZƏNİN NAĞILI

Bir nəfərin bəxdi gətirmirmiş, əkirmiş bitmirmiş, əkirmiş bitmirmiş, suvarırmış sel aparırmış. Bir gün deyir ki, dur, arvad, çörəh bağla görüm. Vallah, gedəjəm baxdımı gəzəm. Mənim baxdım harda yatıfdı görüm. Nətər şeydi, hamı əkir-biçir, mən əkdiyimi ya dolu döyür, ya sel aparır.

Gedir, gedir, görür ki, bir yeri sel basıf. Hamısının baxdı eşələnir, çalışır, bəndi tutur, selin qavağını alır, bir nəfər də bürünüf yatıf. Lıkkaya batıf, ancax qaraltısı görükür. Bu deyir:

– Sən öl, bu mənim yatan baxdımdı.

Əsasını götürür bunun belinə vurur:

– Ə baxdım oğraş, burda nə yatmısan, qalx ayağa görüm.

Bu, yerinnən qalxır.

Kişi qayıdır gəlir. Görür bir quru ağaş var. Bu ağaca belə söykənir ki, bir az yornuğunu ala, bu ağac şıkkıltıynan uçur. Durur deyir:

– Sən mənim baxdıma bax. Hələ baxdımı oyatmışam, quru ağaş mənə tab gətirmir, oyatmasam nejə olardı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ağacı kökünnən belə çıxardanda görür nə? Ağacın altında qızıl küpəsi. Götürür qızıl küpəsini, deyir:

– Hə, baxdım oyandı.

Ağacın divində küpə varmış, ona görə ağac ordan su içə bilmiyif quruyuf. O qızıl küpəsiynən o kişi varranır. Bütün kasıflara kömək eliyir, cütü olmuyana cüt verir, torpağı olmuyana torpax verir.

## 16. ÜÇ QARDAŞ

Üş qardaşmış, ikisi bunun qoçaxmış. Vururmuşdar İran-Turan, qazanıf gətirirmişdər. Bir qardaşı da mənim kimi yuxu tutuf yatıf. Ayılmır ki, ayılmır. Bir günnəri qardaşdar deyər ki, biz nətər eliyək ki, bunu yuxudan ayıldax. Bir sürü külfətdi. Bu işıxlı dünyada gözünü bağlıyıf, niyə camaat kimi gedif qazanıf gətirmir? Bu niyə yatıf qalıfdı? Gedər qardaşınnan oturar, yoldaşı buna çay gətirər. Deyər:

– Ay qardaş, çalana-çapana, bazara gedənə, dəllallığ edənə, yol gedənə, yol gələnə, yol kəsənə bir rəğbət tapbalısan özündə, bu külfəti dolandırmax lazımdı.

Deyir:

– Bilirsən nə var, qardaş. Xəbərin var sənin?

Deyir:

– Yox, mənim xəbərim yoxdu. Getdiyim yerdə qazancı Allah verir, gətirif külfətimi dolandırıram. Axı sənin külfətinin ahı ərşifələyə çıxıfdı ki, bu yatır, bizə qazanc gətirmir.

Bunu yatırdan yatırdıfdı, ay oğul. İlahi insana urza verməlidi. Şükür hakkın dərgahına. İnsana səbir veməlidi. O adam xoşbəxt adamdı ki, ilahidən həmişə özünə səbr isdiyir. Nə qədər səbr isdəsən, səbrnən oturuf dursan, Allahın da bir heylə xoşuna gəlirsən.

Deyər:

– Durun düşün qabağıma.

Yatan durar buları qatar qabağına. Götürər gedər. Bunnan irəli quyular vardı, su quyusu. Deyif:

– Görürsən bu su quyusunu?

Deyif:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Görürəm.

Deyif:

– O su quyusu sənindi, dufduru göz yaşı kimi gəlir. Bu sənin gəlirindi, sənin axarındı. Bu quyu da bu qardaşımındı. Bura gəl indi mənimkinə bax.

Baxır görür ki, bir qarannıx quyudu, içi tikan, kötüh doludu, bir damcı su yoxdu. Deyif:

– Bu, mənim taleyimdi. Havaxt Allah-tala mənim gözümü açajaxsa, urzamı verəjəhsə, sizinki kimi də duru su gələjəh. Səninki gəlir, sən ona görə özünü qoçax bilirsən. Mən sənnən də qoçağam. Bərdən yavaş-yavaş gedincə mən sənnən də qavax yüyürərəm, amma məni yatırdan var. Hər şey Allahın əlindədi. Şükür Allahın məsləhətinə.

## 17. İKİ QOZUN NAĞILI

Bir kasıb varmış. O qədər kasıbmış, nətəri. O birsi deyir ki, bəxtin yatıfdı sənin. Gedək bəxtimizi axtarmağa, görək kimi tapırıx. Nəysə, gediflər, görüflər bir kişi üzü dağa tərəf yatıf. Deyif ki, hara gedirsiz belə? Deyif:

– Bəxtimi axtarmağa.

Çıxarıf cibinnən iki qoz verif kişiyə. Deyif:

– E, mənim baxtım elə əvvəldən yox imiş. Bu maa iki qoz verdi, bunu mən neyniyəjəm?

Düşüllər yola. Gəldiyi yerdə görür üş-dörd dənə uşax yolda beşdaş oynuyur. Daşın biri çox parlaxdı. Uşağa baxır, baxır, deyir:

– A uşağ, ala bu qozu verim saa, o daşı ver maa.

Daşı götürür gəlir evinə, qoyur daxmasına. Arvad deyir:

– A kişi, getdin baxdını tapdınmı?

Deyir:

– Ay arvad, elə yatmışdı dağda, nətəri. Üzü dağa, arxası bizə tərəf.

Şah çıxıf küləfirəngidən baxanda görüfdü ki, kəndin o kasıb daxması elə bil səni alışıf yanır. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Nətər olur, bu daxma belə işıx saçır, bərq vurur. Soruşax görəh o nə hak-hesabdı.

Kasıb kişini çağırıllar ki, gəl görək sənin daxman niyə heylə bərq vurur? Deyir:

– Nə bilim, qibleyi-aləm sağ olsun. Evdə arvad məni çox dəngəsər elədi, getdim bəxtimi axtarmağa. O da yatmış idi, heş üzünü maa çöndərmədi, iki qoz verdi. Qozu da verdim uşaxlara, maa bir daş verdilər. Götürüf gəlmişəm, qoymuşam evə ki, bu daşa baxajam.

Padşah deyir:

– Gət daşa baxım görüm.

Baxır görür ki, bu birliyantdı, bərq vurur. Alır ki, bunu sarayın xəzinəsinə verəh. Deyir ki, isdiyirsən saa ev tikdirim, eşih tikdirim, səni yanımda işə qoyum. Kişi deyir:

– Mən qapıda dura bilərəm, əlavə nə iş görə bilərəm ki? Külfətimi evnən-eşihnən təmin elə, sənin bağında, həyətində işdiyim.

Padşah onu qapıçı vəzifəsinə qoyur. Onnan sora deyir ki, hə, o qoz məni çətinnihdən qutardı.

İnsannar, kasıblar ümidnən yaşıyıllar, ümid olmasa, insan məhv oluf gedər.

## 18. HƏZRƏT ƏLİYNƏN QƏSSAB

Bir gün Cənab Əli deyir:

– Xeyri, gedəh camaatı yoxluyax. Bir sünnü şəhərinə gedəh, görəh sünnülərdə islam dininə itaət eliyən var, yoxdu.

Durur gedir. Şəhərin kənarında deyir:

– Xeyri, mən qalajam burda, şəhərə girmiyəjəm. Sən get şəhəri, bazarı hərrən, məə bir bilgi topla gət.

Xeyri gedir bazarı hərrənir. Görür hər şey öz yerində. Bir dənə qəssabdı, qoyunu kəsir, biri, məsəlçün, on misqal ət isdiyirsə, "Əli başıçün almaram, Əli başıçün vermərəm", – deyif pıçağı belə çəkir, əti qoyur tərəziyə on misqal olur. Nə artığ olur, nə əysik. Bu məhətdəl qalır. Bir gün günortaya qədər buna fikir verir. Biri deyir bir girvəngə ver. Deyir: "Əli başıçün almaram, Əli başıçün verməə-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

rəm”. Pıçağı vurur, kəsir qoyur tərəziyə, bir kilo gəlir. Ta nə artıx var, nə əysik. Bu məhətdəl qalır ki, bu sünnü bazarında sünnü Əlinin qədrini nə bilir ki, ona belə itayət edir. Məhətdəl qalır. Qayıdır, gələndə Əli deyir ki, ey Xeyri, nə gej gəldin.

Deyir:

– Ya imamım, elə bir şeynən qarşılaşdım ki, heş həqiqi gözünnən görməsən inanmazsan.

Deyir:

– Ey Xeyri, de görüm, nədi.

Deyir:

– Sünnü bazarında belə bir qəssabnan rastdaşdım.

Deyir:

– Onda qayıdıf gedərsən o qəssaba deyərsən axşam ona qonağıx. Gedif onu yoxluyajam.

Bu sünüün də gör Əliyə nə qədər inamı varmışsa, bir dənə meçit tikdirmişdi, ağzına da kilit vurmuşdu ki, nə vaxtsa Əli mənim torpağıma qədəm qoyarsa, bu meçidin qapısını birinci Əliyə aşdırıf, onu bu evdə qonağ eliyəjəm. Bu qapını heş açan yoxumuş. Elə tikdirif, qapısını bağlıyıf qoymuşmuş.

Xeyri gəlif deyir:

– Ey qəssab, ağamnan biz Əli şiyəsiyik, sünnüdə qonax qalmağa yerimiz yoxdu. Bizi bu axşam qonağ eliyərsənmi?

Deyir:

– Əlinin özünə də qurvan olum, adına da, adınnan gələn qonağa da canım qurvandı. Gözüm üsdə yerim var. Gəlin, mən də burdayam.

Xeyri qayıdır gedir Cənab Əlini götürür gəlir. Bu da bazarını yığışdırır, bağlıyır, gedillər. Gedəndə Cənabi Əli meçidə yeddi qədəm qalmış qapı öz-özünə şakqaşarax açılır. Qəssab məhətdəl qalır ki, bu qapını kim aşdı, bu nətər şeydi. Qayıdır bu adamın üzünə baxır ki, bu Əli ola bilər? Tanımır axı, görmüyüf Əlini. Əli də boydan alçax, cürəpərə adam idi. Çox cüssəli adam dəyilmiş. Əli keçir, Xeyri də keçir. Deyir:

– Heş çaşmaginən, bu qapı bizim üçün açıldısa, burda oturmalıyıx.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cənab Əliyə hər şey agah idi. Keçillər, bular əyləşəndə bunun tək bir dənə evladı varmış. Deyir ki, qonax, deyin görüm sizə nə hazırrasın. Qoyun, quzu, nə isdəsəz hazırrasın. Əli şiyəsi gəlif, canım ona qurvandı, deyin görüm nə yiyərsiz?

Deyəndə Əli deyir ki, mənim dünyada yeegim ancax böyrəhdi. Qoyunun böyrəyinnən başqa heş bir tam dadmaram. Deyəndə bu gətirir qapıda bir-iki dənə qoyunu varımış, tez kəsir, böyrəhlərini verir. Arvad buları bişirir. Bişirir, qoyur belə bir vazaya. Bir dənə də yeddi yaşında körpə uşax varmış. Uşax gəlir böyrəyin birini götürür. Qalır burda üş böyrəh. Allahın möcüzəsiynəndi, Əlinin sirrini üzə çıxartmax üçündü. Arvad əlinin dalıynan uşağı vuranda uşax ölür. Arvad çığır-bağır eliyəndə kişi deyir:

– Heş qəti dinmə, evdə qonax var.

Uşağı çəkir aparır daldaxanada üzüün yaylıxlıyır, deyir:

– Dinmə, qonağ gedənnən sora nə qədər ağlıyırsan ağla.

Amma Cənab Əli gələndə uşağın qapıda hərəndiyini görmüşmüş. Qəssab gəlir, deyir bə bu üş böyrəyi nejə aparım. Bu gəlir deyir ki, qonax, çörəh ye. Əli deyir:

– Yox. Burda bir uşax hərrənirdi. O uşax gəlməsə, mənnən surfaya oturmasa, mən çörəh yemiyəjəm.

Bu nə qədər eliyir:

– Ay qonax, o uşax qanmazdı, betəmiz olar.

Deyir:

– Yox ey, əgər məni isdiyirsənsə, Əli xətrinə, uşax gəlməlidi.

Deyəndə deyir ki, sən ki Əlinin adını çəkdin, Allahdan gizdin olmuyan sirri mən səə açajam. Hər kəssənsə bilmirəm, bəs belə-belə, anası belə itələməhnən o uşağın başı dəydi yerə, uşax canını tapşırdı. Deyir:

– Hardadı uşax, məni aparın uşağın yanına.

Bu, Əlini aparır uşağ olan yerə. Uşağın meyidini gətirir. Cənab Əli iki rükət ayət namazı qılır, Allah-taladan istahaza eliyir, uşağın üzünə üfürən təki uşax axsırır ayağa durur. Əlinin ayağınnan tutur, deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Əli, sənsən? Bəs indijə ağalarım maa dedi ki, Əli gəlif səni ayıldajax, yatmısan, yuxudan ayıl.

"Əli sənsən" deyəndə qəssabın ajığı tutur ki, Əli nədi. Bu adama sən Əli deyirsən? Deyir:

– Hə.

– Nətər gördün?

– İndijə gördüm ki, ağalarım məə dedi yatmısan, Əli gəlif səni yuxudan oyadajaxdı. Sizin evə gələn qonağ Əlidi. İndi bu Əlidi, ata, – deyəndə deyir:

– Hə, düz görmüsən, bala. Mən Əliyəm, bütün sirrər də məə agahdı. Bəs sən demədinmi bu qapı niyə bizim üzümüzə açıldı? Mən Əliydim, o qapı mənim üçün bağlıydı. Mən gəldim, öz-özünə açıldı.

Da qəssab Əlinin ayağının altınnan öpür, başına fırranır. Əli gedir. Deyir: "O uşağa mən Allah-talanın elimlərinnən o qədər qismət elədim ki, o uşağ gələcəyin adnan deyilən bir adamı olajax". Heylə də olur. Uşax islam dinini yüksəldən bir alim olur, çıxır üzə.

## 19. SAVABIN XEYRİ

Şah Abbas cənnətməkan həftədə bir dəfə vəzir Allahverdi xanı alıf yanına eli xəlvət dolaşırmış dərviş libasında ki, görüm elim, camaatım nə qayda dolanır, mənnən razı, narazı olan varmı? Bir gün də belə gedəndə eli hərrənir, bir kəntdə gejəliyəsi olullar. Neçə varrının qapısına gedillər, olara darvaza açan olmur. Bu da səfərə çıxmamışdan qavax əmr eliyir ki, bütün kəntdərdə işıx yanmıyajaxdı, tüsdü çıxmıyajaxdı. Nə ojax yanajax, nə çırax yanajax. Deyif, görüm mənim əmrimə kim tabe olmur? Görür şəhərdən kənarda bir işıltı gəlir, ordan tüsdü çıxır. Deyir:

– Ey Allahverdi, gedəh ora, görəh kimdi. Mənim əmrim niyə ona çatmıyıf, çatıfsa, niyə mənim əmrimə tabe deyil.

Gəlif görüllər ki, bir cındır kümədi. Kümənin qapısını döyəndə burdan mənim təki bir qoja ağaca dirənə-dirənə çıxır.

– Ay sizə qurvan olum, mənim də qapımı gejə vaxdı qonax döyərmiş. Kimsiz, ay dərviş baba?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xoş-beş, buları evə keçirir. Azdan-çoxdan bulara verir, deyir:

– Bəs bir oğlum var, ay bala. Oğlum bir mülkədara çoban işdiyir, altı ayı bir toğluya. İndi buyünnəri mənim oğlum üş dənə toğlu alıf gətirəjəhdi, bir ilin hakkiyətidi. Oğlum gedif ki, ala gətirə. Savah oları kəsəh, bazara çıxardax. Gəlnim hamilədi. Gəlnim bari-həmlini yerə qoyanda ona xaşdıx üçün. İndi oturun, oğlum gələjəh.

Bir də görüllər oğlu qavağında üş dənə toğlu gəldi. Oğlan deyir ki, ey qonax, mənim hələ indiyətən qapımı qonax aşmıyıfdı. Siz ki, Allah yolunda qonax gəlmisiz, nə yiyəssiz? Şah Abbas deyir ki, mən böyrəhdən başqa heş-zad yemərəm. Deyəndə bular çıxır ana-bala. Deyir:

– Ay bala, nağayrax, nətər eliyəh?

Deyir:

– Nənə, neyniyəjeyih. Bunu savah bazara aparajeyih. Ya diri apardıx, ya ətini apardıx. Bunnarı kəsəh, böyrəhlərini bişirəh qonax yesin. Allahın hüzurunda qapımızı qonağ açıfdı. Qonağın urzası özünnən gələr, nənə. Ətdərini də savah çıxardax İsfahan bazarında satax, genə elə həmən pulumuz puldu.

Nənəsiynən razılaşıllar, toğluları kəsillər. Böyrəyi gətirillər. Şah Abbas deyir ki, olara deynən mən kimsəninsə yanında yemərəm. Təh bişirif, təh yeyərəm. Bunu gətirillər verillər. Ojağı qalıyıllar, manqalı qoyullar Şah Abasın yanında, özdəri çıxıllar. Şah Abbas böyrəyin yağınnan bir az ojağa salır iyini çıxardır, bir az cızıldadır. Bu böyrəhlərin altısını da qoyur öz kaşlyokuna, ağzını bağlıyır. Bular gəlir.

Axşam olur, yatanda qarı bulara yalvarır ki, sizə qurvan olum, bir dənə komadı. Gəlnimin vaxdıdı, bari-həmlini yerə qoyur. Elə bu qapıda sizə yer qayırım. Gəlnim bari-həmlini yerə qoysun, ayrı bir yerim yoxdu. Deyir:

– Eybi yoxdu.

Bunnara qapının ağzında yer qayırır. Bunnar yatanda Şah Abbas durur. Şah Abbas da elm adamımış da. Bilirdi ki, uşağ olanda onun taleyi yazılır. Durur düz gətirir qapının ağzına yorğan-döşəyini salır ki, burdan mələk gəlif keçəndə onu görüm, onu tutum, deyim bu uşağın baxdını yaxşı yerə yazsın. Bunu yuxu tutur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nəysə, həmlini yerə qoyur, gəlir bunun bir oğul evladı olur. Oğlan evladı olanda Şah Abbası yuxu tutur, yatır. Bir mələh bunun taleyini yazıf çıxanda Şah Abbas oyanır, bunun yapışır biləyinnən. Deyir:

– Ey mələk, hardan gəlirsən?

Deyir ki, bəs beyjə bu evin sahibinin bir oğlan evladı dünyaya gəldi, onun taleyini yazıram. Dedi:

– Nə yazdın?

Dedi:

– Beyjə Şah Abbasın bir qız evladı dünyaya gəldi. Bu oğlanın taleyini yazdım Şah Abbasın qızının taleyinə. Amma Allah-talanın izniynən oların on səkkiz il ömrü var. Olar bir-biriynən əhdi-peyman eliyif gərdəyə girən gejəsi bir-birinə murad alıf murad verə bilmiyəjəhdi. Oları bir ilan çalıf ikisini də öldürəjəhdi.

Deyir:

– Yazıya pozu olarmı? Bunu poz.

Deyir:

– Yox, Allahın yazısına pozu yoxdu. Yazdım getdi.

Mələk gedir. Bu durur, səhər açılır, gəlir çıxır taxdı-tacına. Deyir:

– Vəzir Allahverdi xan, bazara adam göndər, desin ki, xəsdəlih yayılıf, bazara kim ölü ət gətirsə, onu tutun gətirin.

Bu özü bilir ki, ət savah bazara gedəsidi. Vəzir Allahverdi xan bazara çıxan təki görür qarıynan oğlu gətirir əti satır. Buları tutullar gətirillər. Bu nə qədər and-aman eliyir, vallah, sağlamdı, indi kəs-mişəm. Deyir:

– Yox ey, şahın əmri var. Bazarda xəsdə ət satılır, camaata xəsdəlih düşür.

Bunu gətirəndə deyir:

– De görüm, bunu niyə satırsız?

Bu nağıl elədiyim təki deyir. Deyir:

– Vəzir Allahverdi xan, vəkil, gəlin görün inanarsuz bir adam bir ildə işdiyə, üş toğlu ala, üş toğlunu da bir qonağa kəsə. Buna kim inanar?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hamı deyir heylə şey ola bilməz. Bu adamın buna ehtiyacı var. Deyir:

– Ola bilməz? Vəzir Allahverdi xan, mənim kaşlyokumu gətir.

Gətirir.

– Badnos gətir.

Böyrəhləri götürür, deyir:

– Bu neçə qoyunun böyrəyidi.

Deyillər üş qoyunun böyrəyidi. Deyir:

– Axşam bu qoyunnar məə kəsilif, bu da böyrəhləridi. Gedin bu adamların xurcununu doldurun qızılnan, gümüşnən, yola salın. O uşağı da gətirin, mən özüm böyüdəjəm.

Bu uşağı gətirir elə bir bina tikdirir ki, bu binaya adicə hava da dolmağa yer olmur ha. Bütöy beton-sement tökür ki, bu uşağı mən böyüdəjəm, görəh yazıya pozu varmı. Mən qoymuyajam, bu ilan hardan girəjəh.

Bu uşaxlar böyüyür. On beş-on altı yaşına keçənnən sora buları salır bir otağa. Bu uşaxların yeməyin də Şah Abbas özü aparır, işməyini də, yerrərini də axşam olanda özü əlinnən salır. Səhər ertə özü gedir bunnarın yeməyini öz əlinnən verir, bulların yatağını da özü yığır ki, görüm bu ilan hardan gələjəhdi.

On səkkiz yaşdarı tamam olur. Həmin gejə buların kəbinnəri kəsilir. İndi bir-birinnən murad hasil eliyən gejədi. Gəlin gərdəyə gedir. Şah Abbas deyir:

– Heş kəs getmiyəjəh.

Həmən gejə özü çırağı aparır. Çırağı yandıranda ilan Allah-talanın hökmüynən olur baş tükü, gəlir dolaşır Şah Abbasın biləyinə. Çırağın şüşəsinnən keçir, lalasınnan dolanır çırağın boynuna. Şah Abbas öz əliynən gətirir qoyur qızının otağına. Buların yerin döşüyüf salır, qapını bağlıyıf gedir. Buların da axşam azuqələrin gətirif qoyur stolun üsdünə ki, nə vaxt ajsaz yeyərsiz.

Bu iki cavan bir-birinə o qədər aşiqi-məşuq olur, oynuyur, gülür ki, tamam buların yemək yadınnan çıxır. Bu ilan da Allah-talanın hökmüynən keçir buların yatağının altına ki, bular yatan təki



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ikisini də öldürməlidi. Allahın əmridi, yazı belə yazılıf. Bir də görüllər çöldən nəysə zarıncı bir səs gəlir:

– Ay ev sahibi, ay burda kim var, ay ajınnan ölürəm, mənə imdad.

Bular pəncərədən baxıllar ki, bir aj sayıldı, yıxıla-yıxıla sürünür. Deyir:

– De görəh nə isdiyirsən?

Deyir:

– Üş gündü dilimə taarı tamı dəymir. Məə bir tam verin, gedə bilmirəm, – deyəndə bular biri-birinə deyir ki, biz neynirih yeməyi, onsuz da bizim oynamağımız-gülməyimiz bizim üçün yeməhdi. Babam nə biləjəh ki, bunu kimə vermişih. Bular bir torbaya töküllər yeməyi, pəncərədən sallıyıllar ki, götür, qaş get. Elə bir yerdə ye ki, səni padşah görməsin, görsə, doğruyajaxdı. Bu yeməyini götürür, aparır yeyir. Arvadı da təzə hamiləlihdən qutarmışmış. Yediyini yeyir, yemədiyini aparır verir. Arvadı yeyir, döşünə süd gəlir, körpəsini mayalandırır. Allaha okqədər xoş gedir ki, əmr eliyir:

– Cəbrayıl, o ilana elə başağrısı verərsən ki, yatar, savaha qədər yuxudan ayılmaz. O gəşdərin hərəsinə yüz il ömür verdim. Yüz il olar ömür sürəjəhdi. Bu dünyanın da padşahlığını olara qismət elədim.

Nəysə, savah açılır. Şah Abbasın gejə yerinə od doluf axı, beyjə bular ölməlidi. Tezdənnən durur gəlir. Qapını açır, görür nə? Elə bil evə nur saçılır. Gəşdərin üzünnən gül açılır, evə elə bil nur yayılıf. – “Ey İlahi, yazıya pozu olarmı?”

Cuma günü imiş. Çölə çıxanda görür Cənabi Cəbrayıl Allah-talaynan söypətə gedir. Deyir:

– Ya Cəbrayıl, hara gedirsən?

Deyir:

– Allah-talaynan istahazaya gedirəm.

Deyir:

– Cəbrayıl, min kəlmə danış, min birinci kəlmə mənim ərzimi Allah-talaya ərz eylə ki, yazıya pozu olarmı?

Gedir Cəbrayıl Allah-talaynan söypət edir min kəlmə, min birincidə deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ya Allahım, bir şəxs dedi ki, de görüm yazıya pozu olarmı?

Allah-tala deyir:

– Yazıya pozu olmaz, amma savabın xətrinə ola bilər. Get öz əlinnən o uşaxların yatdığı döşəyin altını qalxız. Onda görəssən yazıya pozu var, yoxdu.

Cəbrayıl qayıdıf gələndə Şah Abbas bunun yolunu kəsir:

– Ya peyğəmbər, canım saa fəda, Allah-taladan mənim kalamımı aldınmı?

Deyir:

– Aldım.

Deyir:

– Allah-tala nə dedi?

Deyir:

– Allah-tala bir söz demədi. Gəl, görəjeyih.

Gedir uşaxların döşəyini qalxızanda görür nə? Burda bir ilan yatıfdı, inan ki, bu adamların beşini də birdən udar. Deyir:

– Görürsən? Get uşaxlardan soruş, görəh beyjə olar nə savaf eliyif ki, Allah-talaya xoş gəlif, Allah-tala olara bir belə də ömür verif. Allah-tala bu ilana baş ağrısı verif, bu hələ də yuxudan ayılmıyıf.

Cəbrayıl bu ilanı götürür atır pencərədən, deyir:

– Allahın heyvanı, çıx get. De görüm, bura nə löyünnən gəldin?

İlan dil açır, deyir ki, bəs bir tük şəklində Şah Abbasın qoluna dolandım, çırağın şüşəsinnən keşdim gəldim bura. Beyjə o uşaxların ikisini də mən zəhərriyif öldürməli idim, Allah-tala mənə bir dərd verdi, yatmışam, yuxudan ayılmamışam.

Uşaxlara deyəndə uşaxlar deyir:

–Vallah, ay ata, Allahdan gizdin olmuyan sözü sənnən niyə gizdədəh. Beyjəki tamımızı biz yemədik. Bir sayıl gəlmişdi. Onu tökdük torbaya, salladıx o sayıl yedi, Allaha yalvara-yalvara getdi.

Deyir:

– Hə.

Həmən o sayılın arvadının döşündə maya yoxudu körpəsini mayalandıra. Uşağ ölüm ayağında idi. Üş cana bu uşaxlar can verdi, üş nəfəsi yaşatdı. Allaha xoş getdi, ona görə bulara yüz il



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ömür verdi. Yazıya da pozu yoxdu. Allah o savabı ofsanata saldı. Yazıya pozu yoxdu, amma ofsanat var. Oların gördüyü ofsanatdı. İndi Allah-tala o ofsanatdan bizim əlimizi əysih eləməsin. Heylə ofsanatdar daim bizim qarşımıza çıxannardan olsun.

## 20. SÜLEYMAN PEYĞƏMBƏRİN ÜZÜYÜ

Bir günnəri bir zərgər əlində çəkic işdiyirmiş. Bu deyir ki, Əli hakkı almaram, Əli hakkı verməəm. Süleyman peyğəmbər yolnan gedirmiş. Görür ki, bu zərgər belə deyir. Deyir:

– Ə, onun dilini kəsəjəm.

Barmaxcılını çıxardır, deyir:

– Usda.

Deyir:

– Bəli.

Deyir:

– Bu üzüh barmağımı bir az sıxır. Bunu bir az irildif maa verə bilərsənmi?

Alır baxır, görür ki, Həzrət Süleyman peyğəmbərin möhürü var. Zərgər baxır ki, bu, buna yalan deyir. Üzüh barmağını sıxmır a. Alır üzüyü tulluyur daxıla. Zərgər başaşağı işdiyəndə Süleyman peyğəmbər üzüyü ordan oğurruyur. Çayın qırağınnan gedəndə üzüyü tulluyur çaya ki, qoy heş tapılmasın, savah açılan kimi onun boğazını üzüm. O ki deyir "Əli hakkı almaram, Əli hakkı verməərəm", qoy görüm Əli ona nətərköməh eliyəjəh.

Axşam günbatan çağı bu durur tükanın ağzını bağlıyanda daxıla baxır ki, üzüh yoxdu. Deyir:

– Vay öyü yıxılan canım, padşah, sən öl, boğazıma savah qurğuşun tökəjəh.

Çox pərişan halda öyə gedir. Arvadı deyir:

– A kişi, niyə belə pəjmürdəsən?

Deyir:

– Arvad, bir işə düşmüşəm, mümkün döyül. Üzüyü axtarıram, tapmıram, yoxdu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– A kişi, çörəyi ye. Sən ki deyirsən “Əli hakkı almaram, Əli hakkı vermərəm”, Əli kömək olar.

Deyir:

– Arvad, vallah yox, savah padşah mənim boğazıma qurğuşun tökəjəh.

Arvad deyir:

– Mən bir üzüh tapmışan, bax, gör ona oxşuyur?

Dedi:

– Gət görüm.

Gətdi, baxdı ki, həmən üzühdü. Süleyman peyğəmbərin adı bunun üsdündə, möhürü üsdündə. Dedi:

– Arvad, sən bunu hardan aldın?

Dedi:

– Bir balıxçı satırdı.

Dedi:

– Hə, həmən adam bunu oğurruyuf aparıf tulluyuf çaya, balığ orda uduf, o da balıxçının toruna düşüf. Bunu Allah eliyif.

Üzüyü qoydu civinə, savah getdi dükana. Süleyman peyğəmbər gəldi dedi:

– Salam.

Dedi:

– Əlöykümət salam.

Dedi:

– Üzüh hazırdı?

Dedi:

– Bəli.

Çıxartdı üzüyü verdi. Taxdı barmağına, gördü həmən üzühdü, həmən ölçüdə. Dedi:

– A kişi, sən bunu hardan aldın?

Dedi:

– Neynirsən?

Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A kişi, sənnən söz soruşuram. Mən Süleyman peyğəmbərəm, sən öl, səni buyün dara çəkdirəjəm.

Dedi:

– Sən o üzüyü maa verəndə mən tulladım daxıla. Sora sən onu ordan oğurramısan, aparıf tullamısan çaya. Çayda da balığ uduf, o da torçunun toruna düşüf. O da qismət oluf bizim arvad alıf.

## 21. BACI HƏSRƏTİ

Deyir bir kişi olur, naxırçı olur. Günü bir çörəyə kəndin malını-qoyununu otarırdı. Bir gün gedif düzdə oturuf fikirrəşəndə bunun gözünə ağ bürüncəhli bir kişi görünür. Gəlir buna salam verir, salam alır. Deyir bəs sənin ömrün yaxınnaşıf, mən gəlmişəm sənin canını almağa. Deyəndə bu yalvarır-yapışır. Deyir:

– Ay Azreyil, mənim canımı alma, qoy gedim. Həm çarığım köhnədi, arz eləmişəm ki, Allah, pulum olsun, bircə təzə çarıx alıf ayağıma geyinim. Qoy mən bircə təzə çarıx alım ayağıma geyinim. Həm də qərif diyarda bir bajım var, neçə ildi o bajımnan görüşməmişəm. Gedim onnan halallaşım gəlim.

Buna Azreyil deyir:

– Səə üş gün möhlət verdim, get bajınnan halallaş, gəl.

Bu durur gəlir çarıxçının yanına. Çarıxçıya zakaz verir, ayağını ölçdürür. Çarıxçının böyründə suyun içində balıxlar varmış. Balıx baş qaldırır başdıyır qalkqıldıyıf gülməyə. Bu deyir ki, bu nə olan şeydi, balıxlar niyə güldü? Bir dənə bilici tapıllar. Bilici deyir ki, a kişi, sənin üşcə gün ömrün qalıf, sən bir həftəyə zakaz verminsən çarıx tikdirirsən. Balıxlar gülür ki, sən üş günə qədər ölüf gedəssən, o çarığı niyə tikdirirsən.

Deyir:

– Mən möhlət almışam.

Gəlir arvada deyir:

– Arvad, dur heyvəmə çörəh qoy, gedirəm bajımla halallaşmağa.

Arvad deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A kişi, bajıı yanına bir aylıx yoldu. Gedərsən, yolda ölüf qalarsan. Qojalmısan, heydən düşmüsən. Bajın hardan yadına düşdü?

Deyir:

– Yox ey, olmaz. Gedəjəm bajımla halallaşmağa. Ölüm-itim dünyasıdı.

Nəysə, arvad durur bir az çörəh qoyur dəstərxanına, götürür gəlir. Yolda gələndə görür ki, bir meyid aparıllar basdırmağa. Bu meyitdən keşmir. Düşür bu meyidin arxasına, meyidin namazına durur, basdırılır, bunun fatihəsi verilir. Camaat dağılannan sora durur yoluna rəvan olur. Bu, Allah-talaya xoş gəlir. Allah-tala onun ömrünü on il uzadır. Deyir: “Bu adam ki, ölüdən keşmədi, Qurannan, namazdan keşmədi, on il ona ömür verdim, Cəbrayıl”.

Bu sora keçif gedir. Görür ki, heymədə bir nurani şəxs oturuf Quran oxuyur. Burdan da keşmir. Oturur bu, Quranı qutarana qədər buna qulax asır. Deyir: “Heç olmasa qulax asım da, ömrümün axır çağıdı”. Allaha bu da xoş gedir. Cəbrayıla əmr eliyir ki, o ki Qurannan keçif getmədi, on il ona ömür verdim, getsin yaşasın.

Gəlir bajısının yanına. Bajısınnan halal-hümmət. Bajısı deyir:

– Ay qardaş, gəlmişkən bir həftə qal.

Deyir:

– Yox ey, ay bajı, buyünnəri qayıtmalıyam.

Bajısıynan görüşəndə bajısı okqədər sevinir ki, Allah-talaya xoş gedir. Allah-tala deyir:

– Cəbrayıl, bajısını sevindirdiyinə görə on il də ömür vedim, getsin yaşasın.

Bajısınnan görüşür, qayıdır gəlir. Kişi gəlir oturur, qüsulun verir, paklaşır. Yönü qivləyə uzanır, kəlmeyi-şəhadətini oxuyur ki, ta mən ölməliyəm də. Vaxdım üş gündü, o da tamam oldu. Ha gözdüyür, ölmür. Axşam olur, ölmür, savah olur, ölmür. Deyir: “Bu nə olan şeydi?” Nə qədər gözdüyür, gözdüyür. Axırısı gəlir Azreyilnən görüşdüyü yerə. Deyir: “Gedim görüm nətər oldu. Bəlkə Azreyil özü öldü, gəlif mənim canımı almadı? Gedim görüm oralarda var, yox”. Gələndə bunun gözünə gənə bir şəxs görükür. Qurban olduğum peyğəmbərlərin səması bunun gözünə görükür. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ya peyğəmbər, bu nejə olan şeydi. Bəs yazıya pozu varmı? Mən öləsi idim, niyə ölmədim?

Deyir?

– De görüm bajının yanına gedəndə haralarda nə görmüsən?

Deyir:

– Vallah, gedəndə yolda gördüm bir tabut aparıllar. Tabutdan keşmədim, o şəxsin namazına durdum. Onu qavıra qoyuf basdırana qədər gözdədim. Bunu görmüşəm. Bir də getdim gördüm bir nurani şəxs Quran oxuyur. Ona çox marağım oldu, Quran oxunuf qutarana qədər keşmədim. Sora da getdim bajımnan görüşdüm. Bajım da çox sevindi.

Deyif:

– Hə. Meyidi keşmədiyin üçün Allah-tala səə on il ömür verdi. On il Qurana qulax asdığına görə, on il də bajının ürəyini şad elədiyinə görə. Allah-tala səə otuz il ömür verif. Ruzanı da bol eliyəjəh, get yaşa.

Demək, yaxşılığına görə Allah-tala bunun yazısını pozdu.

## 22. XEYRÜL-ƏMƏL

### I mətn

Peyğəmbər devrində bir nəfər atası rəhmətə gedəndə gətirir ehsan verir. Dünyanın nazını-nemətini verir. Çağırır addı-sannı, varrı adamları, bu adamlar bu ehsanda bişən yeməhdən gündə yeyillər. Bir tamarzı insan çağırmır da, özünə layax adamları çağırır. Ehsanı tökür bunnan ona, yeyillər-içillər. Hamı durur, biri demir Allah bunun atasına rəhmət eləsin, qarnım doydu. Hamı deyir halal olsun, kişinin oğlu yaman ehsan verdi. Ə, halal osun, Vaqif* vallah nənəsinə bir ehsan verdi, da dünyanın nemətini ora töhmüşdü. Amma heş biri demədi Allah rəhmət eləsin Vaqifin nənəsinə. Nənəsinin ehsanında getdim yedim, qarnım doydu.

Bir dənə sail gəlir. Bu oğlanın da Xeyri addı bir xidmətçisi varmış. Qazanın böyründə deyir ki, üş gündü dilimnən tam adda-

* Söyləyicinin oğlu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mır. Bu tamdan bir tikə verin, mən dadım. Qılçam yer tutmur. Ayağım yer tutsun, mən gedim. Ayləm evdə zahıdı, onun döşündə maya yoxdu ki, körpəni mayalandıra. Onnan bircə tikə aparam zahı yesin, döşünə süd gəlsin, körpəni mayalandırsın. Deyəndə bunu qavıllar ki, get, get, get. Tacir bunu bilsə, səni də, bizi də öldürəjəh. Xeyri buna deyir ki, dayan. Xeyri özünün payına düşən azuqəsini çıxardır barıdan kənara, uzax bir yerdə deyir:

– Ala, bax yediyu ye, yemədiyu da nəyə tökürsən tök, apar. Amma qavı aparma, qav sannandı. Ağamız qutarannan sora sanıyajax, qav kəm qalsa, bizə cəza verəjəhdi. Qavı barının başınnan at içəri, yeməyi nətər aparırsan apar.

Sail oturur bunnan yeyir, qarnını doyurur. Qalanını neyniyim, nejə eliyim? Papağını belə çöyürür, arxasını belə çala kimi düzəldir, qalan aşı tökür bura. Döyrəni gətirir tulluyur bura, çıxır gedir. Aparır aşı verir. Arvadı bunu yeyir, döşünə süd gəlir. Körpəsini əmizdirir. Bu o qədər savaba düşür ki, bunun savabı gedir çatır dünyasın dəyişən tacirə.

Peyğəmbər devri imiş də. Oğlan gəlir atasının qəvri üsdünə, deyir:

– Ey ata, səə bir belə ehsan verdim, bunnan səə çatdımı?

Buna səda gəlir ki, ey oğul, vallah, sən nə verdin bilmirəm, papaxdakı aşdan başqa mənim gözüm heş-zad görmədi.

Bu qayıdır gəlir. Gedir peyğəmbərin yanına ki, ya peğəmbər, bu nə olan işdi? Mən bir belə ehsan vermişəm, atam deyir papax-dakı aşdan başqa gözümə heş nə görükmədi. Papaxdakı aş nə olan şeydi?

Deyir:

– Get xidmətçilərdən soruş, gör "papaxdakı aş" nə deməkdi?

Gəlif deyəndə bu Xeyri deyir ki, ağa, belə bir hadisə baş verdi. Mən yemədim günorta naharımı, verdim sayıla. Demək o ofsanata keçif. Gəlif peyğəmbərin yanına:

– Ya peğəmbərim, belə iş oluf.

Deyir:

– Ya İlahi, xeyrül-əməl. Demək sənin əməlinnən Xeyrinin əməli beş dəfə savab oldu. Dünyanın savabını Xeyri qazandı, sən yox.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**II mətn**

Bir imkannı kişi olur. Bu rəhmətə getməmişdən oğluna vəsiyət eliyir ki, oğul, səə bir belə var-döylət verif gedirəm, mənə yaxşı ehsan ver.

Deyir:

– Baş üsdə.

Vaxd gəlir, kişi rəhmətə gedir. Buna yeddi gün çox qəşəh ehsan verir. Qırxına az qalanda kişi oğlunun yuxusuna girir, deyir:

– Oğul, axı sənnən xayiş elədim ki, bir belə var-döylət verif gedirəm, nolar maa bir yaxşı ehsan ver.

Deyir:

– Dədə, axı verdim.

Deyir:

– Yox, sənnən gənə xayiş edirəm, maa yaxşı ehsan ver.

Bu gəlir mollaya, seyidə müraciət edir ki, belə bir şey mənim yuxuma girif. Deyir ki, verdiyin ehsan afsanata keşmiyif.

Bu gəlir deyir ki, qırxında elə ehsan verəjəm ki, bir yoldan ötən-keçən qoymuyajam qala. Onun hamısına o ehsannan yedirdəjəm. Bir də baxır ki, bir atdı bərk gedir. Nə qədər çağırır, bu qayıtmır. Deyir:

– Eybi yoxdu, bir qab yemək verin, bu saat atnan çatıf yeməyi verif, qayıdajam.

Gedif buna çatır:

– Ay qardaş, bəs səni bir belə çağırdım. Burda ehsan verilir, onnan bir tam eliyərdin.

Deyir:

– Tələsiyirəm.

Bu görür ermənidi. Ermənin əl-ayağı qava-qaşığa dəyməsin deyə surfanı sərir yerə, yeməyi tökür bunun üsdünə. Deyir:

– Ye.

Həmən gejə atası bir də girir yuxusuna. Deyir:

– Oğul, sağ ol, yaxşı ehsan verdin. O bir qav mənim afsanatım olajaydı, onu da ağzı üsdə çöyürdün, o da maa qismət olmadı.

*Söyləyici bu mətni Seyid Məhəmməd ağadan eşidib.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**III mətn**

Varrı bir kişi olur, oğlunu evləndirir. Bunun həyat yoldaşı rəhmətə gedir. Bu, gəlini incitməmək üçün, hər gün qav-qaşığ yumaması üçün gedir qırx dənə taxta qaşığ alır, bir də tarelka alır. Deyir ki, qızım, yeməh yeyilənnən sora qavı-qaşığı yuma. Apar bir tərəfə yığ. Qırx gün tamam olanatan qızı qoymur qavları yumağa. Görür qav çoxalıf. Gəlini çağırıf deyir:

– Gəl bu qavları odda.

Bu, qavı-qaşığı oddadır buna. Oddadanda görür ki, bunun otuz doqquzu yandı, biri yanmadı. Deyir:

– Bu qırx gün mənim olan qonaxlarımın içində tək bircə dənə yanmıyan qavda yeyilən yemək afsanata düşüf.

## 23. HATƏMİN SƏXAVƏTİ

Deyilənə görə, Hatəm özü siftə kasıb bir şəxs oluf. Peyğəmbər Allah-talaynan söypətə gedən vaxdı, – Musa peyğəmbər Tur dağına çıxıb danışırdı, bizim peyğəmbərimiz Məkkədə Turi-Sinaya çıxıb danışırdı, – bu dedi ki, ya peyğəmbər, hara gedirsən? Deyilənə görə, Musa peyğəmbər oluf. Dedi:

– Gedirəm, Allahnan söypətimiz olmalıdı.

Deyir:

– Ona mənim vəziyyətimi de. Denən ki, axı mənim varım, pulum-zadım yoxdu.

Deyir:

– Deyərəm.

Özü də imamdan-zaddan kamil adam olur Hatəm. Gedir, gəlir. Deyir ki, ay Hatəm, Allah-tala tərəfinnən deyildi ki, sana o dünyanı bəxş eləmişəm, neynirsən, bu dünya müvəqqəti şeydi. Deyir ki, ya peyğəmbər, qayıdanda de, bu dünyanı da versin, nolar.

Deyir:

– Axı onda o dünyanı alajax.

Deyir ki, onu Allaha pənah.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Peyğəmbər genə Allahnan kəlmələşməyə gedəndə Hatəmin isdəyini çatdırır. Allah deyir ki, verdim. Allahın da bir kəlmə "ol" sözüdü də.

Bu nətər varranırsa... Ağa söypət eliyirdi ki (Seyid Yusif ağanı nəzərdə tutur – top.), cütü saldırıf bir daşdıx yeri əkdirən vaxdı cüt ilişir. Görür ki, zincirə düzülmüş küplərdi, hamısı qızıldı.

Nəysə, uzun sözün gödəyi, axır bu bilir ki, Allahnan bunun arasında bir əngəl var. Səyfə yol verif, indi düzgün mövqe tutmasa, Allah-tala, həqiqətən, bunun əlinnən alar o dünyasını. Bu gətirir yeddi yolun ayrıcında bir imarət tikdirir. Hər yolun da istiqamətinə bir qapı qoydurur. Genə rəvayətə görə, kim hansı qabda, hansı qaşıxda xörəh yeyəjəhsə, o qaşığı, o qabı ona bağışdıyır, götürür gedir. Bu qabnan, qaşıx da qızıldandı. Bu cür vəziyyət yaradır. Gələn, gedən də hədinnən artıx.

Bir günnəri görür kü, peyğəmbər də gəlir. Bunun adamları varmış yolda ki, birdən qıraxdan-bucaxdan adam keçif gedə, gətir çörəh yesin, sora getsin. Peyğəmbəri saxlıyıllar:

– Hara gedirsən?

Deyir ki, gedirəm belə. Deyir:

– Gedək ora.

Deyir:

– Ə, ora mən girmərəm, nə danışırsınız.

– Ə, niyə girməzsən?

Deyir:

– Mən bilirəm da, hesabı bilirəm. Allahın yolunnan çıxmış adamdı, ona görə getmirəm.

Bular deyir:

– Uzun danışma, gedəh yiyəsiynən özün görüş, nə deyirsən ona deyərsən.

Onu gətirillər, oturdullar. O vaxdı yerdən imiş da oturmax. Buna yeməh qoyullar, xörəh qoyullar. Görüllər bu yemədi. Gəlillər buna deyillər ki, a qardaş, çörəyini ye da. Deyir:

– Yemirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nə qədər eliyillər, yemir. Gedillər Hatəmə deyillər ki, ay Hatəm, hal-qəziyə belə-belə. Hatəm gəlir, içəri girəndə görür kü, peyğəmbərdi. İndi bu varranıf, hallanıf, imkannanıf, peyğəmbər elə əvəlki cırıx paltarında-zadında. Peyğəmbər bunu tanıyır, bu da peyğəmbəri tanıyır. Amma bir-birini tanıdıxlarını büruzə vermillər. Peyğəmbər o mənada ki, bunun çörəyini yeməsin. Bu da o mənada ki, onun peyğəmbərriyini bildirməsin. Gəlif buna deyir ki, niyə yemirsən çörəh? Deyir ki, yemirəm də, toxam, yemişəm.

Deyir:

– Çörəyini ye.

Üş dəfə söz təkrar olunur, peyğəmbər yeməh isdəmir. Yeməh isdəmiyəndə Hatəm əlini boş qoymur, bunun qulağının divinnən bir qapaz.

– Ya çörəyi yeyəssən, ya burdan meyidin çıxajax.

Peyğəmbər görür ki, adamlar bunun, silahlılar bunun, qolu-zorrulux bunda. Əgər bir loxma çörəh yeməsə, bunu burda birtəər eliyəjəhlər. Dinməz-söyləməz çörəyi yeyir. Qabı-qaşığı da qoyullar bunun həvgəsinə, bu durur dilxor-dilxor gəlir Turi-Səna dağına.

Allahnan söypətində deyir ki, ey qüdrətdi Allah, özünə agahdı hər şey, sən yenə Hatəmi göndərəssən cənnətə? Deyir ki, siyahıya bax, gör hara yazılıf adı. Baxır ki, başda yazılıf. Bir az belə şübhə yaranıf ürəyində. Şübhə yarananda Allah tərəfinnən sada gəlif ki, noldu?

Deyir:

– Ay Allah, axı sən demişdin ona o biri dünyanı vermişəm, amma indi adı siyahıda başdadı.

Deyir:

– O saa çörəyi nə fason yedirtdi?

Deyir:

– Nətər yedirdəjəh? Qulağımın divinnən iki qapaz vurdu, qab-qaşığı da həvgəmə qoydu.

Dedi:

– Həmən qapazı maa da vuruf, cənnəti alıf.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 24. MƏBUDNAN HARAMIBAŞI

### I mətn*

Musa peyğəmbər bir gün Allahnan kəlmələşəndə deyir:

– İlahi-pərvərdigara, görəm cənnətə kim gedəjəh, cəhənnəmə kim?

Dedi:

– Ya Musa, cənnətə filan adam var ey dünyanı dağıdan, o gedəjəh. Filan dağın başında məbud var ey, cəhənnəmə o gedəjəh.

Musa peyğəmbər Allaha deyəjəydi niyə heylə olur? Durdu günbatan çağı ağacı qoydu belinə, getdi bu məbudnan yoldaş oldu. Dedi:

– Ya Musa, niyə duruf getmirsən?

Dedi:

– Qarannıx düşüf axı, gedə bilmərəm.

Bunu sınamağa gəlif axı. Dedi:

– Mənim çörəyim yox, sənə verəm, mitilim yox, sənə verəm.

Axşam iki yeməh gəldi. Yeməyin birini qoydu ayna ki, savah maa yeməh gəlmiyəjəh. İki dəsd mitil gəldi. Dedi:

– Hə, bu gejə çox soyuğ olajax, ikisin üsd-üsdə salaram.

Musa peyğəmbər də çox zor adam olur ey. Musa peyğəmbər görür çox soyux oldu, durur kürəyini buna sürtür ki, bəlkə isinə. Görür ki, bitişillər. Allah dərgahına üz tutur, deyir:

– İlahi-pərvədigara, mən səyf eləmişəm, səyfimdən keç.

Dedi:

– Ya Musa, səyf eləmisən, eləməmisən bilmirəm. Qırx haramıbaşı var, onun bir oğlu var, kəsif qanını araza töksə, aralanessuz, tökməsə, elə helə də qalessuz.

Dedi:

– Dur gedək.

Durdular bir az o belinə aldı, bir az bu, helə-helə getdilər çıxdılar darvazaya. Darvazaya çatanda arvad baxdı ki, bu Musa peyğəmbərdi. Dedi:

– Ya Musa, bu nə işdi?

---

* Bu mətn Ağcabədi rayonunun Afşar kəndindən qeydə alınıb.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedi:

– Oluf da, Allahın qəzəbinə keşmişih. İndi bizim dərdimizin çarəsi sizdədi. Kişi evdədi?

Dedi:

– Evdədi, gəlin.

Dedi:

– Allah-talaynan kəlmə kəsdim, dedi sizin aralanmağınız üçün qırx haramıbaşı var, o, oğlunun başını kəsif qanını aranıza töksə, aralanessuz.

Dedi:

– İlahi-pərvərdigara, şükür saa. Şükür qanım peyğəmbər qanına qarışır.

Gətdi oğlunu kəsdi, qanını tökdü, aralandılar. Aralanannan sora Musa peyğəmbər üç rükət namaz qılıf Allah dərgahına dua elədi, oğlan dirildi.

İndi məbud olmaxnan deyil ey, gərəh qəlbin düz ola.

**II mətn**

Musa peyğəmbər Allahnan söypət eliyən vaxdı deyir ki, ey qüdrət sahibi, cənnətə birinci kim gedəjəh? İndi bunun ürəyinnən keçir ki, Allah buna desin sən gedəssən də, arxayın ol. Deyir:

– Barmağını belə tut, görəssən.

Bu barmağını belə tutur, görür ə, bir kəndin ortasında bir dəsdə camaatdı yığışıf, ortada da bir adam qaval vuruf oynuyur. Peyğəmbər çox pis vəziyyətə düşür. Səda gəlir ki, noldu? Deyir ki, başına dönüm, sənin dediyinə mən nə deyə bilərəm ki?

Deyir:

– Yox, bilirəm, fikrin aydındı. Sən indi inandığın bir adamdan get soruş. Denən ki, iynənin ulduzunnan dəvə keçər, keçməz? Onun da cavabını al, həmən o qaval vuranın da. Get.

Musa deyir:

– Gedirəm, qırx ildi zahidlik eliyir, abitdi, onun yanına.

Gəlir:

– Abid ağa, dayan, sənə bir sualım var.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Ya peyğəmbər, buyur.

Deyir:

– İynənin ulduzunnan dəvə keçər?

Əlini qoyur peyğəmbərin alnına, deyir:

– Yox, elə bildim qızdırman var, yoxdu. Ə kişi, o dar yerdən dəvə nətər keşsin.

Durur gəlir həmən o adama yaxınnaşır. İndi buna yaxınnaşıf əl vermir ki, bu haramdı dana. Deyir:

– Əyə, bir dayan, qavalını saxla.

Bu saxlıyır. Deyir ki, sənə bir sualım var, cavab verə bilərsənmi? Deyir:

– Ver, bildiyimi deyəjəm.

Deyir:

– İynənin ulduzunnan dəvə keçər?

Deyir:

– Rəhmətdiyin oğlu, mən də elə bilirəm sən nəsə çətin sual verəssən. Ə, Allahın razılığı olannan sora dəvə nədi, fil karvanı keçər ordan.

Peyğəmbər belə baxır-baxır, deyir:

– Hə, Allah-tala biləni heş kəs bilə bilməz.

Abid, qırx il Allaha ibadət eliyən bir şəxs şübhəynən yanaşdı, amma bu, Allaha şübhə eləmədi. Dedi Allahın razılığı olsa, keçər.

**III mətn**

Allah-tala buyurur ki, ya Cəbrayıl, yen get abidi yoxla, görəh abid mənim yolumu saxlıyır, onda bir səxavət var, yoxdu? Özü də Allah dərgahınnan gündə üç öynə yemək gəlirdi. Özü də bura bax, məəllim, insanın başına iki şeydən hadisə gəlir. Bir dilinnən, bir də tamahınnan. Dilnən tamah atmasa, heş vədə heş bir şey olmaz.

Bu abid gedir yeməyi gətirməyə. Baxır ki, yemək ikidi. Əl açır Allahın dərgahına, deyir:

– İlahi-pərvərdigara, min şükür sənə, nə tez agah oldu mənim qonağım var.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Amma yeməyin birini gətirir qoyur ortalığa, deyir:

– Qonax ye.

Deyir:

– Yemirəm.

Axı qonağa agahdı yemək ikidi. Bu bir deyir, iki deyir. – Özü də Musa peyğəmbər bunnan zornan icazə alır ki, torpağın üsdünə sırıxlımı salıf yataram, birjə gejəliyinə məni qonağ elə. – Yemir, yemir, özü başdıyır yeyir, yatır. Savah ertə durur sübh namazına, görür qonax yoxdu. Əl açır Allaha, deyir:

– İlahi-pərvərdigara, min şükür, bir üzdü qonağım gəlmişdi, yaxşı ki, çıxdı getdi.

Gedir yeməyə baxır ki, yemək yoxdu. Bir gün, iki gün, üş gün, yemək gəlmir. Həftə tamam olur, deyir:

– İlahi-pərvərdigara, saa agahdı ki, sənin yolunu saxlıyıram. İndi burda ajınnan niyə özümü öldürüm. Gedim Dəymədağıldıdan bir dənə çörəh dilənim gətirim, onu yeyim.

Abid durur gəlir, deyir:

– A bajı, səni and verirəm Allaha, nolar maa bir dənə çörəh.

Deyir:

– A qardaş, Allaha da qurban olum, peyğəmbərə də. Bir dənə çörəh nə olan şeydi.

Ajdıx pis şeydi. Allah heş bir kəsə gösdərməsim. Çörəyi vurur qoltuğuna, xeyli aralaşmış Allah dərgahınnan bir it peyda olur. İt yeriyir abidin üsdünə. Çörəhdən bir az kəsif ağzına aparmax isdiyirdi, görür it gəlir, çörəyi tulluyur ona. Sonuncu tikəni atanda abid deyir:

– Ya Rəbbim, yer üzündə nə qədər cannı-cansız var, yaradan sənsən. Belə məxluqu nə üçün yaratmısan? Axı bir çörəh dilənif almışdım, onnan bir loxma yeməh maa nəsib olmadı.

İt dil açır, deyir:

– Abid, mən həfdələrnən, aylarnan yiyəmin qapısında aj qalıram, qapı-qapı düşüf dilənmirəm. Sənin ibadətin var, səxavətin olmuyannan sora heş bir şeydi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 25. ALLAHA PƏNAH

Musa peyğəmbər gedif Allah-taladan məlahat alıf gəlif camaata danışırmış. Bir gün də həmən kəndin darğası bir əlsiz-ayaxsız qoja kişinin arvadına aşiq olur. Deyir ki, mən onu almalıyam. Gündə bunnan dava eliyir ki, bunu öldürə, arvadı götürə apara. Arvad da buna icazə vermir ki, nolsun çulu cırıxdı, mənim ərimdi. Nəysə, belə çox mübahisə edillərmiş.

Bir gün arvad deyif ki, a kişi, get Musa peyğəmbərin yolunu kəs, soruş gör o darğanın ömrünə nə qədər qalıf? Bu gedir Musa peyğəmbərin yolunu kəsir. Musa peyğəmbər Allahnan kəlmələşəndə soruşur ki, filan darğanın ömrünə nə qədər qalıf? Allah deyif ki, onun ömrünə hələ qırx il var.

Musa peyğəmbər gəlif kişiyə deyir. Da bunun tifağı dağılıf, deyif:

– Allaha pənah.

Qayıdıf gəlif. Arvadı soruşuf.

– Hələ qırx il var, – deyəndə arvad da deyif Allaha pənah. Bunun qızı var imiş. Gəlif:

– Ay nənə, atam nə xəbər gətdi?

Deyif:

– A bala, deyir ki, hələ qırx il ömrü var.

Bu da deyif Allaha pənah. Sora oğlu gəlif. Bu da deyif ki, atam nə xəbər gətirif. Deyif:

– Vallah, qırx il ömrü var.

Oğlan da deyif Allaha pənah. Beş dəyqə keşməmiş hay gəlir ki, darğa öldü. Qışqırışma, ağlaşma.

Nəysə, darğanı dəfn eliyillər. Bu kişi gedir Musa peyğəmbərin yolunu kəsir ki, bəs peyğəmbərlərdə də yalan olar? Siz maa dediniz qırx il ömrü var darğanın, heş qırx gün deyil darğanın öldüyü. Öldü, çıxdı getdi. Deyir ki, sən heş kəsə yox, bir Allah-talaya pənah gətirdin. Sənin Allaha pənah kəlmənə on il Allah-tala keşdi onun ömrünnən. Yoldaşın da heylə pənah gətirdi, on il də ona keşdi. Qızın da gətirdi pənah, on il də ona keşdi. Oğlun da dedi, on il də ona keşdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sizin dördünüzün də Allaha etiqadı, inamı olduğunuza, ona pənah gətirdiyinizə görə, Allah da o darğanın ömrünü sizə keçif.

## 26. AC QARNI DOYUZDURMAĞIN SAVABI

### I mətn

Bir kişi haja getməyə hazırraşırdı. Bunun bir balaca uşağı var idi, keşdi belə qonşuya. Qonşu o qədər kasıb idi ki, səhər-səhər arvad duruf kişini itəliyif salmışdı çölə. Demişdi ki, get, uşax qalxajax, ajdı, yeməyə bir şey yoxdu. Bu da getdi hərrəndi, bir ölü toyux tapdı gətirdi. Arvad bunu təmizdədi, doldurdu qazana, ağzını örtdü. İndi toyux qaynıyır. Bu qonşunun – haja gedən kişinin balaca uşağı da gəldi çıxdı bura. İndi bu qonşular ha gözdədi, uşax gəlmədi. Bunun anası durdu gəldi uşağın dalıncan ki, görüm bu uşax hara gedif. Gəldi ki, bu, qonşusugildədi. Bura gələndə uşaxlar da hamısı qalxmışdı. Tez-tez deyirdilər: – "Ay ana, bizə yemək ver, ay ana, bizə yemək ver". Anası da: – "A bala, yaxşı dana, a bala, yaxşı dana," – buları yubadırdı.

Qonşu arvad gələndə bu qadın dedi ki, bajı, sən Allah, sən uşağı apar, qazanın ağzını açım bu uşaxlara yemək verim. Bu söz bu qadına o qədər ağır gəldi ki, dedi:

– Ay qadın, mənim varımı el-oba yeyir, bir tikəni yeyəjəhsə, sən nə cür elə söz danışırsan!

Dedi:

– Fikrini dəyişmə, vəziyyət belədi. Sənin aylən təmiz adamdı, haja gedir. Mən sənin uşağını niyə mundarrıyım. Mundar olmuş toyux ətidi ordakı. Mən sənin uşağına onu nə cür verim? Bu mənada mən deyirəm, yoxsa qıymamazdıx mənasında demirəm.

Arvad ağıllı arvad idi. Bərk təsir elədi buna, gəldi ərinin yanına. Dedi ki, əyə, bu nə məsələdi, de görüm sən hara gedirsən? Dedi ki, bilmirsən hara gedirəm?

Özü də nə vaxdı hazırrıx gedir. Ətraf kəntdərdən də gedən adamlar bunnarnan əlaqə saxlıyır ki, yığışax bir yerdə gedək. Olar da bilir ki, bu kəntdən filankəs gedir.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bəs, demişəm də, haja gedirəm, ziyarətə gedirəm. Sizə nə qədər xaşdığ lazımdı, hamısını qoymuşam.

Hətta belə bir qanun var ki, haja gedən şəxsin uşağı əgər bir yaşındadırsa, qoyuf gedirsə, onu on səkgiz yaşına qədər təmin eliyəjəh varı evdə varsa, gedə bilər. Ta yoxsa mənim bir atım var, onu minim düşüm yola ki, gedirəm haja ziyarətə, evdəkilər də aj qalsın, bu haj olmur. Nəysə, arvad deyir:

– Evini Allah yıxsın. Qonşu mundar olmuş toyux əti yeyir, sən də burdan haja gedirsən. Bəs orda sənnən soruşmuyajaxlar ki, nə işdər görürsən?

– Aaz, nə danışırsan?

Deyir:

– Vallah belədi.

Hadisəni buna danışanda deyir:

– Dur mənim nə qədər ehtiyatım var, hamısını apar olara ver.

Bular durur nə varsa yığır, yığışdırır, gətirir, da buların beş illik azuqasıdı. Verir bulara, qonşuya.

İndi haja gedən adamlar gəlir:

– Ə, filankəs, gedək.

Deyir:

– Mən gedəsi olmadım.

– Əyə, niyə gedəsi olmadın, gəl gedək.

Deyir:

– A qardaş, gedəsi olmadım da.

Bulara demir ki, vəziyyət belədi. Bular özdəri gedəsi olur. Gəlillər Məkkəni ziyarət vaxdı, deyilənə görə orda müşteyid oturan yer var, – mən getməmişəm, ağalar gedib, – ordan gəlib keçillər, o adam da deyir nəzarət eliyir. Bular gəlib belə keçəndə görüllər ə, müşteyidin arxasında həmin adam duruf. Dikqətnən buna baxıllar. Bir-birini dümsüklüyüllər:

– Əyə, ə, ona bax ey, bizi nətər alladıf. Ona bax, gəlif çıxıf bura. Bu haraynan gəlif, nətər gəlif?

Bu müşteyid bulardan soruşur ku, nədi, niyə bir-birinizi dümsükləyirsiz. Deyir hal-qəziyyə belə-belə. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bala, gedin orda onnan örgənin, görün o nə iş görüf. Onnan sora deyərəm sizə.

Bular gəlir kəndə. O devrdə qayıdan vaxdı kənd əhalisi hamısı çıxırdı hajıların qarşısına. Olar görür kü, ə, bu camaatın içində gənə həmən adam bunnarı qarşılıyır. Buna deyir:

– Ə, ayıf deyil sənnən ötrü. Ora gedirih orda qarşılıyırsan bizi, bura gəlirih burda qarşılıyırsan.

Deyir:

– Vallah, heş yerə getməmişəm.

Deyir:

– Bizə de görəh nə iş görmüsən?

Nə qədər eliyillərsə, deyir:

– Ə, mən nə iş görmüşəm, duram özümü beçələndirəm ki, filan işi görmüşəm?

Nəysə, uzun sözün gödəyi, bular bir də qayıdır o müşteyidə deyəndə, deyir:

– Eviniz tikilsin, o, orda qazanıf Məkkənin ziyarətini. O nə iş görübsə, örgənin siz də onnan görün.

**II mətn**

Bir dəsdə adam haja gedirdi. Haja gedən vaxdı çoban da qoyunun qırağında idi. Çoban belə baxdı, gördü bir dəsdə adam gəlir. Palını-paltarını da dəyişməmişdi. Bəlkə iyirmi gün idi paltarın dəyişməmişdi. Soruşdu ki, əyə, qardaş, hara gedirsiniz. Dedilər ki, haja gedirik. Dedi:

– Haj nədi?

Buna izah elədilər ki, Allah evidir, oranı ziyarətə gedirik. Bu da ağacı tulladı, dedi ki, mən də gedirəm.

Kəndə xəbər yayıldı ki, əyə, çoban çıxdı getdi haja. Bular gəldilər, o vaxdı samalyot yox idi, nə də avtobus. Piyada, atdı gedirdilər. Çoban da piyada düşmüşdü yola. Gəlirdi bularnan. Gəldilər bir kəndin qırağında gejəliyəsi oldular. O vaxdın söypətinə görə kənd eşidəndə ki, zəvvarrar gəlif kəndin qırağına düşüf, bular hamısı gedərdi hərə bir nəfər, iki nəfər o hajı dəvət eliyərdi ki, gəl evdə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

istirahət elə, çay iç, çörəh ye, orda yat, səhər də duruf gedərsən. Hamını dəvət elədilər, bu çobana elə bir şey qalmadı. Bir nəfər dedi ki, burda bir qadın var, ayləsi rəhmətə gedif, çoxlu da uşaxları qalıf. Onun evi boşdu, qoy ona da deyək, sən də get orda yat. Bu gəldi bu qadının evinə. Gördü altı-yeddi uşaxdı, hələ həddi-buluğa çatmıyan uşaxlardı. Arvadın da hələ qonax gəlməmişdən qabax qoyduğu qazandı, qazanın da ağzı bağlıdı, altına da xod verif. Uşaxlar da hərdən-birdən deyillər: "Ana, tez bişəjəh, gej?" Çoban da buna fikir verir. Axırı dözmədi, dedi ki, a bajı, sən maa de görüm o qazandakı nədi, bu uşağı niyə zarıdırsan. Aç ağzını nədisə ver, yesinnər.

Dedi:

– Qardaş, Allahdan gizdin döyül, sənnən nə gizdin. O qazanda heş nə yoxdu. Daşdı qoymuşam, sudan tökmüşəm üsdünə, uşağı alladıram. Heş bir şeyimiz yoxdu uşağa verəm.

Çoban belə baxdı, baxdı, dedi:

– Bu ətrafda varrı adam yoxdu?

Dedi:

– Niyə yoxdu? Dey, odurana, bax o məhlənin yiyəsinin min dənə qoyunu var.

Çoban getdi əlini atdı bir dənə erkəyi aldı qoltuğuna, gətdi. Gətirən kimi başın kəsdi, dəridən çıxartdı, doldurdu qazana. Qaynatdı, uşağın hamısını qaldırdı. Uşaxlar döşədi, yedilər. İki-üş günnüh də buların azuqəsini yığdı verdi, dedi:

– Bajı, gedirəm, qayıdanda əlimə keşsə, genə də gətirərəm.

Rəvayətə görə, həmən çoban çarıxlı-patavalı cənnətə gedir.

## 27. ALTI MANATIN MİSALI

Bir gün Fatimeyi-Zəhra əleyhəssalam İmam Hüseynəmi, İmam Həsənəmi hamilə idi. Həzrət Əlinin gözünə bir az fikirri kimi görünür. Həzrət Əli deyir ki, əmi qızı, niyə belə fikirri görükürsən. Deyir:

– Ya Əli, evdə cəmisi altı maatımız var. Unumuz da yoxdu, yeməyə ərzağımız yoxdu. Amma sənnən niyə danım ki, ürəyim də nar isdiyir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nar da bazarda pula gedən şey imiş. Həzrət Əli deyir ki, sən niyə heylə şeyə qızırqalanırsan. O altı maatı gətir maa, mən gedif alıf gətirərəm. Durur o altı maatı qoyur civinə, küçəynən bazara tərəf gedir. Görür ki, küçənin ortasında bir nəfəri şappaşap döyür beş-altı nəfər. Yaxınnaşır deyir:

– Ə, bir dayanın.

Hamı dayanır. Bunu tanıyıllar bu kimdi.

– Ə, onu niyə döyürsünüz, o yazığı niyə belə kökə salırsınız?

Deyir ki, iki ildi mənnən altı maat pul alıf, onu vermir. Deyəndə bunun da civindəki elə odu da. Çıxardır bunu verir, deyir ki, mən ödüyərəm onu. Yazıxdı, niyə döyüf öldürürsünüz. Buraxın, çıxsın getsin.

Nəysə, bunu alır əldən, boşduyur. Pul qalmadı axı. Əli boş, elə fikirri-fikirri bazara tərəf gedir ki, tanışa-zada rast gəlsəm, onnan alaram. Fatma nar isdiyir, gərəh onu alam aparam. Görür bir nəfər bazarın girəcəyində çağırır:

– Ya Əli, sənnən işim var, bərdən gəl. Ya Əli, sənnən işim var, bərdən gəl.

Bu yaxınnaşır. Görür bu dəvənin ovsarınnan tutuf beləsinə duruf.

– A qardaş, xeyirdimi?

Deyir ki, ya Əli, başına dönüm, iki gündü bu dəvəni tutmuşam yedəyimdə, pula getmir. Bir adam gəlif soruşmur ki, ayə, bunu satırsan, satmırsan? Sənin qadan alım, sən tut bunun ipinnən, bəlkə mənim elə baxdım açıla. Özüm də filan yerdən gəlmişəm, yolum da uzax. Deyəndə deyir ki, nolar, ver maa. Həzrət Əli ovsardan tutanda dəvə yiyəsi deyir ki, ya Əli, sana qurvan olum, mən gedim bircə isdəkan su içim, ona qədər müşdəri gəlsə, bax, min beş yüz maata bu dəvəni ver. Deyir ki, ayə, dəvəni ucuz deyirsən axı. Dəvənin biri bu saatdarı iki min, üş mindi. Sən ucuz deyirsən.

Deyir:

– Saa qurvan olum, min beş yüzə ver, onnan artığa vermə.

Nəysə, bu deyir, gedir. Bu ayna gedən kimi ayrısı gəlir:

– Ya Əli, bu dəvəni satırsan?

Deyir:

– Hə, satıram.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Dəvəyə nə verim?

Deyir:

– Yiyəsi deyir ki, min beş yüz maat versin.

Deyir:

– Əşi, sən nə danışırsan. Yox, yox, mən o qiymətə alammaram.

– Bəs nə qədər verirsən?

Deyir:

– O dəvəyə iki min bir yüz maat pul verirəm.

– Ayə, o kişi deyif ki, min beş yüzdən artığa vermə.

Deyir ki, ya Əli, başaa dönüm, mən səni tanıyıram, burda axı düzgün olmur, dəvənin qiymətini çox ucuz deyirsən. Ala bu iki min bir yüzü. Sayır verir Həzrət Əliyə. Deyir ki, dəvəni ver maa, gedim. Dəvəni verir, bu, götürüf gedir.

Bu ayna gedən kimi dəvə yiyəsi gəlir.

– Ya Əli, deyəsən dəvəni satmısan?

Dedi:

– Hə, satmışam.

– Məən pulumu verirsənmi?

Çıxardır iki min bir yüz maatı. Deyir ki, bax, iki min bir yüz maata satdım. Deyir:

– Başına dönüm, adamın ağzınnan söz çıxar. Bəs sən özün düzgünnühdən, mərhəmətdən danışırsan, mən dediyim sözü niyə belə eliyirsən sən. Mənim min beş yüz maatımı ver, mən iki min bir yüzü isdəmirəm.

Nə qədər eliyirsə, görür yox ey, əmələ gəlmir. Axırı min beş yüz maatı sayır, verir. Deyir:

– Bə bu altı yüz.

Deyir:

– Halal xoşun olsun, sən satmısan, dəllal puludu da, sənin olsun.

Bu altı yüz maatı qoyur civinə, fikirri-fikirri gəlir: "Əyə, mən bunu xaşdıyım, xaşdamıyım". Elə bu dəkqədə peyğəmbərimiz Həzrəti Məhəmməd böyürdən çıxır.

– Ə, əmioğlu, niyə fikirrisən?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir ki, vallah, əmioğlu, hal-qəziyyə belə-belə. Azuqəmiz yoxdu, Fatma mənnən həm azuqə isdiyif, həm nar isdiyif. Belə bir işə düşmüşəm, pul da qalıf əlimdə. Mən indi nətər eliyim, nətər olsun ki, halal olsun.

Deyir:

– Əmioğlu, iki gün bunnan qabax mən moizə eliyəndə orda dedim biri darda qalanı dardan qutarsa, bir yoxsulu çətin vəziyyətdən çıxarsa, əgər ona beş maat xaşdamısansa, Allah on qat onun əvəzini saa çatdırajax. İndi sən altı maat verif bir can xilas eləmisən, Allah da on qat əvəzini saa yetirif da. Get rahat onu xaşdaginən, evinə ayın-oyun al, apar.

## 28. AZREYİLNƏN YOLDAŞLIQ EDƏN ŞƏXS

### I mətn

Bir gün bir kişi dünyasını dəyişirmiş. Oğluna vəsiyət eliyif ki, get, filankəsdə, filankəsdə borcum var, al, filankəsə də borc verəsiyəm, onu ver, qayıt gəl. Mənim uje vaxdım çatıf, mən gedəjəm. Bu oğlan getdiyi yerdə görüf yolnan bir atdı gedir. Gəlif buna yanaşır. Deyir ki, hara gedirsən? Deyif belə-belə. Deyif:

– Mən də sənnən gedirəm.

Bular yolda çörəh yiyəsi olullar. Kişi də oğluna tapşırıf ki, yoldaş olduğun adama birinci çörəyini ver, o kəssin. Əgər o kəsif çoxunu özünə götürüf azını saa versə, o adamnan uzaxlaş, onnan yoldaş olma, ehtibar yoxdu ona. Amma azın özünə götürüf çoxun saa qaytarsa, o adamdan saa xeyir gələr, onnan yol yoldaşı ol.

Getdihləri yerdə deyir bir tikə çörəh kəsəh. Oturullar. Oğlan çörəyi çıxardır bu böyründəki yoldaşa uzadanda o alır çörəyi ,yeddi tikə qərəli kəsir, qalanını qaytarır oğlana. Oğlan fikirrəşir: “Hə, atamın vəsiyətidi, demək, bunnan yoldaş olmax olar”.

Bunnan gedillər. Bir az getmiş deyir:

– Sən get, mən bu yola dönüf qayıdıram.

Dönür belə kəndin qırağına. Bir də görür ki, bu getdiyi yerdə bir qiyamət, bir qışqırışma qopdu. Qayıdır gəlir, bunnan gedillər. Bir az getmiş gənə deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Mən bura dönüf qayıdıram.

Görür orda da qışqırışma düşdü. Uje bu oğlan şübhələnir. Deyir ki, qardaş, nəyə görə sən mənnən aralanıf gedəndə, getdin orda kimisə döydün, söydün, nağardın ki, qiyamət qopdu. Mən isdədim gələm saa kömək eliyəm.

Deyif:

– İndi ki bunu mənnən soruşursan, qardaş, biz çörəh kəsmişih, – gör duz-çörəh nə qədər qiymətdidi, – mən sirrimi saa deməliyəm. Mən Azreyiləm. Həmən yerdəkilərin ajalı çatmışdı, onçün saa dedim ki, get, gəlirəm. Getdim onların canını aldım. İndi sən gedirsən, birinci borc alacağın adamdan borcunu al, sora düş atdan. Borcunu almamış düşmə.

Bular gedillər. Bu oğlan dirənif ki, yox ey, atamın vəsiyyətidi, gərəh mən birinci borcumu alam, onnan sora düşəm sizə. Bunun borcunu verillər. Verən kimi həmən adam dünyasını dəyişir. Azreyil deyir ki, görürsən, ona görə saa dedim ki, birinci borcunu al, onnan sora atdan düş. Sən düşəjeydin, bu ölənnən sora bunnan borc ala bilmiyəjeydin.

Deyir:

– Yaxşı, indi ki belədi, biz yoldaşıx. De görüm, buyünnən belə mənim neçə il ömrüm var?

Deyir:

– Buyünnən belə sənin iyirmi il ömrün var. Amma çalış tez evlən, yurdunda bir nişanan qalsın.

Bu yazıx da pis zamana imiş da, kasıfçılıxdı, nədi, bu gün burda, savah orda. Yubanır, yubanır, iyirmi il tamam olan günü toy eliyir özünə. Toy eliyir, gəlini gətirif evə qoyur. Çağırıllar bunu. Çıxıfdı ki, uje Azreyil kəsif qapını.

– Qardaş, bəs nağarmısan?

Deyif:

– Vallah, indicə toy eləmişəm, gəlini gətirif düşürmüşəm evə.

– Bə niyə belə eləmisən?

Deyif:

– Nağarım, imkan olmuyuf.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Anasına deyif:

– Ana, uje mənim vaxdım çatıf, Azreyil canımı almağa gəlif.

Anası qışqırıf:

– Yox, ay bala, mənim canımı alsın.

Azreyil ona yönələndə deyif:

– Yox, başına dönüm, kimə gəlmisənsə ona get.

Sora atasına deyif, atası da deyif: "Gəlsin mənim canımı alsın". Azreyil buna yönələndə bu da deyif: "Kimə gəlmisən, get onun canını al". Bu gəlin baxıf ki, Azreyil oğlanın canını alajax. Deyif ki, mənim canımı al. Gəlin də indicə gəlif, heş bu oğlannan salam məlöykü yoxdu. Bu, nə qədər gəlinin üsdünə yönəlifsə, gəlin elə dediyin deyif: "Yox, mənim canımı al, oğlana dəymə". Deməkk, Allah-talaya bunun ehtibarı, etiqadı o qədər xoş gedifdi ki, bu günnən belə bu oğlana əlli il ömür verif. Azreyil deyif:

– Allah-taladan səda gəldi, sənin o yoldaşın heylə ehtibarrı olduğuna görə əlli il saa ömür verdi, get yaşa.

**II mətn**

Bir oğlan çox kasıfçılıx çəkir. Bir gün deyir ki, yox ey, bu nə cür yaşamaxdı. Dururam başımı götürüf çıxıf gedəm. Gedir. Allahın hökmüynən Azreyil bunun qarşısına çıxır. Deyir:

– Qardaş, hara gedirsən?

Deyir:

– Qardaş, başımı götürüf bu dərdin əlinnən çıxıf gedirəm. Gedirəm, Azreyili harda tapsam, deyəjəm al mənim canımı.

Yol yoldaşı oluf gedillər. Bir suyun qırağında oturuf dəstərxana salıf çörəh yeyəndə deyir:

– Qardaş, de görüm kimsən?

Deyir:

– Mən Azreyiləm.

Bunun az qala qorxudan dili bata. Deyir:

– Nətər Azreyilsən ki, savahdannan mənnən yoldaşdıx edirsən?

Deyif:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bəs Azreyili gəzmirdin, “gəl canımı al”. Mən də Azreyiləm, gəlmişəm indi alım canı.

– Yox, qurvan olum, onda maa möhlət ver, gedim əqrabalarımla halallaşım gəlim, onnan sora canımı alarsan.

Azreyildən möhlət alır, gedir. Məsəlçün, bir il keçir, beş il keçir. Allah-talaya agahdı. – Kimə izn ola bilər? Mən də xəsdəyəm, deyirəm ölüm yaxşıdı, amma Azreyil gəlsə ki, canını alım, deyərəm yox, qurvan, balalarım Rusiyetdədi. Qoy Rusiyetdən gəlsinnər, onnan sora. Birdən heylə deyirəm. Deyirəm Allah sənnən möhlət isdiyirəm, balalarım gəlsin, balalarımı yollarda şəhid eləmə. Gəlinnər də gülüşüf deyillər: “Ey, ölümnən qorxursan, balalarına qıymamazdıx eləmirsən”. – Azreyil bir gün gəlir ki, bu gün vaxt tamamdı, gəlmişəm deyəndə bu qaçır. Bəhməz küpəsi varmış. Qaçır özünü salır bəhməz küpəsinə ki, Azreyil məni tapmasın. Bəhməz küpəsinin içində yadına düşür ki, birdən Azreyil gələr bəhməz alıf yeyər, məni tapar burdan. Bəhməz küpəsinin içinnən çıxır qaçır. Hara gedim? Gedir özünü salır tüh yasdığının içinə. Bəhməzdi bədən bütöy, yasdığ yapışar buna. Deyir:

– Ə, birdən Azreyil gələr yasdığa söykənər, məni tapar burda.

Yasdığdan da çıxır, qaçır özünü salır buxarıya. Buxarıya salanda deyir:

– Ay dadi-bidad, Azreyil gəlif ojağı yandıranda mən yanıf ölərəm.

Elə buxarıdan çıxım deyəndə Azreyil qapıdan girir. Azreyil bunu nə vəziyyətdə görürsə başını götürür qaçır. Deyir:

– Ya Allah-tala, ordan elə bir Azreyil çıxdı ki, mən onnan qorxdum.

Allahdan hökm gəlir ki, mən ona ömür verdim, onçün sən onnan qorxdun qaşdın.

İndi Azreyilnən yoldaş olanın belə bir rəvayəti var. Demək, can o qədər şirin şeydi ki, özünü o timsallara saldı, Azreyil onnan qorxdu qaşdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 29. ÖVLADINI AZREYİLDƏN QAÇIRAN ANA

Bir arvadın uşağı qalmırmış, ölürmüş. Beşi ölür, onu ölür, on beşi ölür, neçəsi ölür bilmirəm. Bunun gəlir daldan bir oğlu olur. Bu gəlir beş yaşına çatır. Bu, evi yığır, qohumu-evladı. Deyir ki, Allah, Məhəmməd, ya Əli. Azreyilin əlinnən mən bu uşağı götürüf diyarbadiyar oluf çıxıf gedəjəm. Bura qayıdası deyiləm. Azreyil məni tapbasın. Da mənim bir belə balam qırılıf.

Bu caleyivətən oluf gedif. Az gedif, üz gedif. Gün belə devriləndə görüf axşamladı. Görüf bir düzü-biyavanda alaçıx var, bunun qavağında bir arvad hərrənir, bir də sımavar qoyufdu, sımavardan nazik tüsdü çıxır. Belə kənarda duruf. Da bunun gedəsi yeri yoxdu. Bu getsə, yarı mənzildə qalajax. Nə kənd deyil, nə kəsəh deyil. Elə düzün ortasında qalajax. Bu arvad sımavara qamxalat salanda buna belə-belə əl eliyif, yaxınnaşır:

– Salam məlöykü.

– Əlöykümət salam.

Deyif:

– Bajı, məni beyjəlik qonax elə.

Deyif:

– Allaha da qurvan olum, qonağına da. Sən arvad, mən arvad. Gedəh.

Gəlif oturuflar. Arvad çayı dəmliyif. Oturuf söypət eliyəndə deyif ki, hardan gəlif hara gedirsən. Deyif:

– Bajı, sən Allah, dərdim o qədər çoxdu ku, mənim dərdimi tərpətmə.

Bu da Azreyilin anasıdı. Deyif:

– Yox, burda kim var ki. Bir sənsən, bir mənəm. Gəlmisən, qonağım ol, heç hara getmə, həmişə qal yanımda. Mən də tək adamam. Elə sənin kimi hayan gəzirəm.

Deyif:

– Bajı, Azreyilin ağzı yansın, altı-yeddi dənə, ayıf olmasın, balam oluf ölüf, indi onun əlinnən bunu götürüf, Allah, Məhəm-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

məd, ya Əli deyif gedirəm. Allah yaratdığı yer kürəsi harda qutarajax, oracan gedəjəm, məni tapbasın.

Deyir:

– Elə yer kürəsinin qutaracağı buradı, qal yanımda.

Bu qalıf bunun yanında. Savah ertə duruf getməh isdiyəndə deyif ki, getmə, qal burda. Bu da xiyalında tutuf ku, oğlum gələndə – bunun gözünə görükmüyəjəh axı, anasının gözünə görükəjəh, – südünə bunu and verəjəh, uşağa dəyməsin. Arvad ona görə bunu saxlıyır. Bunun oğlu atı minif çıxıf gedif kiminsə evini yıxmağa. Oturuflar. Sımavarı qoyuf, günorta üçün nəsə bişirir. Bir belə xamır qatıf. Deyifdi ki, bajı, belə çöllərə düşdüyümə baxmaginan, Allah hakkı, yaman yuxa bişirənəm. Sən ayrı işini gör, mən bu yuxanı yayım. Bu, ojağı qalıyır, sajı küllüyüf qoyuf üsdünə, xamırı verif. İndi günorta bişmişi qayırır. Sımavarı qoyuf, gənə qapıdan tüsdü çıxır.

Bu alaçıxadan xeylağ aralı ağaj basdırılmışdı, halqa var. Azreyil atını ora bağlıyıf gəlir evə. Bu sajı qoyuf arvad yuxanı yaymağa başdıyanda Azreyilin anası görüf ki, oğlu gəldi, atdan aşırıldı düşdü, atın cilovunu vurdu ora. Evə gəlməh isdiyəndə arvad özün çatdırdı ora. Bağışdıyın məni, əl atır döşdərinə, deyir:

– Bala, səni and verirəm, döşümdən süd əmmisən, bu döşdərimə, o südümə. Bir arvad caleyivətən oluf gedir, onu qonax saxlamışam. O deyir altı-yeddi balam ölüfdü, sonuncunu Azreyilin əlinnən götürüf qaşmışam. Elə maa bağışda, onun balasına dəymə.

Gülüf deyif:

– Ay ana, mən adam öldürənnəmi? Məni Allah-tala çağırıf yanına bu sənət maa verəndə deyif ki, biri birinə ajığı tutuf güllə atajağ, yıxılajağ yolun ortasında öləjəh. Vaxdı çatanda ölüm bunnandı. Onun öz əli özünə qannı olajaxdı.

Arvad yuxanı yaydıxca uşağ əlini atır, cırır tulluyur, cırır tulluyur. Arvad oxleyi, – indi uşağına qıymır dana, – yavaşca başına vurur ki, ay ciyarın yansın, məni arvadın yanında biyabır elədin. Özücə bişirirdi. Sən xamırı tökdün buralarnan bir elədin, heş yuxa çıxmadı ortalığa. Uşağ bayağ idi öldü. Öləndə arvad çığırdı:

– Allah, balam öldü. Allah, balam öldü.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Arvad yüyürür. Axı arvad bilir. Deyif:

– Ay bajı, Azreyildə günah görürdüm. Balamı götürüf diyar-badiyar düşmüşəm. Əllərim tökülsün. Öz əlim özümə qannı oldu.

Uzax qulaxlardan, deyillər filan qardaş filankəsi vurdu. Onun qisməti odu. Onu yazan heylə yazıf.

## 30. VAR-DÖVLƏTİ BAŞQASINA QİSMƏT OLAN KİŞİ

Bizim bu Qarabağda, Kür ovalığında, indi hansı rayondadı, hardadı onu bilmirəm, bir dənə varrı kişi varmış. Həddinnən artıx varrı imiş. Bunun qapısında da mənim qapımdakı tut kimi böyük bir tut ağacı varmış. Bu kişinin gözəl evi-eşiyi, varı-varyatı. Bir gün bu gedir hacc ziyarətinə. Qavax bu hacc ziyarəti beş-altı ay çəkərmiş ey. Bir gün kişi tək imiş evdə, bir dənə fala baxan gəlir. Girir evə-eşiyə baxır, deyir:

– Bəh-bəh-bəh, nə gözəl evdi. Hayıf ki, yiyəsinə qismət döylü.

Kişi hirsdənir, deyir:

– Axmağın qızı axmax, sən nə danışırsan? Nətər yanı yiyəsinə qismət döylü?

Deyir ki, bu, Lənkəranda bir gəmiqayıran Muxdar var, ona qismətdi. Kişi mənim kimi başdan xarab imiş. Hirsdənir, arvadı qapıdan qovur.

Aradan bir neçə il keçir, bu çıxır gedir hacc ziyarətinə. Gəlif görür ayə, ev nə gəzir, eşih nə gəzir, hamısını Kür daşıf, yuyuf götürüf gedif. Tut ağacı kökünnən yoxdu.

Nəysə, kişi sarsılır, bir müddət özünə gələ bilmir. Beş-altı aydan sora bu söypət yadına düşür. Bir gün çarığın dabanını bərkidir, deyir:

– Gedəjəm Lənkərana, görüm bu nə hak-hesabdı. Münəccim axı belə bir söz demişdi.

Deməli, gəlir Lənkərana çatır. Orda soraxlıyır, soraxlıyır. Gəmiqayıran Muxdarın qapısını tapanda görür, sən öl, tut ağacı böyrü üsdə bunun dokqazınnan çöldə duruf. Kişinin tükləri biz-biz oluf. İsdiyir qayıdıf getsin, deyir:

– Yox ey, bu Muxdarnan söypət eliyəjəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çağırır, Muxdar kişi evdə imiş, çıxır. Deyir:

– Əşi, xeyirdimi. Niyə gəlmisən?

Deyir:

– Vallah, bu tut ağacı mənim ağacımdı. Amma bir yeddi-səkkiz il bunnan qabax demişdilər ki, bu sana qismətdi. Muxdar kişi, gəl bura, bunun içində otuz kilo qızıl var. Yerini bilməzsən. Onsuz da sənin qismətindi ey.

Deyir:

– A kişi, bunu elə bil filankəsin oğluynan filankəsin oğlu dənizdən iki dənə kəlin g…nə qoşuf çəkif gətdilər ki, bunnan bizə qayıx düzəlt. Mən də dedim ki, bala, hələ yaşdı, qoy bir az təpsin, sora yonuf düzəldərəm. Filankəsdər gəlsinnər desinnər, sən götür apar, mən neynirəm.

Deyir:

– Yox ey, onsuz da mən gəlmişəm sana halallığını verəm gedəm. Baltanı gətir.

Baltanı gətirir. Ağacın koğuşunda bir çiv varmış, çivi çıxardan kimi otuz kilo qızıl aşır tökülür yerə. Muxdar nə qədər eliyir ki, qızılını götür apar, deyir:

– Sən öl, bir dənəsini də aparmaram.

Deyir:

– Onda bircə gejə qonağım ol dana. Bir gejə qonağım ol, sora gənə çıx get.

Nəysə, bular axşamdan Allah verənnən yeyillər, içillər, yatıllar. Muxdar da arvada pıçıldıyır ki, arvad, bunun yoluna iki dənə çörəh bişir, heç olmasa, bu qızıldan beş-altısını çörəyin içinə qoy da. Bu kopoğlu tərsdi, götürmür. Bir belə qızılı da bu gətirif evin içində verif maa. Bunnan heç olmasa halallıx alax dana.

Deməli, arvad iki dənə çörəh bişirir təndirdə. Xamırın arasını doldurur qızılnan. İndi sizə kimnən deyim, bu gəmiqayıran Muxdarın bir dənə də pinəçi qonşusu varmış, bazarın qavağında pinəçilih eliyirmiş.

Nəysə, səhər duruf olannan-olmazınnan gənə yiyir, kişinin heyvəsinə iki dənə çörəyi qoyur, deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Saa yaxşı yol.

Kişi heybəni götürür, gələndə görür çarığın davanı cırılıfdı. Deyir ki, qardaş, bunu tik, iki dənə çörəyim var, birini verim saa, biri də mənim. Deyir:

– Əşi, bunu heş dörd çörəyə tikməzdər. Mən də axşam evə iki çörəh alasıyam. Heç olmasa iki çörəyi ver, tikim.

Kişi çörəyin ikisini də verir pinəçiyə. Pinəçi kişinin çarığını tikir, kişi çıxır gedir. Pinəçi axşam çörəhləri gətirif evə verəndə arvad baxır, deyir:

– Buy, nə yaxşı oldu. O gün Muxdargildən iki dənə çörəh almışam borc, bu da elə o çörəyə oxşuyur. Ayıfdı, qara çörəh verminyim. Get sən canı, özümüzə qara çörəh al, bu çörəhləri qaytarım Muxdargilə.

Deməli, Muxdarın arvadı görür kü, qonşunun arvadı çağırır. Çıxır, çörəyi görəndə arvad dəhşətə gəlir. Deyir:

– Mən bişirdiyim çörəhdi ey bu.

Deyir:

– Aaz, mən nə bilim, kişi bazarda kimnənsə alıfdı.

Heyləcə çörəhlərin ikisi də qayıdır Muxdarın evinə. Kişi də genə bir qəpihsiz çıxır gəlir.

## 31. ŞAHA NÜBAR APARAN KİŞİ

Bir gün bir kişi öz həyətyanı sahəsinin kənarında xəndək qazırdı. O vaxdı setka nə gəzirdi, daş nə gəzirdi. Xəndək qazırdılar. Xəndəyi qazanda bunun lapatkasına kərpiş boyda qızıl çıxır. Qazan görmür bu qızılı, götürür atır qırağa, o yolnan keçən görür. Yolnan keçən çağırır:

– A kişi, korsan sən?

Deyir:

– Nədi ki?

Deyir:

– O boyda qızılı götdün tulladın qırağa.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir ki, əgər o mənim qismətim olsaydı, onu mən görərdim. Deməli, o sənin qismətindi. Allah-tala onu sənə gösdərif, götür apar. Bunnar ikisi də o qədər halal adam oluf ki, deyir:

– Yox ey, sənin lapatkana çıxıf.

Çox uzun mübahisədən sonra yolnan gedən götürür aparır. Qızılı aparır satır, torpax alır. Başdıyır əkir, becərir. Qulluxçuların pulunu bəri başdan verir, məhsul vaxdınacan bunun bir qəpih pulu qalmır.

Beş-altı ay keçir. Yer qazan kişinin beş maat pula ehtiyacı olur. Bir adama bunun borcu olur. Borc yiyəsi gəlir qapısına ki, ay Mobil*, mənim beş maatımı ver. Mobil fikirrəşir, fikirrəşir, deyir:

– Qoy gedim Aslana** deyim görüm. Beş maat onnan borc alım, verim, sora qaytararam.

Pis vaxd imiş. Gedəndə deyifmiş ki, Hüseynbəylidə oluram, adım Allahyardı. Nə vaxt nə lazım olsa, gələrsən.

Nəysə, köhnə kişilər demiş bu, çarığın dabanını bərkidir, gəlir bunnara.

– Salam məlöyküm.

– Əlöykümət salam. Ə, xoş gəlmisən, beş gəlmisən.

Oturullar, yeyillər-içillər, yatıllar. Səhər duranda deyir ki, sən mənnən soruşmursan nəyə gəldiyimi. Bilirəm, qonaxdan soruşmazdar nəyə gəlmisən, amma mən sənnən beş maat pul almağa gəlmişəm. İmkanın olajaxmı onu maa verəsən? Deyəndə deyir ki, otur, düzələr. Kişi çox sakqalını qaşıyır, fikirrəşir ki, mən nağarım. Nökəri çağırır, göndərir ki, get gör bosdanda satılmalı bir şey var? Gəlif deyir ki, ikicə dənə yemişimiz dəyifdi. O da saralıfdı, hələ tam yetişmiyifdi. Bunnarın da yaşadığı ərazi şahın sarayına yaxın yerdə imiş. Burdan Bərdə qədər imiş. Bu, hurcunun hər gözünə bir dənə yemişi qoyur, minir eşşəyə, gedir. Gedir şahın sarayına ki, yemişi verə şaha, əvəzində nəsə ala, gətirə bu kişiyə pul verə dana. O vaxd ümumiyyətcə adət idi, kimin nə nübarı varmışsa, aparıf şaha verirmiş, şah da əvəzində ənam verirmiş.

---

* Söyləyici personaja söhbətə qulaq asan qohumunun adını verir.
** Söyləyici personaja öz adını verir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nəysə, bu kişi eşşəynən getdiyi yerdə şah da deməsən həmin gün ova çıxıfmış. Şah öz ovçu yoldaşdarınnan ayrılıf deyir:

– Ə, mənim ciyarım yanır, qoy görüm bu kəntdə su varsa, bir adamdan su alım içim.

Şah görür bir kişi eşşəynən gedir. Daldan çağırır.

– A kişi, a kişi, a kişi.

Kişi nə bilsin bu şahdı. Cavab vermir. Nəysə, şah atı sürür, gəlir buna çatır. Deyir:

– Salam məlöyküm.

Deyir:

– Salam.

Deyir:

– Əşi, qulağın eşitmir?

Deyir:

– Ə, eşidirəm ey. Adamsan, adam balasısan. Əgər bir sözün varsa, gəl əvvəlcə salam məlöyküm de, görəh dərdin nədi.

Bu belə deyəndə şahı pis yerdən tutur axı, şah dillənə bilmir. Şah məjbur olur atı sürür gəlir qabaxdan, deyir:

– Salam məlöyküm, ağsakqal.

Deyir:

– Əlöykü salam.

Deyir:

– De görüm burda bir quruşqa su olar?

Deyir:

– Yox.

Deyir:

– Bə xurcunundakı nədi?

Deyir:

– Yemişdi.

Deyir:

– Onun birini saat maa da, neçəyə satırsansa.

Deyir ki, yox, onu şaha aparıram. Deyir:

– Ə kişi, nə qədər isdiyirsən, pulunu verim da.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A kişi, adamsan, adam oğlusan, mən bunu qıranda adın qoymuşam ki, bunu aparıram şaha. Bir maat verməsə də, şaha verəjəm, nə qədər versə də, şaha verəjəm. Kişiyəm, söz demişəm.

Nə qədər yalvarır, nə qədər pul təklif eliyir, bunu şaha vermir. Şah qayıdır gəlir ovçuların yanına. Deyir:

– Siz işinizdə olun, mən gəlirəm.

Atı sürür, gəlir oturur taxtda. Tapşırır ki, xurcunnu, eşşəhli bir kişi gələjəh, onu boşduyun içəri. Kişi gəlir, gələn kimi telexra-nitellər bunu boşduyullar içəri. Kişinin xurcununun birini qızılnan, birini gümüşnən doldurur qəşəh, yemişdəri alıf kişini böyüh hörmətnən yola salır. Həm də kəndin kəndxudalığını verir. Hansı kəntdənsən? Filan kəntdən. Rəsmi fərman yazır, peçatını vurur, büküf deyir: “Götür get”.

Kişi qapıdan çıxanda vəzir gəlir. Vəzirə də xəzinədar deyir ki, evini Allah tiksin, şah illik xəzinəni iki dənə yemişə verdi. Hələ bir az da şahın dalınca danışır: “Kopoğlunun başı xarabdı ey, bu boyda xəzinəni verdi iki yemişə”. Vəzir deyir ki, şah, sən o yemişə görə o qədər pulu nahax vermisən. Gedirəm əlinnən alam. Cındırınnan cin ürkən kətçiyə sən məmləkətin bir illik gəlirini vermisən. Şah deyir ki, vəzir, vallah, o sənnən də ağıllı kişidi, mənnən də ağıllıdı.

Deyir:

– Yox ey.

Nəysə, vəzir düşür kişinin dalına. Vəzir şahnan danışıf çıxana qədər kişi bir az aralaşıfmış dana. İki kəndin arasında meşəlihdə vəzir də toşnu şah kimi:

– A kişi, a kişi, a kişi.

Kişi vejinə də almır, gedir. Nəysə, vəzir buna çatır. Deyir:

– Əşi, səni çağırıram, karsan?

Deyir:

– Ə, kar özünsən. Adamsan, adam balasısan, sözün var, gəl müsəlman qaydasınnan salam ver, görəh nə deyirsən.

Vəzir görür ki, pis yerə ilişif. Gedir təzdənnən gənə şah kimi:

– Salam məlöyküm, ağsakqal. Nətərsən, nə var, nə yox?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Vəzir deyir ki, mən şahın vəziriyəm. Şah cavandı, beyni qandı, pulu da xəşdəməyi bilmir. O bizim məmləkətin bir illik gəliridi. Sənin Allah üsdünə od töhsün, o verirdi, verirdi, bəs saa nolmuşdu.

Deyir:

– Ə kopoğlu, şahın verdiyi şeyi geri qaytarmağ olar, adamın boynunu vurdurar. Verif, mən də almışam dana.

Deyir:

– Onda saa üş dənə sual verəjəm. Əgər bu suallara düzgün cavab verə bilsən, halalındı. Verə bilməsən, şahın verdiyi şeyi sən-nən alajam, lap şah mənim boynumu vursa da.

Deyir ki, ver. Deməli bu kişi eşşəyin belində yolun bu üzündə, bu da atın belində yolun bu üzündə qarşı-qarşıya dayanıflar. Deyir:

– Verirəm sualı.

Deyir:

– Denən.

Birinci deyir ki, Allah harda yerrəşir? Deyən kimi kişi tez eşşəhdən düşür. Vəzirə deyir ki, ə adamsan, adam balasısan. Sən atın belində, mən eşşəyin belində, Allahın adını çəkmə. Düş yerə, dizdəri qoy yerə, sora Allahdan danış. Vəzir nə desin. Dinməzcə düşür. Deyir ki, Allah hər kəsin öz qəlbində yerrəşir. Birinci sualına cavab verir.

Deyir:

– Amma vəzir, ta mana Allahdan sual vermə. Ayrı nə sualın var ver, amma Allahdan sual vermə da, günahdı.

Deyir:

– Yox, mənim sualımın üçü də Allahdandı. İkinci sualı verirəm.

Deyir:

– Buyur.

– İkinci sualım odu ki, Allah nə yeyir, – deyəndə deyir:

– Vəzir, Allah səbir yeyir.

Bu cavab da vəziri qane eliyir. Üçüncü sualda bir də yalvarır:

– Vəzir, Allahdan demə, hardan sual verirsən ver, Allahdan danışma.

Deyir:

– Yox ey, üçü də Allahdandı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir ki, de görüm Allahın işi nədi? Deyəndə uje eşşəyin nohdasınnan tutur, gəlir düz vəzirin yanına. Deyir:

– Vəzir, Allah sana da, sənin şahına da nəhlət eləsin. İkiniz də eşşəhsiniz. Çünki sana üş dəfə dedim ki, mana Allahdan sual vermə. Çöyürüf, çöyürüf Allahdan sual verirsən. Şahın da eşşəhdi ona görə ki, mana o boyda kəndin kəndxudalığını verdi, bir məmləkətin bir illik xəzinəsini verdi, məni kəndxuda kimi kəndə göndərir, amma eşşəyin belində göndərir. Allahın işi onnan ibarətdi ki, buyün Allah-tala mənim bütün işdərimi bərqərar eliyif, bircə dənə atım çatmırdı. Allah sənin atını mənnən ötrü göndərif. Tut bu eşşəyin noxdasını.

Vəzir tutur eşşəyin noxadasını. Kişi minir vəzirin atına, xurcunu atır atın belinə, çıxır gedir.

## 32. QİSMƏTDƏN QAÇMAQ OLMAZ

Bir kişi Şirvan zonasında olufdu, düyü becərirmiş. Düyünü biçən vaxdında düyünün içinnən bir sünbül baş qaldırıf deyif: “Mən məğribdən gələn adamın qismətiyəm. Məni məğribdən gələn adam yeyəjəh”. Kişi bunu qırıf götürür, ayrıca dəsmala bağlıyıf qoyur ci-vinə. Deyir dinmə, mən bunu elə vaxdı bişirəjəm, görüm bu dediyi düz olajax, yoxsa yalan. Bir sünbül də ordan baş qaldırır, deyir: “Mən məşriqdən gələn adamın qismətiyəm. Məni də məşriqdən gələn adam yeyəjəh”. Bu sünbülün ikisini də qırır bağlıyır, gətirir, deyir:

– Arvad, buları elə yerə qoy, başqa düyülərə qarışdırma. Bu-ları saxla, bayram günü bişiressən. – Axı, bayramda hamı öz evinə olur. Heş kəs bayramda evinnən çıxmeyjax. – Bayramda bunu bişi-rəssən, mən buların qismətini pozajam. Görüm bayramda kim evinnən çıxıf gəlif bu düyünü yeyəjəh.

Bayram olanda deyir:

– Arvad, gətir o düyüləri.

Arvad gətirir o düyüləri də tökür qazana, bişirir. Deyir:

– Arvad, indi mən bu qisməti pozajam. Gətir biz yeyəh, görəh məğribdən, məşriqdən gələn adam buları yeyəjəh, yemiyəjəh.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Elə arvad pismillah deyif qazanın ağzını açanda qapı döyülür. Kişi durur, görür qapıda qərib adam. Deyir:

– Qardaş, nədi?

Deyir:

– Qardaş, uzax yoldan gəlirəm, məğribdən gəlirəm, məşriqə gedirəm. Yolum uzax oldu, gedif evimə çata bilmədim. Məni bu gejə burda qonax, – deyəndə deyir:

– Arvad, qismətin biri gəldi.

Bunu gətirir oturdur. Deyir:

– Arvad, çək gəlsin. İkinci qisməti gəlincə görəh yeyə bilirihmi?

Elə arvad ikinci bir də pismillah deyif çömçəni qazana vuranda qapı bir də döyülür. Kişi bir də durur. Deyir:

– Qardaş, nədi?

Deyir:

– Qardaş, uzax yoldan gəlirəm, məşriqdən gəlirəm, məğribə gedirəm. Gedif çata bilmədim. Beyjə məni qonax saxla.

Deyif:

– Arvad, qismət yiyələri gəldi, gətir.

Gətirir. Bular yeyəndə düyü boşqabdan baş qaldırır, deyir: "Mənim qismətim gəldi". O biri boşqabdan da o biri düyü baş qaldırır deyir: "Mənim də qismətim gəldi". Kişi deyir:

– Hə, demək qismətdən artıx yemək olmaz. Mən bu düyüləri bir belə saxladım buyünkü günə ki, bayram günü heş kəs evinnən çıxmıyajaxdı. Demək, qismətdən artıx yemək olmaz. Buyünkü gündə məğribdən, məşriqdən gələn adam gəldi, düyü qismətini yedi.

## 33. AT QUYRUĞU BOYDA SÜNBÜL

Bir gün bir kişi cüt əkirmiş. Gedir, gedir, cütün ağzı dirənir bir dənə krışkaya. Yerin altında görür dəmir parçası var. Qaldırır dəmiri, görür yerin altında xəzinə kimi bir yer var. Deməli, taxıl dərzidi. At quyruğu boyda sünbüldü, şaftalı boyda taxıldı. Kişi məhətdəl qaldı. Kişinin də yetmiş-səksən yaşı varmış, belə şey görməmişdi. Bu sünbüldən bir dənə qırır, gəlir kəndin içində ağsak-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qallara, qarasakqallara deyir: “Sən belə şey görmüsən?” Deyillər: “Yox”. Nə qədər adama soruşur, deyən yoxdu. Bu iş padşahın alimlərinin yanına çıxır ki, belə bir şey tapılıfdı. Bu nədi, nə hak-hesabdı? Baş vəzirin yanında bir məsləhətçi işdiyirmiş. O deyir ki, filan kəntdə yüz yaşdı kişi var, gedin bunu onnan soruşun.

Nəysə, bu kişi hərrənir, çıxır gedir o yüz yaşdı kişinin evinə. Çağırıllar, çağırıllar, çıxır. Görür ə, bir kişi ölə-ölə gəlir. Deyir ki, əşi, məni belə bir şeydən ötrü sənin yanına göndəriflər. Deyir:

– Vallah, mən bilmərəm, amma Böyüh Qəjərdə böyüh qardaşım yaşıyır. Get, o bilər. Adı da filankəsdi.

Gedir görür o qardaş bunnan böyühdü, amma bunnan cavan görünür. O qardaş deyir ki, mən də bilmərəm. İkimizdən də böyüh bir qardaşımız var, o bilər.

Nəysə, keçir üçüncü qardaşın yanına. Çağırır, görür ə, bu onnarın ikisinnən böyüh olsa da, həm cavan görünür, həm də diribaşdı. Bu kişi taxılın sünbülünün bu boyda olmağının səbəbini buna izah eliyir. Deyir:

– Bir dəfə bir kişi evini satır o biri kişiyə. Alışıllar, verişillər qanun-qaydasınnan. İndiki dilnən desək, ordenini-zadını hamısını sənətdəşdirir, bu kişi evini satır gedir Bərdəyə. Bu evi alan nə iş görürmüşsə, evin küncünü qazanda bir küpə qızıl tapır. Bu səfər gedir evi satanın yanına. Deyir ki, qardaş, mən sənnən bir küpə qızıl almamışam. Mən sənnən ev almışam. Bu qızıl səninkidi da, yadınnan çıxıf qalıf orda. Ala, götür. Deyir: “Yox, o mənim qismətim olsaydı, mən görərdim. Neçə ildi o evdə yaşamışam, mən onu bilməmişəm. Demək, sənin qismətindi”. İkisi də o qədər ədalətdi adam oluf ki, dalaşıllar. O deyir sənindi, bu deyir sənindi. Axırı gedillər qazının yanına. Qazı çox fikirrəşir, deyir: “A kişi, sənin oğuldan, qızdan nəyin var?” Deyir: “Mənim bir oğlum var evlənəsi”. Bu da deyir: “Mənim də bir qızım var”. Deyir: “Sən qızını ver onun oğluna, bu qızılı da verin onnara, qoy onnar xoşbaxt yaşasın”. Deyir, qazının hökmü o qədər ədalətdi olur ku, Allah-tala həmin ili taxıla o boyda boy verif, dəni də şafdalı boyda eliyif. Fikir ver ha. Qazının ədalətdi hökmünə uyğun olarax Allah-tala həmin ili urza göndərir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu cavab kişini qane elədi. İndi, deyir, şəxsən sənin özünə verəsi sualım var. Deyir:

– Buyur.

Deyir:

– Nəyə görə sənin yüz yaşdı qardaşın sənnən cavan ola-ola, sənnən yaşdı görükür, o biri qardaşın onnan yaşdı ola-ola bir qədər cavandı, amma sən yüz beş yaşın var, ikisinnən də cavansan.

Deyir:

– Oğul, birinci qardaşımın işi nə evdə düz gəlir, nə çöldə. Yəni arvadnan da sözü tuş gəlmir, çöldə camaatnan da sözü tuş gəlmir. Ona görə o çox qojalıf. İkinci qardaşımın sözü evdə tuş gəlir, çöldə gəlmir. Ona görə o, bir az qojalıf. Amma mənim, şükür Allaha, evdə də sözüm tuş gəlir, çöldə də.

## 34. YETİM OĞLAN

Bir uşax yolnan gedirdi. Gördü bir kişi üzüm satır. Yetim uşağ idi. O arvad gəldi bir tabağ aldı, bu arvad gəldi bir vedrə aldı. Biri bu uşağa bir gilə üzüm vermədi. Uşax belə baxdı, dedi:

– Ya Rəbbi, mənim atam dursaydı, anam dursaydı, o da mana alardı dana.

Belə deyəndə üzüm satan baxır, baxır, görür ə, bu bir rəzil uşaxdı dana. Səbətdən bir salxım üzüm götürüf verir buna. Deyir:

– A bala, ala.

Uşax həvəsiyə-həvəsiyə alanda üzümü qaytarıf qoyur yerinə, deyir:

– Bəəə.

Deyir:

– Dayı, heş onu maa verməsəydin, məni bir belə yandırmazdın. Bax, sən məni niyə dəli elədin? Niyə məni bu günə qoydun?

Dedi ki, gələjəh var. Gələjəhdə sən onu gözünnən görəssən.

Dedi:

– Havaxt?

Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Vaxt gələjəh.

Bu uşax böyüdü, əməlli-başdı oğlan oldu. Bir günnəri getdi peyğəmbərin yanına. Dedi:

– Cənab peyğəmbər, deyillər sən çox bilən adamsan. Bax, mənim başıma belə iş gəlif. Bu nətər olan işdi?

Dedi:

– Get filan qəbirstannığa, yeddi qəbir öt, səkkizincini açıf içəri girəndə görəjəhsən onu.

Gedir ki, bir oğlanla bir qız oturuf qıravatın üsdündə söypət eliyir, gül iyi verillər. Görür bir it qıravatın o qılçasına bağlıdı, biri də bu qılçasına bağlıdı. Görür bir arvad yuxa bişirir sajda, amma bir arvad bunun altınnan o üzə keçir, "Allah yandım, Allah yandım" – deyir alışır, yalovlana-yalovlana gedir. Amma bir arvad da Allah, Allah, Allah, barmağı yanır. Öz-özünə fikirrəşir ki, bu nə olan şeydi belə.

Qayıtdı gəldi, peyğəmbərə dedi:

– Baba, belə şeylər gördüm, o nətər işdi, onu maa agah elə görüm.

Dedi:

– O uşax haman o qoja kişidi*, ona üzüm verən. İndi onu Allah bu dünyada alladır. Onda allatmıyıf, indi alladır.

Dedi:

– Hə, bu belə. Bəs barmağı yanan?

Dedi:

– O məhşər odudu, yapışıf onun barmağınnan, qiyamatatan yanajax. Öylərinə bir sayıl da gəlsə, fağır da gəlsə, evinə qoymazdı. Deyərdi yox, yox, bizdə olmaz. Məscidin qapısını gösdərərdi ki, orda yer var, gedin orda qalın. Məhşər odu yapışıf onun barmağına, qiyamatatan gedəjəh.

Dedi:

– Bəs o it nə idi orda?

Dedi:

---

* Söyləyici qoca ilə bağlı hissəni unudub.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Onun biri mənim dədəmdi, biri nənəm. Öyümüzə qonax gələndə onnarı öyə qoymurdu. Bu özgə qızıynan mən təhnədən çörəh oğurruyuf olara verirdih, küşdə olara yer salırdıx. Bax, olar orda bağlıdı, amma biz burda gül iyliyirih.

Dedi:

– Hə, bu belə.

## 35. EVİ ARVAD TİKƏR

Genə bir keçəl olur, onun da bir anası olur. Ana-bala dolanırdılar. Odun-zad aparıf satıf gətirirdi. Padşahın imarətinin qabağınnan yol gedirdi bazara. Keçəl buraynan gedif gəlirdi. Bir gün qıznan atası oturmuşdu külləfirəngidə. Keçəl gedəndə Allah padşahın konluna insaf saldı dana. Dedi:

– Ə, o keçələ denən gət odunu tök odunnuğa, gəl bura.

Çadırı apardı, odunu tökdü odunnuğa, getdi. Gətdi buna bir az qızıl verdi. Dedi:

– A bala, apar bunu bir az əlində xaşdıx elə, yazıxsan, o odunu daşıma. Mən görürəm gündə gedirsən.

Bu da kasıf adam idi dana. Bunu gətdi o şeyə verdi, bu şeyə verdi, yoxu idi heş nə, pul qutardı. Gənə pul qazanmalıdı axı. Gənə getdi bir şələ odun götdü, gəldi padşahın qapısınnan keçəndə, [padşah] qıznan durmuşdu, dedi:

– Aaz, buna bax ey, kopoğluna dünən-sırağayın verdim ey xaşdıx. Dedim ki, apar əlinə maya sal. İndi gənə odun daşıyır.

Qız dedi ki, ata, onu heylə bilmə. Dedi:

– Nətər bilmə. Əlimnən vermişəm.

Dedi:

– Onun evdə anası varsa, anasıdı, arvadı varsa, arvadıdı. O bekaradı, keçəl bekara döylü. Evi kadın dolandırar. Onun kadını hansıdısa, pisdi.

Nəysə, bu ata-bala, o da Allahdandı, cəhləşdilər. Cəhləşəndə qız dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ata, sən məni ver ona, maa heş-zad da vermə. Mən keçəlin evini sənin evinnən yaxşı eləməsəm, onda nə deyərsən, deyərsən.

Amma qız yaxşı kəlağayı toxuyurdu. Biri yüz tümən idi. Gejədə birini toxuyurdu. Atası evinnən birini götdü, elə atasının ajığına getdi keçələ. Keçəlin bir damı vardı. Dedi:

– Keçəl, baxma sənin kişi oluf, mənim arvad olduğuma. Sən mənim sözümnən gedəssən. Mən nə desəm, o olajax.

Keçəl dedi:

– A xanım, sən nə desən o olajax.

Keçəlin də canınnandı. Gejə otdu bir dənə kalağayı toxudu. Dedi:

– Keçəl, bunu götür apar bazara. Yüz tüməndi ha, aşağı vermə. Ver pula, çörəhdən, yavannığdan al, pulun qalanını da gətir.

Keçəl apardı. Çatan kimi yüz tümən verdilər. Bir az yağdan-yavannığdan aldı gətdi. Bu toxudu, bu apardı satdı. Xeylağ da pul yığmışdılar. Bir gün də kalağayını satmışdı, əlində idi pul. Gördü ki, Bəhlul üş dənə kül komalıyıf.

– Ay kül alan, ay kül alan.

Gəldi bunun yanına keçəl. Dedi ki, ə, nə satırsan?

Dedi:

– Bu külü.

– Neçəyə verirsən?

Dedi:

– Yüz tümənə.

Bu, əlindəki pula baxdı, külə baxdı. Dedi: "Ə, bunu verəjəm buna, padşahın qızı məni dannıyajax. Vermiyim, bu da deyir yüz tümənə verirəm". Dedi: "Allaha pənah". Yüz təməni verdi buna. Bu külü sovurdu göyə. Dedi ki, səbirri qul arzusuna çatar.

Dedi:

– Elə bu?

Dedi:

– Bu azdı?

– Ə, – dedi, – pulu maa ver. Mən də deyirəm görəm nə deyəjəh.

– Satmışam, təzdən hara verirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çıxdı gəldi. Vermədi. Gəldi, utana-utana xanıma dedi ki, belə bir iş görmüşəm. Yüz tümən verif bir söz almışam: Səbirri qul arzusuna çatar.

Dedi:

– Keçəl, yaxşı sözdü, əzbərrə sinəndə saxla.

Qız buna daa bir söz demədi. Bu elə hey əzbərriyirdi. Savah bir də getdi. Gördü gənə satır. Qız buna bir söz demədiyinə dedi: "Sən öl, bir də alajam, görüm nə deyir". Soruşdu neçəyədi. Dedi: "Yüz tümənə". Verdi. Dedi:

– Nədi?

Dedi:

– Sənnən soruşsalar ki, dünyada nə göyçəh olur, denən ki, könül sevən göyçəh olur. Könlün nəyi sevsə, o saa göyçəhdi.

Gənə peşmannadı ki, ə, yüz tüməni verdim buna, indi nətər eliyim. Gəldi gənə xanıma dedi. Dedi:

– Keçəl, yaxşı sözdü, yadınnan çıxarma, lazım olar sənə.

Qız savatdı idi da, padşah qızı idi. Bu sözdəri saxladı qəlbində. Keçəlin evinin yanında düşərgə yeri var idi, həmişə tacirrər düşüf gejə orda qalırdılar, səhər gedirdilər. Keçəl da kəlağayını erkən satıf gəlmişdi. Çıxdı bu tacirrərə tərəf. Bir tacir düşmüşdü ora. Bu tacir buna dedi ki, qardaş, maa bir adam lazımdı, qan pulunu verəm, özümnən aparam. Ölər ölər, qalar gələr. Özü ağırrığında qızıl verəjəm. İndi nə bilim yeddi ilə gələjəm, beş ilə gələjəm, on ilə gələjəm, onu deyə bilmərəm. Bu bunun başına batdı. Gəldi padşahın qızının yanına. Dedi:

– Xanım, belə bir iş var. İndi mən ağır adamam da, xeylağ qızıl eliyəjəh. Nolajax, gələjəm, Allah qoysa. Gedim, qızılı alım, gətirim verim sana, mən tacirnən gedim.

Dedi:

– Özün bil. Mən sənə nə get demirəm, nə də qal.

Dedi:

– Yox, getməh isdiyirəm.

Bu getdi özü ağırrığında qızılı aldı gətdi. Xanıma verif halal-hümmət eliyəndə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Yox, keçəl, heylə döylü. Sənnən mən həmliyəm. Daqavor yazajam, sən də qol çəkəssən, mən də. Getdin ayna, bəlkə on ildən sora gəldin, mənim uşağımın on yaşı oldu. Gəlif deyəssən hardan aldın.

Daqavor kağızını yazdı, bir surətini keçələ verdi, bir surəti də qaldı bunda. Keçəl qoşuldu tacirə, getdi. Gethaget, gethaget bir yer vardı, sucax yer idi. Orda da bir quyu varıydı. Bunnar heylə qan pulu verirdilər, aparırdılar, salırdılar ora, çıxmırdı. Ona görə qan pulu verirdi. Köş düşdü, getdilər quyunun başına. Dedilər:

– Gəl düş bura, su çıxart.

Bunu salladılar ora. Bu gupbultuynan getdi düşdü ora. Ora düşən kimi bunu bir oğlan tutdu, dedi: "Gəl bura". Dedi:

– Nədi?

Dedi:

– Gə bəri, deyəjəm saa.

Bunu apardı. Bir qapı aşdı. Dedi:

– Görürsən bu meyitdəri?

Dedi:

– Hə.

Dedi:

– Bax, bunnar bura düşənnərdi. Sual verirəm, cavaf vermir, öldürüf tulluyuram. İndi saa da sual verəjəm, cavaf verməsən, səni də öldürüf bura tulluyajam.

Keçəl bir az qorxu çəhdi. Bunu apardı ayrı bir evə. Baxdı ki, insan yekəlihdə bir qurbağadı, barının küncündə duruf. Dedi ki, o ölənnərin hamısına sual vermişəm, cavaf vermiyif. Saa da verəjəm, tapbasan, səni öldürəjəm. Ancax tapsan da sənə nə hörmət eliyəjəm mən bilirəm.

Dedi:

– De da, bilsəm deyəjəm.

Dedi:

– Dünyada nə göyçəh olur?

Yüz tümən verif orda almışdı. Tez yadına düşdü söz. Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Könül sevən göyçəh olur, – deyəndə qurbağa tilsimə düşmüşmüş, tilsim sındı, qurbağa gözəl bir qıza çevrildi. Bunnar qujaxlaşdılar. Dedi:

– Oğlan, mən yeddi ildi ona həsrətəm. Bax, o tilsimə düşüf qalıf orda. Kimə deyirəm, heş kəs demir ki, könül sevən göyçəh olar. O bir kəlmə sözdən ötəri o yeddi ildi qalıf orda. İndi gəl sudan ver, çəhsinnər.

Qavaxca çəkə bilmirdilər da. Sudan polnu verənnən sora getdi yeddi dənə qarpız gətdi. Qoydu quyunun ağzına, dedi:

– Sən çıx, mən sora verəjəm, amma bunu heş kəsə gösdərmə. Pasılka elə göndər evə, vermə heş kəsə.

Bu çıxır, bu da qarpızdarı verir. Deyir:

– Sən maa hörmət eləmisən, mən də saa hörmət eliyirəm.

Qarpızdarı çıxardı. Orda adresini yazır göndərir arvada. Özü tacirnən gedir. Gedir, indi neçə ilə gəlirsə genə bunu salır. Beş qarpız da indi buna verir. Deyir:

– Sən mana çox hörmət eləmisən. Bu yeddi ilin hörmətidi mən sənə elədiyim. Amma verdiyim qarpızdarı heş kəsə vermə.

Bunu çıxardanda tacir dedi ki, ə, gətir birini kəsəh yeyəh da bunun. Dedi:

– Yox, mən saa qarpız boşdu döyüləm.

Götdü gəldi. Bunun arvadı padşah qızı idi. Getdi bir usda tapdı gətdi. Dedi ki, bax, mən kadın xeylağıyam, heç haranı tanımıram. Mənə atamın evinnən yaxşı ev tikəssən. Pulunu mən verəjəm, sən get tap, al, gətir, qayır, usdasan. Keçəl gəlincə yaxşı ev tikdirdi, hasar çəkdirdi, mal-qoyun aldı, nökər tutdu. Ha belə dolanırdı.

Bir gün tacirrər axşam gəldilər düşdülər keçəlin evinin böyrünə. İndi ürək dayanmır axı. İsdiyir bir gedə evinə baxa. Keçəl bu axşam qaroul çəkəjeydi, onnan sora qutarajeydi. Ürəyi dayanmadı, dedi:

– Gedim dəyim gəlim, görüm arvad nağarır?

Gəldi gördü ki, ay qardaş, padşahın evinə çıxıf. Bunun evi dam idi. Bura Mustafanın evidi, burda da mənim evim olmalıdı. Mənim evim döylü axı. Ora-bura hərrənir, gəlir qaroulçunu tapır. Deyir:

– A qardaş, bura kimin evidi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedi:

– Padşahın qızının, – deyəndə bildi ki, bunu arvadı tikdirif. Dedi:

– Maa icazə ver, beşcə dəyqə ora dəyim gəlim.

Dedi:

– Ora dəyəndə nolajax sənə?

Dedi:

– Elə bir gözümnən görüm, gəlim də.

İcazəsini aldı, çıxdı ora. Bu gedənnən sora bunun bir oğlu olur. Çıxır baxır ki, arvad da yatıf, yanında bir oğlan da yatıf. Xançalı sıyırır, isdiyir ki, girə bunu öldürə, deyir: "Nəhlət sənə şeytan, axı mən yüz tümən pul vermişəm. Səbirri qul arzusuna çatar. Səbr eliyim, savah gələrəm, onnan sora görərəm". Öldürmür. Çıxır gedir.

Gejə çəkir qaroulunu, təhvil verir, savah da gəlir. Beş dənə də qarpız gətirir. Görüşüllər eliyillər. Baxır ki, yekə oğlandı. Soruşur bu kimdi. Daqavor kağızını çıxardır, gösdərir ki, öz oğlundu. Evi tikdirif hazır, atasının evinnən yaxşı, özünün də bir oğlu. Deyir ki, o qarpızın birini gəl kəsəh. Qız deyir ki, o yeyiləsi qarpız döylü. O göndərdiyin qarpızdarnan tikdirmişəm bu evləri. Onnar hamısı ləldi.

– Aaz, nə danışırsan?

Deyir:

– Vallah hə.

Keçəl fikirrəşdi ki, gör o mana nə hədiyyə eliyif. Deyir ki, keçəl, evi tikdirif qutarmışam, nökərin, hər şeyin. İndi saa bir söz deyim. Mən o vaxdı saa gələndə atamnan bir şərtim vardı. Mən dedim ki, evi aravad tikər. Atam dedi, aaz, nə arvad tikər? Kişidi tərəfxaşdıx eliyir. İndi adam göndər, atamı qonağ çağır. Denən yeznən səni qonağ çağırır.

Qasid gedif deyir. Bu da vəziri, vəkili götürür gəlir. Keçəli başa salır. Keçəl qanmırdı dana, kəntçi adam idi. Dedi:

– Keçəl, sən qavaxda dur atam gələndə, oğlun sənnən geridə dursun, mən də gədədən geridə durum. Atam gələndə qavaxca sən görüş, sora nəvəsiynən görüşsün, onnan sora da mən görüşüm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Heylə də elədilər. Stolu qurmuşdular, getdilər otdular. Yedilər, işdilər, söhbətdəşdilər. Gəlin gəldi dedi ki, ata, ağlın nə kəsir bu işdən. Dedi:

– Nə iş, a bala?

Dedi:

– Mən axı o vaxt keçələ şərtnən gəlmişəm. Mən deyirdim evi arvad tikər, sən deyirdin yox əşi, arvad tikməz, kişi tikər. Görürsən, bu evləri mən tikdirmişəm ey, keçəlin xəbəri yoxdu. İndi mənim sözümə gəlirsənmi?

Dedi:

– Hə, bala, düz deyirsən, evi arvad tikər.

Düz də deyir da. Biz indi özümüz görürüh. Gedif beş kilo ət alıf gətirirsən, arvad var ki, iki dəfə bişirir. Amma elə arvad var ki, beş kilo əti on gün bişirir. Evi arvad tikər.

## 36. ŞAHA BEL BAĞLAMA, ARVADA ETİBAR ETMƏ

Bəhlul külü komalamışdı belə, satırdı. Allahverdi xan vəzirnən də Şah Abbas hamama gedirdi. Vəzir gəldi bunun yanına. Bildi ki, bunda bir əngəl var dana, külü komalıyıf oturuf böyründə. Dedi:

– A Bəhlul, o nədi?

Dedi:

– Küldü, satıram yüz tümənə.

Vəzir savatdı adam idi, çıxartdı verdi. Dedi:

– De görüm, bax bu kül nə olajax?

Dedi:

– Bu kül o adamın başına ki, şaha ehtibar eliyə.

– Bəs bu?

– Bu kül də o adamın başına ki, arvada sirr verə. Kişi olan sirrini gərəh arvada vermiyə.

– Bəs bu?

Dedi:

– Bu kül də o adamın başına ki, öz qohum-əqrabasını qoyuf yadı irəli çəkə, vəzifəyə qoya.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İndi bu gəlir Şah Abbasın yanına. Deyir:

– Ə, o dəliynən nə danışırdın?

Dedi :

– Əşi, heş-zad, elə-belə.

Daa bir söz demədi Şah Abbas buna. Gəldilər. İndi bu kül alıf axı. Üz yüz tümən pul verif. Fikirrəşdi ki, mən bunu nətər sınıyım. Vəzir idi da. Şahın da bir sevimli qoçu vardı, əl qoçu idi, elə qapı-da-bajada hərrənirdi. Fikirrəşdi ki, şahın qoçunu gətirim, görəh şah bir qoşdan ötəri maa nağarajax. Neçə ildi buna vəzirrih eliyirəm. Həm də gətirəjəm, arvada deyəjəm ki, şahın qoçudu, arvad, birdən ağzınnan çıxar ha. Kəsəjəm yeyəh.

Axşam işdən çıxanda bir az gej çıxdı, qarannıx düşdü. Qoş elə orda hərrənirdi da. Buynuzunnan tutdu gətdi. Yolda heş yadına düşmüyən bir qohumu vardı. Heş yadına düşmüyüf. Bu, bunun qavağına çıxdı. Dedi:

– Ə, bir dayan.

Dayandı. Dedi:

– Ə, bu qoçu verirəm sana, şahın qoçudu, apar. Şah bunnan ötəri bilirəm məni asdırajax. Gördün ki, məni asıllar, onda get qoçu gət, burax camaatın içinə.

Gəldi özünün heyvanı çox idi dana. Birini kəsdi, arvada dedi ki, bu şahın qoçudu ha, arvad. Elə tamehim keşdi buna, gətdim kəsdim. Birdən ağzınnan çıxa, deyərsən qonuma-qonşuya.

Dedi:

– Əşi, deməərəm, niyə deyirəm, dəli deyiləm ha.

Bir-iki axşam keçənnən sora... Bu da gündə saraya gedir dana. Şahın qoçu yoxa çıxıf. Ora qoç, bura qoç, tapılmadı. Allahverdi xan vəzir axşam gəldi evə. Bir keçi bulantısı elədi, arvadı möhkəm döydü. Dedi görüm açır sirri. Möhkəm ey, belə ustatdan gəlmə döydü. Ayannan arvad qayıtdı ki, bu da o döyül şahın qoçunu gətirif kəsif, yeyif, qızıf düşəsən mənim canıma. Bunu qonşu eşit-dimi? Şah da qoçu gəzir. Xəbər çatdı ki, bəs qoçu Allahverdi xan vəzir oğurruyuf. Vəziri çağırdı dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə, qoçu sən aparmısan? Mən burda üş gündü qoş gəzirəm. Mənim qoçumu niyə aparmısan?

Dedi:

– Şah sağ olsun, vallah, gedəndə qavağıma çıxdı, dedim heyvandı dana, apardım kəsdim. Mən kəsmişəm.

– Ə, sən dəlisən, nəsən? Cəllad, cəllad!

– Əşi, bir heyvannan ötəri məni asdırmıyassan ha. İkisin verim dana.

Dedi:

– Əşi, sən mana xəyanət eləmisən ey. Savah da ayrı cür xəyanət eliyəssən mana. Sənin boynunu vurdurmalıyam.

Bunu çəkdilər dar ağacının yanına. Kəndiri tulladı xirtdəyinə. Can şirindi dana. Axı tapşırmışdı məni asanda gətir. Tez bu da getdi erkəyi gətdi buraxdı camaatın içinə. O dedi: "Ə, padşahın erkəyi burdadı". Bu dedi: "Ə, padşahın erkəyi burdadı". Bunu saldılar aşağı. Erkəh gəldi çıxdı dana, bunu öldürmədi. Çağırdı yanına. Dedi ki, ə, zarafat eliyirdim ey, elə bilirdin səni öldürərəm? Sən mənim vəzirimsən.

Dedi:

– Əşi, ölmüşdüm dana. Kəndir buramda döylüydü? Da öldürürdün da məni. Neçə ildi burda yoldaşıx. Xeyrinə, şərinə, camaatına xeyr verən mənəm. Məni niyə öldürürsən bir toğludan ötəri?

– Ə, yox, belə, filan.

Dedi:

– Yox ey, mən sənnən qutardım. Sənə vəzirrih eləmirəm.

Nə qədər şah elədi, bu, vəzirriyi götürmədi. Yaxşı qoyunu, malı var idi. Dağıtdı hamısını yadına düşmüyən qohumlarına. Ona bir-iki inək, buna beş qoyun, ona on qoyun. Nəyi vardısa dağıtdı qohumlarına. Dedi:

– Da mən innən belə heç aylə də qurmuyajam. Dünyanın axırı bu döylü?

Bu dəxl eylədi, çıxdı getdi. Getdi bir tacirə nökər oldu. Allahverdi xan kimi bir vəzir köhnə paltar geyindi, getdi bir tacirə dedi ki, gəlim sənin yanına maa bir iş ver, işdiyim. Dedi ki, mənim dəyirmanım var, işdədə bilirsənsə, verim işdət. Gəldi girdi, başdadı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

orda işdəməyə. Köhnə paltar, una-zada bulanıf. Kimdi tanıyan bu Allahverdi xandı. Orda dolanırdı.

Camaat kasıflıx tapdı, təzə vəzir dolandıra bilmədi. Camaat çox pis günə qaldı. Ağsakqallar gəldi şahın yanına ki, əşi, sən bu vəziri neynədin. Onu tap gətginən. Camaat hamısı kasıf düşüf.

Dedi:

– Əşi, mən nə bilim hara gedif? Hardan tapım gətirim?

Bir ağsakqal kişi vardı. Dedi ki, Şah Abbas sağ olsun, mən sənə bir məsləhət eliyim, onda taparsan.

Dedi:

– Nətər?

Dedi:

– O hardadısa, kasıf-kusuf adamın evində olmaz. O tacirin yanında olar, varrı adamın.

– Bə nağarım?

Dedi:

– Qoyun sürüsünü gətir meydana, tərəzini də qoy qavağa. Zonanda nə qədər tacir varsa çağır yanına. Hərəsinə bir heyvan ver. Çəkdir qafanda, ver. Beş kilo gələjəh, on kilo gələjəh, yüz kilo gələjəh. Adını yaz, qavağına da çəkisini yaz. Denən apar qırx gün saxla, qırx günnən sora gətir. Artıx da gəlsə boynunu vurdurajam, əysih də. Həmin çəkini düz versin.

Heylə də eylədi. Bu tacirrər qaldı məhətdəl ki, qırx gün bunu saxlıyajam kökələjəh, ot vermiyəjəm arıxlıyajax. Mən nətər eliyim ki, qırx günnən sora həmən çəkini versin. Bekaf-bekaf bu tacir getdi dəyirmana. Dedi:

– Xozeyn, niyə bekafsan?

Dedi:

– Ə, demə, Allah evini yıxsın, padşah başımıza bir oyun açıf.

– Nədi?

Dedi:

– Belə-belə, bir heyvan verif ki, apar qırx gün saxla, qırx günnən sora gətir həmən çəkini versin. Artıx da gəlsə boynunu vurdurajam, əysih də.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bildi ki, bunnan ötəridi. Dedi:

– Əşi, o bekara şeydi, onu nə var saxlamağa.

Dedi:

– Nətər yanı? Qırx gün azdı? Bir ay on gün eliyir. Ya kökələjəh, ya arıxlıyajax.

Dedi:

– Qorxma, mən saxlıyaram. Get mana bir cüt canavar balasını ovçulardan al gət, bir də qoyunu gətir.

Gətirdi setka düzəltdi, canavar balalarını saldı birinə, qoyunu da birinə. Verirdi, yedirdirdi, axşama yaxın bir dəfə canavar balalarını buraxırdı bu setkanın içinə. Cumurdular ki, indi qoyunu yiyələr, bu da setkadadı dana. Qoyun tayfası da canavardan qorxuf ət tökən olur. Tutduğu əti tökürmüş. Qafan da yanında idi dana. Beş günnən bir, on günnən bir qoyurdu qafana çəkirdi, görürdü hə.

Qırxıncı gün idi. Gedəjeydilər, tacirrər aparajeydi. Bu da gəldi.

– Ə, dəyirmançı, vəziyyət? Heyvan nətərdi?

Dedi:

– Ə, düzdü, qorxma. Su verməmişəm heyvana. Günortayatan bu heyvan su içmiyəjəh. Ora gedəndə günorta sula, yarım kilo əysihdi. Yarım kilo su içəjəh. Qoy qapana, düz gələjəh.

Bu da heyvanı götdü gəldi ki, camaat yığışıf, qapan quruluf, çəkillər. Artıx gələni bir tərəfə yığıllar, əysih gələni bir tərəfə. Baxır ki, heş düz gələni yoxdu. Biri artıx gəlir, biri əysih gəlir. Şah deyif, cərgəyə yığıflar hamını. Bu da suladı gətdi qoydu üsdünə, bununku düz gəldi. Bu sevindi ki, sən öl, mənimki düz gəldi. İndi padşah maa ənam verəjəh. Qapandar dedi ki, şah sağ olsun, tək bir nəfərinki düz gəlif. Qalanınkı gah artıxdı, gah əysih.

Dedi:

– O artıx gələni də burax getsin, əysih gələni də burax getsin. Düz gələni gətir mənim yanıma.

Bu dedi: “İndi mənim kefimdi dana. Mənimki düz gəldi”.

Şah dedi:

– Ə, o heyvanı kim saxlıyıf, heylə düz gəldi?

Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Heş kim, özüm saxlamışam.

Dedi:

– Bax, sana birinci dəfədən deyirəm, səni öldürəjəm, əyəm düzünü deməsən boynunu vurdurajam. Düzü nədi onu de maa.

Axı bu da ona and içif ki, sənin adını vermiyəjəm. Gördü ki, bu çox ayan-bəri eliyir, dedi:

– Ə, bunun boynunu verin kəndirə.

Kəndiri atdılar bunun boynuna, çəkdilər, xırtdaya-xırtdaya qaldı. Gördü ki, ölür dana. Əlini qaldırdı, saldılar aşağı. Dedi:

– De görüm kim saxlıyıf?

Bir də demiyəndə bir də saldı. Üş dəfə kəndiri bunun xirtdəyinə salanda gördü ki, da öldürəjəh bunu, əl çəkmir. Dedi:

– Əşi, mənim bir dəyirmançım var, o saxlıyıf.

Dedi:

– Bə bayaxdan deyirdin mən saxlamışam. Niyə boynuna almırsan?

Vəzirə dedi:

– Dur get, onu götür gəl.

Vəzir durdu bunnan gəldi. Allahverdi xan vəzir bilirdi ki, şah bunnan ötəri belə elyir. Vəzir gördü bu bir sifətdədi, – tanıyıllar da bir-birini, – köhnə paltar, un da vurufdu, heş tanımax olmur ki, bu Allahverdi xan vəzirdi. Dedi:

– Ay Allahverdi, gəlif bura niyə girmisən? Yekə kişisən, səni gəzməhdən yorulmuşam. Gəl, şah səni çağırır.

Dedi:

– Ə, şah məni neynir. Şah mənim boynumu vurdururdu bir toğludan ötəri. Mən gedif təzdənnən şaha vəzirrih eliyəjəm?

Dedi:

– Vallah, çağırır səni.

Götdülər gəldilər.

– Ə, hardasan Allahverdi xan vəzir? Səni gəzməhdən yorulmuşam.

Yalvar-yapış. Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Şah sağ olsun, bir toğludan ötəri məni öldürürdün, neynirsən məni. Mən sənə o qədər ki, xeyir verirdim, sən onu bilmədin.

Dedi:

– Yox ey, gəl vəzirriyi götür.

Baxdı ki, vəzifəyə qoyduğu adamlardı, buna gülüşüllər, özünün qohumları isə qalıf qıraxda. Fikirrəşdi ki, vəzirriyi götürüm, indiyətən yadıma düşmüyən qohumlarımı çəkim vəzifəyə, bunnarın da hamısını vurum salım getsin, maa gülüşüllər. Heylə də elədi. Başdadı o qohumlarının hamısını işə qoydu, yaxşı var verdi. Ölüncə də evlənmədi.

## 37. KEÇƏL

Keçəl varıydı. Bir qardaşı vardı, bir də anası. Kasıb idilər. Odun şələsini, aparıf bazarda satırdı, çörəhdən-zaddan alıf gətirirdi, onnan dolanırdılar. Bir günnərim keçəl apardı odunu satdı, dedi:

– Belim yağır olufdu, da aparmıyajam. Bunu verəjəm çəkişə, bir də mıxa. Gedif padşahın xəzinəsini yarıf qızılı gətirəjəm, onnan dolanajam. Da bəsdi, nə qədər odun daşımax olar.

Getdi. Çəkişi, mıxı apardı. Anasına dedi:

– Ana.

Dedi:

– Hə.

Dedi:

– Ana, vallah, odun daşımaxdan ölürəm. Elə beyjə gedəjəm padşahın xəzinəsinə. Allaha pənah.

Dedi:

– A bala, elə dolanırıx da burda. Padşah səni tutuf öldürəjəh, getmə.

Dedi:

– Yox ey, getməsəm olmaz.

Durdu meşoğu da götdü, getdi. Padşahın da xəzinəsinin dalı habelə yol idi. Xəzinə dolmuşdu, qızılı üsdən tökürdülər. Getdi mıxı çala-çala, çala-çala çıxdı. Qapağı vardı, qapağı aşdı, tullandı içinə. Qızıldan yığdı güjü çatan qədər, atdı yerə, mıxı çəkə-çəkə düşdü, qızılı götdü gəldi. Anası da qapıda duruf gözdüyür.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A bala, gəldin?

– Gəldim.

– A bala, nə yaxşı səni tutan olmadı?

Dedi:

– Ay ana, nə bilim, qabağıma çıxan olmadı.

İndi bu neynədi. Getdi bir kankançı gətdi. Evdən bir yaxşı quyu qazdırdı. Elə qazdırdı ki, bilinmədi. Üsdünnən palazı-zadı saldılar, bilinmirdi. Qızıldan da xaşdadığı qədər götdü, qalanını atdı ora. Götdü qızıldan verdi mala, qoyuna.

Bunun qardaşı da kömək eləmir buna. Gedirdi, gəlirdi, deyirdi: "A qardaş, bəsdi da, uşaxlardan aralan, gəlginən qoyuna yiyə dur, mala yiyə dur. Axı belə şey olmaz". Bunu çox dannıyırdı. Bir axşam da:

– Ə, da bəsdi ey, da bəsdi. Gedirəm mən də padşahın xəzinəsinnən gətirəjəm, da sənin minnətinnən qutarajam. Məni az danna.

Dedi:

– Ə, sənin işin döylü, hər oğulun işi döylü. Gətirə bilməzsən.

Dedi:

– Gətirəjəm.

Gejə çəkişi, mıxı götdü getdi. Yazıx ana. Ana da ağlıyır. Getdi. Gördü ki, bu gedir, dedi:

– Ə, gələndə mıxı çək, götür gəl, qoyma qala.

İndi bu da gözdüyür, anası da gözdüyür. Bu gəlməmişdən qavax, keçəl qızılı aparanda xəzinədar gəldi padşaha dedi ki, qızılı oğurruyuflar. Getdilər yoxladılar, baxdılar.

– Vəzir, nətər eliyək?

Vəzir dedi ki, padşah sağ olsun, o adam kimsə bir də gələjəh. Dadandısa, gələjəh. Gəl ora bir bojqa bal qoyax, qapının ağzına, bal adamı buraxmır. Düşsün içinə, qalsın orda. Onda tapajeyih.

Balı qoymuşdular ora. Qardaşı gəldi, qapağı belə araladı, tullandı. Elə bildi qızıldı da, qızılın üsdünə düşəjəh. Düşdü bu bojqaya. Əlini belə vurdu ağzına ki, ə, baldı bu, şirindi. Bir az da yedi. İndi elə bildi çıxajax burdan. Paltarrı-zaddı düşüf bura. Nə qədər əlləşdi, burdan çıxa bilmədi. Əlacı kəsildi qaldı orda.

Qardaşı gördü savah açılır, gəlmədi. Anası dincəltmir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A bala, dur qardaşının dalınca get, savah açılır.

Durdu gəldi. Gəldi ki, mıx çalınıfdı. Tez çıxdı:

– Ə filankəs, ə filankəs.

Dedi:

– Hə.

– Ə, niyə gəlmirsən, savah açılır, görmürsən?

Dedi:

– Ə qardaş, bir bojqa bal var, düşmüşəm içinə, çıxa bilmirəm. Nə mümkün eliyirəm, çıxa bilmirəm.

Keçəl bilirdi ki, bal adamı buraxmır, bu çıxa bilməz burdan. Başın tükü varıdı, əlini atdı başının tükünnən tutdu, çəkdi bəri. Başını burdan (söyləyici boğazını göstərir – top.) kəsdi. Da indi bunun başını kəsməsə bunun anasını da öldürəjəhlər, bunu da öldürəjəhlər. Gördü ki, mümkün yoxdu da. Başsız bədəni də kim tanıyajax. Başnan tanıyıllar adamı. Başını götdü gəldi.

Savah ertə xəzinədar gəldi ki, padşah sağ olsun, başsız bədən var. Başını kəsif aparıflar, bədən qalıf orda.

– A vəzir, nətərdi?

Vəzirrih də çətin şeydi ey. Deyir ki, şah sağ olsun, gət onu yuyax təmizdiyəh, aparax çarhovuzun üsdünə qoyax. Camaat, arvatdar ordan su aparır. Taxdın üsdünə qoyax, yanına da yasoul qoyax. Yiyəsi kim olsa, nə qədər olmasa ağlıyajax. Onda onu tutsunnar.

Apardılar taxdı qoydular çarhovuzun böyrünə, meyidi də uzatdılar onun üsdünə. Keçəl hərrənirdi dana. Gördü ki, meyidi qoyuflar ora. Gəldi dedi ki, ana. Dedi:

– Hə.

Dedi:

– Ana, gədənin meyidini aparıf qoyuflar çarhovuzun üsdünə. Ana ürəyidi, bilirəm yanessən, amma bilsələr ağlıyırsan, məni də öldürəjəhlər, səni də.

Bir bardaxları vardı. Dedi ki, ana, bardağı götür get suya, camaat hamı ora suya gedir. Gedəndə qəti ağlıyıf eləmə, özünü möhkəm saxla. Get bardağı doldur, qayıdanda yolda bardağı sal sındır. Qayıt habelə bax gedəyə sarı, meyidini görəssən da, ağla. Nəçən-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

niklər səni tutanda ki, niyə ağlıyırısan, denən ay oğul, vallah, kasıb adamıx, bu bardaxnan su aparıram. Onu da saldım qırdım, su aparmağa qavımız yoxdu. Bir oğlum var, məni dannıyajax.

Bunu tutullar. Deyillər, ə, qoja arvatdı burax, bardağı qırılıf onunçün ağlıyır. Burax getsin. Çıxdı gəldi. Da bunun yiyəsi bu idi, bu da ağladı. Meyid orda qaldı, qaldı. Günnən gün vurur, küləhdən küləh vurur. Meyid başdadı iylənməyə. Vəzir dedi ki, padşah sağ olsun, meyid iylənif, iy oranı götürüf, camaat su apara bilmir. Gəl o meyidi ordan götürəh aparax bir yiyəsiz yerə qoyax.

Apardılar meşənin kənarında bir çadır tikdilər, bunu qoydular içinə. Yasoulların da birini tikdilər başına, aralıdan belə gözdüyüllər. Keçəl eşitdi ki, gedənin meyidini aparıflar. Getdi bir xotxola eşşəh aldı gətdi, bir az da daraxdan, sancaxdan, çaxırdan, araxdan. Ət bişirdi, ət götdü, yeməh götdü. İndi şəhərin içiynən gedir. Ay darağ alan, ay sancax alan. Uşaxlar-zaddar gəlir. Bu ümidvarnan ki, şəhərdən çıxsın. Getdi orda qaroul çəkənnərə çatanda dedi:

– Ə, yaxşı arağım var, yaxşı çaxırım var. Lazımız döyül?

Dedi:

– Nəyə lazımız döyül? Ajınnan qırılırıx burda. Bərdən gəl.

Getdi. Dedi:

– Keçəl, nisyə verərsənsə, ver bizə. Pulunu verəjeyih da, tanıyırıx bir-birimizi.

Dedi:

– Niyə vermirəm.

Keçəlin canınnandı ki, meyidi burdan götürsün. Tökdü bu araxdan-zaddan bunnarın qavağına. Yedilər-işdilər. Keçəl də eşşəyi bağladı çadırın ağzına. Bunnar möhkəm yedi-işdi. Gördü ə, sən öl, xorulduyullar. Biri bura aşdı, biri ora aşdı, arax bunnarı apardı. Tez durdu, eşşəyi götdü getdi. Meyidi yüklədi, bərk sarıdı. Anasına da tapşırmışdı. Eşşəyin balası qalıf evdə. Eşşəh anqıra-anqıra düz qapıya. Anası tez, ana ürəyidi da, gəldi meyidi aşdı, apardı saldı o quyuya. Bu da yıxıldı bunnarın yanına, yatdı. Savah açılanda bunun biri ayıldı. Ayılan kimi düz baxdı ki, meyid yoxdu. Bunnarı düm-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sühlədi ki, ə, durun, evinizi Allah yıxsın, padşah bizi qırajax, meyid yoxdu. Keçələ də bir təpik qoydu:

– Ə, sənin Allah evii yıxsın, gətdin bizi xataya saldın.

Keçəl də yerinnən duranda dedi:

– Mənim eşşəyimi neynəmisiz verin. Elə onnan ötəri məni çağırırdınız?

– Ayə keçəl, eşşəh nədi ey, bizi padşah qırajax.

Dedi:

– Niyə qırajax sizi?

Dedi:

– Biz burda meyid gözdüyürük.

Dedi:

– Ə, mənim meyidnən-zadnan nə işim var. Mənim eşşəyimin pulunu verin, çıxım gedim.

Bu qarouş insanı götürüf gedən olur, heylə böyük olurmuş. Deyir:

– Ə, gedin deyin iylənmiş şey idi, qarouş gəldi, götdü getdi, əlimiz çatmadı.

Elə bu keçəlin sözüynən bunnar getdi padşaha dedi, qutardılar padşahdan. Gəldi ki, ana, neynədin meyidi? Dedi:

– A bala, saldım quyuya.

Dedi:

– Hə, dəymə, qoy dursun.

İndi bu keçəldən şəhləndilər, amma tapa bilmədilər. Padşah dedi:

– Vəzir, nə tədbir görək?

Vəzir neynəsin. Dedi:

– Mən də sənin yanındayam. Bilici quşun var, bilici ceyranın var, burax, kimin qapısına getsə, ondadı da.

Buraxdılar bu quşu da, ceyranı da, gəldi keçəlin qapısına. Çatan kimi başını kəsdi, tulladı quyuya. Tapa bilmədilər. Padşahnan vəzir danışanda qızı varıdı, dedi:

– Ata, tapa bilmədin?

Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Yox, a bala, tapa bilmədim.

Dedi:

– Ata, meşə kənarında çadır tik, məni apar qoy ora. Elan yaz, vur şəhərə ki, kimin konlu mənim qızımı isdiyir, getsin yanına. Mənim yanıma gələndə mən nişana vurajam, onnan tapajam.

Helə elədilər. Padşahın qızıdı bu. Yasoullar hər tərəfini kəsif. İçəri girəni buraxıllar, çölə çıxanı buraxmıllar. Bu gəldi ki, elan yazılıf. Elanı qopartdı, əlində gətdi ki, padşah belə yazıf. Dedi:

– Ana, mən gedirəm ora.

Dedi:

– Əyə, bala, insaf elə, padşah səni öldürəjəh, yazığıx.

Dedi:

– Yox, getməsəm olmaz.

Tərpəndi getdi. Getdi ki, sən öl, cahıllar yığışıf bura, amma heş kəs yaxın gedə bilmir. Girdi qızın çadırına. Gördü üş-dörd oğlandı böyründə-başında yatışıf. Qorxusunnan kimdi qıza dəyən. Çatan kimi bu qızın işini düzəltdi. Qızın işini düzəldəndə qız bunun bığının bir tərəfini qırxdı. Qırxanda, keçəl bij olar da, bunnan aralaşdı gəldi uzandı bunnarın yanında. Əlini orasına-burasına sürtdü, gördü kü, bığının bir tərəfi yoxdu. Dedi:

– Hə, köpəh qızı, sən məni allada bilməzsən.

Durdu yatannarın hərəsinin bığının bir tərəfin vurdu. Qəfildən vururdu, elə bilirdilər milçəh yeyir. Savah qız xəbər göndərdi ki, heş kəsi buraxmasınnar, tapmışam. Yığdılar hamını, cərgəyə düzdülər, qızı gətdilər. Ə, bu, birinin bığını qırxmışdı. Baxdı ki, beş-on dənə bığı qırxıx. Dedi ki, noldu. Dedi:

– Bala, mən birinin bığını qırxmışdım, görmürsən neçə bığı qırxıx var.

Dedi ki, yox, ata, tapa bilmədim. Bilmədim, bilmədim. Gəldi dedi ki, vəzir, nə tədbir? Dedi:

– Padşah sağ olsun, köhnə qarılar olur. Bir qarı çağırax gətirəh, görəh nə deyir.

Amma keçəldən şəhləniflər, intaası sübut eliyəmillər. Qarını çağırdı, dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Qarı, bax filankəsdən şəhlənmişih, bir çarə qıl. Sənə özün ağırrıxda qızıl verəjəm, əgər tapsan. Get gör tapa bilərsənmi.

Əlini qoydu g….ün üsdünə, dedi:

– Qarı nənən saa qurvan, tapajam mən.

Dedilər:

– A qarı, ceyran da orda yoxa çıxıf, quş da orda yoxa çıxıf.

Dedi:

– Mən tapajam.

Getdi bu keçəlin anasını çağırdı: “Ay filankəs, ay filankəs”. Gəldi. Dedi:

– A bajı, sənin başına dönüm, mənim bir qızım var, bərk xəsdədi, ölümcüldü. Həkim ona ceyran əti buyuruf. Sənin də oğlun çölə-bayıra gedir da. Bəlkə ola bir tikə verəsən aparam verəm ona.

Dedi:

– Aaz, qoy görüm, gedə bir dəfə gətirmişdi.

Arvadın ağlı olmur da. Getdi bu ceyranın ətinnən bir az kəsdi, gətdi verdi bu qarıya. Elə qarı dokqazdan çıxanda keçəl gəldi.

– A qarı nənə, hardan gəlirsən?

Dedi:

– A bala, qızım naxoşdu, ceyran əti lazım idi. Gəldim anannan bir tikə aldım.

– Görüm əşi onu.

Aşdı baxdı.

– Əşi, orda nə var, bəri gəl. Onnan nolar. Gedəh çox verim.

Qarını apardı, başını kəsdi tulladı quyuya. Ha gözdədilər ki, qarı gələjəh, qarı hara gəlir.

– Vəzir nə tədbir?

Dedi:

– Padşah sağ olsun, da nə tədbir. Elan yaz vur şəhərə ki, o adam kimdisə üzə çıxsın, qızımı da verəjəm ona, toyunu da eliyəjəm.

Heylə elan yazdılar vurdular şəhərə.

Keçəl gəlirdi. Gördü ə, elan var. Getdi oxudu, gördü belə-belə yazılıf. Dedi: “Sən öl, gedif deyəjəm mənəm. Padşahın qızını alajam. Padşah elanını pozmuyajax”. Gəldi anasına dedi. Anası dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A bala, kiri, səni öldürəjəh, kiri.

Dedi:

– Yox.

Bir dəst də paltarı var idi, geydi getdi. Vəzir-vəkil yığışıf hamı ora.

– Salam məlöykü.

– Əlöykümət salam.

Dedi:

– Padşah sağ olsun, bu elanı sən yazdırmısan?

Dedi:

– Hə.

Dedi:

– O adam mənəm.

Dedi:

– O gedən şeylər səndədi?

Dedi:

– Hamısı məndədi.

Dedi:

– Vəzir, get.

Vəzir cəllatdan da bir-ikisini götdü, gəldi. Keçəl gəldi quyunun ağzını aşdı, hamısını bir-bir tulladı çölə. Baxdılar ki, hamısı bundadı. Dedi:

– Padşah sağ olsun, hamısı bundadı.

Dedi:

– Onda toyun tədarükünü görün.

Keçəlin toyunu elədi. Dedi:

– A bala, bir anandı, bir özün, damkanın içində olursan. Get, götür gəl bura ananı da, burda ol. Mən də qojalmışam, bu günsavah öləjəm, padşahlıx qalajax saa.

Bu anasını da gətirdi. Oldu bunun yeznəsi. Padşah bunu hara olsa göndərirdi.

Başqa bir padşah bu padşaha töhmət yazıf göndərdi ki, sənin boyunu yerə soxum, sənin yəhərin qannan dolsun, taxtın tarac ol-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sun, kəndində bir oğru çıxdı, onu da tapa bilmədin, axırda qızını da ona verdin.

Keçəl gəldi evə. Evə gələndə gördü qaynatasının əlində bir kağız var.

– Əşi, o nə kağızdı?

Dedi:

– Bala, filan padşah maa töhmət yazıf.

– Maa ver görüm onu.

Aldı oxudu. Dedi:

– Sən darıxma. Onu lüt gətirif çıxarajam bu camaatın içinə. Dayan sən.

Getdi yeddi qoyunun dərisinnən bir kürk tikdi. Padşahın da qızılı çox, gümüşü çox. Qızıldan, gümüşdən tükə asdırdı. Bir də bir yaxşı sandıx qayırtdırdı, iri bir sandıx. O vaxdı fayton idi, maşın-zad yoxuydu. Faytonu çağırdı, dedi:

– Məni apararsan filan padşahın evinə.

Gejə gəldi. Ürək lazımdı ey, zarafat döylü. Gejə gəldi çıxdı ki, darvazada qaroulçu var.

– A qardaş, məni buraxarsan, padşahnan işim var.

Dedi:

– Yox, gejə keçif, innən belə səni buraxa bilmərəm?

– Ə, – dedi, – beş dəyqə sözüm var, deyif gəlirəm, ala bu qızılı da qoy civə.

Kopoolun qızılı. Dedi:

– Amma tez çıx ha.

Dedi:

– Ə, bu saat çıxıram.

Getdi ki, padşah elə yatıfdı, tuman-köynəhnən nətəri, xorxahor. Kürkü yavaşcadan çıxartdı saldı çiyninə. Getdi qapını aşdı, padşahın ayağının altında durdu. Bir dəfə sirkələndi, zınqrovun səsi göyə çıxdı. Padşah yavaşcadan gözünü aşdı, gördü Azreyil kəsif bunun başının üsdünü. Dedi:

– Ya Azreyil, heş mən balalarımnan görüşməmişəm. İcazə ver balalarımnan görüşüm, sora.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedi:

– Görüşdürəjəm sizi. Düş bu sandığın içinə.

Tuman-köynəhnən düşdü sandığın içinə, ağzını örtdü. Peysər şeydi, aldı qucağına, gəldi. Qoydu faytona, gətdi. Gejə elə heylə qaldı sandığın içində. Savah ertə qaynatasına dedi ki, vəzirə denən meydana camaatı yığsın. Vəzir əmr elədi, camaat yığıldı meydana, gətdi sandığı qoydu ortaya. Dedi:

– Dur balalarınnan görüş. Deyirdin balalarımnan görüşməmişəm. Dur görüş.

Bu yavaşcadan başını belə qaldırdı:

– Ə, bura haradı?

Tanımır eləmir, camaat da yığışıf. Sandıxdan başını çıxarda bilmir.

– Ə, dur uşaxlarınnan görüş dana.

Nağarajaxdı. Başını qoyur sandığa, götürüf aparır. Buna qəşəh bir dəst paltar geyindirir. Deyir:

– Bunu sən yazmısan?

Baxır ki, bunun yazdığıdı dana. Deyir:

– Hə, mən yazmışam.

Dedi:

– A kişi, bu beləydi ki, mən qızımı buna verdim. Mümkün döyüldü. Mən qızımı verdim, amma sənin özünü tuman-köynəh gətirif çıxardıf.

Təzdənnən ona bir fayton nizamlıyıllar, yola salıllar, çıxır gedir. Deyir:

– Get, qatırçının qatırını ürkütmə.

### 38. ARVADIN ELƏSİ DƏ VAR, BELƏSİ DƏ

Bir axşam Şah Abbas Allahverdi xan vəzirə dedi ki, dur şəhəri gəzəh, şəhərdə oğurrux oluf. Durdular küçənin biriynən ağzı aşağı gəldilər, ayağa çatdılar, bir də qayıtdılar. Bir üş-dörd ev getmişdilər. Gördülər ki, bir gəlin xeylağıdı, qapıda var-gəl eliyir. Gəzir ayna-bayna. Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Vəzir, bir buna de gör bunun kişisi var bizi beyjə qonax eliyə?

Vəzir deyəndə, bu gəlin dedi ki, yox, biz qonax saxlamırıx. Budey, ağzı belə hamı kənd döyül, gedin birinin evində qalın dana. Dedi:

– Vəzir, burda bir əngəl var. Çəkil belə dala, bunu güdəh.

Bilikli adamlar idi dana. Çəkildilər bir daldaya. Gördülər ki, bunun əri gəldi. Cüt əkirmiş, qutarıf gəlif. Gəldi ulağı-zadı rahatdadı. Kişi girdi evə. Hava da bir az soyux idi. Tez apardı kişinin qavağına bir isdəkan çay qoydu bu gəlin. İçəridə dayanmır. Çıxır çölə, girir içəri. Çayı qoydu qavağına. Onda buxarı idi. Ojax buxarıda qalanırdı. Çıxdı çölə. Bunnar da baxırdılar buna. Gördülər ki, baltanı götdü əlinə, girdi kişinin təpəsinə tarap bir balta vurdu. Kişini öldürdü, sürütdədi apardı baxçada peyində basdırdı. Qayıtdı gəldi gənə qapıda başdadı gəzməyə. Dedi:

– Vəzir, dinmə, səsini içinə çək, görəh bu işin axırı nolajax.

Bir az aradan keşdi, gördülər ə, boynu yoğun bir oğlan gəldi, öz evi kimi qapıdan girdi içəri. Görüşdülər. Dedi ki, aaz, kişi yatıf, yoxsa oyaxdı?

Dedi:

– Ə, kişi nə gəzir, kişini öldürdüm getdi. Gedəh arxeyin kefimizi çəkəh.

– Aaz, nə danışırsan?

Dedi:

– Vallah, kişini öldürdüm, basdırdım.

Gedə bunnan qorxdu. Dedi:

– Yox, yox, qutardım sənnən.

Geri qayıdanda dedi:

– Ə, sənnən ötəri kişini öldürmüşəm, hara qayıdırsan. Gəl gedəh kefimizi çəkəh.

Dedi:

– Yox ey, sən öl, neynəsən getmərəm. Bu gün onu öldürən savah da məni öldürəjəh.

Getmədi. Bunu bunnar gördü. Oğlan da çıxdı getdi. Şah Abbas dedi:

– Vəzir, bu qapıya bir xaş qoy, darvazaya.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Vəzirdə hər bir şey vardı. Çıxartdı darvazaya belə bir xaş qoydu, getdilər ağzı yuxarı. Gəzə-gəzə, gəzə-gəzə getdilər, qaldılar birinin evində. Gəlinin bir az ağlı başına gələndə dedi:

– Axşam iki dərviş gəlmişdi, qonağ eləmədim. Bir çıxım qapını-bajanı gəzim, bəlkə ordadılar.

Gəlif darvazaya baxdı ki, darvazaya belə xaş qoyuflar. Dedi:

– Hə, taparsan?

Arvadın felmanınnan qaş qurtar ey. Getdi kömürü keçirtdi gətirdi. Ağzı belə on dənə darvazanı kömürnən belə xaşdadı. Gəldi yıxıldı yatdı.

Kadının belə eləməyi Şah Abbasa çox ağır getdi. Dedi ki, kadın xeylağını qoymuyajam qala, hamısını qırajam. Açıldı savah, dedi:

– Vəzir, dur get, onu götür gət.

Vəzir durdu cəlatdarı götdü gəldi. Gəldi ki, bu bir darvazaya nişan qoymuşdu, indi beş-on darvaza xaşdıdı. Hansı olduğunu tapa bilmədi, gejə idi dana. Getdi dedi:

– Şah sağ olsun, yadında, mən bir darvazaya nişan qoymuşdum, indi gör neçə darvazaya nişan qoyuluf. Tapa bilmədim.

Şah Abbas Allahverdi xan vəzirə dedi ki, mən qırx günnüh səfərə gedirəm. Dayana bilmirəm, o gəlinin hak-hesabı məni çox incidir. Mən gəlincə bu şəhərdə bir dənə kadın qoymursan. Hamısının boynunu vurursan.

Bu getdi səfərə. Vəzir qaldı məhətdəl. Bir belə adamı nətər qırdırsın? Qırdırmasa da, özünü öldürəjəhdi. Durdu cəlladı götdü, gəldi bir evə ki, beş nəfər kadın var – qojalı, cavannı, qızdı. Əmr elədi ki, bunnarın boynunu vurun. Əyə, bir şüvən qopdu, bir qiyamət qopdu, nətəri. Dedilər ki, Şah Abbas arvatdarı qırdırır. Şəhər əhli elə bil qana batdı. Vəzir dedi:

– Dəymiyin. Qoy gəlsin məni öldürsün. Bir belə milləti qırdırmaxdansa, elə mənim ölməyim yaxşıdı.

Qırdırmadı, getdi evinə. Amma Allahverdi xan vəzirin bir qoja atası vardı. Çox qoja idi. Şah Abbasın da belə bir əmri var idi ki, əyəm mən sənnən iki yaş böyüyəmsə, sən məni eşitməsən, səə cəza



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

verilǝjǝh. Heylǝ dǝ bir ǝmri varmış. Vǝzir dǝ fikirrǝşdi ki, şah gǝlǝndǝ bunu öldürǝjǝh. Elǝ ora uzanırdı üzüquyulu, bura uzanırdı.

Allahverdi xan vǝzir gündǝ bir dǝfǝ atasını yoxluyurdu. Gündǝ bir dǝfǝ gedirdi otururdu atasının yanında, halını xǝbǝr alırdı. Nǝ yemisǝn, nǝ işmisǝn, arvad yaxşımı baxır sana. Belǝ-filan danışırdı, çıxıf gǝlirdi. Gündǝ bir dǝfǝ. İndi üş gündü getmir atasının yanına. Gǝlin aparıf çörǝyini verǝndǝ dedi ki, a bala, Allahverdi xan vǝzir hanı, heş gǝlmir mǝnim yanıma.

Dedi:

– Vallah, ǝmi, Allahverdi xan vǝzir üzüquyulu qalıf. Heş nǝ çörǝh yeyir, nǝ çay içir, nǝ danışır.

Deyir:

– Niyǝ?

Deyir:

– Nǝ bilim.

Dedi:

– Get ona denǝn ki, atan sǝni çağırır.

Gǝldi dedi ki, Allahverdi, atan çağırır sǝni. Dur get, gör nǝ deyir.

Durdu getdi yanına, görüşdü elǝdi.

– A bala, gǝlin deyir ki, çörǝh yemirsǝn, üzüquyulu qalmısan. Nǝdi, noluf?

Amma bu kişi dǝ Şah Abbasın atasının vǝziri oluf ha. Çox bilǝn kişi idi. Dedi ki, ata, hal-qǝziyǝ belǝ-belǝ. Şah Abbasnan getdih, belǝ bir kadın gördüh. İndi maa da ǝmr elǝdi ki, kadınnarın boynunu vurdur. Çıxdı getdi. Mǝn dǝ getdim bir evdǝ beş kadın vardı, boynunu vurdurdum, qiyamat göyǝ çıxdı. Dedim elǝ onnansa mǝni öldürsün.

Dedi:

– Qorxma bala. Niyǝ qırırsan, Allah yaradıf onu. Şah gǝlǝndǝ denǝn atam qoymadı. Mǝni apar onun yanına, mǝn sözümü ona deyim.

Nǝysǝ, bu gah qorxdu, gah qorxmadı. Gözdǝdi. Şah Abbas faytonnan gǝlǝndǝ gördü ǝ, sǝn öl, arvatdar sǝrbǝst-sǝrbǝst dolaşır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ajığı tutdu: "Nətər bu mənim əmrimi yerinə yetirmiyif". Gəldi taxda çıxan kimi çağırtdırdı yanına.

– Sana nə demişdim?

Dedi:

– Şah Abbas sağ olsun, özün bilirsən da mənim bir qoja atam var. Qoymadı. Dedi məni apararsan şahın yanına.

Dedi:

– Get gətir görüm.

Gəldi atasını aldı qujağına, apardı. Dedi:

– Şah Abbas.

Dedi:

– Bəli.

Dedi:

– Sən bilirdin mən sənin atanın vəziri idim? Sənin də belə qanunun var ki, elə o yaxşı qanundu, kiçih böyüyü eşitməsə, ona cəza verirsən. Mən qoymamışam kadınnarı qıra. İndi mən sana bir söypət eliyəjəm. Genə kadın durur, sən durursan, qırdır da.

Dedi:

– Nətər?

Dedi ki, mən sənin atanın vəziri idim. Özüm də qəni pəhlivan idim. Mənim qolumu qatdıyan olmuyuf. Camaatı mən təmin eliyirdim da, vəzir idim. Taxılı olmuyana taxıl verdirirdim, pulu olmuyana pul verdirirdim. Nə lazımdısa, mən eliyirdim. Gejə vəzirrihdən evə gələndə gəlirdilər, kətçi camaat idi da, çağırırdılar, dərdini deyirdilər, əlac eliyirdim, gedirdilər. Genə getdim, deyir, soyundum paltarımı, çörəhdən-zaddan yedim, söykənmişdim, gördüm darvaza döyülür. Darvaza döyülən kimi durdum əbanı saldım çiynimə ki, çıxım görüm kənt camaatınnan kimdi da, niyə gəlir. Arvadım qoymadı. Dedi: "Belə hara çıxırsan. Sən paltarını geyin, xançalını qurşa belinə, mən atını yəhərriyif gətirərəm". – "Ay arvad, kənt camaatınnan olajax, qoy görüm kimdi". Dedi: "Yox". Paltarımı geyindim, deyir, xançalı vurdum belimə, çıxdım ki, arvad atı yəhərriyif gətirif. Üzəngini basdı, deyir, mindim. Arvad darvazanı aşdı, baxdım ki, bir qara paltar atın belində bir adamdı. Buna "salam məlöyküm" deyəndə, dedi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ki, nə salam məlöyküm ə, atı dalımca sür. – "Ə, mən qəni pəhlivanam, mənim qolumu kim qatdıya". Sür, sür. Sürdüm.

Getdih, deyir, şəhərdən çıxdıx. Şəhərdən çıxanda mən dedim: "Ə, mən bunun dalına düşüf hara gedirəm. Mən qəni pəhlivanam, təpəsinə bir xançal vurum, ölsün". Şah Abbas, xançalı çəkdim belimdən, aldım əlimə. Atı qamçıladım, buna çatdım, ayağımın biri üzəngidə bunun təpəsinən bir xançal. Qayıtdı maa dedi ki, əyə, yekə kişisən, adın-sanın var, vəzirsən. Niyə uşax-uşax iş tutursan? Atı dalımca sür. – "Bıy, əyə mənim xançalım buna dəymədi?" Sür, sür. Genə sürdüm.

Bir xeylağ sürənnən sora dedim, əlbət xançal yaxşı tutmuyuf dana. Bir də buna bir xançal çəkəndə mana ajıxlandı. Mana ajıxlandı ki, yekə kişisən, sana bayax dedim ki, adın-sanın var, niyə uşax iş tutursan ə, dalımca atı sürəmmirsən. "Allah sən saxla" deyif, sürdüm. Sürdüm, amma bunnan qorxdum. İki dəfə xançal çalmışam. Getdi girdi bir meşənin içinə. Dedi ki, sənin evini də tanıyıram, özünü də tanıyıram. Qaşsan səni öldürəjəm. Burda düş. Bax, mənim atımın tərkindəki qızıldı bir xurcun. Burda düş, atı da verirəm sana. Burda dur məni gözdə. Bir kora işığ gəlir meşənin içinnən. Bax, mən gedəjəm o işığ gələn yerə. Orda mənim düşmannarım var, onnan vuruşmağa gedirəm. Mana sənin səsin lazımdı. Onnar bilsin ki, mənim dalımca adam gəlir. Sənə ayrı şey demirəm. Dur burda, mənim ordan nərəm gələndə mənə səs ver. Denən gəldim, vur gəldim. Mən sənin səsinə onnarı qırajam. Getdi deyir. Bunun atını aldım saxladım. Özüm-özümə deyirəm: "Ay allah, qaçajam, yerimi bilir, yurdumu bilir. Gəlif məni öldürəjəh. Mən nətər eliyim?" Qaşmadım.

Deyir, otdum gözdədim, gözdədim, bir azdan sora gördüm bunun səsi gəldi. Buna dedim: "Vur gəldim". Bərkdən çığırdım, üş dəfə səs verdim. Durdum gözdədim. Gözdədim, gözdədim, gördüm gəlir. – İndi bunu Şah Abbasa deyir ha, fikrinnən çıxarma. Gərəh söypəti düz götürəsən. – Şah Abbas sağ olsun, gəldi çıxdı. Baxdım ki, bir xaral başdı. Kəsif yığıf xarala, gətirif. Atı mindi, maa dedi onu qaldır ver. Əlimi atdım ağzına, mənim kimi adam zornan onu qaldırdım bunun qucağına verdim. Bir xeylax gəldi meşənin içiynən, orda saxladı, dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Atı da verirəm saa, bax, bu xurcunnan da bir qızıl, halalın olsun. Bunnan sora maa lazım döyülsən.

Başı götdü, deyir, bir xaral başdı. Bu, belə çıxdı, mən gəldiyimiz yolnan getdim. Bekara dayanmışdım. Birdən ağlıma gəldi ki, əyə, mən bunnan hal almamış hara gedim. Görüm bu kimdi, nətər adamdı, niyə belə eliyir. Şah sağ olsun, atı tez bağladım ağaca, bu getdiyi yernən getdim. Getdim ki, bura qəbirstannıxdı. Bunun əmisi oğlu buna nişannı imiş. Əmisi oğlunu düşmannar öldürüf. İndi bu əmisi oğlunun qanını almax üçün kömək gətirirmiş özüynən ki, elə səsini versin, onnan qorxsun, öldürsün. Deyir, başı tökdü qavırın üsdünə. Dedi ki, əmi oğlu, qanı aldım, innən belə ölsəm, daa dərdim yoxdu. Xançalın götünü qoydu qavırın üsdünə, isdədi üsdünə yıxıla, daldan bunu yığışdırdım. Qayıtdı baxdı mana, dedi ki, niyə çıxıf getməmisən? Sənə demədim çıx get. Baxdım ki, bir arvad xeylağı. Dedim: "Ay xanım, bəs axşamnan bəri məni əsir-yesir eləmisəm, sənnən mən halı bilməmiş nətər gedim?" Dedi: "Mənim sirrimi heş kəs bilmirdi, sən bildin. İndi ixdiyarım keşdi sənin əlinə. Neyniyirsən elə". Mən deyir onu götdüm gəldim evə, mollanı gətdim kəbinini kəsdirdim. Eşidirsən, deyir. Bax, Allahverdi xan vəzir həmin arvatdandı. Heylə də arvad var, Şah Abbas sağ olsun, belə də arvad var. İndi bir-iki kadınnan ötəri sən bu milləti niyə qırdırırsan? Sən yaratmamısan axı onu.

Onun sözüynən Şah Abbas Allahverdi xan vəzirə dəymədi.

Göydən üç alma düşdü. Biri mənim, biri nağıl deyənin, biri də Musanın.

## 39. ŞAHIN SİĞƏ QARDAŞI

Bir şah olur. Şahın bir molla dosdu olur. Bunnan qabax da siğə qardaşdıx vardı. Bu molla hər gün gəlir oturur şahın yanında, yeyir-içillər. Gedəndə yerdə qalmış qır-qırığı molla yığır aparır. Vəzir-vəkil deyir:

– Ə, tədbir görməh lazımdı. Bu evi yıxılmış uyuf mollaya, surfada qalanı da molla aparır. Bizə heş-zad çatmır. Nətər eliyək bunu aradan götürək?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əncam tapıllar. Biri gəlir şahın yanına, deyir:

– Şah, savah dosdun gələjəh, siğə qardaşın. Ona bir sual ver, qırx gün də vaxt ver. Sənnən əl çəkmir, gejələr də qoymur səni yatmağa.

Deyir:

– Nə deyim?

Deyir:

– Ona de ki, mənim bədənimdə nə qədər qan var? Bu bir. İkinci, mənim dərim neçəyə dəyər? Üçüncü, mənim ağlım nə qədərdi?

Molla gəlir. Oturullar, yeyillər, içillər. Molla duruf gedəndə şah deyir:

– Dayan. Qardaşdıx öz yerində. Saa üş sualım var.

Deyir:

– Buyur.

Hal-qəziyəni deyir. Molla deyir:

– Əşi, o hasantdı.

Otuz dokquz gün nə qədər münəccim, baxıcı olur soruşur, heş kim bu suallara cavab tapmır. Kim bilir kimin bədənində nə qədər qan var? Otuz dokquzuncu gün yadına düşür ki, Kerş dağının dalında çoban dosdu var. Gedif onnan da vidalaşım, savah boynum vurulajax.

Çoban baxır ki, molla gəlir. Həmişə əmmaməni qaldırıf segah deyə-deyə gəlirdi, indi məyus halda gəlir. Gəlir buna salam verir. Çoban buna sual verir, deyir:

– Molla, mənim çomağımın topbuzu nə boydadı?

Deyir:

– Üç kilo.

Deyir:

– Ə, mən ölmüşəm ki, sən belə qəm dəryasına batmısan.

Deyir:

– Yox ey, qardaş, bu vida ayrı vidadı.

Deyir:

– Nə vidadı?

Deyir:

– Hal-qəziyə belə-belə.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Elə yaxşı ki gəlmisən. Get mənim övrətimə de, bir yaxşı aş dəmləsin. Axşam gəlim, oturax, yeyəh-içəh, savah dur get.

İndi bu əminamannığı bəyənmirih ey, qurvan olum. Bunnan qavax hamı yerdə otururdu. Surfa salınıf çörəh ortalığa gələndə molla tez ayağa qalxır, əlini atır çörəyə. Çoban tutur, deyir:

– Əyə, dayan. Qoy sözümü deyim sora.

Deyir:

– Qardaş, öz evində məni niyə qoymursan çörəh yeyəm?

Deyir:

– Qoy sözümü deyim sora. And iç bu duza, bu surfaya, çörəyə ki, nə desən əməl eliyəjəm.

And içir ki, nə desən əməl eliyəjəm. Yeyillər, içillər. Savah duruf molla paltarını geyinif gedəndə çoban qabağını kəsir, deyir:

– Ə, dayan.

Deyir:

– Nədi?

Deyir:

– Paltarı soyun.

Bunun paltarını soyunduruf. Çoban mollanın paltarını geyinir, molla çobanın. Molla gedir qoyun otarmağa, çoban gəlir saraya.

Əgər Ələmşah* dayıynan mənim aramda bir balaca giley var-sa, bir-birmizin gözünün içinə baxammarıx. Şah da başını dikif aşağı, çoban duruf qabağında.

– Molla, gəldin?

Deyir:

– Bəli.

Deyir:

– Mənim bədənimdə nə qədər qan var?

Bunnan qabax da mis dolçalar olurdu. Deyir:

– Qibleyi-aləm sağ olsun, sənin bədənində iki bu dolça qədər qan var. Bir qram artıx olsa vur boynumu.

– Sübut eliyə bilərsən?

---

* Söhbətə qulaq asan şəxs



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:
– Bəli.
– Nətər sübut eliyəssən?
Deyir:
– Şahım, icazə ver ülgücü gətirsinnər, burdan damarını kəsəjəm, tutajam içinə. Əgər artıx olsa, vur boynumu.
Vəzir-vəkil dümsüklüyür, deyir:
– Evin yıxılsın, denən düzdü.
Deyir:
– Yaxşı, bə mənim dərim neçəyə dəyər?
Deyir:
– Qibleyi-aləm sağ olsun, sənin dərinin qiyməti bir abbasıdı.
Sənətsiz sübutsuz qulu neynillər. Şah deyir:
– Sübut eliyə bilərsənmi?
Deyir:
– Bəli.
Deyir:
– Nətəri?
Deyir:
– İcazə ver noxdanı salım başına, səni çəkim qul bazarına. Əgər bir abbasıdan artıx versələr, vur boynumu.
Gənə bunnar deyir:
– Düzdü de.
Deyir:
– Düz tapdın. Bə üçüncü, mənim ağlım.
Deyir:
– Qibleyi-aləm sağ olsun, kolların içində belə balaja kolbitdiyanı olur ey, bax sənin ağlın onun ağlınnan azdı.
– Sübut.
Deyir:
– Ə, nə sübut? Evin yıxılsın, sən çobannan mollanı tanımırsan, özün də deyirsən mənim ağlım nə qədərdi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 40. TACİR BƏHLUL

Bəhlul Danəndənin bir qardaşı vardı Bağdadi-Xəlifə, padşah idi. Bu Bəhlul da qarğıdan at minirdi, nə bilim nə söylüyürdü, danışırdı, ona əysihlih gəlirdi. İki tacir alverə gedirdi. Padşah çağırdı yannarına. Dedi ki, ə, bu Bəhlulu da özünüznən aparın, tanımadığınız bir şəhərdə qoyun, gəlin. Daa bu mənim canımı xirtdəyimə yığıf. Xəjalət çəkməhdən ölürəm. – Amma xəjalət də döyüldü ey, Bəhlul düz danışırdı, savatdı idi. – Bəhlula deyir ki, ə, Bəhlul, bu tacirrərnən sən də get da. Axşamatan burda bekar-bekar gəzirsən. Get sən də satdığını sat, al gətir. Bəhlulun da ağlına batır, deyir:

– Qardaş, get deyirsən gedim, amma mən un aparajam.

Üyütdü, hazırratdı, yeddi qatır yükü unu hazırratdı. Tacirrər gedəndə Bəhlulu da apardılar. Getdilər, nejə bizim bu asfalta çıxan yolumuz kimi yolnan gedirdilər. Bir meşə vardı, meşənin də o üzü dərya idi. Xeylağ getmişdilər. Üş-dörd gün yol getmişdilər. Tacirrərdən birinə dedi ki, biz qayıdanda bu yolu qayıdajeyih? – İndi hara getdiyini hələ bilmir də. – Dedilər: "Hə, senterni yer buradı. Kim hardan gəlsə bu yola çıxajax, burdan gedəjəh". Yavaşcadan qatırrarı qaytardı meşəyə, dedi:

– Onda siz gedin, harda satırsınız satın, alın gəlin. Mən alverimi burda eliyəjəm, sizi də gözdüyəjəm.

Dedilər:

– Ə, Bəhlul, burda nə var? Şəhər yox, kənd yox. Quleybani yerdi.

Dedi ki, o sizə qalmıyıf. Mən sizə deyirəm hara gedif hardan gəlirsiniz? İntaası gələndə məni də burdan götürüf gedərsiniz. Qatırrarı qaytardı, yükünü aldı. Bunnarın da biri dedi ki, ə, gəlin çıxıf gedəh ey, cəhənnəmə getsin. Getmir getməsin, duruf ona yalvarmıyajayıx.

Onnar getdi, bu qaldı burda. Aşdı qatırrarın yükünü. Allahdı dana. Gətdi nağardı. Bu unnarın bir-bir ağzını aşdı, xamır elədi, tökdü dəryaya. Balıxlar yedi. Balıxlar az qaldı çölə çıxa. Tökürdü, qayırırdı, tökürdü, burdan yeyirdilər. Bir gün getdilər balıxlar pad-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

şahının yanına. Dedilər ki, bir oğlandı orda bizi yaman yedirdir. Da başımızdan yuxarı yeməh verif.

Balıxlar padşahı deyir:

– Siz ona nə verirsiniz?

Deyir:

– Vallah, bizim nəyimiz var nə verək ona.

Deyir:

– Madam heylədi, heylədi. Siz də xəzinədən adama bir qızıl götürün aparın, balıx çox, qızıl çox, tulluyun çölə, qoy onu götürsün.

Balıxlar heylə elədi. Qızıldan gətdilər. Bəhlul gördü ki, balıx qızıl tulluyur çölə. Götdü qızıldan bir az komalıyannan sorasına ağlına gəldi ki, bunu mənim yanımda gəlif görən olsa, məni öldürüf əlimdən alar, yaxud tacirrər bilsə, gənə məni öldürəllər də. Gətdi bu malın peyininnən yığdı, balaca-balaca koka qayırdı, hərəsinin içinə bir-iki dənə ləl qoydu. Sərdi günün qabağına, qurutdu, yığdı meşoğa. Gətdihləri meşoğun hamısını heylə təzəhnən doldurdu, hərəsinin içinə iki ləl qoydu. Bir də gördü ki, tacirrər gəlir. Görüşdülər elədilər.

– Ə Bəhlul, noldu, niyə qaldın burda? Nağardın, nə iş gördün?

Dedi:

– Alver elədim dana, nə iş görəjəm.

– Ə, burda alver var? Nə alver elədin? Nə aldın?

Dedi:

– Təzəhdi.

– Ə, – dedi, – sən öl, şah bizi biyabır elijəh, apar tök, neynirsən onu. Təzəh tapılmır orda?

– Ə, – dedi, – nə dərdinizə qalıf? Sizə deyirəm nə alıf nə gətirifsiniz? Mənim də alverim belə tutuf dana.

Qatırrarı yüklədilər, düşdülər yola, gəldilər. Hava soyux idi, yolda bular üşüdü. Həm də çörəh yeyəjeydilər. Dedi:

– Bəhlul, təzəhdən gətir bir ojax qalıyax, elə çörəh də qızdırax yeyəh, həm də qızınax.

Dedi:

– Ay qardaş, mənim alverimdi, onu pay verə bilərəmmi?

Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə, orda o qədərdi, meşoxnan yığıf gətirif verəjəm saa dana.

Dedi:

– Yox, onda gəlin daqavorraşax.

Götürdü yazdı ki, filankəsə iki təzəh verdim, filankəsə iki təzəh verdim. Qol çəkdirdi bulara. Qaladılar, çörəh qızdırdılar. Yedilər elədilər, qızındılar. İçində qızıl var idi dana. Təzəh yandı, qızıl töküldü ora. Bunu da götdü Bəhlul. Onnar bilmirdi axı. Bəhlul götdü bunu da. Getdilər. Aralandılar, hər kəs öz evinə getdi. İndi Bəhlul da getdi.

Bayaxdan qardaşı axı bunu azdırmağa göndərif. Bağdadi-Xəlifə gördü ki, budu, Bəhlul gəlir.

– Ə qardaş, nədi alverin?

Dedi:

– Təzəhdi.

– Ə, – dedi, – Allah səni biyabır eləsin. Camaat gedir al-qumaş alır gətirir. Təzəyi neynirsən ə, buralarda yoxdu təzəh?

– Ə, – dedi, – sənin nə dərdinə qalıf ey. Mən də heylə alver eliyirəm. Atamızın evinin birini ver mana, mən alverimi yığım ora.

– Ə, – dedi, – apar tök çölə, heş kəs görməsin.

– Ə, – dedi, – hara töküm çölə. Atamın evinin birini maa ver da, nolar.

Nəysə, birini verdi buna, bu təzəyi yığdı bura. Üş günnən sora tacirrər gəlirdi, padşahın daxodunu verirdi. Tacirrər gələndə bu da təzəyin birini götdü getdi. Dedi ki, qardaş, bunnar mana hərəsi iki təzəh boşdudu. Onu hesabladax, pulumu versinnər. Qardaşı da bunu təpihliyir ki, ə, çıx get ayna, düzü-dünya təzəhnən dolu döylü? Təzəyi belə qıranda ləlin ikisi sıçradı düşdü yerə. Baxdılar ki, iki ləl var burda. Dedi:

– Qardaş mənim təzəyim bu təzəhdəndi. Hərəsinin içində iki ləl var. Dörd dənə ləl vermişəm bulara. Çağır hesablat gör neçə eliyir.

Bu ləl qiymatdı ləl idi, dəryada olan ləl idi. Çağırdılar zərgəri, qiymat qoydu. Tacirrərin bu dəfə elədihləri alverin hamısını padşah aldı verdi Bəhlula. Ləl heylə qiymatdı ləl imiş. Həm də padşah gördü ki, bu təzəyin içi ləldi.

– Ə Bəhlul, bunu nətər elədin?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedi:

– A qardaş, onu heylə eləməsəm, bunnar məni öldürüf əlimdən alardılar. Amma göründə təzəhdi, heş kəs bir söz demir.

Ordan padşahın üzü gülür. Bu yeddi qatırın yükü ləldi. Onnan sora Bəhlulu çox isdiyir.

## 41. DÜNYANI NECƏ TUTSAN, ELƏ DƏ GEDƏR

Vəzir Allahverdi xannan Şah Abbas çıxıllar şəhəri gəzməyə. Bu yemiş-qarpızın da nubar vaxdıymış. Burda Fatma qarı adında bir arvad olur, çox kasıb olur. Bunun bir dənə yetkin oğlu olur. Bu oğlan çıxır ki, görüm bir iş tapa bilərəmmi, axşama çörəh tədarükü görüm.

Nəysə, gəlif çıxır bazara. Gedir bazarkomun yanına. Deyir ki, ay oğul, xeyir ola, nə üçün gəlmisən, mənim üçün qulluğun? Deyir ki, vallah, çörəh dalınca gəlmişəm. İşim yoxdu, iş axtarıram. Deyir ki, bizdə bir süpürgəçilihdi. Sənin şəxsiyyətinə onu qıymaram. Deyir ki, a kişi, ajınnan ölürəm, mana çörəh pulu lazımdı. Nə iş verirsənsə, razıyam. Deyir ki, onda özün rəva bilirsənsə, bazarın bax bu hissəsindəki tükannarı verirəm sənin ixdiyarına. Başda təmizdə, işdət.

Bazarkom görür ki, bu, bazarın bu tərəfini bir səliqəyə saldı, tükannarın içinə qədər hər şeyi öz yerinə qoydu. Gələn camaat da səliqəli yerə gedir alverə. Bir müddət işdiyənnən sora deyir:

– Oğul, görürəm çox səliqəli, işgüzar, qoçax adamsan. Ona görə səni burdakı işçilərin böyüyü təyin eliyirəm bu günnən. Get süpürtdür, təmizdət, səliqəyə saldır, işdət.

Bu minvalnan bu, kefi kök işdiyir. Ayda da bunun pulu puldu.

Həmən bu ərəfədə Şah oğlu Şah Abbasnan Vəzir Allahverdi xan gəlir. Bu da, baxma kasıb olduğuna, talantdı oğlanmış. Burdan baxır ki, bazarın ayağına iki adam gəldi. Biri dayandı orda, biri gəldi, bazarı gəzir. Şah Abbas buna deyir ki, get gör münasib qiymətə varsa, nübardı da, yemişdən, qarpızdan al gətir, tam eliyək.

Nəysə, bu gəlir bazarı fırranır, qayıdır. Bu oğlanın gözü elə bunnardadı. – Bilirsən varrı-hallı adamın paltarı kirri olsa da, işığı üzə çıxır da. – Bu çağırır işçiləri, deyir:

– Ora bir qabağ isdolu aparın, oturacağ isdolu aparın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Meyvələrin də hamısınnan yığdırır badnosa, deyir:

– Aparın qoyun ora.

Nəysə, bular gələn tamnan yeyillər, çay içillər. Bunun biri civinnən bir dənə kağız çıxardır, nəsə yazır, qol çəkir, peçat vurur qoyur civinə. Durullar rəvan olullar yola getməyə. Bu, civinnən bu kağızı çıxardır tulluyur yerə. Oğlan gedir götürür, qoyur civinə. Baxır ki, yazılıf dünyanı nətər tutsan, heylə də gedər. Qoyur civinə, səhər gəlir bazarın müdirinin yanına. Deyir:

– Ağa, icazə ver, mənim səfərim var, gedəjəm səfərə.

Deyir:

– Ay oğul, bu bazarı qaydaya salan sənsən. Səfər nədi? Pulun azdı, puluu artırım, nə cür şərayit deyirsən düzəldim, getmə.

Deyir:

– Ağa, icazə ver, mənim səfərim var, gedəjəm.

Bu çox dəlil-dəlalət eliyir, amma oğlan fikrinnən dönmür. Deyir:

– Pul nə qədər isdiyirsən verim, qayıdanda da öz yerindi, gəlif işdiyərsən.

Bunun pulu çoxmuş. Pulu götürüf gedir dərzinin yanına. Deyir:

– Maa şaha layağ paltar hazırrıyırsan.

Deyir:

– Baş üsdə.

Burdan keçir ilxıçının yanına, buna deyir:

– Maa bir dənə elə at seçirsən şaha layağ olsun.

İlxıçı da atı gətirir gösdərir. Sora gedir yəhər fərracının yanına ki, bu ata görə elə bir yəhər bağlıyırsan ki, şaha layağ.

Hər şeyi tamam-dəsgah eliyənnən sora üz tutuf gedir. Bu vilayətdən çıxıf başqa vilayətə gedir. Bir dənə şahın yağı qoruğunun içinnən papağın yan qoyuf gedirmiş. Padşah külafirəngidən baxır ki, ayə, bura quş da səkmir, yağı qoruğun içində bu kimdi belə, heş nəyə məhəl qoymadan gəzir.

Nəysə, bu pəhlivannar da burda səhər-səhər məşq eliyirmiş. Bunnarın başçılarını çağırır. Deyir ki, adam göndər gör o kimdi, onu tutsun gətsin bura. Pəhlivanın birini göndərillər. İndi nə ədəbnən bunu danışdırırsa, qollarını bağlıyır uzandırır ora. Görüllər bu gəlmədi,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ikincini göndərillər. Bu da gedir ki, qolu bağlı uzanıf ora. Bu da nə deyir onu bilmirəm. Oğlan bunun da qollarını bağlıyır, yıxır onun yanına. Nəysə, beşi gedir, qayıtmır. Axırda pəhlivannarın şefini göndərir. Bu gəlir görür ki, qolu bağlı beşi də uzanıf ora. Baxır ki, həqiqi şahyana şəxsdi. Qıraxda durur, daa yaxın getmir. Ədəbnən salam verir. Deyir ki, şah sizi qonax çağırır.

Deyir:

– Get, gələrəm.

Bu qayıdır gedir. Gözdüyüllər, bu yavaş-yavaş gəlir durur, ədəbnən salam verir. Atdan düşür, atı yönnəşdirillər. Aparıllar yemək-işmək otağına. Şahın da bir dənə qızı varmış, yetkin vaxdı imiş. Bu oğlan bağda çarhovuzun başında gəzəndə qızın gözü bunu alır. Qız gəlir anasının yanına. Deyir:

– Ana, oğlan kimdi?

Deyir:

– Bilmirəm, qonaxdı.

Deyir:

– Məni o oğlana verməsəniz özümü öldürəjəm.

Deyir:

– Aaz, etmə, eləmə. Kim bilir, yolnan gedənin biridi. Nətər ola bilər şahın qızı vurulsun buna.

Deyir:

– Uzun danışma ey, get, atama denən ya məni o oğlana verməlidi, ya özümü öldürməliyəm.

Atası da deyir ki, mən onnan söypət eləməmişəm. Nahardan sora söypət eliyərəm. Günorta naharınnan sora başdıyıllar söypətə. Deyir ki, ay oğul, ataların sözüdü, yol gedəndə də birinin adını soruşmax lazımdı ki, kimsən, haralısan. İndi danışmax qəbaxət olmasın, de görüm kimsən, haralısan, nə gəzirsən? Deyir ki, mən Şah oğlu Şah Abbasın oğluyam. Çıxmışam dünya səyahətinə. Qız da ayağını burdan diriyif. Günorta arvad deyir:

– A kişi, qız özünü öldürür. Nətər oldu?

Deyir ki, oğlan deyir mən Şah oğlu Şah Abbasın oğluyam, çıxmışam dünya səyahətinə. Gəzirəm, görüm nə var, nə yox. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A kişi, onda bizimkini də Allah özü yetirif da. Sən də qojalmısan. Şah Abbas da əhəmiyyətdi şahdı. Daa bunnan böyüh sən kimi taparsan?

Bir müddət oğlan burda qalannan sora qırx gün-qırx gejə toy vurdurullar. Üç il keçənnən sora deyir ki, şah baba, icazə ver mən öz məmləkətimə getməliyəm.

Deyir:

– Nolar. Bir halda ki, Şah Abbasın oğlusan, ona qasid göndərim, o da xəbərdar olsun, qoşunnan, qəflə-qatırnan çıxsın sərhədə, səni qarşılasın.

Deyir:

– Nolar.

Qasid gətirir məktubu verir. Şah Abbas oxuyur ki, oğlun ayın on beşində gəlir öz məmləkətinə, onu qarşılayın. Məktubu oxuyur çox fikrə gedir. Arvad deyir:

– A kişi, nə fikrə getdin?

Deyir ki, mana bir məktub gəlif. Yazılıf ki, oğlun gəlir, onu təmtəraxlı qarşılamalısan. Deyir ki, ayrı yerdə arvadın var? Deyir ki, yoxdu. Deyir:

– Əməlli fikirrəş, ola bilər qonax qalarsan, ayrı yerdən arvad alarsan. Mahvidə qalar, indi böyüh oğlan oluf gəlif səni axtarmağa.

Deyir:

– Yox, heylə şey yoxdu.

Deyir:

– Bir halda ki, o şah yazıf, sən də şah oğlu kimi qarşıla.

Gəcavələr bəzənir, qoşun, qəflə-qatır çıxır sərhədə. Bunu şah oğlu kimi qarşılıyıllar. Qırx gün-qırx gejə də burda toy vurdurur. Bir müddət qalannan sora deyir ki, oğul, de görüm bu nə sirrdi? Mənim axı ayrı vilayətdə oğlum yoxdu. Amma sən yazmısan ki, oğlu qəbul elə. Həmən kağızı çıxardır qoyur Şah Abbasın qabağına. Baxır ki, öz peçatı, öz möhürü, öz imzası ki, dünyanı nətər tutsan, heylə də gedər. Oğlan deyir:

– Mən də o mövqeyi boşdadım bu mövqeyi tutdum. İndi kef sənindi. Bu mən, bu da sən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Arvad deyir ki, oğul, elə sən ki o qeyrətin, cəsarətin sahibisən... Köynəyinnən keçirdir deyir:

– Birinci oğlum sən oldun. Elə şahın da oğlusan, mənim də oğlumsan. Burda da şahsan.

Bu minvalnan bular başdıyır burda yaşamağa.

## 42. TALEYİNDƏN NARAZI OĞLAN

Günnərin bir günündə bir dənə uşax varmış. Gündə meşədən bir şələ odun aparıf satırmış, iyirmi qəpih alırmış. Onu da gətirif çörəyə verif dolanırmış. Ay gəlir, gün keçir, bu böyüyür on altı yaşı olur. Deyir: "Çıxım yolun kənarına, deyillər Musa peyğəmbər Turi-Sənaya gedir. Ordan da mənim bu ərzi-halımı söyləsin Allah-talaya ki, indiyətən bir abbası alırdım, dolanırdım. Amma indi aylə qurmax isdiyirəm, vəziyyətim çox tələb eliyir. Allah-talaya desin, görəh havaxdatan mən bir abbası qazanajam?"

Yolun kənarında durmuşmuş. Görür Musa peyğəmbər gəlir. Deyir:

– Oğul, xeyir ola.

Deyir ki, ya Musa, canım saa fəda olsun, Allah-talaya bir ərzim var, onu da söylə. Deyir ki, buyur, oğul. Deyir ki, indiyətən bir şələ odun aparıf bir abbasıya verif dolanırdım. Amma indi evlənməh, aylə qurmax vaxdı gəlir. O mənim imkanımı ödəmir. Bunu sən ərz eliyərsən.

Vaxt olur Musa peyğəmbər qayıdır. Oğlan da gözdüyürmüş. Görür ki, Musa peyğəmbər gəlir. Deyir ki, ya Musa, canım saa fəda olsun, söylədinmi? Deyir:

– Bəli söylədim.

Dedi:

– Nə oldu?

Deyir ki, Allah-tala buyurdu ki, onun on qəpiyini kəsdim. Deyir:

– Allah saa şükür.

Nəysə, gedir meşəyə umudsuz. Bir şələ çırpını götürür bazara aparır. Bir kişi çağırır bunu:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A bala, bəri gəl görüm.

Gəlir. Deyir ki, bu zənbilləri filan adresə apara bilərsənmi?

Deyir:

– Niyə aparmıram, elə o mənim vəzifəmdi.

Çıxardır əlli qəpih də buna verir ki, apar bu zənbilləri ver o darvazaya. Arvada da de ki, axşama tədarük görsün, qonaxlarımız olajax.

Arvad deyir ki, a bala, qapını-bajanı sahmana sala bilərsənmi?

Deyir:

– Niyə salmıram, mənim vəzifəm odu.

Məhlənin içini, çölünü gül kimi təmizdiyir. Bir maat da arvad verir buna. Deyir ki, a bala, görürəm səliqəli adamsan, bizim yaxşı qonaxlarımız olajax. Onnara yeməh-içməh tədarük eliyə bilərsənmi?

Deyir:

– Əşi, o nə sözdü. O mənim vəzifəmdi.

Gətirir buna bir dəst qastyum verir, tuman-köynəh verir, göndərir hamama. Deyir:

– Yuyun, geyin gəl, o bişmişdəri qonaxlara payla.

Axşam şəhərin tacirrəri yığışır bura. Bu da tacirbaşının evi olur. Yeyillər, içillər. Dəmlənənnən sora deyillər:

– Ay tacirbaşı, de görəh bu səliqəli oğlan sənin nəyindi?

Deyir:

– Bu mənim qardaşım oğludu, amma bu şəhərdə olmur. İndi qonax gəlif bura.

Deyir:

– Bu gözəllihdə, bu qabiliyyətdə oğlan, özü də qardaşın oğlu. Sənin də yetkin qızın var. Biz məsləhət görürük ki, elə qızı verəsən buna, sən də qojalmısan, sənin işdərini idarə eliyə.

Kişi səyf buraxdığını başa düşür. Deyir:

– Qoy çıxım bir məslahat eliyim, gəlim.

Deyir ki, arvad, dilimnən belə bir səyf qaçırmışam. Deyir:

– Nə oluf?

Deyir:

– Qonaxlar soruşdular ki, bu kimdi. Dedim qardaşım oğludu, ayrı şəhərdə olur, qonax gəlif.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedi ki, demisən, demisən, dilinnən çıxıf. Get denən Allah xeyir versin. Siz deyən sözə mən nə deyirəm?

Gəlif deyir ki, bir halda ki, bir işi siz məsləhət görürsünüz, Allah xeyir versin.

O yerdə tacirin biri deyir: "Filan yerdə bir maqazini içi dolu malnan bağışdadım sənin təzə yeznənə". Deməli, neçə tacir varmış hərəsi bir tükan bunun yeznəsinə padarka elədi.

Musa peyğımbər bir vaxt görür ki, bu çırpı satan oğlanda bir dəm var, bir dəsgah var. Bu oğlan şəhərdə uje bir nömrəli adamdı. Bir də Allah-talanın yanına gedəndə deyir ki, canım sizə fəda olsun. Sizdə mən yalan görməmişəm. Bu nə hak-hesabdı? Deyir ki, bizdə yalan olmaz. Amma o uşağ on altı yaşa gələnə qədər bir dəfə "Allah, saa şükür" deməmişdi. Şükür onun dilinə gəlməmişdi. Bir dəfə on qəpiyini kəsdim, onda dedi ki, Allah saa şükür, nə yaxşı hamısını kəsmədi. Tacir buna əlli qəpih verəndə genə dedi ki, Allah saa şükür. Tacirin arvadı bir maat verəndə genə dedi: "Allah saa şükür". Ona görə hər şeyi bağışdadım ona.

İndi şükür eləmək yaxşı şeydi. İnsannar var altında üş yüz min maatlıx maşını, özü villaların içində itir, pulunun hesabını bilmir, həyatdan da narazıdı. İki gözün baxır, iki əlin sağdı, iki ayağın sağdı, normal yaşıyırsan, şükür elə da. Atalar deyir: "Yaxşı günün qədri pis gündə bilinir". Pis günə düşmüyüncə bilmirsən yaxşı gün nədi.

## 43. YAZIYA POZU YOXDU

Gənə söypət eliyillər ki, bir günü Şah Abbas çıxır bir üş-dörd illik gəzməyə. Gəlif bir kəntdə qalır. Baxır o evə, görür ki, yaxşı evdi. Gəlir bu evə:

– A qardaş, bizi Allah qonağı eliyin dana, dərviş babayıx.

Heş kim bunnarı saxlamır. Gəlir bir kasıf evə. Görür qapıda bir kişi var.

– Salam məlöykü.

– Əlöykümət salam.

Deyir ki, Allah qonağı saxlıyarsan bizi? Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Vallah, Allaha da qurvan olum, onun qonağına da. İş burdadır ki, sizdən də üzr isdiyirəm, mənim yoldaşım hamilədi, yükünü yerə qoyajax. Bir dənə də evdi, ikinci ev yoxdu.

Deyir:

– Ə, elə üçümüz də seyvanda yatarıx dana.

Şah Abbas yornuğ idi, girən kimi yatır, çörəhdən-zaddan yeyif yatır. Vəzir Allahverdi xan fikirrəşir dünyanın qayğısını. Görür içəridən arvad səsi gəldi. Bir nəfər kişi içəri girməh isdiyəndə bu əl atır bunun abasınnan tutur.

– Sən hara gedirsən, orda zahı qadın var, ora kişi heylağı girməz.

Nəysə, bu məjburi girir içəri. Deyir:

– Ə, bu nətər olan şeydi axı, burda zahı qadın var, bu niyə girdi bura.

Özünü cəmliyir, deyir:

– Sən öl, bunu buraxmaram. Hara buraxıram ə, onu.

Bu çölə çıxanda tutur bunu möhkəm abasınnan, deyir:

– Sən kimsən ey, o kadının yanına niyə girdin? Axı kişi xelağı ora girməli döyül.

Deyir:

– A kişi, burax məni.

Deyir:

– Yox ey, buraxmıyajam.

Deyir ki, mən insannarın taleyini yazıram. Deyir:

– Arvadın nəyi oldu?

Deyir ki, kadının oğlu oldu, şahın da bu gejə həmən vaxdı bir qızı oldu. Bunun taleyini yazdım şahın qızına.

Bu yatır, səhər yeməh-işməhdən sora bular gedillər. Yol gedəndə vəzir Allahverdi xan dedi ki, şah, bilirsən nə var? Dedi:

– Yox.

Dedi:

– Sənin bir qızın oldu.

Dedi:

– Ə, sən nə bilirsən? Üç aylıx, dörd aylıx yoldu. Sən nə bilirsən ki, mənim qızım oldu?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Bildim.

– Ə, nədən bildin?

Deyir:

– Sənin qızın oldu, ev yiyəsinin də oğlu oldu. Sənin qızının taleyini yazdı bax bu oğlana.

– Ə, mən onu pozaram. O nədi ə, onu pozaram. Qayıdax ora.

Qayıdıf deyir:

– Qardaş, görürəm aylən çoxdu, çox uşağın var, bu gejə də biri olufdu. O uşağı ver, dərviş babayam, onu mən yaxşı dolandırajam. Bu qədər də saa pul verirəm.

Pul şirin şeydi. Pulu verir, bunu alır. Götürüllər gəlillər. Bir dərin meşədən keçəndə bu, bələyi atır. Deyir:

– Hə, indi yazdı, onu elə pozdum ki nətəri.

Nəysə, uşax düşür bir canavarın yuvasının ağzına. Hansı ki bu canavarın da körpə balaları olur. Canavar görür ki, səs gəlir. Baxır ki, insandı. Gətirir bunu yemliyir, böyüdür. Vəşi uşax olur. Bu canavar ova gedəndə bu da qoşulur canavarın balalarına. Çox dolanıllar.

Bir çoban olur, el çobanı. Bunun da züryəti olmur. Bir gün görür ki, bir dəsdə canavar hücum elədi qoyun sürüsünə. Qoyun sürüsünə hücum eliyən kimi başdıyır səs-küy eliyir, uşağı karıxdırıf tutur. Gətirir, arvadına deyir:

– Ay arvad, Allah-tala bizimkini yetirifdi. Evladımız yoxuydu, amma Allah-tala bizə evlad verdi.

Deyir:

– A kişi, başqa adamın uşağı olar?

Dedi:

– Yox ey, mən canavarrarın içinnən tutmuşam. Başqa adamın uşağının canavarın içində nə işi var?

Bunu saxlıyır, böyüdür. Bu yavaş-yavaş böyüyür ədəbli, mərifətdi uşağ olur. Hansı evdə ki məclis olur, o məclisdə xidmət eləməh üçün bu uşağı aparıllar.

Bir günü Şah Abbas vəzir Allahverdi xannan dərviş libasında gəlif kəntdən keçəndə görüllər ki, bir məclis var. Bular da keçir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

məclisə. Baxıllar ki, ortada bir uşağ adamlara qulluğ eliyir. Çay verir, çörəh verir. Kimə nə lazımdı onu paylıyır. Vəzir Allahverdi xan Şah Abbasın qoluna vurur. Deyir:

– Onu tanıyırsan?

Deyir:

– Yox.

Deyir:

– Həmən o uşaxdı ey bu.

Deyir:

– Ə, nə danışırsan? O uşağı indi vəşi heyvannar yedi.

Deyir:

– Həmən uşağdı.

Nəysə, soraxlıya-soraxlıya bu kimin uşağıdı, deyillər çobanın. Çobanı çağırtdırır yanına. Deyir:

– Dərviş babayam, mənim sözümün ovsanatı olur. Eşitmişəm bir oğlun var. Bu sənindi?

Deyir:

– Hə, mənim oğlumdu.

– Axı eşitmişəm sənin uşağın-züryətin olmuyuf.

Deyir:

– Vallah, Allahdan gizdin deyil, sizdən nə gizdədim. Bəs belə bir hadisə oluf.

Deyir:

– Mənim Şah Abbasa bir məktubum var. Ala bu qədər nağd pul verim, onu aparsın. Şah Abbas da ona pul verəjəh, qayıdanda saa versin.

Pul şirin şeydi. Deyir:

– Yaxşı.

Bir də belə bir haşiyə çıxım. Süleyman peyğəmbərin atası Davud peyğəmbər şikayətə baxırdı. İki qadın girir içəri, bir uşağı gətirillər. O kadın deyir ki, mənimdi, bu kadın deyir ki, mənimdi. Davud peyğəmbər isdiyir izah eliyə, Süleyman peyğəmbər dayanammır. Deyir:

– Ata, icazə ver mən təyin eliyim uşağ kimindi.

Deyif:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Elə.

Uşağı biləyinnən tutuf qalxızır. Belə qılıncı qalxızır göyə ki, guya bunu vurajaxdı. Qılıncı qalxızanda ananın ürəyi gedir, doğma ananın. Axı qanı qanınnandı. Ayılanda deyir ki, mən isdəmirəm, verin o qadına. O qadınnan uşağı alır verir öz anasına.

İndi bunun da öz uşağı deyil. Saxlıyırsa da, atalığ yanımı yoxdu. Deyir, əşi, bu qədər pul verəjəh, orda Şah Abbas da bu qədər pul verəjəh. Göndərir. Bu məktuf yazır ki, çatan kimi bu uşağın boynunu vurdur. Məktubu verir ki, bunu apar ikinci vəzirə verərsən.

Nəysə, oğlan götürür məktubu gedir. Təsadüfən çıxır Şah Abbasın bağına. Yorulmuşmuş, çarhovuzun başında uzanır. Uzanan kimi yuxuya gedir. Şah Abbasın qızı da gəzməyə çıxıf. Görür kü, çarhovuzun başında bir nəfər cavan oğlan yatıf. Buna bənd olur. Baxır ki, bunun papağı düşüf, yanında da bir məktufdu. Baxır ki, atasının məktubudu. Atası yazıf Qara vəzirə ki, bu adam ora çatan kimi bunu iki şakqa eliyərsən, mənim darvazamnan asarsan. Qız oğlana bənd olur, gətirir məktubu dəyişdirir. Deyir ki, bu oğlan ora çatan kimi mənim qızımı verərsiniz ona, toy eliyərsiniz.

Nəysə, gətirir verir vəzirə. Vəzir oxuyan kimi deyir şahın hökmüdü. Qızda da peçat varmış. Biri Şah Abbasda idi, biri qızda. Qız məktubu atasının xətdiynən yazıf möhürü də basıf. Qara vəzir oxuyan kimi məhətdəl qalır.

– A bala, bunu saa kim verif?

Deyir:

– Şah Abbas.

Nəysə, məjbur olur toyu eliyir.

Bunnar gəzillər. Beş-altı aydan sora gələndə şəhərə elan vurullar ki, Şah Abbas şəhərə daxil olur, onu qarşılamax lazımdı. Çıxıllar Şah Abbası qarşılamağa. Vəzir Allahverdi xan baxır ki, Şah Abbasın qızı da gəlir, həmən oğlan da bunun yanında. Deyir:

– Şah, görürsən, uje toy oluf, sənin qızın onun yoldaşıdı.

Deyir:

– Nə danışırsan?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Vallah hə.

Gəlir örgənir ki, həqiqətən də Şah Abbasın qızı ona gedif. Vəzir Allahverdi xan deyir ki, yazıya pozu yoxdu. Şah Abbas deyir ki, mən səyf eləmişəm, Allahın hökmünə qarışmışam.

## 44. AĞILLI QIZ

İki padşah olur. Bu padşahın alimləri o biri padşahın alimlərinə üç sual verillər. Deyillər sizin alimlər desin görəh dünyada ən yüyrəh nədi? İkinci, həyatda cannılar içərisində ən qüvvətdi nədi? Üçüncü, həyatda ən şirin şey nədi? Bu sualı verillər, bular cavab tapa bilmillər. Tapa bilmiyəndə padşah öz vəzirini çağırır, deyir:

– Vəzir, sənə qırx gün möhlət verirəm. Bu suallara cavab tapdın tapdın, tapmadın, səni birtəəri eliyəjəm. O padşahnan da müharibə eləməh fikrində deyiləm.

Vəzir qalır çıxılmaz vəziyyətdə. Baş götürür gedir bu suallara cavab tapmağa. Gedəndə bir alaçığın qabağınnan yolu düşür. Alaçığın qabağınnan keçəndə alaçığdan on üç-on beş yaşında bir şəxsiyyətdi qız uşağı çıxır. Bu qız uşağı vəziri dəvət eliyir evə. Vəzir girir evə, görür qızdan başqa heş kəs yoxdu. Deyir:

– Ay bala, atan hara gedif?

Deyir:

– Atam gedif dosdu düşman eləməyə.

– Anan hara gedif?

– Anam da gedif biri iki eləməyə.

– Sən özün nə iş görürsən?

Deyif:

– Mən də ikini bir eliyirəm.

Deyif:

– Deyirsən atam gedif dosdu düşman eləməyə, o nə deməkdi?

Deyir:

– Birinə borş verif, gedif alıf gətirəjəh, olajax düşman.

Deyir:

– Bir də deyirsən anam da biri iki eliyir. O nə deməkdi?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Anam hamilədi. Gedif abşerka yanına, azad eliyəjəh, olajax iki.

Deyir:

– Bə sən də deyirsən ki, mən ikini bir eliyirəm. O nə deməkdi?

Deyir:

– İki cırıx corabı bir-birinə yamıyıram, olur bir.

Belə deyəndə vəzirin qırışığı açılır. Deyir: “Bu qız kəllədi, bu, sullara cavab tapajax”. Deyif:

– Bala, saa onda mən üş sual verirəm. De görüm dünyada ən yüyrək nədi?

Deyif ki, fikirdi, xəyaldı, otduğun yerdə dünyanı hərriyif gətirirsən yana. Deyir:

– Cannılar içində ən qüvvətdisi nədi? Üçüncü, həyatda ən şirin şey nədi?

Deyir:

– Ən qüvvətdi şey atdı.

Deyir:

– O nəyə?

Deyir:

– Anam cəhrəni qoyur həyətdə, at o yannan gələndə tıpıltısı çatmamış cəhrə yerində dingildiyir. Həyatda ən şirin şey ağır zəhmətdən sora gələn yuxudu.

Elə bunnan da razılaşıflar, heş bir dava olmuyuf.

## 45. ŞAHIN YUXUSU

Bir kişi olur. Evində kasıflıx olur, ayləsini dolandıra bilmir. Çox fikirri imiş. Arvad da bunun üzünü çox dannıyırmış ki, evin tikilsin, camaatın kişilərinnən dala qalmısan sən, bir şey qazana bilmirsən. Buların da yaxınnığında İlannı dərə deyilən yer varmış, ilannar padşahı da burda yaşıyırmış. Kişi də canınnan bezir, deyir:

– Ə, sən öl, gedəjəm düz bu ilannar padşahının yanına, o məni çalsın, canım bu arvadın da əlinnən qutarsın.

Elə bu dəkqədə çapar gəlir:

– Ay haray, ay haray.

– Ə, noluf?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Şah deyir ki, yuxu görmüşəm, bir yuxu yozan gətirin.

Kişi deyir ki, aha, tapdım. Sən öl, gedif yalannan-palannan bunun yuxusunu yozajam, görəh nətər olur. Çapara dedi ki, sən get, mən gəlirəm. Durdu bu İlannı dərəynən gəlirdi. Gördü bir dənə kahanın qavağında bir ilandı, qalxıb quyruğunun üsdə, buna tamaşa eliyir. Dedi:

– Ə, nə baxırsan?

Dedi ki, baxıram görüm hara gedirsən. Dedi:

– Gedirəm şah yuxu görüb, onun yuxusunu yozam.

Dedi:

– Nə cür yozassan?

Dedi:

– Ə, nə bilim, ağlıma gələni danışajam.

Dedi:

– A bədbaxt, elə orda da boynunu vurajax. Şah sənə deyəjəh mən yuxuda nə görmüşəm? Sən onda ona denən ki, ay şah, sən yuxuda görmüsən ki, ətrafın canavara dönüb. Ehtiyatdı ol, sui-qəsçilər hazırraşıf səni öldürməlidi. Canını qutarmax üçün ehtiyatını əldən vermə. O yuxunu görüb, ged onu deginən, amma nə alsan, kişisən, yarı böləjeyih.

– Əyə, sən öl, hamısını saa gətirəjəm.

Düzəldi yola. Getdi şahın yanına. Şah dedi ki, ə, sən yuxunu yoza bilirsən? Dedi:

– Hə.

Dedi:

– Nə görmüşəm yuxuda?

Dedi:

– Belə-belə.

Şah belə baxdı, baxdı, dedi:

– Ə, gedin iki dənə dəvəni yüklüyün, əlinizə nə gəlir, xələt-mələt, pul-para, yüklüyün verin bunun yedəyinə, aparsın. Sən öl, bu elə bil ki, şıxdı. Hər şeyi dəqiq dedi. Buna mühafizəçilər-zaddar.

Dedi:

– Heş nə lazım döylü. Maa bir dənə ağaşdan-zaddan verin, əlimə alım, dəvənin ovsarınnan tutum gedim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dəvənin ovsarınnan tutdu, gəldi. Dərəyə yaxınnaşanda dəvəni bağladı bir ağaca, dedi:

– Ə, gedim onnan hesabı çəkim, ona verdiyim bir dəvənin yükünü on il yeyəjəh uşaxlar.

Yaxınnaşanda gördü ilan gənə duruf, aralıdan buna tamaşa eliyir. Bunun da belində xançalı vardı, beyqəfildən xançalını çıxardanda ilan özünü verdi içəri. İlan özünü içəri verəndə bu xançalı atdı, xançal ilanın quyruğunu yaraladı.

Nəysə, bu xançalı götdü, dəvələri aldı yedəyinə, getdi. Getdi evə. Arvad dedi:

– Ə, kişi qazaşdan gəlir.

Töküldülər. Əşi, bunu gətir, onu götür. Bir müddət keşdi. Bir müddətdən sora şah adam göndərdi ki, yuxu görmüşəm, denən bura gəlsin. Bu durdu dedi ki, vay evi yıxılan canım, ilanı da vuruf yaralamışam. İndi mən nağarmalıyam? Sən öl, gedirəm ilanın yanına, deyəm, ə, məni çal, elə qoy yuvanın ağzında ölüm. Da bir də o şahın yanına getmiyin.

Bu gəldi. İlan çıxıf durufmuş, baxırdı buna. Gəldi belə keşdi, buna sarı yaxınnaşdı. Belə keşdi, belə keşdi. İlan dedi:

– Ə bilirəm, niyə şırmanırsan? Get ona denən ki, yuxuda görmüsən ki, göydən tülkü yağır. Ətrafın tülkü fason adamlarnan dolufdu. Sana yaltaxlanıllar, sana yalan sözdər deyillər, elə bilirsən ki, bular ayrı aləmdi. Özünü qoru olardan.

Gəldi kişi bunu deyəndə padşah dedi:

– Əyə, halal olsun buna. Əyə, gedin dörd dəvə yüklüyün, xəzinədən də qızıldan-zaddan buna xurcun tutun, verin aparsın. Bu mənim sağ əlimdi.

Bu dəfə gənə də dəvənin ovsarınnan tutuf gəlirdi. Dağın o biri tərəfinnən gəlirdi fikirrəşə-fikirrəşə: “Əyə, başın varsa, neynirəm bu dəvənin ikisinin yükünü aparım ilana verim. Elə dördünü də özüm aparım istifadə eliyim də. Heş ilanın da gözünə görükmüyüm. Elə bu dərəynən hərrənim gedim girim evə”. Belə də elədi. Apardı yükü boşaltdı. Bəy-xan kefində dolanırdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ara bir xeylax keşdi, şah bunu bir də çağırdı. Dedi ki, deyin gəlsin bura, gənə yuxu görmüşəm. Dedi:

– Hə, da bu sondu.

Gəldi ilanın yanına. İlan dedi ki, bilirəm niyə gəlmisən. Get denən ki, sən gördün kü, yuxuda göydən qoyun yağır. İnsannar qoyun kimidi, hamı sakitdəşif. Qurd qoyunnan otduyan devrdi. Heş nədən çəkinəcəyin olmasın, qorxma daa, şahlığını elə.

Gəldi bunu deyəndə dedi:

– Ə, gedin altı dəvə yüklüyün, altısının da verin ovsarını bunun yedəyinə, aparsın evinə. Bu mənim sağ əlimdi.

Nəysə, dəvələri aldı yedəyinə, gəldi. Fikirrəşə-fikirrəşə gəlirdi. Dedi:

– Ə, altı dəvə aparıf böyüh sərvət sahibi olmuşam. Ölkədə ikinci şəxsəm. Məni xayişə aparan kim, məclisə çağıran kim. Bütün buları o ilanın sayəsində qazanmışam. Sən öl, bu altı dəvənin altısını da aparajam onun yanına, deyəjəm, qardaş, halal-xoşun olsun. Altısını mən xarşdamışam, altısı da sənindi.

Belə də elədi. Gəldi dəvə yedəyində, altısını da cərgəynən ilanın yuvasının ağzına düzdü. İlan çıxdı, dedi:

– Ə, niyə gəlmisən?

Dedi ki, qardaş, özünə agahdı hər şey. Altı dəvə mən aparmışam, altı dəvə də saa gətirmişəm. Ala, halal-xoşun olsun. Dedi:

– Ay Allahın ağılsız bəndəsi, o altı dəvə mənim nəyimə lazımdı, onun üsdündəki mənim nəyimə lazımdı? Maa Allah-tala bu torpağı urza verif, bunu yalıyıf dolanıram, ömrümü başa vururam. Mana nə lazımdı qızıl-gümüş, pul-para? O sana dediyim yuxular devranın yuxularıydı. Canavar yağır deyəndə sən özün canavara dönmüşdün. Sən də o burulğandeydin. Xançalı atdın, quyruğumu yaraladın. Tülkünü dedim, sən də tülküyə döndün, oraynan xəlvət getdin. İndi qoyunu demişəm, sən də qoyun kimi gəlif boynunu bükmüsən yanımda, altı dəvəni təklif eliyirsən. Ə, yeri, götür get, apar ver balaların xaşdasın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 46. ÇOBANIN MƏNASIZ SÖZÜ

Rütbəli adamlar həmişə axtarışda olullar, maraxlı adamlar axtarıllar. Şah Abbas vəziri göndərir ki, adam tap gətir, elə bir şey danışsın ki, mənim üçün mənasız olsun. Vəzir deyif:

– Əşi, mən hara gedim, nətər gedim?

Deyif:

– Tap gətir. Gətirməsən, mənim üçün onun danışdığı mənasız olmasa, sənin boynunu vurdurajam.

Vəzir fikirrəşir ki, hamının dərdi var. Kimi tapıf gətirsə, elə bir şey danışajax ki, bunun bir tərəfi gəlif söykənəjəx ölkənin probleminə, bunun öz probleminə.

Bir gün fikirri-fikirri gedirmiş, görür bir dənə çoban çubuğu yontalıyır. Çoban buna deyir:

– Niyə bekaf gəzirsən?

Deyir:

– Vallah, padşah maa belə bir söz deyif, qalmışam belə. Bu dağda bir sənsən, bir mən. Qoy elə dərdimi saa deyim. Padşah maa deyif ki, elə bir adam tap gətir ki, danışığı mənim üçün mənasız olsun.

Deyir:

– Ə, orda nə var ki, məni apar.

Çubuğu qoyur qoltuğuna. Deyir:

– Ə, mənasız olmasa, sən öl, mənim boynumu vurajax ey.

Qoyunu təhvil verir bir adama, yığıllar arxaca, gəlillər saraya. Şah Abbas vəzirə baxır, çobana baxır, deyir:

– Ə, bunu gətirmisən? Bu nə danışajax?

Deyir:

– Nə bilim vallah, nə danışajax burda danışajax.

Vəzir deyif:

– Buyur danış.

Deyir:

– Saa bir sual verə bilərəm, padşah? De görüm sən dütdəh çala bilirsən?

Padşah deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə, bunnan ötrü gəlmisən? Dütdək çalmağın mənim üçün nə mənası var?

Çubuğu qoltuğunnan çıxardır, deyir:

– Sənin üçün mənası yoxdu, amma mən çoban adamam, mənim üçün bunu çalmax mənalıdı. Neçə ildi əlləşirəm, elə hey düzəldirəm qarğıdan-qamışdan, üfürürəm, alınmır. Saa mənasız söz lazım deyil?

Padşah barmağını dişdiyir, deyir:

– Doğrudan da, bu mənim üçün mənasız sözdü. Mən dütdəyi çalsam da, çalmasam da, bu ölkəni mən idarə eliyirəm. Aparın ona qızıl verin, bir yaxşı da dütdək verin, aparın örgədin onu.

## 47. ƏDALƏTLİ QAZI

Bir gün Şah Abbas camaatın vəziyyətini örgənməh üçün durur dərvişlibas oluf kəndbəkənd, şəhərbəşəhər gəzir. Gəlir çıxır bir şəhərə. Qazının oturacağının yanında oturur. Dərvişdi, buna kim nə deyə bilər? O vaxdı dərvişdər müqəddəs adam oluf. Bu oturmaxda olsun, bu şəhərin də böyüh hasarı varmış. Gejə hasardan çöldə kim qalırmışsa, onu vəşi heyvannar yeyirmiş. Bir kişi də öz arvadıynan şəhərə gəlir. Görür yolda səs gəlir. Baxır ki, bir invalit kişidi. Deyir ki, yazıxdı, bunu götürəh aparax şəhərə, şəhərdə düşürəh da, qurd-quş yeməsin. Bunu mindirillər ulağın belinə. Gəlillər girillər şəhərə. Bu qazının idarəsinin qavağınnan keçəndə deyir:

– A dayı, biz başqa səmtə gedirih.

Deyir:

– Nətər?

Deyir:

– Düş da ulaxdan.

Deyir:

– Mən şikəstəm, bunnan yaşıyıram, mənim ulağımı da əlimdən alırsan?

Deyir:

– A qardaş, axı sən qalmışdın orda, səni qurt-quş yeməsin deyə ulağa mindirdim gətdim bura.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Yox.

Səsə-küyə idarədən qazı bir adam göndərir. Gəlillər bunu aparıllar. Bular içəri girəndə görüllər ki, bir dənə qəssabdı, bir də bir qoluzorru adamdı. Qəssabın sinəsində döşdüyü var, burda civi. Qəssab deyir:

– Ay qazı, bu mənim əlimnən pulumu almax isdiyir, güjüm çatmır.

Deyir:

– Otur.

Bir az keçənnən sora görüllər ki, bir çobandı, bir də bir qız uşağıdı, tutuf əlinnən gətirir. Bir də bir məəllimdi. Çoban deyir ki, qız mənimdi, məəllim də deyir yox, mənim qızımdı. Deyir:

– Yaxşı, aparın.

Qəssaba deyir ki, ə qardaş, pul sənindi? Deyir:

– Hə.

Deyir:

– Bir qazan isdi su gətirin.

Onda da dəmir pul idi da hamısı. Bir qazan isdi su gətirillər. Qolugüjdüyə deyir ki, sənin civində pulun var? Deyir:

– Hə.

Deyir:

– Sən pulu qoy bura.

Qəssaba deyir:

– Sən də qoy bura.

Bir qazan isdi su gətirillər. Qəssabın pulunu töküllər suya, görüllər suyun üsdü yağ oldu. Bunun da pulunu tökür, görür bunda yağ işarası yoxdu. Deyir:

– Ə, get, belə işnən qazanmax olmaz. O pul qəssabındı. Çünki pulu verəndə əli yağlı-yağlı alıf atıf ora.

Məəllim deyir ki, mənim qızımdı, çoban deyir ki, mənim qızımdı. Siz görməzsiniz, qabaxda yun daramax üçün dəmirdişdi daraxlar olurdu. Arvatdar qoyurdu onu dizinin altına, yunu onnan darıyırdılar. Tez deyir bura darax gətirin, bir də pıtraxlı yun gətirin, bir etajerka da kitab gətirin. Gətirillər. Etajerkanı qoyur ora, qıza deyir:

– A qızım, bu yunu dara da.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qız əlini pıtrağa vuranda pıtrax da çox tikannı olur, bunun əlinə batır. Qəsdən kitab rəfini itəliyir yıxır. Kitablar dağılır. Deyir:

– A qızım, a qızım, bunu yerinə yığmağa kömək elə.

Görür ki, qız durur, məsələn, Nizaminin, Füzulinin əsərlərini, filan əsərləri böyür-böyürə yığır. Cəllada deyir:

– Çobana beş-on dənə vurun, yola salın, qız məəllimindi. Görürsən o əlini pıtrağa vura bilmədi. Çünki o örgənmiyif. Amma çobanın öz qızı olsaydı, pıtrağı diliynən də təmizdiyərdi.

Şah Abbas da burda qulax asır dərviş libasında. Deyir:

– Nə qəşəh adil adamlar var ey mənim məmləkətimdə. Xalqın qaydına qalan, xalqın tərəfini saxlıyan yaxşı adamlar var.

Nəysə, qalır bu qoja kişi. Bu ulax sahibinnən bu qoja kişini aparıf hərəsini bir otağa salıllar, hərəsinin də qapısına bir dənə nəzarətçi qoyullar. Deyillər:

– Qulağ as, kim nə danışsa, onu deyərsən bizə.

Səhər açılır, qazı gəlir oturur yerində. Şah Abbas da gəlir ki, görüm bunu nətər həll eliyəjəh. Qapıda durannan xəbər alır ki, nə eşitdin. Deyir:

– Arvad dedi ki, Allah boynunu qırsın, eşşəh idi, isdədi, isdədi, verəydin da. İndi namusum da əldən gedir. Sübut eliyə bilmirsən ki, arvad sənindi. Qoja da deyir ki, bir şərdi da, atmışam. Ya eşşəh qalajax mana, ya da arvad.

Qazı eşşəh sahibinə deyir ki, bunu nətər oldu gətdin. Deyir:

– Vallah, bilirsən də, şəhərdən kənarda kim qalırsa, onu vəşi heyvannar yeyir. Bunu da vəşi heyvannar yeməsin deyə mənim yazığım gəldi, dedim aparım, şəhərə gedər bir yerdə daldalanar. İndi üzdən irağ, uzunqulağı yox, deyir ki, arvad da mənimdi.

Buna da bir-iki kötəh vuruf yola salır. Onnan sora Şah Abbas deyir ki, mən özüm yaxşıyam ki, mənim vilayətimdə olan insannar da camaata yaxşı xidmət eliyillər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 48. AĞSAQQAL MƏSLƏHƏTİ*

Rüstəm kişi vardı, yüz iyirmi il yaşamışdı. O deyirdi ki, ay bala, bu yaşdı adamlar duruf kəndin arasına çıxa bilmir, xeyrə-şərə gedə bilmir. Heç oları gedif ziyarət edirsinizmi? Gedin olarnan söypət edin. Həm onnarın könlü xoş olar, həm də onnarın dediyi söz, verdiyi məsləhət sizə gərək olar. Buna misal olaraq da belə bir hadisəni danışdı.

Deyir, bizim kimi qoja bir kişi ova gedər dağa. Keçimi, əlihmi atar, heyvan yaralı qaçar. Bu da bunun dalıncan qaça-qaça gedər. Dağ yeridi də, çətin yerrəri olur. Bu bunun dalınca həvəsnən yüyürə-yüyürə gedir. Ov da yaralı heyvandı, yıxılır, bunu tutur. Ətinnən isdədiyi qədər götürür, qayıdıf gəlir. Bayax bu çətin yerdən, uçurumlu qayadan yüyürə-yüyürə keçif. İndi gəlif çatıf bura. Booy. Aşağı baxıf, uçurum. Burdan ayağım sürüşsə, iki yüz metr gedəjəm, məhv olajam. Keçə bilmir, gejəni qalır burda.

Kənd camaatı tökülür ki, əyə, filankəs gedif ova, gəlmiyif. O hara gedirdi? Həmişə onun gedəcəyi yol, misalçün, Boyəhəmətdinin filan meşəsiynən gedirdi, ora da yol burdandı. Gedif axtarıllar. Görüllər ki, tüfəng də yanında, oturuf çətin keçələtin o tərəfində.

– Əşi, niyə gəlif oturmusan burda? Beyjə savahatan camaat yatmıyıfdı. Dur keş bəri.

Deyif:

– Yox, keçə bilmərəm, qorxuram.

– Əşi, bax, yüyürə-yüyürə cavannar o üzə keçir, bəri üzə keçir. Sən də gəl.

Belə baxır, deyir:

– Yox ey, keçə bilmərəm.

Nə qədər eliyillər, keşmir. Gəlillər kəndə. – “Biz neyniyəh?” – “Ə, filankəs kişi var ey, yüz neçə yaşı var, gedəh bir onnan məsləhət eliyək, görək o bizə nə mələhət görür ki, bunu keçirək bəri üzə”. Gedif deyillər:

---

* Bu mətn Bərdə rayonunun Boyəhmədli kəndindən toplanıb.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Baba, bəs filankəs kişi ova gedifdi, gəlif indi keşdiyi yerdən keçə bilmir, qorxur. Bax, yığışmışıx ora, səhərdən yalvarırıx, əlinnən də tuturux, nağarırıx deyir yox ey, elə mən burdan uçuf öləjəm.

Deyif:

– Hə, onu keçirməyə nə var, a bala.

Deyir:

– Nətər keçirəh?

Deyir:

– Gedin bir dəsdə gözəl-göyçəh qız-gəlin götürün, bir dəsdə də zurna-balaban. Gedin həmin iki metr yerdi də, bəri üzdə zurna-balaban çalsın, qızdar-gəlinnər də oynasın. Ə, oğul deyilsən, keş bəri dana, keş oynuyax. Gör o keçəjəh, keşmiyəjəh.

Belə nətər həvəslənifsə gejəni orda gejəliyən kişi yüyürə-yüyürə gəlif bu qızdarın, gəlinnərin yanına.

## 49. DÖYÜLƏN AXMAQ

Bir arvadın, üzr isdiyirəm, oynaşı olur. Kişi də buna imkan vermir ki, vaxt tapıb bunnan görüşə bilsin. Günorta vaxdıymış, bazar da yaxınmış. Gəlir evə, görür heş nə yoxdu yeməyə, heş nə hazırranmıyıf. Arvada deyir ki, aaz, günorta vaxtıdı, nətər yanı yeməh, çörəh-zad yoxdu. Deyir ki, ə, yeməyi nədə hazırrıyıllar?

Deyir:

– Nətər yanı nədə hazırrıyıllar?

Deyir:

– Qazanımız deşilif, – arvad özü qəsdən deşif ha, – budey ha, deşilif, içində heş nə qalmır. Sən də gəlmirsən ki, səni göndərəm bazardan heç olmasa bir qazan alasan.

Deyir

– Ə, gedim alım gəlim də.

Gedir, ara yaxınmış dana, bir saat çəkmir qazanı alır gəlir. Arvad görür tez gəldi. Deyir ki, ə, aldın gətdin?

Deyir:

– Hə.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Onun duzunu örgəndin?

Deyir:

– Nə duzunu?

Deyir:

– Onun pişmişinə satıcıdan örgənərdin nə qədər duz tökülür?

Bu bir də qayıdır bazara ki, qazan satannan örgənsin ki, bu qazanın tutumu nədi, nə qədər duz tökülür. Qazan satan da görür ki, bu ağıldan vayennidi. Deyir:

– Ə, səy oğlu səy, ya bir belə, ya bir belə (söyləyici əvvəl bir ovcunu, sonra iki ovcunu göstərir – top.).

İndi bu da yadınnan çıxmaması üçün arvad soruşajax axı nə qədər, əlini belə eliyir, "ya bir belə, ya bir belə" deyə-deyə gəlirmiş. Bir nəfər də taxılı döyür. Xırmanın qırağında oturuf deyir:

– Ay Allah, mənim urzamı verginən, özün urza verənsən.

Görür ə, bir adam gəlir, deyir, "ya bir belə, ya bir belə". Bu adam deyir ki, sən öl, bu kopoğlu mənim bu taxılımın bərəkətinə deyir, ya bir belə olajax, ya bir belə. Durur "tfu" deyir ağaca, düşür bunun canına.

– Ə qardaş, məni niyə döyürsən, bax nağarıram?

Deyir:

– Ə, sən maa deyirsən ki, sənin taxılının bərəkəti ya bir belə olsun, ya bir belə olsun.

Deyir:

– Ayə, mən bə nə deyim, nətər deyim?

Daa qazanın duzu yadınnan çıxır. İndi bunun sözü qalır bunun yadında ki, ə, bə nə deyim.

– Ə, getdin gördün ki, belə bir vəziyyət yaranıf, denən Allah bərəkət versin, biri min olsun, daha da çox olsun.

İndi bu dəfə gəlir ki, bir ölü düşüf, camahat hamı ağlaşır. Deyir:

– Ə, biri min olsun, başınıza belə şeylər tez-tez gəlsin.

Kişi örgətdiyi fason bu sözdəri deyəndə düşüllər bunun canına, bunu möhkəm çırpıllar. Deyir:

– Ə, bəs nə deyim?

Deyillər:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə, sən gördün ki, belə bir yer var, denən görüf-görəcəyiniz bu olsun, son qəminiz olsun.

Bu gəlir toya, gənə bunu döyüllər. Deyir ki, ə, yaxşı, mən nağayrım, nə deyim? Deyir:

– Ə, gördün belə bir şey var, deynən bir yaxşı hava çal, mən də oynuyum.

Qolunu qaldırır bir belədən-belə süzür, belədən-belə süzür. Bir xam at örgədirmişdər. Gəlir bunun yanına çatanda qolunu qaldırır, at belindəkini də çırpır yerə. Bunu bir də möhkəm çırpıllar. Deyir:

– Ə, bəs mən nə deyim?

Deyir:

– Ə, gördün ki, belə bir xam at örgədillər, bir qırıx göy ot yolginən, püşö-püşö eləginən.

Bir qoja kişi də mənim kimi şələni alıf dalına, indi yoruluf-muş, oturufmuş bir arxın qırağında, dincini alırmış. Görür bir adam ayannan bəri gəlir. Tez bir çəngə ot yolur, bu kişiyə yaxınnaşanda başdıyır püşö-püşö eləməyə. Kişi durur bunu çırpır.

– Ə, mən nəyəm ki, sən mana püşö-püşö deyirsən.

Deyir:

– Evin tikilsin, mana başa sal, mənim başıma bu qəzalar gəlif.

Deyir:

– Ə, qəza bullardan gəlmiyif sana, evinnən gəlif. Evin yıxılsın, evinə tez get, gör nə var. Ordan gəlifdi qəza, sənin burdakı başına gələn qəzalar elə-belə şeydi.

## 50. QUYRUĞU YOX İDİ

Bir kişi olur. Gedir birinnən borc pul alır. Bu da nainsaf olur. Deyir ki, mən saa pulu bu şərtə verirəm: vədəsində qaytarmasan sənin ətinnən bir qıram kəsəjəm. Deyir yaxşı. Vədə tamam olur, deyir:

– Ver da.

Deyir:

– Vallah yoxumdu.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Onda gedəjeyih qazıya şikayətə.

Düşüllər yola, gəlillər səhraya. Görür biri deyir:

– Ay qardaş, sən Allah, o dəvənin qabağını kəsin.

Borc alan yerdən bir təzəh götürür atır, dəvənin bir gözü çıxır.

– Ə, mənim dəvəmi kor elədin. Gedəjəm qazıya şikayətə.

Nəysə, bu da qoşulur qazının yanına, gedillər. Yolda görüllər bir kişinin, üzdən irağ, uzunqulağı batıf.

– Ə qardaş, maa kömək elə bunu burdan çıxardax.

Heş biri əl atmır. Bu boşdu əl atır ki, eşşəyin quyruğunnan tuta qalxıza, ulağın quyruğu əlində gəlir.

Gəlillər gejə bir kəndə düşüllər. Yayın gejəsi imiş. Bunnar bir məhlədə yatıllar, o biri məhlədə də bir aylə yatırmış. Gejə hamının yatmasınnan istifadə eliyif borc alan barıdan aşır ki, qaça. Barının divində də bir qadın yatmışmış, özü də həmli imiş. Barıdan aşanda düşür qadının üsdünə. Qadın uşağ xərc eliyir. Qadının əri də düşür bunun üsdünə. Bu da qoşulur bulara, gəlillər qazıya şikayətə.

Borc alanı arxada qoymullar ki, qaçıf eliyər da. Bunu qabağa buraxıllar ki, get qazının yanına. – Bu sözü yazma ey (söyləyici toplayıcıya deyir – top.). – Bu, içəri girəndə görür ki, qazının yanında bir qadın var. Bu, tez çölə çıxır:

– Ə, qazı lələ namaz qılır, ə, qazı lələ namaz qılır.

Camaatı dala çəkir, qoymur içəri girməyə. Qazı yanındakını yola salannan sora deyir:

– Kimdi şikayətçilər?

Bunu qabaxca itəliyillər. Girir içəri. Deyir:

– Ə, nədi?

Sifdə borc pul verən deyir ki, qazı lələ, bu mənnən borc alıf. Dedi ki, filan tarixdə qaytarajam. Razılaşdıx. Mən dedim ki, vaxdında qaytarmasan, pul almıyajam, amma sənin bədəninnən bir misqal ət kəsəjəm.

Deyir:

– Razılaşdı?

Deyir:

– Razılaşdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Nolar. Sən onun qolunnan, qılçasınnan, budunnan, hardansa bir misqal ət kəs. Demiyif bir misqal, tut hardan kəsirsənsə kəs. Tərəziyə qoyuf kəsəjeyih, ya artıx, ya əysih olsa, üç misqal sənin ətinnən kəsiləjəh.

Bu qalır məhətdəl. Qazı ikinciyə üz tutur, deyir:

– Sənin şikayətin nədi?

Deyir:

– Əşi, mənim dəvəm qaçırdı. Dedim dəvənin qabağına durun, qoymuyun qaça. Götdü bir daş atdı. Dəydi dəvənin gözünü kor elədi.

Dedi:

– Paho, paho. Ə, sən bu kişini nə qədər günaha batırmısan. Ona görə də sənin gözünün biri çıxmalıdı.

– Əşi, mənim niyə?

Deyir:

– Bu yolnan gedirdi?

Deyir:

– Hə.

– Sən dedin da dəvənin qabağına dur.

Deyir:

– Hə.

– Bu da daş atdı, dəvənin gözü çıxdı. Günaha batdı. İndi gərəh sənin gözünün biri çıxsın ki, bunun günahı bir az yüngülləşə.

Bu arvad sahibi çox atılıf düşür. Deyir:

– Ə, dərdini de görüm.

Deyir ki, qazı lələ, vallah, Allahdan gizdin deyil, bəndədən niyə gizdin olsun. Mənim yoldaşım həmli idi, bu da qonşu məhlədə yatıfdı. Gejə qaşmax isdiyəndə yıxılıf arvadın üsdünə, arvad usax xərc eliyif.

Deyir:

– Ayə, lap yaxşı. Arvadı bu günnən verərsən ona. Arvad gedər qalar onun yanında. Neçə aylığ idi?

Deyir:

– Yeddi aylığ.

– Uşağın yeddi ayı tamam olanda gətirif verər özünə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Eşşəh sahibi görür ki, bunun hamısını tərsinə yozur. Qazı bunnan soruşanda sənin şikayətin nədi, deyir:

– Qazı lələ, mənim heş bir şikayətim yoxdu. Mənim uzunqulağımın anadangəlmə quyruğu yox idi.

## 51. SAĞALMAZ XƏSTƏLİYƏ TUTULMUŞ ADAM

Bir şəxsi gəldi Loğmanın yanına. Loğman başını qaldırdı ki, bu, bunnarın kəndçisi filankəsdi. Dedi:

– Qardaş, dayan.

Dedi:

– Nədi?

Dedi:

– Məndə sənin müalicən yoxdu. Üş günün qalıf, üş günnən sora sən dünyaynan vidalaşırsan. Ged uşağının içinə, halallaş, çıx get.

O adam çox pis təsirləndi. Bilirdilər ki, Loğman bildiyini deyir, bilmədiyini demir. Durdu bunun dokqazınnan çıxanda fikirrəşdi, dedi:

– Ə, gedif bu üş günü uşağa, ayləyə bu zülümü verməhdənsə, ağzımı tutajam üzü belə, dağlara tərəf. Gedəjəm, o üş gün vaxt harda tamam olur, olsun. Orda indi kimsə rast gələjəh, quyu qazıf basdıra, ya da ki qurt-quş yeyə, çıxar gedər.

Durdu belə dağa tərəf gəlirdi. Gördü dağın döşündə böyüh bir qoyun sürüsüdü, yayılıf otduyur. Çoban da bir daşın böyründə bir məzəli qava süd sağır, amma qoyunun da rəngi qapqaradı. Bu südü sağdı, qutara-qutar mametdə başını belə qaldırdı ki, qoyun aralaşıf. Tez südü qoydu daşın böyrünə, özü tərpəndi qoyunu qaytarmağa. Bu ayna gedən kimi bu xəsdə da canını gəzdirirdi da, ayax üsdə güjnən dururdu. Belə baxırdı ki, gözü-başı tor görür. Gördü daşın arasınnan qara qərtməxli ilan sivrildi çıxdı, bu sütdən bir az işdi, qayıtdı bir də südün içinə qaytardı. Süd göm-göy göyərdi.

– Hə, tapdım. Sən öl, bunu içəjəm, çoban gələnə qədər elə burda da yıxılajam. Çoban gələjəhdi, məni burda basdırajax, çıxıf gedəjəh. Heç üş günə qalmıyajam.

Götürdü bu südü tamam divinə qədər çəhdi başına. Çobanın gedif fırranıf gəlməyi iki saat çəhdi. Ayə, bu baxdı ki, südü içif qu-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tardıxcan bunun gözü-başı, dünya işıxlaşıf. Ağrı-ajı bunun bədənin-nən çəkilif. Bir saat, para saat, bu gördü əyə, vallah, bunun bədəni dirçəldi. Çoban gəldi buna çatanda dedi:

– Çoban qardaş.

Dedi:

– Bəli.

Dedi:

– Səən qadan alım, bir xata eləmişəm, mənim günahım nədisə durmuşam.

Dedi:

– Ə, neynəmisən?

Dedi:

– Sənin o sağdığın südü işmişəm. İndi mən onun hakkını nəy-nən ödüyəjəm, nətər ödüyəjəm, onu mənə başa sal, onu ödüyüm.

Dedi:

– Ə, nə işin var, nağarırsan?

Dedi:

– Üş gün bekaram.

Dedi:

– Elə üş gün burda iki qardaş ikimiz də çobannıx eliyək, sən maa kömək elə, o südün əvəzi çıxsın.

Dedi:

– Mənim gözüm üsdə. Üş gün yox, lap beş gün eliyərəm.

Dedi:

– Hələ dayan.

Yekə qavlaması vardı, bu dəfə bunu gətdi, qoyunnardan sağ-dı, qəşəh doğrama elədi. Çörəyi həvgədən çıxartdı doğradı, ağaş qaşığı vardı, birini verdi buna, birini də özü götdü. Bu, yedihcə əmələşdi. Üş gün bu, çobanın böyründə buna kömək elədi. Bu, elə bil anadan təzə doğulmuş şəxs oldu. Dedi:

– Çoban qardaş, maa icazə verirsən qayıdam uşaxların yanına?

Dedi:

– Hə, sən isdədiyin vaxt qayıda bilərsən. Buyur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu düzəldi yola. Dedi: “Loğman, dayan gəlirəm. Əyə, sən mana üş gün vədə qoymuşdun, bəs niyə ölmədim ə”.

Gəlir dokqazdan girəndə Loğman genə başını qaldırdı ki, həmən adamdı gəlir. Dedi:

– Dayan. Sənin müalicən əlnən ölən adamın kəlləsinnən olan qaba iki il qısır qalıf doğmuş qara qoyunun südü sağılmalı idi. Yelmar adında qara qərtməxli ilandı, daşdıxda yaşıyır. O ilanın zəhəri lazım idi, orda qarışeydi, onu sən içif ayıleydin. Mən hardan aleydim ə, rəhmətdiyin oğlu.

Dedi:

– Hə, Loğmansan ki Loğmansan.

## 52. ƏL AMAN

Loğmanın bir şagirdi vardı. Özünü hədinnən artıx öyürdü. Yaxşı da örgənmişdi. Orda-burda gedif danışırdı ki, Loğmannan mən çox bilirəm. Bir gün bunu göz ağrısı tutdu. Göz ağrısı tutanda anasına dedi ki, get Loğmanın yanına. Loğmana denən ki, bəs şagirdinin gözü ağrıyır, onun dərmanını de. Mənim yadımnan çıxıf bu vəziyyətdə gözə nə tökməh olar.

Arvad gəldi Loğmanın yanına. Dedi ki, başına dönüm, halqəziyə belə-belə. Yaman ağrıyır gözü, ona neyniyim. Dedi:

– Əl aman, getginən duzu, isdiotu əz, möhkəm döy, tök onun gözünə.

Arvad gəldi. Dedi:

– Ana, nə dedi?

Deyir:

– Dedi ki, duzu, isdiodu döy, əz, tök onun gözünə.

Dedi:

– Ağız, onun ağzınnan nə çıxıfsa, onu de.

Bir az mənim kimi fikirrəşdi, dedi ki, ə vallah, dedi əl aman, get duzu, isdiodu əz, tök.

Dedi:

– Hə, deyir əl vurma.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 53. YAXŞILIĞA YAMANLIQ

Bir gün bir kişi xurcununa bir az taxıl yığıf dərmana gedirmiş. Dərmana gedəndə görür ki, kollux alışıf yanır, kolluğun içində bir dənə ilan yanır. Dik qalxıf quyruğunun üsdünə, çıxmağa yer yoxdu. Deyir Allah-tala bu kişinin qəlbinə xof salır. Kişi öz dənini boşaldır yerə, torbanı kəpənəh tutan tor kimi düzəldir belə, tutur. İlan hoppanıf girir torbaya. Çəkif gətirir. Torbanın ağzını açır ki, ilanı buraxa, çıxıf getsin. İlan qıvrılır kişinin boğazını tutur ki, de görüm, sənin harannan çalım. Deyir:

– Ay Allahın heyvanı, mən sənə yaxşılıx eliyif ölümnən qutarmışam. Sən məni niyə çalmalısan ki?

Deyir:

– Bilmirsən, siz insannarın arasında yaxşılığın axırı yaman-nıxdı.

Deyir:

– Əgər bu dediyini sübut eliyə bilsən, məni haramdan çalırsan, çal.

Deyir:

– Onu sübut eləmək lazım döylü, elə o sübut olunmuşdu. Gəl gedək kimdən deyirsən soruşax.

Belə gedəndə görür ki, bir dənə gamış ayannan bəri gəlir. Kişi də zahid oluf. Allahdan rica eliyif ki, bu gamışa imkan ver, fikrini bizə bildirsin. Deyir:

– Ay Allahın heyvanı, mən bu ilana yaxşılıx eləmişəm. Bu ilan odun içində yandığı yerdə odun içinnən çıxartmışam. Taxılımı, uşaxların çörəyini töküf yerə bunu çıxartmışam. İndi bu da deyir çalmalıyam səni. Sən bizə de görəh o, çalmalıdı?

Deyir:

– O səni gözünnən çalmalıdı.

Deyir:

– Niyə?

Deyir:

– Ona görə ki, mənim öz sahibimin qapısında on yeddi dənə balam var, hələ onnarın neçə balası var bilmirəm. Qocalmışam, südən kəsilmişəm. Məni buraxıfdı bu meşəyə ki, get kolluxda başı-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nı saxla. İndi onnan gözü doymur. Gedif o gün qəssab gətirif. Görürəm qəssab məni tutuf oramı-buramı qurdalıyır ki, görüm bunun nə qədər əti var, bunu da kəsif satım. Deyir, ona görə o ilan səni gözünnən çalmalıdı, – deyəndə kişi deyir:

– Ay Allahın heyvanı, çal da.

Deyir:

– Yox, üş nəfər demişih, üçünnən də soruşassan.

Gedillər, görüllər çay axır. Çayın üsdünnən körpü keçir. Deyir:

– Gəl bu çaydan soruşax.

Deyir:

– Soruşax.

Nəysə, kişi bir də Allahdan xayiş eliyir ki, Allahın hökmüynən çay bizə cavab versin. Çay deyir ki, o ilan səni çalmalıdı.

Deyir:

– Nəyə görə?

Deyir ki, ölünüzü mən təmizdiyirəm, dirinizi mən təmizdiyirəm, bağınızı, bosdanızı, hamısını mən suvarıram. Palınızı-paltarınızı, qabınızı-qaşığınızı, hamısını. Amma səhər-səhər gəlirsiniz əl-üzünüzü yuyanda üzümə tüpürüf gedirsiniz. Deyəndə kişi deyir:

– Düz deyir, çalmalıdı.

Kişi öz səyfini o saat başa düşür ha. Onnar dedihcə dirənir ki, ilan çal, düz deyir.

Bu səfər görüllər çayın o üzündə bir çinar ağacı var. İlan deyir:

– Gəl gedəh həm o sərində sərinnənəh, həm də çinardan soruşax.

Gəlillər çinarın divinə. Gənə də kişi xayiş eliyir. Çinar deyir ki, oy, oy, oy, o ilan səni bir yerinnən yox, hər yerinnən çalmalıdı.

Deyir:

– Əşi niyə? Səni bura insannar əkmiyif?

Deyir:

– Əkif ey, düzdü. Bir dəfə mən balaca çubux boyda olanda əkiflər. Amma indi nə qədər ki, yaydı, qoyun da, quzu da, mal da, heyvan da, özünüz də gəlif mənim kölgəmdə dincəlirsiniz. Qışda bir az soyux olan kimi hərəniz bir balta götürüf, şakqaşak doğruyuf aparırsınız.

Kişi deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A ilan, onsuz da mənim əjəlim bura qədərmiş da, məni çal.

Belə deyəndə görür bir tülkü o yannan qaça-qaça gəlir. İlan deyir ki, inanmırsan, gəl bu tülküdən soruşax. Kişi deyir:

– Ə, bunnar belə dedisə, insan ömrü boyu tülkünün düşmanıdı, tülkü çoxdan hə deyər.

Deyir:

– Yox, gəl bunnan soruşax.

İlanın uje əjəli gəlif ey. Üş-dörd dəfə çöyürənnən sora deyir:

– Yaxşı, soruşax.

Tülküdən ilan soruşur ki, mən bunu çalmalıyam, yoxsa yox. Tülkü deyir:

– Ə, gedin özünüzü ələ salın. Nətər o, torbanı belə tutdu, sən də hoppandın girdin o torbaya. Ağzına gələni danışırsan?

Deyir:

– İnanmırsan?

Deyir:

– Yox.

Deyir:

– Tut.

Kişi bir də torbanı tutur. İlan bir də hoppanır girir torbaya. Kişi torbanın ağzını aşmax isdiyir, tülkü deyir:

– Ə, namərd oğlu namərd, hara açırsan? Vur təpəsinə.

Kişi vuruf ilanı öldürəndə bir ovçu çıxır o yannan. Tülkü də ovçudan qaçır axı. Tülkü deyir:

– Paho, mən yaman yerdə ilişdim. O kopoğlu məni öldürəjəh.

Kişi deyir:

– Ə, gəl gir torbaya.

Girir torbaya. Kişi torbanı alır dalına. Ovçu da gəlir axı. Yolda qabaxlaşıllar. Deyir:

– A qardaş, burdan keçən tülkünü görmədin?

Deyir:

– Ölüsünü deyirsən, dirisini?

Yanı dirisi ölüsünnən baxadı dana. Öldürüf də satmır ey, dirisini satır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# VI
# LƏTİFƏLƏR

## MOLLA NƏSRƏDDİN HAQQINDA

### 1. MOLLA VƏ EŞŞƏYİ

Bir gün molla arvadına deyir, baltanı da qoy çörəyimin yanına, gedim bir ayax odun qırıf gətirim. Molla gedir başını qoyuf yatanda arvad bağlancağı bağlıyır, qatıxlı çömçə qalır burda. Yadınnan çıxır baltanı qoymuyuf. Molla durur tezdənnən, namazın qılır, dəsdəmazını alır. Gəlir çörəyi götürəndə əlini atır çömçə gəlir əlinə. Elə bilir baltadı. Axı çömçə qatıxlıdı. Deyir:

– Halal olsun arvada, nətəri avxırrıyıfsa*, baltanın ağzı par-par parıldıyır.

Götürür ulağı qatır qavağına, gəlir meşəyə. Bir belə yekə ağaş bələtdiyir. Çömçəni alır əlinə. "Allah, Məhəmməd, ya Əli" – deyif bir balta vırır, ikisini vıranda çömçənin başı bir yana gedir, leşi bir yana. Düşür gəzir, gəzir, tapmır. Deyir:

– Həzrət Abbas, sənə bir çanax darı nəzir eliyirəm, mən bu baltanı tapım, burdan əliboş qayıtmıyım.

O vaxdı da çanax taxdadan qayırma ölçü qavıymış. Deyillərmiş, hər adam başına bir çanax, beş çanax taxıl yığsam, il başına çatajax. Heylə ölçü qavı imiş. Bu hərrənəndə çömçənin çaloşu gəlir əlinə. Götürür belə baxır, deyir:

– Ə, Həzrət Abbas, bir qoyardın baltamı tapeydim, bu çanağı böyrümdə nə tez çökəltmisən?

Durur kor-peşman qayıdır. Arvad deyir:

– A kişi, odun hanı?

Deyir:

– Ay arvad, bəs vallah, balta çıxdı, tapmadım. Həzrət Abbasa da bir çanax darı boşdu qaldım.

---

* avxırrıyıfsa – itiləyibsə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Arvad deyir:

– A kişi, Allah tifağı dağıtsın, çömçəni aparmısan balta əvəzinə. Qırılan çömçənin başıdı.

Aradan bir neçə gün keçir. Bir gün çörəh isdiyir. Arvad deyif çörəh yoxdu.

– Niyə yoxdu?

Deyir:

– Bəs yanacağ yoxdu bişirəm. Dur get bir az çırpı qır gətir, çörəh bişirim.

Molla naəlaş qalır durur. Molla da bir az tənbəl imiş. İndi naəlaj qalır, aj qalıf deyənə durur ulağı götürür gedir ki, bir az çırpı gətirsin, arvad çörəh bişirsin, yesin. Biz yağtikan deyirih. El arasında sakqal odduyan da deyillər ona. Elə bir yanacaxdı ki, ipişkanı vuranda elə bil benzindi, cız eliyif başa çıxır. Gedir bu yağtikannan qəşəh iki tayça qayırır. Yühlüyür möhkəm eşşəyə. Hava da bərk soyuğmuş. Gələndə bu, yolda bərk üşüyür. Görür eşşəh də əsir. Deyir:

– Eşşəh qardaş, sən də üşüyürsən?

Eşşəh qulaxlarını tərpədir. Deyir:

– Hə, onda eşşəh qardaş, gəl tikanın birini odduyax qızışax, birini arvada aparsax bəsdi.

Eşşəh bir də qulağını çırpanda deyir:

– Hə, eşşəh qardaş, düz deyirsən.

Gətirir ipişkanı tayçanın birinə vuran təki pırr eliyir o biri tay da alışır. Eşşəyi od götürəndə eşşəh qaçır. Qavaxda da göl varımış. Daldan qışqırır:

– Eşşəh, özuu suya sal, eşşəh, özuu suya sal.

Eşşəh nə qanır özünü suya salmağı. Bu hay-huy eliyif gəlif çatınca eşşəh ölür, qalır dişdəri ağara. Gəlir deyir:

– Ə, dişdəri nə ağardırsan? Səə deyirəm özü suya sal. Özü suya salmırsan, dişdəri ağardırsan məə sarı?

Qayıdıf gəlir. Arvad deyir:

– A kişi, odun hanı, eşşəh hanı?

Deyib belə-belə. Arvad başına vurur. Deyir:

– Eşşəyi də öldürdün. Eşşəh nə qanır özünü suya salmağı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nəysə, çıxır bazara bir eşşəh də alır gətirir. Arvad deyir ki, a kişi, dur get bir tayça odun yığ gətir, savah çörəh bişirəjəm. Nehrə çalxalıyıram, ayran cürüdüf şor qayırajam, odun yoxdu.

Deyir:

– Onda arvad, mənə bir yağ yaxmacı veressən?

Deyif:

– Hə.

Durur bu eşşəyi götürür, gedir odunu qırır. Gətirəndə arada təpəçə varmış. Təpənin bu üzüynən dolayama yol gedirmiş, bu üzüynən də kəsə yol varmış. Deyir:

– Eşşəh qardaş, gəl sən bu yolnan get, mən bu yolnan. Görəh kim tez gedif yağ dürməci alajax.

Eşşəyi burda qoyuf, kəsə yolnan gəlir. Deyir:

– Arvad, tez yağmacı məə ver.

Deyir:

– Ay kişi, eşşəh hanı?

Deyir:

– Eşşəyi qoymuşam, gəlif çıxmıyıf hələ? Tez yaxmacı məə ver, mən uddum.

Yaxmacı alıf yeyir. Deyir:

– Ay kişi, eşşəyi qoydun gəldin, çakqal-canavar eşşəyi dağıdajax.

Elə bu burdan gedən təki eşşəh özünü verir kola-kosa, burda da ac canavar çıxır eşşəyi parçalıyır yeyir. Eşşəyin bircə kəlləsi kolun dalınnan görünür. Gəlir, ora gəzir eşşəh, bura gəzir eşşəh. Gəlir görür kolun dalınnan eşşəyin başı görükür. Deyif:

– Ə, kolun dalında gizdənmisən, elə bilirsən görmüyəjəm? Yağ dürməcini mən aldım yedim. Gizdənmə, çıx bəri.

Gedif görür nə? Eşşəyi canavar dağıdıf yeyif, qalıf tək kəlləsi. Gəlir arvadına deyir. Arvad başına-döşünə döyür.

Bu deyir bir eşşəh də alım, tay keçif. Bir eşşəh alıf gətirir. Deyir:

– Arvad, bu günnən belə bu eşşəyi novatnan suvarıf otunu verəjeyih.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Arvad deyir:

– A kişi, işin yox, güjün yox, xalq mal saxlıyır, qoyun saxlıyır. Bir eşşəhdi. Mən çörəh bişirirəm, su gətirirəm, paltar yuyuram. Eşşəyi də novatnan eliyəh?

Deyir:

– Yox. Gəl qaradinməz olax. Kim sifdə danışsa, eşşəyin arpa-samanını o versin.

Bu, qaradinməz olur. Kişi oturur, nə yeyir, nə içir, nə danışır. Əlini qoyur qoynuna oturur bir bujaxda. Arvad gedir kənarda yeyir, içir, işiynən-güjüynən məşğuldu. Eşşəh də qalır tolada aj-susuz. Arvad gətirir çörəh qoyur qavağına, bunu yemir, su qoyur yanına, çıxır gedir. Gəlir görür ki, dilinə də vurmuyuf. Üş gün keçir, dörd gün keçir. Bu gedir qonşuya. Görür qonşunun arvadı əriştə bişirif. Deyir:

– Ay qonşu, bəs başıma belə iş gəlif. Kişi ajınnan-susunnan öləjəh. Mən burda oturum, uşax aparsın bu əriştəni versin mollaya, bəlkə molla içə. Mən olanda işmir.

Mənim Bəxdiyar nəvəm təki bir uşax varmış. Buna bir qav əriştə verillər ki, apar ver mollaya, işsin. Arvad çölə çıxan təki qırx lotular gəlir evə girir, görür molla dinməz-söyləməz oturuf. Bular girir evə, heş molla başını qalxızmıyıf. Deyillər:

– Ə, molla ölüf.

Mollanı nə qədər tərpədillər, molla tərpənmir. Deyillər oturduğuna baxma, molla ölüf. Evdə-eşihdə nə var yığıllar, götürüf aparanda görüllər molla dinmir. Molanın başında bir qiymətdi papağı varmış. Papağını da götürüllər, çıxıf gedillər.

Uşax ərişdəni gətirir:

– A molla əmi, ala iş, – deyəndə molla dinmir. Əliynən belə eliyir ki, arvada deynən ki, qırx lotular evi apardı, başımnan da papağı. Uşağ elə bilir deyir ki, omacı başıma tök. Qaynar əriştəni əndərir mollanın başına. Qavı qaytarır gətirir. Uşağa deyillər:

– Bala, nağardı, işdi?

Deyif:

– Yox, molla dedi tök başıma, mən də tökdüm başına.

Arvad qışqırır:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay tifağı dağılan canım, kişinin başı yandı.

Çığıra-çığıra gələndə deyir:

– Ehey, sən dilləndin, get eşşəyi suvar.

– Ay kişi, ev-eşih hanı? Başın yanıfdı, hələ deyirsən eşşəyə su ver.

Deyif:

– Yox, ay arvad, sən dilləndin, sən suvarassan.

Durur, bunun başını-gözünü təmizdiyir, deyir:

– Ev-eşih hanı?

Deyir:

– Qırx lotular yığıf aparıf.

Deyir:

– Tifağın dağılsın, qaradinməzsən, barı gələnə kiş deyərdin də. Mən eşitmirdim axı.

Gedif görüllər eşşəh ajınan ölüf, dişdəri ağara qalıf.

## 2. MOLLA ÖZÜNÜ ÖLÜLÜYƏ VURUR

Bir gün deyir ki, ay arvad, gedim bir az odun qırım gətirim. Çıxır bir belə yekə ağaca, başdıyır üsdündə durduğu budağı kəsməyə. Mənim Bəxdiyar nəvəm təki bir ziynişka uşax gəlir, deyir:

– Ay molla əmi, o budağı kəsirsən, o qırılsa yıxılıf ölessən.

Deyir:

– Ə, nə bilirsən öləjəm?

Deyif:

– Bəs ordasan da, budax yerə düşsə ölessən.

Molla düşür, yapışır uşağın xirtdəyinnən:

– De görüm mən nə vaxt öləjəm? Sən mənim ölən günümü bilirsən.

Uşax deyir:

– Ay molla, vallah, mən nə bilim? Mən onu bilirəm ki, ağaş qırılsa, yıxılıf ölessən.

Əl çəkmir. Uşax da zineymiş də. Deyif:

– Ay molla, eşşəyin üş dəfə soncuxluyanda ölessən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Durur eşşəyi qatır qavağına, gedir evə. Qavaxlar eşşəyi biznən belə bizdiyirmişdər. Eşşəh yerimiyəndə eşşəyi bizdiyir, eşşəh soncuxluyur. Soncuxluyanda deyir:

– Tay dizdərimətən öldüm.

Gəlir yoxuşa dirənəndə eşşəyi bir də bizdiyəndə eşşəh gənə soncuxluyur. Deyir:

– Hə, qurşağatan öldüm.

Tez eşşəyi dəhmərriyir* ki, evə tez çatsın. Evə bir mənzil qalmış eşşəyi bir də bizdiyir. Eşşəh bir də soncuxluyanda uzanır bərdən arı ki, öldüm. Gələn, gedən deyir: "Ayə, molla, molla". Nə qədər eliyillər, molla dinmir. Evə xəvər aparıllar ki, molla ölüfdü. Arvad durur halva çalır ki, gedif mollanın meyidini götürüf gələ. Mollanın da balaja nəvəsi varmış. Halvadan beləjə yumurruyur, əlində gətirir camaata paylıyanda molla tutur uşağın əlinnən alır, basır ağzına. Uşax deyir:

– Molla ölmüyüf, vallah, halvanı yedi, – deyəndə yerinnən qalxır uşağa bir qapaz.

– Ə oğraş kopoğlu, molla o qədər ölü oldu bir ülüş halva yeyə bilmədi?

## 3. ALLAH BÖLGÜSÜ

Uşaxlar mollanın qabağını kəsir. Deyillər ki, a molla, biz qoz yığmışıx, onu böl. Deyir:

– Ə, Allah bölgüsü bölüm, yoxsa molla bölgüsü.

Bunnar da hamısı dinnən əlaqəli cavannarmış dana. Deyir:

– Əşi, nətər yəni molla bölgüsü, Allah bölgüsü böl.

Gətirir birinə iksini verir, birinə üçünü verir, birinə beşini verir, birinə torbanı bütöy verir. Deyir:

– Di götürün gedin.

Bular hamısı bir-birinin üzünə baxır. Deyir:

– Ə, molla, sən nətər bölgü böldün?

---

* dəhmərriyir – itələmək, çubuqlamaq



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Ə, nətər böləjəm? Sən demədin Allah bölgüsü. Gözüz görmür ki, Allah birinə verir, birinə vermir. Birinə çox verir, birinə az verir, birinə heş vermir. Mən də elə verdim dana. Sən desəydin molla bölgüsü böl, mən də sayıf düzgün hərənizə verərdim.

## 4. İNANMA

Mollanın pulu qurtarır, rəhmətdiyin*. Öz-özünə oturuf fikirrəşirmiş ki, ə, gedif birinnən boynumu qatdıyıf borc isdəməhdənsə, qoy durum çatını götürüm gedim bazara. Bir Allah bəndəsi məni görüf deyəjəh hambaldı, bir şey yüklüyəjəh, aparajam. Gəlir belə çatı çiynində bazarın bir tərəfində durufmuş. Görüf ki, bir dənə tacirdi, ayaxdan-başa xoruz quyruğu çalır. Amma yekə bir sandığı var, sandığın yanında dingildiyir, oynuyur. Birdən bunun gözü mollanı alır.

– Ə, bir bura gəl, bir bura gəl.

Yaxınnaşır.

– A bala, hambalsan?

Deyir:

– Bəli.

– Mənim bu sandığımı evə apararsan?

Deyir:

– Niyə aparmıram.

Molla yazıx heş yük görmüşdü ki. Qoltuğ altı deyirdik, belə aşırıf bağlıyırdıx. Sandığı yüklüyüllər mollanın dalına, bu qoltuğaltıynan da bağlıyıllar. İndi molla ikiqat, bu tacir də çırtıx çala-çala bunun böyrünnən gedillər. Birdən tacir bunu dolamax fikrinə düşür. Deyir ki, ə, cavan oğlan, maa de görüm sana üş dənə qiymətdi söz örgədim, yoxsa pul verim. Molla da sözbaz imiş dana. Deyir: “Sözün qiyməti yoxdu. Bu, dünyanı gəzmiş adamdı, qoy bunnan söz

---

* Söyləyicinin dediyinə görə, Molla Nəsrəddindən danışan şəxs rəhmətlik sözünü deməsə, 7 lətifə deməlidir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

örgənim. Ajdıx bir gün gedər, beş gün gedər. Bir yerdən tapıf qarnımı doyduraram". Deyir ki, tacir ağa, elə söz de. Deyir:

– Saa kim desə ki, qatıx qaradı, inanma.

Molla deyir:

– Hə, evin yıxılsın, məni dolamağa çalışırsan?

Bir az getmiş deyir ki, tacir ağa, sözün o biri nolajax? Deyir:

– Ə, sənə kim desə ki, bir kilometr kənardan qışda, qarda şamın işığına qızınmağ olar, inanma.

Dedi:

– Hə.

Çatdılar buların dokqazına. Bu baxdı ki, bunun qırx mərtəbəli evi var, pilləkən göyün üzündədi. Tacir də buna dedi ki, düz o başdakı evə çıxassan. Dırmaşdılar, ortaya çata-çatda dedi:

– Tacir ağa, o üçüncünü demədin ey.

Tacir bir səy söz dedi. Baxdı ki, yox, bu daa həddini keşdi, dedi:

– Ə, tacir ağa.

Dedi:

– Bəli.

Dedi:

– Mənim belimdəki nədi? Yaman ağırdı.

Dedi:

– Ə, – indi xrustal deyirik, o vaxdı çini qav deyirdik, – Çinə getmişdim, Çindən gətirirəm, hamısı qiymətdi qavlardı.

Aşırmanı belə aşdı, pilləkən aşağı sandığı buraxdı. Sandıx danqıldaya-danqıldaya düşdü yerə. Dedi:

– Tacir ağa, saa da kim desə ki, onun içində bircəciyi salamat qaldı, heç sən də inanma.

## 5. HEÇ NƏ

Molla Nəsrəddin bir gün gedirmiş, özü də bərk yoruluf. Görüf bir atdı gedir. Deyif:

– Mənim bu çuxamı da özünnən aparsan, nolar?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyif:
– Yaxşı, mən sənin çuxanı apardım, orda kimə verəjəm?
Deyif:
– Özümə.
Deyif:
– Bə mən özüü hardan alajam?
Deyif:
– Elə özüm də çuxamın içində olajam.
Bunnan bu adam bilifdi ki, bu deyir yanı məni götür. Deyif:
– Yaxşı, mən səni apardım, onda sən maa nə verəssən?
Deyif:
– Heş nə.

Bu aparıf düşürüf. Savah ertə qayıdıf gəlif. Deyif ki, tez ol, heş nəyimi ver. Sən maa demişdin ki, heş nə verəjəm. Deyif:

– Yaxşı-yaxşı, otur aşağa. Odey, palazın altını qaldır, gör orda nə var.

Palazın altını qaldırıf deyif:
– Heş nə.
Deyif:
– Heş nəyini götür, get.

## 6. DOXSAN DOQQUZUNU VERƏN, BİRİNİ DƏ YETİRƏR

Bir gün arzu eliyir ki, Xudavəndi-aləm, maa yüz qızıl yetir, amma doxsan dokquzunu yetirsən yiyə duran deyiləm. Mənim kimi ağılsızın biri də gətirif bunun bajasınnan doxsan dokquz qızıl salıf. Deyif:

– Kişinin sözü bir olar da, görəh bu doxsan dokquzu götürəjəh?
Bu götürüf sanıyıf deyif:
– Əşi, doxsan doqkuzunu yetirən birini də yetirər.
Savah ertə gəlifdi ki, mənim qızıllarımı ver. Deyif:

– Əşi, nə danışırsan, mən Allahı çağırmışam, Allah maa qızıl yetirif.

Deyif:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bə sən niyə yalançısan? Sən deyirdin yüz olmasa yiyə deyiləm.

Deyifdi ki, doxsan dokquzunu yetirən yüzü də yetirəjəh.

Deyif:

– Onda gedəh darğanın yanına şikayətə.

Deyif:

– Əşi, mənim əynim-başım cır-cındır. Bu sıfatda mən nətər gedim?

Bu çuxasını soyunuf verif, deyif:

– Ala geyin, gedəh.

Geyinif deyif:

– Vallah, başım açıxdı, utanıram getməyə.

Papağını da verif, deyif:

– Ala qoy başına, gedəh.

Bu şikayətə gedir da, yüz qızıl hardadı. Deyif:

– Piyada qılçam ağrıyır.

Atını da verif, deyif:

– Atı min gedəh. Atı da minif, gediflər.

Şikayətçi darğaya şikayətini eliyif. Mollaya deyifdi ki, bu nə oyundu sən bu kişinin başına açmısan? Deyif:

– Əşi, sən onun dediyinə qulax asma. O kişi deyəjəh başındakı papağ da mənimdi.

Deyif:

– Hə də, heylə dəyil?

Deyif:

– İndijə deyəjəh altındakı at da mənimdi.

Deyif:

– Hə də, altındakı at da mənimdi.

Deyif:

– Görürsən, ay darğa, indijə deyəjəh əynindəki çuxa da mənimdi.

Beləlihnən darğa bunu rədd eliyir. Deyif: “Sən böhtançısan. Nətər yanı, sən olmasan bu məhətdəl qalardı? Hamısına deyirsən mənimdi”. Heyləcə yüz qızılı düzəldif.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## BƏHLUL DANƏNDƏ HAQQINDA

### 7. EŞŞƏK, SƏNƏ DEYİRƏM, QONAQ, SƏN EŞİT

Bəhlulun bir qonağı olur. Padşah da oğluna toy eliyirmiş. Bəhlula təhlifçi göndərir. Bəhlulun da qonağı var axı. Təhlifçiyə deyir ki, get padşaha denən ki, Bəlul deyir mənim qonağım da var, icazə verirsə gətirim. Təhlifçi gedif deyir. Deyir:

– Qonağını da gətirsin, nolar, toydu dana.

Gəlif deyir ki, qonağını da gətirsin.

Bəzi adam yansığ* olur. Görürsən pulunu, varını, evində olanını yoldaşına danışır. Bəhlul buna dedi:

– Ə, dosd, toya gedirih. Sənnən bir söz soruşmasalar deməynən ki, mənim bu şeyim var, o şeyim var. Bax, sana tapşırıram ha.

Bu da dedi:

– Nə dərdimə qalıf, yaxşı.

Getdilər otdular. Bəhlulnan ikisi bir oturmuşdu. Hər şeyi qoymuşdular, qarpızı da qoymuşdular. Padşah da ortaynan gedif gəzirdi, gəlirdi. Toy idi. Bunnar tərəfə pıçax qoymamışdılar ki, qarpızı kəsif yeyələr. Yaddan çıxmışdı. Biri dedi ki, kimin bıçağı var, bu qarpızdan kəsif yeyəh. Deyən kimi bu qonağın qızıldan bir pıçağı vardı, civinnən çıxartdı. Ağzını aşdı, vurdu qarpızın üsdünə. Padşah da gördü bu pıçağı. Gəzirdi də ortaynan. Gördü bir qızıl pıçağdı, vuruflar qarpızın üsdünə. Götdülər qarpızı, kəsdilər yedilər. Vəziri çağırdı, dedi:

– Vəzir, gözdə gör o pıçağı kim civinə qoysa, onu gətir mənim yanıma.

Vəzir gözdədi, gözdədi, gözdədi, yedilər qutardılar. Pıçağı qonağ götdü, qatdadı qoydu civinə. Durdular, çıxanda vəzir bunu yedəhlədi ki, səni padşah çağırır.

– Ə qardaş, padşah məni neynir?

Dedi:

– Nə bilim, gedəh görək.

---

* yansığ – hər şeyi açıb deyən, varını-pulunu şişirdib öyünən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəhlul dedi:

– Ayə vəzir, o mənim qonağımdı. O beyjə bizdə qalajağ, savah yola salajam. Neynir padşah onu?

Dedi:

– Valah, nə bilim.

Dedi:

– Onda mən də gedim da, mənim qonağımdı.

Dedi:

– Gə gedək.

Getdilər. Padşah gördü Bəhlul da bunnan gəlir. Bilirdi Bəhlul yaxşı söz deyə bilir. Dedi ki, a qardaş, o pıçağ mənim xəzinəmdə idi. Mənim xəzinəmdən o pıçağı oğurruyuflar, pıçağnan da barabar bir meşoğ qızılımı aparıflar. Sən aparmısan bunu, pıçağ səndədi. Bu nə qədər and içir. Nolajaydı. Vəzirə deyir:

– Apar sal onu zirzəmiyə.

Belə deyəndə Bəhlul deyir ki, şah sağ olsun, o mənim qonağımdı. Bu axşam o bizdə yatajağ. Savah onu yola salajam. Mən yola salannan sora gələr bura, neyniyərsən, eliyərsən, amma indi mənim qonağımdı axı.

Dedi:

– Bəhlul, mən səni elə döyül tanımıyam. Sən onu aparessən, nəsə bir şey örgədessən. Ona görə qoymuram gedə.

Dedi:

– Heş-zad örgətmiyəjəm.

Nəysə, icazə verdi, qonağı götdü gəldi. Pıçağ da ordadı. Gəldilər otdular, yedilər yatışdılar. Savah duruf bunu yola salanda qarğı atı vardı, atı mindi, gedillər ikisi də. Qarğıya deyir öz-özünə:

– Ay qarğı, saa demədim ki, sənnən xəbər almasalar demə belədi. Sənnən kim xəbər aldı ki, pıçağın varmı, çıxart. Özbaşına niyə çıxartdın? İndi padşah onun üsdündə səni dara çəkəjəh. Get, padşah desə pıçağı hardan almışdın, denən ki, bu pıçağnan mənim atamı öldürüf bunu da vurmuşdular onun sinəsinə. İndi bunu məclislərdə çıxardıram ki, görüm kim ona yiyə çıxır? İndi padşah sağ olsun, pıçağ sənindisə, mənim atamı sən öldürmüsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Padşah bilir ki, bunu Bəhlul örgədif.

– Ə vəzir, nə əngələ keşdih? Nətər olajağ bunun axırı? Get pıçağı da ver özünə, onu bir dilnən yola sal, çıxsın getsin. Xata bizdən uzağ olsun.

Gör ey. Sözü gərəh tapıf deyə biləsən ey.

## 8. BEKAF BƏHLUL

Bir gün Bəhlul küçədə çox bekaf gəzirmiş. O qədər bekaf gəzirmiş ki, ta nətəri. Qardaşı Harun Rəşid də Bağdadın xəlifəsi idi. Qardaşı deyir ki, mənim qardaşımın gülməyini kim çatdırsa, onu dünya malınnan qəni eliyərəm. İndi nejə ki hamı lotereya alır ki, mənimki düşəjəh flan şeyə. Hamı bunu izdiyir ki, görüm bu harda güləjəh. Biri bunu izdiyəndə gəlir qəssab dükanının qabağında başdıyır möhkəm gülməyə. Güləndə biri eşidir bunu. Qaçır Bağdad Xəlifəsinə deyir ki, muştuluğumu ver, qardaşın güldü.

Deyir:

– Ə, olmaz.

Deyir:

– Canım üçün güldü.

Nəysə, çağırıllar, gəlir. Deyir:

– Ə qardaş, gülmüsən?

Deyir:

– Hə.

– Harda?

– Filan qəssabın dükanının qabağında.

– Bə nəyə güldün?

Deyir:

– Qardaş, indiyənə qədər mən elə bilirdim ki, Allah-tala sənin elədiyin günahların əvəzini mənnən çıxajax. İndi gördüm ki, yox ey, mənnən çıxası dəyil.

Deyir:

– Bəs nətər olajax?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə, mənim Allahım o qəssab Məhəmməd qədər dəyil? – Onda da heyvanı kəsəndə öz ayağınnan asırmışdar. – Getdim Məhəmməd kişinin dükanının qabağınnan keçəndə gördüm qoyunu qoyun ayağınnan, keçini də keçi ayağınnan asıf. Allah onun qədər bilmir? İndi bildim ki, Allah-tala sənin günahını sana yazajağ, mənim günahımı da mana.

## 9. SOĞAN AL, SARIMSAĞ AL

Bir gün biri kasıf düşür. Bu kasıf düşən gedir Bəhlulun yanına, deyir:

– Bəhluli Danəndə, yaman kasıf düşmüşəm. Neyniyim ki, varranım, döylətdənim, mən də başqaları kimi yaşıya bilim?

Deyir:

– Get dəmir al, kömür al, vur anbara. Vaxdı gələndə sat.

Bu gedir dəmir alır, kömür alır, vurur anbara. Vaxt gəlir dəmir baxalaşır, kömür baxalaşır, bir qramı qızıl qiymətinə gedir. Bu başdıyır satır, olur ən varrı adam. Bəhlulu ələ salmax üçün deyir ki, Bəhluli Divanə, neyniyim ki, daha da varranım?

Deyir:

– Get soğan al, sarımsağ al, vur anabara. Vaxdı gələndə sat, döylətdənessən.

Bu gedir soğan, sarımsağ alır, vurur anbara. Müşdəri gəldihcə də satmır. Soğan pırşıyır şiferdən də çıxır çölə. Bir vaxdı baxır ki, bu soğan, sarımsax hamısı su verif iylənif. Baxır ki, neçə milyon ziyana düşdü. Deyir:

– Ə, Bəhlul, bə nətər oldu maa bir vaxdı dedin, varrandım. Bu nə idi mənə məsləhət verdin?

Dedi:

– O vaxdı maa dedin Bəhlulu Danəndə. Danəndə alim, çoxbilmiş deməhdi. Mən alim kimi sana cavab verdim, alim kimi yol gösdərdim, varrandın. Bu dəfə gəldin dedin Bəhluli Divanə, indi nə edim ki, varranım. Divanə dəli, ağıldan kəm adamlara deyillər. Mən də divanə sözü dedim. Da bunnan niyə inciyirsən?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 10. BƏHLUL OLMAĞIN BƏDƏLİ

Biri deyir ki, mən də Bəhlul olmax isdiyirəm. Deyir:

– Get ayın-oyunu sat, gəl.

Ayın-oyununu satıf gəlir. Hərəsi qarğıdan bir at minif gedillər. Böyüh bir çayın üsdünnən keçəndə çayın ortasında Bəhlul dayanır. Deyir:

– Bəhlul, get dana.

Deyir:

– O torbada pul var ey.

Deyir:

– Nədi?

Deyir:

– Torbanın ağzını aç, çaya tök, getsin.

Deyir:

– Bura bax, ay Bəhlul, bunu yaman gün üçün saxlamışam.

Deyir:

– Ə, Bəhlul olmax isdiyirsənsə, aç boşda, getsin.

## 11. BƏHLULNAN ŞƏYİRDİ

Biri gəlir ki, Bəhlul, sənin sənətini örgənməh isdiyirəm. Bəhlulun yanında qalır. Beş ilə örgənməli idi, dörd il tamam olanda deyir:

– Yox ey, mən Bəhlulam.

Deyir:

– Axı sənin hələ bir ilin var?

Deyir:

– Heylə şey yoxdu.

Bu aralanır gəlir bir kəndə çıxır. Görür ki, camaat çay-çörəh yeyir. Deyir:

– Ay camaat, bax, o bulağın suyunnan işmiyin. O sudan hər kim işsə öləjəh.

Bunnar da gəlif görüllər ki, bulağın başında bir çoban yatıf. Çoban durdu, ağzını dirədi o bulağın suyunnan işdi, möhkəm gər-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nəşdi, çıxdı getdi. Bəhlulun şəyirdinin boğazına kəndiri salıllar. Bəhlul gəlir ki, şəyirdi asıllar. Deyir:

– Niyə asırsız onu?

Deyir:

– Ə, bu deyir o bulağın suyu zəhərdi, işmiyin, amma o çoban işdi, ölmədi.

Deyir:

– Hə, düz deyir, o bulağın suyu zəhərdi, amma bu bədbaxt oğlu bilmir ki, o çoban sudan işdi, qatığı işdi, möhkəm də gərnəşdi. Zəhər hamısı parçalandı. Başqa adama verin işsin, görün parçalanajax, parçalanmıyajax.

Verillər, içən kimi ölür. Deyir:

– Ə, bədbaxt oğlu bədbaxt, saa demədim, sənnən hələ Bəhlul olmaz. Sənin bir ilin qalıf, bir il də örgən, onnan sora ol Bəhlul.

## 12. BƏHLUL ÖZÜNƏ EV TİKİR

Bəhlulu Danəndə özünə bir ev tikdirir, alaçıx kimi elətdirir. Elə bir ev tikdirir ki, ayağı çöldə qalır. Vaxd gəlir dünyasını dəyişmək məqamı çatanda deyif:

– Mən bilsəydim dünyanın vəfası budu, heç bunu da tikməzdim.

## 13. YE, İÇ, ÖLMƏ

Bəhlul evdə oturmuşmuş, bir nəfər gəlir:

– Salam məlöykü.

– Əlöykümət salam.

Dedi:

– Qardaş, Bəhlul Danəndə sənsən.

Dedi:

– Bəli.

Dedi:

– Mən gəlmişəm sənnən dosd olmağa.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəhlulun qardaşı var, adı Rəşid idi. O qədər varrı, o qədər sözeşitməz idi, adına Harun Rəşid deyirdilər. Dedi:

– Qardaşım məni çağırıf, gedəh ora.

Deyir:

– Cənab Bəhlul, mən yox.

Deyir:

– Yox ey, gedəjeyih ora.

Surfa açılır, yeməh-işməh başdanır. Hərə bir sağlıx, hərə bir sağlıx. Harun Rəşid Bəhluldan soruşur ki, bu kişi kimdi? Deyir:

– Vallah, mənim dosdumdu, evdə qoymadım, özümnən gətdim.

Dedi:

– Kişi, bir söz də sən de, amma dəyərri söz olsun.

Dedi:

– Baş üsdə.

İsdəkanı götdü əlinə, dedi:

– Bu surfada yeyif-içən ölmüyəjəh, o sağlığa içəh.

Dedi:

– Elə mən onu isdiyirəm dana, yeyim-içim ölmüyüm.

Bir gün vaxt gəlir Harun Rəşid düşür ölüm döşəyinə. Çağırır qardaşını, deyir:

– Bəhlul hoy.

Deyir:

– Nədi?

Deyir:

– O kişi kim idi? Onu kim idi məjbur eliyən o surfada heylə bir sağlıx deyə ki, "bu surfada yeyif-içən ölməz". Bə mən ölürəm axı.

Çağırdı dedi:

– Qardaş, bir p.. əkmisən, Harun Rəşid səni çağırır.

Dedi:

– Bəhlul, mənə bir kömək elə. Qardaşın olanda nolar. Cavab verəmməsəm, boğazıma qurğuşun tökdürəjəh.

Deyir:

– Qorxma, get.

Getdi ki, yerdə uzanıf, uje ölür. Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə, noluf?
Dedi:
– Əşi, ölürəm ey.
Dedi:
– Ölməzsən, qorxma.
Tapşırdı, həmmən qaydada isdolu hazırratdırdı. Tutdu bunun qolunnan otuzdurdu, dedi:
– Yeyək.
Dedi:
– Yeyəmmirəm axı.
Deyir:
– Yeyəmmirsən ölürsən, mən nağarım. Ye, ölmə.

## 14. BƏHLULUN BAZARKOMLUĞU

Bir gün Harun Rəşidə deyillər sənin qardaşın çox açıx-saçıx danışır. Allahın elə sirlər var demirsən ki, qan düşər, amma o açıf deyir axı. Deyir:
– Yaxşı.
Harun Rəşitdən böyüh idi Bəhlul Danəndə. Gəlif dedi ki, qardaş. Dedi:
– Nədi?
Dedi:
– Bura gəl.
Dedi ki, səni bu şəhərin bazarına bazarkom qoyajam, gedərsənmi?
Deyir:
– Yox, yox, yox.
Deyir:
– Ə, sən öl, getsən də göndərəjəm, getməsən də. Səni ora bazarkom qoyuram.
Fikirrəşir. Bu padşahdı dana. Hökm elədi, elədi dana. Deyir:
– Qardaş, nə deyirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sabah durdu getdi bazara. Getdi gördü ki, bir qəssab ət kəsib satır. Amma tərəzidə birinnən yüz qıram, birinnən əlli qıram, çəkiyə baxır, kəsir. Öz-özünə fikirrəşir ki, axşam, sən öl, sənin tifağını dağıdajam. Öz-özünə oturmuşdu. Görür orda, üzdən irağ, bir it var. Deyir:

– Qəssab.

Deyir:

– Nədi?

Deyir:

– Ət satırsan, camaat da burdan ət alır. Bu it nə gəzir burda? Olmaz axı belə.

Deyir:

– Vallah, mən o qədər üzü yumuşağ adamam ki, o itin burdan getməyinə təpinə bilmirəm. Elə qır-qurtuxdan tulluyuram, yeyir.

Dedi:

– Ola bilər haramxorrux eləsin.

Deyir:

– Yox, yox, yox. O eləməz.

Bunnan belə danışannan sora Bəhlul söykənir ora, tamaşa eliyir. Qəssab getdi putkanın dalına pəşo eləməyə. O gəlincə it ətdən götdü qaşdı. Bəhlulun əlinə girəvə keşdi dana. Dedi:

– Ay qardaş, bayax mən sənnən xayiş elədim, bu iti burdan genəlt, sən də genəltmədin. Sən getdin burdan, o da ətin birini götdü qaşdı.

Deyir:

– Qaşsın da. Bilirsən nə var?

Deyir:

– Nədi?

Deyir:

– O əti götürüf qaşmadı ey, öz ayağını götürüf qaşdı.

Dedi:

– Axı əti apardı.

Dedi:

– Yox, haramxorrux elədi. Da onu bura qoyarammı mən, nə olur olsun qoymaram.

Axşam getdi evə. Qardaşı dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Nətər keşdi?
Dedi:
– Vallah, gəlmişəm ki, mən o bazarda işdiyə bilmirəm.
Dedi:
– Niyə?
Dedi:
– Bazarı mən tənzimliyə bilmirəm.
Dedi:

– Mən səni bazarı tənzimləməyə qoymamışam. Bazarı tənzimliyən yuxarıdadı. O (qəssab – top.) camaatdan yüz qıram, əlli qıram kəsir, amma it bir kilonu götdü getdi.

## 15. BİZİM EVİMİZ ORADI

Qonşu ət alıfmış. Görür Bəhlul Danəndə gedir. Deyir:
– Bunu apar ver evimizə, arvad yemək bişirsin, günorta gələjəm.
Günorta gəlif görür ki, arvad yemək bişirmiyif. Deyir:
– Ay arvad, niyə yemək bişirməmisən?
Deyir:
– Məə ət gəlmiyif.
Deyir:
– Mən Bəhlula verdim axı, apar ver evimizə.
Çağırır:
– Ay Bəhlul, ay Bəhlul, əti neynəmisən?
Dedi:
– Demədin apar ver evimizə. Mən apardım verdim evinizə.
Deyir:
– Ə, neynəmisən əti?
Deyir:
– Apardım qoydum qəbirstannığa.
– Ə, qəbirstannığa niyə?
Deyir:
– Evimiz oradı da bizim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 16. BƏHLUL ATASINI BUYURUR

Bizdə bir məəllim var idi. Bir gün oturmuşdux. Dedi: "Dur get maa bir dənə siqaret al gətir, bir də bir Qax suyu". Getdim bir siqaret aldım, bir də Qax suyu. Dedi: "İncimə, səni buyurdum, ona aid bir misal deyəjəm". Dedim: "Məəllim buyur". Daha sonra belə bir məsəl çəkdi.

Bəhlul Danəndənin bərk gedən vaxdı idi. Ölkənin şahı vəzirə deyir ki, vəzir, dur gedəh, görəh bu Bəhlul Danəndə kimdi, camaat onun haqqında çox danışır. Durur vəziriynən gedir.

Xoş gəlmisiz, beş gəlmisiz. Oturullar. Oturan kimi Bəhlul Danəndə atasına deyir ki, ay ata, get maa bir isdəkan su gətir. Bu da gedir suyu gətirir. Bəhlul içir suyu. Padşah vəzirə deyir:

– Ə, dur gedəh. Da bu atasını buyurur, onda gör bizə nə hörmətsizdih eliyəjəh.

[Bəhlul] deyir:

– Boy, sağ olun sizi. Mən o suyu atama gətirtdim ki, suaf qazansın. Yəni su verməh suaf qazanmaxdı. Suyu niyə o uşax qazansın, elə mənim atam qazansın da.

Maa da dedi ki, səni ona görə suya göndərdim ki, suafı sən qazan. Sənin xətrini çox isdiyirəm.

## 17. DƏNİZDƏN ÇIXAN ƏL

Bəhlul Danəndə qardaşı Harun ər Rəşidnən dənizin qırağıynan gedirmiş. Bir də görür ki, dənizdən bir əl çıxdı, qalxdı göyə. Göyə qalxanda Bəhlul da barmağının ikisini gösdərdi. O saat əl yox oldu. Qardaşı soruşur ki, ay Bəhlul, o əl nə idi? O səə nə dedi, sən ona nə dedin?

Deyir:

– O dedi beş adamın sözü bir yerə gəlsə, dünya düzələr. Mən də dedim, ay rəhmətdiyin oğlu, burda ikisinin sözü bir yerə gəlmir. O saat deyir yox oldu getdi. O gəlirdi dünyanı düzəltməyə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## ABDAL QASIM HAQQINDA

### 18. ÇOX QOHUMLU BƏXTƏVƏR

Avdal Qasım bir bəyin evində işdiyirmiş. Bəy buna çox az pul verir. Avdal Qasım deyir:

– A bəy, etmə, eləmə, mən işləmişəm, aylə saxlıyıram.

Bəy əhəmiyyət vermir, deyir:

– Get, yoxsa səni birtəri eliyərəm.

Avdal Qasım gedir, eşşəyi minəndə deyir:

– Toş-toş, a bəy.

Belə deyəndə bəyin adamları tökülüb bunu çırpıllar. Təzdən durur, əzilə-əzilə minir eşşəyə, deyir:

– Toş-toş, a çox qohumlu bəxtəvər.

### 19. ABDAL QASIMIN ERMƏNİDƏN TOYUQ ALMASI

Avdal Qasım gedif ermənilərə deyirmiş ki, toyuğ alıcısıyam, gəlmişəm sizdən toyuğ alım. Hamı da bilirmiş ki, bu, Avdal Gülabdandı. Deyirmişdər ki, ara neçədən? Deyirmiş:

– Neçəyə sizə sərf eliyir?

– Toyuğun biri beş maatdan.

Hə, oldu. Deyirmiş ki, götürün gəlin, kimdə nə qədər var, gətsin.

İndi biri beşini, biri onunu, satacağı neçə dənədisə, tutuf gətirirmiş, bunun da at aravası varmış, yığırmış aravaya. Qutarannan sora aravadan yenir:

– Ə, yox e, mən səyfə yol verdim. Pul yadımnan çıxıf qalıf evdə. Alın bu iyirmi dənə toyux qalsın sizin yanınızda girov. Mən buları aparım, pulu gətirəndə qalanını götürüf gedərəm.

İndi bu Avdal Qasım gedənnən sora, bu erməni bir-biriynən danışırmış.

– Ara, o bizim öz toyuğumuzu özümüzə girov qoydu. O, Avdal Gülablı Qasımdı, o toyuğlar getdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 20. TOYUQDAN QORXAN QASIM

Bir erməni harsınına gözü düşür. Bunu güdür ki, görə bu havaxt səfərə-zada çıxır. Bular da bazara gedəsidi, hara gedəsidisə, hansısa çaydan keşməlidilər. Bu görür ki, erməni arvadıynan kənt-dən çıxdı. Bu da tez yükünü götürür, düşür bunnarın böyrünə ki, mən də bazara gedirəm.

– Ə, kirvə, nə var, nə yox, nətərsən, nejəsən?

Arvat da qoltuğunda bir dənə toyuğu, fərəni saxlıyıf ki, apara bazarda sata. İndi nəsə alajağ da. Avdal Qasımı da fikir aparıf ki, görüm neynim bir variant tapım. Gəlir, gəlir, çayın qırağına çata-çatda, burda da mütləx bir nəfər atdı adam olmalıdı, buları bələdçı kimi çaydan keçirə o üzə, sora qayıda o birini keçirə. Bu çaya yaxınnaşanda birdən Avdal Qasım çığırır:

– Əyə, sənə qurvan olum, əyə kirvə, onu qoyma, əyə kirvə, o məni yeyəjəh, qoyma.

– Ara, buna nooldu? Ə, nə yeyəjəh səni?

Deyir:

– Odey, arvadının qoltuğunun altındakı nədi?

– Ara, elə fərədi dana, nə var ki, qoxursan onnan.

Deyir:

– Yox ey, o mənim bir dəfə anamı ağladıf, onu maa yaxın qoyma.

İndi çaydan keçən mamentdi. Avdal Qasım buna deyir ki, sən fərəni götür keç oyza, o fərəni orda bir yerdə saxla, mən sora ke-çim. O ayna keçən kimi bu, arvadı tutur. Erməni baxır ki, bu əngəl törədəjəh. İndi nə qədər çığırırsa Avdal Qasımın nə vejinədi. İndi bunu qorxuzmağ üçün çayın o tərəfinnən toyuğu belə tutur:

– Ara Qasım, pərə pır, pərə pır, pərə gəldi yanına.

O da deyir fırıldat, cəhənnəmə gəlsin.

## LOĞMAN HAQQINDA

## 21. ÖZLƏRİ ÖZ DƏRMANINI BİLİRLƏR

Bir gün Loğman yolnan gedəndə görür ki, bir neçə çoban da-ğa təzə çıxıflar. – Cujux deyirih, dağlarda bitir. Onu yeyəndə zə-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

hərrənmə verir. Heyvan da onu çox yeyəndə görürdün zəhərrənir. Deyirdilər filankəsin malı cojuğa düşdü, öldü. Yaxşı tamlı bitkidi, amma tez zəhərrənmə verəndi. – Gedəndə görür ki, dağın başında çoban-çolux yığılıfdılar, bu cojuxdan yeyillər. Deyir:

– Hə, yeyin, yeyin. Mən gedif qayıdınca hamıız zəhərrənərsuz, mən də yaxşı dərman hazırrıyıf verərəm, yaxşı pul yığaram.

Qayıdıf gələndə görür ki, bular vallah, qoyunu dəyirmiliyif hərəsinin əlində bir baydaça. Qara qoyunu tutuf ordan sağıllar, köpühlü-köpühlü südünü içillər. Deyir:

– Ay zalım uşağı, dərdizin dərmanın bilirmişsuz. – Demək, onun zəhərini bu süd öldürdü getdi. Qara qoyunun südü zəhərrənmənin dərmanıdı. – Da sizə həkim-loğman lazım deyil. Sizin loğmanız elə özüzsüz.

Bir gün də gedirmiş. Görür ki, beş-on nəfər adam oturuf yulğunnan tonqal qalıyıf, özdərini yulğunun tüsdüsünə verir. Deyir:

– Hə, mən gedirəm, gəlincə yulğunun zəhərri tüsdüsü buların hamısının gözünü ağrıdajax, bular düşəjəh göz xəsdəliyinə. Gələjəhlər yanıma gözünə dərmana. Mən də yaxşı puldan qırıf bulara dərman verəjəm.

Gedir, qayıdanda görür həmən adamlar malın təzəyinnən beləjə dəyirmiliyif qalıyıf oturuflar. Deyir:

– Hə, demək dərdizin dərmanını özüz bilirmişsuz. Bu mal dağlarda otduyur, yüz cür çiçəh yeyir. Hər çiçəhdən bir vitamin keçir buların təzəyinə. Buların təzəyinin tüsdüsü gözə dərmandı.

## AFŞARLAR HAQQINDA

### 22. SORUŞ GÖR, HƏLƏ PRAVASI VAR?

Maşınnarda remenin təzə çıxan vaxdı idi. Afşar bajısı oğluna deyir ki, məni apar Yevlağa. Yevlağa çata-çatda qayı* bunu saxladır. Şoferə deyir:

– Niyə remen taxmamısan?

* qayı – QAİ



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Böyründəki ağsakqal düşür, deyir:

– Ə, bura gəl, bura gəl. Əyə, sən neynirsən remeni. Bunnan soruş gör, hələ bir bunun pravası var, yoxsa yox?

Sən demə bunun heş pravası da yox imiş. Qayı işçisi də deyir ki, çıxın gedin, da mənim siznən işim yoxdu.

## 23. YEMİŞƏM AŞUNU, TÖKMÜŞƏM YAŞUMU

Bir arvad gedif afşarın yasına. Yolda bir arvadnan qarşılaşır. Bunun da yası olanda həmin arvad gəlmiyif da yasa. Yolda kəsir arvadın qabağını, deyir:

– Niyə gəlmədin mənim yasıma. Mən gəldim sənin yasına, yemişəm aşunu, tökmüşəm yaşumu. Sən də gəl mənim yasıma, aşumu yi, yaşunu tök, get də.

## 24. AFŞAR ŞƏRİ

Afşarın birini polis saxlıyır. Nə qədər minnət eliyir, görür xeyri yoxdu. O biri afşar soruşur ki, ə, niyə şərrəmirsən? Deyir:

– Ə, nə şərriyəjəm. Yüz alıf, deyir yüz də ver.

Polis deyir:

– Ə, Allahın olsun, mən sənnən nə vaxt pul isdədim?

## 25. YEYİM, DOYUM, NƏ VERİM?

Afşar yolnan gedir. Görür biri yığıf üş-dörd vedrə tut, satır. Deyir:

– Yeyif-doyum nə verim?

Deyir:

– Üş maat.

Vedrənin birini qabağına çəkif başdıyır xışmalağa. Görür ki, ə, vedrə yarıdan keşdi. Buna sərf eləmir axı. Bu fikirrəşirdi ki, yəqin bir az yeyif doyuf gedəjəh. Deyir:

– A qardaş, sən nağarırsan?

Deyir:

– Nağarıram?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:
– Tutu heylə yeməzdər axı.
Deyir:
– Nətər yeyəllər?
Deyir:
– Tutu bir-bir, bax belə-belə yeyəllər.
Deyir:
– O biri vedrəni heylə yeyəjəm.

## 26. ELƏ BİLİRƏM DAVA KAĞIZIDI

Afşara bir kağız gətirillər. Deyillər:
– Sənə bir məktub gəlif.
Deyif:
– Ay bala, oxuya bilmirəm, oxu görüm nə məktufdu?
Oxuyuf deyir:
– Kimnənsə gəlif.
Deyir:
– Allah səni saxlasın, mən də elə bilirəm dava kağızıdı.

## 27. ƏŞİ, YEYİRSƏN DANA

Bir yerdə məclis oluf. İki-üç adama bir boşqaf yeməh çəkilən vaxdarı oluf. Bir boşqaf ora qoyuflar, bir boşqaf bura. Biri iki adama baxır, biri üç adam. Nejə oğlu Əhməd də götürüf bu tikələri bir-bir dişinə vuruf qoyur, dişinə vuruf qoyur. İndi bu boşqafdan yeyənnər görüllər bu, hamısını ağzına vuruf qoyur ora. Əllərini surfadan çəkillər. Bu da hiss eliyir, amma öz işindədi. Yeyir, qutarana yaxın deyir:
– Ə, niyə yemirsiz?
Deyillər:
– Əşi, yeyirsən dana.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## QARABAĞIN BAMƏZƏ ADAMLARI HAQQINDA

### 28. AĞAMİR DAYI

#### I mətn

Birinci katib Səfərəliyev birqadirrərin hamısını tanıyırdı. Bir-bir durğuzur ayağa, deyir neçə faiz məhsul yığıfsan?

Deyir:

– Yoldaş Səfərəliyev, iyirmi beş faiz.

Başdıyır dannamağa. Özü də insannar onun qabağında zağ-zağ əsirdi. O deyir iyirmi beş faiz, dannıyır, bu qalxır otuz faiz, dannıyır, o qalxır otuz beş faiz, dannıyır. Bunu (Ağamir dayını – top.) durğuzur ayağa.

– Ağayev Ağamir!

Durur ayağa, deyir:

– Yoldaş Səfərliyev, yetmiş beş faiz.

Oturanda deyir ki, "qalıf". Yetmiş beşi ona çatdırıf, qalıbı yerdəkilərə. Səfərəliyev də deyir ki, görürsüz, ağsakqaldan nümunə götürün, belə işdəməh lazımdı.

#### II mətn

Kim planı verə bilmirsə onu həbsə göndərərdilər. Heylə bir dövr idi. Onda da "İyirmi altı komissar" kalxozu çox geri idi. Kimsə tutulmalıdı. Ağamir dayı durur ayağa, deyir:

– A kişi, dayan, dayan. Peleni tanıyırsan?

Xəlfə İbrahimov deyir:

– Yox.

Deyir:

– Əşi, Braziliyada məşhur futbolçu var, sən onu tanımırsan?

Deyir:

– Əşi, Pelenin kalxoza nə dəxli var?

Deyir:

– Yox ey. Pele neçə illərdi vura-vura gəlir. Vurdu, vurdu, vurdu, indi ayağı büdrədi vurammadı. Qan düşdü? "İyirmi altı komis-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sar" kolxozu da indiyətən nələr eliyif. Bu il gəlif belə oluf da. Qan düşdü?

### III mətn

Bir dəfə Əliyev Kərim gəldi, getdih bizim sahələri gəzdih, Ağamirin sahələrini gəzdih. Ağamir kişinin sahəsinə çatanda dedi ki, pambığı seyrətdir. Ağamir kişi dedi ki, çox qoyunun çox quzusu olar. Bir xeylağ söypət eliyənnən sora bir də dedi ki, pambığı seyrətdir. Ağamir kişi bu dəfə dedi ki, arxalı köpək qurd basar. Əliyev Kərim dedi ki, bizdə bir dəm tutan vardı, otuz il balabançının yanında dəm tutdu, bir dənə hava çalmağı örgənmədi. Sənə deyirəm ki, pambığı seyrətdir, nə maa fəlsəfə danışırsan.

## 29. SOLTAN BƏY*

### I mətn

Sel bir ayı gətirir. Belə çıxardanda görüllər ki, bir ayı ölüfdü, sel gətirif. Burdakı bəy, mən bilən Şükür bəydi, götürüf Soltan bəyə bir məktub yazır ki, burda bir əziziniz ölüfdü, indi sizin urf-adəti bilmirih ki, onu dəfn eliyəh. Yazginan nə cür lazımdısa, onu o cür dəfn eliyəh. Götürüf buna cavab yazır ki, öz əziz ölüzü nətər dəfn eliyirsizsə, onu da heylə dəfn eliyin.

### II mətn

Şükür bəyin bir tulası varmış. Soltan bəy eşidir ki, bu tula ölüfdü. Tulanın da adı Qaşdanımış. Soltan bəy gedir bir adam tapır. Buna bir at verir, bir az da qəntdən, çaydan verir, göndərir bəyə ki, bir az da zarafatları varmış, başın sağ olsun, ölüf ölüf da. Yaranan hamısı öləjəh də. Mənim də başım qarışıx oldu gələ bilmədim, məni üzürlü hesab elə.

---

* Soltan bəy haqqında hər iki mətn Ağcabədi rayonunun Salmanbəyli kəndindən qeydə alınıb.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu da deyir ki, yaranan öləjəhdi. Qaşdanın öldüyündə deyiləm, amma canı ağzınnan çıxınca "Soltan əmim gəlmədi", – deyif dad eliyirdi.

## 30. MOLLA LƏTİF

### I mətn

Molla Lətif oluf bizdə, Allah rəhmət eləsin, bir də Keçəl Xasay. İkisi də bu kəndin* Cancan tirəsinnəndi. Buların bir-biriynən çox zarafatdarı vardı. Bir gün Molla Lətif gedir bazara bir inək alır gətirir. Yaxşı da inək imiş. Xasay eşidir ki, Molla Lətif bir inək alıf gətirif. Gəlif deyir:

– Ay Molla Lətif, Allah heş xeyir verməsin.

Deyir:

– Allah atana heş rəhmət eləməsin.

### II mətn

Sovet dövründə Molla Lətif mollalığını danıfdı. O vaxdı mollalara ilişirdilər də. Kəntdə camaat iclas eliyir ki, bir nəfəri kalxoz sədri seçək. Kalxoz sədri də gərək yazı-pozunu bilsin də. Camaat təklif eliyir ki, gəlin elə Lətifi seçək. Amma qabaxcadan da razılaşıflar ki, Lətifin molla olduğunu demiyək. Bu belə deyəndə Xasay da ordan qalxır ki, hə, Molla Lətif yaxşı namizətdi. Onnan da iş pozulur. O da deyir:

– Ə kopoğlu, mənim mollalığımı bircə sən bilirdin?

## 31. SÖYGÜLÜ CANAN

İki qardaşdılar, təmir-tikinti idarəsinin işçiləri idilər. Birinin adı Söygül idi, birinin adı Canan idi. Təsərrüfat vaxdıdı. Yay olanda idarə müdirləri hamısı səhər-səhər gedirdilər pambıxnan məşğul olmağa. Raykomun katibi yoldan keçəndə görür ki, Ələsgər məəllim duruf məktəbin ağzında.

---

* Qaradolaq kəndi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Əyə, bu niyə getmiyif pambığa? Saxla, maşını saxla.

Maşını saxlıyıf. Deyif:

– Ələsgər məəllim, niyə burda durmusan?

Deyif:

– Söygülü Cananı gözdüyürəm.

Buna çatır ki, sevgili cananı, sürür gedir. Şoferi göndərir ki, get Ələsgər məəllimi çağır. Deyir:

– Ələsgər məəllim, o nə cavabdı: "Sevgili cananı gözdüyürəm?"

Deyir:

– Yoldaş katib, məndə usda işdiyir, birinin adı Söygüldü, biri Canandı. Mən Söygülü Cananı gözdüyürəm.

## 32. GÖTÜR BALTANI QOY XURCUNA, YA ƏLİ

Abbas nohə deyirdi. Bir nəfər də vardı Qəmərbəyim oğlu Tafdıx deyirdilər. Elə formasına baxırsan, deyirsən ki, elə bu din adamıdı. Bunu da özüynən götürürdü. Abbasın qəşəh nohələri olurdu. Küçənin o başınnan nohə desə, bu başınnan camaat nəzirdən-niyazdan tökərdi. Heylə nohə deyərdi. Amma bir az da əliəyri idi.

Girillər bir həyətə. Nohə deyəndə baxır görür ki, darvazanın ağzında qəşəh bir balta var, bəlkə üç maşın odunu yarar. Tafdıx da çiynində xurcun durur. Bu dedihcə, bu da nəziri yığır. Baltaya gözü düşür. Başdıyır nohə deməyə:

Götür baltanı, qoy xurcuna, ya Əli.
Götür baltanı, qoy xurcuna, ya Əli.

Tafdıx bunu başa düşür. Baltanı götürür qoyur xurcuna, görür sapı yerrəşmir. Qayıdır deyir:

Sapı yekədi, sığışmır, ya Əli.

## 33. BƏYNƏN SÜD QARDAŞI OLMUSAN

Bir bəy oluf, bərk xəsdəliyə tutulufmuş. Buna türkəçarə həkimlər deyiflər ki, sən eşşəh südü işməlisən. Yazda da təzə doğmuş heyvan xəsil yeyər da. Bəy süd işməhdən ötrü gərəh xodux da yarıya, süd də artıx qala ki, onu da bəyə verələr. Xoduğu da bura-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

xıflar xəsilin içinə. Xodux ayna-bayna okqədər hopanırmış ki, bəy də azarı adam imiş, qıraxda oturufmuş. Xodux gəlif bunun qavağında bir belə şıllax vurur, bir belə şıllax vurur. Hirsdənir axı, dözəmmir. Deyir:

– Niyə şıllax vurmuyasan. Xəsilin içində yeyirsən, üsdəlih bəynən də süd qardaşı olmusan.

## MÜXTƏLİF MÖVZULU LƏTİFƏLƏR

### 34. FƏRASƏTİ VARDI, BİRİNİ DƏ O TUTARDI

Biri birinnən on qoyun borc alır. Vaxt keçənnən sora adam göndərir ki, mənim qoyunnarımı versin də. Bu gətirir dokquzunu verir. Dokquzunu verəndə deyir:

– Ə, sən on qoyun boşdu idin.

Deyir ki, ə, ondu da. Deyir:

– Yox, dokquzdu.

Deyir:

– Ə kişi, yox ey, ondu.

On nəfər adam gətirir. Deyir:

– Hərəniz birini tutun.

Hərəsi birini tutanda birinə çatmır axı. Deyir ki, bə nətər oldu? Görürsən, biri yoxdu. Deyir:

– Ə, boyunu yerə soxum, fərasəti vardı, birini də o tutardı.

### 35. OTUZA DURMAYAN, ON İKİYƏ YAXIN DURARDI?

Birinə sual verillər ki, neçə imamımız var. Deyif:

– Otuz.

Deyif:

– Ə, nə danışırsan, otuz nədi?

Deyif:

– Yaxşı, qırx.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nəysə, mərc gəlillər, gedillər qazının yanına. Qazının yanına gedəndə deyir:

– Ə, niyə gəlmisiz?

Deyir ki, bəs belə-belə. Mən buna sual verirəm, bu da cavabını düzgün vermir. Deyir:

– Nə sual verir?

Deyir:

– Məə sual verir ki, neçə imamımız var. Deyirəm otuz, razılaşmır, deyirəm qırx, razılaşmır. Bə mən nağarım?

Deyir ki, ə, boynunu yerə soxum, deyə bilmirdin on ikidi imam. Belə deyəndə qazıya deyir ki, ə, sənin boyunu yerə soxum, otuza-qırxa yaxın durmuyan, on ikiyə durardı?

## 36. BƏXTƏVƏR SİZSİNİZ

Bir gün bir məclisdə söypət gəlinnərdən düşür. İş elə gətirir burda hamı qaynana olur. Hamı başdıyır gəlnini pisdəməyə, heş tərifliyən olmur. Biri deyir gəlnim yatağandı, o biri deyir iş bacarmır, bu biri deyir tənbəldi. Bir sözlə hamı gəlnini pisdiyir. Buların içində bir dənə diribalası varmış. Deyir:

– Ay arvatdar, səsinizi kəsin bir dəyqə. Kim gəlninnən narazıdırsa, əlini qaldırsın.

Hamı əlini qaldırır, birinnən başqa. Görüllər dinməzcə oturuf. Deyillər:

– Buuy, bəxtəfərə bax, gör necə yarıyıf, əlini qaldırmır.

Bu bəxtəfər də qayıdır ki, bəxtəfər sizsiniz ki, əliniz-qolunuz salamatdı. Bəs mənimki iki qolumu da qırıf, qaldıra bilmirəm.

## 37. ELƏ BAĞLAMIŞAM, YERƏ DÜŞMÜYƏCƏK, AY QAYINANA

Gəlinnər xamırı kündəliyif yığıllar. Qaynana sajı ojağın üsdünə qoyuf sanıyır ki, on dənə kündə var. Nəysə, bu gedir. Bu gəlinnər də yekə kündəni balacalaşdırıf yeyillər. Bir vaxdı görüllər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ki, qaynana gəlir. Onda da tuman-köynək olur, qatmaynan bağlıyırmışdar bellərinə. Bu gəlinin biri bəzzad olur. Gətirir çörəyi bağlıyır belinə. Çörəh də isdi olur. Qaynana gəlir görür ki, kündə balacadı, ortada da çörəh azdı. Baxır ki, bunnardan tapa bilmiyəjəh. Deyir ki, sən öl, bunnarı oynadajam, indi kimin qoynunda, qoltuğundasa, düşəjəh yerə. Böyüh gəlinnən başdıyır. Deyir:

– A gəlin, sən gəlin gələndə oynadın ey, mənim yaman xoşuma gəlir, bir oynasana.

Deyir:

– Yaxşı.

Bu durur fırranır. Deyir:

– Mən kündəni kəsməmişəm, ay qaynana.

İkinci gəlin deyir:

– Mən də heş bir şey başa düşməmişəm, ay qaynana.

Üçüncü gəlin deyir:

– Vallah, mən səni pusmamışam, ay qaynana.

Dördüncü, beşinci, altıncı da deyir. Axırda yeddinci gəlin deyir:

– Qorxmayın ey, ay qızdar. Elə bağlamışam, elə asmışam ki, yerə düşmüyəjəhdi, ay qaynana.

### 38. HALIMA BAX, AY MAHMUD*

Bir gün bir arvadın gözünün ağı-qarası madar bir oğlu varmış. Bunu həvəsiyir tez evləndirir ki, gəlnim olsun, nəvəm olsun. Gəlin gələn günnən bu arvadın günü göy əysiyə dönür. Buna iy vermir, yedirtmir, içirtmir. Bu oğul çıxıf gedir savah ertə, bir də axşam gəlir. Görür bunun nənəsi günü günnən qupquru quruyur.

– Ay ana, dərdini nədi, xəsdəsən?

– Yox, ay bala.

Arvad da dərdin buna demir.

---

* Əvvəl getdiyimizdə gəlinləri yanında olduğundan söyləyici gəlin-qayınana münasibətlərindən bəhs edən lətifələri demək istəmədi. Amma növbəti dəfə gedəndə gəlinləri yanında yox idi, ona görə də bu lətifələrini çəkinmədən bizə danışdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay ana, de görüm nədi, niyə beləsən? Mən qazanıram, aj qalmırsuz, susuz qalmırsuz. Sizin ehtiyacız üçün mən günüz axşamatan çalışıram ki, mənim anam, ayləm aj qalmasın. Bax, sən niyə beləsən? Bu gəlin günü-günnən kökəlif şişif, ennən-dənnən çıxıfdı, amma sən beləsən.

Bu demir ki, gəlin məə zulum verir. Deyir:

– Ay oğul, vallah nə bilim, surfaya qoyulanı görürsən. Sən də yeyirsən, mən də yeyirəm. Heş xəsdəliyim də yoxdu.

Demə, bu gəlin günü qara olmuş, oğul evdən çıxanda mütəkgəni qoyuf uzanırmış. Deyirmiş nə iş var, qaynənə? Qapını süpür, quyudan su çək, heyvannarı sula, heyvanın altını təmizdə, xamırı ajıt, çörəh bişir, yeməh qayır, paltar yu. Nə iş varmış hamısın arvada gördürürmüş. Arvad yoruluf taqətdən düşəndə gəlif deyirmiş:

– A bala, bir loxma çörəh ver, heç olmasa yeyim, taqətim olsun da.

Deyir:

– Onda mən lillili çalajam, sən oyna. Oyna, səə bir tikə çörəh verim.

Arvadın əlajı yoxuymuş da, nağarsın. Gəlin vedrənin dalına belə dumbadum eliyirmiş, arvadı oynadırmış, axırda buna bir tikə çörəh verirmiş, yeyirmiş. Buna görə də arvad günü-günnən sınıxırmış.

Bir gün bu oğlan savah-savah duruf qazanca gedəndə, bir qonşusu varmış bunun, qonşu bunun qavağına çıxır. Salam-kalam. Oğlanın adı da Mahmudmuş.

– Ay Mahmud, vəziyyətin-zadın? Evdə-eşihdə nə var, nə yox?

Deyir:

– Vallah, anam nəysə yaman geridi. Anamın bu halı məni heş rahat eləmir. Oların ujunnan gejəm-gündüzüm yoxdu. Çalışıram gündəlih yeməklərini, yağlarını, çörəhlərini, ətdərini, azuqələrini gətirirəm, anam genə də qupquru quruyuf gedir. Bilmirəm anamın dərdi nədi. Mənə də heş-zad demir.

Deyir:

– Oğul, mən sənə bir söz deyim. Sən qayıt səfərdən. Get pus, anaan vəziyyətini gözünnən gör. Ananın nəysə bir sirri var, sənnən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gizdiyir, – deyəndə bunun ağlına batır. Qayıdır gəlir evinin yaxın yerində gizdənir. Görür gəlin yıxılıf bərdən ayna, mütəkgəni qoyuf dizinin altına, nənə də pərvan-pərvan qulluxçu təki qapını süpürdü, quyudan su çəkdi, qapını suladı, heyvannarı suladı, paltarı yudu, çörəyi bişirdi. Gün günortadan addadı. Axşam olanda gəldi dedi:

– Ay gəlin, vallah ürəyim getdi, bircə loxma çörəh ver, – deyəndə gəlin dedi ki, şərtimiz var, oyna, çörəh verim.

Başdadı vedrənin arxasını danqıldatmağa. Arvad girdi ortalığa,

Halıma bax, ay Mahmud,
Huluma bax, ay Mahmud.
Oynadıf əppəh verillər
Əhvalıma bax, ay Mahmud,

– deyə-deyə başdadı oynamağa. Mahmud çıxdı:

– Ay filan-filanın qızı, belə eliyirsən, onçün nənəm belədi.

Arvadın belinə bir-iki ağaş çəkir, arvad durur küsülü qaçır. Bir müddət qalannan sora arvad deyir:

– Bala, balaları anasız qoyma.

Gedir özü yalvar-yapış eliyir, gəlini gətirir. Gəlin onnan sora and içir, tova eliyir. Qaynənəynən islah dolanır.

## 39. ALTI DAŞ, ÜSDÜ AŞ

Biri də olur, bir tək oğlu olur. Bunu evləndirir. Oğul axşamatan çalışır-vuruşur, axşam evə az-çox azuqə gətirir. Gənə bunun da nənəsi günü-günnən geri gedir. Deyir:

– Ay nənə, dərdin nədi? Yeməhdən ehtiyacın yox, işməhdən ehtiyacın yox. Sizin ujuzdan mən gejə-gündüz çalışıram ki, siz aj qalmıyın.

Deyir:

– Ay bala, hez zad yoxdu. Gözün görür, surfadı, hərəyə bir tikə gəlir, mənə də gəlir. Aj qalmıram, açıx qalmıram. Amma nədisə sınıxıram.

Gəlin qava bir dənə lay daş qoyuf, üsdünə də bircə qaşıx yeməh səpəliyərmiş, guya boşqab doludu. Qoyurmuş arvadın qava-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ğına. Arvad da bir loxma götürəndə daşa dirənirmiş. Bunnan da avadın qarnı doyan deyilmiş ha.

Nəysə, arvad dözmür, bir qızı varmış, gedir qızının evinə. Gedir ki, bəlkə orda qarnı doya. Gedəndə bunun yeznəsi də gəlinnən bedahat olur. Qızının gününü qara eliyif. Nənən nəyə gəlif, oğluna nə gəlif? Yeməyi nənənə verdin, o gələnnən bəri bizə baxmırsan. Daa bu arvad baxır görür ki, qızının günü qaradı. Deyir:

– Ay bala, altı daş, üsdü daş, genə də oğul yaxşıdı. Qoy qayıdım gedim oğlumun yanına.

Durur gəlir oğlunun yanına. Arvad hər surfa gələndə deyir:

– Altı daş, üsdü aş, gənə də oğul yaxşıdı.

Oğlu deyir:

– Ay nənə, bu nə sözdü, bu nə əzbərdi, elmisən? Bunun sirrinnən məni agah elə.

Deyir:

– Bala, altı daş üsdü aş, genə də oğul yaxşıdı. Neynirsən, bir sözdü deyirəm, sən xırdalama.

Nəysə, bir gün oğlu fikirrəşir ki, "altı daş, üsdü aş" nə olan şeydi. Deyəndə götürür nənəsinin boşqabını qoyur öz qavağına, özünün boşqabını qoyur nənəsinin qavağına. Bu oğlan bir tikə batıranda görür nə? Altı daşdı. Daşı götürüf arvadının kəlləsinə, arvad yıxılır bərdən ayna. Ay sənin dədən bı, nənən bı. Demək nənəmin altı daş üsdü aş dediyi buymuş. Onnan sora o da heylə düzəlir.

## 40. İZ EŞŞƏYİN, FİL* GƏLİNİN

Birinin də bir gəlni olur. Bu gəlin hamilə olur. Kadınnarda deyillər də ağzı azır. Bunun dooğadan ötrü ürəyi gedir. İsdiyir ki, dooğadan ötrü ətini darta, yeyə. Bir günü bunun qaynənəsi bir qazan dooğa bişirir. Bunnan bir qaşıx gəlinə vermir. Bu gəlin dooğa sarıdan az qala hönkür-hönkür ağlıya.

---

* fil – fel, əməl



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Allah, nətər eliyim, nejə eliyim, dooğadan ötrü ölürəm axı. Bir qazan orda dursun, mən də burda baxa-baxa qalım.

Arvad durur qazanı qoyur evin ortasına, evi möhkəm sucux eliyir, sudan tökür. Özü də deyir ki, mən gedirəm qonşuya, axşam gələjəm. Bu gedənnən sora gəlin qalır. Axı ürəyi gedir, bu dooğadan işməlidi. Deyir: "Neyniyim, nejə eliyim. Ayağımı qoyan təki izi düşəjəh. Arvad gələn təki biləjəh ki, mən gedif dooğanı işmişəm". Əlacı kəsilir, eşşəh vardı, durur eşşəyi minir, avgərdəni də götürür əlinə. Saxlıyır qazanın yanında. Avgərdənnən götürür bu dooğadan doyunca içir. Tamam nəfsi sönür. Qayıdır gətirir gənə eşşəyi boşduyur, gəlir oturur.

Arvad gəlir görür, vay evi yıxılan fələh, qazan yenif ortasına, evdə də heş iz yoxdu, eşşəyin izidi. Arvad məətdəl qalır. İz eşşəyin izidi, fil gəlinin filidi. İşdi işdi, yarəb, nəynən işdi. Arvad elə belə deyə-deyə canını tapşırır. Can verən anda deyir: "İz eşşəyin izidi, fil gəlinin filidi. İşdi işdi, yarəb, nəynən işdi?" Gəlin gəlir deyir ki:

Eşşəyi mindi,
Avgərdəni götdü,
Getdi dooğanı işdi,
Səni də cəhənnəmə göndərdi*.

Onnan sora arvad canını tapşırır.

## 41. YAMAN DƏRTDİ, BACI

Bir arvadın da üş gəlini olur. Bu arvad bu gəlinnərə zulum verirmiş. Bir gün arvad deyir ki, mən dururam gedəm qonşu kəndə molla var onun yanına. Gəlinnər tək qalanda deyillər ki, buyünnəri qaynənəmiz evdə yoxdu. Durax nəsə bişirəh, yeyəh. Nə bişirəh, nə bişirəh. Ay qazan bulaşajax, qaşıx bulaşajax, yağ olajax, arvad biləjəh. Deyəndə balaja qız deyir ki, gətir kömbə bişirəh. Qavaxlarda belə kömbə bişirirmişdər, külə basdırırmışdar, içinə ayın-oyun qoyuf

* Sonuncu cümlədə biədəb söz işləndiyindən söyləyici onu dəyişdirir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

soğannı-zaddı bişirirmişdər. Bular gətirir ojağı qalıyır, kömbənin xamırını yoğurullar. Salıllar elə kömbəni bişirif ojaxdan çıxardanda qəfil arvad gəlir. Arvad gələndə deyillər, ay bajı, nağarax, gəldi. Deyillər kömbəni bağlıyax tumanın altınnan belimizə, suya gedəndə aparıf orda yeyəh. Bunu evdə harda gizdətsəh arvad iyinnən biləjəh. Kömbə soğannı-zaddı bişərmiş, iyi evə yayılan olurmuş. Gətirillər bunu büküllər bir yaylığa, bağlıyıllar böyüh bajının belinə. Qaynar kömbə bunu yandırdıxca gəlin ayna-bayna soncuxluyur.

– Vay, vay, vay, yaman dərtdi bajı, – deyəndə ortancıl bajı deyir:

– Qorxma bağı bərhdi, bajı.

Guya möhkəm bağlamışam da, açılmaz. Deyəndə balaja bajı deyir:

– Bilsə yaman dərtdi, bajı.

Arvad bunnan annıyır, deyir:

– Deyin görün bu nə sözdü. Bir də deyin mahnuzu.

Böyüh bajı soncuxladıxca deyif:

– Baba, baba, baba, yaman dərtdi, bajı.

Ortancıl deyif:

– Qorxma bağı bərhdi, bajı.

Kiçih deyif:

– Bilsə yaman dətdi, bajı, – deyəndə arvad deyir:

– Bura gəlin görüm sizin nə sirriz var.

Buları lütdüyəndə baxır görür kömbə gəlinin belində. Kömbəni alır özü yeyir, buların da hərəsinin belinə bir-iki dəfə vurur:

– Mən yox idim, demək, belə eləmisiz?

## 42. MƏN BİRİNİ GÖSTƏRMİŞDİM

Biri arvadını sınamax isdiyirmiş ki, görüm arvad xəbər yayandı, yoxsa yox. Səhər durur deyir ki, arvad, səhər durmuşam görmüşəm yerimdə saxsağan var, beyjə saxsağan doğmuşam. Bax, heş kimə demə ha.

Deyir:

– Əşi, heylə şey olmaz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Dədəmin goru haqqı, budaha bax. Saxsağan da budu.

Bir saxsağan balası tutuf gətirmişmiş. Nəysə, səhər arvad özünü saxlıya bilmir. Ora fırranır, bura fırranır. Qonşunu çağırır, deyir:

– Kişi, beyjə bir saxsağan doğuf.

– Aaz, Allahın olsun, kişi doğmaz.

Deyif:

– Vallah, saxsağan doğuf, yalan döylü a.

Bu ona, o buna, bu ona, o buna. Nəysə, xəbər çatır şaha. Şah deyir:

– Filankəsi bura çağırın gətirin.

Gətirillər. Deyir:

– Ə, bura gəl görüm, bu nətər hak-hesabdı. Deyillər ki, sən qırx bir saxsağan doğmusan.

Deyif:

– Şah, elə saa qırx bir çatdı?

Deyif ki, maa qırx çatmışdı, birin də mən qoydum böyrünə.

Deyir:

– Vallah, mən arvada birini gösdərmişdim, arvadı sınıyırdım. İndi sana gəlif qırxı çatıf.

## 43. MƏNƏ DƏYMƏGİNƏN

Gəncəli bir balabançı vardı. Həsənqaya kəndindəki kirvəliyim bunu gətirmişdi məclisə. Bu evi yıxılmış həm balaban çalır, həm saz çalır, da saz aşığına imkan vermir. Bu qaravəllini nətər başıdıyrsa, – bizim camaat da qaravəlliyə çox meyillidi, gülməh üçün əldən gedir, – ta camaat uğunuf gedir gülməhdən. Axırda aşıx dözəmmədi. Dedi ki, ya sən məclisdən çıx, ya mən çıxıf gedirəm. Həmin balabançı danışırdı. Deyir, bir dəfə bərk isdiydi, çıxdım avtobusa. Gördüm yerdi dana, şapbıltıynan özümü tez yıxdım o oturacağa. – Özü də qarnı, bax, bax, belə idi. – Güjnən nəfəs alıram. Birdən başımı qaldırdım ki, qujağında uşax bir qadın kəsif başımın üsdünü.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə kişi, ağsakqal kişisən. Durmuşam başının üsdündə, sənin heş vejinə döyül.

Dedim:

– Bala, nədi, noluf?

Dedi:

– Bir oranı oxu görüm.

Belə qayıtdım gözümü hərrədim ki, mən otduğum yerə yazıflar: "Uşaxlı qadın yeri". Çöndüm belə, dedim:

– Bajı, Allaha şükür, sən salamat qutarmısan, mən ölürəm. Qadan alım, mən qutarana qədər mənə dəyməginən.

## 44. DIZZ

Bir qonşu gedər bir qonşudan pul alar. O da inəyini təzə satmışdı, bir az pulu vardı. Çıxıf bazardan yenisini almax isdiyirdi. Borc isdiyən qonşu deyir ki, gələn həftəyətən pulunu verəjəm. Nəysə, pulu alır, amma bazar günü, dediyi vaxt gətirmir. Borc verən gedir deyir ki, ə, mənim pulumu ver da, gedim inəh alım. Dedin axı gətirif verəjəm. Ə, bu gün verəjəm, savah verəjəm. Borc alanın da bir qonşusu varmış. Deyir:

– O kimdi həftədə bir yol gəlir sənin üsdünü kəsir?

Deyir:

– Ə, onnan borş pul almışam, indi əl çəkmir. Gedir gəlir, gedir gəlir. Mən də düzəldə bilmirəm.

– Nə qədər almısan?

Deyir:

– Üş yüz maat.

Deyir:

– Gəl saa bir söz örgədim. Lap aparsın səni versin məhkəməyə. Mən deyən sözü de, məhkəmə səni azad eliyəjəh.

Deyir:

– Nə deyim?

Deyir:

– O, sənə gəlif deyəjəh mənim pulumu ver. Sən ona qəti demə ki, verirəm, vermirəm. Elə denən "dızz", əlini belə qulağının divinə apar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

“Dızz” eliyəndə ona ajığ gedəjəh dana. Desə ki, adamsan, adam oğlusan, “dızz” nədi, mənim pulumu ver. Denən “dızz”. Da ayrı söz demə.

Gəlir bu pulunu isdədihcə heylə deyir. Nəysə, olmur, aparır bunu verir məhkəməyə. Məhkəmə çağırır. Deyir ki, ə, bu kişinin pulunu niyə vermirsən?

Deyir:

– Dızz.

– Ə, adam oğlusan, insan oğlusan, dızz nədi? Kişinin pulunu almısan, niyə vermirsən?

Dızdan savayı bir söz demir. Axırda məhkəmə qayıdır o inəh yiyəsinə deyir:

– Ə, adam tapmırdın, pul verəsən. Sən görmürsən bunun ağlı başında yoxdu.

O dıznan canını qurtarır.

## 45. HƏLƏ GEDİB NƏNƏSİNİ DƏ ÖYRƏDİB

Bir dənə dul qadın olur, bunun bir oğlu olur. Bu isdiyir ki, oğlu dəmirçilih sənətini örgənsin. Gətirir şəhərə dəmirçinin yanına qoyur. Uşax qalır dəmirçinin yanında. Kişi qəşəh dəmirrəri yığır nətər lazımdı peçə. Peç qızdırır, götürür qoyur zindanın üsdünə, çəkişnən döyür, düzəldir. Obşim, uşax bir gün buna baxır, səhər də çıxır gedir evlərinə. Anası deyir:

– Oğul, noldu?

Deyir:

– Nənə, örgəndim.

Deyir:

– Nə örgəndin?

Deyir:

– Əşi, nə var orda. Dəmirdi, qoyursan ora, qəşəh qıfqırmızı qızarır, sora götürüf çəkişnən nətər lazımdı düzəldirsən.

Aradan bir müddət keçir. Usda gözdüyür ki, şagird səhər bir də gələjəh axı. Gəlmir. Bir neçə həftədən sora bir gün təsadüfən bu kişiynən bu arvad küçədə görüşüllər. Kişi deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay arvad, sənin oğlun tay gəlmədi. Niyə gəlif çıxmır?
Deyir:
– Boy, nənəsi ölmüş örgənif dana.
Deyir:
– Nə örgənif?
Deyir:
– Nə var orda? Dəmiri qoyursan ora, qəşəh qıfqırmızı qızarır, götürürsən çəkişnən döyürsən, düzəlir.
Deyir:
– Pay atonan, uşağdakı fərasətə bax ey. Bir günə özü də örgənif, hələ gedif nənəsini də örgədif.

## 46. ALLAH QOYSA, ƏRİNDİ

Bir kişi olur. Bir gün səhər-səhər evdən çıxanda ayın-oyun alır ki, arvad, yemək bişir, günorta gələjəm evə. Arvadı deyir:
– Əşi, bir Allah qoysa denən da.
Deyir:
– Allah qoysa da, qoymasa da, gedirəm işə, günorta gələjəm.
Arvad yeməh-işməyini hazırrıyır, kişi günorta gəlir. Kişi deyir:
– Arvad, yeməh noldu?
Deyir:
– A kişi, bir Allah qoysa de da, gətirirəm beş dəyqəyə.
Deyir:
– Allah qoysa da, qoymasa da, gətir, yeyirəm.
Gətirir, stola qoyanda qapı döyülür, polislər gəlir, kişini tutuf aparıllar.
Aradan beş il keçir, qapı döyülür. Arvad deyir:
– Kimdi?
Deyir:
– Allah qoysa, ərindi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 47. SƏNİ ALANI DA GÖRDÜM, PULUMU YEYƏNİ DƏ

Bir gün bir qəssab olur. Çox simic qəssab olur. Evə həmişə malın xaraf yerinnən göndərərmiş yoldaşına, bişirtdirif yeyərmiş, pulu yığarmış. Bir gün bunun başqa şəhərə yolu düşür. Gedir bir yerdə gejəliyəsi olur. Bir evə qonax gedir. Deyir:

– Qardaş, məni qonağ qəbul edərsən?

Deyir:

– Mənim gözüm üsdə.

Gəlir yemək vaxdı çatır, oturullar süfrəyə. Ev yiyəsi yoldaşına deyir:

– Döyəh yeyəh, yeyəh döyəh.

Arvad deyir ki, əşi, yeyəh, sora döyərih. Nəysə, qonağ ürpənir özünnən, təəccüblənir. Deyir:

– Nə məsələdi?

Deyir:

– Çörəyini ye, sora söypət eliyərih.

Çörəyi yeyillər, yığışdırıllar. Oturullar hamısı. Deyir:

– Bax, bu gördüyün ev tacirin evidi. Çox da imkannıydı. Yoldaşına, uşaxlarına əziyyət verən, pul xəşdəmiyən simic bir adam idi. Biz də bu arvadnan əlbir oluf o kişini tələf elədih. İndi xoşbəxt yaşıyırıx, pulunu da xəşdiyirih. Ona görə də hər süfrəyə yemək gələndə birinci ona söyüf sora yeyirih.

Qəssab tez durur gedir, heş gejə də qalmır. Gəlif evə çatan kimi ayın-oyun alır, bazarrıx eliyir, əti kəsir, yaxşı yerinnən evə ayırır. Həmişə əti evə piyada aparıf verərdi, heş faytonçuya da pul verməzmiş. Faytonçuya pul verir ki, bu əti apar evə ver, denən axşama yeməh-işməh hazırrasın, gələjəm. Yoldaşı da təccüblənir ki, bu nə işdi belə? Ömründə bu qədər bazarrıx edib evə göndərmiyif. Oturur kişini gözdüyür. Kişi gələndə deyir:

– Bu nə məsələdi?

Deyir:

– Arvad, gəl otur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Arvad oturur. Deyir ki, getmişdim filan şəhərə qonax.

Səni alanı da gördüm,
Pulumu yeyəni də gördm,
Kəlləmi söyəni də gördüm.

İnnən sora pulumuzu xəşdiyif yeyif-içif kef eliyəjeyih. Onnan sora dərk eliyir ki, nə vaxtsa bunun başına da belə iş gələjəh.

## 48. SƏNİN QUYRUĞUN ELƏ HƏMİŞƏ GÖYDƏDİ

Bir gün keçiynən qoyun yol gedir. Qavaxlarına bir arx çıxır. Keçi qoyuna deyir ki, tullan. Qoyun tullananda ətəyi qalxır yuxarı. Keçi gülməhdən ölür. Deyir:

– Nəyə gülürsən?

Deyir:

– Ətəyin qalxdı, ayıbın görühdü dana.

Deyir:

– A bədbaxt, sənin quyruğun elə həmişə göydədi.

## 49. HAMINIZI SÖZ VERƏ-VERƏ GƏMİYƏ KOMALAMIŞAM

Azrayıl gəlir birinin canını almağa. Deyir:

– Maa üş gün möhlət ver.

Üş gün möhlət verir. Üş günnən sora gənə gəlir. Deyir:

– İkicə gün də möhlət ver.

Gedir iki günnən sora gənə gəlir. Deyir:

– Bircə gün də mənə möhlət ver.

Verir. Nəysə, bu gəmiynən səyahətə gedir. Səyahətə gedəndə Əzrayıl gəlir. Deyir:

– İmkan ver, səfərə gedirəm. Mənzil başına çatım gəlim, sora al.

Deyir:

– Yox ey, hamınızı heylə söz verə-verə gəmiyə komalamışam. Gəmini batırıf hamınızı öldürəjəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 50. ATIN ZÜY TUTANI

Camaat dərzi bağlıyıf vəlnən taxıl döyüllərmiş. Bir adam da yoldaşıynan vəl çəkirmiş. Vələ bir at qoşufdu, bir də, üzdən irağ, eşşəh. Təsadüfən bu kəndin* içinnən bir aşıx gedirmiş. Aşığın da böyründə bir züy tutan varmış. Bular belə gedillərmiş. Bu züy tutan deyif ki, bularnan zarafat eliyəjəm. Aşıx deyif ki, bular qaradolaxdı, bular söz altda qalmıyajaxlar. Gəl yolumuznan çıxıf gedəh. Əl çəkmiyifdi bu züy tutan. Deyif:

– Ay bajı, at o işi görür də, bəs o yazığ eşşəyi niyə onun böyründə fırradırsız?

Deyir:

– A başına dönüm, bu eşşəh də atın züy tutanıdı.

Aşıx sazın dalını bunun təpəsinə nətər qoyursa, deyir:

– Ə kopoğlu, saa demədim ki, gəl çıxax gedəh.

## 51. AYAQ ÜSDƏ GETMİŞDİM

Dovşannan aslan gedirmiş avtobusnan. Aslan oturufmuş, dooşan ayax üsdə imiş. Dooşan deyif ki, aslan, dur mən oturum. Aslan deyir ki, heylə şey yoxdu. Sən kimsən ki? Mən aslanam, sən dooşan.

Deyif:

– Dur oturum, yoxsa dünənki kimi olajax.

Aslan deyir:

– Lənət şeytana, bu, dünən nağarıf?

Üş dəfə deyif dur oturum, durmasan dünənki kimi olajax. Aslan qorxuf duruf. Dooşan oturuf. Aslan deyif:

– Dooşan, mən durdum dana. Dünən nətər olmuşdu, kimə nağarmışdın?

Deyir:

– Ə, heş nə ey, ayağ üsdə getmişdim.

---

* Qaradolaq kəndinin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# VII
# ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

### A

1. Abadan ev kalafasınnan (yaxud: küllüyünnən) məlumdu.
2. Adam var eldən gedir,
   Adam var evdən gedir.
3. Adam var ki, gündə görməh səfadı,
   Adam var ki, ildə görmək cəfadı.
4. Ağa məni aldı, öpməyi qaldı.
5. Ağacı düşmənin kimi buda, dostun kimi bəslə.
6. Axşam bir dolça suynan yuyulan, səhər bir səhəng suynan yuyulmaz.
7. Alıdan da qoçax var, Abışdan da qoçax var.
8. Anam bijdi kündədən kəsir, atam bijdi iki-iki yeyir.
9. Arvad eldən gələr.
10. At öz ayağının düşmanıdı.

### B

11. Bir tikəni bilmiyəm, min tikəni bilməz.
12. Bulud altınnan çıxan gün, dodax altınnan çıxan söz adamı yandırar.

### C

13. Cəhənnəmə gedən dosdunu çox isdiyər.
14. Cəhənnəmə get, hələ bir Yevlağa da get.

### Ç

15. Çox qoyunun çox quzusu olar.

### D

16. Dağarcıxda unum olsun, kol divində evim olsun, məclisdə yarım olsun.
17. Dəmiri kürədən dəmir çıxardar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

18. Dəvəyə deyillər: “Hara gedirsən?” Deyir: “Ya Naxçıvana duza gedirəm, ya da Köyüyə oduna”.
19. Dilənçinin ağacınnan tutmasan torbasını yerə qoymaz.
20. Dovşanı arabayla tutmağ.

**Ə**

21. Əsirgəmə ver, utanma isdə.

**E**

22. El içində, öl içində.
23. Evlatda nəvə, devlatda dəvə, yatırda gəvə (və yaxud qatır).

**F**

24. Filankəs o qədər varrı adam idi ki, yükü uşsa altında adam qalar.

**G**

25. Gedən gətirir, oturan gözdüyür.
26. Gələni qovmax olma, gedəni saxlamax olmaz.
27. Gəzən ev olsaydı, oturanın bağrı çatdıyardı.
28. Gördün yemək, daha nə demək.

**H**

29. Haja gedən gəldi, saja gedən gəlmədi.

**İ**

30. İbadətnən səxavət yarıdı.
31. İş bəd gətirəndə quymax diş çıxardar.
32. İt uluyur, canavar quyrux buluyur.
33. İti öldürənə sürütdürəllər.
34. İti sahibinə görə sayallar.

**K**

35. Kasıbdan Allah da narazıdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

36. Kirvə kirvənin damının üsdünə çıxmır ki, kirvənin üsdünə torpax tökülər.
37. Kış eləməynən donuz darıdan çıxmaz.
38. Küldən təpə, ağaşdan təndir, keçidən döylət, gedədən ağa olmaz.
39. Külü küllükdən götür.

**M**

40. Mərd deyər: "Allah verdi". Namərd deyər: "Özüm tapmışam".

**Ö**

41. Öküz əyməsə, daş qərifçiliyə düşməz. (Burdan el dağa gedəndə farmaşı, yükü – hamısını yüklüyüllər, sijimnən də bağlıyırmışdar. Yolda gedəndə birdən elə olur ki, yük əyilir. Təzdənnən yükü aşmax çətin imiş da. On kilo-on beş kilolux daşı götürüf bu biri üzə qoyurmuşdar ki, tarazdığ yaransın. Deməli, gedillərmiş dağa. Dağda yükü açanda o daşı tulluyullarmış da. O daş o daşdarın içində qərif görünürdü. Orda deyirdilər ki, ey dünya, öküz əyməsəydi, bu daş da qərifçiliyə düşməzdi).
42. Öküz öldü, ortağ ayrıldı.
43. Ölünü qoy, diriyə ağla.
44. Övlatda nəvə, döylətdə dəvə, səxavətdə xoruz, övlatda nəvə, itaətdə dəvə.
45. Öz obanı ürküt, axsağını tut.

**P**

46. Paxıl adam cənnət görməz.
47. Paxılın yeri cəhənnəmdir.
48. Pisi eldən çıxartmax ayıfdı,
   Yaxşını eldən çıxartmax hayıfdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Q**

49. Qaşıx çömçədən böyük oluf.
50. Qazanc qudurdu mayanı yedi.
51. Qırx eşşəyi sağına gəlif (Qarabağda belə bir misal var. Biri lovğalananda, özünnən razı olanda deyillər: "Buna bax ey, özünü elə aparır, elə bil qırx eşşəyi sağına gəlif". Bu məsəl belə yaranıf. Andranikin qulağını kəsən Soltan bəyin dağda ferması vardı. Hər gün mal sağılan vaxdı qırx dənə eşşəh tuluğnan gedirmiş südü gətirməyə. Çıxırmış dağa, qırx eşşəyin yükünü yüklüyüf qayıdırmış. Varlılığ əlaməti kimi bu misalı çəkillər).
52. Qızı çoxotaxlıya yox, başıpapaxlıya verəllər.
53. Qonax getmiyən ev xarabadı.
54. Quş gəlif kətəyinə qısılıf.

**S**

55. "Salam məlöyküm" salam isdəmir.
56. Saybalı yasa gedir. (Saybalı* camaatı yasa gedəndə asda-asda gedir. Ona görə konulsuz bir yerə gedən olanda deyillər: "Ə, saybalı yasa gedir? Bir az tez ol da").
57. Seyidin çörəyi qırx gün adamın bədənində qalar.
58. Söz sözü gətirər.
59. Söz var xalq içində, söz var hulq** içində.

**U**

60. Usta oğlunnan şəyird olmaz.

**Y**

61. Yorğa at olsun, həmişə olsun.
62. Yurd bilmirsən, yurda düş.

---

* Ağdamın Saybalı kəndi
** hulq - hulqum



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# VIII
# BAYATILAR

1. Aşıx elə yaxşıdı,
Kəmər belə yaxşıdı.
İlahidən gəlmiş işdi,
Bəlkə belə yaxşıdı.

2. Mən aşıx, o gün eylər
O güney, o quzeylər.
Öz vətənimiznən, elimiznən
Havaxt görüşsəh
Bayramın o gün eylər.
= Əzizim, o güneylər,
O quzeylər, o güneylər.
Dosd dosnan görüşəndə
Bayramın o gün eylər.

3. Əsgəran vay, qalam vay
Əsəgəranda qalan vay.
Basılıfdı dünyamız,
Alınıfdı qalam, vay.

4. Dağdan aşıf gələnin,
Qanı coşuf gələnin.
Xoş halına o kəsdərin
Öz elində ölənin,
Öz torpağında ölənin.

5. Əzizinəm, yüz qandı,
Əlli qandı, yüz qandı.
Kəbə yıxmax bir evdi
Könül yıxmax yüz qandı.

6. Mən aşıx, qızaranda,
Dan üzü qızaranda.
Qalsa oğlannar qalsın,
Qalmasın qız aranda.

7. Dünya sənnən kim keşdi?
Kim qərq oldu, kim keşdi?
Gözəl-gözəl yerrərimizdən
Vaxt gəldi, gör kim keşdi?

8. Yağaram yağış kimi,
Bitərəm qamış kimi.
Səni konlüm isdiyir
Təzə çıxmış yemiş kimi.

9. Mən aşıx, baxdı kəm,
Talehi kəm, baxdı kəm.
Mən fələyə neynədim,
Fələh mana baxdı kəm?

10. Qardaş gəlsə, yaxşı olar,
Bajı görsə, yaxşı olar.
Qardaşın qapısında
Bajılar ölsə, yaxşı olar.

11. Qardaşım birdi mənim,
Gözümə nurdu mənim.
Yada qardaş demərəm,
Talehim kürdü mənim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

12. Gəl gedəh dağa, qardaş,
Qar yağa-yağa, qardaş.
Sən duman ol, mən çiskin,
Çəkiləh dağa, qardaş.

13. Bilmədim yaz olduğun,
Güllərin pərvaz olduğun.
Nə sən bildin, nə mən bildim
Ömrümün belə az olduğun.

14. Mən aşıx, su deyin ağlar,
Sünbül "su" deyin ağlar.
Dəryada bir gül bitif
O da su deyin ağlar.

15. Ağlaram ağlar kimi,
Dərdim var dağlar kimi.
Bir elə dərdim var
Virana bağlar kimi.

16. Mən aşıx, ha səni,
Hax saxlasın ha səni.
Xəsdənin gonlu nar isdər,
Mənim gonlum, a qardaş,
a bajı, ha səni.

17. Bajılar bajısıyam,
Şirinnərin ajısıyam.
Hər kəsin qardaşı, bajısı yoxsa,
Mən onun bajısıyam.
= Analar anasıyam,
Bajılar bajısıyam.
Kimin bajısı ölüf
Mən onun bajısıyam.

18. Mən aşıx, binə qaldı,
Binə nə günə qaldı?
Sənnən mənim görüşməyim
O dünyaya qaldı.
= El getdi, binə qaldı,
Məhəmmət dinə qaldı.
Sənnən mənim görüşməyim
Qiyamət günə qaldı.

19. Qızıl gül haça bəntdi,
Sana gör, neçə bəntdi?
Fələh üsdümə düşən dərdən
Çəhsin, görsün necə dərtdi.

20. Qızıl gül oyum-oyum,
Dərim qoynuma qoyum.
Yağış yağar yer doymaz,
Mən sənnən necə doyum.

21. Mən aşıx, bala dağı,
Bürüyüf lala dağı.
Hər yaralar sağalsa da,
Heş sağalmaz bala dağı.

22. Gözdərinə ay demərəm,
Kipriyinə yay demərəm.
Qardaş, sən ölsən,
Dilim quruyar, "vay" demərəm.

23. Mən aşıx, balabanı,
Asda çal balabanı.
Gedən hamısı gəldi, ay bala,
Bəs mənim balam hanı?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

24. Bakıdan bir meh əsdi,
Ürəyim tel-tel əsdi.
Ay qardaş, sağ gözüm
saa qurvan,
Sol gözüm özümə bəsdi.

25. Dağlar, otun qurusun,
Bağlar, tutun qurusun.
Sən ki belə iş gördün,
Sənin də mənim kimi matın-
qutun qurusun.

26. Bağında şirin nə var?
Yeməyə şirin nə var?
Dünya namərdə dönsə,
Görəm atadan, anadan şirin nə
var?

27. Mən aşıx, illər ayrısı,
İllər, günnər ayrısı.
Fələh bir iş işdədi
Düşdüh illər ayrısı.
= Salıb bizi ellər ayrısı.

28. Arxa su düşdü, neynim,
Axdı, su düşdü, neynim.
Aləmə pay paylandı,
Bizə də bu düşdü, neynim?

29. Belə ağlamax olmaz,
Gülə bel bağlamax olmaz.
Tüləh tərlan əvəzinə
Cürə bağlamax olmaz.

30. Yaralandım yanımnan,
Quşdar doymaz qanımnan.
Elə bir bir dərdə düşdüm,
Bezar oldum canımnan.

31. Azreyil astarçıdı,
Qızılgül bosdançıdı.
Dəymiş qoyur, kal kəsir,
Gör, nə gavur bosdançıdı.

32. Məni üjə saldılar,
Üjdən üjə saldılar.
Mən sənnən doymazdım,
Sənnən ayrılmazdım,
Məni güjə saldılar.

33. Su üzündə qalmışam,
Su gedifdi, qalmışam.
= Aya belə baxmışam,
Günə belə baxmışam.
Fələh bir iş işdiyif,
Özüm də mat qalmışam.

34. Gələn bulağa gəlsin,
Çaya, bulağa gəlsin.
Gəlsin anan ağlasın,
Səsi qulağa gəlsin.

35. Ağlama dərtdi, ağlama.
Hava sərtdi, ağlama.
Dərtdilər bağrı yararsan,
Çox da dərtdi ağlama.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

36. Aşığam, bu vətəndə,
Gözüm yoldan ötəndə.
Qəriblih yaman olar,
Baş yasdığa yetəndə.

37. Mən aşıx, xuda səni
Saxlıyeydi xuda səni.
Eşkarada görə bilmirəm səni,
Göreydim barı yuxuda səni.

38. Burdan bir maya getdi,
Sallandı çaya getdi.
Çox zəhmət çəkdim,
Əməyim zaya getdi.

39. Bu dağlar, qoşa dağlar,
Verif baş-başa dağlar.
Nə gələn var, nə gedən
Dönüf daşa dağlar.

40. Dərdimin əllisinnən,
Yüzünnən, əllisinnən.
Bu dərdə çara yoxdu,
Soruşmuşam əllisinnən.

41. Aşıx dərdə nə bağlar,
Zülfün gərdana bağlar.
Gedəh dərtdi yanına,
Görəh dərdə nə bağlar?

42. Mən aşığam dağlara,
Duman gəlsə dağlara.
Yüz qoyun qurbanım var,
Elim getsə dağlara.

43*. Dəsmalı tikən ölsün,
Qırağın bükən ölsün.
Mən sənə göz dikmişəm,
Başqa göz dikən ölsün.

44. Qızıl üzük füruzə,
Gedin deyin xoruza,
Bu gecə bannamasın,
Yar gələjəhdi bizə.

45. Yeri, daldadan yeri,
Ləbi bal dadan, yeri.
Dodaxları xam şəkər,
Dili bal dadan, yeri.

46. Maşın gəlir Batumnan,
Tunel keçir altınnan.
Maşında bir qız sevdim,
Adım çıxdı yadımnan.

47. Arxalıx abı gərəh,
Yar-yarın babı gərəh.
Yarı çirkin olanın
Dərya qədər tabı gərəh.

48. Qaranquşam, qalxaram,
Qənətdərim çalxaram.
Desələr yarın gəlif,
Xəsdə olsam qalxaram.

---

* 43-dən 95-ə qədər olan bayatılar Ağcabədi rayon sakinləri Mülayim Mədətova və Teyyubə Əhmədovadan toplanmışdır. *Toplayan: M.Ağayeva*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

49. Qərənfiləm, qərəlsiz,
Qərəlim yoxdu sənsiz.
Yerinə oddar dolsun,
Nejə yatırsan mənsiz?

50. Aynanın dalı qara,
Söykənmişəm divara.
Söz verdin, geri durdun
Beilqar, üzüqara.

51. Ana gəl, gərəyimsən,
Hürümsən, mələyimsən.
Səni könlümüz isdiyir,
Həmi də gərəyimsən.

52. Anam-anam öz anam,
Qoynu dolu köz anam.
Yad ağlarsa yalan ağlar,
Qoy ağlasın öz anam.
= Sənə bir dağ vurmuşam,
Qiyamata döz, anam.

53. Gün çıxdı, dağa düşdü,
Şögəsi bağa düşdü.
Sənin bu müşgül işin
Nə yaman çağa düşdü.

54. Bir quş gələr Ağdaşdan,
Xəbər verər qardaşdan.
Qardaş bacıdan doysa,
=Yağış yağar yer doyar,
Bacı doymaz qardaşdan.

55. Bu yerdə badam olmaz,
Əksələr, badam olmaz.
Qardaşın özü gərəh
Şəkildən adam olmaz.

56. Dəryada balıx yan gedər,
Aşma yaram, qan gedər.
Həkim ona neynəsin?
Əjəl gəlib, can gedər.

57. Gəldi, haradan gəldi?
Göydən, qaradan gəldi.
Oturmuşdux şad ikən,
Bu sel haradan gəldi?

58. Gəlifdi yaralılar,
Göylülər, qaralılar.
Ağlasın dərtdi olannar,
Dinşəsin yaralılar.

59. Ağcabədi duz dağı,
Ceyran gəzər düz dağı.
Qıya baxdın, yan keşdin
Çəhdin mənə düz dağı.

60. Mən aşıx, Ağcabədi,
Ağ nədi, ağca nədi?
Yolunda baş verərəm,
Pul nədi, axça nədi?

61. Vurufdu talxa məni,
Göstərmə xalxa məni.
Getməz gözüm (= ağzımın) ajısı,
Min gölə (=yüz gölə) çalxa məni.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

62. Dərdim ojax-ojaxdı,
Halım nejə olajaxdı?
Bala itirən analar
Yanıf kül olajaxdı.

63. Ləzgidən qoşun keşdi,
Bilmədim neyçün keşdi.
Ellərdən təkcə-təkcə,
Bizzən bir qoşun keşdi.

64. Qırmızı bitər gördüm,
Yan verib ötər gördüm.
Dirinin diri dərdin
Ölüdən betər gördüm.

65. Bağdatda xurmalıxlar,
= O tayda qarğılıxlar,
Suda oynar balıxlar.
Nə belə istəy olsun,
Nə belə ayrılıxlar.

66. Şüşədən başmax olmaz,
Geyinsən qaşmağ olmaz.
Hər iş Allah işidi,
Qəzadan qaşmağ olmaz.

67. Köynəyin ağa dönsün,
Yuduxca ağa dönsün.
Gəl qapıdan gir, ana,
Ürəyim dağa dönsün.

68. Ağlıyan başdan ağlar,
Kiprihdən, qaşdan ağlar.
Bala itirən ana
Durar o başdan ağlar.

69. Aşığam aşıxlara,
Zülfü dolaşıxlara.
Əlimə bir saz allam
Qoşullam aşıxlara.

70. Mən aşığam, dil azar.
Bülbül azar, dil azar.
Cavan övlad itirənin
Ağlı çaşar, dili azar.

71. Hay-hayına düşdüm mən,
Qəm çayına düşdüm mən.
Əzrayıl ova çıxdı,
İlk payına düşdüm mən.

72. Mən bir ana isdərəm,
Yana-yan isdərəm.
Sirri-sözümü deməyə
Xəlvətxana isdərəm.

73. Köynəyin ağ saxlaram,
Yuyaram, ağ saxlaram.
Bir də əlimə düşsən,
Yüz il qonax saxlaram.

74. Ay layla, belə layla,
İlləllah belə layla.
Heş bəndələr çalmasın,
Biz çaldıx belə layla.

75. Göynən gedən sonalar,
Bir-birinə yan alar.
Tamam bir yana dursun,
Oğlu ölən analar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

76. Bağımda var boyana,
Bağın yolu hayana.
Hərə bir layla desin
Bəlkə yatıb, oyana.

77. Bajı, bajım deyilsən,
Başda tajım deyilsən.
Xəsdəmi durquzmadın,
Daha bajım deyilsən.

78. Gülü əkdim dübarə,
Bülbül gülü süvarə.
Yayı sənlə yayladım,
Qışı qaldım avarə.

79. Mən aşığam qansıza,
Yolsuza, ərkansıza.
Tanrı heş kimin işin
Salmasın vijdansıza.

80. Qardaşdar mənim mələyim,
Yaxamda düyməliyim.
Köçəndə köçüm qardaş
Düşəndə kölgəliyim.

81. Səni görən ağlasın,
Zülfün hörən ağlasın.
İndi görən tanımaz,
Əzəl görən ağlasın.

82. Göydə qar havası var,
Yağış, qar havası var.
Anaynan balanın
Ayrılıx davası var.

83. Göynən gedən daşa bax,
Qanadında daşa bax.
Hamıya yaz gələndə
Bizə gələn qışa bax.

84. Bu dərə balıxlıdı,
Öküzlər alıxlıdı*.
Mən o oğlana getmərəm,
Ayağı çarıxlıdı.

85. Mən aşıx, ulduzunnan
Ayınnan, ulduzunnan.
Dərd çəkməhdən keçərəm
İynənin ulduzunnan.

86. Gedərəm, oturmaram,
Bu cəbri götürmərəm.
Versələr dünya malın,
Sənnən əl götürmərəm.

87. Barmaxcılım laxladı,
Verdim anam saxladı.
Anama qurvan olum,
Yarımı qonax saxladı.

88. Yeri çiskinim, yeri,
Duman-çiskinim, yeri.
Yaxşı günüm qutardı,
Bu da pis günüm, yeri.

---

* alıxlıdı - palan əvəzinə at, öküz, və s. heyvanların belinə çəkilən çul, keçə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

89. Bajın da mən olaydım,
Anan da mən olaydım.
Əzrayıl haxlayanda
Yanında mən olaydım.

90. Bülbülüncə, gülüncə,
Bülbül oxur, gül incə.
Sənə bir layla deyim
Öz ananın dilincə.

91. Bülbülüm lalə olufdu,
Gülüm xəndan olufdu.
Hər səhər ötən bülbül
Bu səhər lal olufdu.

92. Apar bazara məni,
Saldın azara məni.
Aç belinin qurşağın,
Salla məzara məni.

93. Köynəyin müjə-müjə,
Geymişəm müjə-müjə.
On iki şam yandıraram
Sən bizə gələn gejə.

94. Axşamın şöynüsünə*,
Şeh düşüf şöynüsünə.
Yandırram gözün yağın,
Sən gəlsən şöynüşünə.

95. Atasızam atasız,
Heş gül olmaz xatasız.
Biz fələyə neylədik,
Bizi qoydu atasız.

---

* şöynüsünə - şər qarışan vaxtı

96. Əzizim, ana yeri,
Atdan düş, ana yeri.
Yüz vəfalı yar olsa,
Heş verməz ana yeri.

97. Əzizim, qazan ağlar,
Od yanar, qazan ağlar.
Qəriflihdə ölənin
Qəbrini qazan ağlar

98. Qardaşıma qoş qurban,
Qoş qurban, quzu qurban.
Qardaşımın bir telinə
Namərdin yüzü qurban.

99. Əzizinəm, arxasızdı,
Su gəldi arxa sızdı.
Təpə gördüm arxalıdı,
Dağ gördüm arxasızdı.

100. Əzizinəm, dərd əhmişih,
Budaxdan dər dəymişi.
Özüm dərd əhliyəm,
Bilirəm dərd əhmişih.

101. Mən öldüm ağlamaxdan,
Qara-göy bağlamaxdan.
Toysuz bala, qəfil qadalı bala*,
Bağda xəzəl qalmadı,
Yarama bağlamaxdan.

---

* Söyləyicinin gənc övladı dünyasını dəyişdiyindən bayatılarını da ona müraciət edərək deyir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

102. Göynən gedən qu məni,
Çağırıf neynir bu məni.
Əl dəsmalın kəfənim,
Göz yaşuynan yu məni.

103. Dağda duman belə gəl,
Qaşda kaman belə gəl.
Azreyil ova çıxıf, ay balam,
Səni vurar, belə gəl.

104. Açıx qoy pencərəni,
Gözüm görsün gələni.
Yarıf haraya qoyallar, ay fələh,
Bu dərdinən öləni.

105. Avçılar av tutmasın,
Avlasın av tutmasın.
Səni vuran ovçunun
Qolları yay tutmasın.

106. Qardaş gəlsə, yaxşı olar,
Bajı görsə, yaxşı olar.
Bajılar ölümün isdəmir,
Qardaş gəlsə yaxşı olar.

107. Canımnan, cəsədimnən,
Bir qətrə kəs ətimnən.
Kəssələr gənə də doymaram
Vətənin həsrətinnən.

108. Əziziyəm dağda nə var?
El köçüfdü, dağda nə var?
Dəli Məcnun bir belə ah eliyif
Leylisiz dağda nə var?

109. Əziziyəm, mənnən al,
Mənnən isdə, mənnən al.
Bəndə müvəqqəti şeydi,
Mətləbii xudadan al.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# IX
# MÜXTƏLİF ŞEİRLƏR

## AFŞARIN*

Nadir şah nəslidir, tanısın hamı,
Böyük keçmişi vardı afşarın.
Ulu tarixdəndir yadigar,
Yazılsın tarixə adı afşarın.

Ağsakqalları tez-tez məclis qurallar,
Sağ-solunda cavannarı durallar,
İgidləri püşt tutub güləşəllər
Yerə dəyməz heş vaxt dizi afşarın.

İgidləri at belində durallar,
Gözəlləri bulaq üsdə gəzəllər,
Toy-düyündə halay vuruf süzəllər
Heç pozulmaz toy-düyünü afşarın.

Həkimi var, təbibi var,
Şairi var, müəllimi var,
Xanəndəsi, aşığı var,
Axundu var, hacısı var,
Əldə Allah kalamı var afşarın.

Obası var, oymağı var,
Aranı var, yaylağı var,
Ağsakqallı ağası var,
Öz divanın özü tutar afşarın.

---

* Bu şeirin müəllifi Ağcabədi rayonu Afşar kəndinin sakini Narış Bayramovadır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Evlərində daim işığı yanar,
Ocaxları çatır-çatır qalanar,
Yadelləri talan edər talayar,
Heç vaxt sönməz od-ocağı afşarın.

Elə nəsildi ki, elləri boldu,
Uzun Həsən kimi ağası vardı,
Şah İsmayıl kimi igid oğlu vardı,
Əyilməzdi heş vaxt başı afşarın.

Köçəri tayfadı, elə bəllidi,
Binədən evləri üç yüz əllidi,
İgidləri elə dəli-doludu,
Yerə dəyməz arxası afşarın.

Sinəsində bir vurufdu ürəyi,
Süfrəsində bol olufdu çörəyi,
İgidlərin polatdandı ürəyi,
Qorxu olmaz ürəyində afşarın.

Qoyunu var sürü-sürü,
Malları var naxır-naxır.
Yaylaxları, bulaxları,
Lülpər kimi yaylağı var afşarın.

## TAPŞIRIN MƏNİ*

A ellər, köçürəm, salamat qalın.
Tez gəlin görüşə, halallıx alın.
Səbuhi Munisnən amanat qalır,
Aparın torpağa tapşırın məni.

---

* Seyid Yusif ağanın ölümü münasibətilə yazılıb.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sabirə tapşırın çox ağlamasın,
Tayınnan-tuşunnan təsəlli alsın,
Gələndə qəbrimin üsdünə gəlsin,
Aparın torpağa tapşırın məni.

Sabirdən intizar gedirəm mən də,
Onu çox isdərdim mən də əzəldən,
Qızlarım ağlasın, yaş töksün gözdən,
Aparın torpağa tapşırın məni.

Daha bu dünyadan köçürəm bu gün,
Yığışıf başıma qohumum, elim,
Sabiri görmədim, dərdimi deyim,
Aparın torpağa tapşırın məni.

Daha isdəmirəm varı-döyləti,
Almışam dünyada mən də cənnəti,
Hərdən yada salın, ağlayın məni,
Aparın torpağa tapşırın məni.

Musa* bu sözdəri yazanda ağlar,
Oxuyanda ağlar, deyəndə ağlar,
Seyidi yadına salannar ağlar,
Aparın torpağa tapşırın məni.

## VAXDIDI

Əli, gəl çıxax dağlara,
Dağların laləzar vaxdıdı.
Gələndə çiçəhdən yığax,
Kəkotunun çiçəh açan vaxdıdı.

---

* "Tapşırın məni", "Vaxdıdı" şeirləri Bərdə rayonunun Seyid Yusifli kəndinin sakini Musa Bayramovundur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yığax çiçəhlərdən bir çay dəmlədəh,
Tökəh isdəkana doyuncan içəh,
Baldırğanı çini-çini yığax, eliyəh,
Baldırğanın yeyiləsi vaxdıdı.

Gedəh Zülfüqara, çıxax Qoşdaşa,
Çiçəhlər açılıf, oluf tamaşa,
Yeyəsən, baxasan pendir-lavaşa,
Musa deyir kef-damağın vaxdıdı.

## QALMIR

Haxsız, ədalətsiz, kərəmsiz insan
Köçəndə beş günnüh izi də qalmır.
Əzəldən belədi gərdişi-devran
Səni dəfn edənin özü də qalmır.

Bir dilənçi gördüm, şah idi bir gün,
Asırdı, kəsirdi, edirdi sürgün,
Gəzdirə bilmirdi yamaxlı kürkün,
Doğurdan zülmünən tozu da qalmaz.

Siz sülhü qoruyun, ədalət hanı,
Son pay kəfəndi hər hakim cana,
Salahlı Paşayam, ağıllı oğlanam,
Dünya calalında gözü də qalmaz.

## YA ƏLİ*

Darda qalannarın sənsən pənahı,
İmdada, köməyə çatan, ya Əli.
Müşgülü guşəsən, şahların şahı,
Zindanın qapısın açan, ya Əli.

---

* Yevlaxlı şair Cəlilin şeiri



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sənin hünərinə hünər çatmadı,
Sənin möcüzənə ağıl batmadı,
Əvvəlinnən kimsə xəvər tutmadı,
Bilməz sirrin bəni-insan, ya Əli.

Zahirin, batilin sirri sənisən,
Alimlər usdadı, piri sənisən,
Allahın vəlisi, şiri sənisən,
Həmişə sənindi meydan, ya Əli.

Göyün sütunusan, yerin ləngəri,
Vəsi sənsən, hax göndərdi xəvəri,
Doğru yola sən qaytardın bəşəri,
Yol sənindi, etdin müsəlman, ya Əli.

Qüdrətdən yarandın pir-hünər əzəl,
Özün bir nursan, gözəldən gözəl,
Götür Zülfüqarı genə qeyzə gəl,
Aşsın ürəhlərdə imam, ya Əli.

Yer-göy qərar tutmaz olmasa imam,
Adın hörmətinə gətirir davam,
Cəlilin dilində hər səhər-axşam
Çağırmaxdı şahi-mərdan, ya Əli.

## YATIBDI

Bir gün yolum düşdü qəbirstannığa,
Orda zaman qışdı, devran yatıfdı.
Sanki pıçıldaşır hər məzar daşı
Şair, asda yeri, insan yatıfdı.

Orda pul işdəmir, qiymatsızdı zər,
Ağa hökm eyləmir, işdəmir nökər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Orda nə zəhmət var, nə alında tər,
Ağadan yuxarı nökər yatıfdı.

Eşit sən Qəmkeşi, mərhəmətdi ol,
Xalqa hakim olsan, ədalətdi ol,
Əgər varın varsa, səxavətdi ol,
Şöhrət yuvasında şeytan yatıfdı.

## TANIMIR MƏNİ

Bu gün elə bil ki, tanımır məni,
Dünən adam bilib əl verdiklərim.
Üzünüzdən iraq, danıb dünənin,
Yalın ayaqlara nal verdiklərim.

Kiminə dost oldum, kiminə ata,
Əl atdım dar gündə, qoymadım bata,
İnanmazdım məni qəpiyə sata,
Yolunda yüzlərlə pul verdiklərim.

Qanana çəkəsən zəhmət çəkəndə,
Qanmaza getmiyə bircə tikən də,
Yolumda əlləşib tikan əkəndə,
Bəs niyə utanmır gül verdiklərim?

Kimə dost dedimsə, qəhər gətirdi,
Dedim çiynimdə gəz, yəhər gətirdi,
Əliylə qarşıma zəhər gətirdi,
Əlimlə həmişə bal verdiklərim.

Dostum, bəsdi, uzatmıyax söypəti,
Hələ bir yaxşı dost seşmədim qəti.
Heş kəsə hürmədi özgənin iti,
Mənə mırıldadı yal verdiklərim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## ÇAĞIMDI

İlyas, ağrın alım, unutma məni,
Ömrümün saralıb solan çağıdı.
Bir gün olar aranızda olmaram,
Üzülüb cərgədən qalan çağımdı.

Mənim bir kimsəyə sözüm də yoxdu,
Dünya sərvətində gözüm də yoxdu,
Dərdləri çəkməyə dözüm də yoxdu,
Qəlbim evi viran olan çağımdı.

Çəkilən dərdlərin yoxsa əlacı,
Bəs buna neynəsin qardaşnan bacı,
Məkkəyə gedib olmuşam hacı,
Gözlərim qəhərdən dolan çağımdı.

## BAŞA-BAŞ

Dosd odu ku öz dosdunnan dosd ola,
Düşməninnən düşmən ola başa-baş.
    Mən aşığam başa-baş,
    Oxu dərsin başa-baş.
    Bədəsildən qaş qutar,
    Ayax götür başa-baş.
Can deyənə, can denən mərdana,
Baş qoyanın qoy yolunda başa-baş.

Mərd iyitdər dünyada kimsə qaladı,
Hərcayılar cismim oda qaladı.
    Mən aşıx, qala-qala,
    Tikilif qala, qala.
    Cavan ömrüm çürüdü,
    Qürbətdə qala-qala.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Süleyman mülkində kimsə qaladı,
İllərinən üzü gülməz, başa-baş.

Aşıx Alı həzər dərdə dəvadı,
Bir dərdim var xəsdələrə dəvadı.
Yox aşıx dava gəzər,
Xəsdələr dava gəzər.
Əsil çay-çörəh verər,
Bədəsil dava gəzər.
Davaçısan, bu meydanda davadı,
İsdiyirsən kəllə vurax başa-baş.

## ÇİRKİN

Bir gün aşıx Besavat işdən çıxıf evə gəlirdi. Gördü buna tərəf bir kadın gəlir. Amma bu kadın yaylığının bu tərəfini belə yaşmıyıf, bu tərəfini belə yaşmıyıf, naznan gəlir. Dedi:

– Ə, bu kimdi görəm? Bu niyə belə naznan-qoznan gəlir?

Gəlinin bir tərəfi yaşmaxlıydı. Besavad da buraynan gəlirdi. Bunun burası yaşmaxlı olanda çıxdı yoldan o biri tərəfdən gəldi ki, bunun üzünü görsün kimdi bu. Gələndə gördü ki, filankəsdi. Tanıyır da. Çoxlarının evini yıxıf, balasını yetim qoyuf. Dedi ki, ağız, ayağını saxla, sinəmdə bir neçə kəlmə söz var, onu deyim, onnan sora get. Ayağını saxladı. Dedi:

– Hə, nə deyəssən?

Götürür deyir ki:

Çox da naz eyləyif üzüü bürümə,
Mən səni görmüşəm, ay qara çirkin.
Ördək kimi ayağını sürümə,
Çoxlarını eylədin avara, çirkin.

Dodağın palandı, burnu püləsən,
Hak yaradıf, yoxsa özün beləsən?
Bir kəlmə danışsam sözə gələrsən,
Qaxallar başını divara, çirkin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dön bəri, dön bəri, görüm yönünü,
Ölçən olmaz uzununu, enini,
Beş qəpiyə alan olmaz gönünü,
Əgər çıxartsalar bazara, çirkin.

Farağat oturuf durduğum yerdə,
Apardın ağlımı, qoymadın sərdə,
Besavad Temiri getdiyi yerdə
Çıxartdın yolunnan kənara, çirkin.

## ARVADIN ƏLİNNƏN

Üş qonşu olur, bunnar bir qarajda işdiyirmişdər. Hökumətin vaxdıydı dana, səhər saat səkgizdə işi götürməliydin. Bunnarın biri gej gedirmiş, biri onnan gej gedirmiş, biri tez gedirmiş. Bir gün birinci qonşu deyir ki, gəlin görək gej gəlməyimizin səbəbi nədir. Biz axı bir maaş alırıx, bir işdəməliyih. Oturullar üçü də. Birinci qonşu deyir ki:

Evlilər eşitsin, suvaylar bilsin,
Şikayətim var arvadın əlinnən.
Atalar dad çəkmiş əsrlər boyu
Bədnal atın, kür arvadın əlinnən.

Gecikməyinin səbəbi arvatdı da. Arvad yola salmır ki, farş gələ.

İkinci qonşunun iki arvadı vardı. Gördü ə, bu, bir arvadın əlinnən dad çəkir. Götdü dedi ki:

Evlilər eşitsin, suvaylar bilsin,
Əyə, təngə gəlmə bir arvadın əlinnən.
Bəs ikisin alannar nejə olsun?
O hesabda gör avadın əlinnən.

Yəni, bəs ikisini alan neynəsin? Üçüncü qonşu gördü ki, bunnarın dediyinə görə bunnar evlərinə gedə biləllər. Amma bunun arvadı elə idi ki... Götürdü dedi ki:

Dəli şeytan deyir gəl getmə evə,
Yıxıl burda qal arvadın əlinnən.
Ayır cehizini, ver qoltuğuna,
Uşaxları al arvadın əlinnən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Birinci qonşu fikirrəşdi ki, ə, bu, nə danışır. Bunun üç uşağı var, altmış-yetmiş maat da maaş alır. Heç bunun alimentini görmüyəjəh. Birinci qonşu alır buna eşitdirir ki:

Bir yana getməyə yolum da yoxdu,
Aliment verməyə pulum da yoxdu,
Əjəl yaxın gəlmir, ölüm də yoxdu,
Üz döndərif gör arvadın əlinnən.

Ölmür də canı qutara. İkinci qonşu deyir ki:

Əyə, tarixə baxıram cavan yaşımdı,
Tökülüf dişdərim, ağarıf başım
Özüm cəhənnəmə, qohum-qardaşım
Nələr çəkir gör arvadın əlinnən.

Qohum-qardaş da gəlmir da arvadın əlinnən. Üçüncü qonşu deyir ki:

Axşamdan olmamış başdıyır dava,
Daha sözdəriynən getmirəm, qağa.
Elə ki, əl atır palıd oxlova,
Dərim çıxır zol arvadın əlinnən.

Döyürmüş da arvad bunu. Birinci qonşu deyir ki:

Səhərkən davamız ucalır Şama,
Nabadın[*] qoyurux gələn axşama.
Yanıf sümüklərim dönüfdü şama,
Sinəm olufdu pir, arvadın əlinnən.

İkinci qonşu deyir ki:

Ə, qojalmışıx, yaş keçifdi yarıdan,
Sən də elə mən gündəsən arvad sarıdan.
Ver kağızın, al duldan, qarıdan,
Dünya bizə dar, arvadın əlinnən.

Dünya bizə niyə dar olur? Duldan, qarıdan tapıf alajağıx dana.

---

[*] nabadını – ardını, davamını



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## BİZİM ARVAD

Aşıx Besavad bir dəfə gəlir evə. Görür ki, sən öl, arvad sajı qoyuf kölgəyə, yuxadan, fətirdən o qədər bişirif ki, bu boyda qalağ oluf. Deyir ki, ay arvad, bunu neynirsən belə? Toy eləmirih, sünnət eləmirih. Qalıf quruyajax dana. Bunu az bişir, savah da bişir, bürüyün də bişir. Əlinnən alan yoxdu a.

Kişi aj imiş dana. Yuxanın birini götürür belə kəsir, elə yemək isdiyirdi ki, arvad oxleyin burnuynan bunun əlinnən yuxanı vurur, salır. Deyir:

– Dəymə. Madam heylədi, dəymə.

Deyir:

– Yaxşı, mən nə deyirəm, bişirirsən bişir.

Arvad bişirir. Aradan bir gün keçir. Kişi gənə işdən gəlir. Deyir:

– Arvad, yaman ajmışam, qaçarax maa bir az çörək ver.

Bir qızı vardı, qıza deyir:

– A bala, atan yaman ajıf, yüyür qonşudan bir çörəh al gətir.

Kişi deyir: "A qardaş, dünən çörəh bişirmədi bu? O qədər çörəh nejoldu?" Dedi:

– Ay arvad, bə dünən sənin bişirdiyin çörəh nejoldu?

Bu başdadı kişini dannamağa ki, sən kişi xeylağısan, sənin nə dərdinə qalıf. Deyir ki, nə deyirəm.

– A qızım, a qızım, maa bir dəftər-qələm ver.

Qız bir dəftər qələm verir, götürür bir şeir yazır:

Bir söz deyirəm, özümü ona yetirir,
Hədə-qorxu ilə ağaş götürür,
Hər öynədə yeddi fətir ötürür,
Nə var qanır, nə də yox, bizim arvad.

Heş zaddan bəyənif tikməyir donu,
Kimin nə həddi var dindirsin onu,
Civimnən xurcunum gələndə dolu,
Çalmamış oynayır saz bizim arvad.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

Abbasov Camal Rəşid oğlu, Ağcabədi rayonu, 1949-ci il təvəllüdlü, ali təhsilli. Söylədiyi mətnlər: **Rəvayət:** Hacı Qara (I mətn). **Lətifələr:** Bizim evimiz oradı; Soruş gör, hələ pravası var?; Söygülü Canan; Götür baltanı qoy xurcuna, ya Əli. *Toplayanlar: İ.Rüstəmzadə, T.Orucov*

Ağamalıyev Eldar Əvəz oğlu, Bərdə rayonunun Seyid Yusifli kəndi, 1953-cü il təvəllüdlü, orta təhsilli. Söylədiyi mətnlər: Seyid Hüseyn ağa (II mətn). *Toplayan: İ.Rüstəmzadə.*

Babayev Aslan Mehdi oğlu, Bərdə rayonunun Dəymədağıldı kəndi, 1958-ci il təvəllüdlü, ali təhsilli. Söylədiyi mətnlər: **Nağıllar:** Var-dövləti başqasına qismət olan kişi; Şaha nübar aparan kişi; Qismətdən qaçmaq olmaz; At quyruğu boyda sünbül; Yaxşılığa yamanlıq. **Lətifə:** Hələ gedib nənəsini də öyrədib. *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə.*

Babayev Zahid Əsəd oğlu, Bərdə rayonunun Dəymədağıldı kəndi, 1943-cü il təvəllüdlü. Söylədiyi mətnlər: **Rəvayətlər:** Musa peyğəmbərnən çoban; Ahunu balasına qaytaran Əli. **Nağıllar:** Məbudnan haramıbaşı (III mətn); Şahın siğə qardaşı; Ədalətli qazı. **Lətifələr:** Bəhlul olmağın bədəli; Bəhlulnan şəyirdi. *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə.*

Babayev Zabil Sahib oğlu, Bərdə rayonunun Dəymədağıldı kəndi, 1982-ci il təvəllüdlü, orta təhsilli. Bənna işləyir. Söylədiyi mətnlər: Allah qoysa, ərindi; Səni alanı da gördüm, pulumu yeyəni də; Sənin quyruğun elə həmişə göydədi; Hamınızı söz verə-verə gəmiyə komalamışam; Ayaq üsdə getmişdim. *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bayramov Musa Şükür oğlu, Bərdə rayonunun Seyid Yusifli kəndi, 1934-cü il təvəllüdlü, təhsilsiz. Vaxtilə kalxozda suçu işləyib. Söylədiyi mətnlər: **Rəvayətlər:** Seyid Hüseyn ağa (V mətn); Canavarlı kəndi (II mətn); İsgəndər (I mətn); İlanlara qənim kəsilən kişi. **Nağıllar:** Quş dili bilən İsgəndər; Quru kəllə; Adamyeyən qız; Şah Abbasnan məleykə; Padşah oğlu; Məlik Məhəmməd; Qaraçuxasını yatıran şəxs; Üç qız; Evi arvad tikər; Şaha bel bağlama, arvada etibar etmə; Keçəl; Arvadın eləsi də var, beləsi də; Tacir Bəhlul. **Lətifələr:** Eşşək, sənə deyirəm, qonaq, sən eşit; Dızz. **Müxtəlif şeirlər:** Tapşırın məni; Ya Əli; Vaxdıdı; Qalmır; Yatıbdı; Çirkin; Arvadın əlinnən; Bizim arvad. *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə.*

Bayramova Narış İsa qızı, Ağcabədi rayonunun Afşar kəndi, 1945-ci il təvəllüdlü, dördillik təhsil. Vaxtilə sınıxçılıqla məşğul olub. Söylədiyi mətnlər: **Mifoloji mətnlər, əfsanə və rəvayətlər:** Habilnən Qabil; Davud peyğəmbər (II mətn); Süleyman peyğəmbərnən qarışqa (II mətn); Yerin-göyün ağırlığı (II mətn); Atın üzəngisinə çıxan qan; Saili borcdan qurtaran Əli; Gəlin qayası; Eşq Abdal (I mətn); Sarı Aşıq; Köyük kəndi (III mətn); Axtamar gölü; Qaynaq qazılı; Qotur gölü; Qarı təpəsi; Qaçaq Nəbi; Aşığam, vətən sarı. **Tərəkəmə yeməkləri:** Bağır-beyin; Dəri basdırması. **Nağıllar:** Narxatın; Tısbağa qız; Tacir oğlu; Huri qızı; Santır; Baxdını gəzənin nağılı; Həzrət Əliynən qəssab; Savabın xeyri; Bacı həsrəti; Xeyrüləməl (I mətn); Azreyilnən yoldaşlıq edən şəxs (II mətn). **Lətifələr:** Molla və eşşəyi; Molla özünü ölülüyə vurur; Özləri öz dərmanını bilirlər; Halıma bax, ay Mahmud; Altı daş, üsdü aş; İz eşşəyin, fil gəlinin; Yaman dərtdi, bacı. *Toplayanlar: İ.Rüstəmzadə, Z.Fərhadov.*

Cəfərov Yasin Seymur oğlu, Ağcabədi rayonunun Afşar kəndi. Söylədiyi mətnlər: Əjdər güllələnən yer; Afşar şəri; Yeyim, doyum, nə verim? *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə, T.Orucov.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cəfərov Nazim Ənvər oğlu, Ağcabədi rayonunun Afşar kəndi, 1960-cı il təvəllüdlü, ali təhsilli. Söylədiyi mətnlər: Afşarlar haqqında xatirələr. *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə, T.Orucov.*

Əlişov Qədir Ədil oğlu, Bərdə rayonunun Hüseynbəyli kəndi, 1934-cü il təvəllüdlü, orta təhsilli. Söylədiyi mətnlər: **Rəvayətlər:** Həzrət Əliynən Salsal pəhlivan; Qaçaq Qaraş. **Nağıllar:** Dünyanı necə tutsan elə də gedər; Taleyindən narazı oğlan. *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə.*

Əliyev Əlövsət Əhər oğlu, Bərdə rayonunun Hüseynbəyli kəndi, 1959-cu il təvəllüdlü. Söylədiyi mətnlər: Ağamir dayı (I-III mətnlər). *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə.*

Əliyev Rəfail Əli oğlu, Ağcabədi rayonunun Şahsevən kəndi, 1956-cı il təvəllüdlü, ali təhsilli. Söylədiyi mətnlər: Qaraçuxa (III-IV mətnlər); Cin (II mətn); Şahsevənlər haqqında xatirələr. **Tərəkəmə oyunları:** Papax oyunu; Dəsmal oyunu; Keçipapax oyunu; Çoban oyunu. *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə, T.Orucov.*

Əliyeva Səlbi Abdulla qızı, Ağcabədi rayonunun Şahsevən kəndi, 1928-ci il təvəllüdlü. Söylədiyi mətnlər: **Bayatılar:** 8-42. *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə, T.Orucov.*

Əsədov Saday Pənahvar oğlu, Ağcabədi rayonunun Hindarx kəndi, 1938-ci il təvəllüdlü, ali təhsilli. Söylədiyi mətn: Yaşa Əsəd. *Toplayanlar: İ.Rüstəmzadə, Z.Fərhadov.*

Hacıyev Müzəffər Babaş oğlu, Bərdə rayonunun Hacallı kəndi, 1943-cü il təvəllüdlü, ali təhsilli. Söylədiyi mətnlər: **Lətifələr:** Çox qohumlu bəxtəvər; Fərasəti vardı birini də o tutardı; Otuza durmayan on ikiyə yaxın durardı? **Müxtəlif şeirlər:** Tanımır məni; Çağımdı; Başa-baş. *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə, T.Orucov.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Həsənov Möhsün Qara oğlu, Ağcabədi rayonunun Yeni Qaradolaq kəndi, 1926-cı il təvəllüdlü, təhsilsiz. Söylədiyi mətnlər: Qayışbaldır; Gavur arxı (II mətn). *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə, T.Orucov.*

Həşimova Səriyyə Zeyni qızı, Ağcabədi rayonunun Sarıcalı kəndi, 1926-cı il təvəllüdlü, ibtidai təhsilli. Söylədiyi mətnlər: Aynan Günəş; Məkkə yolu; Gülnən bülbül; Qaraçuxa (VI mətn); Hal (IV mətn); Cin (III-IV mətnlər); Yes xırman (II mətn). *Toplayanlar: İ.Rüstəmzadə, Z.Fərhadov.*

Həziyev Hacı Allahverdi oğlu, Ağcabədi rayonunun Təzəkənd kəndi, 1949-cu il təvəllüdlü, ali təhsilli müəllim. Söylədiyi mətn: Aşıq Valeh. *Toplayanlar: İ.Rüstəmzadə, Z.Fərhadov.*

Hüseynova Minayə İsa qızı, Ağcabədi rayonunun Afşar kəndi, 1946-cı il təvəllüdlü. Söylədiyi mətnlər: **Rəvayət:** Davud peyğəmbər (III mətn). **Nağıllar:** Allaha pənah; Azreyilnən yoldaşlıq edən şəxs (I mətn). **Lətifələr:** Heç nə; Doxsan doqquzunu verən, birini də yetirər. *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə, T.Orucov.*

İbrahimova Zəhra Hüseyn qızı, Ağcabədi rayonu, 1952-ci il təvəllüdlü, ali təhsilli. Söylədiyi mətn: Yemişəm aşunu, tökmüşəm yaşumu. *Toplayanlar: İ.Rüstəmzadə, T.Orucov.*

İmanov Baba Surxay oğlu, Ağcabədi rayonunun Qaradolaq kəndi, 1934-cü il təvəllüdlü, orta təhsilli. Söylədiyi mətn: Hacı Məmmədhüseyn (I mətn). *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə, T.Orucov.*

İsmayılov Aqil Yavər oğlu, Ağcabədi rayonunun Rəncbərlər kəndi, 1964-cü il təvəllüdlü, orta-ixtisas təhsilli. El şənliklərində tamadalıq edir. Söylədiyi mətnlər: **Mifoloji mətnlər, əfsanə və rəvayətlər:** Cin (V mətn); Seyid Məhəmməd ağa (IV mətn); Minəxor kəndi (II mətn); Ayran Alı təpəsi; Şpartı; Rəncbərlər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kəndi; Şahsevən; Sofu qəbirstanlığı. **Lətifələr:** Dəryadan çıxan əl; Mən birini göstərmişdim. *Toplayanlar: İ.Rüstəmzadə, Z.Fərhadov.*

Mahmudov Cabbar Əli oğlu, Bərdə rayonunun Qara Yusifli kəndi, 1927-ci il təvəllüdlü. Söylədiyi mətnlər: **Mifoloji mətnlər, əfsanə və rəvayətlər:** İnsanın yaranması (I-II mətnlər); Davud peyğəmbər (I mətn); Əli pəncəsi; İtin etibarı. **Nağıllar:** Zal oğlu Rüstəm; Süleyman peyğəmbərin üzüyü; Yetim oğlan. **Lətifələr:** Ye, iç, ölmə; Bəhlulun bazarkomluğu. *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə.*

Mehdiyev Məzahir Əyyub oğlu, Ağcabədi rayonunun Hacıbədəlli kəndi, 1962-ci il təvəllüdlü, ali təhsilli. Söylədiyi mətnlər: Topal Teymur (II mətn); Çobanın mənasız sözü. *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə, T.Orucov.*

Məmmədov İmdad Bədəl oğlu, Ağcabədi rayonunun Qaradolaq kəndi, ali təhsilli. Söylədiyi mətnlər: Molla Pənah Vaqif; Molla Lətif (I-II mətnlər). *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə, T.Orucov.*

Məmmədov Layiq Bayraməli oğlu, Ağcabədi rayonu, 1939-cu il təvəllüdlü, orta təhsilli. Söylədiyi mətnlər: Sağmal və subay ulduzları; Quyruq donan ay; Qoyun, qarnınız tox, gözünüz ac olsun; Küləkdən qorxan peyğəmbər; Hacı Məmmədhüseyn (VIII-IX mətnlər). *Toplayanlar: İ.Rüstəmzadə, Z.Fərhadov.*

Məmmədov Murad Musa oğlu, Ağcabədi rayonunun Qaradolaq kəndi, 1958-ci il təvəllüdlü, ali təhsilli. Söylədiyi mətnlər: Hacı Məmmədhüseyn (V mətn); Bəhlul atasını buyurur; Atın züy tutanı; Bəynən süd qardaşı olmusan. *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə, T.Orucov.*

Məmmədov Musa Məmməd oğlu, Ağcabədi rayonunun Qaradolaq kəndi, 1936-cı il təvəllüdlü. Söylədiyi mətnlər: Hacı Məmmədhüseyn (II-IV mətnlər); Xatın arxı. *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə, T.Orucov.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məmmədov Zeynal Hümbət oğlu, Ağcabədi rayonunun Təzəkənd kəndi, 1930-cu il təvəllüdlü, orta təhsilli. Söylədiyi mətnlər: Qoydu gözümü açam?; Seyid Məhəmməd ağa (III mətn); Şah Abbas (III mətn); Arxam boşdu, ona görə ağlayıram. *Toplayanlar: İ.Rüstəmzadə, Z.Fərhadov.*

Məmmədov Əhməd Əmirxan oğlu, Ağcabədi rayonunun Sarıcalı kəndi, 1940-cı il təvəllüdlü, orta təhsilli. Söylədiyi mətnlər: Ucubulux peyğəmbər; Seyid Məhəmməd ağa (I-II mətnlər); Hind-arxlı Seyid Məhəmməd ağa; Eşq Abdal (II mətn). *Toplayanlar: İ.Rüstəmzadə, Z.Fərhadov.*

Mirzəyev Calal Camal oğlu, Ağcabədi rayonunun Hacıbədəlli kəndi, 1938-ci il təvəllüdlü, orta təhsilli. Söylədiyi mətnlər: Qurd haqqında (II mətn); Hal (III mətn); Canavar qız; Eşşəyə dönmüş qızlar; Həzrət Əliynən gavur. *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə, T.Orucov.*

Muradov Əşrəf Müseyib oğlu, Ağcabədi rayonunun Şahsevən kəndi, 1934-cü il təvəllüdlü, yeddi illik təhsil. Söylədiyi mətnlər: Cin (I mətn); Köyük kəndi (II mətn). *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə, T.Orucov.*

Musayeva Ətayə Baxşeyiş qızı, Bərdə rayonu, 1963-cü il təvəllüdlü, orta-ixtisas təhsilli. Söylədiyi mətn: Bəxtəvər sizsiniz. *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə, T.Orucov.*

Nəcəfova Samara Həmiz qızı, Ağcabədi rayonunun Afşar kəndi, 1932-ci il təvəllüdlü, təhsilsiz. Söylədiyi mətnlər: **Lətifələr:** Elə bilirəm dava kağızıdı. **Bayatılar:** 1, 2, 3, 4, 5, 6, 7. *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə, T.Orucov.*

Qasımov Camal Məhəmməd oğlu, Ağcabədi rayonunun Təzəkənd kəndi, 1932-ci il təvəllüdlü, orta təhsilli. Söylədiyi mətnlər: Hacı Qara (III-IV mətnlər). *Toplayanlar: İ.Rüstəmzadə, Z.Fərhadov.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qasımov Hümbət Məhəmməd oğlu, Ağcabədi rayonunun Sarıcalı kəndi, 1926-cı il təvəllüdlü, orta-ixtisas təhsilli. Söylədiyi mətnlər: Qaraçuxa (V mətn); Yes xırman (I mətn). *Toplayanlar: İ.Rüstəmzadə, Z.Fərhadov.*

Qasımov Musa İbrahim oğlu, Bərdə rayonunun Seyid Yusifli kəndi, 1940-cı il təvəllüdlü, ali təhsilli zootexnik. Söylədiyi mətnlər: **Mifoloji mətnlər, əfsanə və rəvayətlər:** Dünya daşqını; Buğdanın ərşə çəkilməsi; Qaraçuxa (I mətn); Qurd haqqında (I mətn); Əzrayıl haqqında (I mətn); Şeytan haqqında; Ölməzlik alması; Nuhun ölümü; Süleyman peyğəmbərnən qarışqa (I mətn); Musa peyğəmbərin allahlığı; Fatihə surəsinin savabı; Yerin-göyün ağırlığı (I mətn); Peyğəmbərdən nicat istəyən şir; Ağıl vardan üstündür; Şəddatın cənnət tikdirməsi; Seyid Hüseyn ağa (I, III və IV mətnlər); Seyid Yusif Ağa (I mətn); Həzrət Əli daşı, İsgəndər (II-III mətnlər); Hər sənətkar Dəllək Murad ola bilməz. **Nağıllar:** Hatəmin səxavəti; Məbudnan haramıbaşı (II mətn); Ac qarnı doyuzdurmağın savabı (I-II mətnlər); Altı manatın misalı; Şahın yuxusu; Sağalmaz xəstəliyə tutulmuş adam; Əl aman; Döyülən axmaq. **Lətifələr:** Allah bölgüsü; İnanma; Abdal Qasımın ermənidən toyuq alması; Toyuqdan qorxan Qasım; Mənə dəyməginən. *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə, T.Orucov.*

Qəhrəmanov Şükür Hümbət oğlu, Ağcabədi rayonunun Salmanbəyli kəndi, 1923-cü il təvəllüdlü, ibtidai təhsilli. Söylədiyi mətnlər: Kəbirlilər haqqında xatirələr; Xan Şuşinski. *Toplayanlar: İ.Rüstəmzadə, Z.Fərhadov.*

Qəhrəmanov Xıdır Pənah oğlu, Ağcabədi rayonunun Rəncbərlər kəndi, 1942-ci il təvəllüdlü, orta təhsilli. Söylədiyi mətnlər: Cin (VI mətn); Xeyrül-əməl (II mətn). *Toplayanlar: İ.Rüstəmzadə, Z.Fərhadov.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Quliyeva Raya Baloğlan qızı, Ağcabədi rayonunun Afşar kəndi, 1951-ci il təvəllüdlü, ibtidai təhsilli. **Bayatılar:** 96-107. *Toplayanlar: İ.Rüstəmzadə, Z.Fərhadov.*

Qocayev Əhməd Bahadır oğlu, Bərdə rayonunun Seyid Yusifli kəndi, ali təhsilli. Söylədiyi mətn: Canavarlı kəndi (I mətn). *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə, T.Orucov.*

Rəhimov Fazil Kərim oğlu, Ağcabədi rayonunun Taynaq kəndi, 1930-cu il təvəllüdlü, orta təhsilli. Söylədiyi mətnlər: Seyid Əziz ağa (I-II mətnlər); Eşq Abdal (III mətn); Ələm ağacı. *Toplayanlar: İ.Rüstəmzadə, Z.Fərhadov.*

Səlimov Rasim Xasay oğlu, Ağcabədi rayonunun Rəncbərlər kəndi, 1956-cı il təvəllüdlü, xanəndə. Söylədiyi mətnlər: Şah Abbas (IV mətn); Xeyrül-əməl (III mətn). *Toplayanlar: İ.Rüstəmzadə, Z.Fərhadov.*

Şəmilova Solmaz Möhsün qızı, Bərdə rayonunun Şirvanlı kəndi, 1960-cı il təvəllüdlü, orta-ixtisas təhsilli kitabxanaçı. Söylədiyi mətn: İki qozun nağılı. *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə, T.Orucov.*

Temirova Tamara Aslan qızı, Bərdə rayonunun Dəymədağıldı kəndi, 1932-ci il təvəllüdlü. Söylədiyi mətnlər: **Mifoloji mətnlər, əfsanə və rəvayətlər.** Hal (II mətn); Halallıq; Ölünün dirilməsi. **Nağıllar:** Üç qardaş; Övladını Azreyildən qaçıran ana. *Toplayan: İ.Rüstəmzadə.*

Zakir İsmayıl oğlu, Ağcabədi rayonunun Kəbirli kəndi,1945-ci il təvəllüdlü, ali təhsilli müəllim. Söylədiyi mətnlər: Örənqala; Mil düzü. *Toplayanlar: İ.Rüstəmzadə, Z.Fərhadov*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Zeynalov Ələmşah Zal oğlu, Bərdə rayonunun Şirvanlı kəndi, 1933-cü il təvəllüdlü, orta təhsilli. Vaxtilə kitabxanaçı işləyib. Söylədiyi mətnlər: **Mifoloji mətnlər, əfsanə və rəvayətlər:** Əzrayıl haqqında (II-III mətnlər); Zınqırovlu Əzrayıl; Həvva; Huhun ölümü; Yerin-göyün ağırlığı (III mətn); İsgəndər (IV mətn); Şah Abbas (I mətn); Üzünün nuru gedən adam. **Nağıllar:** Yazıya pozu yoxdu; Quyruğu yox idi. **Lətifələr:** Bekaf Bəhlul; Soğan al, sarımsağ al; Elə bağlamışam, yerə düşməyəcək, ay qayınana. *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə*

Zeynalov Soltan İbrahim oğlu, Ağcabədi rayonunun Hacıbədəlli kəndi, 1936-cı il təvəllüdlü, təhsilsiz. Söylədiyi mətnlər: **Mifoloji mətnlər, əfsanə və rəvayətlər:** Qaraçuxa (II mətn); Qızı udan əjdaha; İsgəndər (V-VI mətnlər); Topal Teymur (I mətn); Şah Abbas (II mətn); Hacı Qara (II mətn); Minəxor kəndi (I mətn); Haramı düzü; Gavur arxı (I mətn); Hacı Məmmədhüseyn (VI-VII mətnlər). **Nağıl:** Ağıllı qız. *Toplayanlar: Ə.Əsgər, İ.Rüstəmzadə, T.Orucov*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## BAŞLIQLAR

### I MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

İnsanın yaranması ........ 10
Dünya daşqını ........ 11
Buğdanın ərşə çəkilməsi ........ 13
Aynan Günəş ........ 13
Məkkə yolu ........ 13
Sağmal və subay ulduzları ........ 14
Quyruq donan ay ........ 14
Qaraçuxa ........ 14
Hal haqqında ........ 17
Cin haqqında ........ 20
Əzrayıl haqqında ........ 23
Zınqırovlu Əzrayıl ........ 27
Şeytan haqqında ........ 27
Qayışbaldır ........ 28
Qurd haqqında ........ 28
Gülnən bülbül ........ 29
Qızı udan əjdaha ........ 29
Canavar qız ........ 30
Eşşəyə dönmüş qızlar ........ 31
Ölməzlik alması ........ 32

**Peyğəmbərlər və dini şəxsiyyətlər haqqında**

Həvva ........ 32
Nuhun ölümü ........ 33
Qoydu gözümü açım ........ 34
Habilnən Qabil ........ 34
Ucubulux peyğəmbər ........ 35
Davud peyğəmbər ........ 35
Süleyman peyğəmbərnən qarışqa ........ 39
Küləkdən qorxan peyğəmbər ........ 40
Qoyun, qarnınız tox, gözünüz ac olsun ........ 40



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Musa peyğəmbərin allahlığı ........................................ 41
Musa peyğəmbərnən çoban ......................................... 42
Fatihə surəsinin savabı ................................................ 42
Yerin-göyün ağırlığı .................................................... 44
Peyğəmbərdən nicat istəyən şir .................................. 47
Atın üzəngisinə çıxan qan ........................................... 50
Ağıl vardan üstündür .................................................. 51
Saili borcdan qurtaran Əli ........................................... 53
Ahunu balasına yetirən Əli .......................................... 55
Həzrət Əliynən Salsal pəhlivan ................................... 55
Həzrət Əliynən gavur .................................................. 56
Şəddatın cənnət tikdirməsi .......................................... 56
**Pirlər və ocaqlar haqqında**
Seyid Hüseyn ağa ........................................................ 58
Seyid Yusif ağa ........................................................... 61
Seyid Məhəmməd ağa .................................................. 66
Hindarxlı Seyid Məhəmməd ağa .................................. 68
Seyid Əziz ağa ............................................................. 69
Həzrət Əli daşı ............................................................. 71
Əli pəncəsi ................................................................... 71
Bərdə imamzadəsi ....................................................... 72
Asxadan baba piri ........................................................ 73
Gəlin qayası ................................................................. 73
Eşq Abdal .................................................................... 74
Ələm ağacı ................................................................... 75
**Tarixi şəxsiyyətlər haqqında**
İsgəndər ....................................................................... 75
Topal Teymur ............................................................. 85
Şah Abbas ..................................................................... 85
Molla Pənah Vaqif ....................................................... 89
**Qarabağın tanınmış adamları haqqında**
Hacı Məmmədhüseyn ................................................... 90
Hacı Qara ..................................................................... 96
Xan Şuşinski ................................................................ 98



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sarı Aşıx ....................................................................100
Aşıq Valeh ..................................................................100
Qaçaq Nəbi ..................................................................102
Qaçaq Qaraş..................................................................102
**Yer adları, tayfa və nəsillər haqqında**
Canavarlı kəndi..............................................................104
Köyük kəndi ..................................................................
Minəxor kəndi ...............................................................104
Haramı düzü ..................................................................105
Gavur arxı.....................................................................105
Xatın arxı......................................................................106
Əjdər güllələnən yer ......................................................106
Axtamar gölü ................................................................107
Qaynaq qazılı................................................................107
Qotur gölü.....................................................................108
Qarı təpəsi.....................................................................108
Yes xırman ...................................................................109
Örənqala .......................................................................110
Mil düzü........................................................................110
Ayran Alı təpəsi.............................................................111
Şpartı.............................................................................112
Rəncbərlər kəndi............................................................112
Sofu qəbirstanlığı ..........................................................113
Şahsevən .......................................................................113
Yaşa Əsəd......................................................................115
**Müxtəlif mövzulu rəvayətlər**
Hər sənətkar Dəllək Murad ola bilməz...........................116
İlanlara qənim kəsilən kişi.............................................116
Üzünün nuru gedən adam...............................................118
Halallıq .........................................................................118
Ölünün dirilməsi............................................................119
İtin etibarı .....................................................................120
Aşığam, vətən sarı .........................................................121
Arxam boşdu, ona görə ağlayıram ..................................122



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mən bayaq güləşdim ..............................................123

**II XATİRƏLƏR**
Kəbirlilər haqqında..................................................124
Afşarlar haqqında ....................................................136
Şahsevənlər haqqında................................................152
Qaradolaqlar haqqında ............................................159

**III TƏRƏKƏMƏ YEMƏKLƏRİ**
Bağır-beyin.............................................................169
Dəri basdırması.......................................................169
Basdırma..................................................................170
Sulux.......................................................................170
Axtarma pendir.......................................................170

**IV TƏRƏKƏMƏ OYUNLARI**
Papax oyunu ...........................................................171
Dəsmal oyunu.........................................................171
Keçipapax oyunu.....................................................171
Çoban oyunu...........................................................172

**V NAĞILLAR**
Quş dili bilən İsgəndər ............................................173
Quru kəllə...............................................................182
Adamyeyən qız.......................................................187
Şah Abbasnan məleykə ...........................................196
Padşah oğlu.............................................................202
Məlik Məhəmməd ...................................................206
Narxatın ..................................................................217
Tısbağa qız..............................................................226
Tacir oğlu................................................................237
Huri qızı..................................................................246
Santır.......................................................................259
Zal oğlu Rüstəm .....................................................267



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qaraçuxasını yatıran şəxs........................................269
Üç qız ......................................................................275
Baxdını gəzənin nağılı...........................................281
Üç qardaş..................................................................282
İki qozun nağılı........................................................283
Həzrət Əliynən qəssab............................................284
Savabın xeyri...........................................................287
Süleyman peyğəmbərin üzüyü ................................293
Bacı həsrəti..............................................................295
Xeyrül-əməl.............................................................297
Hatəmin səxavəti.....................................................300
Məbudnan haramıbaşı .............................................303
Allaha pənah ...........................................................307
Ac qarnı doyuzdurmağın savabı..............................308
Altı manatın misalı..................................................311
Azreyilnən yoldaşlıq edən şəxs ...............................314
Övladını Azreyildən qaçıran ana.............................318
Var-dövləti başqasına qismət olan kişi....................320
Şaha nübar aparan kişi.............................................322
Qismətdən qaçmaq olmaz .......................................327
At quyruğu boyda sünbül ........................................328
Yetim oğlan .............................................................330
Evi arvad tikər .........................................................332
Şaha bel bağlama, arvada etibar etmə ....................338
Keçəl .......................................................................344
Arvadın eləsi də var, beləsi də.................................353
Şahın siğə qardaşı....................................................359
Tacir Bəhlul.............................................................363
Dünyanı necə tutsan, elə də gedər...........................366
Taleyindən narazı oğlan ..........................................370
Yazıya pozu yoxdu...................................................372
Ağıllı qız .................................................................377
Şahın yuxusu ...........................................................378
Çobanın mənasız sözü.............................................382



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ədalətli qazı........................................................383
Ağsaqqal məsləhəti...................................................386
Döyülən axmaq........................................................387
Quyruğu yox idi.......................................................389
Sağalmaz xəstəliyə tutulmuş adam...........................392
Əl aman ...................................................................394
Yaxşılığa yamanlıq ..................................................395

**VI LƏTİFƏLƏR**
**Molla Nəsrəddin haqqında**
Molla və eşşəyi .......................................................398
Molla özünü ölülüyə vurur......................................402
Allah bölgüsü .........................................................403
İnanma ....................................................................404
Heç nə......................................................................405
Doxsan doqquzunu verən, birini də yetirər .............406
**Bəhlul Danəndə haqqında**
Eşşək, sənə deyirəm, qonaq, sən eşit........................408
Bekaf Bəhlul............................................................410
Soğan al, sarımsağ al ...............................................411
Bəhlul olmağın bədəli .............................................412
Bəhlulnan şəyirdi.....................................................412
Bəhlul özünə ev tikir ...............................................413
Ye, iç, ölmə ............................................................413
Bəhlulun bazarkomluğu ..........................................415
Bizim evimiz oradı ..................................................417
Bəhlul atasını buyurur .............................................418
Dənizdən çıxan əl ....................................................418
**Abdal Qasım haqqında**
Çox qohumlu bəxtəvər ............................................419
Abdal Qasımın ermənidən toyuq alması ..................419
Toyuqdan qorxan Qasım .........................................420
**Loğman haqqında**
Özləri öz dərmanını bilirlər.....................................420



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Afşarlar haqqında**
Soruş gör hələ pravası var? ....................................421
Yemişəm aşunu, tökmüşəm yaşumu .......................422
Afşar şəri ..............................................................422
Yeyim, doyum, nə verim? ......................................422
Elə bilirəm dava kağızıdı........................................423
Əşi, yeyirsən dana .................................................423
**Qarabağın baməzə adamları haqqında**
Ağamir dayı ..........................................................424
Soltan bəy .............................................................425
Molla Lətif.............................................................426
Söygülü Canan ......................................................426
Götür baltanı qoy xurcuna, ya Əli ..........................427
Bəynən süd qardaşı olmusan ..................................427
**Müxtəlif mövzulu lətifələr**
Fərasəti vardı, birini də o tutardı .............................428
Otuza durmayan, on ikiyə yaxın durardı? ...............428
Bəxtəvər sizsiniz....................................................429
Elə bağlamışam, yerə düşməyəcək, ay qayınana .....429
Halıma bax, ay Mahmud ........................................430
Altı daş, üsdü aş.....................................................432
İz eşşəyin, fil gəlinin .............................................433
Yaman dərtdi, bacı ................................................434
Mən birini göstərmişdim ........................................435
Mənə dəyməginən .................................................436
Dızz.......................................................................437
Hələ gedib nənəsini də öyrədib ...............................438
Allah qoysa ərindi .................................................439
Səni alanı da gördüm, pulumu yeyəni də ...............439
Sənin quyruğun elə həmişə göydədi........................441
Hamınızı söz verə-verə gəmiyə komalamışam ........441
Atın züy tutanı .......................................................441
Ayaq üsdə getmişdim .............................................442



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**VII ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR........................443**

**VIII BAYATILAR........................................................447**

**IX MÜXTƏLİF ŞEİRLƏR**

Afşarın ....................................................................456
Tapşırın məni............................................................457
Vaxdıdı ....................................................................458
Qalmır......................................................................459
Ya Əli ......................................................................459
Yatıbdı ....................................................................460
Tanımır məni ............................................................461
Çağımdı ...................................................................462
Başa-baş...................................................................462
Çirkin.......................................................................463
Arvadın əlinnən ........................................................464
Bizim arvad ..............................................................466



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Qarabağ: folklor da bir tarixdir, II kitab**
**(Bərdə və Ağcabədi rayonlarından**
**toplanmış folklor örnəkləri)**.
Bakı, "Elm və təhsil", 2012.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**Səbinə İsayeva**

Kompyuterdə yığdı:
**Tünzalə Məmmədova**

Korrektor:
**Könül Əliyeva**

Kompyuter tərtibçisi
və texniki redaktoru:
**Ruhəngiz Əlihüseynova**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 484 ç/v
Tirajı: 400

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompyuter Mərkəzində yığılmış, "Elm və təhsil" NPM-də
ofset üsulu ilə çap olunmuşdur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com